NİZAMİ XUDİYEV

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

VII CİLD

NİZAMİ XUDİYEV SEÇİLMİŞ ƏSƏRLƏRİ
VII

ELM və TƏHSİL

Nizami Xudiyev

# XALQ VƏ DÖVLƏT NAMİNƏ

## YAP

DÜNƏNİN,
BU GÜNÜN,
SABAHIN PARTİYASIDIR

SEÇİLMİŞ ƏSƏRLƏRİ

VII cild

«Elm və təhsil»
Bakı – 2014

# XALQ VƏ DÖVLƏT NAMİNƏ

XI 7(04)

Elmi redaktoru: **Faiq Şahbazlı**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**N.M.Xudiyev**
**Xalq və dövlət naminə.**
**Bakı, «Elm və təhsil», 2014.**

*Kitab müasir dünyanın görkəmli dövlət xadimi və siyasətçisi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyev və onun siyasi xəttinin layiqli davamçısı, qısa müddətdə beynəlxalq aləmdə böyük nüfuz qazanmış gənc siyasi lider İlham Əliyev haqqındadır. Müəllif hər iki siyasi xadimin portret cizgilərini yaratmış, onların həyat və fəaliyyətinin əsas məqamları, eləcə də xalqımız uçun gördükləri faydalı işlərdən bədii-publisistik üslubda söhbət açmışdır.*

*Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitabdan tarixçilər, gənc siyasətçilər və tələbələr də faydalana bilərlər.*

$\frac{4702000000}{N098-2014}$ ***qrifli nəşr***

**© "Azərbaycan" nəşriyyatı, 2004**
**© «Elm və təhsil», 2014**

*Ümummilli liderimiz, unudulmaz prezidentimiz Heydər Əliyevin əziz xatirəsinə…*

## OXUCULARA

Kitabda Azərbaycan xalqının müstəqillik arzuları, istiqlal məfkurəmizin gerçəkləşməsi və mürəkkəb beynəlxalq şəraitdə bu istiqlalın möhkəmləndirilməsi məsələləri əks etdirilmişdir. Təbii ki, xalqımızın əsrlər boyu can atdığı bu müstəqilliyin memarı, XX əsr Azərbaycan tarixinin ən görkəmli siması, dünyaşöhrətli dövlət xadimi, prezident Heydər Əliyevdir. «Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir» sözlərini şüardan işə çevirən, kövrək müstəqilliyimizi bizə diş qıcıyan amansız düşmənlərin hücumlarından məharətlə qoruyan, dünya birliyində ölkəmizin mövqeyini getdikcə möhkəmləndirən, planetin aparıcı dövlətlərini Azərbaycanla əməkdaşlığa cəlb edən müdrik rəhbərimiz haqqında nə qədər yazılsa belə, onun çoxşaxəli fəaliyyətini dolğun əks etdirmək çox çətindir. Mən bu siyasət nəhənginin parlaq fəaliyyəti haqqında onlarca məqalə, çoxlu sayda ssenari, onun bənzərsiz natiqlik məharəti haqqında xüsusi kitab yazmışam. Amma bununla belə, həyatı bütün nəsillərə

nümunə olan bu böyük şəxsiyyət barəsində yenə də söz deməyə bir mənəvi ehtiyac duyuram. Çünki biz bütün həyatını xalqımızın tərəqqisinə sərf etmiş Heydər Əliyev dühası haqqında bugünkü və gələcək nəslə bütün həqiqətləri deməliyik.

Biz deməliyik ki, məhz Heydər Əliyevin böyük tarixi xidmətləri sayəsində Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanmış, inkişaf etdirilmiş, dönməz, əbədi bir səciyyə kəsb etmişdir. Məhz Heydər Əliyev kimi qüdrətli bir siyasətçinin əzmi və iradəsi ilə Azərbaycan dövləti, xüsusən 1993-cü ilin ağır hadisələrindən keçib gələrək, parçalanıb məhv olmaq təhlükəsindən uzaqlaşa bilmişdir. Məhz Heydər Əliyevin məqsədyönlü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatı dirçəlmiş, ölkənin sənayesi və kənd təsərrüfatı inkişaf dövrünə qədəm qoymuşdur. 1994-cü ildə bağlanmış «Əsrin müqaviləsi», İpək yolunun bərpası, Transxəzər və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlanması, xarici sərmayədarların, dünyanın nüfuzlu şirkətlərinin Azərbaycana marağının artırılması yalnız Heydər Əliyev iqtidarı dövründə yaradılmış ictimai-siyasi sabitlik hesabına mümkün olmuşdur. Təbii ki, belə ağır tarixi şəraitdə Azərbaycan kimi mürəkkəb geosiyasi mühitdə yaşayan bir ölkəni idarə etmək üçün Heydər Əliyevdən başqa bir kimsənin gücü, bacarığı və qüdrəti çatmazdı. Məhz buna görə də Heydər Əliyev xalqın ürəyində, düşüncəsində əbədi lider və bir xilaskar kimi yaşayır.

Heydər Əliyevin siyasi xətti bu gün də qorunur və ölkə rəhbərinin varisi, müasir dünyanın ən gənc prezidentlərindən biri olan İlham Əliyev tərəfindən davam etdirilir. 2003-cü ilin prezident seçkisi də onu göstərdi ki, indiki vəziyyətdə Azərbaycanı idarə edən və sabitliyi qoruyub

saxlaya biləcək yeganə güclü siyasi xadim İlham Əliyevdir. İlham Əliyevi Azərbaycanda və onun hüdudlarından kənarda çox yaxşı tanıyırlar. Onun ölkəmizdə neft siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində, olimpiya hərəkatının genişləndirilməsində əvəzsiz xidmətləri vardır.

Etiraf etməliyik ki, İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra Azərbaycanda idmanın inkişafı görünməmiş səviyyəyə çatmışdır. Onun gördüyü tədbirlər nəticəsində Azərbaycan gənclərinin, milli idmançılar ordusunun böyük potensial imkanları üzə çıxmış, dünya miqyasında özünü təsdiq etmişdir. Və onların sayəsində Azərbaycanın üçrəngli bayrağı dünyanın ən məşhur idman meydanlarında dalğalanmışdır.

Təhsili, tərbiyəsi, həyat yolu və bütün bunların nəticəsində toplamış olduğu zəngin təcrübə, eyni zamanda xarakterinə xas olan cəhətlər – ağıl, təmkin, səbr, uzaqgörənlik, hadisələri təhlil etmək bacarığı, bütün bunlarla bərabər xeyirxahlığı İlham Əliyevin fəaliyyətində özünü qabarıq göstərir. Əgər belə demək mümkündürsə, Heydər Əliyev zülmətləri əridən Günəş, İlham Əliyev həmin günəşdən süzülən nurdur.

İlham Əliyev qısa müddətdə siyasətdə uğurlu addım ataraq öz diplomatik və intellektual bacarığını nümayiş etdirib və bu sahədə uğurlar qazanıb. Məhz onun başçılığı altında ölkəmiz Avropa Şurası Parlament Assambleyasında tanınıb. Bu beynəlxalq qurumun müxtəlif strukturlarında işgüzarlığı, səriştəli fəaliyyəti ilə seçilib. Heç də təsadüfi deyildir ki, İlham Əliyev qazandığı çox böyük nüfuza görə Avropa Şurası Parlament Assambleyasında sədr müavini və büro üzvü seçilib.

İlham Əliyevin respublikaya prezident seçilməsi bütün dünyada razılıqla qarşılandı. Dünya ölkələrindən onun ünvanına göndərilən təbrik teleqramları, orada ifadə olunan və həqiqətə söykənən hərarətli sözlər bunu bir daha sübut etdi.

Heydər Əliyev və onun məktəbinin layiqli yetirməsi, Azərbaycanın ümidi, xalqımızı sabaha inamla aparacaq gənc lider İlham Əliyev barədə yazıların, o cümlədən ədəbi ssenarilərin bu kitaba daxil edilməsi rəmzi məna daşıyır. Məhz bu yazılarda həqiqi varisliyin anatomiyasını, xalqımızın İlham Əliyev kimi perspektivli bir liderə geniş dəstək verməsini və ona olan ümumxalq məhəbbətinin köklərini əks etdirməyə çalışmışam.

***Müəllif***

# MÜDRİKLİK ZİRVƏSİ

Bəşəriyyət tarixinin, bütöv sivilizasiya yolunun ən uca məqamları, ən parlaq çıraqları, əbədi yanar məşəlləridir müdriklik zirvələri. Min illər, yüz illər boyu insanlıq o əbədi məşəllərin işığına üz tutub, o enməz zirvələrin göstərdiyi yollarla irəliləyib. İnsanın ən ali keyfiyyəti, şəxsiyyətin əsas ölçü vahidi, mənəvi dəyər etalonu olan müdriklik haqqında düşünəndə, adətən, qədim dünyanın dahi mütəfəkkiri Esxilin tarixi deyimini xatırlayıram: «Müdriklik çox şey bilmək deyil, lazım olanı bilməkdir». Etiraf edim ki, bu dərin mənalı, dahiyanə deyim hər dəfə Heydər Əliyev şəxsiyyətinin ucalığını, onun həqiqi müdriklik zirvəsini yadıma salır.

Heydər Əliyev öz xalqına – doğma Azərbaycan xalqına lazım olanları bütünlüklə bilən və bu bildiklərini on illər boyu fenomenal fədakarlıqla həyata keçirən, buna qadir olan, qüdrəti çatan dahidir. Onun müdrikliyi haqqında düşünəndə türk dünyasının əbədi fikir zirvələri «Kitabi-Dədə Qorqud», «Qutadqu bilik», Şərqin «Qabusnamə»ləri, «Siyasətnamə»ləri xatırlanır. Ensiklopedik zəka, intellekt, fenomenal ağıl, mənəvi güc, qüdrət sahibi olan Heydər Əliyev sözün həqiqi, böyük mənasında zəmanəmizin müdriklər müdrikidir.

80 illik yubileyini bütün xalqımızın, bütün türk dünyasının, ayrı-ayrı ölkələrin hörmət və ehtiramla, sevgi və sayğı ilə bayram etdiyi dahi dövlət xadimi Heydər Əliyev cəsarətlə deyə bilərəm ki, Azərbaycana tanrı töhfəsidir. Bu baxımdan onu ötən 100 illikdə türk dünyasının Mustafa Kamal Atatürk zirvəsi ilə müqayisə etmək olar. Atatürk ötən əsrin əvvəllərində Türkiyəni qlobal məhvolmadan

necə xilas etmişdisə, Heydər Əliyev də Azərbaycanı ən gərgin məqamda eləcə xilas etdi. Onlar son yüz ildə – iyirminci əsrdə türk dünyasının iki dahi rəhbəri, iki dahi xilaskarıdırlar. Onlar türk tarixinin həqiqi müdriklik zirvəsidirlər.

*  *  *

İndi Heydər Əliyevin böyük siyasətçi, dahi dövlət xadimi olmasını nəinki doğma Azərbaycanda, Qafqazda, nəinki postsovet məkanında, nəinki Avroasiyada, ümumiyyətlə, bütün dünyada təsdiq və etiraf edir, sözün yüksək mənasında dəyərləndirir, alqışlayır, ibrətamiz tarixi gerçəklik kimi elmi-nəzəri təhlillərə, analitik politoloji araşdırmalara cəlb edirlər. Rusiyanın «Martin» nəşriyyatının çap etdiyi «XX əsrin 100 görkəmli dövlət xadimi» biblioqrafik məlumat kitabında oxuyuruq: «Güney Qafqazın lideri kimi Heydər Əliyev geosiyasi proseslərdə həlledici sözə malikdir. O, öz ölkəsi üçün çox böyük işlər görüb». Bu, ciddi analitik təfəkkür sahiblərinin mövqeyi, elmi-praktik qənaətidir. Əsası odur ki, belə mövqe, qənaət təkcə «XX əsrin 100 görkəmli dövlət xadimi» kitabının müəlliflərinə aid deyil, dünyanın əsas, aparıcı siyasət, politologiya mərkəzlərinin yekdil mövqeyi, ümumi qənaətidir. Dünya on illərdir ki, Heydər Əliyevin siyasət, diplomatiya məktəbini öyrənir, siyasətin, diplomatiyanın Heydər Əliyev zirvələrini dərk etməyə can atır. Azərbaycanın xilaskar rəhbərinin, müdrik prezidentinin fenomenal fəaliyyətini, qeyri-adi siyasi uzunömürlülüyünü öyrənməyə, təhlil və dərk etməyə can atan onlarla, yüzlərlə kitabın, monoqrafik tədqiqatın əsas qayəsi, leytmotivi, deyərdim ki, heyrətdir; insanın tükənməz

gücünə, qüdrətinə, öz xalqına, Azərbaycana sonsuz sevgisinə heyrət; insanın fövqəlinsani zirvə həqiqətlərinə, fenomenal imkanlarına, qeyri-adi potensial gücünə, qüdrətinə, bütöv tarix miqyasında, bütöv sivilizasiya müstəvisində görünən gerçək ucalığın müdriklik zirvəsinə heyrət! Onu haqlı olaraq tarixin Atatürk, Bismark, Xətai zirvəsi ilə müqayisə edirlər. Onu haqlı olaraq XX və XXI əsrlərin siyasət müəllimi, müdriklər müdriki adlandırırlar. Bu məqamda Almaniyanın Azərbaycandakı səfiri Klaus Qrevlixin sözlərini məmnuniyyətlə xatırlatmaq istərdim: «Azərbaycan kimi ölkədə işləmək əla imkandır. Ölkə dövlət quruculuğu prosesinin son etapına qədəm qoyub və onun iqtisadi siyasətinin istiqamətləri, insan hüquqları məsələsində mövqeyi haqda artıq nəticə çıxarmaq olar. Azərbaycanda diplomatik fəaliyyət ölkə rəhbəri Heydər Əliyevin diplomatik fəaliyyətini izləmək baxımından unikal imkanlar yaradır. Mən Heydər Əliyevin diplomatiyasını Otto fon Bismarkın tarazlaşdırma siyasəti ilə müqayisə edərdim. Prezident Azərbaycanın Avroatlantikaya inteqrasiyasını nəzərdə tutan dəqiq və aydın siyasət yeridir. Onun Türkiyə, Rusiya ilə gözəl münasibətləri var. İranla münaqişəli vəziyyətlərə yol verilmir. Orta Asiya ölkələri ilə yaxşı təmas var».[1]

Alman diplomatının bu sözləri hər bir azərbaycanlı qəlbini fərəh hissi ilə doldurur və mən cəsarətlə, tam səmimiyyətlə demək istərdim ki, müasir dünyanın dövlət rəhbərləri, siyasət liderləri arasında özünəməxsus üstünlükləri, fenomenal fəaliyyəti, dahiyanə müdriklik zirvəsi ilə seçilən Heydər Əliyev çağdaş milli-mənəvi gerçəkliyimizin, azad, müstəqil Azərbaycan Respublika-

[1] «Azərbaycan» qəzeti, 8 fevral 2003-cü il.

sının ən böyük sərvətidir. 80 illik yubileyini bütün tərəqqipərvər dünyanın layiqincə qeyd etdiyi möhtərəm prezidentimiz Heydər Əliyev 1969-cu ilin yayından başlayaraq, Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın tərəqqisinə, inkişafına can atıb və buna sözün həqiqi mənasında nail olub. O, ardıcıl, bütöv sistem təşkil edən tarixi yubiley tədbirləri, ümumxalq toplantıları, qlobal miqyaslı maddi və mənəvi səfərbərlik, quruculuq işləri ilə Azərbaycanın yaxın-uzaq imperiya maraqları ilə itirilən tarixi yaddaşını, dövlətçilik və mədəniyyət, qılınc və qələm yaddaşını oyatdı, səfərbər edərək yeni dövrün yeni uğurlu yollarına istiqamətləndirdi; o, demək olar ki, bu fundamental azərbaycançılıq fəaliyyəti ilə Azərbaycanı Azərbaycana qaytardı. Heydər Əliyevin tariximizdəki yeri, mövqeyi məhz belə qlobal elmi-analitik təhlil, yanaşma tərzi tələb edir. Yalnız belə qlobal yanaşma tərzi ilə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev müdrikliyinin tam miqyasını görmək və göstərmək olar.

Mən Azərbaycan ədəbi dil tarixi üzrə mütəxəssis olduğum üçün, adətən, Heydər Əliyevin dahiyanə fəaliyyətindən bəhs edən çoxsaylı məqalələrimdə, monoqrafik tədqiqat əsərlərimdə həmin sahə ilə bağlı elmi-nəzəri, ədəbi-publisistik düşüncələrimə geniş yer verirəm. Azərbaycan prezidenti Heydər Əliyevin Azərbaycan dilinə olan və on illər boyu davam edən diqqət və qayğısı, yaradıcı münasibəti həqiqətən çox böyük, çox geniş miqyaslı elmi-tədqiqat mövzusudur. Bu mövzuda ciddi doktorluq dissertasiyaları işlənməli, fundamental monoqrafik tədqiqat əsərləri yazılmalıdır. Müdrik prezidentimiz türk dünyası yazarlarının III qurultayında demişdir: «Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz

həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik. Burada mən Azərbaycan yazıçılarının, dilçilərinin, ədəbiyyatşünaslarının xidmətlərini xüsusi qeyd edirəm. Çünki hər bir respublikada proseslər cürbəcür gedibdir».

Bizim respublikamızda – Azərbaycanda təxminən ötən əsrin 30-cu, 40-cı, 50-ci illərində, hətta 60-cı illərə qədər Azərbaycan dili hakim bir dil deyildi. Ona görə də Azərbaycan dilinin inkişaf etməsi, zənginləşməsi üçün dövlət tərəfindən lazımi işlər görülmüşdür. Ancaq bunların hamısına baxmayaraq, bizim yazıçılarımız, şairlərimiz, ədəbiyyatşünaslarımız, dilçi alimlərimiz öz işlərini görüblər və məlumdur ki, 70-ci illərdə onlar Azərbaycan Respublikasının dövlət dəstəyini də alıblar və bütün bunların nəticəsində dövlət müstəqilliyimizi əldə edən zaman, müstəqil dövlət kimi dünya birliyinə daxil olarkən Azərbaycan dövlət dili ilə fəxr edə bilərik».[1]

* * *

Naxçıvandan, Əlirza kişinin ailəsindən başlayan tale yolları ağır sınaqlardan, çox çətinliklərdən keçdi, lakin heç vaxt qırılmadı, yorulub yadırğamadı. Daim öz doğma xalqından, milli-mənəvi köklərdən güc alan tale yolları onu Azərbaycan uğrunda, Azərbaycançılıq naminə mübarizənin ön cəbhəsinə çıxardı. Yadların, yabançıların, xüsusilə, maskalanmış erməni faşistlərinin əlində Azərbaycan xalqına qarşı cəza maşınına dönən NKVD-KQB kabusunun zərərsizləşdirilməsi, saf azərbaycanlı milli kadrlarla yenidən komplektləşdirilməsi kimi şərəfli, qlobal

---

[1] «Azərbaycan» qəzeti, 7 noyabr 1996-cı il.

bir vəzifə onun qüdrətilə həyata keçirildi. Qədim mənbələrdə baqavan, baquan – Allahlar şəhəri adlandırılan qədim Bakını – Azərbaycanın paytaxtını uzaqgörən sosial, demoqrafik siyasət nəticəsində erməni, yəhudi, rus məngənəsindən xilas edən, rayonlardan gələn istedadlı gənclər, saf milli qüvvələr hesabına Azərbaycanlılaşdıran, geniş miqyaslı elmi bərpa və restavrasiya nəticəsində yenidən quran, gərgin, məqsədyönlü, titanik əmək sayəsində, sözün həqiqi mənasında yaşıllıqlar şəhərinə, yüksək elm və sənət, əsl mədəniyyət mərkəzinə çevirən odur. Azərbaycan dilinə hüdudsuz sevgisi, doğma övlad məhəbbəti ilə dünyada yaşayan 50 milyonluq bütün azərbaycanlılara nümunə olan, dilinin, nitqinin misilsiz qüdrətinə, səfərbəredici qüvvəsinə arxalanaraq, xalqının tarixi yaddaşını, milli potensial imkanlarını oyadan, bu günə və sabahlara istiqamətləndirən odur. O Heydər Əliyevdir – Azərbaycanı Azərbaycana qaytaran dahi!

Bu məqamda Azərbaycan prezidenti Heydər Əliyevin TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri daimi şurasının XIX toplantısının iştirakçılarını qəbul edərkən türk dilləri, eləcə də Azərbaycan dili haqqında dediyi müdrik sözləri düşünürəm: «…Milləti yaşatmaq və millətin indiyə qədər olduğu kimi əzilməsi imkanlarının qarşısını gələcəkdə almaq üçün dilimizi qorumalıyıq. İndi türkdilli millətlərin dillərində bir qədər fərq var. Amma bu dillərin kökü birdir. Mən belə düşünmürəm ki, biz gərək dilimizi tatar dilinə oxşadaq. Yaxud da ki, qırğızlar dillərini bizim dilə oxşatsınlar. Yox. Əsrlər boyu dillərimiz belə yaranıbdır. Amma, eyni zamanda dilin işlənməsi mümkün olmadığına görə, bizim dillərimiz lazımi qədər inkişaf edə bilməyibdir. Ona görə də mən Azərbaycan dili haqqında fərman verdim. Azərbaycanda

latın əlifbasına keçmək barədə fərman verdim və onun yerinə yetirilməsini təmin etdim. Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda, onu heç nə dəyişdirə bilməz.

Allaha şükürlər olsun, bizim Azərbaycan dili çox mükəmməlləşib, çox genişlənibdir. Dilimizin çox böyük lüğət ehtiyatı var. Bizim Azərbaycan dili şeir dilidir. Yadımdadır, mən bir-iki dəfə ya burada, ya da Türkiyədə toplantılarda nitq söyləyəndən sonra dostum Süleyman Dəmirəl mənə deyirdi ki, sən şeir oxudun. Deyirdim ki, yox, mən nitq söylədim. O deyirdi ki, bilirəm, amma Azərbaycan dili o qədər şeir dilidir ki, bəzən fərqinə varmaq olmur ki, nitq söyləyirsən, yaxud şeir deyirsən.

Eləcə də Anadolu türk dili. Anadolu türk dili də vaxtilə çox əzablar çəkibdir. Osmanlı imperatorluğunda, sarayda fars dili, ərəb dili işlənirdi. Türkiyədə türk dilinin inkişaf etdirilməsi böyük Atatürkün adı ilə bağlıdır. Bugünkü türk dilinin yaranması böyük Atatürkün xidmətləridir. Bilmirəm, siz bunu demisiniz, yoxsa yox, mən Azərbaycanda Atatürk Mərkəzi yaratmışam. Çünki Atatürk təkcə Anadolu türklərinin deyil, o bizim hamımızındır. Mən Anadolu türk dilinin nə qədər ağır vəziyyətdə olduğunu bilirdim. Əgər Atatürk dil haqqında qərarlar qəbul etməsəydi, bu gün belə gözəl Anadolu türkcəsi olmazdı. Ona görə də dil, dil, bir də dil… Dili inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı

olmursan. Elədir, yoxsa yox? Mən bunu sizə ona görə deyirəm ki, dili inkişaf etdirmək TÜRKSOY-un əsas vəzifələrindən biridir. Dilimizi bir-birinə bağlamaq, yaxud da ki, bənzətmək lazım deyildir».[1]

Bunlar ümumtürk miqyasında düşünən, türk dünyasının keçmişi, bu günü və perspektiv gələcəyi miqyasında Azərbaycan dilinin, bütövlükdə türk dilləri ailəsinin saflaşdırıcı, birləşdirici, bütövləşdirici vəzifəsini, milli-mənəvi xilaskarlıq missiyasını müəyyənləşdirən dahi dövlət xadiminin sözləridir. Azərbaycan ədəbi dil tarixi mütəxəssisi, dilçi-türkoloq kimi bu müdrik fikirlər məni heyran edir, sözün böyük mənasında heyrətləndirir, düşündürür və inanıram ki, başqa dilçiləri də yeni-yeni tədqiqatlara, elmi-nəzəri analitik təhlillərə ruhlandırır.

Bəli, dünya miqyaslı siyasətçi, böyük dövlət xadimi Heydər Əliyev, bütün sahələrdə olduğu kimi, Azərbaycan, bütövlükdə türk dilləri, türkologiya sahəsində də bizə, dilçi alimlərə yolların ən düzgününü, ən xeyirlisini, milli, etnogenetik perspektivlər baxımından ən gərəklisini göstərir. Belə müdriklik zirvəsi, ensiklopedik zəka tarixdə az-az dövlət başçılarına nəsib olub. Buna görə tam cəsarətlə deyə bilərəm ki, Azərbaycan prezidenti Heydər Əliyev bəşər tarixinin, dünya siyasət, hakimiyyət və dövlətçilik zirvələrinin ən fenomenal, ən qüdrətli nümayəndələrindən, özü də məhz seçilmiş nümayəndələrindən biridir. Ötən əsrin son, yeni əsrin ilk qərinəsində məhz belə bir dahi şəxsiyyətin, müdrik dövlət xadiminin Azərbaycana rəhbərlik etməsi tanrı qisməti, tale töhfəsidir. Bu, xalqımızın, azad, müstəqil Azərbaycanın xoşbəxtliyidir.

* * *

[1] «Respublika» qəzeti, 8 fevral 2003-cü il.

Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində gərgin, ardıcıl və məqsədyönlü iş gedir. Həmişə silah, terror, qan-qada dili ilə danışan, Azərbaycan xalqına qarşı amansız soyqırım, genosid siyasəti həyata keçirən, tarixdə az-az analoqu ola biləcək Xocalı qırğını törədən erməni faşizminə on il əvvələdək əksər aparıcı dövlətlərin dolayısı ilə dəstək verməsi hamımızın yadındadır. Artıq Heydər Əliyevin taktiki, strateji gedişlərinin nəticəsidir ki, Ermənistana, qondarma DQR-ə beynəlxalq münasibət dəyişməkdədir. Onların «məzlumluq» maskası getdikcə daha çox yırtılır, əsl həqiqət, kimin kim olması üzə çıxır. Təsadüfi deyil ki, bir qədər əvvəl ABŞ Dövlət Departamenti Dağlıq Qarabağı təhlükəli zona elan etmiş, hətta Ermənistandan ABŞ-a gələn şəxslərin ciddi yoxlanılması haqqında xüsusi pasport-qeydiyyat rejimi tətbiq ediləcəyini vurğulamışdır. Bu yaxınlarda isə Böyük Britaniya Xarici İşlər Nazirliyi tərəfindən qondarma DQR terror yuvası elan edildi. Artıq birmənalı şəkildə bildirilir ki, üzdəniraq DQR dünyanın 26 ən təhlükəli terror ocağından biridir; hətta Böyük Britaniya Xarici İşlər Nazirliyi öz vətəndaşlarına müraciət edərək, Dağlıq Qarabağa getməməyi, bu bölgə ilə bütün işgüzar əlaqələri kəsməyi tövsiyə edib. Dağlıq Qarabağda meydan sulayan erməni terrorçu rejiminə belə beynəlxalq münasibətin miqyası getdikcə genişlənir, erməni separatçılarının arxalandığı dayaqlar bir-bir zərərsizləşdirilir, Qərb dünyasının əsl həqiqəti etiraf etməsinə nail olunur. Və şübhəsiz ki, bütün bunlar Heydər Əliyev siyasətinin, onun titanik, fədakar fəaliyyətinin nəticəsi, məntiqi yekunudur. Bəli, Heydər Əliyevin atəşkəs siyasətilə addım-addım qalib gəldiyi artıq həqiqətdir.

Atəşkəsin verdiyi imkandan bacarıqla istifadə edən gənc Azərbaycan dövləti özündə güc, qüvvə tapıb ayağa qalxdı, iqtisadi, hərbi, sosial-siyasi sahələrdə faciəli, böhranlı vəziyyətin, təhlükəli enişin, uçurumun qarşısı alındı. Ölkədə tüğyan edən anarxiyaya, özbaşınalığa, reketçiliyə və banditizmə, bəzən vətəndaş müharibəsi həddinə qədər gərilən mafioz qarşıdurmalara son qoyuldu.

Heydər Əliyevin qüdrətli, qətiyyətli hakimiyyət ustalığı ilə respublikamızda tüğyan edən sosial-siyasi «xəstəliklərin» kökü kəsildi, xalqın adından danışan siyasət dəllallarının, vəzifə, kreslo düşkünlərinin – İsa Qəmbərovların, Etibar Məmmədovların, Rəhim Qazıyevlərin, Əlikram Hümbətovların, Rəsul Quliyevlərin axını mərhələ-mərhələ susduruldu. Xalqdan zorla alınmış, daha doğrusu, min bir fırıldaqla oğurlanmış mandat yenidən xalqa qaytarıldı. Azərbaycan bütün sahələrdə uğurlu dirçəliş, inkişaf yoluna qədəm qoydu. 1993-cü ilin 15 iyunundan – Qurtuluş günündən başlayan əsl müstəqillik, azadlıq, milli dövlətçilik yolumuzun uğurlarını hamı – dostlarımız da, düşmənlərimiz də etiraf edir. Bunlar ən yeni tariximizin Heydər Əliyev uğurlarıdır.

Azərbaycan Respublikasının beynəlxalq siyasi, diplomatik uğurlarından birini xüsusi olaraq vurğulamaq istəyirəm. Bu, gənc Azərbaycan dövlətinin Avropa Şurasına tam hüquqlu üzv kimi daxil olması, həmin nüfuzlu beynəlxalq təşkilatda çox qısa bir zamanda özünü doğruldaraq təsdiq etməsi, xüsusilə, Azərbaycan nümayəndə heyətinin başçısı, millət vəkili, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyevin AŞPA sədrinin müavini və büro üzvü seçilməsidir. Dünyanın ən məşhur siyasətçilərinin, diplomatlarının, görkəmli dövlət adamları-

nın təsdiq etdiyi, qiymətləndirdiyi, perspektivli lider kimi dəyərləndirdiyi İlham Əliyev yüksək intellekt və istedadı, realist siyasi-diplomatik fəaliyyəti, Azərbaycan xalqı naminə misilsiz, titanik əməyi sayəsində belə bir beynəlxalq təşkilatın rəhbərliyinə seçildi və bu, onun halal haqqıdır. Bu qədim tarixli dövlətimizin, bütün xalqımızın, 50 milyonluq bütün Azərbaycanın qələbəsidir.

* * *

Dil xalqın ən böyük sərvəti, milli-mənəvi varlığın əsas qoruyucusu, xilaskarıdır. Dilin işlənmə miqyası ümumxalq hərəkatının ən dəqiq göstəricisi, ən doğru, düzgün aynasıdır. Heydər Əliyev 1969-cu ilin yayında Azərbaycanda hakimiyyətə gələndə respublikada rusdillilik kütləvi hal almışdı. Ədəbiyyatda, sənətdə açıq-aşkar təbliğ olunan formaca milli, məzmunca sosialist metodologiya, sosializm realizminin məhz bu istiqamətdə təqdim və tətbiqi, bütöv imperiya məqsədlərinə qulluq edən sovet ideologiyası assimilyasiya proseslərini gücləndirir, dərinləşdirir, milli perspektivlər baxımından acınacaqlı, fəlakətli bir mənzərə yaradırdı. Məhz belə bir zamanda respublikanın hakimiyyət sükanı arxasına keçən Heydər Əliyev tarixdə misli görünməyən böyük cəsarət, siyasi müdriklik, uzaqgörənlik nümunəsi göstərdi. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin – N.X.) 50 illiyinə həsr olunan təntənəli toplantıda öz milli dilində çıxış edən yeni rəhbər hamını, xüsusilə, Moskvadan və xaricdən gələn nüfuzlu qonaqları heyrətləndirdi. Məsələ burasındadır ki, həmin yubiley iclası beynəlxalq xarakterli idi; iclasın işində Sov.İKP.MK-nın, SSRİ Ali və Orta txtisas Təhsili Nazirliyinin rəhbər işçiləri, bütün müttəfiq respublika-

lardan, sosialist ölkələrindən, yaxın və uzaq xaricdən gəlmiş nümayəndələr iştirak edirdilər. Bəli, belə bir geniş miqyaslı yubiley toplantısında Heydər Əliyev öz doğma dilində – Azərbaycan dilində nitq söylədi, əslində, Azərbaycanın, Azərbaycan dilinin varlığını bütün dünyaya bəyan etdi, car çəkdi. Yadımdadır ki, Heydər Əliyev bu hadisəni 25 il sonra artıq müstəqil Azərbaycan Respublikasının prezidenti kimi həmin universitetin 75 illiyinə həsr olunan təntənəli yubiley toplantısında yenidən yada saldı: «Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə – Azərbaycan dilində danışdım. Bu, böyük sensasiya kimi qəbul olundu – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər, minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu, mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir».[1]

O vaxt Heydər Əliyev cəmi dörd ay olardı ki, hakimiyyətə gəlmişdi. Azərbaycan KP MK-nın birinci katibi idi və beynəlxalq statuslu yubiley məclisində milli dildə çıxış etməklə, əslində, öz strateji platformasını, prinsipial fəaliyyət istiqamətini bəyan edirdi. Təsadüfi deyil ki, məhz bu hadisə respublikamızda, ittifaqda və onun hüdudlarından kənarda ciddi əks-səda doğurdu. Kremlin kabinet və dəhlizlərində mübahisə və müzakirələrə səbəb oldu. Bəli, həmin tarixi hadisə Azərbaycan

---

[1] «Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili». Bakı, «Elm» nəşriyyatı, 1998, səh. 11-12.

rəhbərliyinə prinsipial, öz xalqına sədaqətli, uzaqgörən, müdrik bir şəxsiyyətin, çoxdan gözlənilən milli bir liderin gəldiyindən xəbər verirdi.

Müdriklik və qətiyyət, intellekt və istedad, millilik və dünyəvilik, fədakarlıq və sədaqət… bütün bunlar prezident Heydər Əliyevin portret cizgilərində əsas yer tutur. O, bütün fəaliyyətini xalqın dünəni, bu günü, sabahı bütövlüyündə ölçüb-biçir, buna görə ən düzgün, ən real, ən perspektivli qərarlar qəbul edir. Bu məqamda Heydər Əliyevin Azərbaycan yazıçılarının X qurultayında latın əlifbasına keçidlə bağlı dediyi sözləri xatırlayıram: «XIX əsrin ortalarında Mirzə Fətəli Axundov Azərbaycanda latın əlifbasını tətbiq etməyə çalışıbdır. Onun bu barədə fəaliyyəti məlumdur. Mən onun bir neçə məktubuna baxdım. Arxivdəki məktublarının bəziləri ilə tanış oldum. Bunu keçmişdə də bilirdim, amma bu son zamanlar mən onu xatırladım. Hafizəmdə bir daha təzələdim. O, nə qədər uzaqgörən insan imiş. Çünki latın əlifbasını tətbiq etmək istəmişdir.

Xatirinizdədir ki, Tbilisidən İstanbula getmiş, iki ay çalışmış, hətta orada ona bir orden də vermişdilər, amma latın əlifbasını qəbul etməmişdilər. Bu gün demək lazımdır ki, məhz sovet hakimiyyəti dövründə o vaxtkı insanlar 1920-ci illərdə Azərbaycanda latın əlifbasının tətbiq edilməsinə nail oldular. Təxminən, 10-11 il sonra latın əlifbasını bizim əlimizdən aldılar. İndi biz Mirzə Fətəli Axundovun XIX əsrin ortalarındakı arzularını, niyyətlərini həyata keçiririk».[1]

---

[1] «Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili». Bakı, «Elm» nəşriyyatı, 1998, səh. 63.

Bu, xalqın tarixinə, bu günü və gələcəyinə bütöv yanaşma tərzini özündə əks etdirən ibrətamiz bir misaldır. Belə əyani, ibrətli misalların sayını xeyli çoxaltmaq da olar. Bütün bunlar ən əvvəl onu təsdiq edir ki, Heydər Əliyev Azərbaycana qəlbən, ruhən. qan və gen yaddaşı ilə bağlıdır, Azərbaycan millətinə bütün ruhuyla, qanıyla sədaqətlidir. O, Azərbaycan milli mənəviyyatıyla nəfəs alır. Azərbaycan prezidenti Heydər Əliyev qeyri-adi Azərbaycan sevgisi ilə, doğma xalqına sonsuz məhəbbəti ilə dünyada yaşayan əlli milyonluq bütün azərbaycanlılara əsl nümunədir, canlı örnəkdir. Çünki o, qeyrətli, qətiyyətli, fədakar fəaliyyəti, fenomenal müdriklik zirvəsi ilə Dədə Qorqudların, Şah İsmayıl Xətailərin, Mirzə Fətəli Axundovların, Mirzə Cəlillərin böyük işini, böyük Azərbaycan sevgisini davam və inkişaf etdirir. O, bu qarşısıalınmaz davam və inkişafı ilə əbədi qalibdir, dahi xilaskardır.

*«Azərbaycan» qəzeti,*
*1 may 2003-cü il*

# DAHİ XİLASKAR

Dağlar planetimizin zirvələridir. Böyük insanları həmişə böyük dağlara, uca zirvələrə bənzədiblər. Çünki nəhəng dağlar planetin ümumi orta müstəvisinə sığmadığı, o orta səthdən ayrılıb kosmosa, kainatın sonsuz dərinliklərinə baş qaldırdığı kimi, böyük insanlar, dahilər də bəşər həyatının, cəmiyyət yaşantılarının adiliklər müstəvisinə sığmır, tarix sivilizasiya yollarının bütöv mərhələlərində zirvəyə dönərək, dünən, bu gün, sabah ölçülərində görünür, öz ucalığı və o ucalıqdan bütün həqiqətləri aşkar görməsi ilə xalq həyatının müdrik uzaqgörəninə, yolgöstərəninə çevrilir. Uzaqları görmək üçün ucalarda dayanmalısan; o ucalara kimlərinsə təkanıyla, açdığı yolla, taleyin xoş təsadüfləri nəticəsində yox, zaman-zaman, pillə-pillə, öz zəhmətin, hünərin, qətiyyətin, fədakarlığınla ucalmalısan. Necə deyərlər: «Ayaq bir-bir qoyarlar nərdivanə» (Ş.İ.Xətai). Zaman göstərir, sübut edir ki, yalnız belə yüksələnlər, qəlbində, beynində tarixin təkamül yollarını gedərək, o yolların ibrət dərslərində yetişərək, bəşəri təfəkkürə tam sahiblənərək zirvələşənlər sivilizasiya gedişatının, cəmiyyət həyatının o uca, qarlı zirvələrində əbədi qərar tuta bilirlər.

* * *

Çoxdan, bəlkə illərlə ürəyimdə, beynimdə gəzdirdiyim bir yazını ilk baxışda qəribə görünən belə bir girişlə başlamağım təsadüfi deyil. Çünki mən bu yazıda tariximizin bütöv mərhələsində, ən geniş milli-mənəvi bir

dağ – Heydər Əliyev dağı, Heydər Əliyev zirvə həqiqətləri haqqında danışmaq və o əlçatmaz zirvələrə aparan yamac yolları, yoxuş dolayları ilə inamla, əzmlə, fədakarlıqla irəliləyən bir yolçu – İlham Əliyev fenomeni haqqında düşünmək istəyirəm. Niyə? Çünki belə yazıların müasir gənclərə, gənc nəslə, ümumən, cəmiyyətimizin mənəvi-əxlaqi, etik-fəlsəfi, siyasi-intellektual tərbiyəsinə, formalaşmasına kömək edə biləcəyinə, ümummilli ruhi səfərbərliyə, sosial saflaşmaya təkan verə biləcəyinə qəlbən inanıram. İnanıram ki, Heydər Əliyev ideyaları milli istiqlala qovuşan azad, müstəqil Azərbaycanın daha xoşbəxt gələcəyə gedən dönməz tərəqqi, intibah yollarında ən sərfəli, ən real, ən perspektivli xilaskar qüvvədir. Əsas məsələ o ideyaların kütlələrə, bütövlükdə xalqımıza olduğu kimi, bütün əzəməti, tarixi həqiqətləri ilə çatdırılması, ümumxalq təfəkküründə modelləşdirilməsi, ümumi Azərbaycan bütövlüyündə praktik reallığa çevrilməsidir. Heydər Əliyev ideyaları milli bayrağımızda rəmzləşən Türkçülük, Müasirlik, İslamçılıq xətlərinin, sosial-ideoloji istiqamətlərinin üzvi vəhdətini yaradaraq, həqiqi azərbaycançılıq məfkurəsini ortaya qoyur. Tam cəsarətlə demək olar ki, Heydər Əliyev ideyaları fundamental əsaslarda, konseptual genişlikdə azərbaycançılıq məfkurəsinin bel sütunudur, hərəkətverici beyin mərkəzidir. Bu ideyalar Azərbaycan reallığının bütöv tarixi yollarından, inkişaf, intibah pillələrindən, eləcə də müəyyən dövrlərin tənəzzül, böhranlı eniş məqamlarının analitik dərkindən çıxış edərək, bu günün və sabahın, perspektiv gələcəyin yaxın və uzaq yollarını göstərir. 1969-cu ildən, hələ bir qədər də əvvəlki illərdən başlayaraq Azərbaycan reallıqlarına tətbiq olunan bu ideyalar Heydər Əliyevin əsl azərbaycançılıq xəttində necə

mübariz, qətiyyətli, dönməz olduğunu, bu müqəddəs yolda necə tarixi hünərlər, fədakarlıqlar göstərdiyini sübut edir.

Bu məqamda 1967-ci ilin baharını, Bakını, bütün Azərbaycanı bürüyən Novruz şənliklərini xatırlayıram. Bu, uzun sürən ayrılıq, «Şəbi-hicran» gecələrinin sübhü, sabahı idi. Bu, xalqın neçə minilliklər arzu və istəklərinə, Novruzlu duyğu və düşüncələrinə vurulan qandalların qoparılıb atılması, bütün varlığıyla sovet adamı – sosial robot – sərfəli işçi qüvvəsi yaradılmasına, yetişdirilməsinə yönələn sovet sosialist ideologiyasının Azərbaycan məkanında qəfil tərksilah edilməsi, sinəsindən vurulması idi. Aydın həqiqətdir ki, Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin sədri, general Heydər Əliyevin razılığı, xüsusi müsbət münasibəti, gizli-aşkar təqdiri, müdafiəsi olmasaydı, belə sosial-siyasi xarakterli tədbirlər – geniş miqyaslı Novruz şənlikləri də baş tuta bilməzdi. 1967-ci ilin Novruz intibahı, xalqın Novruz özünəqayıdışı DTK generalı Heydər Əliyevin xeyir-duası, gizli-aşkar təqdiri, köməyi ilə araya-ərsəyə gəlmişdi, tarixi reallığa çevrilmişdi. Bu tipli hadisələrlə Azərbaycan cəmiyyəti, bütövlükdə Azərbaycan xalqı gələcək azadlıq hərəkatının ilkin dövrlərini yaşayır, sosial-psixoloji, milli-mənəvi güc toplayırdı. Azərbaycanın qədim və qüdrətli tarix yollarında, azadlıq, müstəqillik mübarizələrində Heydər Əliyev epoxası başlanmışdı və bu başlanğıc elə güclü, elə qətiyyətli idi ki, otuz ildən artıq böyük bir dövrdə heç kim, heç bir qüvvə onu saxlaya, susdura bilmədi. Bu, yüz illər boyu qaranlıqlara bürünən Azərbaycan tarix yollarında Heydər Əliyev səhərinin başlanğıcı idi. Bu, tanrının Azərbaycan xalqına rəhmi, köməyi, ilahi təyinatlı göndərişi idi.

* * *

Yadıma «Tikdim ki, izim qala» sənədli telefilm serialını çəkərkən keçirdiyim hisslər düşür. Heyrətlənirdim ki, bir insan bu qədər böyük ümumxalq əhəmiyyətli işləri necə görə bilib! Bütün Azərbaycanı başdan-başa tikinti-quruculuq meydanına, sosial, mədəni, texniki tərəqqi məmləkətinə çevirmək, bu yolda bütün gizli-aşkar maneələrə, məkrli imperiya maraqlarına, Moskva təzyiqlərinə mərdanəliklə sinə gərmək, öz əqidəsinin, yolunun, milli mövqeyinin, öz sözünün sahibi olmaq – bunu yalnız xalqını, vətənini həqiqi vətəndaş qeyrəti, əsl övlad məhəbbəti ilə sevən, xalqının, vətəninin yolunda hər bir çətinliyə, məhrumiyyətə hazır olan fədakar insanlar, dahi şəxsiyyətlər edə bilərdi. Heydər Əliyev belə bir millət fədaisi, dahi dövlət xadimi olduğunu bütün ömrü boyu, son dərəcə geniş miqyaslı, fenomenal fəaliyyəti ilə dəfələrlə sübut edib. Artıq hamıya – xalqımıza da, dünya ictimaiyyətinə də tam aydındır ki, XX əsrin əvvəllərində Mustafa Kamal Paşa Atatürk Türkiyəni qlobal məhvolmadan, faciəli iflasdan necə xilas etmişdisə, həmin əsrin 90-cı illərində, xüsusilə böhranlı iyun ayında Heydər Əliyev Azərbaycanı parçalanaraq məhvedilmə fəlakətindən, dövləti intihardan eləcə xilas etdi. Mustafa Kamal Atatürk və Heydər Əliyev Türkiyə və Azərbaycanın dahi xilaskarları kimi yola saldığımız əsrin ən uca zirvələrini fəth ediblər – bu, danılmaz həqiqətdir! Ədəbiyyat və incəsənətimiz, bütövlükdə ümumxalq fikri bu həqiqəti tam aşkarlığı ilə qəbul edib, hər an sevgi və ehtiramla yada salır.

* * *

Azərbaycan oğuz şeirinin 1500 illik, yazılı ədəbiyyatımızın azı min illik yaddaşında Azərbaycan hökmdarlarına səmimi sənətkar sevgisiylə ithaflar, təqdir və təsdiqedici

əsərlər çox yazılıb. Orxon-Yenisey kitabələrində, müxtəlif tarixi məxəzlərdə ulu Bilgə xaqanlar, Atilla və Gültiginlər tərənnüm olunub, dahi Nizami Gəncəvi fateh İskəndərlə Nüşabənin qarşılaşmasında mənəvi qələbə zirvəsini Azərbaycan hökmdarına layiq bilib, bu qələbəni vəsf edib, «poeziya peyğəmbəri» adlandırılan Məhəmməd Füzuli «Bəngü-badə» əsərində qılınc və qələm qəhrəmanı Şah İsmayıl Xətainin bütöv «Məmləkəti – Azərbaycan» istiqamətində uğurlarını alqışlayıb: «Onun dövranı behişti-bərrinə bənzər… Onun feyz camından şadlanmayanlar qoy şərab xıltı tək həmişəlik puç olsunlar!».

Şah İsmayılın sayəsində varlı da, kasıb da asudə keçinir. Allah onun hökmdarlığını əbədi etsin!

…Məclisifruzi – bəzmigahi-xəlil,
Cami-əyyam, Şah İsmayıl.
Ondan asudədir qəniyyü gəda,
Xəllədəllahu mülkəhu əbəda!
(Allah mülkünü əbədi etsin!)[1]

Dediyimiz kimi, ədəbiyyatımızın yaddaşından böyük hökmdarlarımıza böyük sənətkarlarımızın hörmət və ehtiramından, təqdir və təsdiqedici münasibətindən xeyli misal gətirmək olar. Məqsədimiz bu deyil. Məqsədimiz Azərbaycan ədəbiyyatının, bütövlükdə milli mədəniyyətimizin dahi hökmdarlarımıza qarşı həmişə həssas olduğunu, onların böyük işlərini hər zaman layiqincə qiymətləndirdiklərini diqqətə çatdırmaqdır. Bu baxımdan ədəbiyyatımızın Heydər Əliyev sevgisini bütöv tariximizin bir neçə dahi hökmdarına olan müsbət münasibətlə,

[1] Məhəmməd Füzuli. Əsərləri, II cild, Bakı, 1958, səh. 238-239.

məsələn, ədəbiyyatımızın Şah İsmayıl Xətai sevgisi ilə müqayisə etmək olar. Bunun çox sadə bir səbəbi var: hər iki dövlət xadimi öz xalqına ləyaqətlə, şərəflə, tarixi perspektivlər baxımından qlobal miqyasda, taleyüklü sanbalda xidmət edib. Şah İsmayıl Xətai və Heydər Əliyevə həsr olunan saysız-hesabsız ədəbi nümunələr (mən onların hamısının yüksək bədii səviyyədə olduğunu demək fikrindən uzağam – *N.Xudiyev)* ən əvvəl bu iki tarixi şəxsiyyətə, dövlət xadiminə xalqın sevgisinin, səmimi hörmət və ehtiramının təzahürü, təsdiqidir. Bu, deyərdim ki, böyük şəxsiyyətlərə ümumxalq sevgisinin meyarıdır, məhək daşıdır.

Heydər Əliyev təkcə Azərbaycan miqyasında yox, türk dünyası miqyasında görünən, təsdiq və etiraf olunan nəhəng dövlət xadimidir. 50-60-cı illərdən başlayaraq, o, bu böyük miqyasda düşünür, fəaliyyət dairəsini reallaşdırmağa çalışır, Azərbaycan xalqının, bütövlükdə türk dünyasının ümid və arzuları, problem və perspektivləri müstəvisində tarixi işlər görməyə can atırdı. İstedadlı alim, dostum Nizami Cəfərov «Türk dünyası: xaos və kosmos» kitabında bu baxımdan maraqlı analitik təhlillər aparır:

«…Hansı qiyafədə təzahür edirsə, etsin, mahiyyəti etibarı ilə bir türk dövləti olan Rusiya-SSRİ dövlətçilik təfəkkürü zəif rus-slavyan xadimləri tərəfindən heç zaman normal idarə edilə bilməmişdir. Türklər isə XVII əsrdən etibarən yüksək idarəçiliyə, demək olar ki, buraxılmamışlar… Ona görə də rus-slavyanlarla azsaylı (az qorxulu) qeyri-türklər arasında həmişə nə isə bir yaxınlaşma, dövlət idarəçiliyində qarşılıqlı münasibət, qeyri-rəsmi saziş özünü göstərmişdir.

Heydər Əliyev öz böyük türk ağlı ilə bunları görürdü. Və əslində çox şeyləri görürdü… Sovet türklüyü kommu-

nizm bayrağı altında taktiki hərəkət qabiliyyətini bütünlüklə itirmişdi, rus-slavyan düşüncəsi bir kənddə qurduğu kommunizmi – kolxozu bütöv bir ölkədə qurmağa çalışırdı, azsaylı (lakin çevik) xalqlar kosmopolit mühitdə sərbəst hərəkət edir, arabir donquldanan rus ayısını sığallayırdılar ki, onları qapmasın…

… 70-ci illərin sonu 80-ci illərin əvvəllərində Sov.İKP MK-nın Siyasi Bürosunda (faktiki olaraq ölkə rəhbərliyində) üç türk vardı: Dinmühəmməd Kunayev (qazax), Şərəf Rəşidov (özbək) və əlli yaşlarında olan Heydər Əliyev… Zaman bu türklərdən üçüncüsünü tədricən ön mövqeyə – ruslarla təkbaşına mübarizə meydanına çıxardı… »[1].

Aradan on illər keçəndən sonra indi tam qətiyyətlə demək olar ki, Heydər Əliyev o mübarizə meydanında cəsarətlə döyüşdü və mənən qalib gəldi.

Ədəbiyyatımız Heydər Əliyev şəxsiyyətini, Heydər Əliyev ideyalarını niyə sevir? Çünki Heydər Əliyev ədəbiyyatımızı, ədəbi-mədəni xəzinəmizdə təmsil olunan neçə minillik milli-mənəvi dünyamızı sevir; o, ədəbiyyatımızda, mədəniyyətimizdə obrazlaşan, kodlaşan Azərbaycan varlığını, Azərbaycan həqiqətlərini – 1300 yaşlı «Dədə Qorqud» eposundakı böyük sivilizasiya zirvələrini, Orxon-Yenisey bəngüdaşlarındakı misilsiz vətən, türk-oğuz təəssübkeşliyini, bədii sözün Nizami Gəncəvi müdrikliyini, Nəsimi inamının «Ənəlhəq» ucalığını, Məhəmməd Füzuli poeziyasının dünyaya «hökm edən» bədii-fəlsəfi qələbələrini, Şah İsmayıl Xətai qılınc və qələminin tanrısal ucalığını, Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir və Cəlil Məmmədquluzadə,

---

[1] Nizami Cəfərov.«Türk dünyası: xaos və kosmos». Bakı, 1998, səh.10, 14.

Hüseyn Cavid və Üzeyir Hacıbəyov, Cəfər Cabbarlı və Səməd Vurğun, Şəhriyar və Səhənd, Rəsul Rza və Məmməd Araz… sözünün işığını, yaradıcı, qurucu, qoruyucu qüdrətini sevir. Çünki bütün bu və digər ədəbi-mədəni qaynaqlarda Azərbaycanın tədricən milli-mənəvi yaddaşı, söz-fikir enerjisi toplanıb, əbədiləşib; bu misilsiz yaddaş enerjisini oyatmaq, mövcud Azərbaycan cəmiyyətinə cəlb etmək, beləliklə, yüz illərin müəyyən yaddaş-tarix itkinliyindən xilas olmaq, o amansız boşluğun yerini doldurmaq, xalqı öz yaddaşı ilə yenidən qovuşdurub səfərbər etmək xalqa tarixdə ən böyük analoqu olmayan bir xidmətdir. Bu böyük, misilsiz xidmət ən müxtəlif yollarla, uzaqgörən taktiki, strateji gedişlərlə reallaşdırılırdı. Bu baxımdan «Böyük yubileylər» siyasəti dərindən düşünülmüş etnokulturoloji manevr, mədəniyyət hadisəsi idi.

Heydər Əliyev on illər boyu «Böyük yubileylər» siyasəti ilə məhz bu misilsiz xidməti həyata keçirmiş, Azərbaycanı milli-mənəvi yaddaşına qovuşduraraq, ruhən səfərbər edə bilmişdir. Azərbaycan hüdudlarını aşan, keçmiş SSRİ məkanı və çox halda dünya miqyasında qeyd edilən yubileylər – Azərbaycanın itirilən, unudulan tarixi həqiqətlərinin yenidən təsdiq və etirafı idi. Dünya Heydər Əliyevin «Böyük yubileylər» siyasəti sayəsində geniş miqyaslı Azərbaycan dərsləri keçirdi. Bundan daha əhəmiyyətlisi isə, artıq dediyimiz kimi, Azərbaycanın itkin yaddaş enerjisi, tarixi gücü özünə qayıdırdı.

Bu istiqamətdə bir qədər ətraflı yazmağım təsadüfi deyil. Dilçi-türkoloq kimi, Heydər Əliyevin qeyd olunan xidmətini (təəssüf ki, bu haqda az danışılıb) Azərbaycana, Azərbaycançılığa sevginin dahiyanə nümunə örnəyi hesab edirəm. Və buradaca qeyd etməyi özümə borc bilirəm ki,

son otuz illik tariximizin «Böyük yubileylər» siyasəti haqqında ciddi elmi-fəlsəfi tədqiqata, analitik-kulturoloji fundamental təhlilə ehtiyac var. Yəqin ki, nüfuzlu elm və sənət adamları, siyasətşünas alimlər, filosoflar bu istiqamətdə söz deyəcək, dəyərli tədqiqat əsərləri yaradacaqlar. Bir daha vurğulayıram ki, bu tipli analitik-kulturoloji təhlillərə, ciddi monoqrafik tədqiqat əsərlərinə on yaşlı azad, müstəqil məmləkətimizin, qədim tarixli gənc dövlətimizin və dövlətçiliyimizin, bütöv halda müasir cəmiyyətimizin, çağdaş milli-mənəvi mühitimizin böyük ehtiyacı var. Bu sosial-psixoloji ehtiyacı, tələbatı ödəmək isə müasir elmi-fəlsəfi, etik-estetik, eləcə də sosial-ideoloji fikrimizin şərəfli borcu, vətəndaşlıq vəzifəsidir.

* * *

Məşhur bir fikir var: «Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir – bundan da güclü olan eynilik təsəvvür etmək çətindir» (Vilhelm Humboldt). Doğrudan da, dil xalqın tarixi gücünün, etnogenetik potensial imkanlarının, milli-mənəvi yaddaşının beşiyi, saxlancıdır. Hətta belə bir fikir də mövcuddur ki, xalqın tarixini, torpağını, bütün qazandıqlarını əlindən alsan da, o, ölməz, özünü yaşadar. Lakin dilini əlindən alsan, həmin xalq məhv olar. Çünki dil min illər, bəlkə milyon illər boyu xalq yaşantılarının əksi, kodlaşmış enerji mənbəyi, həqiqətən ümumetnos, ümumxalq ruhunun daşıyıcısı, əbədi qoruyucusudur. Və mən bu sözləri yaza-yaza dahi rəhbər Heydər Əliyevin bu doğma ana dilinə – Azərbaycan dilinə sonsuz sevgisinin, heç vaxt tükənməyən qayğı və diqqətinin əsas mənasını bir dilçi-türkoloq kimi yenidən, bütün qlobal miqyası ilə dərindən dərk edir və

son dərəcə yüksək qiymətləndirirəm. «Heydər Əliyev və Azərbaycan dili» tədqiqat əsərini yazarkən, həmin əsər əsasında eyni adlı elmi-kütləvi sənədli televiziya filmini çəkərkən Heydər Əliyevin Azərbaycan dilinə qoruyucu, yaradıcı münasibətini, bu istiqamətdə misilsiz, tarixdə analoqu olmayan fenomenal fəaliyyətini tam dolğunluğu ilə açmağa, təhlil etməyə çalışmışdım.

Azərbaycan xalqının bütün yeraltı, yerüstü xəzinələrdən daha qiymətli, əzəli, əbədi bir sərvəti var; bu, Azərbaycan dilidir. Dünyanın ilkin insan məskənlərindən sayılan Azıx mağarasına, Qafqazın ən uca zirvələrinə, ən qədim yurd yerlərinə ad verən Azərbaycan dili! Bəşər sivilizasiyasının Gəmiqaya, Qobustan binələrindən, iki çay arasının Şumer, böyük Çölün Orxon-Yenisey daş yaddaşından, bu günümüzə yazılan neçə-neçə «Oğuznamə»dən, tariximizin, taleyimizin oğuz məktublarından bu dilin ulu xatirələri, əbədi səsləri boylanır…

1300 yaşlı «Kitabi-Dədə Qorqud» dastanlarının, min illik yazılı ədəbiyyatın sahibi, Nəsimilər, Füzulilər, Xətailər, Mirzə Fətəlilər, Sabirlər, Mirzə Cəlillər, Cavidlər, Cəfərlər yetirən, dünya mədəniyyətini zaman-zaman dahiyanə söz, sənət zirvələri ilə ucaldan, zənginləşdirən Azərbaycan dili!

* * *

Zaman-zaman məşhur alimlər, səyyahlar, salnaməçilər bu dili «Şərqin açarı», «Qafqazın qapısı» adlandırdı. Böyük rus şairi Lermontov Azərbaycan dilinin Qafqazdakı mövqeyini fransız dilinin Avropadakı o vaxt çox geniş, aparıcı mövqeyi ilə müqayisə etdi. Bu, Qafqazda əsas danışıq dili, xalqlararası ünsiyyət vasitəsi olan Azərbaycan

dilinin dahi rus şairi tərəfindən səmimi etirafı idi.

Tarix boyu dahilər yetirən Azərbaycan dili zaman-zaman dahi oğullarının çiynində ucaldı. XVI yüzilin birinci yarısında Azərbaycan dilinin keşiyində Şah İsmayıl Xətai Heydəroğlu dayanırdısa, XX yüzilin ikinci yarısında bu tarixi, şərəfli missiya Heydər Əliyevə nəsib oldu. Xalqın xoşbəxtliyi, milli taleyimizə tanrı töhfəsi idi ki, Azərbaycan dövlətçiliyinin, Azərbaycan dilinin bəxtinə Heydər Əliyev düşdü…

Şərqin ilk respublikasını – 23 aylıq Azərbaycan Demokratik Cümhuriyyətini qan içində boğan, xalqın azadlığına, dövlət müstəqilliyinə qənim kəsilən bolşevik işğalı, qırmızı imperiya illər ötdükcə ideoloji hücum xəttini daha da genişləndirdi. Azərbaycanın neçə-neçə generalı, dövlət xadimi, söz, sənət adamı güllələndi, uzaq Sibirin gedər-gəlməzinə, Şimal dənizinin ada türmələrinə sürgün edildi. 30-cu illərə doğru maskalanmış iblis ideologiyası bütöv sistemə çevrildi, şər dahisi Leninin «bütün cəmiyyət vahid kontor və vahid fabrik olacaq» modeli tarixi həqiqətləri dumana bürüdü. Xalqı içəridən sındıran, ruhən şikəst edən, Azərbaycanı öz kökündən, etnogenetik dayaqlarından, halal tarixi yaddaşından qoparıb ayırmağa, bu yolla onu sovet xalqı içərisində əritməyə, tragik assimilyasiya burulğanlarında sosial sürüyə döndərməyə can atan iblisanə imperiya niyyətləri qəti hücuma keçdi. Qlottogenez – dilin mənşəyi, etnogenez – xalqın mənşəyi problemlərinin tədqiqi sırf siyasi məqsədlərə, imperiya maraqlarına uyğunlaşdırıldı. Azərbaycanı türk kökündən, tarixi, əzəli türk dayaqlarından məhrum etmək, onun gəlmə türk mühiti tərəfindən assimilyasiya olunduğunu sübuta yetirmək sovet tarixşünaslığı qarşısında əsas məsələ kimi qoyulmuşdu. Sovet tarixşünaslığı, eləcə də bu

bədnam, iblisanə axına qoşulan bəzi Azərbaycan sovet tarixçiləri ənənəvi olaraq irəli sürürdülər ki, guya türklər və türk dili mühiti Azərbaycan ərazisinə çox-çox sonralar, yəni III-IV əsrlərdən IX-X əsrlərədək müxtəlif mərhələlərlə gəlib, buradakı aborigen əhalini assimilyasiya etmişlər. Beləliklə, Azərbaycan, bütünlüklə Qafqaz tarixən türklərdən alınıb hind-avropalılara, bəzən kimliyi bilinməyən qeyri-türklərə verilirdi. İş o yerə çatmışdı ki, Azərbaycana rəhbərlik edən Mir Cəfər Bağırov Azərbaycanın ən böyük sənət yadigarını, dil-tarix faktını ittiham edir, 1951-ci ildə Azərbaycan Kommunist (bolşevik) Partiyasının XVII qurultayındakı hesabat məruzəsində deyirdi: «Dədə Qorqud» xalq eposu deyildir. Bu kitab başdan-başa soyğunçuluq və qırğın məqsədilə Azərbaycana gələn oğuz köçəri tayfalarının hakim yuxarı təbəqəsini tərifləməyə həsr edilmişdir. Bu kitab tamamilə millətçilik zəhəri ilə doludur. Müsəlman olmayan başqa xalqlara, əsasən qardaş erməni və gürcü xalqlarına qarşı yazılmışdır».

… Bu bədnam, qondarma, antitürk tarixşünaslığı – türklərin Azərbaycana, bütün Qafqaza gəlmə köçərilər olduğunu car çəkən bədnam ideologiya 50-ci illərə qədər tam hökmranlıqla davam etdi…

* * *

Tarix öz hökmünü verdi. Sovet sistemində buzun əriməsini xatırladan boşalma dövrü başladı. Bu ideoloji boşalmadan, sosial-siyasi mülayimləşmədən vaxtında, səmərəli istifadə etmək ümumxalq taleyinin tarixi tələbi idi. Ən böyük vəzifə isə on illər boyu yad, düşmən əllərində olan, Azərbaycana qarşı qanlı cəza maşını kimi istifadə edilən Dövlət Təhlükəsizlik Komitəsinin saf milli

kadrlarla yenidən təşkil edilməsi, Azərbaycanın milli, dövləti maraqları baxımından yenidən qurulması idi. Həmin şərəfli, tarixi vəzifəni 1944-cü ildən, xüsusilə 50-ci illərdən başlayaraq, 1969-cu ilə qədər – 25 illik bütöv bir mərhələdə general-mayor Heydər Əliyev həyata keçirdi. 1967-ci ildə bütün Azərbaycanı bürüyən, xalqın özünə, öz milli dəyərlərinə qayıdışının təntənəsi olan Novruz bayramı şənlikləri Heydər Əliyevin ilk baxışda görünməyən uzun, əzablı, cəsarətli mübarizələrinin məntiqi nəticəsi idi. Bu, on illər boyu tarixi saxtalaşdırılan, doğma dilinə amansız hücumlar edilən Azərbaycanın böyük xilaskarlıq yolunda Heydər Əliyev cəsarətinin, Heydər Əliyev siyasətinin ilk qələbəsi idi. Bu sosial güc toplayan milli istiqlal yolumuzun ilk təkanı idi…

Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda respublikanın rəhbəri seçilən Heydər Əliyevin gündəlik fəaliyyətində, ümummilli siyasi xəttində Azərbaycan dilinə qayğı mühüm yer tuturdu. «Heydər Əliyev dünyaya gəldiyi torpağa, ana dilinə, xalq danışıq dilinin incəliklərinə, özünəməxsus mülayimliyinə, səmimiyyətinə, eyni zamanda sərt məntiqinə məhəbbətlə böyümüş bir azərbaycanlı kimi həmin dilin daşıdığı psixoloji gücü, mənəvi enerjini mənimsəmişdi. Rus dilini nə qədər gözəl öyrənib, həmin dildə ölkənin tanınmış ictimai-siyasi xadimlərinin belə qibtə etdikləri bir səviyyədə danışsa, nitqlər söyləsə, məruzələr etsə də, doğma Azərbaycan dilinin cazibəsindən heç zaman qopmamışdı».

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibəti ilə keçirilən təntənəli toplantıda Azərbaycan dilində çıxış edən Heydər Əliyev incə siyasətlə respublikanın elmi, ədəbi ictimaiyyətinin, bütöv ziyalı ordusunun diqqətini doğma ana dilinə yönəltdi. «Kitabi-Dədə

Qorqud» dastanlarını ittiham edən, «kimin arvadı rusdur, onun işi dürüstdür» tipli qondarma, gülünc zərbi-məsəllər yaratmaqla ruslaşdırma siyasətinə sosial dayaqlar axtaran əvvəlki manqurt rəhbərlərdən fərqli olaraq, Heydər Əliyev ümumrespublika tədbirlərində azərbaycanca danışmaqdan çəkinmədi, cəsarətli, qeyrətli şəxsi nümunəsi ilə milyonlarla ürəkdə öləziyən Azərbaycan dili sevgisini, milli ruh çırağını yenidən yandırdı.

70-ci illərdən etibarən Azərbaycanın müxtəlif ali məktəblərində «Ana dili və ədəbiyyat» ixtisası üzrə tələbə qəbulunun həcmi artırıldı; qəbulda ana dilindən yazılı imtahan ən müxtəlif ixtisaslar üzrə məcburi hesab edildi. Təəssüf ki, o vaxt Azərbaycan rəhbərinin «millətçi mövqeyi barədə» Moskvaya «donos» yazan ziyalılar da vardı. Bəzi elm, ədəbiyyat və mədəniyyət xadimləri isə hadisələrin axarından qıraqda, gözləmə mövqeyində dayanmağı üstün tuturdular. Məhz buna görə, 70-ci illərin ikinci yarısında Azərbaycan SSR-in Konstitusiyası (Əsas Qanunu) hazırlanarkən, respublika rəhbəri Heydər Əliyev özü yaradıcı ittifaqlara xəbər göndərməli olmuşdu ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Yalnız bu xəbər-işarədən sonra yaradıcı ittifaqlar hərəkətə gəlmiş və Moskvanın, imperiya strukturlarının ciddi ardıcıl müqavimətini qırmaq mümkün olmuşdur. «Pərdə arxasında» gedən, cəmiyyətdə gizlədilən bu mübarizədə o vaxtkı SSRİ rəhbərliyi dəfələrlə Heydər Əliyevi öz sərt mövqeyindən çəkindirməyə çalışsa da, nəticədə Heydər Əliyev iradəsi, Heydər Əliyev cəsarəti qalib gəldi Konstitusiyada 73-cü maddə – «Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir» maddəsi təsdiq olundu, tarixi fakta çevrildi. Təxminən 20 il sonra – 1995-ci il oktyabrın 31-də

Azərbaycan Elmlər Akademiyasında keçirilən ümumrespublika müzakirəsində prezident Heydər Əliyev o gərgin mübarizəni və qələbəni bir daha yada salacaqdı.

Azərbaycan Yazıçılar Birliyinin sədri, millət vəkili Anar, xalq şairi Qabil 70-ci illərin ikinci yarısını, 73-cü maddə ilə bağlı gərgin mübarizələri, H.Əliyevin prinsipial, cəsarətli mövqeyini və tarixi qələbəsini xatırlayırlar. Söhbətdə «Heydər Əliyev və Azərbaycan dili» mövzusunun cəmiyyətə bəlli olmayan ən müxtəlif tərəfləri işıqlandırılır.

70-ci illər Azərbaycan dili və milli dilçilik elmimizlə bağlı itirilənlərin bərpası, səhvlərin, saxtakarlıqların düzəlişi dövrü oldu. Milli-mənəvi mühitin, elmi, ədəbi, mədəni iqlimin dərin zəkalı, ideoloq-analitik qüdrəti ilə, Heydər Əliyevə məxsus müdrik uzaqgörənliklə proqnozlaşdırılması, əsas inkişaf meyillərinin müəyyənləşdirilib səfərbər edilməsi ciddi yüksəlişə təkan verdi. Əslində 30-cu illərdə Azərbaycanda qadağan edilən, arzuolunmaz «qara sahə» adlandırılan türkologiya 70-ci illərdə əsaslı inkişaf dövrünə qədəm qoydu. Əsrin əvvəllərində olduğu kimi, Bakı yenidən dünya türkologiya elminin mərkəzinə çevrildi. Heydər Əliyev bunu sonralar yüksək qiymətləndirərək deyəcəkdir: «Azərbaycanda türkologiya da çox inkişaf edibdir… Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə «Türkologiya» jurnalı Azərbaycanda nəşr edilirdi».

70-ci illərin sonlarında Heydər Əliyevin təşəbbüsü ilə dördcildlik «Müasir Azərbaycan dili» dərsliyinə Dövlət mükafatı verilməsi Azərbaycan dilinə böyük qayğının, əsl rəhbər diqqətinin, övlad məhəbbətinin nəticəsi idi. Bu yolla qazanılan uğurlar həm dövlət səviyyəsində qiymətləndirilir, həm də Azərbaycan dilçilik elminin bütün

potensial imkanları səfərbər edilir, daha sanballı, fundamental tədqiqatlara istiqamətləndirilir, ruhlandırılırdı. «Heydər Əliyevin dil siyasəti 70-ci illərin sonlarına doğru Azərbaycanda milli dil təfəkkürünün yüksəlməsinə o qədər böyük təsir göstərdi ki, bunu ancaq XVI əsrin əvvəllərindəki – Şah İsmayıl Xətainin hakimiyyəti dövründəki, yaxud XX əsrin əvvəllərindəki vəziyyətlə müqayisə etmək mümkün idi».

* * *

Heydər Əliyev söz, sənət adamlarının, yazıçı və şairlərin böyük dostudur. 50-ci illərdə DTK zabiti olarkən Cənubi Azərbaycan şairi Məhəmməd Biriyanı Sibirin ölüm düşərgələrindən xilas edib Bakıya gətirəndə də, 60-cı illərdə «Gülüstan» poemasına görə Bəxtiyar Vahabzadəni siyasi təqiblərdən, manqurt hücumlarından qoruyanda da, 70-ci illərdə neçə-neçə ustad sənətkarlarımızı SSRİ-nin ən böyük mükafatlarına, fəxri adlarına təqdim edəndə və şəxsi nüfuzu, cəsarəti, qüdrəti ilə istəyinə nail olanda da Heydər Əliyev ilk növbədə Azərbaycan dilinin keşiyində dayanırdı. Azərbaycan dilində yaradılan ədəbiyyatı nəhəng dövlətin ən yüksək, ali mükafatlarına layiq gördürməklə dünyanın diqqət mərkəzinə çəkmək, əslində Azərbaycan dilini beynəlxalq miqyasda tanıtmaq, təbliğ etmək idi. Heydər Əliyevin incə, müdrik siyasəti nəticəsində dünya görür, təsdiq və etiraf edirdi ki, təxminən min illik yazılı ədəbiyyatın sahibi olan Azərbaycan dili müasir mərhələdə də inkişaf edir, yeni-yeni qiymətli əsərlərlə zənginləşir…

* * *

Heydər Əliyevin Azərbaycana, onun sosial-mədəni, elmi-intellektual, iqtisadi, siyasi inkişafına, milli-mənəvi intibahına həsr olunan, xalqımızın tarixində bütöv mərhələ təşkil edən fenomenal fəaliyyətində milli dil siyasəti həmişə mühüm mövqe, aparıcı yer tutub. Təkcə yaşanılan dövrü, müasir mərhələni yox, Azərbaycan ədəbiyyat və mədəniyyətinin bütöv milli mühitini əhatə edən dil siyasəti xalqın tarixi uğurlarına əsaslanaraq, söykənərək böyük perspektivlərə istiqamətlənib. Müəyyən qədər unudulan, tarixin gizlinində xalqdan ayrı salınan milli ədəbiyyat və mədəniyyət nəhənglərinin üzə çıxarılması, bu yolla Azərbaycan dilinin böyük ədəbi yaddaşının, qanunauyğun bədii şüur hərəkətinin bərpası, nəticədə dilin daxili enerjisinin, min illər boyu yığılan etnogenetik, ruhi-mənəvi potensialının oyadılması, hərəkətə gətirilməsi Heydər Əliyevin misilsiz xidmətlərindən biridir. Bakıda, respublikanın digər şəhərlərində xalqın ədəbiyyat və mədəniyyət xadimlərinə ucaldılan çoxsaylı heykəllər həm də Azərbaycan dilinin halal haqqını, uca şərəfini təsdiqləyən abidələr idi. Yubileylər vasitəsilə xalqa yenidən bütün böyüklüyü, əzəməti ilə, olduğu kimi qaytarılan İmadəddin Nəsimilər, Molla Pənah Vaqiflər, Həsən bəy Zərdabilər… Onların heykəlləri Azərbaycan dilinin tarixi uğurlarını, sənət zirvələrini milli mühitin daimi, əbədi enerji mənbəyinə çevirir, ümummilli intibahda «gizli» iş görürdü. Beləliklə, Heydər Əliyevin Azərbaycan dili siyasəti çox geniş mənası, elmi-konseptual əsasları ilə, əslində Azərbaycanı xilasetmə yolunun mühüm tərkib hissəsi idi.

*      *      *

Azərbaycan dilinin şairanə zərifliyinə, bədii-estetik qaynarlığına, mürəkkəb fəlsəfi fikir, məntiq tutumuna, zəngin sintaktik ifadə imkanlarına, stilistik potensiyasına, güclü söz ehtiyatına, unikal frazeoloji, ideomatik xəzinəsinə dərindən bələd olan Heydər Əliyev həmişə bu böyük, ümummilli sərvətin keşiyində dayanıb, onun cəsarətli müdafiəçisi, səmimi təəssübkeşi olub. Milli televiziya ilə göstərilən iclaslarda, ümumrespublika toplantılarında «Əliyeviç» müraciətinə dəfələrlə etiraz etməsi yadımızdadır. Doğma dilə qarşı hər hansı laqeydlik, biganəlik heç vaxt Heydər Əliyevin diqqətindən yayınmayıb…

O öz ana dilinə, doğma Azərbaycan dilinə sahib olan rəhbərdir. Onun nitqlərində dilin tarixi gücü, gizli yaddaş enerjisi oyanır, hərəkətə gəlir, rəhbər qətiyyətində zühur edərək xalqa qovuşur. Azad, müstəqil Azərbaycan Respublikasının dövlət dili – Azərbaycan dili prezident Heydər Əliyevin qalib, qətiyyətli çıxışlarında, fenomenal nitq mədəniyyətində bütün tarixi gücü, qüdrəti ilə görünür. Heydər Əliyev nitqləri canlı Azərbaycan dili abidələridir.

Tarixin gedişi, zamanın hökmüylə uzun illərin, on illərin imperiya buludları dağıldı, dünyanın böyük bir hissəsinə hökm edən, neçə-neçə xalqı, milləti əsarətdə saxlayan qanlı sovet rejimi diz çökdü, öz varlığına son qoydu. XX əsrin ən qlobal, tarixi hadisələrindən biri olan bu iflasla – SSRİ adlanan nəhəng imperiyanın süqutu ilə dünyanın nizamı, sərhədləri dəyişdi; 70 ildən bəri sovet həbsxanasında sıxılan, amansız təzyiq, terror və repressiyalara məruz qalan xalqlar azad oldu, azadlığın, milli istiqlalın mübarək yollarına üz tutdu.

Gülüstan, Türkmənçay müqavilələri ilə ikiyə bölünən, 1918-20-ci illərin 23 aylıq azadlıqdan sonra milli istiqlalını yenidən itirən Azərbaycanda xalq hərəkatı dalğa-dalğa

yüksəlirdi. Xalqın sinəsindən, ürəyindən, tarixi arzu və istəklərindən baş qaldıran üçrəngli, ay-ulduzlu Azərbaycan bayrağı neçə minillik qədim dövlətçiliyin yenidən bərpasına can atırdı.

Nəhayət, xalq öz tarixi hökmünü verdi – 18 oktyabr 1991-ci ildə Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilərək, ümumxalq referendumuna çıxarıldı. Buna görə 18 oktyabr azad, suveren Azərbaycan Respublikasının tarixinə Müstəqillik günü kimi daxil oldu. Həmin tarixi gündən keçən on il ərzində çox çətin sınaqlarla üz-üzə gəldi, daxili və xarici düşmən qüvvələrinin qəsdi, qərəzi, qanlı xəyanətiylə dönə-dönə yaralandı Azərbaycan.

15 iyun 1993-cü il müstəqilliyimizin Milli Qurtuluş günü oldu. Xalqın tələbi, təkidli çağırışı, arzusu ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev Vətən və xalq naminə, azad, müstəqil, bütöv Azərbaycan naminə qüdrətli xilaskarlıq fəaliyyətinə başladı. Azərbaycan Respublikası yaxın-uzaq imperiya maraqları ilə parçalanaraq bölüşdürülmə faciəsindən, milli, dövləti iflasdan, qlobal məhvolmadan xilas edildi. Beləliklə, 18 oktyabr Müstəqillik günü 15 iyun Milli Qurtuluş günüylə qorundu, möhkəmləndirildi; Azərbaycanın azadlığı, dövlət müstəqilliyi əbədi və dönməz xarakter aldı.

«Azadlıq, istiqlaliyyət hər bir xalqın milli sərvətidir» deyən Azərbaycan prezidenti Heydər Əliyev bütün varlığı ilə azadlığımızın, dövlət müstəqilliyimizin əbədi və dönməz xarakter almasına çalışır, bu müqəddəs yolda tarixi uğurlar qazanır. Qədim tarixli gənc dövlətimizin, azad, müstəqil Azərbaycan Respublikasının on illik yubileyini bayram etdiyimiz bu ərəfədə tam cəsarətlə deyə bilərik ki, tarixi şəxsiyyətlər yaradır, istiqamətləndirir. Bu baxımdan,

son on illik müstəqillik dövrü Heydər Əliyev müdrikliyindən güc almış, onun uzaqgörən strateji ideyaları ilə silahlanmış, bütövlükdə Heydər Əliyev qələmi ilə yazılmışdır.

«Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır». Dahi dövlət xadimi Heydər Əliyev bu müdrik sözləri ilə xalqımızı, müasir cəmiyyətimizi ayıq-sayıq olmağa, dünən, bu gün və sabah miqyasında düşünməyə, keçmişin ibrət dərslərini tam öyrənməklə gələcəyin qapılarını açmaqla böyük, dönməz, əbədi intibah, inkişaf yollarına çıxmağa çağırır. O, bütün görüşlərdə, toplantılarda, eləcə də xarici səfərlərdə Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməz olduğunu vurğulayır, diqqəti bu əsas, taleyüklü məsələyə cəlb edir, bunu Azərbaycan varlığının, Azərbaycan perspektivlərinin ən mühüm amili, dayaq nöqtəsi, xilas yolu kimi qiymətləndirir. Azərbaycançılıq istiqamətində bütövləşən, konseptual milli-mənəvi xilas yollarını ehtiva edən Heydər Əliyev ideyaları bütünlükdə Azərbaycanın azadlığına, milli istiqlalına, dövlət müstəqilliyinə və bu azadlığın, istiqlalın, müstəqilliyin, suverenliyin əbədi və dönməzliyinə əsaslanır. Heydər Əliyev ideyalarının əsas, bütöv, son məqsədi, məramı Azərbaycanın əbədi azadlığıdır.

* * *

Artıq on ildir ki, Azərbaycan müstəqildir; keçid dövrünün bütün çətinliklərinə, ağrı-acılarına, müharibənin vurduğu sarsıdıcı yaralara, işğal və qaçqınlıq faciələrinə baxmayaraq, xalqımız müstəqillik, azadlıq yolları ilə əzmlə, inadla, inamla irəliləyir. Müstəqilliyimizin təhlükə altında olduğu vaxtda – 1993-cü ilin iyununda xalqın

çağırışı ilə Heydər Əliyevin hakimiyyətə xilaskar qayıdışı, əslində, əsl müstəqillik dövrünün başlanğıcı oldu. «Ömrümün qalan hissəsini də xalqıma qurban verərəm» – deyib, Azərbaycanın xilası, əbədi qurtuluşu naminə mübarizə meydanına atılan Heydər Əliyev tarixdə misli görünməyən fədakarlıq, siyasi müdriklik nümunəsi göstərdi. Bir daha vurğulamaq istəyirəm ki, 18 oktyabrla bünövrəsi qoyulan, 15 iyunla məhvolmadan xilas edilən Milli Qurtuluş yolu günbəgün, aybaay, ilbəil möhkəmləndi, davam və inkişaf etdirildi. 1994-cü ilin mayında atəşkəsə nail olunması, həmin ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə böyük beynəlxalq iqtisadi sazişin – «Əsrin müqaviləsi»nin imzalanması, milli ordunun yenidən qurulması, ölkə daxilində dağıdıcı anarxiyaya, hərc-mərcliyə son qoyulması, Lissabon sammitində 53 aparıcı dövlətin dəstəyinə nail olunması, böyük İpək yolunun bərpası istiqamətində həlledici addımlar atılması – bütün bunlar Milli Qurtuluş günü ilə başlayan tarixi uğurların bir hissəsidir. Bəli, indi tam cəsarətlə deyə bilərik ki, Heydər Əliyevin xilaskarlıq missiyası, böyük perspektivlərə hesablanan uzaqgörən, müdrik siyasəti nəticəsində müstəqilliyimiz qorundu, Milli Qurtuluş yolumuz davam etdi, əbədi və dönməz xarakter aldı. Onu da məmnuniyyətlə vurğulamaq, səmimiyyətlə bildirmək istəyirəm ki, azad, müstəqil Azərbaycan dövlətini yeni – XXI əsrə prezident Heydər Əliyev apardı. XXI əsrin ilk günlərindən başlayan böyük yolun öndəri, dahi yolgöstərəni də Heydər Əliyevdir. Bu yolun böyük uğurlara, əbədi xoşbəxtliyə qovuşacağına inanırıq. Buna Heydər Əliyevi özünə prezident seçən bütün Azərbaycan xalqı, dünyanın 50 milyonluq bütün azərbaycanlıları inanır.

* * *

Gənc Azərbaycan Respublikasının on illik yubiley sevinclərini yaşaya-yaşaya 500 yaşlı Azərbaycan Səfəvilər dövlətini düşünürəm. Orta əsr salnamələrindən bir cümlənin səsini eşidirəm: «Şah İsmayıl Xətai ruhun bədənə qovuşduğu kimi Təbrizə daxil oldu». Eynən Heydər Əliyev də «ruhun bədənə qovuşduğu kimi» dar ayaqda, faciəli böhran məqamında Bakıya daxil oldu. Şah İsmayıl Xətainin qurduğu Səfəvilər dövlətini ondan sonra on illər boyu oğlu Şah Təhmasib ləyaqətlə qorudu, idarə etdi, daha da möhkəmləndirdi… Və məni iki Heydər oğlunun Azərbaycan tarix səhnəsində sürətli, qalib yüksəlişi sevindirir. Şah İsmayıl Xətainin atasının adı Heydər idi, o atasının yolu ilə irəliləyərək tarixi qələbələr qazandı. İlham Əliyevin də atasının adı Heydərdir və o da atasının yolu ilə şərəflə irəliləyir.

İlham Əliyev Moskva Dövlət Xarici Əlaqələr İnstitutunun Beynəlxalq münasibətlər fakültəsini müvəffəqiyyətlə bitirib, tarix elmləri namizədidir. Yeni Azərbaycan Partiyası sədrinin müavini, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Azərbaycan Milli Məclisinin deputatı, Avropa Şurasının Parlament Assambleeyasında Milli Məclisin daimi nümayəndə heyətinin rəhbəri, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidentidir. Göründüyü kimi, İlham Əliyevin fəaliyyət dairəsi çox genişdir; o, bütünlüklə Azərbaycan xalqının və dövlətinin xidmətindədir. Başlıcası odur ki, İlham Əliyev bu çoxsahəli, geniş miqyaslı xidməti, fədakar fəaliyyəti ilə bütün Azərbaycan gənclərinə əsl vətəndaşlıq, vətənpərvərlik nümunəsi göstərir.

İngilis, fransız, rus dillərini bilən, Avropa və Amerikadakı bir sıra səfərləri, rəsmi və qeyri-rəsmi görüşləri ilə nüfuzlu diplomatik dairələrin, görkəmli siyasətçilərin, dövlət xadimlərinin diqqətini cəlb edən, fenomenal intellekt və istedadı ilə seçilən İlham Əliyev artıq müasir Azərbaycan və dünya siyasətinin danılmaz faktı, perspektivli reallığıdır. 1998-ci il martın 31-də San-Fransiskoda ABŞ-ın nüfuzlu Stenford Universitetindəki orijinal, səviyyəli, sanballı çıxışı, professional diplomatik gedişləri dünyanın siyasət nəhəngləri tərəfindən maraqla qarşılanmış, yüksək dəyərləndirilmişdir. «Müxalifət görür ki, İlham Əliyev həm biliyinə, həm ağlına, həm təcrübəsinə, həm də insani keyfiyyətlərinə görə Azərbaycanın siyasi səhnəsində öz yerini tutub. Bəli, əks effekt yaratmaq istəyirlər. Lakin yarada bilməyəcəklər. İlham Əliyev gənc, artıq siyasətlə, dövlət işi ilə məşğul olan Azərbaycan vətəndaşıdır. Onun çox böyük təhsili və biliyi var. 5-6 ildir ki, Azərbaycanda gördüyü işlərdən təcrübə toplayıb. Beynəlxalq Əlaqələr İnstitutunda müəllimlik edib. Bu, asan bir iş deyil. Diplomatlar hazırlayan bir universitetdə dərs deyib. 23 yaşında dissertasiya müdafiə edib. İnstitutdan mənə görə çıxarılanda, o gedib bizneslə məşğul olub. O təcrübəni də toplayıb. İqtisadiyyatı da bilir. Azərbaycanın neft siyasətinin həyata keçirilməsinin fəal iştirakçısıdır. Bundan əlavə, onun üzərinə başqa vəzifə də düşüb. Milli Olimpiya Komitəsinin sədridir. İctimaiyyət görür ki, o bu sahədə böyük işlər görüb, beynəlxalq əlaqələri gücləndirib. İlham Əliyev Milli Məclisin deputatıdır. Görürsünüzmü, onuın üzərinə nə qədər vəzifələr düşüb. Çox sevinirəm, mənim oğlum olduğuna görə ki, bu qədər vəzifənin öhdəsindən gəlir. Belə adamın şübhəsiz ki, gələcəyi də ola bilər. Lakin bu, onun özündən

asılıdır. Heç kim deyə bilməz ki, nə olacaq? Onun Heydər Əliyevin yerini tutub-tutmayacağı gələcəyin işidir. Bunu isə zamanında cəmiyyət deyəcək. İlham Əliyev YAP-da öz xidmətlərini göstərib, gələcəkdə də göstərəcək. Buna heç kəsin şübhəsi olmasın».[1]

Bu sözlər Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə məxsusdur. «Mən seçici olsaydım, İlham Əliyevə səs verərdim» – deyən prezident onun böyük elmi intellektual imkanlarına, milli-mənəvi zənginliyinə, rasional-praqmatik siyasətçi yetkinliyinə inanır. Əslində son illər İlham Əliyevin çoxsahəli, gərgin fəaliyyətini izləyən hər bir sağlam düşüncəli Azərbaycan vətəndaşında, hər bir siyasət adamında belə bir inam formalaşıb. Bu, gənc, fədakar, perspektivli, intellekti, istedadı və şəxsiyyəti bütöv vəhdət yaradan insana ümumxalq inamıdır. «İlham Əliyev böyük siyasətlə, dövlət işi ilə məşğul olan gənc Azərbaycan vətəndaşıdır. Dərin biliyi, yüksək intellekti, lazımi insani keyfiyyətləri vardır və Konstitusiyaya görə prezidentliyə namizədliyini irəli sürmək hüququna malikdir. Bu hüququ müxalif yozumlara məruz qoymaq əlavə şayiələrə yol verməkdir. Unudulmamalıdır ki, biz hüquqi dövlət quruculuğu ilə, vətəndaş cəmiyyətini bərqərar etməklə məşğuluq. Konstitusiya hüququ nəzəriyyəsinə görə isə vətəndaş cəmiyyəti həyatın hüquqa və demokratiyaya əsaslanaraq zəruri və rasional qurulması, insana özünün iqtisadi və siyasi varlıq formalarını azad seçməyə təminat verən, insan hüquqlarının bərqərar olunduğu, ideoloji, plüralizmin tə-

[1] «İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər». Birinci kitab, Bakı, «Qanun», 1999, səh. 164-165.

min edildiyi ictimai quruluşdur».[1]

Bəli, İlham Əliyevin də bütün Azərbaycan vətəndaşları kimi seçməyə, seçilməyə, azad, müstəqil məmləkətimizin həyatında yaxından iştirak etməyə, xalqın səs verib layiq biləcəyi ən yüksək vəzifəni tutmağa haqqı var. O, bəzi siyasətçilərin, xüsusilə müxalifət «liderlərinin» düşündüyü kimi, sadəcə, atanın oğul varisi, bioloji-genetik oğul davamçısı deyil, Azərbaycana 30 ildən artıq şərəflə, ləyaqətlə rəhbərlik edən dahi dövlət xadiminin, müdrik rəhbər ideyalarının – Heydər Əliyev ideyalarının daşıyıcısı, davamçısıdır. Çünki o, sadəcə olaraq, bu dahi dövlət xadiminin həyat məktəbində hamıdan daha çox oxumuşdur, hamıdan daha çox dərs almışdır. O, siyasətin, politologiyanın əlifba dərslərini, bütöv anatomiyasını uşaq yaşlarından başlayaraq bütün ömrü boyu anbaan, saatbasaat, aybaay, ilbəil öyrənmişdir, böyük siyasətin Heydər Əliyev Universitetini bitirmişdir. «Mənim xoşbəxtliyim bundadır ki, mən Heydər Əliyev adlı dahi şəxsiyyətin yanındayam və məndə öyrənmə imkanları daha çoxdur, nəinki başqa adamlarda».[2]

Buna görə, səmimiyyətlə, qəti əminliklə deyə bilərik ki, İlham Əliyev təkcə atasının – Heydər Əliyevin yox, bütövlükdə Heydər Əliyev kursunun, Azərbaycançılıq ideologiyası ilə tam səsləşən, üst-üstə düşən Heydər Əliyevçiliyin varisidir, daşıyıcısıdır və davamçısıdır. Ilham Əliyev bir müsahibəsində belə demişdir: «… Heydər Əliyevin varisi mənim oğlum Heydər Əliyevdir. Ona görə deyə

---

[1] V.İ.Abdullayev. «O, böyük siyasətə hazırdır». Bakı, «Azərbaycan» nəşriyyatı, 1999, səh. 80-81.

[2] «İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər». Birinci kitab, Bakı, «Qanun», 1999, səh. 39.

bilərsiniz ki, Heydər Əliyevin varisi Heydər Əliyevdir».[1]

Azərbaycan istiqlalının, Azərbaycançılıq məfkurəsinin, milli müstəqilliyimizin dayaq nöqtəsi, enerji mənbəyi, hərəkətverici qüvvəsi olan xilaskar Heydər Əliyev ideyaları hər bir Azərbaycan vətəndaşını, bütün dünya azərbaycanlılarını birliyə, bütövlüyə, Vətən və xalq naminə fədakarlığa çağırır. Bu, dahi xilaskarın çağırışıdır. Xoşbəxtik ki, xalqımızı, azad, müstəqil məmləkətimizi, qədim tarixli gənc Azərbaycan dövlətini gələcəyin intibah, inkişaf zirvələrinə dahi xilaskar Heydər Əliyev aparır.

*«Xalq qəzeti»,*
*12,13,14 oktyabr, 2001-ci il*

[1] «İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər». Birinci kitab, Bakı, «Qanun», 1999, səh. 31.

# ƏBƏDİ QURTULUŞ YOLU

Dünya sivilizasiyasını, bəşər xəzinəsini çoxsaylı elm və sənət zirvələri, misilsiz maddi və mənəvi mədəniyyət abidələri, qüdrətli qılınc və qələm dahiləri ilə zənginləşdirən Azərbaycan xalqının tarixində ağır, faciəli məqamlar, sarsıdıcı böhranlar da çox olub. 1993-cü ilin yayında, iyun ayının əvvəllərində Azərbaycanda yaranan son dərəcə gərgin, böhranlı hərbi, sosial-siyasi situasiya tariximizin heç bir ağır dövrü, heç bir faciəsi ilə müqayisəyə gəlmir. Çünki həmin vaxt, yəni 1993-cü il iyunun əvvəllərində Azərbaycan xalqı yenicə yaranan müstəqil dövlətindən məhrum olmaq, kiçik dövlətciklərə, quberniyalara parçalanmaqla bütöv varlığını itirmək təhlükəsi, ümummilli süqut, iflas fəlakəti ilə üz-üzə dayanmışdı. Yaxın-uzaq imperiya maraqları, daxili və xarici düşmən fitnələrilə baş qaldıran «Sadval», «Talış-Muğan» separatizmi, bu qanlı separatizmə iblisanə məkrlə dəstək verən Surət Hüseynov, Əlikram Hümbətov, Rəhim Qazıyev xəyanətləri, gənc dövləti vətəndaş müharibəsi, bütöv iflas, qlobal məhvolma məqamına gətirib çatdıran Əbülfəz Elçibəy, İsa Qəmbərov, Pənah Hüseynov səhvləri Azərbaycanı diz çökdürmüşdü. Azərbaycan öz tarixinin ən fəlakətli, ən böhranlı günlərini, qanlı ölüm-qalım yolayrıcının tragik məqamlarını yaşayırdı. Və bu dəhşətli tarixi şəraitdə bütün ümidlər, bütün arzular Naxçıvana, dahi dövlət xadimi, müdrik siyasətçi Heydər Əliyevə dikilmişdi. Bütün xalqımız yeganə xilas yolunu Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında görür, çoxsaylı təkidli çağırışlarla onu gözləyirdi.

Bu böyük ümumxalq inamını, etibarını, etimadını Heydər Əliyev Azərbaycan xalqına sədaqətli, şərəfli

xidmətilə qazanmışdır. Mən bu tarixi xidmətin bir neçə məqamını qısaca olaraq xatırlatmaq istərdim.

Xalqa qarşı cəza maşını kimi istifadə olunan, yad, antiazərbaycan qüvvələrin çoxluq təşkil etdiyi təhlükəsizlik orqanı Heydər Əliyevin tarixi hünəri, uzaqgörən müdrik siyasəti ilə mərhələ-mərhələ saf milli kadrlarla yenidən komplektləşdirildi, milli mövqeli əsl təhlükəsizlik sisteminə çevrildi. Bu yolla dəhşətli repressiyalara son qoyuldu, əslində, xalq xilas edildi.

Azərbaycan dili xalqın neçə min illik həyatının, duyğu və düşüncəsinin, milli mənəviyyatının canlı abidəsidir. O, unudulan, unutdurulan abidəni təkidlə Azərbaycan gerçəkliyinin ön mövqeyinə, diqqət mərkəzinə çəkdi, xalqı öz milli-tarixi yaddaşı ilə silahlandırdı, səfərbər etdi Heydər Əliyev.

Dilə, dilçilik elmimizə böyük qayğı nəticəsində qısa bir dövrdə fundamental əsərlər yarandı, neçə-neçə dilçi alimimiz dövlət mükafatlarına layiq görüldü.

İmperiya maraqları ilə keçmişi unutduran Azərbaycan xalqı 70-ci illərdə qeyd edilən böyük yubiley yığıncaqlarında özünə qayıdır, misilsiz tarix-mədəniyyət dərsləri keçir, öz milli yaddaşı, tarixi gücü ilə silahlanaraq ayağa qalxırdı. Bu, xalqın mənəvi xilası, səfərbərliyi, sonrakı xalq azadlıq hərəkatının ilk qüvvə toplama mərhələsi idi.

Təəssüf ki, Heydər Əliyevin Azərbaycan naminə yeritdiyi geniş miqyaslı, uzaqgörən siyasət, həyata keçirilən böyük işlər bəzən qısqanclıqla, hətta düşmənçiliklə qarşılanırdı. Moskvaya, Kremlə axın-axın anonim məktublar, teleqramlar göndərilir, Azərbaycanda millətçiliyin baş qaldırması iddia olunurdu. Heydər Əliyev bəzən Kremlin

yüksək vəzifəli dövlət məmurlar ilə də mübarizə aparır və qalib gəlirdi.

Məlumdur ki, bir sıra böyük zavod və fabriklər, nəhəng sənaye və kənd təsərrüfatı kompleksləri Heydər Əliyevin nüfuzu, təkidi nəticəsində məhz Azərbaycanda tikilirdi. Bunlar Azərbaycanın iqtisadi potensialına onun tarixi töhfələri idi.

Qafqazda ən güclü elektrik enerjisi sisteminin Azərbaycanda yaradılması Heydər Əliyevin dərindən düşünülmüş uzaqgörən siyasətinin nəticəsi idi. İndi azad, müstəqil Azərbaycanın enerji sarıdan qismən korluq çəkməməsi H.Əliyevin 70-ci illərdəki böyük xidmətinin nəticəsidir.

Bir sözlə, 70-ci illərdə Azərbaycan başdan-başa tikinti-quruculuq, sosial-mədəni tərəqqi, bütöv dirçəliş meydanına dönmüşdü; bu illərdə Azərbaycan öz qədim tarixinin qızıl dövrünü – keçmişin bərpası və bu günün, gələcəyin quruculuğunda təkrarsız dirçəliş, intibah dövrünü yaşayırdı. Həmin dövrün dahi strateqi, baş memarı Heydər Əliyev idi. Yalnız öz xalqını, vətənini həqiqi övlad məhəbbəti ilə sevən qüdrətli dövlət rəhbəri belə uzaqgörən siyasət yeridə bilər, belə misilsiz, fenomenal nəticələrə nail ola bilərdi.

İlk baxışda adi görünən bütün bu və digər konseptual istiqamətlər nəticəsində Heydər Əliyev xalqı daxilən, ruhən səfərbər edib böyük məqsədlərə doğru yönəldə bildi, sözün həqiqi mənasında Azərbaycanı Azərbaycana qaytara bildi.

Xalq öz böyük oğlunun, dahi rəhbərinin tarixi xidmətlərini unutmamışdı. Odur ki, dar ayaqda yenə ona üz tutdu, onun xilaskar qüdrətinə bel bağladı. Mən özüm canlı

şahidəm ki, 1993-cü ilin 4 iyun qiyamı, faciəli vətəndaş müharibəsi ərəfəsində yüzlərlə, minlərlə məktublar, teleqramlar, fakslar gəlirdi Naxçıvana, Heydər Əliyevin ünvanına. Bu saysız-hesabsız məktub və teleqramlarda, faks və telefon danışıqlarında xalq Heydər Əliyevi təkidlə Bakıya dəvət edir, Azərbaycanı düşdüyü son dərəcə böhranlı, faciəli vəziyyətdən xilas etməyə çağırırdı. Xalqın bu arzuları, ümidləri, təkidi, tələbi, Azərbaycanın siyasi hakimiyyətində kimi görmək istəyi ən yeni tariximizə «91-lər» adı ilə daxil olan ziyalıların, görkəmli elm və sənət adamlarının bir qədər əvvəl, 1992-ci ildə Heydər Əliyevə ünvanlanan tarixi məktubunda daha əhatəli, konseptual şəkildə qeyd olunmuşdur. 91 nəfər Azərbaycan ziyalısının, respublikamızda çox böyük hörməti, nüfuzu olan elm və sənət adamlarının imzalayıb göndərdiyi həmin tarixi sənəd, əslində, bütün xalqın, bütün Azərbaycanın məqsəd və məramını, ümummilli narahatçılığını, Heydər Əliyev xilaskarlığına dərin inam və etiqadını ifadə edirdi.

Bəli, Heydər Əliyev 1993-cü ilin yayında, iyunun əvvəllərində faciələr girdabında boğulan, dəhşətli vətəndaş müharibəsinin ilk qurbanlarının qanı ilə sinəsi dağlanan Azərbaycanın fəryadını eşitdi, onun səsinə səs verdi.

Bir məqamı xüsusilə vurğulamaq istəyirəm. Həmin vaxt iqtidarda olan qüvvələr – AXC-Müsavat cütlüyü də öz səhvləri nəticəsində yaranmış böhranlı vəziyyətdən xilas olmaq üçün dönə-dönə Naxçıvana üz tutur, o vaxt Naxçıvanda yaşayan və işləyən Heydər Əliyevi Bakıya dəvət edirdilər. Çox ibrətamiz faktdır: hətta Heydər Əliyevə düşmən gözü ilə baxan qüvvələr də yeganə xilas yolunu Heydər Əliyevdə, onun siyasi hakimiyyətə

qayıtmasında görürdülər. Öz çoxsaylı səhvləri, siyasi səriştəsizliyi, dövləti idarəetmədə buraxdığı kobud nöqsanları ilə gənc, müstəqil Azərbaycan Respublikasını «ölüm-qalım» yolayrıcına, qlobal iflas uçurumuna gətirib çıxaran bədnam AXC-Müsavat cütlüyü də başqa yol tapmayaraq, Heydər Əliyevin xilaskar gəlişinə müntəzir idi, intizarla onun gələcəyi yollara boylanırdı.

* * *

9 iyun 1993-cü ildə dahi dövlət xadimi Heydər Əliyevi gətirən təyyarə Bakı hava limanında yerə endi. O gün bütün Azərbaycan sevinc içində idi; ürəklərin kədərinə, həsrətinə, ümidsizlik və intizarına son qoyulmuşdu. Xalq inandığı, etibar etdiyi oğlunu və rəhbərini gül-çiçəklə, qəlbinin ən böyük sevgisi, sevinci ilə qarşılayırdı. Həmin sevgi, sevinc ümmanında mənim yadıma orta əsr salnaməsindən bir cümlə düşdü: «Şah İsmayıl Xətai ruhun bədənə qovuşduğu kimi Təbrizə daxil oldu». 1501-ci ildə Şah İsmayıl Xətainin Təbrizə daxil olub Səfəvilər dövlətini yaratmasına işarə edilən bu tarixi cümləni xatırlaya-xatırlaya Heydər Əliyevin Bakıya gəlişini izləyir, Azərbaycan dövləti və dövlətçiliyinin xilasına sevinirdim. Heydər Əliyev də ruhun bədənə qayıtdığı kimi Bakıya daxil olurdu. Bu tarixi analogiyada tarixi bir həqiqət var. Heydər Əliyev də Şah İsmayıl Xətai kimi Azərbaycan dövləti və dövlətçiliyini xilas etdi, qorudu və möhkəmləndirdi.

1993-cü ilin 15 iyununda Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası Milli Məclisinin 15 iyun 1993-cü il

tarixli iclasındakı proqram xarakterli çıxışında deyirdi: «Azərbaycanın bu faciəli dövründə biz böyük fəlakət qarşısındayıq. Bu dövrdə bütün qüvvələr birləşməlidir, bütün siyasi partiyalar, bütün siyasi qurumlar, bütün siyasi və ya ictimai təşkilatlar, bütün insanlar hamısı birləşməlidir. Hamı kin-kidurəti kənara qoymalıdır, hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən qurtarmalıyıq».

Bu, haqqın, həqiqətin səsi idi. Bu, dahi xilaskarın Azərbaycan xalqına ünvanlanan tarixi çağırışı idi. Xalq bu səsi, tarixi çağırışı eşitdi, ona hay verdi, Heydər Əliyevin, onun xilaskar ideyalarının ətrafında birləşdi, alınmaz qalaya, güclü səngərə döndü. Xalq bütün tarixi gücü, milli-mənəvi yaddaşı ilə, bütün qəlbi, ruhu ilə səfərbər oldu, ayağa qalxdı.

Beləliklə, Azərbaycan Respublikasında dövlət və cəmiyyət həyatının, sosial-siyasi vəziyyətin saflaşdırılması, sağlamlaşdırılması prosesi başlandı. Çox böyük sürətlə, misilsiz qətiyyətlə həyata keçirilən bu mürəkkəb proses nəticəsində, sözün həqiqi mənasında Heydər Əliyevin hakimiyyət ustalığı, fenomenal xilaskarlığı ilə Azərbaycan gəmisi dəhşətli girdabdan, gizli-aşkar qayalıqlara çırpılıb məhv olmaqdan qurtuldu. 1993-cü il oktyabrın 3-də respublika əhalisinin böyük əksəriyyətinin – 98,8 faizinin səs verməsi ilə Azərbaycan prezidenti seçilən Heydər Əliyev 1993-cü il oktyabrın 10-da vətənə, dövlətə, xalqa sədaqət andı içdi. Andiçmə mərasimindəki nitqində dahi rəhbərimiz deyirdi: «Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır». Milli qurtuluş yolunun

bu əsas istiqaməti Heydər Əliyev qüdrətilə günbəgün, ilbəil möhkəmləndirildi, əbədi və dönməz xarakter aldı.

Bəli, Azərbaycanın tale kitabına «Milli Qurtuluş» günü kimi əbədilik yazılan 1993-cü ilin 15 iyunu ilə yeni bir dövr başlandı. Həmin gün xalqın arzusu, ümidi, təkidli çağırışı, tarixi ehtiyacı ilə yenidən hakimiyyətə qayıdan dahi siyasətçi Heydər Əliyev Vətən və xalq naminə, azad, müstəqil, bütöv Azərbaycan naminə qüdrətli xilaskarlıq fəaliyyətinə başladı.

Azadlığına yenicə qovuşan Azərbaycan Respublikası daxili və xarici düşmən fitnələrilə, imperiya maraqları ilə parçalanaraq bölüşdürülmə faciəsindən, milli iflasdan, dövləti məhvolmadan xilas edildi.

Heydər Əliyevin müdrik siyasəti nəticəsində qanlı vətəndaş müharibəsinin qarşısı alındı. Şimalda «Sadval», cənubda «Talış-Muğan» separatizminə, sarsıdıcı xəyanətlərə son qoyuldu, qısa müddətdə məmləkətimizdə sosial-siyasi sabitlik bərqərar edildi. Dövlətçilik sisteminin möhkəmlənməsi daxili və xarici siyasətdə uğurlar, tarixi quruculuq dövrü başlandı. İqtisadiyyatda geriləməyə, tənəzzülə son qoyuldu, ilbəil müsbət dəyişikliklər çoxaldı, əsaslı yüksəliş ardıcıl xarakter aldı. Ona görə xalqımız, dünyada yaşayan bütün azərbaycanlılar 15 iyunu həqiqi xilas, Milli Qurtuluş günü kimi bayram edir. Həmin gün həqiqətən ümummilli, ümumxalq qurtuluşunun əsası qoyuldu. Xalqımız haqlı olaraq belə bir tarixi günü bayram edir.

Bu, cəmiyyəti məhv edən qorxulu anarxiyadan, dağıdıcı separatizm və özbaşınalıqdan, terror və reketçilikdən, banditizmdən sivil, sabit, dünyəvi, demokratik dövlətçilik sisteminə qayıdış bayramıdır.

Bu, parçalanma məğlubiyyətindən bütövləşmə, birləşmə qalibiyyətinə, tənəzzüldən tərəqqiyə qayıdış bayramıdır.

Əsrimizin əvvəllərində Mustafa Kamal Atatürk Türkiyəni necə xilas etmişdisə, iyirminci yüzilliyin sonlarında Heydər Əliyev də Azərbaycanı eləcə xilas etdi. Bir neçə il əvvəl Türkiyənin beynəlxalq Atatürk mükafatının Heydər Əliyevə verilməsi müasir tariximizin ibrətli bir hadisəsi, əslində, haqqın, həqiqətin təntənəsi idi.

Bütün bunlara görə tam təbiidir ki, hər il 15 iyunda – Milli Qurtuluş günündə Heydər Əliyev zirvəsinə üz tuturuq. Azərbaycanın əbədi müstəqillik, azadlıq, milli istiqlal yoluna məşəl kimi yanan ürəyin – Heydər Əliyev dühasının işığı düşür. Bu bayram günü – Milli Qurtuluş günü o qalib, qüdrətli işığa üz tuturuq.

*«Azərbaycan» qəzeti,*
*14 iyun 2002-ci il*

## TANRI GÖNDƏRİŞLİ BİR ARAYIŞ

Müstəqilliyini təzəcə qazanmış Azərbaycan 1992-ci ildə faciəli günlər yaşayır, sosial-siyasi burulğanlar, dərəbəylik və anarxiya məngənəsində sıxılırdı. Cəmiyyətin həqiqi milli liderə, əsl rəhbərə, müdrik yolgöstərənə ehtiyacı vardı. Belə bir tarixi məqamda Azərbaycan xalqı – ziyalısı, alimi, sənətkarı, xalqın ümidi, pənahı, yeganə xilaskarı Heydər Əliyevə üz tutdu. Bu, bütövlükdə xalqın tələbi, xahişi, təkidli çağırışı idi.

Heydər Əliyev xalqın səsinə səs verdi, Azərbaycanın xilası, dirçəlişi, böyük intibahı, əbədi azadlığı naminə Yeni Azərbaycan Partiyasını yaratdı. Qısa tarixi bir dövrdə çox böyük uğurlar, ümumxalq, ümumdövlət miqyaslı qələbələr qazanan bu partiya möhtərəm prezidentimizin, zəmanəmizin Atatürkü Heydər Əliyevin Azərbaycan xalqına misilsiz töhfəsidir, tarixi xidmətidir.

Məmnuniyyətlə bildirirəm ki, dahi dövlət xadimi Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın ən böyük, ən kütləvi partiyası, əsas və həlledici siyasi qüvvəsidir. O, cəmiyyətimizin ifadəçisi olan partiyadır, bu günün və sabahın partiyasıdır. Bu məqamda YAP-ın sədr müavini, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin sözlərini xatırlayıram: «Əminik ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə uzun illər Azərbaycan xalqına xidmət edəcək. Bizim əsas məqsədimiz budur. Biz ümumxalq partiyasıyıq. Çünki xalqla birik, xalqa arxalanırıq və xalq üçün də xidmət edirik».

Bu, bütün həyatını xalqına, onun əbədi azadlığına, milli müstəqilliyinə həsr edən fədakar bir insanın, artıq dünya miqyasında tanınan, etiraf və qəbul olunan rasional-praqmatik bir siyasətçinin mövqeyi, missiyasıdır. İstər Amerika Birləşmiş Ştatlarında nüfuzlu siyasət, politologiya dairələrindəki çoxsaylı görüşləri, istər Avropa Şurasındakı gərgin, cəsarətli, qalib fəaliyyəti onu dünya miqyasında yeni, çox böyük perspektivləri olan siyasət və dövlət adamı, milli lider kimi tanıtmışdır.

Dahi xilaskar Heydər Əliyevin həyat, hakimiyyət, siyasət, diplomatiya universitetlərini uğurla bitirən, Heydər Əliyev ideyalarının xilaskarlıq qüdrətilə, tükənməz Azərbaycan sevgisilə silahlanan İlham Əliyev sabahlarımızın ən ümidverici, ən real, əsl ümumxalq sevgisi qazanan lide-ridir. Və mən ürəyimdən gələn, bütün varlığımla inandığım bu sözləri yaza-yaza tariximizin 1-ci Heydər oğlunu – Şah İsmayıl Xətaini düşünürəm. İlham Əliyev Şah İsmayıl Xətaidən sonra Azərbaycan tarixinin ikinci Heydər oğludur. Ona da əminəm ki, gətirdiyim bu analogiya sırf təsadüfilikdən uzaqdır; bu, ümumxalq taleyinin qismətidir, Azərbaycançılıq ideologiyası ilə tam şəkildə üst-üstə düşən Heydər Əliyevçiliyin, xilaskar Heydər Əliyev ideyalarının sabahkı davamına, əbədiyyətinə tale işarəsidir. Bu, azad, müstəqil dövlətimizin, cəmiyyətimizin bu gününün və sabahının xoşbəxtliyidir.

Ötən əsrin sonuncu on illiyi Azərbaycan üçün dəhşətli faciələrlə başladı. Qarabağın müdafiəsi fonunda dalğa-dalğa yüksələn xalq hərəkatını boğmağa, susdurmağa, Azərbaycanı diz çökdürməyə hesablanmış 20 Yanvar faciəsi, əksinə, bütün sovet imperiyasını titrətdi. Xalq öz azadlığı uğrunda daha qətiyyətlə ayağa qalxdı. Təəssüf ki, başsız başçılar, manqurt rəhbərlər bu xalq hərəkatından

Azərbaycan naminə istifadə edə bilmədilər. Hələ o vaxtlar xalqın, cəmiyyətin ziyalı təbəqəsi, elm və sənət adamları güclü siyasi liderə, yeni bir partiyaya dərin ehtiyac olduğunu hiss edirdilər. Onlar və onların şəxsində bütün xalq Heydər Əliyevi arzulayır, Heydər Əliyevin tarixi xilaskarlığına inanırdılar. Belə bir məqamda 91 nəfər görkəmli ziyalı, alim və sənətkarlar xalqın arzusunu, ümidini, inamını ifadə edərək Heydər Əliyevə üz tutdular. Bütün həyatını Azərbaycana həsr edən Heydər Əliyev xalqın qəlbindən qopan o səsi, çağırışı eşitdi, dar ayaqda xalqına səs verdi, onun köməyinə gəldi. XX əsrin əvvəllərində dahi Mustafa Kamal Atatürk Türkiyəni necə xilas etmişdisə, həmin əsrin sonunda dahi Heydər Əliyev Azərbaycanı, eləcə qlobal məhvolmadan, faciəli iflasdan, parçalanaraq bölüşdürülmə faciəsindən xilas etdi. Heydər Əliyevin Yeni Azərbaycan Partiyasını yaratması və yenidən hakimiyyətə gəlişi, xilaskar qayıdışı tarixi zərurət idi. Açıq etiraf etmək lazımdır ki, bu, tanrı göndərişli bir qayıdış, bir xilaskarlıq missiyası idi. Heydər Əliyev və onun banisi olduğu Yeni Azərbaycan Partiyası həmin tarixi vəzifəni, xilaskarlıq missiyasını şərəflə yerinə yetirdi. İndi tam cəsarətlə demək olar ki, Heydər Əliyev 1993-cü ilin faciəli yayında Azərbaycan gəmisinin daşlara, qayalara çırpılaraq parçalanmasının, məhv olmasının qarşısını aldı. O, Azərbaycanı qaytardı. Bu gün Yeni Azərbaycan Partiyası Azərbaycan cəmiyyətinin ən güclü, ən kütləvi siyasi qüvvəsi, aparıcı partiyasıdır. Fərəhli haldır ki, yüz minlərlə üzvü olan bu partiyaya ardıcıl qəbullar, sağlam sosial-siyasi axın davam edir, sıralarımız durmadan genişlənir, əsl ümumxalq mahiyyəti qazanır. Bu, təsadüfi deyil, tarixi zərurətin ümumxalq miqyasında dərkindən xəbər verir. Xalqımız Yeni Azərbaycan Partiyasını, onun sədri Heydər Əliyevi – dahi dövlət xadimini bütün qələbə-

lərin, gələcək daha qüdrətli inkişaf, intibah yollarının rəhni, rəhbəri kimi görür, qəbul edir. Heydər Əliyev ideyaları ilə silahlanan Yeni Azərbaycan Partiyası azad, müstəqil Azərbaycan Respublikasının əsas, aparıcı siyasi qüvvəsi kimi tarixi sınaqlardan şərəflə çıxıb. Əminəm ki, bundan sonra da bütün çətinliklərə ləyaqətlə sinə gərəcək, həmişə xalq və vətən naminə mübarizə aparacaq və qalib gələcək. Son illərdə YAP-ın gördüyü işlər, həyata keçirdiyi geniş miqyaslı, taleyüklü tədbirlər deməyə əsas verir ki, o, düz yoldadır, cəmiyyətimizin, dövlətimizin dinc quruculuq, inkişaf, intibah hədəfi düzgün seçilib. Respublikamızda sosial-siyasi sabitliyin qorunması, saf, sağlam əsaslarda daha da dərinləşdirilməsi, daimi həyat normasına çevrilməsi, əhali, xüsusilə, gənclər arasında Heydər Əliyev ideyalarının geniş təbliği, elmi-analitik izahı, dərki, bu istiqamətdə ideoloji işin dövrün tələb və təklifləri səviyyəsində qurulması, nəticə etibarı ilə ümumxalq, ümummillət miqyaslarında azadlıq, istiqlaliyyət, milli müstəqillik şüurunun kütləviləşməsi, keçmiş imperiya, sovet düşüncə tərzinin bütünlüklə aradan qaldırılması… Bütün bu qlobal vəzifələrin yerinə yetirilməsi YAP-ın üzərinə düşür. Artıq dediyim kimi, partiyamız son illərdə bu vəzifələrin öhdəsindən layiqincə gəlib, ilk qurultayımızın qarşıya qoyduğu taleyüklü məsələləri yüksək səviyyədə həyata keçirib. Yeni Azərbaycan Partiyasının əsl ümumxalq partiyasına çevrilməsinə təsir edən əsas amillərdən biri və başlıcası budur. Bu, həm də YAP-ın birinci qurultayının müasir tariximizdəki böyük rolundan soraq verir. İkinci qurultay ərəfəsində tam cəsarətlə deyə bilərik ki, YAP-ın ilk qurultayında irəli sürülən vəzifələr layiqincə həyata keçirilib.

*"İki sahil" qəzeti,*
*21 noyabr 2001-ci il.*

## BÖYÜK AZƏRBAYCAN SEVGİSİ

Dövlətçilik və diplomatiya tarixində ölkələrarası rəsmi səfərlər həmişə mühüm rol oynayıb. Belə uğurlu, tarixin nəbzini tutan aktual səfərlər xalqları, ölkələri, dövlətləri bir-birinə yaxınlaşdırıb, dünyəvi və regional problemlərin həllinə şərait yaradıb, məhəlli və qlobal qarşıdurmaların aradan qaldırılmasına kömək göstərib. Çox zaman saysız-hesabsız qoşunların, hərbi gücün, qılıncın fəth edə bilmədiyi qələbə yüksəkliyini ağıl, qələm, söz, müdriklik, uzaqgörən siyasət fəth edib və bu ağıl, siyasət, diplomatiya fatehliyi tarixin yaddaşında daha böyük hörmət qazanıb, zaman-zaman daha böyük ehtiramla xatırlanıb.

Bu sözləri yaza-yaza Azərbaycan Respublikasının prezidenti, dünya şöhrətli rəhbərimiz Heydər Əliyevin çoxsaylı rəsmi səfərlərini düşünürəm. Qətiyyətlə demək olar ki, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana Partii-dan bu uğurlu fateh səfərlər müasir tariximizin bir mərhələsi, ən parlaq səhifələridir. İnanıram ki, prezident Heydər Əliyevin dünya miqyaslı səfərləri, uzaqgörən taktiki və strateji siyasi gedişləri uzun illər, əsrlər boyu tarixşünaslığın, sosioloji tədqiqatların, diplomatiya təfəkkürünün diqqət mərkəzində olacaq, bu istiqamətdə cild-cild əsərlər yazılacaq, tariximizin bu fenomenal zirvə həqiqətinə layiqincə qiymət veriləcək.

Azərbaycan prezidenti Heydər Əliyevin bizim günlərdə Türkiyəyə rəsmi səfəri də unudulmaz, əlamətdar hadisəyə çevrildi. Azərbaycan-Türkiyə çoxəsrlik əlaqələri tarixində yeni bir yüksək mərhələnin əsasını qoydu. Qafqaz bölgəsində, eləcə də dünyada baş verən son hadisələrin dərki, analitik qiymətləndirilməsi fonunda

Azərbaycan-Türkiyə əlaqələrinə yenidən baxılması, xüsusilə iqtisadi, siyasi, hərbi sahələrdə bu iki qardaş, dost ölkənin təxirəsalınmaz taleyüklü iş birliyinə, ortaq məxrəcə gəlməsi səfərin əsas ideya hədəfi idi. Fransada, eləcə də dünyanın bir sıra başqa parlamentlərində guya 1915-ci ildə Türkiyədə ermənilərə qarşı soyqırım siyasətinin həyata keçirilməsinin təkidlə gündəmə gətirilməsi, 1921-ci ildə imzalanan Qars müqaviləsinin ləğvi ilə bağlı yeni ideyaların baş qaldırması və digər antitürk tendensiyalar Azərbaycan-Türkiyə, bütövlükdə ümumtürk əlaqələrinə yenidən baxılmasını qaçılmaz edir. Müasir dünya hərbi, iqtisadi, siyasi reallığında ümumtürk iş birliyi, xüsusilə Azərbaycan-Türkiyə kompleks əlaqələri necə qurulmalı, necə inkişaf etməli, hansı sahələr əsas dayaq nöqtələri kimi seçilməlidir? Nə etməli? Prezident Heydər Əliyevin Türkiyəyə rəsmi dövlət səfəri bu taleyüklü, qlobal suallara açıq-aşkar cavab verilməsi, əsas fəaliyyət istiqamətlərinin işlənib hazırlanması, Türkiyənin cümhur başqanı Əhməd Necdət Sezər, baş nazir Bülənd Ecevit və digər dövlət, siyasət xadimlərilə işgüzar, yaradıcı görüşlər, söhbətlər əsasında real ortaq məxrəcə gəlinməsi baxımından çox böyük tarixi əhəmiyyət daşıyır. Bu rəsmi dövlət səfəri gözümüzün qarşısında yaşanan və yaranan böyük tarix idi. Fəxr edirik ki, Azərbaycan Dövlət televiziyası bu böyük tarixin ilk carçısı oldu.

Türkiyə prezidenti Əhməd Necdət Sezərin rəsmi dəvəti ilə Azərbaycan prezidenti Heydər Əliyevin həmin ölkəyə bizim günlərdə reallaşan tarixi səfəri bütün xalqımızın, deyə bilərəm ki, dünyada yaşayan bütün azərbaycanlıların, bütün türk, müsəlman dünyasının, eləcə də beynəlxalq dövlət və diplomatiya institutlarının, siyasət adamlarının, yaxın-uzaq bir sıra ölkələrin, az qala bütün

planetin diqqət mərkəzində idi. Türkiyə telekanallarının, xüsusilə Azərbaycan Dövlət televiziyasının operativ, geniş xəbərləri, canlı yayım xidmətləri sahəsində dünya Heydər Əliyevin Türkiyəyə rəsmi səfərini diqqətlə, maraqla izləyirdi. Dünyanın müxtəlif ölkələrindən, qitələrindən şirkətimizə ünvanlanan teleqramlar, fakslar, çoxsaylı telefon zəngləri bunu təsdiq edir.

Bir daha vurğulamaq istərdim ki, Türkiyə səfərində bir sıra taleyüklü, aktual suallara cavab verilməli idi və o cavab verildi. Bu baxımdan onu uğurlu, mənzil başına çatan tarixi səfər adlandırmaq tam ədalətlidir, həqiqətə uyğundur.

Səfər boyu gerçəkləşən çoxsaylı görüşlər, xüsusilə Türkiyə prezidenti Əhməd Necdət Sezərlə, baş nazir Büllənd Ecevitlə, Dövlət Baxçalı, Məsud Yılmaz və digər dövlət, siyasət adamları ilə, eləcə də yüksək mövqeli Türkiyə hərbçiləri ilə dərin məzmunlu söhbətlər, müzakirələr həm reallıqlara söykənməsi, həm də real yollar axtarılması ilə seçilirdi. Ə.N.Sezərlə görüşündə prezident H.Əliyev Azərbaycan-Ermənistan münaqişəsinin həllində, nizamlanmasında Azərbaycan Respublikasının Türkiyənin köməyinə, ciddi dəstəyinə ehtiyacı olduğunu və buna ümid etdiyini açıq-aşkar bildirirdi. Türkiyə prezidenti Əhməd Necdət Sezər isə Qafqazda sabitliyin bərqərar olmasının vacibliyini xüsusi olaraq vurğulayır, Ermənistanı Azərbaycanın işğal olunmuş ərazilərini azad etməyə çağırırdı. Azərbaycanın Türkiyədən hərbi yardım istəməsi və bunun diplomatik qaydada razılıqla qarşılanması Azərbaycan-Türkiyə əlaqələrinin yeni mərhələsindən xəbər verirdi. Bütün bunlar göstərir ki, prezident Heydər Əliyevin «Bir millət, iki dövlət» adlandırdığı Türkiyə və Azərbaycan dünyanın yeni iqtisadi, siyasi, hərbi reallığında yeniləşən

kompleks əlaqələr qurmaq, həmin reallığa uyğun birgə fəaliyyət göstərmək yoluna çıxır. Bu yolun uğurlu olacağı şübhəsizdir.

*     *     *

Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi dövlət səfərində ən unudulmaz, zirvə görüşlərindən biri Türkiyə Böyük Millət Məclisində oldu. Bu tarixi görüşdə Heydər Əliyevin dərin məzmunlu, geniş miqyaslı, proqram xarakterli çıxışı hər bir azərbaycanlının qəlbində qürur doğurdu. Bu, regional və dünyəvi hadisələrə, reallıqlara fövqəladə siyasi müdrikliklə dərin analitik təhlil verən, müasir Azərbaycan dövləti və dövlətçiliyinin uğur və perspektivləri haqqında əsl həqiqətləri olduğu kimi açıb göstərən, Türkiyə-Azərbaycan iqtisadi, siyasi, hərbi, mədəni, elmi əlaqələrində konseptual yeniləşmə, praktik dəstəkləmə prinsipini gündəmə gətirən və bunun ən optimal yollarını az qala, riyazi dəqiqliklə nişan verən dahiyanə bir çıxış idi. Mənə elə gəlir ki, həmin fenomenal çıxış müddətində, təxminən bir saatlıq zamanda Türkiyə Böyük Millət Məclisi yenidən Atatürklü anlar, Atatürklü zirvə həyəcanları yaşadı. Heydər Əliyev danışırdı və mən tarixi kinoxronika kadrlarından yaddaşımda qalan Mustafa Kamal Atatürk obrazını düşünürdüm. Vaxtilə ssenari müəllifi olduğum bir sənədli filmdə bu iki dahi şəxsiyyətin qeyri-adi bənzəyişləri haqqında söz açmışdım. Türkiyə Böyük Millət Məclisindəki tarixi çıxışı dinlədikcə Mustafa Kamal Atatürk – Heydər Əliyev bənzəyişlərini təzədən xatırlayırdım.

Ən gərgin vaxtda, böhranlı iflas məqamlarında Türkiyəni xilas edən Mustafa Kamal Atatürk may ayında doğul-

muşdur, gözləri türkün inanc rəngində – göy, atasının adı Əli Rza idi. Ən böhranlı vəziyyətdə, vətəndaş müharibəsi, dövləti iflas ərəfəsində Azərbaycanı xilas edən Heydər Əliyev də may ayında doğulub, gözləri türkün inanc rəngində – göy, atasının adı Əlirzadır. Mustafa Kamal Atatürk general idi, əvvəl Türkiyə Böyük Millət Məclisinin sədri, sonra Türkiyə prezidenti oldu. Heydər Əliyev də generaldır, əvvəl Azərbaycan Milli Məclisinin sədri, sonra isə Azərbaycan Respublikasının prezidenti oldu. Atatürk də, Heydər Əliyev də xilaskardır! Düşünürəm ki, bu qədər təsadüf ola bilməz. Bu iki dahi rəhbərin qeyri-adi bənzəyişləri taleyin qisməti, Tanrı töhfəsidir!

Türkiyə Böyük Millət Məclisindəki unudulmaz, dahiyanə çıxışı dinləyə-dinləyə başqa analogiyalar da keçirdi qəlbimdən.

Bu il 500 yaşı tamam olan 235 illik Azərbaycan Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətainin atasının adı Heydər idi. Adətən, özgə dildə yazan «itkin ruhlu» ustad Məhəmmədhüseyn Şəhriyar başqa dağa yox, məhz Heydərbaba dağına üz tutub özünə qayıtdı, milli ruhlu «Heydərbabaya salam» dastanını yaratdı. Heydər Əliyev «Ən sevimli şairimiz kimdir?» sorğusuna cavab verərkən ustad Şəhriyarın adını çəkdi.

Türkiyə Böyük Millət Məclisinin mötəbər kürsüsündən bütün türk dünyasına üz tutub danışan Heydər Əliyevə qulaq asdıqca, həmin analogiyalar, tarixi paralellər xəyalımda dolanırdı; dahi insanın Azərbaycan naminə döyünən qəlbinin səsini eşidir, o qəlbin işığında azad, müstəqil Azərbaycanın böyük, bütöv, xoşbəxt gələcəyini tam aydınlığı ilə görürdüm.

Son illər Azərbaycanın iqtisadi yüksəliş yoluna çıxdığını, sosial-siyasi sabitlik şəraitində yaşadığını, hüquqi,

dünyəvi, demokratik dəyərlərə əsaslanan dövlət quruculuğu yolunda inamla irəlilədiyini, bu inamlı irəliləyişin əbədi və dönməz olduğunu dönə-dönə vurğulayan Heydər Əliyev respublikamızın ağır problemlərindən də söz açırdı. Ermənistan-Azərbaycan münaqişəsinə, düyünə düşmüş Dağlıq Qarabağ probleminə beynəlxalq təşkilatların, aparıcı qurumların, xüsusilə bəzi əlaqədar dövlətlərin ikili standartlar mövqeyindən münasibəti, işğalçı tərəfin gizli-aşkar yollarla, əslində, müdafiə olunması, dolayısıyla dəstəklənməsi, nəticədə işğala məruz qalan tərəfin əlavə haqsızlıqlarla, ədalətsizliklərlə üzləşməsi təkzibedilməz faktlarla, dəlillərlə ortaya qoyulur, bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırılırdı. Türkiyə Böyük Millət Məclisinə üz tutub Dağlıq Qarabağ problemi ilə bağlı əsl həqiqətləri bütün çılpaqlığı ilə deyən, təhlil edən Heydər Əliyev Türkiyənin real köməyinin vaxtı çatdığını vurğulayır, yoxsa perspektivdə daha böyük təhlükələrin gözlənildiyini xatırladırdı. 1921-ci ildə imzalanan Qars müqaviləsinin ləğvinə can atan erməni-daşnak faşistlərinin Türkiyənin Qars və Ərdahan, Azərbaycanın Naxçıvan bölgələrinə torpaq iddiaları irəli sürməsi, xəstə «Böyük Ermənistan» ideyasını mərhələ-mərhələ həyata keçirmək cəhdi yeni-yeni bəlalara, faciələrə yol aça bilər. Bu xəstə xülyalara, qanlı erməni qəsbkarlığına birdəfəlik son qoyulmalıdır. Bunun üçün isə ilk növbədə dünya miqyasında özünü göstərən ikili standartlar siyasətinə son qoyulmalı, Türkiyə Azərbaycana həqiqətən arxa olduğunu, dəstək verdiyini sözdə yox, işdə, əməldə sübut etməlidir. Qarabağ münaqişəsinin həlli ilə məşğul olan beynəlxalq təşkilatlar, xüsusilə Minsk qrupunun üzvü və həmsədri olan dövlətlər (ABŞ, Fransa və Rusiya) faktiki təklənən Azərbaycanın tək olmadığını görməli, hiss etməli, bununla hesab-

laşmalıdır. Prezidentin tarixi çıxışına baxa-baxa, bu çıxışın Azərbaycan-Türkiyə birliyinə, ümumtürk əlaqələrinin daha da möhkəmləndirilməsinə ünvanlanan çağırış nidalarına diqqət kəsilərək uzaq və yaxın keçmiş dövrlərin tragik mənzərələrini xatırlayırdım. O, tragik, faciəli dövrlərin ən böyük səbəbi Qafqaz və Anadoluda, Azərbaycan və Türkiyədə ümumtürk birliyinin, qarşılıqlı anlaşma və dəstəyin olmaması idi.

1514-cü ilin qanlı Çaldıran döyüşü ərəfəsində Sultan Səlim Yavuzun göndərdiyi kin, təhqir dolu məktublara Şah İsmayıl Xətai cavab yazırdı: «… Məhəbbət dolu salam və dostluq peyğamımızı qəbul ediniz… Şərəfli məktublarınız yetişdi. Onların məzmunu ədavət bildirsə də, cürət və mətanət ifadə etdiyi üçün bizə ləzzət verdi. Lakin bilmədim ki, bu düşmənçiliyin başlanğıcı və mənşəyi nə ilə əlaqədardır…

… Lakin nalayiq sözlərin mənası yoxdur. Bunlar ola bilsin ki, bərşikəş münşilərin və tiryəki mühərrirlərin nəşədən beyinləri quruduğu bir vaxtda yazılmış, eləcə də göndərilmişdir…

… Əgər iş hərbə çəkərsə, təxir olunmasın. Lakin uzaqgörənlik yolu ilə hərəkət edilsin»[1].

Sultan Səlim tərcüməsiz oxuduğu məktuba qanlı qılıncla daha sərt cavab yazırdı: «… Səninlə vuruşmaq üçün ağır ləşkərlə uzaq məsafəni ötüb, hökmranlığın altındakı məmləkətinə daxil olmuşuq. Böyük hökmdarlar ayinində və qüdrətli xaqanlar məzhəbində məmləkət padşahların namusu (mənkuhəsi-arvadı kimi namusu) hesab olunur… Əgər belədirsə, indi neçə gündür qalib əsgərlərim məmləkətinə daxil olub kamranlıq edirlər. Lakin səndən əsər-əlamət görünmür… Belə olsa, taskülah əvəzinə yaylıq, zireh əvəzinə çadra ixtiyar elə…»[2].

Bir müddət sonra Şah İsmayıl Xətainin oğlu Şah Təhmasib Sultan Səlim Yavuzun oğlu Sultan Süleyman Qanuniyə göndərdiyi məktubda yazırdı: «O çağlar mənim atam sənin atanla vuruşdusa da, düşünülməmiş bir hərəkət oldu… Gərək ya dəli, ya da kefli olasan ki, yararsız yerə vuruşasan…»[3].

Azərbaycan ədəbi dil tarixi mütəxəssisi, türkoloq kimi mənə məlum olan bu və ya digər çoxsaylı tarixi yazışmaları bir daha xatırlayaq. Azərbaycan-Türkiyə birliyinin olmadığı faciəli, qanlı dövrlərin yüzillik Səfəvi-Osmanlı müharibələrini düşünürəm. İki qardaş dövlətin uzun-uzadı müharibə meydanlarında bir-birini zəiflətdikdən sonrakı dövrlərdə açılan xəyanət qapılarını, işğal yollarını, torpaq itkilərinin faciələr karvanını düşünürəm. Onu da düşünürəm ki, Azərbaycan və Türkiyənin, bütünlükdə türk dünyasının tarixən Mustafa Kamal Atatürk və Heydər Əliyev kimi müdrik, uzaqgörən rəhbərlərə, xilaskar birlik, bütövlük dahilərinə necə böyük ehtiyacı olub! Belə müdrik, xilaskar, dahi dövlət xadimlərinin olmadığı vaxtlar ümumtürk dünyası daxildən parçalanıb, içəridən dağılıb. Yüz illərlə Qafqaz və Anadoluda, Orta Asiyada və Türküstan ellərində türk qılıncları türk sinələrində əkilib, qardaş qardaşa asi olub, düşmən kəsilib və bundan yaxın-uzaq yadelli qüvvələr, düşmən mövqelər, yabançı imperiya maraqları istifadə edib, bəhrələnib. Ona görə ən böyük çıxış yolu, xilaskarlıq modeli müasir türk dövlətləri arasında, bütövlükdə ümumtürk dünyası miqyasında möhkəm, sarsılmaz, əbədi birliyə nail olmaqdır.

Türkiyə Böyük Millət Məclisində[4] çıxış edən Azərbaycan prezidenti Heydər Əliyev tarixi faciələrdən ibrət dərsi almağa çağırır, Azərbaycan-Türkiyə arasında elmi-mədəni, iqtisadi, siyasi, hərbi əlaqələrin tam yeni modeldə qurulmasının, yeni regional və dünyəvi hərbi-siyasi reallıqların tələb və təkliflərinə uyğunlaşdırılmasının qaçılmaz zərurət olduğunu

car çəkirdi. Bu, uzaqgörən, müdrik dövlət başçısının, dünya miqyasında böyük nüfuz, hörmət və ehtiram sahibi olan siyasət dahisinin səsi idi. Bu, 30 ildən artıq Azərbaycana rəhbərlik edən, Azərbaycanı başdan-başa yenidən qurub-yaradan, bütöv quruculuq, abadlıq ölkəsinə çevirən, ömrünün hər gününü, ayını, hər ilini xalqının, vətəninin milli-mənəvi intibahına, dirçəlişinə həsr edən fədakar insanın, dahi şəxsiyyətin səsi, çağırışı idi. Türkiyə Böyük Millət Məclisi bütövlükdə o müdrik, səfərbəredici, xilaskar çağırışın işığına düşmüşdü; ardı-arası kəsilməyən davamlı, sürəkli alqışlar Heydər Əliyev zəkasına, Heydər Əliyev ucalığına böyük sevgidən, tükənməz ehtiramdan soraq verirdi. Bu, Azərbaycan və Türkiyənin, bütün türk dünyasının Heydər Əliyev liderliyinə böyük inamının, ümidinin, sonsuz sevgisinin təsdiq və təntənəsi idi. Böyük Azərbaycan sevgisi ilə alovlanan Heydər Əliyev günəşi bütün türk dünyasına işıq saçır, bu günün və sabahın yollarını nurlandırırdı. Ürəklərdə, beyinlərdə, min illərin qan-gen yaddaşında qoca türk bütün tarixi əzəməti, fateh hünərləri ilə ayağa qalxır, qalib addımlarla bu günün və sabahın nurlu səfər yollarına çıxırdı.

### QAYNAQLAR


1. Mirzə Abbaslı. «Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə». Bakı, 1981, səh. 34.
2. Yenə orada. səh. 35.
3. Yenə orada. səh. 42-43.
4. Türkiyə Böyük Millət Məclisində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi. «Azərbaycan» qəzeti, 24 mart 2001.



*"Dirçəliş-XXI əsr" jurnalı,*
*2001-ci il, № 4, səh.13-17*

## HEYDƏR ƏLİYEV PARLAQ ZƏKASI VƏ NATİQLİK İSTEDADI İLƏ AZƏRBAYCAN DİLİNİ ÇOXLARINA TƏZƏDƏN SEVDİRMİŞDİR

*Azərbaycan Teleradio Şirkətinin sədri, millət vəkili Nizami Xudiyev "Aktual"ın qonağıdır*

**– Nizami müəllim, Siz bir millət vəkili və mütəxəssis kimi Heydər Əliyev fenomeni, milli dilimiz və mədəniyyətimiz haqqında nə deyə bilərsiniz? Son 5 ildə bu sahədə hansı bəhrələrin şahidisiniz?**

– Heydər Əliyev həqiqətən böyük fenomendir. O, XX əsr Azərbaycan tarixinin yaradıcılarından və ən parlaq simalarından biridir. Onun iyirminci yüzil Azərbaycan və bütün türk dünyasındakı mövqeyini Mustafa Kamal Atatürkün mövqeyi ilə müqayisə etmək olar. Əsrimizin əvvəllərində Atatürk ən böhranlı məqamda Türkiyəni xilas etdiyi kimi, əsrimizin sonlarında da Heydər Əliyev qlobal məhvolma, siyasi-sosial iflas girdabına sürüklənən Azərbaycanı xilas etdi. Heydər Əliyev daxili və xarici düşmənlərin, gizli-aşkar imperiya maraqlarının işə saldığı məhvolma, parçalanaraq dövlət kimi süqutetmə mexanizmini dahiyanə müdrikliklə dayandırdı, ölüm girdabına yuvarlanan gəminin istiqamətini dəyişdi. Azərbaycan Respublikasını siyasi, iqtisadi, sosial sabitlik, nəticə etibarı ilə, bütöv milli dirçəliş, tərəqqi yoluna çıxara bildi. Bu, Azərbaycan xalqı qarşısında tarixi xidmət, sözün həqiqi mənasında xilaskarlıq missiyasıdır. Bəli, Heydər Əliyev xilaskar rəhbərdir. Əslində, xalqa qarşı cəza maşını

kimi istifadə edilən KQB-DTK orqanını yad, düşmən qüvvələrdən təmizləyib saf milli kadrlarla yenidən komplektləşdirəndə də Heydər Əliyev xilaskarlıq missiyasını həyata keçirirdi. Ona görə tam cəsarətlə demək olar ki, son 30 illik tariximiz məhz Heydər Əliyevin adı və onun dinamik, fenomenal fəaliyyəti ilə bağlıdır. Bütün böyük zəka sahibləri kimi, Heydər Əliyev də geniş erudisiyalı, hərtərəfli şəxsiyyətdir. Yəni o, təkcə siyasi həyatda deyil, xalqımızın mədəni-mənəvi həyatında da mühüm rol oynamışdır. Hələ SSRİ vaxtında Kremlin müttəfiq respublikalarda milli oyanışa imkan verməyən güclü nəzarətinə baxmayaraq, Heydər Əliyev Azərbaycan xalqının mənəviyyatı və onun tarixi yaddaşının qorunması, milli mədəniyyətimizin tərəqqisi üçün misilsiz işlər görmüşdür. 70-ci illərdə milli-mənəvi mühitin, elmi, ədəbi, mədəni iqlimin dərin zəkalı ideoloq-analitik qüdrətilə, Heydər Əliyevə məxsus fenomenal uzaqgörənliklə proqnozlaşdırılması, eləcə də əsas inkişaf meyillərinin müəyyənləşdirilib səfərbər edilməsi ciddi yüksəlişə təkan verirdi.

Yadımıza salaq, Nəsiminin, M.P.Vaqifin, Əcəminin, Aşıq Ələsgərin, Azərbaycan teatrının möhtəşəm yubileylərinin, Azərbaycan incəsənətinin və poeziyasının təmsilçiləri olan şəxsiyyətlərin ümumittifaq səviyyəsində təbliğini, eləcə də milli ənənəyə və məfkurəyə söykənən xalq sənətinin tərəqqisi üçün onun gördüyü işləri. Respublikamızda müasir şəhərsalmanın, ümumiyyətlə, çağdaş milli memarlığın dünya standartları səviyyəsinə qaldırılmasını, Bakıda keçirilən saysız-hesabsız beynəlxalq tədbirləri… Bunların hamısı Heydər Əliyevin Azərbaycan xalqının tarixi inkişafı yolunda, onun bütün dünyaya tanıdılması sahəsində böyük xidmətləridir.

**– Bu dediyiniz proseslər dil sahəsində də özünü göstərirdi?**

– Əlbəttə, bu qüdrətli rəhbər dilin xalqın varlığı üçün nə demək olduğunu yaxşı bildiyinə görə bu məsələyə həmişə xüsusi diqqət yetirmişdi və indi də yetirir. Ümumiyyətlə, Heydər Əliyev və Azərbaycan dili mövzusu xüsusi bir söhbətdir və məhz bu mövzunun aktuallığını nəzərə alaraq, mən ötən il «Təhsil» nəşriyyatında «Heydər Əliyev və Azərbaycan dili» adlı xüsusi monoqrafiya çap etdirmişəm. Bu sahədə apardığım geniş tədqiqatlar məni heyrətamiz nəticələrə gətirib çıxardı. 70-ci illərdən başlayaraq, xüsusi milli dil siyasəti yürüdən bu qüdrətli şəxsiyyət Azərbaycan dilini, onun ifadə imkanlarını nə qədər dərindən bilirmiş! O öz parlaq zəkası və yüksək nitq mədəniyyətinə sahib olması ilə çoxlarımıza Azərbaycan dilini sevdirə bilmişdir. Tarixi təcrübə göstərir ki, hər hansı dilin inkişafında milli müstəqillik ideyaları və bu ideyaları öz fəaliyyətində gerçəkləşdirən dövlət başçılarının, xalqının tarixində müstəsna yer tutan böyük siyasi xadimlərin misilsiz rolu var. «Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir» deyən Heydər Əliyev Azərbaycan dilinin keşiyində dayanan, dilimizi dünyanın ən mötəbər məclislərində səsləndirən müdrik Azərbaycan rəhbəri kimi çox böyük ehtirama layiqdir. Bu cəhətdən biz daim Heydər Əliyevdən öyrənməliyik. Çünki onun təkcə dil, ədəbiyyat, mədəniyyət barədə deyil, bütövlükdə mənəvi həyat barədə fikir və düşüncələri bizim müraciət edəcəyimiz, faydalanacağımız metodoloji-ideoloji əhəmiyyətə malik olan mənəvi sərvətlərdir.

Heydər Əliyevin Azərbaycan dilinə qayğısı Azərbaycanın milli-mənəvi intibahına, xalqın öz tarixi gücü, yad-

daş enerjisi ilə qovuşmasına, sosial-mədəni səfərbərliyinə xidmət edirdi. «Dədə Qorqud» eposunu çıxdaş etməyə çalışan, yaxud, «kimin arvadı rusdur, onun işi dürüstdür» kimi eybəcər «zərb-məsəllər» düzəltməklə imperiya ağalarına sədaqətini nümayiş etdirən başabəla, manqurt «rəhbərlərdən» fərqli olaraq, Heydər Əliyev xalq qarşısında öz doğma dilində çıxış etməkdən çəkinmir, cəsarətli şəxsi nümunəsi ilə minlərin, milyonların qəlbində «Azərbaycan dili» çırağı yandırırdı. Əfsus ki, buna görə Heydər Əliyevə millətçi damğası vurmağa çalışan, Kremlə çoxsaylı «donoslar» yazan «ziyalılarımız» – ziyanlılarımız da olub. Lakin, nəticə etibarı ilə, Heydər Əliyevin böyük perspektivlərə hesablanan «Azərbaycan dili» siyasəti qalib gəldi, milli-mənəvi dirçəliş, tərəqqi yolumuzda həlledici faktorlardan biri oldu. Böyük yubiley toplantılarında Azərbaycan dilinin ədəbi-tarixi uğurlarının işığına yığışan xalq özünə, öz milli-mənəvi böyüklüyünə qayıdır, daha qüdrətli uğurlar naminə səfərbər olunurdu.

Azərbaycan müstəqilliyə qovuşduqdan sonra da idarəetmə sükanı arxasında qətiyyətlə dayanan Heydər Əliyev bu gün xalqımızın mənəvi dünyasının zənginləşməsi, dilimizin və bütövlükdə mədəniyyətimizin inkişafı üçün gərgin fəaliyyət göstərir. Son beş ilin ictimai-siyasi nailiyyətləri ilə yanaşı, mədəniyyət sahəsində də əldə etdiyimiz uğurlar məhz onun adı ilə bağlıdır. İqtisadi vəziyyətin ağırlığı bəhanəsi ilə az qala unudulmuş mədəniyyət sahəsi hazırda məhz Heydər Əliyevin qayğısı ilə canlanmışdır. Əlbəttə, söhbət təkcə ayrı-ayrı şəxsiyyətlərin və sənət xadimlərinin yubileylərinin keçirilməsindən getmir. Möhtərəm prezidentimiz mədəniyyətimizin və mənəviyyatımızın ən qlobal problemlərini həll etməyə çalışır. Çətin iqtisadi şəraitə baxmayaraq, Füzulinin 500 illiyinin, «Dədə Qor-

qud» eposunun 1300 illiyinin YUNESKO səviyyəsində qeyd olunmasının müstəqil Azərbaycan üçün nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyinin, məncə, geniş şərhə ehtiyacı yoxdur. Yaxud, mədəniyyət ocaqlarına, idman komplekslərinə, mətbuat və nəşriyyatlara, uşaq mədəniyyət müəssisələrinə, ədəbi qəzet və jurnallara, onların qorunub saxlanması və inkişaf etdirilməsinə qayğı bilavasitə mədəniyyətimizin və mənəviyyatımızın keşiyində dayanmaq deyilmi? Əlbəttə, xalqımız bütün bunları görür, qiymətləndirir və haqlı olaraq minnətdarlığını bildirir. Təbii ki, mədəniyyət sahəsindəki bu geniş quruculuq işləri Azərbaycan televiziyasının da diqqətindən kənarda qalmır və biz prezidentimizin bu sahədəki fəaliyyətini də geniş işıqlandırırıq.

**– Yeri gəlmişkən, milli televiziyamızın son illərdəki uğurları, əldə etdiyi nailiyyətlər barədə nə deyə bilərsiniz? Yaxın zamanlarda tamaşaçıları hansı yeniliklər gözləyir?**

– Televiziya çağdaş ictimai-siyasi həyatda və mədəniyyətdə çox mürəkkəb sistem olmaqla yanaşı, o, Azərbaycan həyatının güzgüsüdür. Cəmiyyətimizdə gedən proseslər, ictimai-siyasi və mədəni sahədə əldə olunan uğurlar, Azərbaycan xalqının müstəqil dövlət qurmaq sahəsindəki geniş fəaliyyəti bu güzgüdə əks etdirilir. Bu mənada bizim işimiz göz qabağındadır və elə bu səbəbdən televiziyanın necə çalışması məişət söhbətlərindən tutmuş qəzet səhifələrinədək çox yerdə təhlil olunur. Ona görə də mən bu şirkətə sədr təyin olunarkən çalışdım ki, qısa müddətdə televiziyanın simasını dəyişim, verilişlərin yüksək səviyyədə hazırlanmasını və bütövlükdə TV-mizin dünya standartları səviyyəsinə yaxınlaşmasını təmin edim. İlk növbədə isə məqsədimiz müstəqil dövlət quruculuğu

sahəsində Azərbaycanın dövlət başçısının apardığı gərgin fəaliyyətin yüksək peşəkarlıqla xalqa çatdırılmasına nail olmaq idi. Əslində, bu, milli televiziyada Azərbaycan prezidenti Heydər Əliyevin dahiyanə müəllimliyi ilə keçirilən milli, müstəqil dövlətçilik dərsləri idi. Azərbaycanın azadlığı, milli istiqlalı, dövlətin intibahı naminə belə teledərslər bizə hava, su kimi lazımdır.

Bunu həmkarlarım və siyasi məsləkdaşlarım da etiraf edir ki, Azərbaycan televiziyası son 2 ildə çox mühüm nailiyyətlər əldə edə bilmişdir. Amma, bunlar asan başa gəlməmişdir. Təsəvvür edin, televiziyada o qədər problem yığılıb qalmışdı ki, onları həll etmək üçün göz qırpmadan çalışmaq, şirkətin bütün maddi-mənəvi intellektual potensialını hərəkətə gətirmək lazım idi. Adi təsərrüfat işlərindən tutmuş efirin bədii-estetik problemlərinin, maddi-texniki çətinliklərinin yoluna qoyulmasınadək bütün sahələrdə bir sistemsizlik mövcud idi. Adamların çoxu gördüyü işin məsuliyyətini lazımınca dərk etmirdi. Studiyalarda, xüsusən canlı efir studiyalarında 30 il əvvəlki kameralarla işləyirdilər. Ekran-efir avadanlıqlarının çoxu istismar ömrünü başa vurmuşdu. Radioda vəziyyət daha acınacaqlı idi. Ümumiyyətlə, radioya ikinci dərəcəli sahə kimi ögey münasibət mövcud idi. Möhtərəm prezidentimiz Heydər Əliyevin qayğısı sayəsində biz heç nədən çəkinmədən bir tərəfdən yaradıcılıq, digər tərəfdən texniki yeniləşmə, üçüncü tərəfdən isə şirkətin təsərrüfat fəaliyyətini qaydaya salmağa başladıq. Gördüyümüz işlərin nəticəsi isə çox fərəhlidir və əlbəttə, sevinirəm ki, bütün bu işlərdə mənim əməyim vardır. O ki, qaldı televiziyanın tamaşaçıları alışdırdığı yeniliklərə, güman edirəm ki, seyrçilərimiz yaxın vaxtlarda Azərbaycan televiziyasının növbəti sistemli yeniliklər dalğasını bir daha ekrandan görə biləcəklər.

Milli televiziyamız keyfiyyət yüksəlişi yolunu cəsarətlə davam və inkişaf etdirəcək.

**– Hazırda respublikamız möhtərəm prezidentimiz Heydər Əliyevin 75 illik yubileyini qeyd edir. Yəqin milli televiziyamızın da bu tarixi hadisə ilə bağlı öz töhfələri var?**

– Əlbəttə, biz müasir dünyamızın ən görkəmli siyasətçilərindən biri, nəhəng şəxsiyyət, Azərbaycan xalqının tarixində müstəsna yeri olan Heydər Əliyevin 75 illik yubileyinə ciddi hazırlıq görürük. Azərbaycan televiziyası bu hadisəni çox yüksək səviyyədə qeyd etməyə, onu ümumxalq bayramı kimi işıqlandırmağa hazırlaşır. Bu münasibətlə biz «Xilaskar» adlı çoxseriyalı sənədli televiziya filmini tamaşaçıların ixtiyarına verəcəyik. Güman edirəm ki, bu, AzTV-nin son il yarımda Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən «Fenomen», «Heydər Əliyev və Azərbaycan dili», «Tikdim ki, izim qala» kimi sənədli filmləri qədər maraqlı, baxımlı və yaddaqalan ekran əsəri olacaq.

Heydər Əliyevin 75 illik yubileyi Azərbaycan xalqı üçün böyük bir bayramdır. Ona görə biz respublikamızın müxtəlif yerlərində bu əlamətdar hadisə ilə bağlı keçirilən toplantılar, bayram şənlikləri, yığıncaqlar, «Heydər Əliyev» məktəblərinin işi barədə də Azərbaycan tamaşaçılarına geniş məlumat verəcəyik. Bundan başqa, xüsusi konsert proqramları, Azərbaycan incəsənət ustalarının, tanınmış sənətçilərimizin iştirakı ilə canlı yayımlar təşkil ediləcək. Bir sözlə, bizim zəngin tədbirlər proqramımız vardır və güman edirəm ki, tamaşaçıları yenə də razı sala biləcəyik.

**– Qarşıdan gələn prezident seçkiləri ilə bağlı ürək sözləriniz, arzularınız.**

– Mən belə düşünürəm ki, payızda Azərbaycanda keçiriləcək prezident seçkiləri ölkəmizdə demokratiyanın daha bir təntənəsinə çevriləcək. Heç bir şübhə yoxdur ki, bu seçkilərdə xalq arasında çox böyük nüfuzu olan möhtərəm prezidentimiz Heydər Əliyev qalib gələcək. Çünki hazırda bu nəhəng şəxsiyyətin qarşısına çıxa biləcək alternativ namizəd görmürəm. Digər tərəfdən mən bu fikirdəyəm ki, tarix Heydər Əliyevi ona görə bizə yetirmişdir ki, o, böyük siyasət aləmində qəti addımları ilə Azərbaycan xalqının bütün problemlərini həll etsin. Bütün dünya şahiddir ki, Heydər Əliyev bu tarixi missiyanı çox gözəl yerinə yetirir. Ona görə mən xalqımızı məhz Heydər Əliyevə səs verməyə çağırıram. Hamı bilməlidir ki, Azərbaycanın sabahı yalnız Heydər Əliyevlə bağlıdır!

*«Aktual» qəzeti,*
*10 may 1998-ci il*

## MÜSTƏQİL AZƏRBAYCANDA DÖVLƏT QURUCULUĞU VƏ DİL SİYASƏTİ

«Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm…». Bu müdrik sözlər Azərbaycan prezidenti, dahi rəhbərimiz Heydər Əliyevə məxsusdur. Bütün həyatını doğma xalqının, vətəninin inkişafına, intibahına həsr edən, bu yolda misilsiz tarixi uğurlar qazanan Heydər Əliyev Azərbaycan dilinə həmişə layiqincə diqqət yetirib, tükənməz övlad məhəbbəti, rəhbər uzaqgörənliyi ilə xüsusi qayğı göstərib. Hələ sovet dövründə, imperiya qadağalarına baxmayaraq, dilimizin dövlət dili statusu alması, Azərbaycan dilçi alimlərinin yüksək dövlət mükafatlarına layiq görülərək, daha böyük tədqiqat işlərinə ruhlandırılması, nəticədə Azərbaycan dilçiliyinin sürətli inkişafı, eləcə də dahiyanə nitq mədəniyyəti ilə hamıya nümunə göstərməsi Heydər Əliyevin şərəfli xidməti idi. Azərbaycan dilinə o tarixi xidmət bu gün, müstəqillik dövründə daha böyük miqyasda davam etdirilir. «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanı, dahi şairimiz Məhəmməd Füzulinin 500, Azərbaycan varlığının ensiklopediyası sayılan «Dədə Qorqud» eposunun 1300 illiyinin dünya miqyasında təntənə ilə qeyd edilməsi, respublikamızda Azərbaycan dili haqqında qanunun ciddi elmi-praktik müzakirələri bunu bir daha təsdiq etdi. Müdrik prezidentimiz Heydər Əliyevin doğma Azərbaycan dili uğrunda on illər boyu necə şərəflə, cəsarətlə, elmi-nəzəri əsaslara söykənən

prinsipiallıqla mübarizə aparması, obyektiv, real nəticələrə nail olması dünyada yaşayan bütün azərbaycanlılara, 50 milyonluq Azərbaycan xalqına ən gözəl nümunədir. Onun dil siyasətinin uğurları bütün incə, «görünməz» məqamları ilə öyrənilməli, ciddi elmi-analitik təhlil, tədqiq yolu ilə xalqımıza, xüsusilə, gənc nəslə çatdırılmalıdır.

Yeni Azərbaycan Partiyasının yaradıcısı və lideri, Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandanımız, dahi öndərimiz Heydər Əliyevin öz doğma dilinə – Azərbaycan dilinə on illər boyu davam edən misilsiz qayğı və diqqəti tarixdə az-az hallarda təsadüf olunan nadir mədəniyyət faktı, fenomenal hadisədir.

Azərbaycan prezidenti Heydər Əliyevin bitkin elmi-nəzəri əsaslara, praktik tətbiqə əsaslanan Azərbaycan dili siyasəti böyük uğurlar qazanıb desək, yanılmarıq. Vaxtı ilə öz doğma dilində danışa bilməyən, yaxud danışmaq istəməyən bir sıra yüksək vəzifəli dövlət məmurları Heydər Əliyevin ciddi tələbkarlığı nəticəsində indi Azərbaycan dilində sərbəst danışırlar; ümumiyyətlə, dövlət dilimizə kompaniyaçılıqdan uzaq olan daimi diqqət və qayğı cəmiyyətimizin milli dil mühitinin – dövlət dili mühitinin əsaslı şəkildə genişlənməsinə, əsl ümumdövlət xarakteri almasına gətirib çıxarmışdır. Bu, həm də Heydər Əliyevin dil siyasətini həyata keçirən, bu günlərdə on yaşı tamam olan Yeni Azərbaycan Partiyasının uğurudur.

«Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanını Heydər Əliyevin on illər boyu davam edən uğurlu dil siyasətinin fundamental yekun sənədi adlandırmaq olar. Dilimizin ən qədim tarixinə obyektiv elmi-tarixi qiymət verən, Azərbaycan dilinin türk köklü müstəqil dil olmasını bir daha təsdiqləyən, onun

əsas təkamül mərhələlərini, inkişaf yollarını dahiyanə bir müdrikliklə, elmi-nəzəri əsaslarla izləyərək son söz deyən, rəsmi dövlət münasibəti bildirən bu fundamental tarixi sənəd Heydər Əliyevin dil siyasətinin uğurlar miqyasını daha da genişləndirdi. Dil haqqında XIII əsrin Məhəmməd bəy Qaramanoğlu, XVI yüzilliyin Şah İsmayıl Xətai fərmanlarını yada salan, lakin o tarixi göstərişlərdən daha bütöv, daha bitkin olan Heydər Əliyev fərmanı inanıram ki, on illər, yüz illər boyu Azərbaycan dili, Azərbaycan milli mənəviyyatı naminə iş görəcək, uğurlar qazanacaq…

* * *

Azərbaycan dili zaman-zaman tənə və təhqirlərlə, planlı assimilyasiya hücumları ilə, qəsd və repressiyalarla da üzləşdi. Ədəbiyyatımız, mədəniyyətimiz bu bədnam basqılara, mənəvi repressiyalara, assimilyasiya hücumlarına qarşı həmişə etiraz səsini qaldırdı. Bu yerdə dahi Səməd Vurğunun «Yandırılan kitablar» şeirindən misralar yada düşür:

Sənmi türkə xər deyirsən, mənim şeir dilimə?!
Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli!
Dahilərə süd vermişdir Azərbaycan gözəli!

Tarix boyu Azərbaycanın dahi oğulları Azərbaycan dilinin keşiyində, müdafiəsində mətanətlə dayandı, onun təəssübünü çəkdi, şərəfini, şöhrətini, halal haqqını, hüquqlarını hünərlə qorudu. Bu baxımdan, Azərbaycan dilinə Heydər Əliyev sevgisi bütün dövrlərə, bütün zamanlara örnək ola bilər.

Azərbaycan dilinə yüz illərin, min illərin Qorqud və Füzulilər sevgisini, qayğısını bu gün prezident Heydər Əli-

yev şərəflə, müdrik uzaqgörənliklə davam və inkişaf etdirir.

«Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanı Azərbaycan dilinə dövlət qayğısının, Heydər Əliyev sevgisinin bariz nümunəsi, daha bir təsdiqidir. Bu doğma ana dilinin qədim tarixinə, çətin və şərəfli inkişaf yollarına, misilsiz uğurlarına dərindən bələd olan dahi dövlət xadiminin bütün dünya azərbaycanlılarına örnək, nümunə ola biləcək dəyişməz mövqeyidir.

Bütün bunlara, çoxsaylı uğurlarımıza görədir ki, dövlətimiz getdikcə öz böyük tarixinə, güclü mədəniyyətinə, doğma dilinə daha çox qovuşur, bu özünəqayıdışla ruhən daha da ucalır, mətinləşir, məğlubedilməz olur. «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanında deyilir: «…Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur».

Bu vətəndaşlıq borcunun necə, hansı miqyasda həyata keçirilməsinin ən gözəl nümunəsini möhtərəm prezidentimiz Heydər Əliyev göstərib və bu gün də göstərməkdədir.

* * *

On yaşı tamam olan Yeni Azərbaycan Partiyası Heydər Əliyev kimi banisi, dahi öndəri ilə güclüdür, qalib və qüdrətlidir. Heydər Əliyevin böyük Azərbaycan sevgisi ilə, saf, sağlam tarixi köklərə əsaslanan Azərbaycançılıq ideyaları ilə silahlanan Yeni Azərbaycan Partiyası milli-mənəvi dəyərlərimizə, tarix və mədəniyyətimizə, xüsusilə, dilimizə elmi-praktik münasibəti ilə də digər kiçik partiyalardan seçilir, yüksəkdə durur. Respublikamızın dövlət dilinə, doğma Azərbaycan dilinə həqiqi övlad, əsl vətəndaş münasibəti, dilimizin tarixi və çağdaş maraqlarını layiqincə qorumaq, onu daim inkişaf etdirmək xətti Yeni Azərbaycan Partiyasının strateji hədəflərindən biridir. Hamıya çox yaxşı məlumdur ki, bu strateji xəttin istiqamətvericisi, elmi-nəzəri və praktik nizamlayıcısı dahi dövlət xadimi Heydər Əliyevdir. Yeni əlifbaya – latın qrafikalı yeni Azərbaycan əlifbasına keçidi özünəməxsus elmi-nəzəri təmkinlə, cəsarətli prinsipiallıqla reallaşdıran, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi işi ilə bağlı xüsusi fərman imzalayan və bunu daim nəzarətdə saxlayan Heydər Əliyev on illər boyu Azərbaycan dilinin ən böyük müdafiəçisi olub.

Heydər Əliyevin Azərbaycana, onun sosial-mədəni, elmi intellektual, iqtisadi, siyasi inkişafına, milli-mənəvi intibahına həsr olunan, xalqımızın tarixində bütöv mərhələ təşkil edən fenomenal fəaliyyətində milli dil siyasəti həmişə həlledici mövqe, aparıcı yer tutur. Təkcə yaşanılan dövrü, müasir mərhələni yox, Azərbaycan ədəbiyyat və mədəniyyətinin bütöv milli mühitini əhatə edən dil siyasəti xalqın tarixi uğurlarına əsaslanaraq, söykənərək, böyük perspektivlərə istiqamətlənib. Müəyyən qədər unudulan, tarixin gizlinində xalqdan ayrı salınan milli ədəbiyyat və mədəniyyət nəhənglərinin üzə çıxarılması,

bu yolla Azərbaycan dilinin böyük ədəbi yaddaşının, qanunauyğun bədii şüur hərəkətinin bərpası, nəticədə dilin daxili enerjisinin min illər boyu yığılan etnogenetik, ruhi-mənəvi potensialının oyadılması, hərəkətə gətirilməsi Heydər Əliyevin misilsiz xidmətlərindən biridir. Bakıda, respublikanın digər şəhərlərində xalqın ədəbiyyat və mədəniyyət xadimlərinə ucaldılan çoxsaylı heykəllər, həm də Azərbaycan dilinin halal haqqını, uca şərəfini təsdiqləyən abidələr idi. Yubileylər vasitəsilə xalqa yenidən bütün böyüklüyü, əzəməti ilə, olduğu kimi qaytarılan İmadəddin Nəsimilər, Molla Pənah Vaqiflər, Həsən bəy Zərdabilər… Onların heykəlləri Azərbaycan dilinin tarixi uğurlarını, sənət zirvələrini milli mühitin daimi, əbədi enerji mənbəyinə çevirir, ümummilli intibahda «gizli» iş görürdü. Beləliklə, Heydər Əliyevin Azərbaycan dili siyasəti çox geniş mənası, elmi-konseptual əsasları ilə, əslində, Azərbaycanı xilasetmə yolunun mühüm tərkib hissəsi idi.

* * *

10 illiyini bayram edən, zamanın sınaqlarından şərəflə çıxan Yeni Azərbaycan Partiyası bütün varlığı ilə inanır, bu inam və ümidlə, qalib və qüdrətli Heydər Əliyev ideyaları ilə silahlanaraq, dahi öndərin – Heydər Əliyevin ətrafında sıx birləşərək, səfərbər olaraq azad, müstəqil, daha xoşbəxt Azərbaycan naminə mübarizə aparır. İnanırıq ki, on yaşlı Yeni Azərbaycan Partiyası əbədi qalib partiya olacaq.

1969-cu ilin yayından Azərbaycana rəhbərlik edən, 70-ci illərdə respublikamızı sözün həqiqi mənasında bütöv inkişaf, intibah yollarına çıxaran Heydər Əliyev 1993-cü ilin faciəli, böhranlı günlərində xilaskar qayıdışı ilə Azərbaycanı yenidən müdrik uzaqgörənlik, dahiyanə bir ağılla,

siyasi diplomatik ustalıqla xilas etdi. Ötən il on illik yubileyini təntənə ilə qeyd edən azad, müstəqil Azərbaycan Respublikası möhtərəm prezidentimizin, bütün dünya azərbaycanlılarının yeganə ümummilli lideri Heydər Əliyevin şah əsəridir desək, yanılmarıq. O, Azərbaycanı yenidən yaradan, quran, yaxın-uzaq, gizli-aşkar imperiya maraqlarına cəsarətlə, mərdanəliklə sinə gərərək sosial-siyasi sabitlik, iqtisadi dirçəliş, tarixi intibah yollarına çıxaran dövlət xadimidir. Və mən bu sözləri yaza-yaza Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi ən böyük töhfə, ən layiqli davamçı haqqında da düşünürəm. Bu, İlham Əliyevdir.

Heydər Əliyev evində, ocağında dünyaya gələn, onun həyat, siyasət, diplomatiya universitetlərində dərs alıb yetişən, kamilləşən İlham Əliyev müasir Azərbaycan siyasi reallığının ən perspektivli, ümummilli sevgi, ümid, inam qazanan ən nüfuzlu gənclər lideridir. «Gənclər lideri» ifadəsi, əslində, onun geniş miqyaslı fəaliyyət dairəsini tam dolğunluğu ilə əks etdirmir; o, artıq dünyanın ən məşhur siyasətçiləri, siyasi-analitik təfəkkür mərkəzləri tərəfindən qəbul olunan, etiraf edilən, layiqincə qiymətləndirilən, dünya diplomatiya meydanında özünəməxsus yeri, mövqeyi olan nüfuz sahibidir. O, istedadı ilə intellekti, elmi-nəzəri dünyagörüşü ilə praktik-praqmatik fəaliyyəti bütöv vəhdət yaradan fenomenal siyasətçi, ləyaqətli dövlət xadimidir.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi dövlət xadimi, müdrik prezidenti var. Yeni Azərbaycan Partiyası xoşbəxtdir ki, onun Heydər Əliyev kimi banisi, yaradıcısı, sədri, öndəri var. Bu hər bir YAP üzvünün qəlbini qürur hissi ilə döyündürür, bizi daim mətin, mübariz, səfərbər olmağa səsləyir. Biz dahi xilaska-

rımız, müdrik prezidentimiz Heydər Əliyevdən doğma xalqa, vətənə, Azərbaycana yorulmadan xidmət etməyi, milli-mənəvi dəyərlərimizin keşiyində dayanmağı, müqəddəs sərvətimiz olan Azərbaycan dilini sevməyi, bu dildə danışmaqdan qürur duymağı öyrənməliyik. Biz Heydər Əliyevdən əsl Azərbaycançılığı, vətənçiliyi, milliliklə dünyəviliyin ahəngdar vəhdətini, bir sözlə Heydər Əliyevçiliyi öyrənməliyik. Mən bu yolda xalqımıza, dünyada yaşayan bütün azərbaycanlılara, eləcə də bu günlərdə on illiyini təntənə ilə bayram etdiyimiz Yeni Azərbaycan Partiyasına böyük uğurlar, yeni-yeni qələbələr arzulayıram.

*«Azərbaycan» qəzeti,*
*27 oktyabr 2002-ci il*

# HEYDƏR ƏLİYEV MƏKTƏBİ MƏNİM ÜÇÜN YEGANƏ VƏ SON DƏRƏCƏ ZƏNGİN BİR MƏNBƏDİR

*Müsahibimiz Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri, millət vəkili Nizami Xudiyevdir.*

**– Nizami müəllim, son illər Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti rəngarəng proqramlarla, siyasi açıqlamalarla, aktuallığı ilə, nəzəri cəlb edən verilişlərlə tamaşaçıların və dinləyicilərin diqqətindən yayınmır. Bundan əlavə, Azərbaycan Respublikası ərazisində verilişlərin yayımının yaxşılaşdırılması sahəsində xeyli işlər görülür. Gələcəkdə görüləcək işləriniz barədə açıqlama verməyinizi istərdik.**

– XXI əsr televiziya tamaşaçısının zövqü də, tələbləri də şübhəsiz ki, fərqlidir. Müasir dövrün tamaşaçısı televiziya verilişlərindən təkcə formaca deyil, məzmunca da xeyli zəngin və rəngarəng çalarlar gözləyir. Fərəhlə deyə bilərəm ki, biz tamaşaçılarımızın bu cəhətdən tələblərini ödəmək üçün hələ ötən illərdən geniş miqyaslı işlərin bünövrəsini qoymuşuq. Bu istiqamətdə televiziyada hazırlanan «Vətəndaş», «Vətən deyəndə…», «Gözəllik işığında», «Fakt», «Buta», «Dialoq», «Gerçəklik» verilişləri artıq neçə vaxtdır ki, müntəzəm nümayiş etdirilir və tamaşaçıların böyük rəğbətini qazanıb. «Mədəniyyət salnaməsi» adlı sənədli televiziya filmi haqqında da eyni sözləri demək mümkündür. Azərbaycan radiosunda «Vaxt», «Azərbaycan – tarixi yaddaşımız», «Mənəvi sərvətimiz», «Astana» adlı ictimai-siyasi publisistik

verilişlər də geniş dinləyici auditoriyası toplaya bilib. Əlbəttə, bütün bunlar bizim XXI əsr vətəndaşına təqdim etdiyimiz işlərin yalnız bir qismidir.

Azərbaycan dövlətçiliyini və müstəqilliyimizi daha da möhkəmlətmək, iqtisadiyyatı və mədəniyyəti inkişaf etdirmək sahəsində möhtərəm prezidentimizin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi gedişini müntəzəm işıqlandırmaq məqsədi ilə yeni verilişlərin təşkili nəzərdə tutulur. Bu verilişlərdə XXI əsrin vətəndaşlarına, tamaşaçılara daha çox bilik vermək, onlarda yeni dünyagörüşü formalaşdırmaq, dövlət rəhbərinin ideyalarına sadiq olan oğul və qızlar tərbiyə etmək əsas məqsəd olacaq. Azərbaycanın dünyanın inkişaf etmiş dövlətlərindən birinə çevrilməsi üçün iqtisadi islahatların rolu və əhəmiyyəti açıqlanacaq. Uşaqların, yeniyetmələrin və gənclərin vətənə sədaqət ruhunda mənəviyyatca saf böyüməsinə kömək edə bilən verilişlər hazırlanması xüsusilə diqqət mərkəzində olacaq.

**– Heydər Əliyev dühadır, siyasəti dünyadır, tövsiyəsi məlhəmdir, fikirləri tükənməyən mənbədir. Dünya əhəmiyyətli siyasətçi, hörmətli prezidentimiz Heydər Əliyevin ideya silahdaşı kimi, millət vəkili olaraq Sizin fikirləriniz.**

– Əgər yadınızdadırsa, hələ 1993-cü ildə prezident seçkiləri ərəfəsində möhtərəm Heydər Əliyev demişdi: «Mən ömrümün qalan hissəsini xalqıma sərf edirəm». Biz bu sözlərin tam təcəssümünü onun dövlət başçısı kimi fəaliyyətinin hər bir məqamında görürük. Azərbaycan televiziyası möhtərəm prezidentimizin bu fəaliyyətini tam və ətraflı işıqlandırır. Bundan məqsəd təkcə faktları tamaşaçılara çatdırmaq deyil, həm də onun gördüyü işləri zəngin təcrübə məktəbi kimi gənc nəslə təqdim etməkdir.

Bildiyiniz kimi, Heydər Əliyev dühasından dünyanın müxtəlif ölkələrində diplomatlar, siyasətçilər öyrənir, istifadə edir və bəhrələnirlər. Bir çox ölkələrdə onun haqqında sənədli filmlər və verilişlər də hazırlanıb. Azərbaycan televiziyası da bu istiqamətlərdə az iş görməyib. «Böyük ömrün anları», «Fenomen» filmləri buna nümunə ola bilər. Bir millət vəkili kimi deyə bilərəm ki, dahi siyasətçi Heydər Əliyev məktəbi mənim üçün də yeganə və son dərəcə zəngin bir mənbədir. Ölkənin və cəmiyyətin inkişafında beynəlxalq standartlara uyğun qanunlar xüsusi əhəmiyyət kəsb edir. Mən də Milli Məclisin deputatı olaraq, müvafiq qanunların hazırlanmasında və qəbul olunmasında fəal iştirak etməyi əsas vəzifə sayıram. Bu işdə möhtərəm prezidentimizin yeritdiyi daxili və xarici siyasət, onun fikirləri və məsləhətləri, tövsiyələri həmişə mühüm mənbə olub və olaraq qalacaq.

**– 10 May – ad günü münasibətilə hörmətli prezidentimiz Heydər Əliyev cənabına qəzetimiz vasitəsilə ürək sözləriniz və arzularınız.**

– Möhtərəm prezidentimizə möhkəm cansağlığı, Azərbaycanın bu günü və gələcəyi naminə fəaliyyətində yeni uğurlar arzulayıram və əminəm ki, məhz onun yorulmaz fəaliyyəti nəticəsində ölkəmiz ərazi bütövlüyünü təmin edəcək, beynəlxalq miqyasda layiqli yerini tutacaq.

Müsahibəni apardı:
Rahib KƏRİMLİ,
*«Ad günü» qəzeti,*
*10 may 2001-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, ZATİ-ALİLƏRİ HEYDƏR ƏLİYEVƏ

Möhtərəm Prezident!

Sizi, müasir dünyamızın siyasət nəhəngini mübarək doğum gününüz – xalqımız üçün son dərəcə dəyərli və mənalı ömrünüzün 77-ci baharına qədəm qoymağınız münasibətilə teleradiomuzun kollektivi adından təbrik edir, ulu Tanrıdan doğma xalqımıza həsr etdiyiniz parlaq həyat salnamənizə bundan sonra da şanlı səhifələr yazılmasını diləyirik.

Peyğəmbərimizin «dünyada ən xoşbəxt adam ömrü uzun, əməli gözəl olan adamdır» müqəddəs kəlamı sanki Sizin üçün deyilmişdir. Çünki bütün ömrünü öz xalqının xoşbəxtliyinə həsr etmiş insanlara Tanrı özü əbədi xoşbəxtlik bəxş edir. Bu mənada indi hər bir azərbaycanlı fəxr edir ki, onun bütün həyatı əsl məktəb olan, bütün fəaliyyəti qlobal və bəşəri qayələrə xidmət edən Sizin kimi prezidenti vardır.

Tarix bizlərə Sizin kimi möhtəşəm şəxsiyyətin müasiri olmaq səadətini qismət etmişdir. Siz sona yetməkdə olan XX əsrin keşməkeşli tarixində əhəmiyyətli iz qoymuş və indi də öz xalqını müstəqillik yolları ilə XXI əsrə – demokratik bir cəmiyyətə doğru aparırsız. Biz, televiziya və radio işçiləri bundan böyük məmnunluq duyur, Sizin milli dirçəlişimiz, milli mənliyimiz, dilimiz və milli varlığımız uğrunda apardığınız fədakar mübarizənizi ürəkdən alqışlayır, bu yorulmaz, bütün nəsillərə nümunə olacaq nurlu fəaliyyətinizi televiziya ekranlarında işıqlandırmaqdan hədsiz zövq alırıq.

Hörmətli Prezident!

Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edirik. Sizə uzun ömür, cansağlığı, ölkəmiz və xalqımız üçün taleyüklü problemlərin həll edildiyi sınaq dövründə tükənməz mənəvi və fiziki potensialınızı xalqımızın gələcəyi naminə, müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, torpaqlarımızın bütövlüyü naminə apardığınız böyük işləri uğurla başa çatdırmaq işində müvəffəqiyyətlər arzulayırıq.

*«Ad günü» qəzeti,*
*10 may 2000-ci il*

## BU BAYRAM AZƏRBAYCAN XALQININ TARİXİNDƏ MİSİLSİZ HADİSƏDİR

*Müsahibimiz Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri, millət vəkili Nizami Xudiyevdir.*

**– Əvəzedilməz lider Heydər Əliyevin Azərbaycan xalqının taleyində rolu?**

– Ömrünün yarım əsrdən artıq bir dövrünü Azərbaycanın tərəqqisinə, milli mentalitetinin formalaşmasına, son 10 ildə isə istər Naxçıvan Muxtar Respublikasında Ali Sovetin sədri işlədiyi illərdə, istərsə də Azərbaycan prezidenti kimi fəaliyyəti ərzində müstəqil dövlətimizin beynəlxalq nüfuzunun möhkəmlənməsinə həsr etmiş əvəzedilməz lider Heydər Əliyevin xidmətləri hamıya yaxşı məlumdur. Mən təkcə ötən 7 il ərzində bu müdrik şəxsiyyətin Azərbaycanın dövlətçiliyi və xalqımızın tərəqqisi yolunda həyata keçirdiyi bəzi tədbirləri xatırlamaq istərdim. Zəngin təbii ehtiyatlara malik olan müstəqil Azərbaycan 1993-cü ilədək nə öz sərvətlərindən səmərəli istifadə edə bilir, nə də beynəlxalq miqyasda layiqincə tanınırdı. 1994-cü il sentyabrın 20-də imzalanan «Əsrin müqaviləsi» adı ilə bağlanan neft sazişi həqiqətən də Azərbaycanın inkişafı üçün taleyüklü hadisəyə çevrildi. Bu hadisədən sonra ölkəmizin beynəlxalq nüfuzunun yüksəliş dövrü başlanır. Daha sonra atəşkəs barədə Bişkək sazişi, "Böyük ipək yolu"nun bərpası üzrə Bakıda keçirilən iri beynəlxalq konfrans, Azərbaycan prezidentinin uzaqgörən xarici siyasətinin təntənəsinə çevrilən ATƏT-in Budapeştdə, Lissabonda və İstanbulda keçirilən sammitləri, elə-

cə də digər nüfuzlu beynəlxalq tədbirlərdə Azərbaycanın layiqincə təmsil olunması deyilənlərə parlaq nümunə ola bilər.

Bütün bunlar həm də ölkə daxilində sabitliyin bərpası, iqtisadiyyatın planlı şəkildə tərəqqisi, əhalinin sosial rifahının yaxşılaşdırılması ilə paralel davam edirdi. Əgər bütün bu deyilənlərə görkəmli siyasi xadim Heydər Əliyevin 1969-1983-cü illərdə Azərbaycanda rəhbər vəzifədə çalışdığı və 1983-cü ildən 1987-ci ilədək keçmiş Sovet İttifaqında yüksək hökumət vəzifəsində işlədiyi illərdə ölkəmiz üçün gördüyü işləri əlavə etsək, sözün əsl mənasında əvəzedilməz lider Heydər Əliyevin xalqımızın taleyində nə qədər misilsiz rol oynadığı barədə təsəvvür yaranır.

**– Heydər Əliyev ideyalarının davamçısı olaraq Azərbaycan Respublikasının Müstəqillik gününün 10 illiyi münasibətilə ürək sözlərinizi və arzularınızı bildirməyinizi Sizdən xahiş edirik.**

– Bəli, mən həmişə demişəm və yenə iftixar hissi ilə bildirirəm: harada işləməyimdən və hansı vəzifədə çalışmağımdan asılı olmayaraq, həmişə dahi şəxsiyyət, sözün əsl mənasında böyük müəllim, görkəmli dövlət və ictimai xadim Heydər Əliyevin təcrübəsindən bəhrələnmişəm və özümü onun ideyalarının ardıcıl davamçısı hesab edirəm. Bu bayram – Azərbaycanın müstəqilliyinin 10-cu ildönümü bütün Azərbaycan xalqının tarixində misilsiz hadisədir və belə bir gündə mənim ürək sözlərim, əlbəttə ki, nümayəndəsi olduğum xalqıma ən xoş arzularla bağlıdır. Mən arzu edərdim ki, xalqımızın, hər bir nümayəndəsi, harada çalışmağından asılı olmayaraq, hər kəs ilk növbədə öz əməli işi ilə Azərbaycanın yüksəlişi naminə fəaliyyət göstərsin. Yalnız belə olan təqdirdə şübhə etmirəm ki,

hazırkı dövrdə üzləşdiyimiz problemlər, xüsusən də qaçqın və məcburi köçkünlərin doğma yerlərinə qayıtması ilə bağlı çətinliklər aradan qaldırılacaq və ölkəmiz dünya sivilizasiyasına yeni töhfələrini bəxş edəcək.

**– Heydər Əliyev işığında fəaliyyət göstərən «Ad günü» qəzetinə münasibətiniz?**

– «Ad günü» qəzeti mətbu orqan kimi öz yaşamaq qabiliyyətini artıq sübut edib. Ümumiyyətlə, elə düşünürəm ki, dövlətçiliyimizin möhkəmlənməsi naminə, xalqın hərtərəfli tərəqqisi istiqamətində inamla addımlayan hər bir nəşr, mətbu orqan oxucu auditoriyası toplamağa qadirdir. «Ad günü» qəzetini də həmin mətbu orqanlardan biri hesab edirəm və onun kollektivinə uğurlar arzulayıram.

Müsahibəni qələmə aldı:
Rahib KƏRİMLİ,
*"Ad günü" qəzeti,*
*oktyabr, 2001-ci il*

# İLLƏRİN TƏNTƏNƏSİ

Müstəqil Azərbaycan özünün dahi rəhbərinin, cənab Heydər Əliyevin doğum gününü – 10 mayı layiqincə, böyük məhəbbətlə qeyd edir. Zəhmət adamı çalışdığı sahədə əməyi ilə, yaradıcı şəxs yeni uğuru ilə, müstəqil Vətənimizin sərhədlərini göz bəbəyi kimi qoruyan əsgərimiz sayıqlığı ilə hörmətli prezidentimizin doğum gününü sabaha böyük inamla qarşılayır. Biz bu günümüzün reallığını daha dərindən qiymətləndirmək üçün yaxın dünənimizə nəzər salaq.

**1993-cü ilin 10 may günü** – müstəqil Azərbaycan dövlətinin taleyi artıq sual altında idi. Çünki vətəndaş müharibəsinin alovu artıq insanların üz-gözünü qarsayırdı, adamların inamı sarsılmışdı, ölkədə xaos, anarxiya, dövlət çevrilişi kimi qorxulu vəziyyət reallaşmışdı. Xalq öz xilaskarını – cənab Heydər Əliyevi, Bakıya, respublikaya rəhbərlik etməyə israrla dəvət edirdi.

**1994-cü ilin 10 may günü** – artıq bütün təhlükələrin axan cənab Heydər Əliyev dühası, zəkası, təcrübəsi və incə siyasəti ilə cilovlanmış, ölkədə «Əsrin müqaviləsi»nin imzalanması, atəşkəsin dayandırılması, nizami ordu quruculuğu, iqtisadiyyatın dirçəldilməsi istiqamətlərində nəhəng, çevik siyasi fəallıq göstərilirdi.

**1995-ci ilin 10 may günü** – müstəqil Azərbaycan artıq ilk dəfə olaraq öz iradəsi ilə demokratik şəraitdə azad parlament seçkilərinə, milli Konstitusiyamızın qəbul edilməsinə ciddi hazırlıq mərhələsi keçirdi.

**1996-cı ilin 10 may günü** – Azərbaycanda özəlləşdirmə ilə bağlı Dövlət Proqramının reallaşmasına, daxili və

xarici sahələrdə siyasi uğurların möhkəmləndirilməsinə, ölkədə demokratiyanın daha önəmli inkişafında ciddi addımların atılmasına qədəm qoyulmuşdu. İqtisadiyyat dirçəlirdi. İnflyasiya kimi dəhşətli proses artıq cilovlanmışdı.

**1997-ci ilin 10 may günü** – müstəqil Azərbaycan «Əsrin müqaviləsi»nin ilk sevinclərini duymağa, NATO ilə əməkdaşlığa, Lissabon sammitinin uğuruna, iqtisadiyyatın tam sağlamlaşdırılmasına, ilk dəfə olaraq «Torpaq haqqında» Qanunlar toplusunun qəbul edilməsinə inamla çalışır.

**1998-ci ilin 10 may günü** – Cənab Heydər Əliyev dühası ölkənin siyasi və iqtisadi həyatında çox mühüm olacaq layihənin həyata keçirilməsinin hazırlıq dövrünə qədəm qoyur. Tükənməyən sərvət – Qədim «İpək Yolu»nun reallaşması üçün Bakıda beynəlxalq konfransın açılışına ciddi hazırlıq işləri görülür. Bundan əlavə, Azərbaycan xalqı demokratik cəmiyyətin inkişaf etdirilməsi ilə bağlı köklü islahatların aparılması üçün də çox ciddi addımlar atmağa hazırlaşır. Azad sözün, azad mətbuatın təşəkkül tapmasına əsas zəmin kimi senzuranın ləğv olunması artıq reallaşmaq ərəfəsindədir. Deməli, qarşıdan gələn prezident seçkilərinin daha demokratik, daha sivil qaydada keçirilməsi günün reallığına çevrilir.

**1999-cu ilin 10 may günü** – Müstəqil Azərbaycan dahi şəxsiyyət, möhtərəm prezidentimiz cənab Heydər Əliyevin uzaqgörən siyasətinin parlaq nəticələrinin təzahürü ərəfəsindədir. İstanbul sammiti ilə bağlı ciddi hazırlıq işləri yekunlaşır. Ölkənin mürəkkəb şəraitində – 1994-cü ilin dövlət çevrilişləri ab-havasında imzalanmış «Əsrin müqaviləsinin yekun nəticələrini xalq intizarla gözləyir. Ona görə ki, İstanbul sammitində Bakı-Ceyhan neft kəmərinin reallaşmasına qanuni zəmin yaradılacaq.

**2000-ci ilin 10 may günü** – Cənab Heydər Əliyev ziyasından müstəqil Azərbaycan dövləti artıq Avropa Şurasının qapısını inamla döyür. Ölkə iqtisadiyyatının nəbzi aramla vurur. Müstəqil Azərbaycan dünyanın siyasi arenasında artıq öz sözünü cəsarətlə, məntiqlə deməyə özündə güc toplamışdı. Deməli, dünyanın super dövlətlərinin maraq dairəsində olan Qarabağ probleminin həlli tam reallaşmaq ərəfəsindədir. Hörmətli prezidentimiz, cənab Heydər Əliyevin belə bir nikbin əhval-ruhiyyədə doğum gününü Dövlət Teleradio Verilişləri Şirkətinin çoxminli kollektivi adından səmimi qəlbdən təbrik edirik! Möhtərəm prezidentimizə uzun ömür və möhkəm cansağlığı arzulayırıq.

*«Aktual» qəzeti,*
*10 may 2000-ci il*

## HEYDƏR ƏLİYEV: AZƏRBAYCAN TELEVİZİYASI VƏ RADİOSU

Teleradio XX əsrin ən möhtəşəm kəşflərindəndir. Hər gün insanlarla ünsiyyətdə olan və cəmiyyət həyatında əvəzsiz yer tutan bu elektron KİV sahələri yarandığı gündən informasiya liderliyini öz əlində saxlamışdır. Xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsipləri fəaliyyət məqsədinə çevirən teleradio öz inkişafında bir neçə mərhələni yaşamışdır: a) təşəkkül və formalaşma; b) yerli qovşaq, qurğu, radio-şəbəkədən ümumittifaq yayım şirkətinə çevrilmə; c) yetkinlik və dünyaya inteqrasiya.

Bu mərhələlərin ideoloji qəlibləri nəzərə alınmasa, teleradio ölkədə savadsızlığın ləğvi, auditoriyanın vətəndaş kimi yetişdirilməsi, onların əməyə ictimai fəallıq ruhunda tərbiyə olunmasında böyük xidmətlər göstərdi. 1926-cı ildə yaranan Azərbaycan radiosu və 1956-cı ildə efir ömrü başlayan televiziyamız da SSRİ məkanında belə total xidmətlər sferasında özünəməxsus yer tutdu. Radionun, televiziyanın tarixi bütövlükdə xalqın ictimai siyasi, milli-mənəvi sahədə inkişafının salnaməsidir. Yarandığı ilk dövrlərdə hərbi-siyasi, su nəqliyyatının hərəkəti haqda məlumatları «Morze əlifbası» vasitəsilə ünvanına çatdıran radio, sonrakı mərhələdə cəmiyyət həyatına fəal nüfuz edən ideoloji vasitəyə çevrildi. O, tezliklə milyonların arzu, fikir, düşüncə ortağına çevrilərək, informasiya cəbhəsində ön mövqeyə çıxdı. Televiziyanın yaranması efirdə insanın fəallığını daha da artırdı.

Cəmiyyətin idarə olunmasında ən sərfəli vasitə olan «kağızsız və məsafəsiz qəzet» XX əsrin ortalarından ən

güclü təbliğat sisteminə çevrildi. Qısa müddət ərzində radionun inkişafına dair 200-dən artıq sənədin, o cümlədən 9 dekretin imzalanması ölkədə radio işinin əhəmiyyəti haqqında təsəvvür yaradır. Ölkənin kütləvi şəkildə radiolaşması günün ən vacib işi hesab edildi. RTV-nin ölkədə təşəkkül və formalaşması mərhələsi analoqu olmayan bir sürətlə davam edirdi. Sonrakı mərhələdə radio verilişlərinin, teletranslyasiyaların keyfiyyəti məsələləri ətrafında ciddi yaradıcılıq işi başlandı. SSRİ-nin bu sahədə nailiyyətləri ən inkişaf etmiş xarici ölkələri arxada qoyurdu. Xüsusən, Böyük Vətən müharibəsindən sonra telesənayenin inkişafı, ilk teleyayımların başlanması dünyanın diqqətini cəlb etdi. Sovet hökuməti teleradio informasiyasının hüdudsuzluğunda ideoloji rəqiblərinə üstünlük vasitəsi kimi baxırdı. Bu məqsədlə ölkədə radio və televiziyanın intensiv inkişafı dövlətin prioritet siyasəti olaraq planlı şəkildə həyata keçirilirdi. Xüsusən, xarici ölkələrə radio yayımı bu vaxt böyük əhəmiyyət kəsb edir, güclü maliyyə vəsaiti ayrılırdı.

Təəssüflər olsun ki, teleradionun postsovet rejimindəki belə sürətli inkişafın bir çox üstün parametrlərinə baxmayaraq, dünyaya inteqrasiya edə bilmədi. Əsas məqsədi siyasi avantüraya, ideoloji mübarizə, qonşu dövlətlərin daxili işinə qarışmaq, xalqlar arasına ədavət toxumu səpmək olan teleradionun fəaliyyəti məhəlli, məhdud vəziyyətdə – qapalı qaldı. Halbuki, postsovet məkanında Azərbaycan ədəbiyyatının və mədəniyyətinin bir çox sahələrində olduğu kimi teleradio mühitində də milli, müstəqil düşüncəyə əsaslanan proqramlar fəaliyyət göstərirdi. Təkcə bir fakt: 70-ci illərin əvvəllərində efir ömrü başlayan «Bulaq» radio proqramı ölkəmizin hüdudlarından da uzaqlarda geniş dinləyici auditoriyası

qazanmış, azərbaycançılıq, türkçülük ideyalarını o siyasi əsarət dövrü qadağalarından yayınıb yaymağa imkan, cəsarət tapa bilmişdi.

60-cı illərin sonları, 70-ci illərin əvvəlləri Azərbaycan ekran və efirində bu düşüncə tərzi, fikir plüralizmi, iradə azadlığı nədən və necə yaranmışdır? İmperiya funksionerlərinin «Şərqin qapısı» adlandırdıqları və bu qapını daim əllərində möhkəm saxlamağa çalışdıqları bir vaxtda Azərbaycan teleradiosunun fəaliyyətində bu sərbəstlik və nisbi azadlıq hansı qüvvənin hesabına mümkün olmuşdur? Bu sualların birmənalı cavabı indi heç kəsdə şübhə doğurmur: «Ölkənin siyasi hakimiyyətinə ulu öndərimiz Heydər Əliyevin gəlişi 70-80-ci, daha sonrakı illərin milli oyanış və özünüdərk faktlarının əsasında dayanır».

Heydər Əliyev şəxsiyyətinin milli-mənəvi keyfiyyətləri fenomen idarəçilik, dövlətçilik səriştəsi ilə birləşərək, hətta imperiya funksionerlərini belə onunla razılaşmağa, ən prinsipial qərarların qəbulu zamanı onunla hesablaşmağa məcbur edirdi. Super dövlətin tərkibində Azərbaycanın nisbi iqtisadi, mədəni müstəqilliyini təmin edən Heydər Əliyev məhz bu dəmir məntiqi ilə bir çox proyektlərin vətənimizdə reallaşmasına nail ola bilirdi. İnkişaf edən kənd təsərrüfatı ilə güclü sənaye potensialını uzlaşdırmaq üçün o vaxtkı ölkə rəhbərlərinin diqqətini Cənubi Qafqaza çevirir, təbii ehtiyatların yerli sakinlərin rifahı naminə sərf olunmasına şərait yaradırdı. Bu məqsədlə mərkəzdən yeni zavod və fabriklərin tikilməsi razılığını alır, bütün bu nəhəng proyektləri sürətlə həyata keçirmək üçün xalqın ruhunu yüksəltməyə, onun ittifaq miqyasında nüfuzunu artırmağa çalışırdı. H.Əliyev bu işi paralel görməyə üstünlük verərək hesab edirdi ki, mənəvi

dəyərlərin, xalq adət və ənənələrinin dirçəldilməsi, ölkə iqtisadiyyatının ritminə təkan verəcək. O vaxta kimi dini bayram hesab olunan Novruzun «Bahar bayramı» adı ilə ilk dəfə dövlət səviyyəsində keçirilməsi də Heydər Əliyevin köməyi və şəxsiyyətinin SSRİ-dəki nüfuzu hesabına baş tutdu. Kinolentlərdə qorunan həmin xoşbəxt anlar xalqımıza daim əzilən ruhunu qaytarırdı. Faktlar göstərir ki, zəhmətkeşlər həmin ilin təsərrüfat həyatında ruh yüksəkliyi nümayiş etdirərək, fövqəladə uğurlar qazanmışdılar. İnsanların bu mənəvi, iqtisadi dirçəlişi tarixə, salnaməyə çevrilməli, gələcək nəsillər üçün inkişaf tendensiyasına əsas yaratmalı idi. Hakimiyyətinin ilk illərində H.Əliyev belə bir qlobal xidməti yalnız ən kütləvi informasiya vasitəsi olan televiziyanın, radionun həyata keçirə biləcəyinə inanırdı. Bu inamın nəticəsi kimi, 1970-ci ildə şirkətin nəzdində "Azərbaycantelefilm" Yaradıcılıq Birliyi yaradıldı. Yaşadığı torpağı cənnətə çevirən, onun nemətlərini xalqın süfrəsinə çevirən əmək qəhrəmanlarının portretlərini əks etdirən sənədli filmlərin, xronikaların yaranması respublika rəhbərinin əmək adamlarına qayğı və diqqətinin nəticəsi idi. «Sürəyya», «Sevilin bacıları», «Mexanizator Nazilə», «Azərbaycan ipəyi», «Muğanın qəhrəmanları» və s. onlarla, yüzlərlə sənədli film məhz 70-80-ci illərdə lentə alınaraq, dövrün salnaməsinə çevrildi. Bu ənənə sonrakı illərdə Azərbaycan mənəviyyatının ən görkəmli simalarının portretlərini yaradarkən də eyni diqqət və peşəkarlıqla həyata keçirildi. Məhz Heydər Əliyevin təqdimatı və təkidli tələbləri ilə ölkənin ən yüksək fəxri adlarına layiq görülmüş Qara Qarayev, Fikrət Əmirov, Tahir Salahov, Süleyman Rəhimov, Mirzə İbrahimov və başqa görkəmli ədəbiyyat, incəsənət xadimləri haqqında sənədli filmlər çəkildi,

«Azərbaycantelefilmi»nin gündəlik işi respublikamızın bütün sahələrini əhatə etdi.

**«70-ci illərdə Milli Televiziya Azərbaycanın bütün ərazilərini əhatə etmiş və respublikamızın bütün vətəndaşlarının istifadəsinə verilmişdir. Bu çox gərgin işin nəticəsi dövlətin Azərbaycan xalqına, vətəndaşlarımıza göstərdiyi qayğının təzahürü olmuşdur. Bunlar hamısı respublikamızın həyatını canlandırmış, yeni-yeni kütləvi informasiya formalarının inkişaf etməsinə əsas yaratmışdır».*** 

Xalqın ruhu həm də onun epik ənənələr toplusu olan eposlarda, folklor irsində və bu işin canlı daşıyıcısı olan mərasim folklorunda yaşayır. Hər il təkrarlanan belə mərasim təkcə tarixi yaddaşın bərpası faktı kimi deyil, həm də insanların yaradıcılıq, əmək, hünər imkanlarını artırması ilə müşahidə olunur. Qədim zamanların ən qüdrətli ideoloji vasitəsi olan ənənələr, bayramlar xalqın çoxəsrlik bioenerjisini özündə qoruması ilə əhəmiyyətlidir. Bu milli maraq və düşüncə faktını təməl prinsipləri kimi qəbul edən ulu öndərimizin idarəçilik prinsiplərində folklorun inkişafına geniş yer ayırdığı özünü göstərir. Təkcə Novruz bayramının xalqa qaytarılması deyil, 70-ci illərdən radio və televiziyada yaradılan milli yaddaş ünvanlı onlarla proqramın təsir gücündən saatlarla danışmaq olar.

34 ildən artıq fəaliyyət göstərən «Bulaq» belə milli verilişlərin ilk qaranquşu oldu. Ölkə başçısının xeyir-duası ilə fəaliyyətə başlayan bu radio-toplu ilk dəfə Azərbaycan efirinə şifahi nitqin ən koloritli, milli, etnoqrafik, xalq

---

* Qeyd: qara hərflərlə verilmiş sitatlar mərhum prezidentimiz Heydər Əliyevin Azərbaycan televiziyasının 40 illik yubiley tədbirindəki nitqindən götürülmüşdür.

düşüncə tərzi ilə cilalanmış nəfəsini gətirdi. Respublikanın ən ucqar nöqtələrinə nüfuz edib, etnoqrafik özəlliklərdən, say-seçmə folklor nümunələrindən, xalq düşüncəsini müasir dünyamızın tələbləri baxımından üzə çıxaran bu proqramın tezliklə beynəlxalq poçtu yarandı. Sovet sərhədlərindən quşların belə keçməyə cəsarət etmədiyi bir vaxtda radio dalğaları ilə az qala bütün Şərqə yayımlanan «Bulaq» xaricdəki soydaşlarımızın arzu və istəklərini vahid dil, düşüncə, ortaq vətən duyğularını ifadə edən məktubları efirdə səsləndirdi. Bu dövrdə təhlükəsizlik orqanlarının güclü nəzarəti mətbuat, RTV üzərindəki senzuranın çətinlikləri də ölkə başçısının bu milli fəaliyyət sahəsinə diqqəti işığında əriyib itirdi. Bu diqqət və qayğının təsiri ilə uzun və səmərəli yaradıcılıq yolu keçən «Bulağ»ın müstəqillik uğrunda sonrakı mübarizələrə çox-çox əvvəllərdən xidmət göstərdiyini folklorşünaslar, sosioloqlar jurnalistlər etiraf edirdilər. H.Əliyevin göstəriş və məsləhəti əsasında bu işin daha geniş auditoriyası televiziyada «Bulağ»ın analoqu «Ozan» folklor toplusu yaradıldı (1981). «Ozan» teletoplusu da «Bulaq» kimi tezliklə ümumxalq məhəbbəti qazandı. Hər sayına gələn minlərlə tamaşaçı məktubu bu rəğbəti ifadə edirdi. «Ozan»ın da arxivi AMEA-nın folklor institutu tərəfindən alındı, tədqiq olundu. «Ozan»ın muzeyi bu gün də Folklor institutunun ən dəyərli, zəngin etnoqrafik kolleksiyası kimi nümayiş etdirilir. Sonralar istər radioda, istərsə də televiziyada xalq yaradıcılığı məsələlərinin ayrıca redaksiyalar vasitəsilə təbliği bu sahəyə dövlət qayğısını əks etdirir. Folklorun toplanması, elmi təhlili, təbliği sahəsində bu redaksiyaların gördüyü iş təkcə ölkəmizdə deyil, AzTV-nin nüfuz etdiyi türkdilli respublikalarda geniş rezonans doğurur.

Heydər Əliyev ekranda elmin, mədəniyyətin nailiyyətlərinin təbliğinə, ictimai rəy TV-nin təsiri məsələlərinə, televiziya ilə təbliğata çox böyük əhəmiyyət verirdi. O, televiziya işçilərinin böyük dostu, məsləhətçisi, himayədarı idi. Ötən illər pambıq tarlalarında, əmək müəssisələrində, qızmar günəş altında kənd əməkçiləri, fəhlələrlə görüşləri zamanı hansı mövzuları daha çox işıqlandırmaq, nələrdən daha çox bəhs etmək gərək olduğunu, bir çox hallarda isə hansı janrlarda proqramlar hazırlamağı TV işçilərinə H.Əliyev məsləhət görürdü. Dövlət işlərinin hədsiz çox olmasına baxmayaraq, ölkə başçısı təbliğatın bu növünü daim diqqətdə saxlayır, reportyorların ən adi suallarına belə ətraflı cavablar verirdi. O, TV ilə, radio ilə xalqa çatdırılan informasiyanın miqyasını və təsirliliyini yüksək qiymətləndirərək deyirdi: **«Televiziya bütün informasiya orqanlarından ən kütləvisidir. İndi heç kəs öz həyatını televiziyasız təsəvvür edə bilməz. Yəqin ki, televiziyasız yaşamaq da olmaz. Televiziya Azərbaycan xalqının milli sərvətidir».**

Ulu öndərimiz H.Əliyevin ana dilinə, əlifbamıza, milli dəyərlərə, tarixi və ədəbi şəxsiyyətlərimizə münasibəti bir çox sahələr kimi RTV əməkdaşlarının da perspektiv planlarını dəqiqləşdirirdi. 50 ilə yaxın yaradıcılıq ömrü yaşayan Azərbaycan televiziyasının böyük bir dövrü H.Əliyev ideyalarından su içmiş, cəmiyyətin ən müxtəlif təbəqələrinin arzu və maraqlarını əks etdirməkdə optimal yol seçə bilmişdir. Bu istiqamətlər dünya şöhrətli siyasətçinin idarəçilik məktəbində yetişən telejurnalistlərin, rejissorların, operator və digər sənət sahiblərinin peşəkarlığı hesabına informasiyanın elmi-kütləvi və bədii-əyləncəli materialların ən maraqlı formalarda təqdimatına yol açmışdır. Bir çox RTV nəzəriyyəçilərinin və təcrübəli jurnalist-

lərin gəldiyi qənaətə görə, H.Əliyev teleradio ilə təbliğatın əsasən tarixi-siyasi, milli əxlaqi, elm-maarifçilik istiqamətlərinə öz çıxış və məruzələrində ideyalar verirdi. Hələ SSRİ məkanında Azərbaycan tarixinin öyrənilməsi, bu sahədə çoxcildliklərin yaradılması, tarix və etnoqrafiya institutlarının bazasının gücləndirilməsi, qədim yaşayış məskənləri – Azıx mağarasında, Şabranda, Gəmiqayada, Qəbələ və başqa tarixi abidələrdə bu işin intensivliyinin vacibliyi ölkə başçısının o dövr üçün heç də asan başa gəlməyən çıxışlarında öz əksini tapırdı. Sonralar bu elmi-tədqiqat işləri sənədli filmlər hesabına öz miqyasını daha da genişləndirdi. Bu, Azərbaycan tarixinin təbliği istiqamətində milli borcun yerinə yetirilməsi demək idi. Tarixi biliklərin kütləviləşdirilməsi, tədrisin elektron informasiya vasitəsinə keçirilməsi və əhalinin marağının bu sahəyə istiqamətləndirilməsi də H.Əliyev ideyalarından idi. Azərbaycan televiziyasının bu sahədə gördüyü işlərin miqyası elm və təhsil redaksiyasının yaranması ilə nəticələndi. Xain qonşuların ərazilərimizə qarşı iddiası o vaxt da gizli, gözəgörünməz xətlərlə davam etdirilirdi. Xalqa öz tarixini, ərazilərini, milli soy-kökünü tanıtmağın vacibliyi həmişə aktual əhəmiyyət daşımışdır. Ən yeni tarixin müəllifi olan H.Əliyev hələ SSRİ-nin «qardaşlıq ailəsində» özünü tanımağı məhz tarixi bilməkdə, ana dilinə sahiblikdə, milli hərbi kadrları yaratmaqda görürdü. Bu işdə teleradionun rolunu yüksək qiymətləndirirdi. TV-də elm-təhsil, maarifçilik istiqamətli verilişlərin sayının artırılması həm də Azərbaycan dilinin funksionallığının yüksəlişinə təkan verirdi. Postsovet rejimində Azərbaycan dili ilk dəfə məhz H.Əliyevin rəsmi çıxışlarında eşidilərək status qazandı, işləkliyini, auditoriyasını xeyli genişləndirmiş oldu. Tezliklə ölkə başçısının saf, dil qanunları və normativ-

lərinə uyğun zəngin informasiyalı, spesifik intonasiyası ilə nümunə olan dili canlı örnəyə çevrildi. Çoxcildlilik «Azərbaycan dili» dərsliklərinin müəlliflərinə Dövlət Mükafatı verilməsi H.Əliyevin ana dilinə öz yüksək dövləti və milli münasibəti idi. Məhz bundan sonra ana dilinin qanunları sahəsində yeni axtarışlar, tədqiqatlar başlandı. TV-də qoşadilliliyin aradan qaldırılması istiqamətində işlərə də təkan verən elə ölkə başçısının öz çıxışlarını ana dilində qurması oldu. Birinci şəxsə görə düzlənən ölkə rəsmiləri o vaxtdan ana dili kurslarına yazılmağa məcbur oldular. Regionlarda belə milli siyasət aparmaq, Azərbaycan dilini ana dili kimi o vaxtkı konstitusiyada təsbit etmək ölkə başçılarından titanik güc, cəsarət, ən başlıcası isə vətənə, millətə hədsiz sevgi tələb edirdi. H.Əliyev bunu bacardı və bütün çətinliklərin öhdəsindən məharətlə gəldi. Bu gün Azərbaycan radiosunun və televiziyasının dilinin ədəbi dil normasına, bir növ etalona çevrilməsi (ölkə prezidenti milli RTV-in dilindən dəfələrlə razılıq edib) məhz H.Əliyevin nitq mədəniyyətinin təməl prinsiplərinə əməl etməsi sayəsində başa gəlmişdir. Dilin təbliğində, funksionallığının artırılmasında TV əməkdaşlarının xidmətlərini yüksək qiymətləndirən ölkə başçısı bu sahədə çalışanların şəxsi nümunəsinə, əməksevərliyinə önəm verirdi: **«Televiziya böyük bir aləmdir. Ancaq televiziyanın hər bir yerdə, o cümlədən Azərbaycanda da bu günə çatması çox böyük və gərgin işin nəticəsində olmuşdur. Televiziyanın bugünkü səviyyəsi televiziyada çalışanların, eləcə də televiziya vasitəsilə televiziyadan istifadə edərək öz nailiyyətlərini və xalqın nailiyyətlərini kütlələrə, vətəndaşlara çatdıran, ölkənin ayrı-ayrı sahələrində çalışan insanların fəaliyyətinin nəticəsində olmuşdur».**

Dilə milli varlığın təməl prinsipi kimi önəm verən ölkə başçısının ideyaları əsasında hazırlanan «Azərbaycan dili» proqramı, folklor, milli yaddaş ünvanlı «Oğuz», «Turan», «Qala», «Karvan» və s. kimi verilişlər məhz ideyalılığı ilə uzunömürlülük qazanmışlar.

Müstəqil ölkəmizdə akkreditə olunmuş səfirliklərin əməkdaşlarının Azərbaycan dilini öyrənmək sahəsindəki maraqları bu proqramların səhifələrində geniş yer alır. İstər paytaxt reklamlarının yerləşdirilməsində, istərsə də telekanallardakı reklamlarda dil baxımından baş alıb gedən nöqsanlar elə TV-lərin öz düşünülmüş təbliğatı vasitəsilə aradan qaldırılmalıdır. Bu proqramlarda dilin tarixi, inkişafı, zəngin lüğət fondu, leksik-qrammatik imkanları, dünyanın sivil dilləri sırasında yeri, söz mübadiləsi imkanları barədə verilən məlumatlar xarici ölkə vətəndaşlarında dilimizə güclü maraq yaradır. Prezident dilimizə isti münasibət bəsləyib onu tez bir zamanda öyrənən səfirlərlə görüşü zamanı bu faktın dövlətlərarası ünsiyyətin artmasında böyük əhəmiyyət kəsb etdiyini vurğulayırdı. TV-də xarici vətəndaşlar üçün Azərbaycan dili kurslarının açılması ideyası ölkə başçısının bu istiqamətdəki ideyaları əsasında formalaşıb.

Tarix, dil, mənəvi dəyərlərin TV təbliğatı işin bir tərəfidirsə, hərbi vətənpərvərlik təbliğatı müstəqilliyimizin davamlılığı istiqamətində başlıca amildir. 90-cı illərin əvvəllərindən bu iş özfəaliyyət xarakter daşıyır, torpaqlarına təcavüz olunan dövlətin ordu quruculuğu sahəsində təbliğatı antitəbliğata çevrilmişdi. Şəxsi telekamerası olan hər kəs cəbhə bölgələrinə gedib döyüş mövqelərinə çıxa bilirdi ki, çox vaxt efirdən göstərilən belə kadrlar əsgərlərimizin mövqeləri, hərbi vəziyyət haqqında düşmənə bilməyərəkdən informasiyalar ötürürdü. Beləliklə, ölkənin

hərbi sirri düşmən əlinə keçir, məğlubiyyətlərə qapı açmış olurdu. H.Əliyevin hakimiyyətə ikinci qayıdışından sonra ordu vahid komandanlıq altına keçdi, bu sahədəki təbliğat da hərbi dövrün qanunlarına uyğun nizamlanmış oldu. Cəbhə bölgəsində döyüşən əsgərlərlə ölkə başçısının keçirdiyi intensiv görüşlər onlarda qələbəyə inamı artırdı. Üzərində «Əliyev uğrunda» şüarı yazılmış tanklar tarixi xronikalara köçmüş oldu. Ölkədə, eləcə də orduda yaranan dəmir intizam TV proqramlarının bu sahədəki fəaliyyətini də tənzimlədi. H.Əliyevin hərbçilər qarşısında hər çıxışı, onların hünərə, zəfərə görə rəğbətləndirilməsi, kişilik məktəbi vətəndaşlıq işi olan bu sahənin efir təbliğatına da yeni ideyalar, forma və janrlar bəxş etmiş oldu.

Hələ 70-ci illərdən hərbi məktəblər açmaqla milli kadrlar yetişdirmək ideyasını həyata keçirən ulu öndərimiz müstəqillik dövründə bu sahədə təbliğatın ən yüksək fazaya çatdırılmasını tövsiyə edirdi. Döyüş bölgələrində rəşadət göstərən əsgərlərin hünərini lentə köçürən televiziya işçilərinin fədakarlığını daha yüksək dəyərləndirirdi: **«Azərbaycan torpaqlarının keşiyində duran, onların qorunması uğrunda döyüşən, çalışan, vuruşan insanların həyatının döyüş səhnələrinin televiziya ilə təbliğ edilməsi, əhaliyə çatdırılması bizim həyatımızda onların böyük xidmətidir».**

Ordu quruculuğunda hərb tariximizin öyrənilməsinə önəm verən ölkə başçısı çıxışlarında Ə.Şıxlinski, S.Mehmandarov kimi sərkərdələrin adlarını fəxrlə çəkirdi. Azərbaycan TV-si bu tövsiyələri əsasən iki istiqamətdə: a) hərb tariximizin salnaməsini vərəqləmək; b) Azərbaycan ordusunun bu gününü əks etdirməklə işıqlandırmağı planlaşdırdı. Prezidentin şəxsi məsləhətləri, tövsiyələri zamanı hiss edirdim ki, «Qədim hərb tariximiz», «Hərbi taktika və

fəndlər», «Xanlıqlar dövrünün hərb tarixi», «Türk savaş sənəti» kimi verilişlərimizin qəhrəmanlıq ruhu onu razı salır. Azərbaycan ordusunun bu günü, əsgərlərimizin döyüş hazırlığı, çağırışçıların psixoloji aktivliyini əks etdirən «Aypara», «Azərbaycan ordusu», «Səngər», «El bir olsa» kimi proqramlar da, əslində ölkə başçısının ordu quruculuğu sahəsində fikir və ideyalarının teleəksi idi.

Ən yeni tariximizin yaddaşa çevrilməsində televiziyanın əvəzsiz xidmətlərini dönə-dönə qeyd edən prezidentimiz bu sahədəki təbliğatın intensivliyinə diqqət yetirməyi tələb edirdi. İstər ölkə daxilində şəxsi maraqlar, vəzifə hərisliyi istiqamətində yaradılan çaxnaşmaları, istərsə də cəbhə bölgələrində düşmənin ölkəmizə vurduğu maddi-mənəvi zərbələri gənc nəslə xatırlamağın, xəyanətin və düşmənçiliyin səbəblərini tədqiq etməyin ümumdövlət işi olduğu barədə prezidentin tövsiyələri verilişlərdə öz əksini tapır və TV əməkdaşlarının əsas fəaliyyət istiqamətinə çevrilirdi. Müstəqillik uğrunda mübarizəyə qalxan Azərbaycan xalqının imperiya orduları tərəfindən qan gölündə boğulmasını əks etdirən xronikaları (20 Yanvar, 1990) prezident göz bəbəyi kimi qorumağı tövsiyə edirdi. Çünki o kadrların hər birində Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsinin qanlı salnaməsi əks olunurdu. O dövrdə Teleradio Şirkətinin qorxaq və xəyanətkar rəhbərlərindən fərqli olaraq, vətənpərvər, sadə əməkdaşlarının tarix üçün gördükləri işi yüksək qiymətləndirən dövlət başçısı teleradionun səngərdə dayandığını diqqətə çatdırırdı: «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə olunmasında televiziyanın böyük xidmətləri olubdur. 1990-cı ildə 20 Yanvar faciəsi Azərbaycan xalqı üçün böyük bir bəla olmuşdur. O vaxt xalqın səsini boğmaq üçün çox dəhşətli üsullara əl atılmışdır. Azərbaycana hərbi təcavüz

edilmişdir və bu təcavüz əməliyyatları içərisində Azərbaycan televiziyasının enerji blokunun partladılması həmin o ağır günlərdə, mübarizə günlərində Azərbaycan xalqının iradəsini sındırmaq üçün, onu məlumatsız qoymaq üçün belə bir cinayət törədilmişdir. Bu Azərbaycan televiziyasının tarixində önəmli yer tutur. Həm də tək Moskvada yox, Azərbaycanın daxilində Azərbaycan rəhbərliyində cinayətkar qüvvələr Azərbaycan televiziyasının enerji blokunu partlatmışlar. Mən bu hadisəni məhz ona görə xatırladıram aydın olsun ki, televiziyanın nə qədər böyük imkanı var, televiziya nə qədər lazımlı bir vasitədir».

H.Əliyevin qayğısı ilə güclənib inkişaf edən bu kütləvi elektron informasiya vasitəsi çox təəssüf ki, müxtəlif illərdə xəyanətkar əllərə keçərək antixalq, antimillət mövqeyi tutdu, İmperiya maraqlarına xidmət göstərib, on illərlə ölkə inkişafının tendensiyalarını izləyən xronikalar yandırılıb, məhv edildi (həm də ona görə ki, bütün bu inkişaf H.Əliyevin adı ilə bağlı idi). TV-nin qızıl fondu bərbad vəziyyətə salındı. Ölkə başçısı qazanılmış nailiyyətlərin üzərinə kölgə salmağa cəhd edən «Dalğa», «Aktual ekran» və s. kimi verilişləri hazırlatdıranları belə tanıtdırırdı: «O, dövrdə cinayətlər törədib, həbs olunmuş adamları «Heydər Əliyev dövrünün qurbanları» adı ilə ekrana çıxarıb mənim əleyhimə danışdırırdılar».

Bu gün müxtəlif mətbuat orqanlarında, bəzi özəl TV-lərin ekranlarında özlərini peşəkar kimi qələmə verənlər, əslində 1982-1993-cü illər idarəçiliyindəki boşluqdan istifadə edib TV-nin fondunu məhv edənlərdir. AXC-Müsavat «hakimiyyəti» dövründə də bu uzaqvuran siyasət silahından onun yaradıcısı və ilhamçısı olan H.Əliyevə qarşı yalanlar, iftiralar yaymaq üçün istifadə edilir, onun vətən, xalq qarşısındakı xidmətləri üzərinə iyrənc üsullarla

kölgə salmağa çalışırdılar. Lakin ən adi xronikalarda belə yaşayan inkişaf, tərəqqi çox vaxt opponentləri TV arxivinin yaddaşından qıfıl asmağa vadar edirdi. Beləcə həyatın güzgüsü sayılan TV-ni on ilə yaxın dövr ərzində ya susmağa, ya da yalan deməyə vadar etdilər. H.Əliyev belə haqsızlıq məqamlarında da sadə TV əməkdaşlarından incimir, onların sevgisinə, səmimiyyətinə, öz peşəsinə sədaqətinə inanırdı. 1993-cü ildə yenidən hakimiyyətə qayıdarkən böyük diqqət və qayğıkeşliklə bir vaxtlar onu lentə alan operatorları kütlə içərisində gözü axtarır, onların taleyi ilə maraqlanırdı (Təəssüf ki, belə sədaqətli əməkdaşların bir çoxu o vaxt televiziyadan uzaqlaşdırılmışdı).

H.Əliyevin TV ilə əlaqəsi bir neçə istiqamətdə öz əksini tapır: a) dövlət əhəmiyyətli qlobal problemlərin həllində iştirak edən strukturlardan biri kimi ümumi göstərişlər istiqamətində; b) KİV sistemində həyata keçirilən təşkilatçılıq işlərinin istiqamətində; c) RTV ilə birbaşa əməkdaşlıqdan meydana gələn göstərişlər, məsləhətlər əsasında. Birinci bölümün doğurduğu ideyaların həyata keçirilməsində Teleradioda sistemli iş quran ictimai-siyasi proqramlar redaksiyası ən yeni tariximizdə baş verən dövlətçiliyə qəsd, Xocalı faciəsi, torpaqlarımızın işğalı günləri ilə bağlı yaddaş bülletenləri təqdim edir, erməni vəhşilikləri, terror və cinayətləri barədə silsilə verilişlər hazırlayır. Bu silsilədən olan «Xəyanət», «Qəsd», «Xocalı – qan yaddaşımız» və s. verilişlər ulu öndərimizin ideyaları əsasında efir həyatı qazanır. Vətəndaş yaddaşını daim sayıq saxlamağa xidmət edən «Dialoq», «Günün nəbzi» kimi canlı yayımlar isə ən aktual ictimai-siyasi məsələlərin işıqlandırılması istiqamətində dövlət başçısının çıxış və məruzələrindəki ideyalara əsaslanırdı.

Ölkənin xarici və daxili siyasətini ən operativ şəkildə

əks etdirən «Xəbərlər» proqramı son dövrlər öz bülletenlərinin sayını xeyli artırmışdır. H.Əliyev cənabları xəbərin müasir prinsiplərinə – operativliyinə, qərəzsizliyinə, dəqiqliyinə, yığcamlığına, bülletendən-bülletenə inkişaf tendensiyasına çox əhəmiyyət verirdi. Xəbərin düzümü informasiya bülletenində əsas şərtlərdən hesab olunur. Bir çox hallarda mühüm dövləti əhəmiyyət kəsb edən hadisələr haqqında informasiyanın orijinal təqdimatı, yeri və forması barədə cənab prezident özü münasibət bildirirdi. Mərhum prezidentimiz ingilis dilində xəbərlər bülleteninin efirə çıxmasını təqdir etmiş, bu sahədə işlərin daha sivil formalarını axtarıb tapmaq, Azərbaycanı beynəlxalq aləmə təqdim etməyin çox gərəkli iş olduğunu demişdir.

İctimai-siyasi hadisələri həyatın özü diktə etdiyinə görə, bu barədə ən optimal TV istiqaməti ölkə başçısının hadisələrə münasibəti hesab olunurdu. Lakin kütlələrin mənəvi-əxlaqi və estetik tərbiyəsində KİV-in rolu, ictimai funksiyaları barədə Heydər Əliyevin dəfələrlə qeyd və təklifləri olmuşdur. O, mətbuat qalmaqalları zamanı fikir plüralizmi adı ilə dövlətçilik əleyhinə ideyalar yayan, ayrı-ayrı şəxslərin inhisarına çevrilən KİV vasitələrinin əməkdaşları ilə görüşlərində bir sıra dəyərli, konseptual məsləhətlər də verirdi. Mətbuatdan, RTV-dən senzuranı ləğv edən H.Əliyev yalnız söz, fikir əxlaqsızlığına dözə bilmirdi. Hətta onun əleyhinə iftira və böhtan dolu məqalələr çap etdirən müxtəlif müxalifət mətbuatının nəşriyyatlara maliyyə borclarını bağışlarkən onlardan bircə vicdana sədaqətli olmağı, vətən şərəfini ucuz şeylərə qurban verməməyi tələb edirdi. Ümumilikdə mətbuat, jurnalistika ilə bağlı bu tövsiyələr Azərbaycan Teleradio Şirkətində uzunmüddətli fəaliyyət proqramı kimi öyrənilib tətbiq olunur, insan şəxsiyyəti, onun hüquqlarının qorun-

ması, mətbuatın bu sahədə borcu və məsuliyyəti mövzusunda silsilə verilişlər hazırlanırdı.

Heydər Əliyev Azərbaycan Dövlət Teleradio Şirkətinə şəxsən bir neçə dəfə gəlmiş, bu birbaşa görüşlər zamanı verilişlərin hazırlanmasını müşahidə etmiş, efirə canlı gedən bəzi verilişlərin iştirakçısı olmuşdur. Xüsusən, YUNİSEF xətti ilə keçirilən Dünya Uşaqlarının televiziya bayramında ölkə başçısının iştirakı gələcəyimiz olan yeni nəslə qayğı və diqqətinin təzahürü kimi hamımızın sevincinə səbəb olurdu. Prezidentin iştirakı ilə keçirilən bu canlı yayım neçə illərdir ki, yeni TV janrı kimi formalaşmışdır. Gün ərzində 5-6 saat uşaqların ixtiyarına verilən ekran-efir ən şən rəqslərin, bədii lövhələrin, arzu və istəklərin, vətənə, dövlətə sevgi hisslərinin ifadə meydanına çevrilirdi. Təbii ki, bu teleformanın təşkilində də aparıcı yeri ümummilli liderimiz H.Əliyev cənablarının uşaq yaddaşına qızıl naxışlar salan, onların taleyi və gələcəyi barədə söylədiyi ümidli duyğular tutmuş olurdu. H.Əliyev belə vaxtlarda bütün rəsmiyyəti bir kənara qoyaraq, uşaqların sevincinə qatılır, bəzən onlara qoşulub oynamaqla bu təntənəyə xüsusi rövnəq verirdi. Gündəlik rəsmi görüşlərin sıxlığında, dövləti vəzifənin gərginliyində belə vaxt qazanmaq, uşaqlara qeyri-adi diqqət göstərmək məhz H.Əliyev fenomeninə yazılan keyfiyyətdir. Uşaqların yaddaşında tarixə çevrilən belə görüşlər onların gələcəkdə əsil vətəndaş kimi formalaşmasına əsaslı zəmin yaradırdı. Prezidentin Teleradio Şirkətinə gəlişlərinin bir neçəsi isə xüsusi xarakter daşımış, bu zaman o, TV ilə xalqa müraciət etmişdir. Bu birbaşa müraciətlər təkcə TV əməkdaşları üçün deyil, ümumilikdə xalqımız üçün fövqəladə əhəmiyyət kəsb etdiyindən bir az ətraflı bəhs etməyə ehtiyac görürəm. Hər şeydən əvvəl qeyd edim ki, müstəqillik

illərində dövlət başçısının teleşirkətə gəlib xalqa birbaşa müraciət etməsi fövqəladə hallarda baş verirdi. Əslində prezident elə o vaxtlarda televiziyanı öz iqamətgahına dəvət edə də bilərdi. Lakin prezidentin televiziyaya gəlişi bir tərəfdən bu informasiya ünvanını əsl dövlətçilik qalasına çevirmək istəyindən irəli gəlirdisə, ikinci halda məqsəd vəziyyətin kritik həddi haqqında cəmiyyətdə təsvir oyatmaq idi: **«Azərbaycan televiziyasının xidmətlərindən danışarkən onun Azərbaycan dövlətçiliyini, müstəqilliyini qorumaq üçün nə qədər böyük bir vasitə olduğundan siz yaxşı xəbərdarsınız. 1994-cü ilin oktyabr ayının əvvəllərində dövlət çevrilişi cəhdi başlanan zaman məhz bizim televiziyamızdan istifadə etdim. Bu nə qədər güclü silah imiş! Bu, bütün silahlardan da güclü silah imiş…».**

Bu gün tarixə dönmüş kinolentlər hər il təkrarlanan o gərgin anların hiss və həyəcanlarını, prezidentin ölkənin taleyi üçün narahatlıqlarını bütün parlaqlığı ilə əks etdirir: **«Hörmətli həmvətənlər, əziz bacılar, qardaşlar! Azərbaycan vətəndaşları! Bu axşam vaxtı mən yaranmış vəziyyət ilə əlaqədar olaraq, televiziya vasitəsilə sizə birbaşa müraciət etmək məcburiyyətindəyəm. Dünən televiziya ilə xalqa müraciət edərək, son günlər Azərbaycanda yaranmış gərgin vəziyyət haqqında məlumat verdim, öz mülahizələrimi bölüşdürdüm və Azərbaycan xalqını bu vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərməyə dəvət etdim… ».**

Bu taleyüklü və həyəcanlı çıxışda işlədilən «televiziya» termini adi cümlə vahidi olan söz deyil, ən çətin sınaq anlarının silahdaşı, arxa-köməyi, müşküllərin, siyasi düyünlərin çözülməsində ən çevik təsir vasitəsidir. 10 minlərlə insanı bir an içində prezident iqamətgahının

qabağına yığan, dövlətin, dövlətçiliyin müdafiəsinə qaldıran televiziya prezidentin təbirincə desək, «bütün silahlardan da güclü silah imiş». Bu təsir vasitəsi, unikal təbliğat sistemi daim prezidentin sadiq köməkçisi, ideya silahdaşı kimi fəaliyyət göstərmişdir. Ölkə daxilində baş vermiş bu siyasi qalmaqallar zamanı bir an da öz dövlətçilik mövqeyini itirməyən radio və televiziyamız sonrakı fəaliyyəti dövründə də dövlətin ideoloji işinin tərkib hissəsinə çevrildi, müstəqilliyimizin qorunması, inkişaf etdirilməsi üçün hadisələrə daha fəal münasibət göstərməyə başladı. Açığını deyim ki, o zamandan cənab prezidentin televiziya ilə əlaqələri daha intensivləşdi, onun dövlətə, dövlətçiliyə sədaqətli kollektivinə rəğbəti xeyli artdı. 1998-ci ildə müxtəlif peşə sahibi olan 17 teleradio əməkdaşının fəxri adlarla təltif olunması da bu rəğbətin nəticəsi idi. 90-cı illərin ortalarından, xüsusən, informasiya xidmətinin yüksəldilməsi sahəsində prezident məsləhətləri günün nəbzini tutmaqda bizə çox kömək etdi. O, gündəlik təbliğatda «gözə kül üfürənləri» deyil, işə həqiqi can yandıranları, sənətinin fanatiklərini təbliğ etməyi məsləhət görürdü.

Təbliğatda ardıcıllığa, təhlilə, aydın və dəqiq faktlara əsaslanmağa üstünlük verən, cəmiyyətin inkişafında teleradionun rolunu yüksək qiymətləndirən Heydər Əliyev burada çalışanların yüksək mənəvi əxlaqını, təhsil, peşə savadını, işə, sənətə fanatik sevgi keyfiyyətləri ilə seçilmələrini, ətrafdakılara nümunə olmağı arzulayırdı. Cənab prezident şirkətimizdə olarkən buradakı iş şəraiti ilə maraqlanır, müasir televiziyanın texniki bazasının möhkəm olmasının vacibliyini, işçilər üçün yaradılan şəraitin, xidmətlərin böyük rol oynadığını bildirirdi. Ən qaynar nöqtələrdən reportajlar hazırlayan jurnalistlərin fədakar

əməyindən dönə-dönə söz açan dövlət başçısı şəhid jurnalistlərimizin ailələrinə daha çox qayğı göstərməyi tövsiyə edirdi.

Günün xronikasını yaradan teleradio əməkdaşlarının ən sevimli müsahibi kimi, tanınan Heydər Əliyev bir çox xarici, eləcə də ölkə mətbuat və TV qurumlarının mükafatları ilə təltif olunmuşdur. Ölkədə yaratdığı sabitlik və demokratiyaya görə, mətbuatda söz azadlığına, ölkə iqtisadiyyatında və siyasi kursunda xalqa maksimum səmərəli variantları seçib müəyyənləşdirdiyinə görə, H.Əliyev bir neçə il dalbadal «İlin adamı» fəxri adına layiq görülmüşdür.

Cənab prezident özəl teleradio şirkətlərinin inkişafına çox diqqət yetirir, «ana» televiziyamıza yeni yaranan efir vasitələrinə hər cür yardım göstərməyi tövsiyə edirdi. Sağlam efir mübadiləsini, xüsusən, informasiya mübadiləsi zamanı birgə işi təqdir edir, bu sahədə intensiv yaradıcılıq əməkdaşlığını vacib sayırdı.

Cənab prezidentlə bağlı bir incə məqamı da qeyd etmək yerinə düşər. Təbii ki, onun da adi tamaşaçı kimi xoşladığı incəsənət xadimləri, televiziya tamaşaları və s. vardı. Müşahidə etmişdim ki, TV ilə bağlı o öz şəxsi arzularını heç vaxt dilə gətirməz, bu barədə xüsusi göstərişlər verməzdi. Amma rəğbətləndirmə vaxtlarında bu incə məqamı hiss etmək o qədər də çətin deyildi. Həssas televiziya işçiləri bu incə məqamları vaxtında hiss edib, həyata keçirməyə çalışırdılar. Ümumilikdə isə cənab prezidentin demokratik mövqeyindən, sərbəst fəaliyyətə yaratdığı ideal şəraitdən maksimum istifadə edən əməkdaşlarımız dövlət televiziyasında bütün maraqları əhatə etməyə çalışırdılar. Azərbaycan efir dünyasındakı rəng bolluğu da məhz cənab prezidentin demokratik

idarəçilik mövqeyi sayəsində formalaşırdı.

O, rəsmi səfərlər, tədbirlər zamanı da TV işçilərinə daha sərbəst və həyəcansız işləmək imkanı yaradan ən təcrübəli siyasi xadimlərdən idi. «Televizyonçuları» çox zaman partnyoru hesab edən H.Əliyev, onların marağına görə də işini qurmağa etiraz etmirdi. Nəticənin daha uğurlu alınması üçün ən xırda nüansların tənzimlənməsinə imkan yaradır, operatorların əlverişli çəkiliş nöqtəsi seçməsinə, hazırlıq aparmasına çox incəliklə şərait yaradırdı.

Kameranı H.Əliyev kimi hiss edən ikinci dövlət başçısı tapmaq çətindir. Əslində o, kamera nümunəsində qarşısında dayanan milyonlarla xalqı görür, bu cansız TV qurğuya milyonların məsuliyyətini daşıyaraq yanaşırdı. Onun televiziya ilə çıxışlarında bir neçə incə keyfiyyət həmişə özünü büruzə verirdi: inandırıcılıq, səfərbərlik, səmimiyyətlik… Çıxışın yüksək faktlılığı, arqumentliyi baş verən hadisəyə tamaşaçıda inam hissi təbliğ edirdi. Mövzunun hər kəsdən ötrü vacibliyini, cəmiyyət üçün gərəkliliyini ən xırda məsələlərə kimi izah edən prezident TV çıxışlarında çox səmimi təsir bağışlayır… Yaşlı adamlar bu çıxışlarda yetkin siyasətçinin dəmir məntiqinin ifadəsini hiss edirdilərsə, cavanlar, gənclər ata, valideyn dərsləri kimi dinləyir, nümunə götürürdülər. Prezident hər bir televiziya çıxışçısından bu məsuliyyəti tələb etməyi TV əməkdaşlarının borcu sayırdı.

H.Əliyev özünün mötəbər informasiya mənbələrindən biri hesab etdiyi teleradionun yayım dairəsini həmişə geniş, əhatəli görmək istəyirdi. Təkcə müsbət məqamları qabardıb cəmiyyətdə arxayınçılıq yaratmağın sonrakı pis nəticələri barədə bizi sayıq salır, haqlı tənqidə geniş yer ayırmağı ümumi işimizin xeyrinə hesab edirdi. Lakin bununla belə, qərəzli tənqidin doğuracağı acı nəticələrdən

ehtiyatlanmağı, hadisənin o biri başında öz taleyini görməyi, sonra qələm çalmağı tövsiyə edirdi. Humanitar yardımları yerlərə çatdırarkən, əziz günlərdə ehtiyacı olanlara yardımlar edərkən çox incə hərəkət etməyi «sağ əlin verdiyini sol əldən gizlətməyi», kimsənin könlünü qırmamağı məsləhət görürdü. Azərbaycanda hər cür milli-mənəvi dəyərlərin və inancların yayıldığı şəraitdə mənəviyyatla, əxlaq, milli mentalitetlə bağlı proqramlara üstünlük verməyi çox vacib hesab edirdi. Heç nəyi heç kəsə qadağan etməyin mümkün olmadığı demokratik cəmiyyətdə öz mənəvi dəyərlərimizin üstünlüyünü qoruyub saxlamağı əsas şərt sayırdı.

Azərbaycançılıq-türkçülük ideyalarının sistemli təbliği ilə tanınan «Turan», «Azərbaycan dili», «Vətəndaş», «Türk elləri» kimi proqramların türk dünyasında doğurduğu əks-səda ilə bağlı prezidentin razılıq dolu sözlərini dönə-dönə eşidib sevinmişəm. Xüsusən, xalq yaradıcılıq redaksiyasının xətti ilə hazırlanan «Yallı», «Qala», «Karvan», «Buta», «Qobustan» kimi verilişlərin Türkiyə Cümhuriyyətində populyar proqramlar kimi sevildiyi haqda prezidentdən xoş sözlər eşitmək bu sahədəki işlərimizi daha da inkişaf etdirməyə stimul yaradırdı. Təkcə «Dəmir qapı Dərbənd» proqramının yaxın xaricdəki soydaşlarımızın taleyini əks etdirməsi istiqamətində müsbət nəticələri barədə dünyaşöhrətli siyasətçidən dəfələrlə razılıq eşitmişəm. Əslində cənab prezidentin ən populyar proqramlar haqqında orijinal fikirləri, tövsiyələri vardır. Müşahidə etmişdim ki, prezidentin maraq göstərdiyi proqramlar sırasında «Səhər»in xüsusi yeri var. Proqramın əlvan politrasını peşəkarcasına təhlil edən ölkə başçısı xüsusən xəbərin təqdimat ritmini, blokdakı düzümünü hər dəfə təqdir edirdi. Hər fəsildə yeniləşən tərtibatı ilə təzə

görünən «Səhər» xoş ovqat proqramı kimi ölkə başçısının da diqqətini cəlb edirdi. Yaradıcı kollektiv bu faktı yeni axtarışlar üçün bir borc hesab etdilər. İstər musiqi seçimində, istərsə də qonaqların planlaşdırılmasında ən ali tamaşaçı zövqü diqqət mərkəzində saxlanılırdı.

Azərbaycan televiziyasının hər bir uğuru prezidentin nəzərindən yayınmırdı. Azərbaycan dili haqqında prezident sərəncamında teleradionun bütövlükdə milli yayıma keçməsi məsələsi də bir vəzifə kimi qarşıya qoyulurdu. Azərbaycan televiziyasında hələ bir neçə il əvvəl yaradılmış «Dublyaj» redaksiyası sərəncamdan irəli gələn tələblərə əməl etmək üçün yaradıcılıq potensialını qat-qat artırdı. Efirdə yer alan hər növ filmlərin, bədii lentlərin dublyajı – milli dildə təqdimatı ölkə başçısını çox razı salmışdı. Tez bir zamanda zəngin film fondu yaradan kollektivi bu işi davam etdirməyə çağırırdı. Çoxsəsli çevirmə prinsipi ilə hazırlanan dublyaj filmləri həm də orijinala yaxınlığı, səslərin obrazlara uyğun seçilməsi ilə ölkə prezidentinin diqqətini cəlb edirdi. Eşidəndə ki, kiçik bir kollektiv ayda 50-60 film dublyaj edir, ilk dəfə təəccüblənmiş, işin həcmini burada çalışanların fədakarlığı kimi qiymətləndirmişdi. Bu gün AzTV-də mindən artıq dublyaj filmi var, bunların sayı gündən-günə artır, efirin milli dildə lent ehtiyacını tamamilə ödəyir.

Yadımdadır, bir dəfə Böyük Vətən müharibəsi illərində əsir düşüb İsveçrədə yaşayan azərbaycanlının həsrətini yetirən veriliş təqdim olundu. Ömrün son günlərini yaşayan əlil soydaşımızın göz yaşları içərisində dediyi vətən bayatıları, sən demə, ölkə başçısının diqqətindən yayınmayıb. Sonralar o, mənə belə verilişlərin sayını artırmağı, ümumiyyətlə, xaricdəki azərbaycanlıların taleyi, dövlətin diaspor siyasəti ilə bağlı olan proqramları artırmağı tövsiyə

etdi. Azərbaycan televiziyasında «Beynəlxalq proqramlar» redaksiyası yaratmaq ideyası da bu təqdirdən sonra baş verdi. Mən bu barədə cənab prezidentə məruzə edəndə, cəmi iki-üç cümlə ilə redaksiyanın ən ümumi maraqları haqda uzunmüddətli proqramı gözlərim önündə canlandırdı. 1998-ci ildən bəri əsasən diaspor siyasəti ilə məşğul olan redaksiya dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlıların ünvanını müəyyənləşdirib təsirli verilişlər hazırlamışdır. Bu proqramlar həm də bir-birini itirmiş doğmaların görüş ünvanına çevrilməsi, ölkələr, talelər arasında körpü salması ilə diqqəti cəlb edir. «Körpü», «Qürbət mənim içimdə», «Sorağınız gəlsin», «Azərbaycan bu gün», «Qonağımız var» və s. verilişlər öz orijinal axtarışları ilə yadda qalır.

80-ci illərin sonundan 90-cı illərin əvvəllərinə kimi Azərbaycan ictimai-siyasi, mədəni mühitindəki xaos yeni milli filmlərin, teatr tamaşalarının sistemini dağıtmış oldu. Bir vaxtlar çəkilmiş filmlərin də it-bata düşməsi, şəxsi əllərə keçməsi ekranda boşluq yaratmış oldu. Televiziyanın «Kinoproqram» redaksiyasının cəfakeş kollektivi bu milli filmləri müxtəlif mənbələrdən, bəzən də fiziki şəxslərdən böyük qayğı və diqqətlə toplayıb zəngin fond yarada bildilər. Hər həftənin cümə axşamı günlərində «Azərbaycanfilm»in istehsalı olan bədii lentlərin təqdimi də bu peşəkar münasibətin nəticəsində mümkün olmuşdu. Dünyanın «savaş» filmləri sırasında öz ümumbəşəri məzmunu, çəkiliş texnikası, bədii dəyəri ilə seçilən bu filmlər cənab prezidentdə də xoş əhvali-ruhiyyə yaradırdı. Çünki bu filmlərin bir çoxunun ekran taleyinin həll olunmasında Heydər Əliyevin şəxsi xidmətləri vardır. Süni qadağalarla uzun illər efirə buraxılmayan «Bir cənub şəhərində» filmi məhz Heydər Əliyevin xeyir-duasından sonra ekrana yol tapa bildi. 80-ci illərdə böyük şöhrət qazanmış «İstintaq» bədii

filmi Heydər Əliyevin ölkədə korrupsiyaya qarşı ideyaları əsasında lentə alınmış, son dərəcə dəyərli bir ekran əsəri idi. Belə filmlər həm də ideyaca müasirliyi ilə tamaşaçıları razı salırdı. «Kinoproqram» redaksiyasının yaradıcı heyətində, iş strukturunda edilən dəyişikliklər tezliklə öz yeni yaradıcılıq tövsiyəsini verdi: «Kino tarixindən» rubrikası orijinal təqdimat üslubu və tədqiqatçılıq xarakteri ilə yüksək rəylər doğurdu.

Gənclərin cəmiyyətdəki fəallığı ölkə başçısını həmişə sevindirir, onların təhsildə, idman yarışlarında, istehsalatdakı uğurlarını daim diqqətdə saxlamağı məsləhət görürdü. Gənc nəslin sınaq, yetkinlik meydanı olan idman oyunlarının cəmiyyətdə hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Bugünkü ölkə başçımız cənab İlham Əliyevin o vaxt respublika Olimpiya Təşkilatına uğurlu rəhbərliyi gənclərimiz arasında idmanın inanılmaz səviyyədə kütləviləşməsinə səbəb oldu. Ölkəmizin hər guşəsində inşa olunan Olimpiya idman kompleksləri on minlərlə gənci yeni idman uğurlarına həvəsləndirdi. 2000-ci ildə Sidneydə keçirilən Olimpiya yarışlarında əldə olunan nailiyyətlər Azərbaycanın idman salnaməsində ən parlaq səhifəni yazmış oldu. H. Əliyev bu uğurların gələcəkdə də davam etdirilməsi üçün qalib idmançıları, onların məşqçilərini ölkənin ən ali mükafatları ilə təltif etdi. Azərbaycan televiziyası ölkəmizin şöhrətini Olimpiya ucalığına qaldıran görkəmli idmançılar haqqında silsilə verilişlər hazırlamaqla gələcək qələbələrə mənəvi zəmin hazırlamış oldu. Bu günlər Afinada keçiriləcək Olimpiya yarışlarına hazırlaşan idmançılarımızın lisenziya uğrunda mübarizələri idman proqramlarının gündəlik mövzusu, təhlil obyektidir. Müstəqilliyini yenicə əldə etmiş dövlətin dünya miqyasında tanınması üçün idman uğurlarının yüksək əhəmiyyətini dəfələrlə qeyd edən H. Əliyev bu işdən

ötrü heç nəyi əsirgəməməyi, eləcə də radio, televiziya ilə təbliğatı günün tələbləri səviyyəsinə qaldırmağı məsləhət görürdü. Bu tövsiyələrini daim diqqətdə saxlayan əməkdaşlarımız dünyanın müxtəlif guşələrində keçirilən möhtəşəm idman yarışlarından birbaşa və video yazılarla reportajlar hazırlayır, bu uğurların təhlilinə şərhlər, icmalar həsr edirlər. «Gənclik və İdman verilişləri». Redaksiyası idman ulduzları haqqında portretlər hazırlayır. Regionlarda idman qurğularının tikilməsi, bu sahəyə marağın genişlənməsi barədə sistemli şəkildə informasiyalar verirlər. Azərbaycan idmanının bu gününün və gələcəyinin ümidlər doğurmasında teleradionun düzgün qurulan təbliğatının da müəyyən xidmətləri olduğunu mərhum prezidentimiz Olimpiya sevinclərini bölüşərkən xatırladırdı. Ulu öndərimiz bütün bu uğurların qazanmasını düzgün kadr siyasəti ilə sıx bağlayırdı. Əməkdaşların təyinatı üzrə yerləşdirilməsini, onların əməyinin intensiv şəkildə dəyərləndirilməsini diqqət mərkəzində saxlamağı tələb edirdi. Teleradio jurnalistinin boynuna böyük vəzifə düşdüyünü dəfələrlə qeyd edən ölkə başçısı onlardan nümunəvi davranış və işə həssas münasibət tələb edirdi: **«Televiziya işçilərinə qarşı çox böyük tələblər də var. Onlar gərək ekranda hər bir vətəndaş üçün nümunə olsunlar – həm özlərinin danışığı ilə, həm görünməsi ilə, həm ekranda özlərini aparmaları ilə…».**

Telejurnalist üçün təvazökarlığı, yüksək istedadı, prinsipiallığı, qərəzsizliyi, operativliyi əsas şərt hesab edən H.Əliyev müsahibələri zamanı təcrübəsiz jurnalistlərə iradlarını çox incə şəkildə çatdırmağı unutmurdu. Belə müsahibələr zamanı uzunçuluğa yol verməməyi, mətləbdən yayınıb süni intellekt nümayiş etdirməməyi, populizm arxasınca qaçıb əsas problemləri unutmamağı, sualları düzgün seçməyi tövsiyə edirdi. Təbii ki, belə peşəkar hazırlığı

özündə hiss etməyən jurnalistlərin prezidentə sual verməyə cəsarəti çatmırdı. Bəzən ölkə başçısı hələ yaxşı formalaşdırılmamış suallara, da ciddi, əhatəli cavablar verib, hər hansı aktual hadisə barədə ekran qarşısında əyləşən milyonlarla tamaşaçını məlumatlandırırdı.

Televiziya mürəkkəb struktur, canlı mexanizmdir. Efirə çıxan materialın uğur və nöqsanlarının mənbəyi çox vaxt peşəkarlara da məlum olmur. Lakin prezident qeydlərində və razılığında bir çox unikal məqamların şahidi olmuşam: o, efir mətnini bir dilçi həssaslığı ilə təhlil edir, dizayna modern televizyonçu gözü ilə baxıb qiymət verə bilirdi. Televiziyada müasirliyi millilikdən ayn təsəvvür etməyən H.Əliyev klassik formaları birdən vurub dağıtmağın, analitik verilişləri yüngül şoularla əvəz etməyin əleyhinə idi. Bu işdə kütləvi marağa da birmənalı yanaşmamağı məsləhət görürdü. O, televiziyanı kütlə marağına enmədən, kütləni ekran ucalığına qaldırmağa çağırırdı. Ekranda süni qəhrəmanlar, şəxsiyyətlər yetişdirmək tendensiyasından adi insanların qayğı və ehtiyaclarını öyrənib problem reportajlar, şərhlər hazırlamağı, regionların iqtisadi inkişafını, təsərrüfatçılığın yeni metodlarını daha çox təbliğ etməyi məsləhət görürdü. Proqramlarda mövzunun aktuallığını dəyərləndirməklə forma axtarışlarına da meyili gücləndirməyi vacib hesab edirdi. Əsrin kontraktı olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi ilə bağlı görülən tədbirlərin işıqlandırılmasında ardıcıllığı və prinsipiallığı təqdir edən dövlət başçısı bu işin iqtisadi, siyasi səmərəsi ilə bağlı təbliğata da paralel yer verməyi tövsiyə edirdi. Cəmiyyətin bütün sahələrinə birbaşa nüfuz edə bilən teleradionun zaman və məkanca hüdudsuzluğu faktına böyük önəm verən H. Əliyev bu imkanlardan maksimum istifadə etməyi TV işçilərinin borcu sayırdı. Hörmətli prezidentimiz tələbkarlıqla

yanaşı, qayğı göstərməyi, TV problemlərini birinci növbədə həll etməyi müvafiq strukturlara tapşırırdı. 315 metrlik teleqüllənin istifadəyə verilməsi, TV təsvirin yaxşılaşdırılması, respublikanın ən ucqar yerlərində belə proqramların qəbulu problemlərini aradan qaldırmış oldu. Prezidentin birbaşa göstərişi ilə şirkətimizə ən "müasir texnikanın alınmasına, montajın yeni rəqəmli sistemə qoşulmasına, internet xəttinə çıxaraq dünya informasiya şəbəkəsinə inteqrasiyaya imkan yaratdı. "APLİNQ" tipli yeni qurğunun alınması AzTV-yə dünyanın ən ucqar nöqtəsindən belə birbaşa efirə çıxmaq imkanı verdi. Yeni alınmış "BETECAM – SX" tipli kameralar ən müasir çəkiliş imkanı ilə efirdə maraqlı görüntü yaratmış oldu. 2003-cü ilin əvvəllərindən dünya efirinə çıxan AzTV, məhz bu sahədə də prezident qayğısını öz üzərində hiss etdi. Televiziyamızın bu gününü müdrikcəsinə xeyli əvvəldən görən ölkə başçısı televiziyanın 40 illik yubiley tədbirində çıxış edərkən demişdir: «Azərbaycan Respublikası möhkəmləndikcə, ölkənin iqtisadiyyatı gücləndikcə, Azərbaycan xalqının rifahı yüksəldikcə milli televiziyanın imkanları da artacaq, daha çox inkişaf edəcəkdir. Ancaq Azərbaycan televiziyası bu prosesin önündə getməlidir, bu prosesi aparmaq üçün çox gərəkli, dəyərli vasitə olmalıdır və ümidvaram ki, belə də olacaqdır…» Ulu öndərimizin dediyi bu sözlər Azərbaycan teleradiosunun gündəlik fəaliyyət proqramı kimi bütün verilişlərin ana xəttini təşkil etmişdir. Bu gün də şirkətimizdə H.Əliyevin kursu ardıcıl, sistemli şəkildə davam etdirilir. Hər günü fikir, düşüncə, intellektual dəyərlər baxımından «min aya» dəyən mərhum prezidentimizin həyatı, fəaliyyəti XXI əsrdə də milli teleradiomuzun sönməz ideyalar mənbəyi kimi yaşayacaq, davam edəcəkdir.

# AVROPA AİLƏSİNDƏ

Tarixin təkamül yolları dönə-dönə təsdiq edib ki, heç bir imperiya əbədi deyil, müəyyən mərhələdən sonra dağılmağa məhkumdur. Rus antikommunist fəlsəfi fikrində İvan Qroznı ideyalarının modernləşdirilməsi, çar imperiyasının müasir dövrə uyğun yenidən təşkili kimi dəyərləndirilən sovet imperiya mühitinin tənəzzülü, dünyaya meydan oxuyan fövqəldövlətin təxminən 70 ildən sonra çökməsi, öz varlığına son qoyması da təbii idi, qaçılmaz tarixi proses idi. Bu qlobal tarixi hadisə nəticəsində on illər boyu «xalqlar həbsxanasında» inləyən, maddi və mənəvi sıxıntılara məruz qalan xalqlar azadlığa çıxdı, öz dövlət müstəqilliyini elan etdi. Qədim dövlətçilik tarixinə malik Azərbaycan xalqı yaranmış əlverişli beynəlxalq və regional vəziyyətdən istifadə edərək, XX əsrdə ikinci dəfə öz azadlığını, dövlət müstəqilliyini elan etdi.

Respublikamız müstəqillik qazandıqdan sonra onun beynəlxalq əlaqələri, dünyəvi və regional miqyasda yeri, özünəməxsus mövqeyi formalaşmağa başladı. Azərbaycan Respublikası 1992-ci ilin martında Birləşmiş Millətlər Təşkilatına tam hüquqlu üzvlüyə qəbul edildi. Bu əlamətdar, perspektivli hadisədən sonra bütün tariximiz boyu arzuladığımız sivil, bəşəri prinsipləri özünün əsas vəzifəsi hesab edən milli dövlətimizin demokratik, hüquqi, dünyəvi əsaslara söykənən konseptual quruculuq prosesi başlamalı idi. Lakin bu gərgin, mürəkkəb keçid dövründə Azərbaycana rəhbərlik edən, əslində, öz kreslolarını qorumaqla məşğul olan başabəla «başçıların» hakimiyyət

davası dövlətimizi sözün əsl mənasında çıxılmaz vəziyyətə salmış, ölkəmizi parçalanma, qlobal iflas həddinə gətirib çıxarmışdı. 20 Yanvar faciəsinin qanları üstündən keçərək hakimiyyətə gələn, daha doğrusu, gətirilən Ayaz Mütəllibovun xalqa zidd imperiyapərəst siyasəti Azərbaycanı uçuruma sürükləyirdi. Xalq bu siyasət alverçisinə qətiyyən etibar etmir, onun oyuncaq hakimiyyətini tanımaq belə istəmirdi. Bir sözlə, ölkə uçuruma, sosial-siyasi fəlakətə yuvarlanırdı. Xalq və dövlət arasında bir ögeylik sindromu, gedilməz uçurum, tragik etibarsızlıq mühiti yaranmışdı ki, bu da hər an ölkəni qanlı vətəndaş müharibəsinə sürükləyər, xarici müdaxiləyə meydan açar, dağılmaq və parçalanmaqla üz-üzə qoya bilərdi.

1992-ci ildə, ölkəmiz üçün mürəkkəb, taleyüklü bir dövrdə Xalq cəbhəsi hakimiyyətə gəldi. Bir ziyalı kimi mən də bu piyada qüvvələrin hakimiyyətinin çox zəif və prinsip etibarı ilə saxta məqsədlərə söykəndiyini hiss edirdim. Bütün tarixi-inqilabi situasiyaların yetirdiyi qüvvələr kimi bu adamların da danışıqları ilə əməlləri, pafoslu «ideyaları» ilə real, praktik fəaliyyətləri arasında böyük ziddiyyət, uçurum var idi. Onlar bu uçurumu heç vaxt adlayıb keçə bilməzdilər. Çünki bu dil qəhrəmanlarının nə dövlətçilik səriştəsi var idi ki, dövləti idarə etsinlər, nə də ki, onların niyyətlərinin əsl mahiyyəti buna imkan verərdi. Bu niyyət isə tamamilə məlumdur. Yaranmış vəziyyətdən və fürsətdən, xalqın inam və etimadından, arzu və ümidlərindən maksimum istifadə etmək, varlanmaq xisləti. Əlbəttə, belə adamlarla dünyəvi, demokratik, sivil dövlət qurmaq qeyri-mümkün idi. Onlar sovet dövründə nə qazanılmışdısa, bolşevikcəsinə onu məhv edir, sənayenin, kənd təsərrüfatının çökməsini sürətləndirirdilər. Xalq cəbhəsi hakimiyyəti daxili və xarici siyasətdəki bu

uğursuzluqlarda süquta uğrayır, ölkə dağılır, parçalanırdı. Əsrlərlə arzusunda olduğumuz müstəqilliyimizi fərsiz hakimiyyət hərisləri qısa müddətdə təhlükəyə atmışdılar. Bir anda hər şeyi itirə bilərdik. Müharibəni də uduzurduq. Erməni işğalçıları bir-birinin ardınca torpaqlarımızı zəbt edirdi. Azad, müstəqil Azərbaycan Talış-Muğan, Sadval separatizmi ilə, Gəncədə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı, okean burulğanlarına, ölüm girdablarına düşən gəmini xatırladırdı. Gənc dövlət olum-ölüm dilemması önündə idi. Belə bir vaxtda xalqın yeganə ümidi ömrü boyu millətinə sədaqətlə xidmət etmiş bir şəxsiyyətin gətirəcəyi nicata dikilmişdi. Azərbaycan xalqı nicatını Naxçıvanda Muxtar Respublikanı çətin şəraitdə yaşada bilən, onu erməni hücumlarından qoruyan bir şəxsdə, müdrik dövlət xadimi Heydər Əliyevdə görürdü. Məhz Heydər Əliyev Azərbaycan dövlətini iflasdan, qlobal böhran vəziyyətindən xilas edə bilərdi. Ancaq Heydər Əliyev parçalanmaqda, dağılmaqda olan gənc respublikanı hüquqi, sivil, demokratik dünya dövlətinə çevirməyi bacarardı.

Bəli, Heydər Əliyevin hakimiyyətə xilaskar qayıdışı ilə Azərbaycan Respublikası böhrandan çıxdı. Məmləkətimizin adı dünyanın mötəbər təşkilatlarının tribunasından daha ucadan səslənməyə başladı.

Dünya Azərbaycanı artıq tanıyırdı. Onun dərdlərini bilirdi. Bilirdi ki, Ermənistan kimdir. Onun məqsədi, istəyi nədir. Əlbəttə, yalnız və yalnız Heydər Əliyevin müdrik daxili və xarici siyasəti, incə strateji gedişləri sayəsində dünya Azərbaycanın həqiqətlərini olduğu kimi görür, bilir, dərk və qəbul edirdi.

Azərbaycanın problemlərini tədricən həll etməsi, ölkədə sosial-siyasi sabitlik yaranması onun dünyaya

inteqrasiyasına əlverişli meydan açdı. Respublikamızın dünyanın nüfuzlu təşkilatları ilə layiqli əlaqələrinin yaradılması, tənzimlənməsi, sürətli inkişafı üçün dövlət başçısı Heydər Əliyevin yeritdiyi siyasət artıq böyük uğurlar qazanmışdır. Bu baxımdan, Avropa Şurasına daxil olmaq xüsusilə təqdirəlayiqdir.

Avropa Şurası təşkilatı barədə bir neçə kəlmə ilə məlumat versəm, yəqin ki, oxucularımız üçün də maraqlı olar. Bu təşkilat hansı zərurətdən yaranıb?

1939-1945-ci illərdə baş verən İkinci Dünya müharibəsi bəşəriyyətə böyük zərbələr vurmuşdu. Dünya bu tarixi savaşdan çox ziyan çəkmiş, milyonlarla insan müharibənin qurbanı olmuşdu. Xüsusən Avropa qitəsi İkinci Dünya müharibəsində həddən artıq ziyana məruz qalmışdı. Ölkələr dağılmışdı. İnsanlar müharibədən sonra nə edəcəklərini müəyyənləşdirə bilmirdilər. Avropalılar «Nə etməli? Hansı yolu tutmalı?» sualları ətrafında çox götür-qoy edirdilər. Hər bir ölkə ayrılıqda inkişaf etməlidir, yoxsa güclərini birləşdirməlidir? Bax, bu suallar o dövrün Avropa dövlətlərini daha çox düşündürürdü. Güc birlikdədir yolunu daha çox gənclər israrla müdafiə edirdilər. Onlar hesab edirdilər ki, bu birliyi mütləq yaratmaq lazımdır. O dövrdə demək olar ki, bütün Avropa dövlətlərində mitinqlər keçirilirdi, gənclər isə bu hərəkatda böyük fəallıq göstərirdilər. Birliyin əsas prinsipləri nədən ibarət olmalı idi? Bu suala da həmin mitinqlərdə cavablar tapılmışdı. İnsan haqlarına hörmət, qardaşlıq, azadlıq, bərabərlik, ədalətlilik. Avropalı gənclər öz qitələrinin gələcəyinin bu amallar üzərində qurulmasını arzulayırdılar.

Aşıb-daşan gənclik hərəkatının çiyinləri üzərində Avropaya birlik gəlirdi. Gəlin, bundan sonra baş vermiş bir neçə tarixi fakta diqqət yetirək. Qeyd etdiyim kimi, vahid

Avropa yaratmaq məqsədi insan haqlarına hörmət prinsipinə söykənirdi. Haaqada 1948-ci il mayın 7-də Avropa Konqresi «İnsan hüquqları partiya»sını qəbul edir.[1] Elə həmin tarixdə də Avropa Ədalət Məhkəməsinin hüquq və vəzifələri təsdiq olunur. Bu ədalət məhkəməsinə elə bir səlahiyyət verilirdi ki, onun çıxardığı qərarlar ən ədalətli hesab olunurdu. Bu tarixi qərarın qəbulundan sonra Birləşmiş Millətlər Təşkilatı da analoji qərar qəbul etdi. «İnsan haqlarına dair ümumi konvensiyanı» təsdiqlədi.

Bu hadisələrdən sonra diqqəti daha çox Avropanın vahid bir qurumunun yaradılması ideyasının gerçəkləşdirilməsi cəlb edirdi.

Müharibədən 4 il sonra Avropanın siyasi cəhətdən quruculuğu prosesi başlandı. Lakin siyasi səhnədə daha böyük bir təhlükə hələ də davam edirdi. Dünyanın iki böyük nəhənginin – Amerika Birləşmiş Ştatları və SSRİ-nin rəqabəti təhlükəli xarakter alırdı. Dünya soyuq müharibə dövrünə qədəm qoyurdu.

Avropa isə bu birliyi daha tez qurmalı idi. 1949-cu il mayın 4-də Londonda, Sent Ceyms sarayında uzun müzakirələrdən sonra, nəhayət ki, ümumi rəyə gəldilər. Reyn Ann salonunda tarixi bir hadisə baş verdi. 1949-cu il mayın 5-də Avropa Şurasının Nizamnaməsini imzalayan Belçika, Danimarka, Fransa, İrlandiya, İtaliya, Lüksemburq, Hollandiya, Norveç, İsveç və Böyük Britaniya təşkilatın özülünü qoydular.[2]

Avropa Şurasının nizamnaməsinin imzalanması, əslində, Haaqada müəyyənləşdirilmiş prinsiplərə və plana uyğun olaraq həyata keçirilmişdi. Açıq demək lazımdır ki, bu demokratiya prinsipləri təkcə Sovet İttifaqına qarşı bir insanlıq hüququ örnəyi kimi yönəlməmişdi. Bu, eyni zamanda Avropa cəmiyyətində qalib Amerika demokratiya-

sına yarana biləcək meyildən yaxa qurtarmaq məqsədilə atılmış bir addım idi. Məşhur fransız diplomatı Jak Leprettinin dediyi kimi: «Marşall planı qüvvəyə minirdi. Amerikalıların məqsədi bu planla Avropa dövlətlərinin inkişafına nail olmaqla bərabər, həm də ondan ibarət idi ki, onlara iqtisadi dəstək verməklə demokratiyanın Amerika modelini aşkar şəraitdə Avropaya yedirə bilsin».[3]

Göründüyü kimi, fransız diplomatı açıq-aşkar bu meyilə rəğbət bəsləmədiyini bildirir. Ümumiyyətlə, bu meyil təkcə cənab Leprettiyə aid deyil. O dövrdə, elə indi də əksər Avropa nəzəriyyəçiləri «amerikanizasion» prosesinin əleyhinə çıxırlar. Onlar hesab edirlər ki, Avropa öz klassik dəyərlərini qoruyub saxlamalıdır.

Artıq 50 ildən çoxdur ki, Avropa Şurası bir beynəlxalq təşkilat kimi fəaliyyətdədir. Bu gün Avropa Şurasına 43 ölkə daxildir. Avropa Şurasının iqamətgahı Fransanın Elzas əyalətinin Strasburq şəhərində yerləşir. Bu gözəl şəhərdə – Strasburqda əhalinin say tərkibi, milli müxtəlifliyinin özü də insana zövq verir. Şəhər, həqiqətən də, Avropanın paytaxtı olmağa çox layiqdir.

Avropa Şurası məşvərətçi qurum hesab olunur. Təşkilatı simvolik bir dövlətə də bənzətmək olar. Yəni dövlətə aid olan bütün atributları bu qurumun orqanları demək olar ki, ehtiva edir. Avropa Şurasının bayrağı, himni, parlamenti, nazirlər komitəsi, məhkəməsi fəaliyyət göstərir. Hətta Avropa Şurasının qurumlarının sırasında elə orqanlar da var ki, bu qurumlar, məsələn, tam bir parlament dövlətinin funksiyalarını yerinə yetirir.

Avropa Şurası Parlament Assambleyasının qərarlarını Nazirlər Komitəsi mütləq ratifikasiya etməlidir.

İnsan Haqlarına dair Avropa Məhkəməsi isə təşkilata üzv olan və insan hüquqlarına dair Avropa konvensiyasını

imzalamış dövlətlərdən daxil olan ərizə və şikayətlərə baxır. Qoyulan əsas şərt isə ondan ibarətdir ki, şikayətçilər öz ölkələrindəki bütün məhkəmə instansiyalarını keçəndən sonra Avropa məhkəməsinə müraciət edə bilərlər. 1950-ci ilin 4 noyabrında Romada imzalanmış konvensiyaya əsasən Avropa Şurasının əsas vəzifəsi insanların hüquq və azadlıqlarını ən yüksək səviyyədə qorumaqdan ibarətdir.

Azərbaycan Respublikası da belə bir təşkilata üzv olmağı qarşısına məqsəd qoymuşdu. Respublikamızda müdrik dövlət xadimi Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan, məmləkətimiz parçalanaraq bölüşdürülmə faciəsindən, qlobal iflasdan, məhvolmadan xilas edildikdən sonra Azərbaycanın qarşısına qoyduğu əsas strateji məqsədlərdən biri Avropa ilə bütövləşmək idi. Prezident Heydər Əliyevin müəyyənləşdirdiyi bu tarixi kursun gerçəkləşdirilməsi iki mərhələdən keçdi. Birinci mərhələdə Avropa Şurasına üzv olmaq məqsədi. İkinci isə Avropa Şurasına üzv olduqdan sonra bu təşkilat çərçivəsində dövlət quruculuğu prosesinin, bütövlükdə dövləti inkişafımızın daha rəvan getməsinə, böyük uğurlar qazanmasına nail olmaq.

Prinsip etibarı ilə çox qısa müddətdə bu strateji məqsədlərə çatdıq. Təşkilata üzv olana kimi xeyli yol keçməli olduq. Özü də bu yol heç də rəvan deyildi.

Azərbaycan Respublikası rəsmən bu təşkilata üzv olmaq üçün 1996-cı ildə xüsusi müraciəti Avropa Şurasının müvafiq orqanlarına təqdim etdi. Azərbaycanın Avropa Şurasında fəaliyyətinin ilk mərhələsi məhz bu zaman başladı. Azərbaycanın parlament nümayəndə heyəti bu illər ərzində çox işlər gördü. Ölkəmizə bir-birinin ardınca gələn Avropa Şurası nümayəndə heyətlərinin prezident

Heydər Əliyevlə keçirdikləri görüşləri yaxşı xatırlayırıq. Bu görüşlərin videoyazıları təkcə bizim dövlət televiziyamızın arxivində yox, eyni zamanda Avropa Şurasının Audiovizual şöbəsinin arxivində də qorunub saxlanılır. Mən Avropa Şurasında səfərdə olarkən bu şöbənin rəhbərliyi ilə müəyyən görüşlərim olub. Bu yerdə qeyd etmək istəyirəm ki, dövlət televiziyası ilə Avropa Şurasının bu qurumu arasında çox gözəl əlaqələr qura bilmişik. Müxtəlif videomaterialların mübadiləsi ilə bərabər, Avropa Şurasından Azərbaycana canlı yayımların hazırlanmasında Audiovizual şöbənin xidmətlərindən intensiv şəkildə istifadə edirik. Bu barədə bir qədər sonra məlumat verəcəyəm.

Avropa Şurasına qəbul olunmağımız ərəfəsində, o dövrdə Azərbaycan bir sıra mühüm tədbirlər həyata keçirdi. Avropa nümayəndə heyətlərinin Azərbaycana səfərləri, xüsusən Avropa Şurasında bizim ölkəmiz üzrə məruzəçi Jak Bomelin respublikamızın prezidenti Heydər Əliyevlə olduqca səmərəli danışıqları olmuşdur. Dəfələrlə edilmiş bu səfərlər barədə materialların efirə hazırlanıb milli televiziyamızın ekranlarında nümayiş etdirilməsi bizim öhdəmizə düşürdü. Və biz də həvəslə bu işin öhdəsindən gəlməyə çalışır, adətən, istəyimizə nail olurduq. Azərbaycanda baş verən hər bir prosesi, ictimai-siyasi hadisələri Avropa Şurası yaxından izləyirdi. Avropa Şurasının ekspertləri tez-tez respublikamıza səfərlər edir və vəziyyəti yaxından öyrənirdilər.

Nəhayət, uzun illərin ağır zəhmətindən sonra 2000-ci ilin iyun ayı gəlib çatdı. Azərbaycanın və Ermənistanın Avropa Şurasına birgə qəbuluna 2000-ci ilin iyun ayında, Parlament Assambleyasının yay sessiyasında baxılması qərara alındı. Təşkilatın həm hüquq, həm də siyasi qrup-

larının ayrılıqda və birgə keçirilmiş iclaslarında bu məsələyə müsbət münasibət bildirildi. 2000-ci ilin iyun ayının sonuncu həftəsində parlamentin sədri Murtuz Ələsgərovun başçılığı ilə nümayəndə heyətimiz Strasburqda səfərdə oldu. Mənim da nümayəndə heyətinin tərkibinə daxil olmağım bu təşkilatla daha yaxından tanış olmağıma yaxşı şərait yaratdı. Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında qızğın müzakirələr getdi. Ermənistan təşkilata qəbul olunduqdan sonra Azərbaycanın məsələsinə də baxıldı. Məsələ maddə-maddə müzakirə olundu. Hamımız həyəcanla gözləyirdik ki, uzun illərin ağır zəhmətinin nəticəsi necə olacaq?

Səsvermə başa çatdı, ölkəmizin həmin təşkilata qəbuluna müsbət münasibət bildirildi və Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv olmaq yolu açıldı. Qərara alındı ki, Nazirlər Komitəsinin noyabr ayında keçiriləcək toplantısında qəbul edilmiş qərar ratifikasiya edilsin. Noyabr ayında Azərbaycanda keçirilmiş demokratik parlament seçkilərinə avropalı ekspertlər yüksək qiymət verdilər. Noyabrın 17-də təşkilatın Nazirlər komitəsi qərarı ratifikasiya etdi.[4]

Azərbaycanın dövlət bayrağının təşkilatın iqamətgahı önündə qaldırılması ilə ölkəmizə tam hüquqlu üzv statusu verildi.

2001-ci il yanvarın 22-25-də Avropa Şurasının Parlament Assambleyasının qış sessiyası keçirildi. Azərbaycan parlament nümayəndə heyətinə ölkəmizin gənc siyasi lideri, siyasi həyatımızda öz sözünü layiqincə deyən Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyev rəhbərlik etməyə başladı. Azərbaycan prezidenti Heydər Əliyev Strasburqa gələrək bu mühüm mərasimdə iştirak etdi.

Respublikamızın Avropa Şurasına qəbulu hadisəsi müasir Azərbaycan tarixinin çox mühüm bir hadisəsi sayılmalıdır. Azərbaycanda başlanmış demokratik, hüquqi, sivil dövlət quruculuğu prosesinə bu hadisə yeni bir təkan verdi. Prezident Heydər Əliyevin bu mərasimdə Azərbaycan dilində etdiyi tarixi çıxışlar bütün iştirakçılar tərəfindən çox yüksək qiymətləndirildi. Azərbaycan televiziyası həmin tarixi mərasimi Strasburqdan canlı yayımlayaraq, ictimaiyyətimizi bu hadisələrdən xəbərdar etdi. Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, canlı yayımın təşkilində bizim Avropa Şurasının audiovizual şöbəsi ilə qurduğumuz sıx münasibətlərin mühüm rolu oldu. Azərbaycanın Avropa Şurasına qəbulu ilə bağlı yerli qəzetlər maraqlı yazılar dərc etmişdi. Avropa Şurasının təsisçisi olduğu «The Europeans» (Avropalılar) jurnalı Azərbaycanın Avropa Şurasına qəbulu mərasimi və bu mərasimdə Azərbaycan prezidenti Heydər Əliyevin çıxışı barədə mühüm material dərc etmişdi. Bu yazı onu göstərir ki, Azərbaycana Avropa Şurası hansı səviyyədə maraq göstərir. Fikrimcə, Azərbaycan Avropa Şurasına nə qədər ehtiyac duyurdusa, Avropa Şurası da bir o qədər ölkəmizə maraq göstərirdi.

Bundan sonra nümayəndə heyətimiz gənc siyasi lider, millət vəkili İlham Əliyevin başçılığı ilə tarixi bir işə başladı. Millət vəkili İlham Əliyev bütün səylərini səfərbər edirdi ki, Azərbaycan onun özü demişkən, layiq olduğu səviyyədə təmsil olunsun.

Qarşıda aprel sessiyası var idi. Azərbaycan nümayəndə heyəti bu sessiyaya da çox yüksək səviyyədə hazırlaşmışdı. Sessiyanın gündəliyinə çıxarılmış «Avropada transmilli cinayətkarlığa qarşı mübarizə, tərəqqi və geriləmə» məsələsi müzakirə olunan zaman nümayəndə

heyətimizin başçısı İlham Əliyev çıxış edərək ermənilərin iç üzünü ifşa etdi. Millət vəkili işğal olunmuş Dağlıq Qarabağda ermənilərin qeyri-qanuni hərəkətlərlə məşğul olduqlarını, bu ərazilərdən qanunsuz narkotik maddələrin daşınmasında istifadə olunduğunu əsaslandırdı. İlham Əliyev ASALA kimi terrorçu təşkilatın yaradıcısı olan ermənilərin azərbaycanlılara qarşı dəfələrlə terror hadisəsi törətdiklərini faktlarla sübut etdi. İngilis dilində, yüksək elmi-analitik səviyyədə edilmiş bu çıxışın təsiri açıq-aydın hiss olunurdu. Şahidlər deyirlər ki, bu vaxt Parlament Assambleyasının salonunda olan erməni deputatlar əməlli-başlı əsəbiləşmişdilər. Daha sonra iki mühüm sənəd də Avropa Şurasında qəbul etdirildi. Bu sənədlər də ermənilərin azərbaycanlılara qarşı soyqırımı törətmələri və Ermənistanda saxlanılan hərbi əsirlərin vəziyyəti ilə bağlı idi.

İlham Əliyevin bu tarixi xidmətləri Azərbaycanda geniş rezonans verdi. Vətəndaşlarımız bu gənc siyasi liderin Avropa Şurasındakı uğurlu fəaliyyətini çox yüksək qiymətləndirirdilər.

Həmin vaxtlar təkcə Azərbaycan kütləvi informasiya vasitələri yox, dünyanın bir çox jurnalistləri İlham Əliyevin və onun rəhbərlik etdiyi Azərbaycan parlament nümayəndə heyətinin işini diqqətdə saxlayırdılar. Türkiyənin «Nərgiz» televiziyasına müsahibəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri qardaş Türkiyə ilə Azərbaycan parlamentlərinin sıx münasibətlərdə olduğunu, Avropa Şurasında da fəaliyyətimizin birgə xarakter daşıdığını qeyd edirdi.

Aprel sessiyası zamanı İlham Əliyev canlı yayımla Azərbaycan televiziyasına müsahibə verdi və qəbul olunmuş qərarlar haqda tamaşaçıları geniş şəkildə

məlumatlandırdı. Qeyd edim ki, o vaxt ermənilər guya nə vaxtsa türklərin onlara qarşı soyqırımı törətmələrini iddia edərək, Avropa Şurasında da aranı qatmaq istəyirdilər. Lakin fenomenal keyfiyyətlərə malik rasionalist-praqmatik siyasətçi İlham Əliyevin rəhbərliyi altında dərindən düşünülmüş operativ fəaliyyət nəticəsində erməni nümayəndələri yenə də pat vəziyyətində qaldılar. Onların irəli sürdükləri və köhnə bezdirici sözlərlə bəzədilmiş bu sənədə demək olar ki, 100 illik təbliğatdan sonra müqayisədə çox az deputat imza atdı. Çoxları isə əsl həqiqəti öyrəndikdən sonra öz imzalarından imtina etdilər. Əlbəttə, bu, çox mühüm bir nailiyyət idi. Qısa vaxtda görülmüş böyük işlərin nəticəsi idi.

İlham Əliyevin rəhbərliyi ilə bu mühüm işlər sonrakı sessiyalarda da davam etdirildi. İyun və sentyabr aylarında Avropa Şurası Parlament Assambleyasının yay və payız sessiyalarında da nümayəndə heyətimizin Strasburqda göstərdiyi uğurlu fəaliyyət yüksək qiymətləndirilməlidir. Bu sessiyalarda ermənilərin ifşa olunmalarından sonra onlar çalışırdılar ki, nə yolla olursa-olsun, Azərbaycan əleyhinə kompromatlar yığsınlar.

2002-ci il yanvarın 25-də Azərbaycanın Avropa Şurasına qəbulundan bir il ötdü. Avropa Şurası Parlament Assambleyasının bu dəfəki qış sessiyasının gündəliyinə Azərbaycanda «siyasi məhbuslar» məsələsi də salınmışdı. Bu böhtana cavab vermək üçün xüsusi hazırlıq görülməli idi. Tutarlı və əhəmiyyətli əsaslarla. Üstəlik, Azərbaycandakı müxalif dairələr hər vəchlə çalışırdılar ki, İlham Əliyevin Avropa Şurasında həmişəki kimi fəal ola bilməyəcəyini Azərbaycan cəmiyyətinə təbliğ etsinlər. Bütün müxalifət qəzetlərində onlar bu barədə əsassız fikirlər söyləyir, uydurma «şərhlər» verirdilər. Müxalif

mətbuat səhifələrində elə gün olmurdu ki, bu məsələyə toxunulmasın.

Beləliklə, sessiya başlandı. Demək olar ki, Avropa Şurasında ilk günlərdən əhvali-ruhiyyəni əleyhimizə formalaşdıra bilmişdilər. Azərbaycandakı üzdəniraq «hüquq müdafiəçiləri»nin və ermənilərin təbliğatı bunun əsas səbəbi sayılmalıdır. Lakin İlham Əliyev bunların heç birinə qətiyyən fikir verməyərək, müzakirə olunan «Terrorizmə qarşı mübarizə və insan hüquqlarına hörmət» məsələsinə dərin və təhlili münasibət bildirdi. O, çıxışında terrorizmdən heç bir ölkənin sığorta olunmadığını və ona qarşı mübarizənin çətin olduğunu bildirdi. Onun tutarlı məntiq ilə seçilən çıxışından bəzi məqamlara diqqət yetirmək istəyirəm. Millət vəkili qeyd edir: «Avropada, bizim ümumi evimizdə elə ölkələr vardır ki, onlar terrorizmdən dəhşətli əziyyətlər çəkmişlər. Azərbaycan bu ölkələrdən biridir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın 1 milyon sakini qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan hərbi qüvvələri tərəfindən işğal olunmuşdur. Yüzlərlə şəhər və kənd tamamilə dağıdılmışdır. Bundan əlavə, erməni terrorçu təşkilatları Azərbaycan ərazisində dəfələrlə terror aktları törətmişlər. Metroda, avtobuslarda, qatarlarda, bərələrdə və digər yerlərdə törədilmiş terror aktları nəticəsində 2 mindən çox günahsız Azərbaycan vətəndaşı, o cümlədən qadınlar və uşaqlar qətlə yetirilmiş, 10 minlərlə adam xəsarət almışdır. Elə bilirəm ki, Avropa Şurası bu məsələyə və eləcə də Avropa Şurasının üzvü olan bir dövlətin, yəni Ermənistanın, Avropa Şurasının üzvü olan digər dövlətin – Azərbaycanın ərazisinin 20 faizini işğal altında saxlaması faktına öz münasibətini bildirməlidir».

Elə həmin iclasda «Azərbaycanda siyasi məhbuslar»

məsələsi müzakirə edildi. Ümumiyyətlə, bu günə kimi «siyasi məhbus» anlayışının tərifi heç kim tərəfindən verilməyib. Ancaq ümumi kontekstdə götürsək, «siyasi məhbuslar»ı siyasi baxışlarına və fəaliyyətinə görə həbs edilmiş dustaqlar kateqoriyasına aid edə bilərik. Amma Azərbaycanda bu günə kimi siyasi baxışlarına görə kimi həbs ediblər? Əlbəttə, heç kimi. Haqqında danışılan şəxslər isə yalnız və yalnız qatı və dövləti cinayətlər törətmiş adamlardır. İlham Əliyev sessiyadakı ikinci çıxışında bu fikirləri dəqiqliklə çatdırdı və ölkəmizdə «siyasi məhbuslar»ın olmadığını əsaslandırdı. Adətən Parlament Assambleyasının iclaslarında çox nadir hallarda çıxışlar edən baş katib Valter Şvimmerin müdaxiləsi abhavanın əleyhimizə yönəlməsinə səbəb oldu və məruzəçi Klerfaytın qətnaməsi qəbul edildi. Azərbaycan televiziyasına Strasburqdan canlı müsahibə verən İlham Əliyev bu hadisənin şişirdilməsinin mahiyyətini dəqiq şəkildə isbat etdi: «Təbii ki, Azərbaycana qarşı hər hansı bir tədbir görülmədi, hər hansı bir sanksiya tətbiq olunmadı. Yəni biz əvvəldən bilirdik ki, belə bir şey olmayacaq. Ancaq təəssüf edirəm ki, bəzi müxalifət mətbuat orqanları bu məsələni çox qabardırdılar, proqnozlar verirdilər ki, orada Azərbaycana qarşı sanksiyalar tətbiq olunacaq, Azərbaycan səsvermə hüququndan məhrum ediləcəkdir. Ümumiyyətlə, Azərbaycanı cəzalandıracaqlar. Ancaq bunların heç biri olmadı. Fəqət, yenə də deyirəm, təəssüf edirəm ki, bizim müxalifətimizin mövqeyi Ermənistan nümayəndələrinin mövqeyi ilə üst-üstə düşür. Yəni ermənilər burada bu fürsətdən istifadə edərək Azərbaycanı ləkələmək istəyirlər. Müxalifət isə Azərbaycanda oturub Azərbaycan dövlətinin əleyhinə işlər aparır. Çalışır ki, Azərbaycanı gözdən salsın. Bu da mümkün olmayacaqdır».[5]

Fikrimcə, məsələyə bundan gözəl münasibət ola bilməz. Daha sonra Azərbaycan Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti yeni seçilmiş sədr Piter Şiderə bu qətnaməyə görə etiraz məktubu ilə müraciət etdi.

Məncə, bu Azərbaycan üçün sınaq sayılmalıdır. Avropanın demokratik dəyərlərini qəbul etməyə başlamış xalqımız gənc lideri İlham Əliyevlə bu sınaqlardan da ləyaqətlə çıxacaq. Lakin Avropa dəyərlərini qəbul etməyimiz heç də o demək deyil ki, biz qarşımıza nə keçdi onu əxz edək. Bəzi Avropa dövlətlərində artıq qanunlar qəbul edilib ki, eynicinsli vətəndaşlar nikah münasibətləri qura bilsinlər və sairə. Axı, belə qanunlar bizim milli mentalitetimizə qətiyyən uyğun gələn deyil. Yəni biz Avropadan hər şeyi əxz edə bilmərik. Bizim qədim tarixi, zəngin mədəniyyəti, gözəl adət və ənənəsi olan millətimiz var. Öz milli keyfiyyətlərimiz, öz varlığımız var. Bunu biz heç vaxt dəyişə bilmərik və dəyişməməliyik də. Biz Avropa Şurasından ancaq əsl demokratiyanı, insan haqlarına hörmətin əsl prinsiplərini öyrənməli və əxz etməliyik. Yoxsa, kiminsə xoşuna gəlmək üçün quldurları və qatı cinayətkarları azadlığa buraxa bilmərik.

Azərbaycan prezidenti Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda reallaşan hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu prosesinin tərkib hissələrindən biri də Avropaya inteqrasiya olunmaq, onun demokratik dəyərlərini Azərbaycana gətirməkdir. Biz bu yolla gedirik.

Bu, Azərbaycan prezidenti Heydər Əliyevin elan etdiyi və illər boyu müdrik bir uzaqgörənliklə reallaşdırdığı, həyata keçirdiyi «Açıq qapı» siyasəti ilə dünyaya, dünyanın sivil, bərabərhüquqlu maddi və mənəvi təkamül, inkişaf gedişatına qovuşmaq yoludur. Bu Avropa ailəsində

öz milli-mənəvi dəyərləri, tarixi ənənələri ilə özünəməxsus yerini, mövqeyini tapmaq yoludur. Ötən əsrin əvvəllərində Əlibəy Hüseynzadələr, Ziya Göyalplar Müasirlik-Çağdaşçılıq-Avropalaşmaq deyəndə bunu nəzərdə tutur, buna can atırdılar. Təxminən, yüz illik nəzəri ideyalar, Avropa ailəsində tam hüquqlu üzv kimi dünyəvi, bəşəri tərəqqiyə, demokratik, sivil dəyərlərə qovuşma xətti müasir Azərbaycan dövlətinin praktik reallığıdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

[1] Briefing de Presse (Concil of Europe 2000) – İnsan hüquqları məhkəməsinin sənədləri. Strasburq 2000.
[2] Reperes – CE-2000. Avropa Şurasının arxiv sənədlərindən.
[3] Conseil de l'Europe: 50 ans d'action en faveur des Europeens. Fevral 1999.
[4] Demande d'adhesion de l'Azerbaidjan au Conseil de l'Europe. Avis N 222 (2000). Avropa Şurasının arxiv sənədləri.
[5] Xalq qəzeti. 25 yanvar 2002-ci il.

*«Xalq qəzeti»,*
*2,3 fevral, 2002-ci il*

## VARİSLİK FƏXR EDİLMƏLİ XÜSUSİYYƏTDİR, UTANILASI YOX

İyirminci yüzilin son 10 ili Azərbaycanın ən yeni tarixində bir çox dəyərləri və parlaq hadisələri ilə zəngindir. Keçmiş sovet məkanında yaranmış yeni siyasi şərait milli-azadlıq hərəkatını genişləndirdi və müttəfiq respublikalar əsarət zəncirlərini qıraraq müstəqillik yoluna qədəm qoydular. Lakin digər respublikalardan fərqli olaraq, Azərbaycanın azadlıq müstəvisinə çıxması daha ağrılı keçdi. Ermənistanın Azərbaycana silahlı təcavüzü, ölkədəki hakimiyyət böhranları prosesləri daha da mürəkkəbləşdirirdi. Elə vəziyyət yaranmışdı ki, az qala müstəqilliyimiz məhvə yuvarlanacaqdı.

Belə bir ağır və mürəkkəb dövrdə ölkəmizin ən nüfuzlu ziyalıları Naxçıvana, o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyevə müraciət etdilər. O, xalqın bu müraciətinə müsbət cavab verdi və Azərbaycanı düşdüyü çətin vəziyyətdən qurtarmaq üçün idarə etməyə başladı. Və Azərbaycan məhv olmaq, parçalanmaq bəlasından qurtardı.

Bundan sonra isə ölkədə quruculuq işlərinə başlandı. Çox qısa bir zaman ərzində ölkə prezidenti Heydər Əliyev və onun təmsil olunduğu YAP-ın hakimiyyətdə təmsil olunan fəalları ölkədə sabitlik yaratdılar. Həmin sabitlik yaratma prosesində prezident Heydər Əliyevlə çiyin-çiyinə çalışan YAP liderlərindən biri də bir neçə məsul vəzifəni üzərinə götürmüş İlham Əliyev oldu. İlham Əliyev gənc olmasına baxmayaraq, ona tapşırılan bütün işlərin öhdəsindən layiqincə gəlməyi bacarır. Və mübaliğəsiz

deyərdim ki, indi o, Azərbaycan siyasətçiləri arasında ən yüksək reytinqə malikdir.

İlham Əliyevin bir şəxsiyyət kimi yetişib püxtələşməsində və dünyagörüşünün formalaşmasında boya-başa çatdığı mühitin, aldığı təhsilin, habelə ictimai-siyasi həyatda fəaliyyət göstərdiyi dövrdə topladığı bilik və təcrübənin böyük əhəmiyyəti olmuşdur. İlham Əliyev artıq istedadlı, erudisiyalı, kifayət qədər hazırlıqlı siyasətçi kimi yetişib. «Əsl siyasət konkret, real iş görməkdən ibarətdir» – deyən İlham Əliyev siyasət meydanına qədəm qoyduğu gündən geniş və çoxcəhətli fəaliyyət göstərir. Neft danışıqlarının aparılmasında və bağlanacaq müqavilələrin imzalanmaya hazırlanmasında danışıqların fəal iştirakçısı, ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin böyük zəhməti və xidməti olmuşdur.

Cənab İlham Əliyevdən danışanda müxalif «siyasətçiləri» yaddan çıxarmaq olmaz. Onlar yeri gəldi-gəlmədi öz qəzetləri vasitəsilə İlham Əliyevin adını gah varis kimi, gah da başqa müstəvidə hallandırırlar. Həm də bu zaman əksər hallarda ironik ton müşahidə olunur. Ciddi müşahidəçilər bunun səbəbini müxalifətin İlham Əliyevə qarşı qısqanclığı və təhlükəli rəqibin zərərsizləşdirilməsi cəhdi kimi izah edirlər. Hakimiyyətin varisliyi və prezidentin varisi məsələlərini tez-tez qabardan müxalifət çox zaman heç də məsələnin mahiyyətinə varmırlar. Prezidentin varisinin kimliyi müzakirə edilərkən İlham Əliyevə üstünlük gətirən dividentlərin nələrdən ibarət olduğu söylənmir. Əvəzindəsə bəsit, şit şəkildə varisliyin sanki fəlakət olduğunu aşılamağa cəhdlər göstərirlər. Çox zaman da bu cəhdlər o qədər yersiz edilir ki, hətta ən tərəfsiz şəxsdə belə istehza doğurur. Onlar demək olar ki, qəzetlərinin hər nömrəsində

İlham Əliyevdən bəhs etdikləri halda onu «qeyri ciddi fiqur», «zəif rəqib» və bu cür başqa ifadələrlə təqdim edirlər.

Mənim belə «güclü siyasətçilər» və «güclü yazarlara» bir sualım var. Əgər İlham Əliyev, doğrudan da, «zəif rəqib»dirsə, nə üçün bütün diqqəti onun üzərində cəmləşdirmisiz? Nə üçün güclü rəqiblərlə mübarizə aparmırsız? Cavab yəqin ki, aydındır.

Fikrimi 2000-ci il 25 dekabr tarixdə «Moskovski komsomolets» qəzetində İlham Əliyevlə bağlı məqalə ilə başa çatdırmaq istəyirəm. «Birbaşa Varis» adlanırdı həmin məqalə! Həmin qəzetə verdiyi müsahibəsində İlham Əliyev bədxahlarına yaxşı dərs verir: «Mən prinsipcə istənilən səviyyədə istənilən mübarizəyə hazıram. Çünki hesab edirəm ki, bu illər ərzində Azərbaycanın qazandığı nailiyyətlər mütləq qorunub saxlanılmalı və artmalıdır. Bu gün prezidentin rəhbərliyi ilə Azərbaycanın getdiyi yol Azərbaycanın bir çox illər və onilliklər üçün tutduğu yol olaraq qalmalıdır. Bunun üçün mən hər hansı bir vəzifədə özümdən asılı olan hər şeyi etməyə hazıram. İndi elə bir lüzum yoxdur ki, mən böyük siyasətə birbaşa can atım. Əgər belə bir lüzum yaranarsa, mən buna hazıram. Odur ki, bizim partiyaya səs verənlərin hamısı arxayın ola bilərlər».

*«Azərbaycan, dövlət, lider»*
*jurnalı. 2003, № 1, səh. 13-15*

# XALQIN İNANDIĞI LİDER HAQQINDA DÜŞÜNCƏLƏRİM

Onun yolu Şərqdən başladı, Qərbin siyasi təfəkkür mərkəzlərindən keçdi. Müasir dünyanın ən böyük siyasətçiləri – nüfuzlu Amerika analitikləri, Avropa parlamentariləri, görkəmli dövlət xadimləri dəstəklədi, təsdiq və etiraf etdi onu. ABŞ konqresmenləri, Fransa senatorları, Britaniya lordları görüşünə gəldi, ona dəstək verdi. Dünyanın nüfuzlu «THE WEST» qəzeti (ABŞ) İlham Əliyevin konqresmenlərlə görüşünü analiz edərək, belə siyasi qiymət verirdi. «İlham Əliyevin hakim partiyanın yüksək postlarından birini tutması, millət vəkili və neft strategiyası üzrə mütəxəssis olması, üstəlik Avropanın siyasi dairələri tərəfindən qəbul edilməsi onun adını Heydər Əliyevdən sonra gələn adlar arasında birinci yerə çıxarır». Bəli, bir vaxtlar Sovet dövlətində «Siyasi büro» zirvəsini fəth edən Heydər Əliyev hünərini Avropa Şurasında vitse-prezident ucalığıyla təkrarladı, davam və inkişaf etdirdi, Azərbaycan siyasətində Heydər Əliyevdən sonra birinci yerə çıxdı İlham Əliyev.

Onun yorulmaz təşkilatçılığı, fədakar əməli xidmətilə azadlığımızın carçısı olan milli bayrağımız dəfələrlə dünyanın başı üzərinə ucaldı, Azərbaycanın sinəsini qızıl olimpiya medalları bəzədi. Onun on illik gərgin, məqsədyönlü, praktik fəaliyyəti ilə Azərbaycanın milli neft strategiyası addım-addım irəlilədi, «Əsrin müqaviləsi» ilə başlayan yol böyük uğurlar qazandı, dünyanın ən böyük layihələrindən olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xətti reallığa çevrildi, bütün gizli-aşkar maneələrə

baxmayaraq, sürətlə tikilməyə başladı.

Qaçqınlara ümid verdi, «Ümid» qəsəbələri saldırdı, realist, rasionalist siyasət meydanında daim Qarabağın haqq sözünü dedi, daim Qarabağa doğru getdi, Avropa Şurasında Ermənistanın işğalçı kimi tanınmasına nail oldu İlham Əliyev.

Azərbaycanın müasir tarix səhnəsinə yeni bir Lider gəlir. Yolu Şərqdən başlayan, Qərbin siyasət zirvələrini fəth edən, siyasi-analitik təfəkküründə Şərqlə Qərbi qovuşduran, milli-mənəvi və dünyəvi, demokratik dəyərləri birləşdirən, dünyanın qəbul etdiyi, öz xalqının arxalandığı, güvəndiyi, inanaraq sevdiyi, ümid və inam bəslədiyi İlham Əliyev. Yeni əsrin yeni lideri – xalqın inandığı lider. O, həm ağıl, intellekt, həm təhsil, təcrübə, həm siyasi diplomatik bacarıq, uzaqgörənlik, həm də digər çoxsaylı müsbət keyfiyyətləri ilə bütün rəqiblərindən tam üstündür, prezidentliyə Heydər Əliyevdən sonra həqiqətən alternativsiz liderdir. Əslində, bunu bütün xalqımız, bütün dünya bilir və qiymətləndirir.

*        *        *

Böyük ataların yolunu böyük oğullar davam və inkişaf etdirir. İlham Əliyev Azərbaycan xalqının tarixinə qızıl səhifələr yazan, əbədi uğurlar qazandıran atasının-dahi dövlət və siyasət xadimi Heydər Əliyevin yolunu şərəflə davam etdirən layiqli oğuldur, bir daha təkrar edirəm ki, yeni əsrin yeni lideridir. Xarici Neft Şirkətləri ilə tarixi müqavilələrin bağlanmasında, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihəsinin praktik reallaşmasında onun özünəməxsus xidmətləri bütün xalqımıza, bütün dünyaya yaxşı bəlliddir. «Əsrin müqaviləsi» adlı sənədli televiziya

filminin (1999) yaradıcılıq prosesində mən, İlham Əliyevin necə böyük işlər gördüyünün, Azərbaycan milli neft strategiyasının, məhz Heydər Əliyev strategiyasının həyata keçirilməsi yolunda necə fədakarlıqla mübarizə apardığının bir daha şahidi oldum.

İstər Azərbaycan milli neft strategiyasının həyata keçirilməsində, istər Avropa Şurası Parlament Assambleyasında müstəqil Azərbaycan dövlətinin tarixi və çağdaş maraqlarının qorunmasında, istər Milli Olimpiya hərəkatımızın, bütövlükdə Azərbaycan idmanının dünya miqyaslı uğurlar qazanmasında, istərsə də millət vəkili kimi Milli Məclisin işində, çoxsahəli qanunvericilik əsaslarının işlənib hazırlanması və təkmilləşdirilməsində İlham Əliyevin uğurlu fəaliyyəti göz qabağındadır. Onun dünyanın ən mötəbər, nüfuzlu təşkilatlarından olan Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti seçilməsi bütün xalqımızın, bütün türk dünyasının fəxridir. Bütün bu geniş miqyaslı, yorulmaz fəaliyyətin, azad, müstəqil Azərbaycan dövlətinə və dövlətçiliyinə fədakar xidmətin nəticəsidir ki, İlham Əliyev konstitusiyamıza, əsas qanunlarımıza tam uyğun olaraq Azərbaycan Respublikasının baş naziri təyin olundu. Deyərdim ki, bu təyinat tarixi zərurət idi. Çox qısa bir müddətdə baş nazir İlham Əliyevin məqsədyönlü fəaliyyəti, dövlətçilik mexanizmini Heydər Əliyevə məxsus müdrikliklə işlədə bilmək qabiliyyəti bütün cəmiyyətimizin diqqətini cəlb etdi. Onun baş nazir kimi fəaliyyətə başlamasını ABŞ prezidenti Corc Buş, Türkiyə prezidenti Əhməd Necdət Sezər kimi görkəmli dövlət başçıları, dünya siyasətinin, iqtisadiyyatının aparıcı şəxsiyyətləri təbrik etdi, dəstəklədi. Bu, Şərqdə və Qərbdə, Şimalda və Cənubda aparıcı dövlətlərin, siyasət, iqtisadiyyat, diplomatiya mərkəz-

lərinin İlham Əliyevi qəbul və etiraf etməsinin, onunla və onun şəxsində Azərbaycanla əməkdaşlıq etmək arzusunun, niyyətinin təsdiqi idi. Bu çoxsaylı, mötəbər təbrikləri adi protokol etiketi kimi qiymətləndirmək düz olmazdı. Təəssüf ki, bədnam müxalifət mənsublarının qısqanclığı, mənəviyyatsızlığı, ağa qara deməsi bu istiqamətdə də özünü göstərir. Müxalifət mətbuatının yalan və böhtan dolu cızma-qaralarına baxmayaraq, əsl həqiqət budur ki, İlham Əliyevin Azərbaycan Respublikasının baş naziri olması, prezidentliyə namizəd göstərilməsi dünyanın yaxın-uzaq əsas dövlətləri, nüfuzlu siyasət xadimləri, mötəbər iqtisadi, siyasi və diplomatik qurumları, mərkəzləri tərəfindən böyük nikbinliklə, razılıqla qarşılanıb.

Bu yaxınlarda şahidi olduğumuz çox mühüm bir hadisə baş nazir İlham Əliyevin dünya miqyaslı siyasətçi, diplomat olduğunu, xüsusilə, onun nüfuzlu dövlət və siyasət adamları, aparıcı ölkələr tərəfindən dəstəkləndiyini və qəbul olunduğunu bir daha təsdiq etdi. Həmin mühüm hadisə Azərbaycan Respublikasının baş naziri İlham Əliyevin BMT Baş Assambleyasının 58-ci sessiyasında iştirakı və dərin məzmunlu çıxışıyla bu günün Azərbaycan həqiqətlərini bütün dünyaya, bütün tərəqqipərvər bəşəriyyətə çatdırması idi.

Baş nazir İlham Əliyevin BMT Baş Assambleyasının 58-ci sessiyasında iştirakı və bu mötəbər toplantıda çıxışı Azərbaycan siyasətinin dünyaya çatdırılması, qlobal dünya siyasətində Azərbaycanın milli və dövləti maraqlarının gündəmə gətirilməsi baxımından tarixi bir hadisədir. Elə buradaca onu da yada salmaq istərdim ki, Azərbaycan Respublikası BMT Baş Assambleyasının sessiyasında artıq ikinci dəfədir ki, belə yüksək səviyyədə iştirak edir. İlk dəfə 1994-cü ilin sentyabrında bu nüfuzlu beynəlxalq

toplantıda dövlətimizi Azərbaycan prezidenti Heydər Əliyev təmsil etmişdir. Həmin tarixi sessiyada cənab prezidentimizin son dərəcə mühüm, yüksək səviyyəli çıxışı hamımızın yadındadır. Azərbaycan – BMT münasibətləri tarixində İlham Əliyev prezident Heydər Əliyevin yolunu şərəflə davam etdirdi. Bir incə məqam hamımızın sevincinə, fərəhinə səbəb oldu. Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş əlini İlham Əliyevin çiyninə qoyub onunla çox səmimi söhbət edirdi. Bəli, siyasət, dövlətlərarası diplomatiya dünyasında bəzən kiçik bir jest kitablara sığmayan böyük mənalar ifadə edir. Baş nazir İlham Əliyev BMT Baş Assambleyasının 58-ci sessiiyasındakı çıxışında demişdir: «Azərbaycanın nümayəndə heyəti bu yüksək kürsüdən beynəlxalq icmanın diqqətini, davam edən Ermənistan-Azərbaycan münaqişəsinə dönə-dönə cəlb etmişdir. Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir.

Bununla belə, Ermənistan bu qətnamələri saymamazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər.

Azərbaycan münaqişənin beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yöndə səylərimizi davam etdirməkdə israrlıyıq və beynəlxalq icmanın fəal iştirakına ümid edirik. Azərbaycan heç zaman «mövcud reallıqlar» əsasında həll variantı ilə razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir. Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui-istifadəyə cəhd etməsin. Məsələnin həll olunmamasına

görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür. İşğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq icmanın tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər.

Ermənistan yalnız Azərbaycan ərazilərini tərk etdikdən və bununla da münaqişənin sülh yolu ilə həllinə əsas yarandıqdan sonra Azərbaycanla normal dövlətlərarası münasibətlərə və əməkdaşlığa ümid edə bilər.

Biz Təhlükəsizlik Şurasına müraciət edirik ki, yuxarıda sadalanan 4 qətnamə ilə bağlı lazımi tədbirlər görülməsini təmin etsin və gözləyirik ki, təmas xəttində, eləcə də, işğal olunmuş ərazilərdə cinayətkar və təcavüzkar əməllərə son qoyulacaq, işğalçı qüvvələr Azərbaycan ərazilərindən qeyd-şərtsiz, dərhal və tamamilə çıxarılacaqdır» («Azərbaycan» qəzeti, 26 sentyabr 2003-cü il).

Bu, tarixi bir çıxışdır, Azərbaycan xalqının, Azərbaycan Respublikasının tarixinə qızıl hərflərlə yazılan unudulmaz hadisədir. Baş nazir İlham Əliyevin BMT Baş Assambleyasının 58-ci sessiyasındakı qısa, lakonik, lakin son dərəcə böyük məzmunlu çıxışı Azərbaycana qarşı bütün informasiya blokadalarını, antiazərbaycan təbliğat maşınını darmadağın etdi, əsl Azərbaycan həqiqətlərini, o cümlədən, Dağlıq Qarabağ və ətraf rayonların qanlı işğalı ilə bağlı faciəli vəziyyəti bütün çılpaqlığı ilə dünyanın diqqət mərkəzinə çəkdi. Onun dəmir məntiqi ilə BMT Baş Assambleyasının hazırkı sessiyasını izləyən bütün beynəlxalq aləm bir daha eşitdi, dərk etdi Qarabağ münaqişəsinin əsl mahiyyətini. Erməni şovinizmini, erməni separatizmi və terrorizmini ifşa edən İlham Əliyev yalançı iddiaları susdurdu, on ildən bəri Qarabağ və ətraf rayonların işğalı ilə bağlı beynəlxalq təşkilatların ikili standartlarla eybəcər fəaliyyətinə, əslində, fəaliyyətsizliyinə yox dedi. Bu, bir

sıra beynəlxalq təşkilatların fərsiz, eybəcər fəaliyyətinə, ikili standartlara əsaslanan qeyri-sivil mövqeyinə qarşı İlham Əliyev qətiyyətinin siyasi-diplomatik səviyyəsinin, səriştəsinin, müdriklik və uzaqgörənliyin təntənəsi idi. İlham Əliyev BMT kimi dünyəvi, nüfuzlu beynəlxalq qurumu həqiqət naminə tənqid etməkdən qorxmadı, çəkinmədi, ondan 10 il əvvəl qəbul etdiyi dörd qətnamənin niyə həyata keçirilməməsi üçün cavab istədi. Bu, danılmaz faktlara əsaslanan İlham Əliyev məntiqinin qələbəsi idi. Beləliklə, baş nazir İlham Əliyev siyasi-diplomatik səviyyəsi, yetkinliyi ilə dünyanın gözü qarşısında bir daha özünü təsdiq etdi.

Əlbəttə, dünyanın dəstəyi, təsdiq və etirafı əsas şərtdir. Lakin xalqın dəstəyi qəbul etməsi bundan daha vacib, daha əsasdır. Prezident seçkilərinin ilkin mərhələsi, təbliğat kompaniyasının bütöv mənzərəsi bir daha təsdiq etdi və etməkdədir ki, xalqımız Heydər Əliyevə, eləcə də onun ən layiqli davamçısı İlham Əliyevə inanır, etibar edir, onların tərəfindədir. İlham Əliyev öz doğma xalqının, Azərbaycan xalqının bu inam və etibarını, bu böyük sevgisini öz layiqli fəaliyyəti, ona tapşırılan məsuliyyəti, vəzifələrin öhdəsindən bacarıqla gələ bilməsi ilə qazanıb. Bu baxımdan tam cəsarətlə deyə bilərəm ki, Azərbaycan xalqının ona ünvanlanan sevgisi, inam və etibarı onun – İlham Əliyevin ana südü kimi halal haqqıdır.

Bu yaxınlarda Azərbaycan Respublikasının baş naziri cənab İlham Əliyevin Yaltaya səfəri və həmin səfərdə bir sıra prezidentlərlə görüşləri uzun müddət siyasi analitiklərin, ekspertlərin diqqət mərkəzində qalacaq, təhlil obyekti olacaq. Məsələ burasındadır ki, MDB ölkə başçıları ilə İlham Əliyevin ilk ikitərəfli görüşləri bu postsovet məkanında Azərbaycanın qısa və uzunmüddətli mövqe və

maraqlarına, dövlət siyasətimizin taktiki və strateji perspektiv gedişlərinə müəyyən aydınlıq gətirdi. Digər tərəfdən Rusiya Federasiyası, Ukrayna, Gürcüstan, Qazaxıstan kimi nüfuzlu dövlətlərin baş nazir və prezidentliyə namizəd İlham Əliyevə müsbət münasibəti regiona və bütün dünyaya nümayiş etdirildi.

«Nezavisimaya qazeta»nın (Rusiya Federasiyası), eləcə də digər çoxsaylı, beynəlxalq yayımlı qəzet və jurnalların, radio və televiziyaların, xüsusi İnternet buraxılışlarının əsas vurğunu Vladimir Putin – İlham Əliyev görüşünə yönəltməsi Yalta toplantısında əsas xəttin, başlıca prioritetin məhz həmin görüş olduğunu təsdiqləyirdi: «V.Putin İ.Əliyevin baş nazir təyin olunmasını çox uğurlu seçim adlandırmaqla bərabər, onu Rusiyaya səfərə dəvət etdi. Prezident Azərbaycanın seçkiqabağı mərhələdə olmasına baxmayaraq, bunun ikitərəfli əməkdaşlığın dərinləşməsinə mane olmayacağını vurğulayıb. Azərbaycan rəsmisi də öz tərəfindən baş nazir postunda olduğu müddətdə əsası H.Əliyev və V.Putin tərəfindən qoyulan münasibətlərin tərəqqisi üçün bütün səylərini göstərəcəyini bəyan edib» («Nezavisimaya qazeta», 19 sentyabr 2003-cü il).

V.Putin, L.Kuçma, N.Nazarbayev, E.Şevardnadze ilə görüşləri, eləcə də Rusiya və Gürcüstan prezidentləri tərəfindən həmin ölkələrə səfərə dəvət olunması baş nazir İlham Əliyevin nüfuzlu siyasətçi karyerasına malik olduğundan xəbər verir.

Öz xalqının və dünyanın qəbul etdiyi, dəstəklədiyi İlham Əliyevin daha bir şansını vurğulamaq istərdim; bu, Türkiyənin, bütövlükdə türk dünyasının ona çox isti, səmimi münasibətinin olmasıdır. Bu yaxınlarda qardaş Türkiyəyə işgüzar səfərə gedən baş nazir İlham Əliyevin son dərəcə mehribanlıqla qarşılanması dediklərimizi əyani

şəkildə sübut etdi. Türkiyə prezidenti Əhməd Necdət Sezərin, baş nazir Rəcəb Təyyub Ərdoğanın, Türkiyə Xarici İşlər naziri Abdulla Gülün və başqa dövlət rəsmilərinin İlham Əliyevlə görüşləri Azərbaycanla Türkiyə arasında yeni, tarixi bir mərhələnin başlanmasından xəbər verirdi. Bu istiqamətdə əsas fikirlərimi bildirmək üçün zəruri bir haşiyəyə, ekskursa ehtiyac duyuram.

Türkiyə tarix boyu Azərbaycanın yanında olub, onun kədərinə kədərlənib, uğurlarına sevinib, böyük adamlarını müdafiə edib. 2001-ci ilin oktyabr ayında Türkiyədə işgüzar səfərdə olarkən Heydər Əliyev şəxsiyyətinə, Heydər Əliyev liderliyinə ümumtürk miqyaslı böyük məhəbbəti daha yaxından müşahidə etdim və böyük tarixi münasibətlər düşdü yadıma. Türkiyədə görüşdüyüm çoxsaylı dövlət adamları, yazıçı və alimlər, tarixçi və jurnalistlər, eləcə də sıravi vətəndaşlar Heydər Əliyevi çağdaş türk dünyasının Atatürkü adlandırırdılar. Bunlar əvvəlcədən də mənə məlum idi. Lakin İlham Əliyev şəxsiyyətinə belə böyük münasibəti Türkiyədə ilk dəfə müşahidə edirdim. Hələ o vaxt tam əmin oldum ki, Türkiyə İlham Əliyevə inanır, etibar edir.

Bəli, bu gün Türkiyədə İlham Əliyevə sabahın Azərbaycan milli lideri kimi baxır, onun geniş miqyaslı, uğurlu fəaliyyətini təqdir edir, dəstəkləyirlər. Türkiyə Dövlət televiziyasının məşhur jurnalistləri, aparıcıları mənə İlham Əliyevin Amerika Birləşmiş Ştatlarında, müxtəlif Avropa ölkələrində, xüsusilə, Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın milli maraqlarını necə fədakarlıqla, siyasi uzaqgörənlik, diplomatik müdrikliklə müdafiə etdiyini bildirir, bundan fəxr duyduqlarını dönə-dönə vurğulayırdılar: «O, fenomendir, o, Azərbaycanın bəxtinə yeni bir göndərişdir; inanırıq ki, İlham Əliyevin şəxsində

Azərbaycanın sabahı ciddi, cəsarətli, milli köklərə bağlı, ümumtürk dünyasına tam sədaqətli bir lider, fenomenal bir öndər tapıb» – deyirdilər. Türkiyə ictimaiyyətinin ən müxtəlif dairələrində, nüfuzlu dövlət və siyasət adamlarından bu sözləri eşitmək mənim üçün çox xoş idi.

Deyirlər, dağın ucalığını görmək üçün ona bir qədər uzaqdan baxmaq lazımdır. Türkiyədən, Ankara və İstanbulun siyasi, ictimai, mədəni dairələrindən İlham Əliyev ucalığı həqiqətən daha aydın, daha aşkar görünürdü. Mən Anadoludan o ucalığı ümumazərbaycan, ümumtürk miqyasında, hətta ümumdünya miqyasında görür və bundan fəxr duyurdum. Çünki bu ucalıq ilk növbədə azərbaycançılıq ideologiyasının, Heydər Əliyev ideyalarının varisliyindən, davam və inkişafından xəbər verirdi.

Müxalifət qəzetlərinin yalanla, şər-böhtanla dolu cızma-qaralarına baxmayaraq, xalq əsl həqiqəti görür, bilir, dəstəkləyir. Xalq görür ki, İlham Əliyev baş nazir təyin edildiyi qısa bir müddətdə gərgin, məqsədyönlü fəaliyyəti ilə necə böyük işlər görüb və görməkdədir. Onun gərgin iş rejimi, məhz Heydər Əliyevə məxsus işgüzarlığı, fədakarlığı Azərbaycan hökumətinin bütün strukturlarını ayağa qaldırıb, tam səfərbər edib, respublikada sağlam, yaradıcı, qurucu bir əmək mühiti yaradıb. Baş nazir, hökumət başçısı üçün bu, son dərəcə lazımlı, zəruri bir keyfiyyətdir. Dünyanın ən nüfuzlu qəzetləri, aparıcı radio və televiziyaları, internet şəbəkələri İlham Əliyevin məhz bu keyfiyyətlərini qeyd edir, yüksək qiymətləndirir, məhz bu keyfiyyətləri ilə onu Heydər Əliyevin həqiqi davamçısı, varisi kimi dəyərləndirir. Bu baxımdan Rusiyanın, demək olar ki, bütün mərkəzi televiziya kanalları – RTR, ORT, NTV, TVS, «İzvestiya», «Vremya novostey», «Kommersant», «Nezavisimaya qazeta», eləcə də Avropa və Amerikanın

bir sıra çox mötəbər mətbuat nəhənglərinin əsl həqiqətə xidmət edən realist işini (xüsusilə, Yalta görüşlərinin işıqlandırılması və analitik şərhində) yüksək qiymətləndirirəm. Bizim bədnam müxalifət qəzetləri, nəhayət ki, qatığa qara deməkdən, bu yolla xalqı aldatmaq cəhdindən əl çəkməli, əsl həqiqəti yazmaq yoluna qayıtmalıdırlar. Dahi Cəlil Məmmədquluzadə demişkən, qələmin vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir. Bu ola gərək hər bir qələm əhlinin amalı.

Qloballaşma və dinamik inkişaf edən müasir dünya şəraitində beynəlxalq aləmlə balanslaşdırılmış əlaqə, xüsusilə, Avropaya inteqrasiya, planet sivilizasiyasının ən qiymətli maddi və mənəvi mədəniyyət uğurlarına, bəşəri, demokratik dəyərlərinə qovuşmaq xəttinin – dahi dövlət xadimi, müdrik siyasət ustası Heydər Əliyevin Azərbaycan intibahı naminə on illər boyu uğurla yeritdiyi, misilsiz bəhrələr verən bu strateji istiqamətin bundan sonra da konseptual əsaslarda davam və inkişaf etdirilməsi xalqımız, vətənimiz, azad, müstəqil respublikamız üçün çox vacibdir. Bu, Azərbaycanın bu günü və gələcəyi üçün ən əsas, ən aktual, taleyüklü məsələdir. Bu, bütünlüklə Azərbaycana, Azərbaycançılığa xidmət edən Heydər Əliyev ideyalarının, Azərbaycanda qlobal xilaskarlıq missiyasını həyata keçirən Heydər Əliyev sosial-siyasi kursunun gələcək varisliyi, davam və inkişafı məsələsidir. Səmimiyyətlə deyə bilərəm ki, bu, müasir dövrdə Azərbaycanın dövlət müstəqilliyinin, azadlığının, milli istiqlalının davamlığı, varisliyi, «əbədi və dönməzliyi» məsələsidir. Və tam inamla onu da deyə bilərəm ki, həmin aktual, taleyüklü məsələnin yeganə düzgün həlli İlham Əliyevlə bağlıdır.

Bu yaxınlarda ölkəmizin şimal bölgəsində, Xaçmaz rayonunda «Qafqaz» konserv zavodunun açılış mərasimin-

də çıxış edən baş nazir İlham Əliyev iqtisadiyyata, iqtisadi problemlərə dərindən bələd olduğunu bir daha təsdiq etdi. Onun sosial-siyasi, iqtisadi təhlilləri, elmi-nəzəri və praktik analizləri, regional və dünya iqtisadi sistemində, idxal-ixrac meydanında Azərbaycan Respublikasının mövqe və münasibətləri haqqında dedikləri bütöv bir iqtisadiyyat xəttindən, yeni baş nazirin gerçək iqtisadi platformasından xəbər verirdi.

«Hökumətin məqsədi daxili bazarı yerli məhsullarla təmin etməkdir» («Paritet» qəzeti, 15 sentyabr 2003-cü il) deyən, bunun üçün idxal-ixrac proseslərinin xüsusi tənzimlənməsinə ehtiyac olduğunu vurğulayan baş nazir İlham Əliyev Azərbaycan Nazirlər Kabinetinin bu və digər ciddi problemlərin həlli istiqamətində operativ qərarlar qəbul edəcəyini, praktik nəticələrə nail ola biləcəyini bütün mərasim iştirakçılarının, bütün xalqın diqqətinə çatdırdı. Təxminən yarım saata yaxın bir müddəti əhatə edən böyük bir çıxışda heç bir kağıza, qeydə baxmayan, bütün faktları, rəqəmləri, iqtisadi göstəriciləri hafizəsindən deyən, iqtisadiyyatla bağlı analitik təhlillərində yalnız öz beyninə, öz intellektual bazasına arxalanan baş nazir İlham Əliyev 10 minlərlə insan qarşısında əsl Heydər Əliyev nümunəsi göstərdi. Çoxları həmin mərasimdə fərəhlə deyirdilər ki, halal olsun, əsl atasının oğludur.

Müxalifət mətbuatında geninə-boluna hallandırılan, qərəzli şəkildə yazılan və yozulan varislik məsələsi heç də «ailə», «tayfa», yaxud hakimiyyətin genetik ötürülməsi, «bioloji varislik» məsələsi deyil; bu, artıq qeyd etdiyimiz kimi, Azərbaycan xalqının və dövlətinin, bütövlükdə azərbaycançılıq ideologiyasının sabahı, davam və inkişafı məsələsidir. Bəli, bu, Azərbaycan Respublikası, Azərbaycan xalqı üçün işıqlı tale, xoşbəxt həyat məsələsidir.

Aşkar həqiqətdir ki, İlham Əliyev Heydər Əliyev universitetinin ən kamil tələbəsi və artıq ən uğurlu məzunudur. O, Azərbaycan məkanında Heydər Əliyevdən ən çox dərs alan, ən çox öyrənən siyasət adamıdır. Buna görə Heydər Əliyev ideyalarını davam etdirmək ən çox onun borcu, onun tale işidir.

Min illərin əzəmətli tarix yolu öz axarıyla davam edir. Bu gün Azərbaycan məkanında tarixi təkamülə, təbii inkişafa, dünyəvi dəyərlər əsasında sosial-siyasi gedişata qarşı çıxmaq, əslində, Heydər Əliyev ideyalarına, Heydər Əliyev siyasi kursuna qarşı çıxmaqdır. Başqa sözlə desək, dünya siyasət meydanında artıq öz yeri, çəkisi, öz nüfuz dairəsi olan, praqmatik, rasionalist siyasi təfəkkür sahibi kimi qəbul və etiraf olunan İlham Əliyevə qarşı çıxmaq müasir Azərbaycanın özünəməxsus reallıqlarına, Heydər Əliyev ideyaları, Azərbaycançılıq ideologiyası ilə istiqamətlənən təbii tarixi inkişaf, təkamül gedişatına qarşı çıxmaqdır. Çünki İlham Əliyev öz fenomenal bacarığı, Heydər Əliyev məktəbində hamıdan çox oxuması və hamıdan çox öyrənməsi ilə yetişən siyasi-diplomatik səriştəsi, son dərəcədə yüksək intellekt və istedadı ilə həmin təbii-tarixi təkamül, inkişaf yolunu gələcəkdə sona çatdırmağa, daim səfərbər etməyə qadir olan yeganə qüvvədir. Hakimiyyətin «genetik ötürülməsindən», «bioloji varisliyindən» xoflanan, bunu ən qara rənglərlə təqdim etməyə çalışan başabəla, bədnam «siyasət» dəllallarına (onları siyasi meyit adlandırmaq daha düzgün olardı) sivil, demokratik dəyərlərə sədaqəti hamılıqla qəbul olunan müasir Amerika cəmiyyətindən bir faktı xatırlatmaq istərdim: Ata Corc Buşdan bir qədər sonra oğul Corc Buş demokratik seçkilər yolu ilə hakimiyyətə gəldi, Amerika Birləşmiş Ştatlarının prezidenti kürsüsünə sahibləndi. Və

atasının ondan qabaq prezident olduğunu vurğulamaq, bu fakt ətrafında siyasi alver etmək, qalmaqal-şou yaratmaq kiminsə yadına düşmədi. Azərbaycanda siyasi müxalifətin hay-küyü ilə müqayisədə bu Amerika faktına amerikan münasibəti paradoksal görünmürmü? Əcaba, bunun səbəbi nədir? Demokratiyanın beşiyi, dayağı sayılan Amerika Birləşmiş Ştatları kimi nəhəng dövlətdə oğul prezident kimi atanın yolunu davam etdirə bilir və buna «vəzifənin, hakimiyyətin genetik ötürülməsi», «bioloji varislik», monarxiya, daha nə bilim nə deyən tapılmır, lakin ərazi və əhali baxımından ondan on dəfələrlə kiçik olan bir ölkədə atadan sonra oğulun prezidentlik haqqında düşünməsi, bu ali vəzifəyə onun namizədliyinin irəli sürülməsi müxalifət düşərgəsində siyasi alver söhbətinə çevrilir! Bu, doğrudan da ibrətli bir müqayisə, paradoksal bir mənzərədir!

Mən Azərbaycan ədəbi dil tarixi ilə məşğul olan bir türkoloq kimi Azərbaycan və ümumtürk tarixindən də uyğun paralellər, çoxsaylı analoji misallar gətirə bilərdim. Məsələn, Azərbaycan Səfəvi dövlətinin banisi və ilk hökmdarı Şah İsmayıl Xətaini oğlu Şah Təhmasib əvəz etmədimi? On illər boyu həmin dövləti həmin varis ləyaqətlə idarə edib, daha da möhkəmləndirmədimi? Şah İsmayıl Xətainin başladığı hakimiyyət, «Məmləkəti-Azərbaycan yolunu» oğlu Şah Təhmasibdən başqa kim belə uğurla, belə fədakarlıqla davam və inkişaf etdirə bilərdi?! Bəli, tariximizdən, bütövlükdə türk, turan dünyasının neçə minillik dövlətçilik yaddaşından onlarla, yüzlərlə belə paralellər, analoji müqayisələr gətirmək olar. Elə isə, bu gün müxalifət düşərgəsinin başsız başqanlarının siyasət bazarında «hakimiyyətin genetik varisliyinə, bioloji ötürülməsinə», «monarxiyaya yol vermək olmaz» deyə məsələnin əsl mahiyyətini pərdələməsinə, ört-basdır

etməsinə, ağa qara, işığa qaranlıq deməsinə nə ad vermək olar?! Bu, xalqı çaşdırmaq, süni siyasi effekt yaratmaq deyilmi?! Bu, xalqın azadlıq, istiqlal düşüncəsinə, dövlətçilik yaddaşına, ümumi sosial-siyasi sabitliyə zərbə vurmaq, respublikanın sabahına kölgə salmaq cəhdindən başqa bir şey deyil!

Bu haşiyədən, siyasi-analitik təhlillərdən sonra baş nazir İlham Əliyevin Türkiyə görüşlərini şəxsən mən belə qiymətləndirərdim: Demokratik Türkiyə Azərbaycanın demokratik İlham Əliyev xəttinin reallıqlarını təsdiq etdi, qəbul etdi və dəstəklədi. Bu səfəri Türkiyənin İlham Əliyevə gələcək böyük işlərində xeyir-duası da adlandırmaq olar. Azərbaycan Respublikasının baş naziri İlham Əliyev Türkiyəyə vətənim dedi, Heydər Əliyevin müdrik uzaqgörənliklə söylədiyi məşhur ifadəni bir daha təkrarladı, təsdiq etdi: «Biz bir millət, iki dövlətik». Anadolu türkcəsinin incəliklərinə bələdliklə danışan, fikirlərinin sərrastlığı, aydınlığı, dəmir məntiqi ilə diqqəti cəlb edən, tam səmimiyyətlə Türkiyə və Azərbaycanın bundan sonra daha da yaxınlaşmasına çalışacağını vurğulayan, dahi öndər Mustafa Kamal Atatürkə dərin hörmət və ehtiram göstərən İlham Əliyev, sözün əsl mənasında Türkiyəni heyrətləndirdi, heyran etdi. Təsadüfi deyil ki, Türkiyə prezidenti Ə.N.Sezər baş nazir İlham Əliyevə demişdir: «Sizə göstərilən diqqət Türkiyənin sizə hörmətindən xəbər verir». Türkiyənin baş naziri Rəcəb Tayyub Ərdoğan isə demişdir: «Baş nazir İlham Əliyevin Türkiyəyə səfəri ölkələrimiz arasındakı əlaqələrin inkişafında yeni bir addımdır».

Türkiyə Respublikasının banisi M.K.Atatürkün məqbərəsini – Anıtkabiri ziyarət edən İlham Əliyevin məqbərənin xatirə kitabına yazdığı sözlər böyük ataların yoluna

böyük oğulların sədaqət andı kimi səslənirdi: «Bütün türk dünyasının böyük öndəri, iyirminci yüzilliyin böyük siyasi və ictimai xadimi, Türkiyə Cümhuriyyətinin qurucusu dahi Mustafa Kamal Atatürkün ölməz ruhu qarşısında baş əyir, türk xalqına sonsuz məhəbbətimi ifadə etməkdən şərəf duyuram» («İki sahil» qəzeti, 10 sentyabr 2003-cü il). Bu ürəkdən gələn səmimi sözləri düşündükcə, Şərqdən, türk dünyasından baş qaldırıb zaman-zaman Qərbi Avropanı fəth edən türk oğullarını xatırlayıram. Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti zirvəsinə yüksələn İlham Əliyev o yolu şərəflə davam etdirdi və davam etdirməkdədir.

Avropa Şurası Parlament Assambleyasında gənc Azərbaycan dövlətini layiqincə təmsil etmək, bu yolda tarixi uğurlar qazanmaq şərəfi bu gün İlham Əliyevə məxsusdur. Dünyanın bu nüfuzlu, mötəbər təşkilatında Azərbaycan parlamenti nümayəndə heyətinin başçısı olan, tariximizdə ilk dəfə Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti seçilən İ.Əliyevin Strasburqdakı geniş miqyaslı siyasi-diplomatik fəaliyyəti, Azərbaycanın regional və dünyəvi maraqlarını, milli və beynəlmiləl haqq və hüquqlarını böyük siyasətçi səriştəsi, erməni separatizm və terrorizmini, erməni işğalçılığını ifşa və tərksilah etmək yolunda atdığı cəsarətli addımlar xalqımız tərəfindən böyük diqqətlə izlənilir, minnətdarlıqla qarşılanır, qiymətləndirilirdi. Onun Avropa Şurasında, dünyanın ən məşhur siyasətçiləri və parlamentariləri qarşısında ingilis dilində etdiyi kiçik həcmli, lakin böyük məzmunlu çıxışlar Azərbaycanda yeni bir siyasət ustasının, fenomenal dövlət xadiminin yetişdiyini müjdələyirdi. Bundan bir neçə il əvvəl Amerika Birləşmiş Ştatlarında nüfuzlu qərb siyasətçilərini heyrətləndirən İlham Əliyev diplomatiyası

indi Avropa Şurasını, dünya parlamentarilərini düşündürür, heyrətləndirirdi. Və mən Azərbaycan Dövlət Teleradiosunun canlı yayımlarını, Strasburqa birbaşa telekörpü qoşulmalarını izləyə-izləyə, təxminən, 500 il əvvəl gənc Şah İsmayıl Xətainin – Heydəroğlunun misilsiz uğurları qarşısında «Şərqdə ikinci Atilla» yetişir həyəcanını yaşayan Avropanı düşünür, xatırlayırdım. 500 il əvvəl Şah İsmayıl Xətai Heydəroğlu daha çox qılıncı ilə Avropanı heyrətləndirirdisə, indi İlham Əliyev Heydəroğlu qələmi, yüksək intellekt səviyyəsi, uzaqgörən siyasi-diplomatik gedişləri, rasional-praqmatik siyasətçi ustalığı ilə dünya parlamentarilərinin diqqətini cəlb edir, onları Azərbaycanın haqq işinə inandırır, dəmir məntiqi ilə erməni separatizmi və terrorizmini tərksilah edirdi: «Azərbaycan terrorizmdən çox əziyyətlər çəkmişdir. Ermənistanın təcavüzü başlandığı andan erməni terrorçu qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Bu terror aktları nəticəsində Azərbaycanda 2 min adam öldürülmüş, on minlərlə adam yaralanmışdır. Azərbaycan xalqına qarşı terror aktları qatarlarda, avtobuslarda, gəmilərdə, metro qatarlarında törədilmişdir. Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdiyi terror aktları Ermənistan silahlı qüvvələrinin Azərbaycana geniş miqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı öldürülmüş, bir milyon adam qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Erməni terrorçu təşkilatı ASALA Ermənistanın Azərbaycana qarşı son 13 ildə həyata keçirdiyi 6 terror və soyqırım siyasətində çox fəal rol oynamışdır» («Azərbaycan» qəzeti, 26 sentyabr 2001-ci il).

Amerika Birləşmiş Ştatlarında, Vaşinqton və Nyu-

York şəhərlərində baş verən dəhşətli terror atklarından sonra terrorizmə qarşı dünya miqyasında müharibə elan edildiyi bir vaxtda Avropa Şurası Parlament Assambleyasının yüksək kürsüsündə erməni terrorizminin iç üzünü açmaq, Azərbaycana qarşı qaraqanlı soyqırım siyasətini faktların dili ilə dünyanın diqqət mərkəzinə çəkmək, xüsusilə, ASALA kimi mənfur erməni terrorçu təşkilatına diqqəti yönəltmək – bu, İlham Əliyev cəsarətinin, İlham Əliyev siyasi-diplomatik uzaqgörənliyinin nəticəsidir.

Strasburqda, Avropa Şurasının siyasət, ağıl, zəka mübarizəsində, diplomatiya meydanında İlham Əliyev və onun rəhbərlik etdiyi nümayəndə heyəti erməni nümayəndələrinə qalib gəldi. Azərbaycanın ərazi bütövlüyü səs çoxluğu ilə bir daha təsdiqləndi və həmin tarixi sənədə erməni nümayəndəsi, deməli, məntiq belədir ki, Ermənistan Respublikası da imza atdı. Avropa Şurası Parlament Assambleyasının rəhbərliyi Dağlıq Qarabağda keçirilən qondarma seçkilərin qeyri-legitim olduğunu bəyan etdi, belə təxribatçı aksiyaların sülh danışıqlarını əngəlləmək cəhdi olduğunu vurğuladı. İlham Əliyev mətbuat üçün verdiyi açıqlamada («Azərbaycan» qəzeti, 26 sentyabr 2001-ci il) deyib: «Avropa Şurasının çıxardığı ədalətli qərarda bəyan edilir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyünü nəzərə almaq şərtilə həll olunmalıdır. Bu, Azərbaycan üçün ən qiymətli sənəddir və gələcək danışıqlarımızın uğurla aparılması üçün çox gözəl zəmin yaradır».

1997-ci il noyabrın 19-da Vaşinqtonda Amerika-Azərbaycan Ticarət Palatasının, Amerika-Rusiya İşgüzar Şurası, Kembriç Enerji Araşdırmaları Assosiasiyasının «Xəzər boru kəmərləri yeni neft sıçrayışlarının açarıdır» mövzusunda keçirdiyi birgə elmi-praktik konfransda İlham

Əliyevin ingilis dilində etdiyi parlaq çıxışı və dediyi bu sözləri xatırlayıram: «Əgər məndən soruşsalar, Azərbaycan bu gün necə ölkədir? Onda mən fəxrlə deyərəm: Azərbaycan bu gün sabit və intensiv inkişaf edən bir ölkədir, Azərbaycan bu gün demokratiya və inkişaf yolu ilə irəliləyən müstəqil ölkədir» («Xalq qəzeti», 20 noyabr 1997-ci il).

Bu, çox fərəhli və təqdirəlayiq haldır ki, İlham Əliyev Azərbaycan neft strategiyasının, milli neft diplomatiyasının həyata keçirilməsində Azərbaycan Respublikasının tarixi, müasir, regional və perspektiv maraq və mənafelərini bircə an da unutmur, daim bu milli maraq və mənafeləri ön plana çəkir, beynəlxalq iqtisadi, siyasi, hüquqi fikrin, işgüzar söhbət və əlaqələrin əsas predmetinə çevirir. Vətən və xalq, doğma respublika naminə fədakarlıq, sarsılmaz Azərbaycan ruhu, tükənməz azərbaycançılıq sevgisi onun genində, qanındadır. O, əsl vətəndaşdır, həqiqi vətənpərvərdir, öz tarixinin, torpağının oğludur. Azərbaycan davasının, Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü, demokratik dəyərlər əsasında inkişafı, intibahı uğrunda mübarizənin sıra nəfəri, fədakar əsgəridir. Onun bütün geniş miqyaslı, məqsədyönlü fəaliyyəti qədim tarixli gənc Azərbaycan dövlətinin və dövlətçiliyinin bütöv inkişafına, ardıcıl tərəqqisinə, Azərbaycan milli istiqlalının, dövlət müstəqilliyinin ədəbi və dönülməzliyinə (Heydər Əliyev) xidmətə həsr olunub.

Avropa və Amerikadakı bir sıra səfərləri, rəsmi və qeyri-rəsmi görüşləri ilə nüfuzlu diplomatik dairələrin, görkəmli siyasətçilərin, dövlət xadimlərinin diqqətini cəlb edən, fenomenal intellekt və istedadı ilə seçilən baş nazir İlham Əliyev artıq müasir Azərbaycan və dünya siyasətinin danılmaz faktı, perspektivli reallığıdır. 1998-ci

il martın 31-də San-Fransiskoda ABŞ-ın nüfuzlu Stenford Universitetindəki orijinal, səviyyəli, sanballı çıxışı, professional diplomatik gedişləri dünyanın siyasət nəhəngləri tərəfindən maraqla qarşılanmış, yüksək dəyərləndirilmişdir. «Müxalifət görür ki, İlham Əliyev həm biliyinə, həm ağlına, həm təcrübəsinə, həm də insani keyfiyyətlərinə görə Azərbaycanın siyasi səhnəsində öz yerini tutub. Bəli, əks effekt yaratmaq istəyirlər. Lakin yarada bilməyəcəklər. İlham Əliyev gənc, artıq siyasətlə, dövlət işi ilə məşğul olan Azərbaycan vətəndaşıdır. Onun çox böyük təhsil və biliyi var. 5-6 ildir ki, Azərbaycandakı gördüyü işlərdən təcrübə toplayıb. Beynəlxalq Əlaqələr İnstitutunda müəllimlik edib. Bu, asan bir iş deyil. Diplomatlar hazırlayan bir universitetdə dərs deyib. 23 yaşında dissertasiya müdafiə edib. İnstitutdan mənə görə çıxarılanda o, gedib bizneslə məşğul olub. O təcrübəni də toplayıb. İqtisadiyyatı da bilir. Azərbaycanın neft siyasətinin həyata keçirilməsinin fəal iştirakçısıdır. Bundan əlavə, onun üzərinə başqa vəzifə də düşüb. Milli Olimpiya Komitəsinin sədridir. İctimaiyyət görür ki, o, bu sahədə böyük işlər görüb, beynəlxalq əlaqələri gücləndirib. İlham Əliyev Milli Məclisin deputatıdır. Görürsünüzmü, onun üzərinə nə qədər vəzifələr düşüb. Çox sevinirəm, mənim oğlum olduğuna görə ki, bu qədər vəzifənin öhdəsindən gəlir. Belə adamın şübhəsiz ki, gələcəyi də ola bilər. Lakin bu, onun özündən asılıdır. Heç kim deyə bilməz ki, nə olacaq. Onun Heydər Əliyevin yerini tutub-tutmayacağı gələcəyin işidir. Bunu isə zamanında cəmiyyət deyəcək. İlham Əliyev YAP-da öz xidmətlərini göstərib, gələcəkdə də göstərəcək. Buna heç kəsin şübhəsi olmasın («İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər», Birinci kitab, Bakı, «Qanun», 1999, səh.164-165)». Yuxarıda

misal gətirdiyim tarixi sözlər Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə məxsusdur. «Mən seçici olsaydım, İlham Əliyevə səs verərdim» – deyən prezident onun böyük elmi intellektual imkanlarına, milli-mənəvi zənginliyinə, rasionalist-praqmatik siyasətçi yetkinliyinə inanır. Əslində, son illər İlham Əliyevin çoxsahəli, gərgin fəaliyyətini izləyən hər bir sağlam düşüncəli Azərbaycan vətəndaşında, hər bir siyasət adamında belə bir inam formalaşıb. Bu yaxınlarda Azərbaycana gələn, baş nazir İlham Əliyevlə görüşən Böyük Britaniya parlamenti nümayəndə heyətinin üzvü Lord Caner demişdir: «Biz Azərbaycandakı inkişafa valeh olmuşuq» («Azərbaycan» qəzeti, 4 sentyabr 2003-cü il).

Bəli, İlham Əliyevin də bütün Azərbaycan vətəndaşları kimi seçməyə, seçilməyə, azad, müstəqil məmləkətimizin həyatında yaxından iştirak etməyə, xalqın səs verib layiq biləcəyi ən yüksək vəzifəni-prezident vəzifəsini tutmağa haqqı var. O, bəzi siyasətçilərin, xüsusilə, müxalifət «liderlərinin» düşündüyü kimi, sadəcə, atanın oğul varisi, bioloji-genetik oğul davamçısı deyil, Azərbaycana 34 ildən artıq şərəflə, ləyaqətlə rəhbərlik edən dahi dövlət xadiminin, müdrik rəhbər ideyalarının-Heydər Əliyev ideyalarının sədaqətli daşıyıcısı, davamçısıdır. Çünki o, sadəcə olaraq, bu dahi dövlət xadiminin həyat məktəbində daha çox oxumuşdur, hamıdan daha çox dərs almışdır. O, siyasəti, politologiyanın əlifba dərslərini, bütöv anatomiyasını uşaq yaşlarından başlayaraq, bütün ömrü boyu anbaan, saatbasaat, aybaay, ilbəil öyrənmişdir, böyük siyasətin Heydər Əliyev Universitetini bitirmişdir. «Mənim xoşbəxtliyim bundadır ki, mən Heydər Əliyev adlı dahi şəxsiyyətin yanındayam və məndə öyrənmə imkanları daha çoxdur, nəinki başqa adamlarda». Buna görə, səmimiyyətlə, qəti əminliklə deyə

bilərik ki, İlham Əliyev təkcə atasının – Heydər Əliyevin yox, bütövlükdə Heydər Əliyev kursunun, Azərbaycançılıq ideologiyası ilə tam səsləşən, üst-üstə düşən Heydər Əliyevçiliyin varisidir, daşıyıcısıdır və davamçısıdır. İlham Əliyev bir müsahibəsində belə demişdi: «…Heydər Əliyevin varisi mənim oğlum Heydər Əliyevdir. Ona görə deyə bilərsiniz ki, Heydər Əliyevin varisi Heydər Əliyevdir» («İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər». Birinci kitab, Bakı, «Qanun» nəşriyyatı, 1999, səh.31,39).

Bu, tarixi bir cümlədir. Bu sadə, səmimi cümlədə təkcə baba və nəvə Heydər Əliyevdən söhbət getmir; daha çox ondan söhbət gedir ki, Heydər Əliyevin ideyaları əbədidir; onun varisi özüdür, öz ideyalarıdır; yəni Heydər Əliyevin varisi Heydər Əliyevdir!

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli müraciəti yuxarıda qeyd olunan fikirləri bir daha təsdiq etdi. Həmin tarixi müraciətdə söhbət bütövlükdə Azərbaycana, azərbaycançılığa həsr olunan Heydər Əliyev ideyalarının varisliyindən, davam və inkişafından gedir: «Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. Buna baxmayaraq, 2003-cü ilin 15 oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün mənim də namizədliyim irəli sürülüb və qeydiyyata alınıb. Yüz minlərlə insan seçki kampaniyasına qoşularaq, mənim təbliğatımı aparır. Fürsətdən istifadə edərək bu insanlara, namizədliyimi irəli sürən və dəstəkləyən Yeni

Azərbaycan Partiyasının bütün üzvlərinə, digər ictimai-siyasi təşkilatların nümayəndələrinə, elm, təhsil və mədəniyyət xadimlərinə, ziyalılara və mənə dəstək verən bütün Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm. Ümidvaram ki, tezliklə səhhətimi bərpa edərək Vətənə dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm» («Xalq qəzeti», 3 oktyabr 2003-cü il).

«…Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var» deyən cənab prezident Heydər Əliyev onların tam miqyasda həyata keçirilməsinin təminatını İlham Əliyevdə görür, buna görə də xalqı ona səs verməyə çağırır. Bu, daim öz xalqı ilə nəfəs alan, öz xalqının dünəni, bu günü və sabahını, işıqlı gələcəyini düşünən müdrik bir şəxsiyyətin, dahi dövlət və siyasət xadiminin qənaətidir, gəldiyi ən doğru nəticə, ən real seçimdir. Baş nazir kimi fəaliyyət göstərdiyi qısa bir müddətdə gördüyü geniş miqyaslı, nəhəng işlər, ABŞ prezidenti Corc Buşla, Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə, eləcə də digər dövlət başçıları ilə keçirdiyi tarixi görüşlər, xüsusilə, Yalta və BMT səfərləri İlham Əliyevin həmin seçimə tam layiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu, haqqın, həqiqətin, ədalətin, sözün böyük mənasında Azərbaycançılıq ideologiyasının təntənəsidir.

Azərbaycan prezidenti Heydər Əliyev həmin müraciətində xalqa üz tutaraq, xalqın ürəyindən keçənləri dilə gətirir: «Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi

əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm» («Xalq qəzeti», 3 oktyabr 2003-cü il).

Bu tarixi sözlər, əslində, bütün xalqın ürək sözüdür, bütün Azərbaycanın mövqeyidir.

* * *

Uzun illər Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti, əsas rəhbərlərindən biri olan İlham Əliyev bu mühüm, strateji sahənin əsl inkişaf yoluna çıxması üçün böyük əmək sərf edib. Yazdığı fundamental əsərlərlə, gördüyü məqsədyönlü işlər, fədakar fəaliyyəti ilə o, Azərbaycan Milli Neft strategiyasının – Heydər Əliyev strategiyasının sabahkı qlobal uğurlarına doğru gedir. Azad Azərbaycanın daha işıqlı sabahları, daha firavan gələcəyi həm də bu uğurlarla bağlıdır. «Dədə Qorqud» və «İstiqlal» yarımdalma qurğularından sonra Xəzərdə bu yaxınlarda istifadəyə verilən, ətraf regionda analoqu olmayan «Lider» neft qurğusunun uğurlu, nəhəng addımları ilə irəliləyir İlham Əliyev.

Bəli İlham Əliyev yeni əsrin yeni lideridir. Müxalifətin dırnaqarası «liderləri», Bakıda yer tapmayıb uzaq Londonda toplaşan, Dumanlı Albionun dumanlarında özünü itirən İsa Qəmbər, Rəsul Quliyev, Etibar Məmmədov, Əli Kərimov kimi siyasət müflisləri onun yanında çox cılız, perspektivsiz görünürlər. İntellekti ilə şəxsiyyəti, sözü ilə əməli bir-birini

tamamlayan İlham Əliyev – xalqın inamı, xalqın İlhamı isə Azərbaycan Respublikasının baş naziri seçildiyi qısa bir müddətdə, artıq qeyd etdiyimiz kimi, yorulmaz əməyi, qeyri-adi iş rejimi ilə, xüsusilə, Heydər Əliyev standartlarına cavab verən siyasətçi ustalığı, diplomatik müdrikliyi ilə daha böyük vəzifəyə, Azərbaycan prezidenti vəzifəsinə tam layiq olduğunu bir daha sübut etdi. Bəli, İlham Əliyev Azərbaycan prezidenti postuna tam hazır namizəddir, bu yüksək vəzifəni Heydər Əliyev səviyyəsində yerinə yetirəcək böyük bir şəxsiyyətdir. Milli bayrağımızda simvollaşan Türkçülük, Çağdaşçılıq, İslamçılıq istiqamətlərinin bütöv Azərbaycançılıq ideologiyasında qovuşdurularaq həyata keçirilməsində, Azərbaycanın doğma Şərq köklərinə, milli-mənəvi dəyərlərinə arxalanaraq sivil Qərblə qovuşmasında, beləliklə, həqiqi inkişaf, intibah yollarına çıxmasında, dövlət müstəqilliyimizin qorunub saxlanmasında, daim möhkəmləndirilməsində, memarı Heydər Əliyev olan Milli Qurtuluşumuzun əbədi və dönməz olmasında gələcək prezidentimiz, ümummilli liderimiz İlham Əliyevin tarixi töhfələr verəcəyinə tam səmimiyyətimlə inanıram. O, Şah İsmayıl Xətaidən sonra Azərbaycan rəhbəri olacaq ikinci Heydəroğludur, yeni əsrin yeni lideridir. O, dünyanın tanıdığı, qəbul etdiyi, öz xalqının inandığı, sevdiyi, arxalandığı, bütün Azərbaycanın güvəndiyi, böyük ümidlər bəslədiyi liderdir. O, Avropa Şurası Parlament Assambleyasında vitse-prezident zirvəsini fəth edən ilk azərbaycanlıdır. Bunlara görə bütün seçiciləri ona səs verməyə çağırıram: İlham Heydər oğlu Əliyevə – xalqın inamına, İlhamına səs verin!

*«Yeni Azərbaycan» qəzeti,*
*7 oktyabr 2003-cü il*

# DAHA BÖYÜK NAİLİYYƏTLƏRƏ TƏMİNAT YARADAN UĞURLU FƏALİYYƏT

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başlaması ilə əlaqədar andiçmə mərasimində söylədiyi **«Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam»** sözləri cəmiyyətimizin hər bir üzvü tərəfindən böyük minnətdarlıqla qarşılandı. . Prezident İlham Əliyevin ölkə rəhbəri kimi fəaliyyəti müddətində siyasi, iqtisadi və mədəniyyət sahəsində həyata keçirdikləri tədbirləri xatırlatmazdan əvvəl bir zəruri məqama diqqət yetirək. Ən müxtəlif cinayətlərə görə məhkəmələrin qərarı ilə həbsxanalarda cəza çəkən böyük bir qrup məhbusu böyük humanizm və cəsarət nümayiş etdirərək dekabrın 29-da öz fərmanı ilə əfv etdi. Etiraf edək ki, onların içərisində xeyli gözlənilməz ad – soyadlı adamların olması prezident İlham Əliyevin humanizm sahibi olduğunu bir daha aydın göstərdi. Xatırladaq ki, dövlət başçısı bu cəsarətli addımı radikal müxalifətin vətəndaş qarşıdurması yaratmaq və ölkədaxili sabitliyin pozulmasına yönəlmiş məlum 15-16 oktyabr hadisələrindən zaman etibarı ilə o qədər də uzaq bir məsafədə deyil, həmin hadisələrdən cəmi iki ay yarım sonra atdı. 17 mart 2004-cü il tarixində növbəti əfv fərmanı imzalamaqla daha 129 nəfərə azadlıq bəxş edən prezident sadiq olduğu dəyərlərin dəyişməzliyini bir daha sübut etdi. Bu həm də, yeni liderin özünə və seçdiyi yola dərin inam kimi qiymətləndirilə bilər.

Seçkilərdə xalqın yüksək etimadını qazanan Azərbaycan prezidenti İlham Əliyev prezident kimi fəaliyyətə

başladığı ilk aylarda ümummilli lider Heydər Əliyevlə bağlı ölkəmizdə yaşanan narahatlıq, sonra isə ümumxalq hüznü olmasına baxmayaraq, ötən qısa müddət ərzində fəal siyasətçi kimi nəhəng siyasət ümmanının bütün istiqamətlərinə nüfuz edə bildi. O, bütün sahələrdə ümummilli liderimiz Heydər Əliyevin strategiyasının layiqli davamçısı olduğunu əməli fəaliyyəti ilə nümayiş etdirdi. Prezident kimi fəaliyyətində ilk növbədə haqlı olaraq iqtisadi məsələlərə xüsusi diqqət yetirdi. Nazirlər Kabinetinin ilk iclasını keçirtdi və hökumət üzvləri qarşısında konkret vəzifələr qoydu. Ölkənin sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyəti olan mühüm dövlət sənədini – 2003-cü ilin 24 noyabr fərmanını imzaladı. Müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsini mühüm vəzifə kimi prioritet məsələlər sırasına qaldırdı. Bu əslində yeni liderin iqtisadi platformasının mühüm tərkib hissəsi idi. «Tərəqqi edən iqtisadiyyat dövlətin möhkəmliyinin təməlidir» prinsipini ardıcıl inkişaf etdirən Yeni Azərbaycanın yeni lideri sivil bazar iqtisadiyyatı yolu seçən ölkənin öz amallarına sadiqliyini bu müddətdə bir daha tam təsdiqləyə bildi.

Özəl sektorun inkişafının Azərbaycanın əsas strateji xətti olduğunu diqqətdə saxlayan prezident İlham Əliyev bu sahəyə dövlətin dəstəyinin ardıcıl davam etdirilməsini, mövcud nöqsan və maneələrin qətiyyətlə aradan qaldırılacağını bu ilin fevralın 2-də Bakı Biznes Mərkəzinin açılışında yerli sahibkarlarla keçirdiyi görüşdə xüsusi ifadə etmişdir. Həyata keçirilən siyasətin ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və qısa zamanda uğurlar qazanan strateji xətt olduğunu qeyd edən prezident İlham Əliyev sahibkarların fəaliyyətini dəstəklədiyini bildirdi. Həmin görüşdə prezident dövlət və

hökumət orqanları ilə yanaşı, iş adamlarının da vəzifələrini xatırlatdı. Bu əslində bütün məqamları və məzmunu ilə qarşıdakı beş ildə Azərbaycan prezidentinin həm məmurlardan, həm də iş adamlarından başlıca umacağı, tələb etdiyi əsas fəaliyyət idi. Dövlət başçısının həmin görüşdəki çıxışındakı söylədiyi fikirləri iqtisadiyyatımızın inkişafına mane olan problemlərin aradan qaldırılmasına çağırış kimi də qəbul etmək olar. Müasir mərhələdə Azərbaycanın iqtisadi inkişaf strategiyasının məqsədini prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclasında aydın ifadə etmişdir: «Bizim məqsədimiz növbəti 5 il ərzində ümumi daxili məhsulu 2 dəfə artırmaqdır. Bunun üçün imkanlar, potensial var, proqramlar var və mən əminəm ki, biz buna nail olacağıq. Yeni iş yerlərinin açılması həm sosial problemlərin aradan qaldırılmasına xidmət edəcəkdir, eyni zamanda, ölkəmizin iqtisadi inkişafı üçün də mühüm amildir. Düzdür, bəzən hesab edirlər ki, 600 min iş yerinin açılması qeyri-mümkündür və bu rəqəm real deyildir. Mən elə düşünmürəm. Bəli, bu böyük rəqəmdir. Amma hesab edirəm ki, biz qarşımıza ancaq böyük məqsədlər qoyanda uğura nail ola bilərik. Bizim vəzifəmiz bu siyasəti davam etdirməkdir. Əlbəttə, həyat yerində durmur, qarşımıza yeni tələblər çıxır. Amma prinsipial istiqamət, ideoloji istiqamət dəyişməz olaraq qalır. Bu, Heydər Əliyev fəlsəfəsidir, siyasətidir, ideologiyasıdır. Biz hamımız ona sadiqik».

Ötən müddət ərzində ölkəmizin xarici əməkdaşlığının inkişafında müstəsna yeri olan Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması müstəqil Azərbaycan dövlətinin əzmkar siyasətinin ardıcıl davam etdiriləcəyinə inamı daha da möhkəmləndirdi. Fevralın 3-də Bakıda Azərbaycan prezidenti İlham

Əliyevin iştirakı ilə imzalanan sənədlər XXI əsrin ən möhtəşəm layihələrindən birinin reallaşmasına şübhə yeri qoymadı. Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin, Bakı-Tbilisi-Ceyhan kreditorlar qrupunun nümayəndələri tərəfindən imzalanan maliyyələşmə paketi 78 müxtəlif tərəfin 17 mindən artıq imzası olan 208 maliyyə sənədini əhatə edir. Bu, tikintisi 2 milyard 950 milyon Amerika dollarına başa gələcək əsas ixrac boru kəməri üçün maliyyələşmə sazişlərinin həyata keçirilməsində mühüm addım kimi qiymətləndirilir. Layihəyə görə, ilk neft 2005-ci ildə Aralıq dənizindəki Ceyhan limanından dünya bazarına ixrac ediləcək. İndiyədək tikinti işlərinin 50 faizdən çoxu başa çatdırılıb.

Bu marşrut boyunca 12 min adam işlə təmin olunub. Xatırlatmaq yerinə düşər ki, təkcə əsas boru kəmərinin inşasına başlanması özü Azərbaycanın həyatında, əhalinin işlə təminatında hiss olunacaq amil kimi diqqəti çəkməkdədir. Şübhəsiz ki, layihənin tam reallaşmasından sonra Azərbaycanın tərəqqisi inkarolunmaz fakta çevriləcək.

Azərbaycan prezidenti İlham Əliyevin çoxşaxəli fəaliyyətində ölkənin bütün regionlarının ahəngdar inkişaf siyasəti xüsusilə razılıq doğurur. Dövlət başçısının bilavasitə təşəbbüsü ilə hazırlanan Azərbaycanın regionlarının inkişafına dair dövlət proqramının müddəaları ilə tanışlıq mütəxəssislərlə yanaşı, sadə zəhmət adamlarında da daha uğurlu sabaha böyük ümidlər yaradır. Dövlət proqramında əvvəllər obyektiv və subyektiv səbəblərdən diqqətdən kənarda qalan regionların sosial-iqtisadi inkişafına dair konkret tədbirlərin göstərilməsi və geniş ictimaiyyətə təqdim olunması xüsusi minnətdarlıq hissi doğurur. Prezident İlham Əliyev dövləti fəaliyyətinin mühüm istiqaməti kimi Azərbaycanın ən ağrılı problemi olan

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli probleminə xüsusi diqqət yetirməsi və bu problemin çözülməsində iqtisadi inkişaf faktorundan istifadə etmək siyasəti böyük reallıqlara söykənən strateji xətt kimi seçilir. Azərbaycana Rusiya və Amerika Birləşmiş Ştatlarından yüksək vəzifəli şəxslərin ardıcıl səfərləri ölkəmizin beynəlxalq nüfuzunun artmasında ötəri bir element olmayıb, uzunmüddətli strateji əməkdaşlıq niyyətlərinə xidmət edir. Bütün görüşlərdə ikitərəfli və regional əməkdaşlıq məsələləri ilə bahəm Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələlərinin daim ön planda saxlanılması problemin həllinə, şübhəsiz ki, yeni impuls verir. Məhz prezident İlham Əliyevin iradəsi, qətiyyətli mövqeyi sayəsində münaqişə başlayandan laqeyd mövqe tutan, bütün görüşlərdə həmişə diplomatik ifadələrlə kifayətlənən ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən də Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktının etiraf edilməsi mümkün oldu. Rusiyalı həmsədr Vyaçeslav Trubnikov noyabrın 26-da məhz prezident İlham Əliyevlə görüşdə bu etirafı mətbuat nümayəndələrinin gözü qarşısında dilə gətirdi. Xarici qonaqlarla keçirdiyi bütün görüşlərdə dövlətimizin başçısının azərbaycanlı qaçqın və məcburi köçkünlərin problemlərini daim diqqət mərkəzində saxlaması məhrumiyyətlərlə üzləşmiş soydaşlarımızın sabaha inamını artırır. Azərbaycan dövlətinin öz daxili imkanları hesabına onların sosial qayğılarının ödənilməsi istiqamətində gördüyü işləri xatırlatmaqla ölkə prezidenti dünya birliyinin bu problemə biganə qalmasının, son illər azərbaycanlı qaçqın və məcburi köçkünlərə beynəlxalq humanitar yardımın azaldılmasının yolverilməz olduğunu dəfələrlə vurğulayıb. Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq

Qarabağ münaqişəsi ilə bağlı aydın mövqeyi ondan ibarətdir ki, bu problem tezliklə həll olunmalı, Azərbaycanın ərazi bütövlüyü təmin edilməli, işğalçı erməni ordusu torpaqlarımızdan çıxarılmalı, qaçqın və məcburi köçkünlərin öz doğma ocaqlarına dönməsi təmin edilməlidir. Regional məsələlər, eləcə də Azərbaycanın problemləri, Amerika Birləşmiş Ştatları ilə hərbi sahədə əməkdaşlığın genişləndirilməsi imkanları bu ölkənin müdafiə naziri Donald Ramsfeldin Bakıya sonuncu səfəri zamanı keçirilən görüşlərin əsas müzakirə obyekti olub. Dünya proseslərinə fəal müdaxilə imkanlarına malik rəsmi Vaşinqtonun bu yüksək vəzifəli nümayəndəsinin Bakıya səfəri, heç şübhəsiz ki, ötəri məqam deyil, antiterror əməliyyatlarında fəal iştirak edən Azərbaycan dövlətinin etibarlı tərəfdaş imicinin dünya ictimaiyyətinə çatdırılması missiyasını da özündə əks etdirir.

Dekabrın 10-da prezident İlham Əliyev tərəfindən Cenevrədə informasiya cəmiyyəti üzrə dünya sammitində Ermənistanın işğalçılıq siyasəti böyük cəsarətlə, tutarlı faktlarla bir daha yüksək tribunadan BMT və dövlət rəhbərlərinin diqqətinə çatdırıldı. Ölkəmiz də, dünya ictimaiyyəti də gördü ki, Azərbaycan İlham Əliyevin şəxsində cəsarətli və istedadlı, haqqı, ədaləti müdafiə etməyi bacaran yeni liderə malikdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli problemini Cenevrə səfərində də daim diqqətdə saxlayan prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərlə bağlı atdığı addımlar da yada saldığımız dövrün mühüm tədbirlərindəndir. Bunlarla yanaşı, dövlət başçısının Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində didərgin düşmüş Bərdə və Ağcabədi rayonlarında çadır düşərgələrində, eləcə də Bərdə rayonu ərazisində dəmir yolu üzərindəki yük vaqonlarında müvəqqəti yerləşdirilmiş Ağdam və digər rayonlardan olan

məcburi köçkünlərin sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi tədbirləri haqqında sərəncamı Azərbaycan dövlətinin öz torpaqlarını geri qaytarana qədər vətəndaşlarının problemlərinə biganə qalmadığını bir daha sübut edir.

Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyevin ölkənin xarici siyasət strategiyasını gücləndirmək yolunda fəaliyyəti əsasən bir neçə istiqaməti ilə diqqəti cəlb edir. Bunlardan birincisi şübhəsiz ki, Azərbaycanın ikitərəfli əlaqələridir. Prezident İlham Əliyev dövləti vəzifəsində ilk rəsmi səfərini Fransaya etdi. Qocaman və inkişaf edən Avropanın mərkəzinə – Fransaya edilən bu səfəri siyasət adamları haqlı olaraq Azərbaycanın uğur qazanan, tarazlaşdırılmış xarici siyasət strategiyasının inamlı davamı kimi qiymətləndirirlər. Azərbaycan liderinin prezident Jak Şirakla Yelisey sarayında dostluq və yüksək əməkdaşlıq ruhunda apardığı danışıqlar, ölkə senatında və digər mühüm görüşləri Paris səfərinə, Azərbaycan-Fransa əlaqələrinə əsaslı təkan verən əhəmiyyətli səfər statusu qazandırdı.

Bundan az sonra isə prezident İlham Əliyevi rəsmi Moskva arzu olunan qonağı kimi qarşıladı. Rusiya prezidenti Vladimir Putinin prezident İlham Əliyevlə şəxsi dostluq münasibətləri dünya siyasətçilərinin və media mənsublarının diqqətindən yayınmadı. Səfər müddətində Azərbaycan-Rusiya əlaqələrində mühüm əhəmiyyətə malik Moskva bəyannaməsinin imzalanması, dünyanın iki qitəsində böyük nüfuzu olan bu dövlətin xarici və daxili siyasət strategiyasını müəyyənləşdirən digər dövlət və hökumət rəhbərləri ilə səmimi görüşləri prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasət kursunun böyük perspektivlərə hesablandığını aydın göstərdi. Rusiyada prezident seçkilərinin nəticələrinin məlum olduğu indiki şəraitdə bu səfərin əhəmiyyətini geniş şərh etməyə ehtiyac qalmır.

Martın 1-də isə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına etdiyi rəsmi dövlət səfəri analitiklər tərəfindən xüsusi əhəmiyyətə malik addım kimi qiymətləndirilir. Bu bir tərəfdən Azərbaycanın alternativ enerji ixracı layihələri barədə strateji siyasətinin təsdiqi, digər tərəfdən bu siyasətin genişlənməsinə əlavə impuls kimi dəyərləndirilməlidir. Dövlətlərarası münasibətə gəldikdə isə Azərbaycanın Qazaxıstan kimi potensial imkanlara malik, eləcə də bir sıra etnik-mənəvi amilləri ilə bağlı olan ölkələrimizin yeni strateji əməkdaşlıq niyyətlərinin təsdiqi kimi diqqəti cəlb etməkdədir. Xatırladaq ki, Mərkəzi Asiyanın nüfuzlu liderlərindən olan Nursultan Nazarbayev məhz prezident İlham Əliyevin Qazaxıstana rəsmi dövlət səfərindən sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə bunları açıq etiraf etdi: «Qazaxıstanın mövqeyi bundan ibarətdir ki, ərazi bütövlüyü toxunulmazdır və mövcud sərhədlər təsdiq olunmuşdu, özü də bu fikir MDB-nin ilk sənədində də və bütün beynəlxalq sənədlərdə də öz əksini tapıb. MDB-də hamı belə bir prinsiplə razılaşıb ki, respublikaların SSRİ dövründəki mövcud inzibati sərhədləri tam razılaşdırılıb. Odur ki, biz davakar separatizmin hər cür təzahürünün əleyhinəyik. Ərazi bütövlüyü prinsipinə tərəfdarıq». Bu MDB məkanında Rusiyadan və Ukraynadan sonra böyük nüfuzu və potensial imkanı olan Qazaxıstan prezidentinin mövqeyidir. Azərbaycan-Qazaxıstan əlaqələrinə gəldikdə isə səfər zamanı imzalanan dostluq münasibətləri və tərəfdaşlıq haqqında bəyannamə, eləcə də hərbi sahədə əməkdaşlıq haqqında saziş iki ölkənin əməkdaşlığının ötəri olmadığını, mühüm strateji tərəfdaşlıq planlarına xidmət etdiyini göstərir.

Ötən aylarda Azərbaycanın Gürcüstanla münasibətlərinə də qonşu ölkədə dəyişən ab-havadan sonra bir aydınlıq gəlməsində də şübhəsiz ki, İlham Əliyev faktorunun xüsusi yeri var. Gürcüstan prezidenti Mixail Saakaşvilinin

dövlət başçısı vəzifəsində xarici ölkələrə etdiyi ilk səfərlərdən birini məhz Bakıya etməsi bu dövlətin Azərbaycana və onun liderinə inamı kimi də xarakterizə oluna bilər. İki ölkə arasında aparılan danışıqlar və imzalanan sənədlər, təsdiqlənən əməkdaşlıq barədə xatırlatmaq istəmədən diqqəti Gürcüstan prezidenti Mixail Saakaşvilinin söylədiyi bir fikrə yönəltmək istəyirəm. Hesab edirəm ki, Gürcüstan dövlətinin başçısının bu dedikləri əlavə şərhə ehtiyac qoymur: «Xarici ölkələrə səfərlərim zamanı demişəm ki, Azərbaycanın İlham Əliyev kimi yüksək səviyyəli rəhbəri var. Mən Rusiya prezidenti Vladimir Putinin prezident İlham Əliyevə xüsusi hüsn-rəğbətinin şahidi oldum. İlham Əliyev barədə Qərbdə də çox yüksək fikirdədirlər. Dünyada çoxları dərk edir ki, İlham Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan cavan, eyni zamanda təcrübəli, enerjili, peşəkar liderə malik oldu. Mən həmişə onun arxasınca getməyə və ondan nümunə götürməyə çalışıram».

Dövlət başçısının Mərkəzi Asiyanın iqtisadi, həm də strateji və əhali potensialı cəhətdən ən mühüm ölkələrindən biri olan Özbəkistan Respublikasına dövlət səfəri, şübhəsiz ki, Azərbaycan-Özbəkistan əlaqələri ilə yanaşı regional əməkdaşlığın da inkişafına güclü təkan verəcək. Prezident İlham Əliyevin Özbəkistana səfəri zamanı regionun sayılıb-seçilən liderlərindən olan İslam Kərimov Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli barədə Özbəkistanın qəti mövqeyini açıqlayıb. Bildirib ki, «Problemin həllində ilk vacib məsələ Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Bəlkə də bu bəyanat hansısa ölkənin xoşuna gəlməyə bilər. İlk növbədə işğal edilmiş ərazilər azad olunmalıdır. Bundan sonra dəmir yolları və kommunikasiya xətləri açılmalıdır. Ermənistan da bu məsələdən narahat olmalıdır. O, işğal etdiyi əraziləri azad etməlidir. Qaçqınlar öz yurd-yuvalarına qayıtmalıdır. Bütün bunlardan sonra Qarabağın statusu ilə bağlı müzakirələr aparıla

bilər». Azərbaycanın mövqeyi ilə üst-üstə düşən Özbəkistan dövlətinin bu mövqeyi ölkəmizin və onun yeni liderinin siyasətinə beynəlxalq dəstəyin getdikcə möhkəmlənməsi, qətiləşməsi kimi qiymətləndirilməlidir.

Azərbaycan prezidenti İlham Əliyevin dövlət başçısı kimi qardaş Türkiyə Respublikasına ilk rəsmi səfəri Azərbaycan-Türkiyə strateji əməkdaşlığının bir daha təsdiqi kimi diqqəti çəkdi. Aprelin 13-də reallaşan bu səfər bəzi xarici siyasət məsələlərində Türkiyəyə edilən kənar təzyiqlərin artdığı bir dövrdə, həm də iki qardaş ölkənin milli maraqlarını birlikdə müdafiə etmək əzminin nümayişinə çevrildi. Elə Türkiyə prezidentinin iqamətgahında dövlət başçısı Əhməd Necdət Sezər tərəfindən böyük hörmətlə qarşılanan prezident İlham Əliyev bu fikri tam aydınlığı ilə ifadə etmişdi: «Ölkələrimiz bundan sonra da bir-birinə həmişə dayaq, arxa olacaqdır, biz daim birlikdə olacağıq. Bizim gücümüz birliyimizdədir. Azərbaycan prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti də məhz bundan ibarət idi. O, daim çalışırdı ki, Türkiyə-Azərbaycan münasibətləri inkişaf etsin, güclənsin. Biz, Azərbaycanın indiki rəhbərliyi bu siyasətə sadiqik, əlimizdən gələni əsirgəməyəcəyik ki, Türkiyə ilə Azərbaycan arasında ənənəvi dostluq, qardaşlıq münasibətləri bundan sonra da inkişaf etsin». Türkiyə prezidenti Əhməd Necdət Sezər də öz bəyanatında bu məqamlara toxunaraq «Hörmətli İlham Əliyevin prezident kimi Türkiyəyə bu ilk səfəri ölkələrimiz arasında ardıcıl olaraq həyata keçirilən ən yüksək səviyyədəki görüşlərin yeni və mühüm bir vəsiləsini təşkil edir» deməsi Azərbaycan-Türkiyə strateji maraqlarının kəsişmə zirvəsi kimi qiymətləndirilməlidir. Hər iki qardaş ölkənin bu vahid mövqeyi prezidentlərin imzaladığı birgə bəyanatda bir daha sənədləşdirildi. İmzalanmış digər əməkdaşlıq sazişləri ilə isə, Azərbaycan-Türkiyə əlaqələrinin inkişafına yeni perspektivlər açılmış oldu. Azərbaycan prezidenti

İlham Əliyevin Türkiyənin hakimiyyətdə təmsil olunan əksər dövlət xadimləri ilə görüşləri içərisində Baş nazir Rəcəb Təyyub Ərdoğan, Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkök və rəsmi Ankaranın digər yüksək vəzifəli şəxsləri ilə görüşündə heç şübhəsiz ki, ikitərəfli əməkdaşlıq məsələləri ilə yanaşı, Azərbaycanın üzləşdiyi ən ağrılı problem olan Ermənistanın işğal etdiyi torpaqları azad etməsi məsələsinin yeni regional vəziyyətin fonunda müzakirə olunmasının əhəmiyyəti danılmazdır. Prezident İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri ölkənin siyasi elitasının bütün spektrlərini əhatə edən siyasət adamları ilə görüşməsi, Türkiyə ictimai rəyinə təsir edən bu şəxslərin ölkəmizə dəstəyinin artırılması baxımından qiymətli addım kimi dəyərləndirilməlidir. Bu mənada Azərbaycan liderinin Türkiyə Böyük Millət Məclisində, eləcə də digər görüşlərdə ölkəmizin mövqeyini və qardaş Türkiyədən umacağını yetkin siyasi xadim kimi aydın ifadə etməsi diqqəti çəkən məqamlardan oldu. Prezident İlham Əliyevin bu xətti Türkiyənin yüz minlərlə tirajı olan nüfuzlu mətbuat vasitələri, eləcə də aparıcı telekanalları tərəfindən hətta bütün türk dünyası üçün ən vacib məsələlərdən biri, Türkiyə dövləti üçün isə xüsusilə müstəsna önəm daşıyan Kipr probleminin xüsusi aktuallığı ilə cərəyan etdiyi bir məqamda da diqqətdən kənarda qalmadı. Fikrimizcə, Azərbaycan və Türkiyə liderlərinin elə bu problem barədə də fikir mübadiləsi aparmasının analitiklər tərəfindən əhəmiyyətinin qeyd olunması regional və beynəlxalq məsələlərdə ölkəmizin nüfuzunun əhatə dairəsini göstərir. Bunlar əlbəttə, ilk növbədə, prezident İlham Əliyevin qardaş Türkiyəyə rəsmi səfərinin siyasi, mədəni və digər humanitar – mənəvi dividentləridir. İqtisadi məsələlərə gəldikdə isə şübhəsiz ki, bu nəticələr daha konkret rəqəmlərlə ifadə oluna bilər. Azərbaycan prezidentinin qeyd etdiyi kimi hazırda iki ölkə

arasında mal dövriyyəsinin həcmi 300 milyon dollar ətrafındadır. Azərbaycan prezidenti haqlı olaraq qeyd edib ki, əlbəttə, bu böyük rəqəm olsa da hər iki ölkənin əməkdaşlıq potensialını tam əhatə etmir. Azərbaycan və Türkiyənin uğurlu siyasəti imkan verir ki, bu rəqəm daha böyük olsun. «Qarşıya məqsəd qoyulub ki, mal dövriyyəsinin həcmi 1 milyard dollara çatsın. Bunu etmək üçün çox gözəl imkanlar vardır. Siyasi zəmin vardır, iqtisadi əlaqələr vardır, xalqlarınızın birliyi vardır. Ona görə biz artıq əməli proqramlar üzərində çalışacağıq. Müxtəlif sahələrdə işlərin aparılması üçün Türkiyədən Azərbaycana heyətlər gələcəkdir. Ümid edirəm ki, yaxın zamanlarda biz hamımız bunun nəticəsini görəcəyik».

Azərbaycan-Türkiyə münasibətlərinin məramı və çağdaş durumuna rəsmi Ankaranın münasibətini prezident Əhməd Necdət Sezər Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə verilən ziyafətdə aşağıdakı kimi ifadə etmişdir. “Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr çox gözəl səviyyədədir. Ölkələrimiz arasında hər sahəni əhatə edən və getdikcə dərinləşən bu əlaqələrdə Azərbaycanın ümummilli lideri mərhum Heydər Əliyevin unudulmaz xidmətlərini xatırlamaq bizim borcumuzdur. Bu fürsətdən istifadə edərək, müasir Azərbaycanın quruluşunun əziz xatirəsini hörmətlə anıram. Hörmətli Cümhurbaşqanı İlham Əliyev bir tərəfdən, çox görkəmli dövlət adamı Heydər Əliyevin varisi kimi onun uzaqgörən siyasətini yeridir, digər tərəfdən, öz tərzi ilə ölkəsinə önəmli yeniliklər gətirməyə başlamışdır. Bu sırada Azərbaycanın Avropanın möhtəşəm təşkilatlarında fəaliyyətini daha da genişləndirdiyini qeyd edir, hörmətli prezident İlham Əliyevin bu xidmətlərini yaxından izlədiyimizi və bu sahədə uğur qazanması üçün ona dəstək verdiyimizi və verəcəyimizi bildirmək istəyirəm”. Əksər hallarda öz çıxışlarında rəsmi protokol məzmunundan kənara çıxmayan Türkiyə prezidentinin Azərbaycanın yeni liderinə xüsusi

rəğbəti və isti münasibəti bu dəfə qabarıq göründü. Prezident İlham Əliyevin qardaş ölkəyə rəsmi səfərinin nəticələrini burada ətraflı şərh etməyi qarşıya məqsəd qoymasam da, hər halda bir çox məsələlərin üstünü ört-basdır etməklə Ermənistan-Türkiyə münasibətlərini yaxşılaşdırmaq, hətta iki ölkənin sərhədlərini açmaq üçün geniş kompaniya aparmaq və digər tədbirləri həyata keçirməyə çalışan Erməni-Türk Barışıq Komissiyasının aprelin 14-də, elə hələ Prezident İlham Əliyevin Türkiyəyə səfərinin ikinci günündə fəaliyyətini dayandırmaq barədə bəyanat vermələrini xatırlatmaqla kifayətlənmək olar. Qeyd edək ki, bu bəyanat Ermənistan-Türkiyə sərhədlərinin açılması üçün erməni lobbisinin bütün imkanlarını yenidən hərəkətə gətirdiyi bir dövrə təsadüf edir.

Azərbaycanın həm yaxın, həm də uzaq qonşular, bütün regional təşkilatlar, açıq və örtülü şəkildə bir-biri ilə rəqabət aparan ölkələrlə eyni səviyyədə əlaqələr qurmaq siyasəti dövlətimizin imicinin və lazımlılıq dərəcəsinin artmasına xidmət edir. Bu, şübhəsiz ki, Azərbaycan dövlətinin milli maraqlarının təmin olunmasında mühüm amil kimi diqqəti cəlb etməkdədir. Elə martın sonlarında Amerika Birləşmiş Ştatları dövlət katibinin birinci müavini Riçard Armitacın və Rusiya Federasiyasının Dövlət Dumasının sədri Qrızlovun Bakıya səfərləri də Azərbaycanın bu nəhəng dövlətlərin xarici siyasətində önəmli yerindən xəbər verir. Digər tərəfdən, Riçard Armitacın prezident Buşun administrasiyasında xüsusi nüfuzu və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bilavasitə məşğul olmasını, Boris Qrızlovun və prezident Putinin komandasında önəmli mövqeyini xatırlasaq, Azərbaycanın da bu səfərlərdən problemlərinin həlli istiqamətində rəsmi Vaşinqton və Moskvanın mövqelərindən layiqincə bəhrələnəcəyini söyləmək olar.

Ötən müddətdə prezident İlham Əliyevin fəaliyyətinin daha bir məqamı nüfuzlu beynəlxalq və regional təşkilatlarla

Azərbaycanın münasibətlərini qoruması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb edir. Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, ATƏT kimi beynəlxalq təşkilatlardan Azərbaycanın nüfuzuna hörmət, problemlərinə diqqət görmək istəyi prezident İlham Əliyevin bütün vəzifələrdə yüksək peşəkarlıqla həyata keçirdiyi siyasətinin mühüm bir hissəsini təşkil edir.

Martın 18-19-da Azərbaycan liderinin «Daha geniş Avropaya doğru: yeni gündəlik» mövzusunda Bratislavada keçirilən beynəlxalq konfransda iştirakı ölkəmizin Ümumavropa inteqrasiyasına əzmini bir daha təsdiqlədi. Yəqin ki, elə bu səfərlə də Azərbaycan öz həqiqətlərini inkişaf etmiş Avropaya çatdırmaq üçün əlavə bir imkan və tribuna əldə etdi fikrini söyləsək yanılmarıq. Prezident İlham Əliyevin Bratislavada nüfuzlu beynəlxalq təşkilat və xarici ölkə rəsmilərilə səmərəli görüşləri, şübhəsiz ki, Azərbaycanın xarici siyasət strategiyasının əlavə dividentləridir. «Azərbaycan öz gələcəyini Avroatlantika məkanına daha geniş inteqrasiyada görür. Biz bu istiqamətdə böyük addımlar atırıq və əminəm ki, Avropa strukturları və beynəlxalq strukturlarla əlaqələr getdikcə daha da möhkəmlənəcəkdir. Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında fəal iştirak edir. Avropa Birliyinin Cənubi Qafqaz məsələləri üzrə xüsusi nümayəndəsinin təyin edilməsi bizdə minnətdarlıq və razılıq hissi doğurmuşdur. Bu çox vacib qarşılıqlı addımlar Azərbaycanın və ümumilikdə Cənubi Qafqazın Avropa ailəsinə daha sıx inteqrasiyasına imkan verəcəkdir. Əlbəttə, biz hələ çox şey öyrənməliyik. Amma ölkəmizin də qədim tarixi ənənələri və zəngin mədəni irsi vardır. Biz də Avropaya böyük töhfələr verən və ümumi dəyərləri bölüşə bilərik. Əminəm ki, yeni xətt – «Daha geniş Avropaya doğru» siyasəti bizim ölkəyə daha çox firavanlıq gətirəcəkdir. Bu isə bizim əsas məqsədimizdir» – prezident İlham Əliyevin Bratislava konfransındakı çıxışında söylədiyi bu fikirlərdə bütün reallıqlar, istək və perspektiv siyasət tam

aydınlığı ilə ifadə olunub.

Bütün səfərlərdə, keçirdiyi görüşlərdə ölkəmiz də, dünya ictimaiyyəti də tam yəqinliyi ilə gördü ki, Azərbaycan İlham Əliyevin şəxsində cəsarətli və istedadlı, haqqı, ədaləti müdafiə etməyi bacaran yeni liderə malikdir. Məhz prezident İlham Əliyevin müstəsna fəaliyyəti nəticəsində Avropa Şurasının sənədlərində Ermənistanın təcavüzkar olması və Azərbaycanın işğala məruz qallması faktı öz əksini tapdı.

Prezident İlham Əliyevin böyük ustalıqla reallaşdırdığı xarici siyasət kursunun daha bir önəmli cəhəti Azərbaycanın problemləri ilə qayğılanan beynəlxalq və regional təşkilatların nümayəndələrinin üzünün indi daha çox ölkəmizə xoş məramla dönməsini şərtləndirir. ATƏT-in Parlament Assambleyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin aprelin 15-də Bakıda olarkən «Azərbaycanın işğal edilmiş torpaqları tezliklə azad olunmalıdır» fikrini söyləməsi, eləcə də münaqişənin həllində vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupunun amerikalı həmsədrliyinə Azərbaycanı yaxşı tanıyan səfir Stiven Mənnin təyin olunması nikbinlik yaradır. Xəzərin enerji ehtiyatlarının işlənməsində diplomat kimi nəticəli fəaliyyəti olan və bu məsələnin uğurla həllində mövqeyi Azərbaycanla üst-üstə düşən Amerika Birləşmiş Ştatlarının strateji xəttini regionda uğurla aparmağa nail olması Stiven Mənnin bu münaqişənin həllində müsbət rol oynaya biləcəyinə əlavə ümidlər verir.

Beləliklə, ümummilli liderimizin layiqli davamçısı kimi prezident İlham Əliyevin bütün sahələr üzrə düşünülmüş siyasəti dərin rəğbət doğurur. Bu mənada bir neçə məqamı ümumiləşdirmək vacibdir.

1-ci istiqamət: iqtisadiyyatın dirçəldilməsi, yeni iş yerlərinin yaradılması, əhalinin sosial rifahının yaxşılaşdırılması üçün ardıcıl proqramlar hazırlanması.

2-ci istiqamət: Qarabağ probleminin çözülməsi üçün iqti-

sadi inkişaf faktorundan və Ermənistanın işğalçılıq siyasətinin dünya birliyi tərəfindən pislənməsinə nail olunması amilindən istifadə etməklə təcavüzkarı öz ədalətsiz mövqeyindən geri oturtmaq siyasəti.

3-cü istiqamət: milli-mənəvi dəyərlərimizə, dövlət dilinə, gənc nəslə qayğı, ziyalılara diqqət. Yanvarın 11-də Azərbaycan Milli Ensiklopediyasının nəşri və Azərbaycan dilində latın qrafikalı kütləvi nəşrlərin həyata keçirilməsi barədə imzalanan sərəncamlar buna əyani sübutdur.

4-cü istiqamət: İnsanların problemlərinə operativ reaksiya və əhalinin qayğısı ilə yaşamaq. Lənkəranda binanın uçması hadisəsi, İlham Əliyevin dərhal hadisə yerinə getməsi evi uçmuş insanlarda dövlətə inam formalaşdırdı.

Bir sözlə Azərbaycan yeni inkişaf istiqamətindədir. Dövlət başçısının sözləri ilə desək: «Bunlara nail olmaq üçün ictimai-siyasi sabitlik lazımdır. Bu sabitlik var. Əminəm ki, bizim hamımız, partiyamız Azərbaycanda bu sabitliyi qoruyacaq». Cəmiyyətin bütün təbəqələrinə arxalanan prezident İlham Əliyev Azərbaycanın ictimai-siyasi həyatında xüsusi yeri olan Yeni Azərbaycan Partiyasının hələ uzun illər müstəqil dövlətimizin inkişafına xidmət etməsi üçün əlindən gələni əsirgəməyəcəyini söyləməsi cənab İlham Əliyevin partiya ilə də əlaqələrinin möhkəm və düzgün istiqamətdə olduğundan xəbər verir. Martın 11-də YAP İdarə Heyətinin iclasında prezident İlham Əliyevin xüsusi qeyd etdiyi bu fikirlər Azərbaycanı qarşıda gözləyən daha böyük nailiyyətlərdən soraq verir: «Mən çox şadam ki, biz bu gün birlikdəyik. Mən sizi əmin etmək istəyirəm ki, bütün məsələlərdə, o cümlədən partiya quruculuğu istiqamətində də Heydər Əliyev siyasətinə sadiq qalacağam. Əminəm ki, biz hamımız birlikdə həm partiyamızı daha da gücləndirəcəyik, həm də ölkəmizi daha da inkişaf etdirəcəyik. Azərbaycan müasirləşəcək, güclənəcək, çox zəngin qüdrətli dövlətə çevriləcəkdir».

*«Azərbaycan» qəzeti,*
*2 aprel 2004-cü il*

# ***SSENARİLƏR***

## XİLASKAR

### Birinci film

*Qara fondan ekran açılır. ABŞ dövlət katibinin birinci müavini prezident Heydər Əliyev haqqında danışır.*

RİÇARD ARMİTAC (ABŞ dövlət katibinin birinci müavini): – Ad gününüz mübarək, cənab prezident. Sizinlə görüşdən və birgə işdən çoxlu xatirələrim var. İlk xatirəm Azərbaycanın ilk müstəqilliyi günlərinə təsadüf edir. Onda siz Naxçıvanda idiniz və biz ora yardım göndərməyə hazırlaşırdıq. İlk dəfə birgə işə belə başladıq. Sizdən çox təsirlənmişdim. Çünki siz həmişə mənə atamı xatırlatmısınız. Elə bilirəm ki, inciməzsiniz. Amma bu, həqiqətən də belədir. Atam sizə çox bənzəyirdi. Ondan sonra həm mülki, həm də hökumət işində sizinlə görüşdüm. Bakıda və ABŞ-da. ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri olarkən ABŞ-a səfəriniz zamanı mənə nəsib oldu ki, sizə ABŞ-ın keçmiş müdafiə naziri Uanberqeri təqdim edəm. Siz ona baxıb dediniz: «Sizi həmişə televizorda düşmən kimi görmüşəm, amma sizinlə tanış olmaq nə gözəldir». Mənim üçün bu çox həyəcanlı idi. Çünki Uanberqer həm mənim müəllimim, həm də dostum olubdur. Lap yaxınlarda mən professional səviyyədə həm özüm, həm də təmsil etdiyim hökumət

işində görüşdük. Sizin liderliyiniz altında Şərq-qərb, Bakı-Tbilisi-Ceyhan kəmərinin inşası və Qarabağ mövzularını müzakirə etdik. Biz çox maraqlanırıq. Və Minsk qrupunun digər üzvləri ilə birlikdə çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Amma lap yaxınlarda bütün Birləşmiş Ştatlar hökuməti, sizin liderliyiniz altında, Azərbaycan xalqının ABŞ və koalisiya üzvlərinə həm Əfqanıstan, həm də İraqın azad olunmasında göstərdiyi fantastik dəstəyə görə minnətdarlığını bildirdi. Bu dostluğun ölçü vahidləridir və amerikalılar belə şeyləri unutmur. İcazə verin, tamamlayım. Ad gününüz mübarək, cənab prezident. Sizə belə ad günlərindən çox olmasını arzulayıram!

*Fondan musiqinin müşayiəti ilə filmin adına keçid edilir. Ekranda titr görünür.*

## XİLASKAR

MƏTN: – Tarix yolu XX əsrin sonuncu on illiyinə gəlib çatmışdı. Məkrli imperiya maraqları, şovinist torpaq iddiaları, qanlı təcavüzlər poliqonunda sosial təlatümlər, siyasi burulğanlar girdabında çırpınan Azərbaycan gəmisini xilas etmək üçün dahi bir şəxsiyyətə tarixi ehtiyac var idi. Bu xilaskar Heydər Əliyev oldu.

BORİS OLEYNİK (Ukraynanın Avropa Şurasındakı nümayəndə heyətinin başçısı, yazıçı): – Məhz belə bir məqamda – Azərbaycanın müstəqilliyi təhlükə altında qaldığı bir vaxtda öz xalqının

sadiq övladı olan Heydər Əliyev idarəetmə sükanını əlinə aldı və əsl xilaskar kimi bizim gözəl Azərbaycanı öz müdrikliyi, cəsarəti və mətanəti sayəsində ağır vəziyyətdən çıxara bildi. İndi heç kəsə sirr deyil ki, onu bütün dünyada sevir və hörmət edirlər. Bunu Azərbaycanın diplomatik korpusunun xarici siyasət sahəsindəki uğurları da aşkar sübut edir. Məhz bu siyasət sayəsində uzaq və yaxın tərəfdaşları Azərbaycana cəlb etmək mümkün olub. Bu siyasət Heydər Əliyevin şəxsiyyəti ilə bilavasitə bağlıdır.

MƏTN: – Bəs nə üçün məhz Heydər Əliyev. Ona görə ki, Heydər Əliyev elə Azərbaycanın özüdür! Ona görə ki, Heydər Əliyev heç vaxt özünü düşünməyib, qorumayıb. Bütün mənalı həyatını, varlığını, düşüncəsini doğma Vətənində əmin-amanlığın, səadətin bərqərar olmasına, xalqının firavan güzəranına həsr edib. Ona görə ki, Heydər Əliyev həm görkəmli dövlət xadimi, həm də həssas diplomat kimi xalqının yüksəlişi naminə yaxın və uzaq qonşuları Azərbaycana yaxınlaşdırmaq iqtidarında olan kapitan idi. Ona görə ki, Heydər Əliyev zəngin dövlətçilik təcrübəsinə, təkrarsız idarəetmə bacarığına malik müdrik el sərkərdəsi idi. Və talelərini ona etibar etmiş insanları bu fırtınadan yalnız o, xilas edə bilərdi!…

OLJAS SÜLEYMENOV (Qazaxıstan Respublikasının YUNESKO-dakı səfiri, xalq yazıçısı): – Mənə hələ o vaxtlar, bəlkə də 30 il əvvəl onunla bir neçə dəfə görüşmək səadəti nəsib olub. Mən

onu hələ çox cavan, boylu-buxunlu, şax qamətli rəhbər olduğu vaxtlardan tanıyıram. Elə o zaman da gur səsi vardı, tez-tez nitq söyləyirdi. Özü də ədəbiyyatı çox sevirdi. Mən Nizami Gəncəvinin yubileyini xatırlayıram. Öz-özümdən soruşdum: niyə 750 illiyi, 900 illiyi yox, 840 illiyi qeyd edilir? Bu sualın da cavabını Heydər Əliyevin nitqində tapdım. O deyirdi: «Nizami kimi şəxsiyyətləri hər il yada salmaq, imkan daxilində hər onilliyini qeyd etməliyik ki, bu torpağın necə böyük şairlər yetirdiyini hamıya xatırladaq». Mən bu sözləri çox bəyəndim. Çünki biz yalnız yuvarlaq tarixləri qeyd etməyə alışmışıq. Bu yaxınlarda bizim Qazaxıstanda yalnız yüzillikləri yubiley hesab etmək təklifi irəli sürüldü. Bu həqiqətən yuvarlaq tarixdir. 80, yaxud 70 yaş isə yubiley deyilmiş. Kaş Allahın köməyi ilə hər birimiz öz 100 illik yubileyimizi görə bilək. Amma eləsi var ki, 100 il yaşasa da, öz xalqı üçün heç bir iş görə bilmir, bir başqası isə yaşadığı illər ərzində silinməz izlər qoyur, xalqını, insanları formalaşdırır. Mən Heydər Əliyevi belə görkəmli şəxsiyyətlərə şamil edirəm. Mən onu öz müəllimim bilirəm. Ümumiyyətlə, Azərbaycanda və Şərqdə hörmətli adamları «müəllim» – deyə çağırırlar. Amma az da olsa, sözün həqiqi mənasında böyük müəllimlər – ustadlar var. Bax, Heydər Əliyev mənim üçün belə böyük müəllim-ustaddır.

MƏTN: – Azərbaycan KP.MK-nın birinci katibi olduğu on dörd il ərzində Heydər Əliyevin

respublikanın inkişafı üçün gördüyü işlər, yəqin ki, heç bir əsrə sığmaz. Bu bütöv bir epoxa idi: Azərbaycanın yüksəlişi, tərəqqisi, oyanışı epoxası!… Artıq hamıya aydın idi ki, belə geniş fəaliyyət diapazonuna malik dövlət xadiminin iş potensialı respublikanın hüdudları çərçivəsində qapanıb qala bilməz. Və bu təkzibedilməz faktı nəzərə alan o vaxtkı sovet rəhbərliyi onu təkidlə Moskvaya dəvət etdi.

İHSAN DOĞRAMACI (Türkiyə, professor, doktor): – Heydər Əliyev Moskvadan öncə Azərbaycan KP.MK-nın birinci katibi idi. Bu katiblik zamanında Azərbaycana və Naxçıvana yapdığı hizmətləri daima mən taqib ediyorum. Çox böyük hizmətlərdə bulundu. Orada məktəblərin açılması, rus dili yanında azəri türkcəsinin də rəsmi dil olaraq davam etdirilməsi, fabrikaların qurulması, kültür fəaliyyətlərinin çoxalması, 30 kilometr boyunda metronun kurulması, bütün bunları böyük heyranlıqla təqib ediyorum. Ondan sonra bir müsəlmanın, bir türkün politbüroya namizəd azadlığını, təbii, çox böyük maraqla təqib etdim. O vaxt bilirsiniz dünyada iki böyük super dövlət var idi: SSRİ və ABŞ. Belə bir super dövlətin ən baş rütbəsinə azərinin gəlməsi bizi çox məmnun, şad etmişdi. Bu bizim üçün bir möcüzə idi. İlk dəfə bir türkün, azərinin oraya gəlməsini məmnunluqla təqib etmişdim və bu hamımızı sevindirmişdi.

*İntersumla Türkiyə görüntüləri verilir. Sonra sinxrona keçid edilir.*

SÜLEYMAN DƏMİRƏL (Türkiyənin 9-cu prezidenti): – Təbii ki, Sovetlər birliyi sistemini iyi anlamaq lazım. Və əslində bu qədər böyük bir yerə gəlmək çox böyük qabiliyyət tələb edir. Türk soyundan birinin buraya gəlişi mütləq iyi yetişmiş bir dövlət adamının olması ilə bağlıdır. Şəxsən mən bunu böyük məmnuniyyətlə qarşıladım. Belə dəyərli insanlar həm kəndisi üçün iyi, həm də başqaları üçün iyidir.

*İkili təsvirlə Siyasi Büronun üzvlərinin şəkilləri musiqinin müşayiəti ilə efirə verilir.*

FREDRİK STAR (ABŞ, Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun prezidenti): – Prezident Əliyevi ilk dəfə Moskvada görmüşdüm və bu 70-ci illərdə idi. Mən onu müşahidə edərkən dərhal fikirləşdim ki, mənim qarşımdakı adicə, boz, rəngsiz, tünd tipik sovet siyasətçisi deyil. Bu, çox maraqlı və mürəkkəb adamdır. Lap elə ilk görüşdə onunla maraqlanmağa başladım. Mənə bütün Mərkəzi Asiyada və Qafqaz regionunda onun yeganə milli lider olmaq perspektivləri barədə danışdılar. Həqiqətən milli liderdir. Çox rəngarəng və güclü fərdi keyfiyyətlərə malik adamdır. Onu ilk dəfə görən kimi bunu başa düşürsən. Onun çıxışlarına baxın: o, sovet stilində çıxışlardan imtina etməklə yanaşı, eyni zamanda

bəzən bilərəkdən o stilə qayıdır. Bu, sovet sisteminin dərinliklərindən gələn bir adamdır. Fikir verin ki, o, ən azı iki dildə danışır və onlardan yalnız biri sovet stilistikasıdır. Mən fikir verdim ki, o, bürokratiyanın asanlıqla idarə edə biləcəyi adamlardan deyil. Hiss etdim ki, insanlar onunla münasibətdə ehtiyatlı olmağa çalışırlar. Əlbəttə, ona hörmətlə yanaşırlar. Hamımız hiss edirik ki, onun karyerası hələ müəyyən bir həddə çatıbdır. Biz heç birimiz düşünə bilməzdik ki, o, yeni, ikinci müstəqil Azərbaycanın lideri olacaqdır. Son on ildə məni valeh edən odur ki, onu böyük maraqla izləmişəm, bir çox tədbirlərdə görmüşəm. Valehedici odur ki, yəqin ki, o, bütün sovet məkanında suverenliyin şəksiz əhəmiyyətini hamıdan artıq anlayır. O, suverenlik və iqtisadi inkişaf arasındakı münasibətləri yaxşı başa düşür. Deyə bilərik ki, Bakı-Ceyhan layihəsi, enerji məhsullarının ixracı bu sıradandır. O, siyasətlə iqtisadiyyat arasındakı münasibətləri yaxşı idarə edir. O, hamıdan yaxşı izah edə bilər ki, sovet sistemindən müstəqillik dövrü necə yarandı. Çünki o, yaxşı başa düşürdü ki, o dövr nə mümkün ola bilərdi, nə mümkün ola bilməzdi.

MƏTN: – Tanınmış politoloq alim Fredrik Star tarixin bu məqamını dəqiq tuta bilib. Çünki o vaxt Azərbaycan liderinin SSRİ kimi super səltənətin Siyasi Bürosuna üzv seçilməsi böyük siyasət aləmində yeni parlaq ulduzun doğulduğundan xəbər verirdi. Və bunun əks-sədası dünyanın hər yerində aydın eşidildi. Bütün SSRİ-nin xalq

təsərrüfatının canlandırılması üçün həyata keçirilən geniş miqyaslı tədbirlər, müxtəlif ölkələrə səfərlər… Bütün bunlar Heydər Əliyevin təkcə SSRİ məkanında deyil, bütövlükdə beynəlxalq aləmdə bacarıqlı və səriştəli dövlət adamı kimi nüfuzunu durmadan artırırdı. Şübhəsiz ki, bu ilk növbədə Heydər Əliyevin şəxsiyyəti və rəhbər işçi kimi təkrarsız keyfiyyətləri ilə bağlı idi. Onun nüfuzunun sürətlə artması isə çoxlarını, xüsusən də M.S.Qorbaçovu qorxuya salmaya bilməzdi. Aydındır ki, Heydər Əliyevin belə bir yüksək zirvəni fəth etməsinə diş qıcayanlar, bunu kin və qəzəblə qarşılayanlar da var idi. Həmin adamlar Heydər Əliyevdən çox da uzaqda deyildilər. Mərkəzi Komitədə, Siyasi Büroda özlərinə yer tapıb bu mərd, cəsur insana sarsıdıcı zərbə endirmək üçün fürsət axtarırdılar. Belə bir fürsəti onlara üzdəniraq yenidənqurma adlanan dövrdə elə SSRİ-nin son rəhbəri Qorbaçov yaratdı.

BORİS OLEYNİK: – Sov. İKP. MK-nın plenumu məndə xüsusilə dərin təəssürat oyatdı. Yaddaşlarda şər əməllərlə qalmış Qorbaçov o vaxt guya hökumət strukturlarını gəncləşdirmək bəhanəsi altında hələ sağlam və gümrah olan təcrübəli kadrları istefaya göndərməyə çalışırdı. Təəssüf, əksəriyyət başlarını aşağı salaraq, bunu qəbul edirdi və yalnız Heydər Əliyev əsl kişiyə və mərd insana xas olan qətiyyət və kəskinliklə Qorbaçovun üzünə dedi ki, o, son dərəcə böyük səhvə yol verir. Bildirdi ki, belə bir siyasi xətt düzgün deyil və buna görə həmin qərarla

razılaşmır. Heydər Əliyev sözünü deyib qürurla salondan çıxdı. Bu məqamda başında qan ləkəsi olan iblis xislətli həmin adamı mütiliklə qəbul edənlərin hamısını xəcalət təri bürüdü.

ROALD SAQDEYEV (ABŞ Merilend Universitetinin professoru, akademik): – Heydər Əliyev zəmanəmizin nadir siyasi xadimlərindən biridir. Mən fəxr edirəm ki, onunla hələ uzaq zaman kəsiyində – sovet ittifaqının ən qabaqcıl, inkişaf etmiş respublikalarından biri kimi Azərbaycanın təşəkkülündə misilsiz rol oynadığı dövrdə tanış ola bilmişəm. İllər keçdi, Heydər Əliyev Moskvaya gəldi və mənə nədənsə elə gəldi ki, o, süni şəkildə təcrid olunub. O, bütün respublikalar arasında ən görkəmli xadimlərdən biri kimi Moskvada da o qədər məşhur idi ki, ziyalılar ona meyil edirdilər. Ən məşhur ifaçılar böyük məmnuniyyətlə bir neçə saat konsert vermək üçün Bakıya uçurdular. Onun Mstislav Rastropoviçlə dostluğunu xatırlayın. Alimlərlə də münasibəti eyni idi. Məncə onun ziyalılar arasında belə böyük nüfuz qazanması, sevilməsi çoxlarını qorxudurdu. Belə təəssürat oyanırdı ki, onun SSRİ-də ali hakimiyyətə gəlməsi tezliklə gerçəkləşə bilər.

*SSRİ Mərkəzi televiziyasının «Vremya» proqramının başlığı efirə veriləndən sonra diktor Heydər Əliyevin növbəti qəbullarından biri haqqında məlumat verir.*

DİKTOR: – Bu gün yoldaş Əliyev iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Sovet – Yuqoslaviya

hökumətlərarası komitəsinin 25-ci iclasının keçirilməsi ilə əlaqədar Moskvada olan Yuqoslaviyanın İttifaq İcraiyyə Veçesi sədrinin müavini Zemlyariçi qəbul edib.

*Qısa görüntülərdən sonra Heydər Əliyevin başqa qəbulları və görüşləri haqqında məlumat verilir.*

DİKTOR: – Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, deputat Heydər Əliyev sessiyada ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri haqqında məruzə edib.

*Moskvanın ümumi panoramı verilir. İttifaqlar Evinin Sütunlu salonundan kadrlar göstərilir. Diktor mətninə keçid edilir.*

DİKTOR: – İttifaqlar Evinin Sütunlu salonunda SSRİ Tibb Elmləri Akademiyasına Lenin ordeninin təqdim olunmasına həsr edilmiş mərasim keçirilib. Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev öz nitqində tibb elminin və xalq səhiyyəsinin inkişafında Akademiyanın böyük xidmətlərini qeyd edib və Lenin ordenini Akademiyanın bayrağına sancıb. MƏTN: – Heydər Əliyev Siyasi Büronun digər üzvlərinin cürət eləyib deyə bilmədikləri bir sıra məsələləri cəsarətlə Qorbaçovun üzünə deyirdi. Qazaxıstanda qurulan kadr siyasətinin ciddi səhv olduğunu, onun milli məsələdə problemlər

yaradacağını əvvəlcədən deyən Heydər Əliyev Qorbaçova bu addımı atmamağı tövsiyə edirdi. Heydər Əliyevin nə qədər haqlı, uzaqgörən olduğunu zaman özü sübut etdi.

*Siyasi Büronun iclasından görüntülərdən iri və orta planlar bir-birini əvəzləyir. Heydər Əliyev o dövr haqqında danışır.*

HEYDƏR ƏLİYEV (Azərbaycan Respublikasının prezidenti): – Siyasi Büronun iclasında o vaxt heç kim heç nə demədi. İclas Kremldə böyük bir otaqda keçirilirdi. O vaxt həmin otağın yanında qəbul otağı var idi, orada isə baş katibin kabineti. İndi hər şey dəyişib, başqa cürdür. Baş katibin otağında əyləşib, başqaları da, Qorbaçov da. Mən iclas qurtarandan sonra otaqdan çıxıb Qorbaçovun qəbul otağına gəldim. Onun yanına girib dedim: «Bilirsinizmi, Mixail Sergeyeviç, mən orada heç nə demək istəmədim, ona görə ki, orada danışmaq üçün münasib şərait yox idi. Amma mən sizə demək istəyirəm ki, hər halda mən adamların milli psixologiyasına bələdəm. Siz səhvə yol verirsiniz. Kolbin pis adam deyil. O, yaxşı birinci katib ola bilər. O, Ulyanovsk vilayətinin birinci katibi olub və gərək ki, pis işləməyib. Hərçənd ki, gözdən pərdə asmaqla da məşğul idi. Bu hamıya məlumdur. Demək istəyirəm ki, onu Rusiyanın ən iri vilayətinə təyin edə bilərsiniz. O, işləyəcək. Qazaxıstan üçün isə Kolbin yaramır. Siz nəzərə alın ki, səhvə yol verirsiniz. Qorbaçov kin və qəzəblə

mənə baxıb dedi: «Yaxşı, baxarıq». Belə ki, mən öz borcumu yerinə yetirmişdim.

OLJAS SÜLEYMANOV: – Biz bilirik ki, o vaxt Alma-Atada baş verən hadisələrə görə bütün Azərbaycan, xüsusən də, Heydər Əliyev xeyli narahatlıq keçirib. Yəqin ki, yadınızdadır, 1986-cı ilin dekabrında baş verən hadisələrdən sonra bütün proseslər başlandı, müxtəlif respublikalarda milli azadlıq hərəkatları canlandı. Biz eşitmişik ki, Heydər Əliyev bununla əlaqədar öz fikrini Siyasi Büroda deyərək, bizi dəstəkləmişdi. Belə ki, o günlər bizim xalqların həmrəyliyi bir daha üzə çıxdı. O vaxt Heydər Əliyevin mövqeyi, dəstəyi də bizim üçün böyük əhəmiyyətə malik idi.

*Alma-Atada baş verən hadisələr musiqinin fonunda xronikal kadrlarla efirdə canlanır.*

İHSAN DOĞRAMACI: – Qazaxıstana bir rusun birinci katib təyin olunması Heydər bəyi üzmüşdü. Buna çox canı sıxılmışdı və protest vermişdi. Bu ilk dəfə böyük bir ixtilata səbəbiyyət verdi. Və bakdılar ki, bununla başa çıxmaq olmaz, çünki Heydər bəy hər şeydən öncə kəndi düşündüyünü, kəndi inandığı daim təqib edər, yoxsa yuxarıdakı ona əmr ediyor ona heç zaman boyun əyməzdi. İşdə bu vəziyyətdə istər-istəməz onun Siyasi Büroda qalmasına bəhanə olaraq xəstələndiyini söylədilər. Bu xəstəlik əsla yox idi. Onun sağlamlıq durumu politbüroda işləməyə imkan verirdi.

MƏTN: – Heydər Əliyevin həqiqətə söykənən mövqeyi, haqq sözü demək məharəti sovet rəhbərlərini təbii ki, qane etmirdi. Heydər Əliyev Çernobıl qəzası haqqında həqiqətin açılmasını zəruri hesab edirdi. Bu məsələlərin Siyasi Büroda müzakirəsi zamanı onun cəsarətli çıxışı bu cür fövqəladə hadisənin dünyaya yayılmasından çəkinən Mixail Qorbaçovu da həqiqəti söyləməyə vadar etdi.

HEYDƏR ƏLİYEV: – Əlbəttə ki, bu sovet rəhbərliyi üçün böyük rüsvayçılıq idi. Həmin gün şənbə günü olsa da mən işdə idim, yeri gəlmişkən, mən bütün şənbə günləri işləyirdim. Eşitdim ki, Atom Elektrik Stansiyasında partlayış baş verib, amma təfərrüatını bilmirdim. Mən Nazirlər Kabineti İşlər İdarəsinin rəisi Smerdyukovdan soruşdum ki, nə baş verib? Mən Siyasi Büronun üzvüyəm, Nazirlər Kabineti sədrinin birinci müaviniyəm, mən bu barədə heç nə bilmirəm. O cavab verdi ki, Çernobılda AES-də nəsə vaş verib. Bu, günün axırında olub. Dedi ki, Nazirlər Soveti sədrinin müavini yoldaş Şerbinin yanına gedib öyrənərəm. Bazar günü mən işləmirdim. Təbii ki, heç nə öyrənə bilmədim. Bazar ertəsi səhər Qorbaçov Siyasi Büronun üzvlərini topladı. Özü də o, iclası öz kabinetində çağırmışdı. Adətən iclaslar orada keçirilirdi. Səhər saat 10-11 radələrində zəng edib çağırdılar. Çox qısa bir informasiya verdilər. Bu iclas ona görə keçirilirdi ki, bizim özümüzdə informasiya yox idi. Bu informasiya İsveçdən, Polşadan, Almaniyadan, digər Avropa

ölkələrindən alınmışdı. Onlar radiasiya şüalanması barədə məlumat yayırdılar. Əslində, Çernobıl faciəsi barədə xəbər bütün dünya ictimaiyyətinə məlum idi. Qorbaçov belə bir məqamda iclas keçirirdi. Qısa bir informasiya verdilər. Amma biz hiss edirdik ki, faciə baş verib, tədbir görmək lazımdır. Bunun üçün nəzərdə tutulan tədbirlər məncə kifayət deyildi. Mən bu barədə danışmaq istəmirəm. Amma belə bir məsələ qaldırıldı ki, informasiya vermək lazımdır. İndi mən özümü qəhrəman kimi göstərmək istəmirəm, məni düzgün başa düşün. Mən çıxış edib dedim ki, bu məsələ ilə əlaqədar təcili informasiya vermək lazımdır. Özü də mötəbər bir informasiya. Hamı nə baş verdiyini bilməlidir. Çünki hadisənin mahiyyəti artıq bütün Avropaya məlumdur. O zaman Liqaçov mənim sözümü kəskin şəkildə kəsdi: «Siz nə istəyirsiniz? Hansı informasiyanı istəyirsiniz?». Mən dedim: Axı, necə ola bilər? Mən istəyirəm ki, dəqiq informasiya verilsin. Axı, biz belə bir faktı gizlədə bilmərik». Mən demək istəyirəm ki, o vaxt Aleksandr Nikolayeviç Yakovlev də mənim kimi çıxış etdi. Lakin bu məsələni ört-basdır etdilər. Sonra isə özləri bildikləri şəkildə informasiya yaydılar. Sonralar bir müddət keçdi və mən necə oldusa Yakovlevlə görüşdük, o, Liqaçovun hərəkətlərindən narazılığını bildirdi. Mənə dedi ki, görürsünüzmü, yalnız sizinlə mən bu informasiyanın dolğun verilməsini təklif etdik. Amma Liqaçov o vaxtlar daha nüfuzlu adam idi. Hadisə, bax, belə olmuşdu.

*Siyasi Büronun iclasından fraqmentlər göstərilir. Musiqi ilə sinxrona keçid edilir.*

BORİS OLEYNİK: – Bu, çox mühüm detaldır. Qorbaçov Kiyevə gəlməkdən qorxurdu. Hətta Şerbitski 1 may paradını ləğv etmək istəyəndə və heç olmasa uşaqları fəlakət zonasından köçürməyə cəhd edəndə Qorbaçov onu hədələyərək demişdi ki, sən əhali arasında iğtişaş toxumu səpirsən, buna görə də partiyadan çıxarılacaqsan. Allaha şükür ki, həmin vaxt Siyasi Büroda Heydər Əliyev kimi görkəmli siyasətçi və şəxsiyyət var idi. Məhz o, Ukraynadakı hadisə barədə bəyanatı ilə M.S.Qorbaçovu bizim ölkədə adi qəza deyil, geniş miqyaslı faciə ilə razılaşmağa məcbur etdi. Buna görə də Azərbaycanın indiki prezidentinə minnətdarıq. O, ata-anasının verdiyi adi həyatı yaşamaq üçün doğulmayıb. Onun son dərəcə ağır bir taleyi var. Heydər Əliyev məqsədə doğru əzmlə irəliləyən bir insandır. O, başqaları kimi özü üçün sərvət toplamaqla məşğul olmayıb, öz yorulmaz fəaliyyəti ilə Azərbaycanın beynəlxalq nüfuzunu yüksəldib. İnamla deyə bilərəm ki, bu, məhz onun şəxsiyyəti ilə əlaqədardır.

MƏTN: – Artıq o vaxt öz parlaq zəkası və dühası sayəsində kifayət qədər şöhrət qazanmış Heydər Əliyev M.S.Qorbaçov və onun əhatəsi üçün arzuolunmaz şəxsiyyətə çevrilmişdi. Onu sovet rəhbərliyindən uzaqlaşdırmaq üçün heç bir bəhanə tapılmırdı. Yeganə çarə yalnız səhhəti ilə bağlı bir fitnə uydurmaqdan ibarət

ola bilərdi. Heydər Əliyevin sağlamlığına isə yalnız həsəd aparmaq olardı. Siyasi Büronun bu sahədə kifayət qədər təcrübəsi var idi. İstənilən vaxt sərfəli olmayan rəhbərlərin sağlamlığına təcavüz olunurdu. Beləliklə, Siyasi Büroda Heydər Əliyevin istefaya göndərilməsi üçün ciddi-cəhdə bəhanə axtarılırdı.

*O dövrün mənzərəsini əks etdirən xronikal kadrlar tez-tez bir-birini əvəzləyir. Heydər Əliyev ittifaq nazirlikləri ilə müşavirə keçirir. Müşavirədəki çıxışdan bir parça səsləndirilir.*

HEYDƏR ƏLİYEV: – BAM-ın tikintisi, inşaat işlərinin gedişi, daim Sov.İKP MK-nın, MK-nın Siyasi Bürosunun, Nazirlər Sovetinin nəzarətindədir. Və sovet adamlarının adlandırdığı kimi, «Əsrin tikintisi» real faktdır. Mənə elə gəlir ki, ötən on il ərzində həyata keçirilmiş, sözün əsl mənasında nəhəng, qəhrəmancasına işin nəticəsi əldə olunubdur.

*Kreml saatı göstərilir. Həyəcanlı musiqi verilir. Heydər Əliyev o vaxt necə xəstələnməyi barədə danışır.*

HEYDƏR ƏLİYEV: – Mən Moskvada 5 il işləmişəm və günlərin birində kabinetdə ürəyim tutdu. Məni xəstəxanaya apardılar. Diaqnoz qoydular ki, infarktdır. Görəsən, bu həqiqətən olmuşdumu?

*Xəstəxananın ümumi planlarından sonra M.S.Qorbaçov, E.Liqaçov kadrları əvəzlənir, sinxrona keçid edilir.*

BORİS OLEYNİK: – Mixail Qorbaçovun Çazovdan öyrənmək istədiyi yeganə cəhət Siyasi Büronun bütün üzvlərinin səhhəti idi. Sizə deyim ki, Şerbitskinin Nyu-Yorkda ləngiməsinin səbəbi də bununla əlaqədar idi. Çünki Qorbaçov Əliyev və Şerbitskiyə özünün rəqibləri kimi baxırdı. Mən qəzet vasitəsilə Qorbaçovla diskussiyalar aparmışam. Və mənim böyük hay-küyə səbəb olan kitabım çıxıb. Mənim rəqiblərim də çoxdur, tərəfdarlarım da. Sonralar mən bir vaxtlar SSRİ-nin «baş həkimi» çağırılan Çazovla da söhbət etmişəm. O, qəzetlərin birində deyirdi: «Məni hansısa qəribə ölümlər silsiləsi heyrətə gətirirdi». Deyək ki, Brejnev öldükdən sonra Andropov hakimiyyətə gəlir və qısa müddətdən sonra o da dünyasını dəyişir. Yerini Çernenkoya verir. O da çox keçmədən vəfat edir. Guya kimisə oturduğu yerdəcə əcəl götürüb aparır. Halbuki, klinika hamı üçün eynidir. Bir dəfə keçmiş müdafiə naziri Ustinov Varşava müqaviləsi üzvü ölkələrin qoşunlarının təlimi zamanı general Dzurun yanına gəlir və onların hər ikisi xəstələnir. Buna görə mən ona dedim: «Əziz və hörmətli Çazov. Əgər siz özünüz də möcüzəli şəkildə sağ qaldığınız qəzaya düçar olmasaydınız, mən bunların təsadüfi ölümlər silsiləsi olduğuna inanardım. Hə, bunlar istisna deyil. Qorbaçov hakimiyyətə doğru bu yolla irəliləyirdi. Heydər Əliyevi isə

mən sağlam, qüvvətli bir kişi, gününü daim kabinetdə keçirməyi xoşlamayan əsl insan kimi tanıyıram. O, həmişə təmiz havada olurdu. Taleyi, peşəsi onu daim ekstremal vəziyyətlərlə üzləşdirir və Heydər Əliyev daim bu vəziyyətlərdən şərəflə çıxırdı. Büronun üzvləri hər halda həm yaxşı dərmanla, həm də hərtərəfli qayğı ilə əhatə olunsalar da, bir də görürdün ki, belə xoşagəlməz hallarla üzləşirdilər. Bu tamamilə təbiidir və mümkündür».

MƏTN: – Sovet rəhbərliyindən uzaqlaşdırılması üçün bəhanələr axtarıldığı bir vaxtda Heydər Əliyev daha intensiv çalışır, müxtəlif ölkələrə səfərlərə çıxır, hər yerdə də səmimiyyətlə qarşılanırdı. Bütün bunlar istedadlı dövlət xadimi kimi onun nüfuzunu daha da artırırdı.

*Moskvanın ümumi panoramından sonra SSRİ ALİ Sovetinin iclas salonu göstərilir. Heydər Əliyev belə iclasların birindən danışır.*

HEYDƏR ƏLİYEV: – Bir dəfə Ali Sovetin sessiyası gedirdi və biz hamımız rəyasət heyətində əyləşmişdik. Adətən belə olurdu, yadınızdadırmı? Bəzən kimsə girir, yaxud çıxırdı. Qorbaçov mənim qarşımda əyləşmişdi. Gördüm ki, o qalxıb getdi. Bir qədər sonra gördüm ki, Liqaçov da qalxdı və Rıjkova dedi ki, o da çıxsın. Onlar çıxdılar. Orada bizim rəyasət heyətinin otağı vardı. Biz orada iclasa qədər toplaşıb çay içərdik və s. Onlar getdilər və bir qədər sonra məni dəvət etdilər. Mən gəldim. Orada isə sessiya gedirdi.

Budur, Qorbaçov sözə başlayıb deyir ki, onun fikrincə, mən getməliyəm. Dedim ki, mən səbəbini bilmirəm. Mən belə hesab etmirəm ki, getməliyəm, amma əgər belədirsə, etirazım yoxdur. Onda siz deməlisiniz ki, biz bilək: öz razılığınızla gedirsiniz, yoxsa xəstəliyə görə. Mən fasilədə evə getdim. Oğlum və qızım evdə idi. Onlara vəziyyəti başa saldım. Əhsən onlara. Dedilər ki, ata, sən narahat olma, nə olar.

MƏTN: – Artıq başdan-başa çirkaba bulaşmış sovet irtica aparatı onun kimi yüksək mənəviyyatlı və demokratik ruhlu şəxsiyyətləri qəbul edə bilmirdi. Bunu parlaq dühası ilə Heydər Əliyev özü də yaxşı bilirdi. Heç bir istefa təkidi onun dağ vüqarını qıra bilməzdi.

*Kremlin ümumi planları göstərilir. Heydər Əliyev M.S.Qorbaçovun yanına gedib istefa verməsindən danışır.*

HEYDƏR ƏLİYEV: – Axşam Qorbaçovun yanına gedib dedim ki, mən gedirəm. Bəli, mən gedirəm və deyə bilərsiniz ki, səhhətimə görə gedirəm. O, qalxıb məni qucaqladı, öpdü və «çox sağ olun, Heydər Əliyeviç» – dedi.

MƏTN: – Heydər Əliyev Moskvaya yüksək vəzifəyə qurub yaratmaq, doğma ölkəsinin və xalqının şərəfini ucaltmaq üçün necə gəlmişdisə, lazım gəldiyi məqamda yenə də qürurla, alnıaçıq, üzüağ oranı tərk etdi.

HEYDƏR ƏLİYEV: – Bilirsinizmi, Siyasi Büroda yaxşı cəhətlər də var idi, dəhşətli məsələlər də. Əgər bu barədə danışsaq, çox vaxt aparar.

*Kreml… İkili təsvirlə M.S.Qorbaçov, Liqaçov və digərlərinin sifəti ekranda canlanır. Həyəcanlı musiqidən sonra mətnə keçid edilir.*

MƏTN: – Siyasi Büroda Qafqaz regionu üçün münaqişələr silsiləsi planı artıq hazır idi. İmperiya bütün çirkin vasitələrdən istifadə edərək, Azərbaycanda bu məqsədinə nail oldu. Heydər Əliyev hər tərəfdən təcrid olunduğu Moskvada şəxsi həyatını təhlükə altına ataraq, Siyasi Büronun bu mənfur xislətini bütün dünyaya açıq göstərdi.

HEYDƏR ƏLİYEV: – Yanvarın 20-də (1990-cı il) Bakıya qoşun yeridiləndə faciə baş vermişdi. Mən dözmədim, dedim ki, daimi nümayəndəliyə gedirəm. Oğlum və qızım dedi ki, biz də səninlə gedirik. Orada xeyli adam vardı. Orada toplaşanlar matəm libasına bürünsələr də, məni görən kimi hərarətlə qarşıladılar. Çünki çoxdan idi məni görmürdülər. Mən orada çıxış etdim.

*Moskvada Azərbaycanın daimi nümayəndəliyinə Heydər Əliyevin gəlişi göstərilir və çıxışından bir parça verilir.*

HEYDƏR ƏLİYEV: – Mənim buraya gəlməyimin səbəbi Azərbaycanda törədilən faciədir. Mən bu barədə dünən səhər xəbər tutmuşam və təbii ki, belə bir hadisəyə biganə qala bilməzdim. Buraya ilk növbədə ona görə gəlmişəm ki, Azərbaycan torpağının Moskvada kiçik bir parçası olan daimi nümayəndəlikdə Azərbaycan

xalqına baş vermiş faciə, qurbanlarla əlaqədar öz başsağlığımı bildirim.

İHSAN DOĞRAMACI: – Heydər Əliyev heç zaman buna biganə qala bilməzdi. Bu çox böyük cəsarət idi. Bundan sonra Moskvada toplantı yapır və Kommunist Partiyasından istefa verir.

*Dinamik kadrlar bir-birini əvəzləyir. Süleyman Dəmirəl Heydər Əliyev haqqında danışır.*

SÜLEYMAN DƏMİRƏL: – Siyasətdə bulunan kişilər bəzən çox böyük riskləri almaq məcburiyyətindədirlər. Böylə bir zamanda Heydər Əliyevin susa bilməsi doğru olmazdı və susmazdı. O, çıxışı yapmalıydı, ondan bəklənən oydu. Mən də Türkiyədə bir çıxış yapdım və dedim ki, Qorbaçov elimi qana buladı. Tanklar əlində heç bir şeyi olmayan, məsum azərbaycanlı qardaşlarımıza qarşı qan tökdü. Bu çox ayıb oldu.

*1990-cı ilin 20 Yanvar faciəsini əks etdirən kadrlar bir-birini əvəzləyir.*

OLJAS SÜLEYMANOV: – Bu və sondakı günləri yaxşı xatırlayıram. O vaxt mən Bakıda idim. Bəs o günlərdə qəlbimi parçalayan qüssə və kədərdən başqa daha nə barədə düşünürdüm? Düşünürdüm ki, əgər o vaxt respublikaya Heydər Əliyev rəhbərlik etsəydi, bu faciə baş verməzdi. Düşünürdüm ki, Qorbaçov və Sovet İttifaqının yeni rəhbərliyi belə böyük səhvə yol verməsəydilər, hələ iş qabiliyyətini qoruyub

saxlayan çox təcrübəli kadrları, hakimiyyəti naşı adamlarla əvəzləməsəydilər belə faciələrlə üzləşməzdik. Bunu Gürcüstan və Moldoviya barədə də, Azərbaycan haqqında da demək olar. Əgər Heydər Əliyev yerində olsaydı, onda nə Qarabağ faciəsi, nə də bu dəhşətli müharibə baş verməzdi. İndi isə inanıram ki, ölkə ərazisinin 20 faizini müvəqqəti olaraq itirib, öz vətənini itirmiş bədbəxt insanların doğma ocaqlarına qayıdacaqlarına inanıram. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdanda fəlakətlərə son qoyuldu. Əgər bu qayıdış olmasaydı, mən təsəvvürə gətirə bilmirəm ki, bu faciələr necə qurtarardı. İndi Azərbaycanı ayağa qaldırmaq üçün onun istedadına, tükənməz gücünə ehtiyac var idi. Bu qayıdışdan sonra ölkənin iqtisadiyyatı da, ən başlıcası isə xalqın ruhu da dirçəlməyə başladı. Bütün bu yeni dirçəliş mərhələsi isə birbaşa Heydər Əliyevin şəxsiyyəti və əməlləri ilə əlaqədar idi. Mən bunu həmişə və hər yerdə demişəm, əminəm ki, hamı da bu fikrimi təsdiq edər.

MƏTN: – Əgər ölkənin rəhbərliyində Heydər Əliyev olsaydı, nə ərazilərimiz itirilər, nə də bir kimsə yurd-yuvalarından didərgin düşərdi. Bu sözləri hələ münaqişənin ilk günlərində doğma torpaqlarını tərk etməyə məcbur olan qaçqın, məcburi köçkünlər deyirdilər. Bu sözləri sonralar Heydər Əliyevin sərkərdəlik və idarəçilik istedadına bələd olan hökumət və dövlət başçıları təsdiq edirdilər. Bu real həqiqəti bu gün bütün xalqımız və bütün dünya bilir.

*Ordu quruculuğu ilə bağlı müxtəlif kadrlar verilir. Heydər Əliyev tribunada nitq söyləyir.*

HEYDƏR ƏLİYEV: – Mən bizim ordumuza inanıram. Əsgərlərimizə inanıram. Mən bizim zabitlərimizə inanıram. Mən bizim xalqımıza inanıram, arxalanıram. Cəsarətli xarici siyasət apararaq, dünyanın bütün dövlətləri ilə prinsipial danışıqlar apararaq Azərbaycan xalqına arxalanıram, Azərbaycan gənclərinə arxalanıram, Azərbaycan ordusuna arxalanıram. Və ümidvar olduğumu bildirmək istəyirəm ki, siz heç vaxt mənim bu ümidlərimi, mənim bu inamımı itirməyə yol verməyəcəksiniz.

MƏTN: – Heydər Əliyevin memarlığı ilə yaranan, gündən-günə püxtələşən Azərbaycan ordusu artıq öz Vətəninin hər qarışını qorumağa, işğal edilmiş torpaqlarını azad etməyə hazır olan qüdrətli bir ordudur.

İHSAN DOĞRAMACI: – Haydar Aliyev heç zaman öz prinsiplərindən vaz keçməyən bir insandır. Son dərəcə millətini, məmləkətini sevən və türklüyünü unutmayan bir insandır. Başına nə fəlakətlər gəlir-gəlsin, kəndisini millətinə, məmləkətinə fəda edən bir insandır. O baxımdan, bu gün həyatda olan liderlər arasında dünyada çox böyük yeri var.

*Vaşinqtonun ümumi panoramı verilir. Ağ ev görünür. Sinxrona keçid verilir.*

QREQ LAFLİN (ABŞ konqresmeni): – Təxminən on il əvvəl mənə böyük bir şərəf nəsib oldu ki, onun Birləşmiş Ştatlara ilk rəsmi səfəri zamanı onu amerikalıların və azərbaycanlıların toplaşdığı böyük bir kütləyə təqdim edim. Mənə prezidenti təqdim etmək xahişi ilə müraciət edərkən, mən bir qədər tədqiqat işi apardım və prezidentin keçmişi ilə bağlı bəzi məqamları öyrəndim və istər-istəməz elə bir nəticəyə gəldim ki, o, elə ABŞ-ın ilk prezidenti Corc Vaşinqtona çox bənzəyir. Beləliklə, təqdimatımda mən prezident Əliyevi Qafqaz və Mərkəzi Asiyanın Corc Vaşinqtonu adlandırdım. Bunu etməyə səbəb onun regiondakı liderliyi, onun rus ordusunu Azərbaycan torpağından çıxarmaq bacarığı idi. O zaman Azərbaycan bunu edən ilk ölkə idi və elə bilirəm, bugünkü gündə də Azərbaycan Qafqaz və Mərkəzi Asiyada işğalçı rus ordusunu öz ərazisində saxlamayan ölkə olaraq qalır. Prezident Corc Vaşinqton eyni işi Birləşmiş Ştatlarda görmüşdür. O, britaniyalıları çıxara bildi və biz bir daha Britaniya ordusunun işğalına məruz qalmadıq.

MƏTN: – Heydər Əliyev beynəlxalq siyasət aləmində, dövlət quruculuğu prosesində fenomen bir şəxsiyyətdir. Bəs, bu fenomenin sirri nədədir? Heydər Əliyevi çox vaxt dünyanın tanınmış dövlət xadimlərinə, məşhur siyasətçilərinə – Corc Vaşinqtona, Şarl de Qola, Çörçilə, Mustafa Kamal Atatürkə və başqalarına bənzədirlər. Lakin həqiqət budur ki, bu görkəmli şəxsiyyətlərin ən yaxşı xüsusiyyətlərini özündə birləşdirib.

Hazırda ümumi rəy belədir ki, o, öz yüksək erudisiyası, uzun illər ərzində topladığı zəngin təcrübə və incə siyasətçi həssaslığı ilə həmsöhbətlərinə təsir göstərə bilir, inandırır, eyni zamanda onları maarifləndirir. Heydər Əliyev fenomeninin sirri sadə dildə deyilərsə bu, görkəmli şəxsiyyətin səmimiliyində, doğma torpağa, mənsub olduğu xalqa fanatik sevgisindədir.

BİRİNCİ FİLMİN SONU

*2003-cü il*

## XİLASKAR

### İkinci film

*Fon açılır. Kadrda Jak Bomel görünür. O, Heydər Əliyevin səciyyəvi xüsusiyyətlərindən danışır.*

JAK BOMEL (Fransanın PYEJ-MALMÖZONUN şəhərinin meri, sabiq nazir, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan üzrə keçmiş məruzəçi): – Cənab prezident! Əziz dost! Ad gününüz münasibətilə sizə ən xoş arzularımı çatdırdığım üçün çox xoşbəxtəm. Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasına üzvlüyə qəbul edilməsi ərəfəsində imkan taparaq, məni qəbul etdiyiniz vaxtlar birgə keçirtdiyimiz anları heç vaxt unutmayacağam. Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsində mənim də əməyim olduğu üçün olduqca məmnunam. Və ad gününüz münasibətilə sizə müraciət etmək imkanı əldə etdiyim üçün nə qədər sevindiyimi təsəvvür etmək çətindir. Siz Azərbaycanın tarixində mühüm bir şəxsiyyət olmusunuz. Azərbaycanın atası olmusunuz. Demək istəyirəm ki, biz Fransada və Avropada bunları bilirik. Sizin bütün vəzifələrdə nümayiş etdirdiyiniz nəcib və yüksək keyfiyyətləriniz bizə məlumdur. Bütün bunlara görə sizə dərin hörmətimi ifadə edə bilməyimə çox şadam. Etiraf edirəm ki, Bakıda sizinlə birlikdə keçirtdiyim

görüşlər, sizinlə keçirtdiyim anlar həyatımın ən vacib və mənalı səhifələri olaraq yaddaşımda silinməz və ən əziz xatirə kimi qalacaqdır. Ad gününüz mübarək, cənab prezident! Sizə uzun ömür arzulayıram!

*Dinamik musiqi verilir. Kadrlar bir-birini əvəzləyir və titr ekranda canlanır.*

## XİLASKAR

MƏTN: – Tarix yolu XX əsrin sonuncu on illiyinə gəlib çatmışdı. Məkrli imperiya maraqları, şovinist torpaq iddiaları, qanlı təcavüzlər poliqonunda sosial təlatümlər, siyasi burulğanlar girdabında çırpınan Azərbaycan gəmisini xilas etmək üçün dahi bir şəxsiyyətə tarixi ehtiyac var idi. Bu xilaskar Heydər Əliyev oldu.

*Burulğanlar qoynunda olan gəminin sükanı arxasında Heydər Əliyev görünür. Sonra ikili təsvirli Moskvaya – Kremlə keçid edilir. Musiqi fonunda mətn başlanır.*

MƏTN: – 1987-ci il. Oktyabrın 21-də görkəmli siyasətçi kimi təkcə SSRİ-də deyil, bütün dünyada tanınan Heydər Əliyev istefaya çıxdıqdan təxminən 20 gün sonra Parisdə Abel Aqambekyan Parisin «Humanite» qəzetinə müsahibə verir. Müsahibədə bildirilir ki, Dağlıq Qarabağ əhalinin etnik tərkibinə və iqtisadiyyatına görə Ermənistana daha yaxın olduğu üçün Azərbaycandan alınaraq, Ermənistana birləş-

dirilməlidir və bu məsələ artıq Qorbaçovla razılaşdırılıb.

*Kadrda Xankəndində erməni separatçılarının mitinqindən xronikal fraqmentlər görünür. Mətnə keçid edilir.*

MƏTN: – Bu bəyanatdan çox keçmədən Xankəndində eməni separatçılarının kütləvi mitinqləri və iğtişaşları başladılır. Azərbaycan əhalisinin öz doğma torpaqlarından – Ermənistandan deportasiyası güclənir. Dağlıq Qarabağın erməni quldur dəstələri silahlanaraq, əliyalın Azərbaycan əhalisinə qarşı açıq-aşkar hücuma keçirlər. Rəsmi Moskvanın və respublika hökumətinin bütün bu hadisələrə ədalətsiz münasibəti Azərbaycanda da güclü etiraz dalğası oyadır.

*Azadlıq meydanında o vaxtın mənzərəsini əks etdirən tarixi kadrlar bir-birini əvəzləyir.*

MƏTN: – Mərkəzə və respublika rəhbərliyinin siyasətinə qarşı başlayan mitinqlər çox keçmədən güclü hərəkata çevrildi. Bununla da qondarma Dağlıq Qarabağ problemi başladı.

*Azadlıq meydanındakı mitinqdən iri və orta planlardan sonra kadrda Heydər Əliyev görünür və 1991-ci ildə Dağlıq Qarabağla əlaqədar məsələlərdən danışır.*

HEYDƏR ƏLİYEV (Azərbaycan Respublikasının prezidenti): – Mən 14 il respublikaya rəhbərlik etmişəm. DQMV respublikanın tərkibinə daxil

olub və indi də tərkibindədir. Mən oradakı vəziyyəti çox yaxşı bilirəm, dəfələrlə Qarabağda olmuşam. Mənim vaxtımda Ermənistanın millətçi ruhda olan ayrı-ayrı adamlarının bu cəhdlərinin qarşısı alınırdı. Bu məsələni qaldırmaq imkanı vermirdik. Çünki bunun heç bir hüquqi əsası yox idi. Qorbaçov isə məndə belə bir təəssürat oyadır ki, sovet gerçəkliyində sabitliyin olmasını istəmirdi. Ölkəni idarə edə bilmədiyinə görə ayrı-ayrı respublikalarda qeyri-sabitlik ona sərfəli idi. İstəmirdi ki, respublikalar öz hüquqlarını fəal qorusunlar. Mən hesab edirəm ki, onun başsoyuqluğu ucbatından Dağlıq Qarabağ kimi süni problem yaranırdı. 1988-ci ilin əvvəlində vəziyyət kəskinləşəndə Ermənistanda və Azərbaycanda rəhbərliyi dəyişməkdən başqa çarəsi qalmadı. Azərbaycana hər cəhətdən yarıtmaz, yüngülbeyin adam olan Vəzirovu göndərdi. Qorbaçov onun köməyi ilə öz xəttini yeritmək istəyirdi və bu xalqda daha böyük narazılıq doğurdu.

MƏTN: – Nəticədə respublikada onsuz da gərgin olan vəziyyət dözülməz həddə çatdı. Bu həmin vaxtlar idi ki, erməni separatçıları Dağlıq Qarabağ ərazisindəki azərbaycanlıları yurd yuvalarından didərgin salır, Azərbaycan ərazilərində terrorun miqyasını genişləndirmək məqsədi ilə silahlı quldur dəstələri yaradırdılar. Vəzirov rəsmi Moskvanın bu etimadını, həqiqətən, də doğruldurdu. O vaxta qədər Ermənistanda artıq bir azərbaycanlı belə qalmadığı halda Vəzirov Bakıda, respublikanın digər şəhər və rayonla-

rında keçirtdiyi görüşlərdə sarsılmaz xalqlar dostluğundan dəm vururdu.

Ə.VƏZİROV (Azərbaycan KP.MK-nın sabiq birinci katibi): – Çoxları məndən soruşurlar ki, Dağlıq Qarabağ və onun ətrafındakı vəziyyət necə həll olunacaq? Bizim dəst-xəttimiz belədir: biz xalqlarımız arasındakı dostluğu bərpa etmək üçün əlimizdən gələni edəcəyik, münaqişəyə yol verməmək üçün səylərimizi əsirgəməyəcəyik. Biz əsrlər boyu birgə yaşamışıq və yaşayacağıq da. Biz vahid ittifaqdan kənarda həyatı təsəvvür etmirik. Bizim taleyimiz də, düşüncəmiz də, əqidəmiz də birdir. Biz vahid Sosialist Respublikalar birliyini möhkəmləndirmək üçün əlimizdən gələni edəcəyik. Biz yalnız xalqlarımızın birliyi, vəhdəti və beynəlmiləlçiliyi sayəsində yüksəlişə uğurla nail ola bilərik.

*Ermənilərin əhatəsində olan Vəzirovdan Moskvaya, sonra Kremlə keçid edilir. Həyəcanlı musiqinin fonunda kadrlar tez-tez dəyişir.*

MƏTN: – M.S.Qorbaçov və ətrafı başda olmaqla bütün sovet rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsinin həllinə öz münasibəti var idi. Bu problemə yaxından bələd olan, 14 il ərzində Azərbaycana rəhbərlik edən Heydər Əliyev münaqişənin həlli istiqamətində öz xidmətlərini dəfələrlə təklif etsə də, M.S.Qorbaçov bütün vasitələrlə onu münaqişəni nizamlamaq prosesindən uzaqlaşdırır, hadisələrin mərkəzinə özünün seçdiyi adamları gətirirdi. Bu meydanda əsas söz İgityanlara, Balayanlara, Ambarsumovlara verilirdi.

*SSRİ Ali Sovetinin sessiyası ümumi planda verilir. Erməni deputatlar çıxış edirlər.*

– Bildiyimiz kimi, yeganə muxtar vilayət (DQMV) konstitusiyaya zidd olaraq, milli əlamətə görə yox, coğrafi mövqeyə görə adlanır. Məlum olduğu kimi, orada Dağlıq Qarabağlılar adlı millət yoxdur. Orada ermənilər var.

MƏTN: – M.S.Qorbaçovun dəstəklədiyi erməni millətçilərinin bu təzyiqi qarşısında Ə.Vəzirov başda olmaqla Azərbaycanın o vaxtkı bütün rəhbərliyi aciz görünürdü. Onlar yalnız eşidir, itaət edir, əmrlər gözləyirdilər.

*Heydər Əliyev həmin dövrdə (1991-ci il) M.S.Qorbaçova müraciət etməsi ilə bağlı danışır.*

HEYDƏR ƏLİYEV: – Mən bu dövrdə bir neçə dəfə Qorbaçova müraciət etdim, ona öz fikrimi bildirmək istəyirdim. Hər halda mən respublikaya 14 il rəhbərlik etmişəm və 5 il Siyasi Büronun üzvü olmuşam. Yəni, mənim fikrimlə razılaşmaya bilərdi, amma məni dinləmək olardı, axı! Faydalı nəsə götürə bilərdi. O, mənimlə danışmaq istəmirdi. Mən neçə dəfə ona müraciət etdim. O, heç telefonla da mənimlə danışmadı. Onda mən Liqaçova müraciət etdim. O da mənimlə görüşdən qaçdı. Səhər birbaşa MK-ya gəlib, onun qəbul otağında oturdum. Gələndə dedim ki, sizə neçə dəfə zəng vurmuşam, niyə mənimlə əlaqə saxlamırsınız? O məni içəri dəvət etdi. Üç saat onunla danışdım. Mən ona

başa saldım, məsləhət verdim. O isə heç nə qəbul etmirdi. Hesab edirdi ki, məndən də, hamıdan da çox bilir. Bu məsələ ilə bağlı Lukyanov və Razumovski ilə də danışdım, amma heç nə alınmadı. O vaxt hesab edirdilər ki, Əliyev bizə heç nədə kömək eləyə bilməz, biz hər şeyi yaxşı bilirik. Bax, bilə-bilə də bu faciəyə gətirib çıxardılar.

MƏTN: – Azərbaycan xalqının tarixində ən sarsıdıcı hadisələrdən olan 1990-cı il 20 yanvar faciəsi Azərbaycan Kommunist Partiyasının bəzi üzdəniraq xadimlərinin hakimiyyətə gəlmək yolu oldu. Sovetlərin cəza maşını Azərbaycan paytaxtını qan içində boğulan şəhərə çevirmişdi. Hərbi təcavüzün nəticələri insan şüurunu dəhşətə gətirirdi. Bakıda artıq komendant saatı hökm sürürdü. Paytaxt sakinləri yalnız müəyyən vaxt çərçivəsində istədikləri yerə gedib-gələ bilərdilər. Azərbaycanı idarə etmək üçün mərkəzə – Moskvaya daha bir oyuncaq rejim zəruri idi. Bu rejimi həyata keçirmək üçün Moskva özünün yeni qəhrəmanını – yanvar qırğınına bilavasitə şərait yaradanlardan biri olan Ayaz Mütəllibovu seçdi. Bu, Mütəllibova öz adamlarına sədaqəti sübut etmək üçün əlverişli fürsət oldu. Rəsmi Moskvanın Azərbaycanla bağlı proqram xarakterli niyyətləri artıq hazır idi. Və Heydər Əliyevin öz vətəninə qayıdışı bu plana daxil deyildi…

*Naxçıvanın ümumi planları verilir. Musiqinin müşayiəti ilə dinamik kadrlar bir-birini əvəzləyir.*

MƏTN: – Lakin 1990-cı il mayın ortalarında Naxçıvanda o vaxtkı sovet rəhbərliyinin gözləmədiyi və qətiyyən arzulamadığı hadisə baş verir. Naxçıvan Şəhər Partiya Komitəsinin konfransında artıq bütün vəzifələrdən kənarlaşdırılmış Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının XXXII qurultayına nümayəndə seçilir. Bu, nə Mütəllibovun, nə Vaqif Hüseynovun, nə də Moskvanın planlarına uyğun idi. Elə buna görə də Heydər Əliyevi vətənindən, doğma xalqından təcrid etmək üçün yeni üsullara əl atılır… Həmin günlər Heydər Əliyevə göstərilən təzyiqlərin əsas icraçılarından biri Sov.İKP.MK Partiya Nəzarəti Komitəsinin sədri Boris Puqonun hədələri və aldığı cavabları sənədləşdirərək «Naşirin ölümü» kitabında dəqiq əks etdirilib.

*Kadrda kitab göstərilir. Sonra ondan sitatlar verilir.*

BORİS PUQO (Partiya Nəzarəti Komitəsinin sədri): – Sizə qarşı çoxlu material toplanıb. Əgər Bakıya getmək fikrindən əl çəksəniz, bu materialları arxivə göndərəcəyik. Yox, əgər əl çəkməsəniz, onları komitədə müzakirəyə çıxaracağıq.

HEYDƏR ƏLİYEV: – İşiniz xarab olacaq. Baxın, nə günə qalmısınız. Özünüzü partiya işçisi, partiya orqanının rəhbəri kimi yox, jandarm kimi aparırsınız. Siz neçə illərdir ki, ayağımın altını

qazırsınız. Amma sizin bütün materiallar çürük qoza də dəyməz. Mən öz hərəkətlərimə görə hamının qarşısında cavab verməyə hazıram. Məni nahaq qorxudursunuz, bu yolla heç vaxt məqsədinizə çata bilməzsiniz.

MƏTN: – Heydər Əliyev vətənə qayıtmaqda qətiyyətli idi. Artıq heç bir hədə, heç bir qüvvə onu bu qərarından əl çəkməyə məcbur edə bilməzdi. O vaxtkı ağır günlərdə Azərbaycana məhz onun zəngin idarəçilik təcrübəsi, siyasi rəhbər səriştəsi və beynəlxalq nüfuzu gərək idi. Xalqı düçar olduğu faciələrdən yalnız o, xilas eləyə bilərdi. Çünki uzun illər vətəninə sədaqətlə xidmət etmiş bu müdrik insan Azərbaycanda yaranmış şəraitə dərindən bələd idi…

*Puqonun heç bir əsası olmayan hədə-qorxusu puça çıxdıqdan sonra təxminən eyni ssenari ilə Ayaz Mütəllibov da Heydər Əliyevə zəng edir.*

AYAZ MÜTƏLLİBOV: – Heydər Əliyev, gəlin razılaşaq, sizin kimi adamın gəlişinə əsaslı şəkildə hazırlaşmaq lazımdır. Gərək təhlükəsizliyinizi təmin edək, mənzil məsələsinə baxaq.

HEYDƏR ƏLİYEV: – Mənzil vermək istəmirsiniz, lazım deyil, qardaşımın evində qalıram. Ümumiyyətlə, daha sizə inanmıram.

AYAZ MÜTƏLLİBOV: – Niyə?

HEYDƏR ƏLİYEV: – Ona görə ki, beş aydır mənə boş vədlər verirsiniz. Axı, hər şey əlinizdədir. Bu məsələləri bir neçə dəqiqəyə həll etmək mümkündür. Təki istək olsun.

AYAZ MÜTƏLLİBOV: – Yaxşı sizə deməк istəmirdim, amma, indi deyəcəyəm. Puqo mənə zəng vurub dedi ki, Partiya Nəzarəti Komitəsində sizə qarşı xeyli sayda neqativ material toplanıb.

HEYDƏR ƏLİYEV: – Bunu artıq mənə deyiblər.

AYAZ MÜTƏLLİBOV: – Əgər indi qurultaya gəlməsəniz, Puqonu dilə tutaram ki, bu məsələni qaldırmasın.

HEYDƏR ƏLİYEV: – Siz gülməli danışırsınız. Moskvada məni inandırırlar ki, mənim gəlməyimi siz istəmirsiniz, siz də Moskvaya istinad edirsiniz. Materiala gəlincə isə, mən öz xalqım qarşısında təmizəm və hər bir hərəkətimə görə cavab verməyə hazıram.

MƏTN: – Bəli, o, dövlət başçısı kimi öz xalqı qarşısında həqiqətən də alnıaçıq, üzüağ idi. Çünki o, hələ 1982-ci ildə Moskvaya yüksək vəzifəyə yola düşənədək 14 il ərzində Azərbaycanı durğun iqtisadiyyat içində boğulan bir diyardan inşaat meydanını xatırladan, başdan-başa abadlaşan, kənd təsərrüfatı sahəsində ildən-ilə böyük nailiyyətlər qazanan, müasir texnologiya ilə təchiz olunmuş sənayeyə malik, neft və qaz istehsalında ittifaq miqyasında liderliyi ələ alan bir respublikaya çevirmişdi. Məhz onun sayəsində Azərbaycan Sovet Respublikaları arasında dotasiya almayan, öz daxili imkanları hesabına yaşayan ölkə idi. Doğma xalqı, ölkəsi üçün belə nəhəng quruculuq işləri görmüş şəxsiyyətin indi öz vətəninə, doğma torpağına qayıtmasına sədd çəkilirdi.

*Titrlə ekranda «**Azərbaycan Respublikası Statistika Komitəsi**»* sözləri yazılır.

ARAYIŞ:

MƏTN: – Azərbaycan KP.MK-nın birinci katibi Heydər Əliyevin bilavasitə rəhbərliyi, tapşırığı və şəxsi təşəbbüsü ilə respublikada 1969-1982-ci illərdə iqtisadiyyatın inkişafında mühüm əhəmiyyəti olan 173-dən çox sənaye müəssisəsi tikilib. Bakı Məişət Kondisionerləri, «Azon», «Elektrik-hesablama maşınları, Bakı Radioqurașdırma, Sumqayıt kompressorlar, Əli Bayramlı cihazqayırma, Süni gön-dəri, Dərin Özəllər zavodu, Bakıda və Mingəçevirdə iripanelli evtikmə kombinatları, Salyanda plastik kütlə emalı, Mingəçevirdə rezin-texniki məmulatları, Yevlaxda yunun ilkin emalı fabrikləri, Bakıda və Xankəndində ayaqqabı fabrikləri, Lənkəranda və Xaçmazda konserv, Bakıda şampan şərabları, Xırdalanda ət emalı zavodları, çoxlu sayda çörəkbişirmə zavodları və s…

– Neft emalının sürətləndirilməsi məqsədi ilə ölkəmizdə 1976-cı ildo ELOU AVT-6, 1980-ci ildə katalitik-riforminq və neftin kokslaşdırılması kimi nəhəng qurğular inşa edilib.

– Naxçıvan MR-də 13, Bakıda 28, Gəncədə 7, Sumqayıtda 6, Mingəçevirdə 5, Əli Bayramlıda 3 mühüm əhəmiyyəti olan yeni sənaye müəssisəsi tikilib.

– Ümumi sahəsi 19,4 milyon kv. metr yaşayış evləri, 483,4 min şagird üçün ümumtəhsil məktəbləri inşa olunub.

MƏTN: – Öz vətəni və xalqı üçün bu qədər nəhəng iş-

lər görmüş, Azərbaycanı tənəzzüldən yüksəlişə doğru aparmış Heydər Əliyevin Vətənə qayıtmağa tam mənəvi haqqı var idi. Onun dövləti idarə etmək təcrübəsi, təkrarsız rəhbərlik xüsusiyyətləri dəfələrlə səmərəli olduğunu sübut etmişdi. Onu fərqləndirən diqqətəlayiq cəhətlərdən biri də bu idi ki, o, təkcə bu günün problemlərini həll etməklə kifayətlənmir, öz ölkəsinin 15-20 il sonrakı gələcəyini, tərəqqisini düşünür və bu istiqamətdə konkret tədbirlər həyata keçirirdi.

Vətənə və xalqına qırılmaz tellərlə bağlılığın məntiqi nəticəsi idi ki, qarşısında yaradılan bütün süni maneələrə – M.S.Qorbaçov, Ə.Vəzirov, A.Mütəllibov, V.Hüseynov kimi vətən xainlərinin təzyiqlərinə baxmayaraq, Heydər Əliyev öz zəkası, müdrikliyi sayəsində Moskvadan qoparaq, Azərbaycana qayıda bildi.

*Dinamik kadr əvəzlənməsindən sonra Roald Saqdeyev Heydər Əliyevin səciyyəvi xüsusiyyətləri barədə danışır.*

ROALD SAQDEYEV (ABŞ Merliend Universitetinin professoru, akademik): – Məncə qeyri-adi dərəcədə parlaq zəka, siyasi vəziyyətləri incəliklərinə qədər təhlil etmək, interpretasiya vermək bacarığı. Əlbəttə ki, siyasi uzaqgörənlik hissiyyatı da elə bununla əlaqədardır. Mən Heydər Əliyevin əsl vətəndaş cəsarətindən danışmışam: o, bəzi Moskva xadimlərinin təhdidlərinə baxmayaraq, doğma Azərbaycana qayıtdı. Bütün bu məkrli hədələrə məhəl qoymayaraq,

böyük siyasətə qayıdışına Naxçıvandan başladı. Mən bir daha onun təkrarsız keyfiyyəti barədə danışmaq istərdim. Onu SSRİ-nin heç bir digər siyasi rəhbəri ilə müqayisə etmək mümkün deyil. O, Azərbaycanda doğulub, boya-başa çatsa da, rus dilində gözəl və istənilən Kreml rəhbərindən daha yüksək səviyyədə danışırdı.

MƏTN: – Heydər Əliyevin Azərbaycana qayıtmasının qarşısının alınmasının mümkünsüzlüyünü yəqinləşdirdikdən sonra ən eybəcər və dəhşətli terror maşını işə salındı. Həm də bu terror planları vaxtilə Heydər Əliyevin özünün tikib ucaltdığı, bütün gəncliyini həsr etdiyi Respublika Dövlət Təhlükəsizlik Komitəsində hazırlanır və həyata keçirilirdi. Bu yolla ölkənin bir sıra ziyalıları da həmin terrorun qurbanına çevrilirdilər.

*Dövlət Təhlükəsizlik Komitəsinin binası ümumi planda verilir. Kamera Heydər Əliyevə keçid edir.*

HEYDƏR ƏLİYEV: – Bu binanın içində Azərbaycanın milli mənafeyinə zidd olan tədbirlər də həyata keçirilibdir. Mənim əleyhimə tədbirlər də burada həyata keçirilibdir. Bunu yaradan, quran və bu orqanı ayaq üstə qoyan, bunu milliləşdirən, bunu bu günə gətirən adamın əleyhinə buradan tədbirlər başlandı keçirilməyə. Mən Moskvadan bura gəlmək istəyirdim, mənim qarşımı alırdılar. Amma buna baxmayaraq, gizli gələ bildim. Təyyarə bileti aldım. Xəlvət xəbər verdim ki, mən gəlirəm. Heç olmasa, məni qarşılamaq üçün bir maşın olsun. Mən hazırlaş-

mışdım ki, iki gün sonra gələm. Sabahısı gün oğlum bura gəlməli idi. Zəng elədim ki, xəbər verin, oğlum gəlir bura, onu qarşılasınlar. Mənə gecə saat 12, ya 1 idi, dedilər ki, Əjdər Xanbabayevi öldürüblər. Bunlar hamısı istintaqsız, yoxlamasız məlumdur, onu nə üçün öldürüblər. Bunun hamısını buradan təşkil etdilər. Çünki o telefonlara qulaq asanlar da, Əjdər Xanbabayevi izləyənlər də, onu öldürməyi təşkil edənlər də buradan idi. İndi görün, nə qədər dəhşətli hadisələr baş verirdi. Gəncliyimi bura həsr etdiyim, nə qədər burada kadrlar yetişdirdiyim bir binadan mənə qarşı və respublikanın yararlı, dəyərli insanlarına qarşı bu cür terrorlar hazırlanırdı.

MƏTN: – Beləliklə, Heydər Əliyev epopeyasının Moskva dövrü artıq arxada qalırdı. Bütün keşməkeşlərdən sonra öz fərdi keyfiyyətləri, uzaqgörənliyi və zəngin təcrübəsi sayəsində SSRİ paytaxtından uzaqlaşan Heydər Əliyev Bakıya gəldikdən az sonra doğulub boya-başa çatdığı Naxçıvana qayıdır. Xalq öz gələcəyinə, xilasına parlaq inamın ifadəsi kimi tezliklə onu, eyni zamanda həm Azərbaycan Respublikası Ali Sovetinin, həm də Naxçıvan Muxtar Respublikasının deputatı seçdi.

İHSAN DOĞRAMACI (Türkiyə, professor, doktor): – Azərbaycan xalqı, milləti yuxarıların tazyiqlarına aldırmayıb böylə bir övladını bağrına basdı, Maclis azayı tayin etdi.

*Heydər Əliyevin Naxçıvanda qarşılanmasını əks etdirən kadrlar bir-birini əvəz edir və o bu barədə danışır.*

HEYDƏR ƏLİYEV: – Xalq məni mehribanlıqla qarşıladı. Gəlişim şərəfinə çoxminli mitinq keçirildi. Elə Naxçıvan xalqı, eyni zamanda məni həm Azərbaycan Ali Sovetinin, həm də Naxçıvan MR-in deputatı seçdilər. Naxçıvan MR-in Ali Soveti noyabrın 17-də fəaliyyətə başladı. Deputatlar xahiş etdilər ki, Naxçıvan Ali Sovetinin ilk iclaslarına ölkənin nüfuzlu şəxsi kimi mən sədrlik edim. Mən bu təklifi qəbul etdim. Biz ilk iclaslarda çox mühüm qərarlar qəbul etdik. Elə bu qərarları Naxçıvan MR-in suveren hüquqlarına əsaslanaraq, nə rəsmi Moskva, nə də Bakının icazəsi olmadan qəbul edirdik. Əvvəla, biz MR-in adında dəyişiklik elədik. Əvvəllər bu Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlandırılırdı. Biz buradan Sovet Sosialist sözlərini atdıq. Qaldı Naxçıvan Muxtar Respublikası. Daha sonra ali qanunvericilik orqanı Ali Sovet adlanırdıq. Sovet rus sözüdür. Azərbaycanın öz anlayışları var. Sovet bizlərdə Məclis deməkdir. Buna görə də Ali Məclis adlandırdıq. Naxçıvan MR dövlət statusuna malikdir. Amma, onun dövlətçilik rəmzləri – bayrağı, himni yox idi. Biz Naxçıvan MR-in dövlət bayrağını qəbul etdik. Ola bilər ki, bu addımlar çox cəsarətli idi. Çünki sovet dövlətində kiçik bir Muxtar Respublikanın mərkəzdən icazə almadan müstəqil qərarlar qəbul etməsi mümkün deyildi.

MƏTN: – Doğulub boya-başa çatdığı torpaqda xalqın

istəyi və iradəsi ilə yüksək dövlət vəzifəsinə seçilən Heydər Əliyev bu etimada görə qarşısında duran məsuliyyəti və qısa zaman kəsiyində həlli vacib və təxirəsalınmaz vəzifələri aydın təsəvvür edirdi. İlk növbədə nə qədər çətin olsa da, düşmən əhatəsində olan və bütün ətraf aləmlə əlaqəsi kəsilmiş Muxtar Vilayətdə həyatı adi məcraya yönəltmək, xalqa öz inamını qaytarmaq zəruri idi. Heydər Əliyev belə bir mürəkkəb, təzadlı dövrdə Ali Məclisin sədri vəzifəsini icra etməyə başladı və dərhal da müxtəlif ölkələrin siyasi xadimlərinin, diplomatik nümayəndəliklərinin diqqəti Naxçıvana yönəldi. Ali Məclisin binası ən yüksək səviyyəli görüşlərin şahidinə çevrildi.

SÜLEYMAN DƏMİRƏL (Türkiyə Respublikasının 9-cu prezidenti): – Heydər bəy Naxçıvana gəldi. Çox yaxın dostum, kardeşim, arkadaşımdır. Naxçıvanda məclis başqanı oldu. Bu çox önəmli bir hadisə idi. Heydər bəyin öndəki illərdə nə olacağını bilmədən yenidən halqın hizmətinə başlaması fövqəladə önəmlidir. Daha sonra mənə söyləmişdi ki, ben halqıma və ülkəmə hizmətə gəldim. Gəldi, orada da çox güzəl hizmət yapdı.

MƏTN: – O dövrdə Naxçıvan tam blokada şəraitində idi. Ermənistanla bütün sərhəd boyu, xüsusilə, Sədərək istiqamətində qeyri-bərabər döyüşlər, ərzaq qıtlığı Muxtar Respublikanın əhalisini çıxılmaz vəziyyətə salmışdı. Azərbaycan rəhbərliyinin Naxçıvana büsbütün biganə münasibəti bu gərginliyi qat-qat gücləndirdi. Hey-

dər Əliyev məhz bu şəraitdə Muxtar Respublikanın Ali Məclisinin sədri seçilir və vəziyyəti sabitləşdirmək üçün dərhal tədbirlər həyata keçirməyə başlayır. İlk növbədə Naxçıvan əhalisini iqtisadi çətinliklər məngənəsindən qurtarmağa çalışırdı.

*Naxçıvan MR-in 1991-ci il iclaslarından görüntülər verilir. Heydər Əliyev o dövr haqqında danışır.*

HEYDƏR ƏLİYEV: – Biz 1990-cı il yanvar hadisələrinə qiymət verdik. Niyə? Ona görə ki, Naxçıvan Azərbaycanın bir hissəsi idi. Faciədən artıq bir ilə yaxın vaxt keçmişdi, yüzlərlə insan həlak olmuş, yaralanmış, itkin düşmüşdü. Azərbaycan Respublikası və İttifaq hökuməti buna münasibət bildirməmişdi. Bu məsələni müzakirə edib qərar qəbul etdik. Bildirdik ki, bu qanunsuz hərbi aksiya idi, sovet hakimiyyəti tərəfindən Azərbaycana qanunsuz təcavüz idi. Bu faciəyə görə birbaşa Qorbaçov, Sovet İKP.MK Siyasi Bürosu, həmçinin Primakov, Yazov, Bakatin, Girenko, eləcə də Azərbaycanın keçmiş rəhbərliyi – Vəzirov, Mütəllibov, Qafarova, DTK-nın sədri Vaqif Hüseynov, Azərbaycan KP.MK-nın ikinci katibi Polyaniçko məsuliyyət daşıyırlar. Biz bu adamları cəsarətlə yanvar faciəsinin müqəssirləri adlandırdıq. Biz bu qərarı Naxçıvan mətbuatında dərc etdik. Bu respublika rəhbərliyində ciddi əsəbilik yaratdı. Eyni zamanda xalq arasında böyük əks-səda doğurdu və bəyənildi.

MƏTN: – Bəli, 20 Yanvar faciəsinə ilk siyasi qiymət Naxçıvan Ali Məclisində verildi və mətbuatda dərc edilərək dünya ictimaiyyətinə çatdırıldı. Lakin Bakı əhalisi hələ də fövqəladə vəziyyət rejiminin məngənəsində sıxılırdı. Bu rejimin ləğv olunmasının zəruriyyətini də o, kütləvi informasiya vasitələri nümayəndələri ilə görüşlərində dünyaya bəyan etdi.

HEYDƏR ƏLİYEV: – Biz Bakıda fövqəladə vəziyyət elan olunmasını da qanunsuz adlandırdıq və dərhal ləğvini təklif etdik. Azərbaycan rəhbərliyində sual yarandı: axı, Bakıdakı vəziyyətin Naxçıvana nə dəxli ola bilər? Biz, sadəcə, cavab verdik ki, Bakı təkcə şəhər deyil, həm də Azərbaycanın paytaxtıdır. Naxçıvan MR isə Azərbaycanın bir parçasıdır. Biz buna görə də bütün respublikanın, xalqın və paytaxtın taleyinə görə narahatıq.

MƏTN: – Həm Moskvadan, həm də respublika rəhbərliyindən güclü təzyiqlərə baxmayaraq, Heydər Əliyev özünün ən böyük arzusunu – xalqın birliyinə nail olmaqla və mərkəzdən asılı olmayan milli müstəqil dövlət qurmaq arzusunu həyata keçirməyə çalışırdı. Bu istiqamətdə apardığı hər bir təşəbbüsü xalq böyük şövqlə qarşılayır, bu müdrik insana dərin inam və böyük ümidlərlə baxırdı.

*Xronikal kadrlar bir-birini əvəzləyir. Növbəti mətnə keçid edilir.*

MƏTN: – Mütəllibovu əvəz edən AXCP-Müsavat cütlüyü irticanın ağır nəticələrini aradan qal-

dırmaq əvəzinə anarxiya yolunu seçdi. Heydər Əliyevə qarşı mübarizə kampaniyasını gücləndirdi, sui-istifadə yolu ilə Naxçıvanda dövlət çevrilişinə uğursuz cəhd göstərdi. Blokada vəziyyətində olan naxçıvanlıların əsas informasiya mənbəyi olan teleradio şirkəti bərbad vəziyyətə salındı. Bütövlükdə televiziyanın maddi-texniki bazası talan edildi. Çevriliş cəhdində olanlar Daxili İşlər Nazirliyinin binasını da silahlı basqın yolu ilə ələ keçirdilər. Bu toqquşmada xəsarət alanlar da oldu. Silahlar qanunsuz yolla DİN-dən aparıldı. Belə ağır günlərdə Heydər Əliyev o vaxtkı iqtidarın nümayəndələrinə müraciət etdi. Lakin iqtidar susurdu. Bu məqamda Heydər Əliyev Muxtar Respublika radiosu vasitəsilə xalqa müraciət etməli oldu.

*Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin müraciətindən bir parça verilir.*

– Əziz həmvətənlər, əziz radio dinləyiciləri! Mən bu gün radio vasitəsilə bütün Naxçıvan əhalisinə müraciət edib yaranmış vəziyyət haqqında bir neçə kəlmə söz demək istəyirəm.

*Naxçıvanın ümumi panoramından sonra kamera Heydər Əliyevə keçid edir. O, tribunada o vaxtkı hadisələrdən danışır.*

HEYDƏR ƏLİYEV: – Oktyabrın 24-də Naxçıvan MR-in həyatında dəhşətli bir hadisə baş vermişdi. Günortadan sonra Naxçıvan Xalq cəbhəsinin qanunsuz saxlanan silahlı dəstələri (təxminən 200 nəfər silahlı adam) qəflətən DİN-ə soxulmuş, oranı işğal etmişlər. Beləliklə, bunlar qanuna, konstitusiyaya zidd hərəkətləri ilə təxribat aparıb dövlət çevrilişi etməyə cəhd etmişlər. Öz tərəfimdən elan edirəm ki, heç kəs burada özbaşına hərəkət edə bilməz, bunların heç birisinə yol verilməyəcəkdir. Bakıdan təzyiqlər var bizə. Ancaq bu təzyiqlər heç bir nəticə verməyəcəkdir. Naxçıvan xalqı iradəli xalqdır, Naxçıvan əhalisi qəhrəman əhalidir, cəsarətli əhalidir. İndi biz sərhədlərimizi qorumalıyıq, ermənilərin təcavüzündən özümüzü saxlamalıyıq. Bu işlərlə də biz məşğul oluruq. Allaha şükür ki, sərhədlərimizdə indi sabitlik yaranıbdır. Biz camaatı dolandırmalıyıq, qışa hazırlaşmalıyıq. Əgər Xalq cəbhəsi doğurdan da xalq cəbhəsidirsə, xalqın cəbhəsidirsə bu işlərlə məşğul olmalıdır, xalqa bu barədə kömək etməlidir. Ancaq qeyri-qanuni silahlı dəstələri burada saxlayıb (onlara mən terrorist dəstələri deyirəm) camaatı burada qorxutmaq, silah işlətməklə məşğul olmamalıdırlar. Bu silahlı dəstələr ləğv olunmalıdır. Mən Naxçıvan əhalisinə, hər şəhərdə, hər qəsəbədə, hər kənddə yaşayan adamlara müraciət edib deyirəm ki, bu qeyri-qanuni dəstələrə qarşı Naxçıvan xalqı öz iradəsini bildirməlidir. Naxçıvan əhalisi bizim mövqeyimizi müdafiə edəcək,

Naxçıvan əhalisi bir olacaq, öz torpaqlarının bütövlüyünü qoruyacaq, toxunulmazlığını qoruyacaqdır və öz konstitusiya hüquqlarını qoruyacaqdır.

*Heydər Əliyevin çağırışına gələn minlərlə naxçıvanlının toplaşdığı izdihamlı mitinqdən xronikal kadrlar tez-tez dəyişir.*

MƏTN: – Beləliklə, Heydər Əliyevin xalqa arxalanaraq, atdığı qətiyyətli addımlar sayəsində hər tərəfdən təcrid olunmuş Muxtar Respublikanı təhdid edən daha bir təhlükənin qarşısı alındı. Bundan sonra ərzaq və yanacaq cəhətdən böyük ehtiyac içində yaşayan Naxçıvan əhalisini bu böhrandan çıxarmaq istiqamətində tədbirlərə başlandı. Qonşu Türkiyə ilə əməkdaşlıq əlaqələrinin qurulması Heydər Əliyevin öz xalqını, MR-i bu böhrandan qurtarmaq üçün atdığı ilk addımlardan biri oldu.

SÜLEYMAN DƏMİRƏL: – Türkiyə Cümhuriyyətinin baş bakanı olaraq Naxçıvanı ziyarət etdim. Sonra bərabər getdik körpü açdıq. Bu körpü çox gözəl hadisə idi. «Ümid körpüsü» Türkiyə ilə Naxçıvanı daha da yaxınlaşdırdı və biz arkadaşlarımıza daha çox yardımçı olduq. Bu çox önəmli oldu.

MƏTN: – 70 ildən artıq Arazın mənşəyində iki qardaş xalqı bir-birindən ayıran, az qala düşmənə çevirən nifaq səddi beləcə aradan qalxdı, həsrət buzu əriməyə başladı. Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti daha bir parlaq zəfər çaldı. Uzun illər boyu quşun da keçə bilmədiyi

tikanlı məftilləri o taylı, bu taylı türklərin, azərbaycanlıların «Ümid» körpüsü adlandırdıqları yol əvəz etdi. Blokada məngənəsində sıxılan naxçıvanlılar bu yolu həyat körpüsü də adlandırırdılar.

HEYDƏR ƏLİYEV: – Araz nəhrinin o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 ildir ki, bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu günü böyük həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, bizim bu diləklərimiz həyata keçirilibdir. Naxçıvan ilə, Azərbaycan ilə Türkiyəni bağlayan nəhəng bir körpü tikilibdir. Mən sizi bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

*«Ümid» körpüsünün açılış mərasimindən xronikal kadrlar göstərilir. Tədbir iştirakçıları Heydər Əliyevin çıxışını alqışlarla qarşılayırlar. Tribunada Süleyman Dəmirəl görünür. O çıxış edir.*

SÜLEYMAN DƏMİRƏL: – Bu körpünü anlaya bilmək lazımdır. Bunu hamı mütləq bir anlayışla qarşılamalıdır. Bu bir coşqudur, bu bir sevgidir. Araz nəhrinin ayırdığı, yılların ayırdığı, şimdi dövrün dəyişməsi sorası ilə əbədiyyətə qədər qucaqlaşası olan, Türkiyə ilə Azərbaycan, türk millətinin iki ailəsi bir-biri ilə qucaqlışıyor. Bu körpü Avropa ilə Asiyanı, iki ayrı dünyanı bir-birinə bağlayacaqdır. İşdə dəyəri bunda.

MƏTN: – Bu əlamətdar hadisə MR və Türkiyə arasında bütün səviyyələrdə əlaqələrin intensivləş-

məsinə güclü təkan verdi. Bundan sonra Ankaraya səfərə gələn Heydər Əliyevin Türkiyədə keçirdiyi görüşlər və ümumiyyətlə, dost ölkəyə işgüzar səfəri beynəlxalq aləmdə böyük əks-səda doğurdu. Orada Naxçıvan MR-in sədri prezident Turqut Ozalla, baş nazir Süleyman Dəmirəllə səmərəli danışıqlar apardı. Bu görüşlər zamanı imzalanan sənəd isə Naxçıvan əhalisinin ərzaqla təminatı baxımından həyati əhəmiyyət daşıyırdı. Naxçıvan əhalisinin düşdüyü ağır vəziyyətdən qurtarmaq üçün Türkiyə işgüzar səfərinin ilk uğuru böyük rezonans doğurdu. O vaxtkı respublika rəhbərliyinin ümidsiz bölgə kimi əlini üzdüyü və taleyin ixtiyarına buraxdığı Azərbaycanın bu regionu artıq kütləvi informasiya vasitələrinin cazibə mərkəzinə çevrilmişdi. Tanınmış jurnalistlər, beynəlxalq icmalçılar fenomen şəxsiyyətlə görüşə tələsirdilər.

*Heydər Əliyevlə jurnalistlərin görüşündən fraqmentlər göstərilir.*

MÜXBİR: – Salam. Biz sizinlə 1990-cı ilin 20 yanvarında, Moskvada daimi nümayəndəlikdə görüşmüşdük. Sizə Tur Heyerdaldan salam gətirmişdim. Türkiyəyə səfəriniz, Naxçıvanda vəziyyət barədə yeni nə deyə bilərsiniz?

HEYDƏR ƏLİYEV: – Əslində, Naxçıvan MR 1921-ci ildə imzalanmış Qars və Moskva sazişləri əsasında yaranıb. Sənədi imzalayan tərəflərdən biri Türkiyədir. Sazişdə göstərilib ki, Türkiyə

Naxçıvan MR-in qarantıdır. Buna görə Türkiyənin baş naziri Süleyman Dəmirəl bunu dəfələrlə hamıya bəyan edib. Əgər Naxçıvan Respublikasının statusunda dəyişiklik baş verərsə və ya dəyişikliyə cəhd edilərsə, Türkiyənin bu məsələyə qarışmağa hüququ var. Bilirsiniz ki, bu yaxınlarda Osloda NATO üzvü olan ölkələrin Xarici İşlər nazirlərinin iclası keçirilirdi. Yeri gəlmişkən bu iclasa Türkiyənin Xarici İşlər naziri Hikmət Çətin sədrlik edib. Osloya uçmazdan əvvəl, iyunun 2-də mən onunla görüşmüşdüm. Hikmət Çətin qayıtdıqdan sonra NATO-nun iclası haqqında mənə danışdı. Dedi ki, Ermənistanın Azərbaycana, o cümlədən Naxçıvana təcavüzü haqqında məsələ qaldırılıb. Bizim söhbətimizin birinci hissəsi haqqında bunları deyə bilərəm. Zaqafqaziyadakı münaqişələrin həlli məsələsinə gəlincə, bu, çox böyük problemdir və görünür, bunun üçün ətraflı söhbət lazımdır. Hər halda körpüdə söhbətə imkan olmayacaq.

MÜXBİR: – Bir emosional sual: Biz sizi Andropovun dövründə Sov.İKR.MK Siyasi Bürosunun üzvü kimi tanıyırdıq. İndi isə öz tərəfdaşlarınızı NATO blokunda tapırsınız. Bu, sizə emosional baxımdan necə təsir edir?

HEYDƏR ƏLİYEV: – Bilirsinizmi, bu tamamilə təbiidir. Onda biz vahid rejim şəraitində yaşayırdıq. Bəli, mən həqiqətən Sov.İKP.MK Siyasi Bürosunun üzvü olmuşam, Andropovun fəal davamçısı idim. Siz bunu yaxşı xatırlayırsınız. Amma siz 20 yanvarı da xatırlayırsınız. Biz sizinlə yan-

varın 21-də Moskvada daimi nümayəndəlikdə görüşmüşük. Siz mənim çıxışımı yaxşı xatırlayırsınız. Yadınızdadır ki, mən Siyasi Büronu, Qorbaçovun hərəkətini, Azərbaycan xalqına qarşı hərbi təcavüzü törədənləri ittiham etdim. Mən yenə də həmin mövqedəyəm. Yəqin ki, bilirsiniz, sonra mən ərizə yazıb, Kommunist Partiyası sıralarından çıxdım. Mən bu ərizədə partiyadan çıxmağımın bir sıra səbəblərini göstərmişəm. Bu səbəblərdən biri də budur ki, Siyasi Büro 4 ildir ki, Qarabağ məsələsi kimi kiçik bir problemin öhdəsindən gələ bilmir. Onda hansı ittifaqdan söhbət gedə bilər? Başa düşürsünüzmü məsələ necədir? Bu, həyatın dialektikasıdır və dialektik yanaşma məni o yerə gətirib ki, NATO blokuna daxil olan ölkənin Xarici İşlər naziri ilə görüşürəm.

MÜXBİR: – Yekunda qeyd edim ki, H.Əliyev yenə hakimiyyətdədir, M.S.Qorbaçov isə yox.

HEYDƏR ƏLİYEV: – Bax, bu, doğrudur!

MƏTN: – Rəsmi Ankara ilə aparılan danışıqlar şübhəsiz ki, həmin dövrdə Naxçıvan MR-in qarşılaşdığı problemlərin aradan qaldırılması üçün misilsiz əhəmiyyət daşıyırdı. Heydər Əliyev yaxşı bilirdi ki, Türkiyə ilə bağlanan saziş nə qədər uğurlu olsa da, Naxçıvan əhalisinin nicatı üçün bu kifayət deyil. Daha bir sərhəd qonşusu İranla qarşılıqlı əlaqələri bərpa etmək, Araz üzərindən həyat yoluna bənzər ikinci bir körpü salmaq zəruridir. Dost ölkəyə səfəri zamanı bu istiqamətdə danışıqlar aparan Heydər Əliyevi İranın hər bir guşəsində böyük

təntənə ilə qarşılayır, yüksək etimad göstərirdilər. Bu, iki qardaş xalqın bayram təntənəsi, Naxçıvan üçün işıqlı günlərin başlanğıcı idi.

*Körpünün açılışından fraqmentlər və Heydər Əliyevin adamlarla söhbətindən sonra çıxışından bir parça verilir.*

MƏTN: – Artıq qədim Naxçıvan dirçəlir, həyat normal axarına qayıdırdı. Azərbaycana qəlbən bağlı insanlar bu diyarda möcüzələr yaratmağa kimin qadir olduğunu bilir və onunla hər görüşü sonsuz fərəhlə qarşılayırdılar. Belə şəxsiyyətlərdən biri də Bakıda doğulub boya-başa çatmış, uzun illər boyu Heydər Əliyevlə birgə Azərbaycanın tərəqqisi naminə böyük işlər görmüş Nikolay Baybakov idi.

NİKOLAY BAYBAKOV: – Biz uzun illər bir hökumətdə işləmişik. Bu şəxsiyyət Azərbaycan üçün hər kəsdən artıq, qat-qat çox iş gördü. Mən 82 il əvvəl Bakıda anadan olmuşam, 27 il bu şəhərdə yaşamışam, sonra getmişəm, SSRİ neft sənayesi xalq komissarı, naziri vəzifələrində çalışmışam. Həmişə də bilmişəm ki, Azərbaycanda möcüzələr yarada bilən bir insan var. Bu odur. Belə ki, Bakı ona minnətdar olmalıdır. Yadımdadır ki, Bakının o vaxt 300 min əhalisi olardı. İndi isə 2 milyondan çoxdur. O, Azərbaycan üçün çox iş görüb.

*Nikolay Baybakov və Heydər Əliyevin səmimi görüşündən sonra Süleyman Dəmirəl Heydər Əliyevin səciyyəvi xüsusiyyətlərindən danışır.*

SÜLEYMAN DƏMİRƏL: – Siyasətdə yetişmiş kişilər lazım olmayan yerdə çıkış yapmazlar. Sayın Haydar Aliyev Naxçıvana gəldi və burada böyük hizmətlər yapdı. Təlaş göstərmədi. Dərhal Bakıya gedib, Bakıda Azərbaycan idarəçiliyini ələ almaq istəmədi. Halbuki 70-ci yıllarda ən böyük dərəcədə hizmətlər yapdı. Təlaş etmədi. Kəndinə ehtiyac duyulduğu zamanı bəklədi.

MƏTN: – Bu məqam artıq gəlib çatmışdı. Bir tərəfdən erməni təcavüzkarlarının Dağlıq Qarabağda torpaqlarımızı ələ keçirməsi, digər tərəfdən respublika rəhbərliyinin səriştəsizliyi nəticəsində anarxiyanın baş alıb getməsi xalqı Heydər Əliyevə üz tutmağa sövq edirdi. Onun qısa müddət ərzində Naxçıvanı düşdüyü acınacaqlı vəziyyətdən xilas etməsi bütün dünyaya sübut etmişdi ki, respublikanı bu fəlakətdən yalnız o, xilas edə bilər. Uca dağların zirvəsitək pak və təmiz qəlbi vətən eşqi ilə döyünən şəxsiyyət xalqı belə vəziyyətdə heç vaxt darda qoya bilməzdi. Azərbaycan xalqı onun yolunu gözləyirdi…

SON

*2003-cü il*

## AKADEMİK ZƏRİFƏ ƏLİYEVA

*Heykəltəraş Ömər Eldarovun emalatxanası. Ətrafda hazır və yarımçıq işlənmiş heykəllər. Çəkicin aramsız, ritmik taqqıltısı gəlir. Ekranda heykəltəraş Ömər Eldarov akademik Zərifə Əliyevanın abidəsi önündə tamamlama işləri aparır. Tişə abidəyə dəydikcə kadrda Zərifə Əliyevanın gənclik illərini xatırladan foto şəkillər bir-birini əvəz edir. Titr yazılır:*

***Akademik Zərifə Əliyeva***

*Kadrda aparıcı görünür.*

MƏTN: – Azərbaycan xalqının tarixində öyündüyümüz, fəxr etdiyimiz, səcdə etdiyimiz qadınlarımız çoxdur. Belə qadınların adları əbədi olaraq millətimizin yaddaşına həkk olunub. Müasir dövrümüzdə də Azərbaycan qadınının adını uca tutan, ona baş ucalığı gətirən, xalqımızın yaddaşında da əbədi olaraq ölməzlik qazanan qadınlarımız vardır. Zərifə xanım Əliyeva da məhz belə qadınlardandır. O, «Azərbaycan qadını» anlayışını şüurlara həkk elətdirib, şərəfləndirib və ona baş ucalığı gətirib.

*Zərifə Əliyevanın müxtəlif canlı təsvirləri Naxçıvan lövhələri ilə əvəz olunur. Uşaqlıq və gənclik illərini xatırladan canlı təsvirlər və foto şəkillər bir-birini əvəz edir.*

MƏTN: – Görkəmli alim, unudulmaz həkim, ictimai xadim, həssas insan, gözəl ana olan Zərifə xanım – Azərbaycanın ən tanınmış, sayılıb-sevilən nəsillərindən birinə mənsubdur. O, 1923-cü il aprel ayının 28-də Naxçıvanın Şahdağlı kəndində anadan olub. Atası, görkəmli dövlət xadimi, XX əsr Azərbaycan tarixinin ən parlaq simalarından biri olan Əziz Əliyev olduqca ziddiyyətli və çətin bir dövrdə yaşayıb işləmişdir. Buna baxmayaraq, Əziz Əliyev o dövrdə ümumxalq məhəbbətini qazanan, təmiz adını qoruyub saxlayan, millətinə, xalqına sona qədər xidmət edən çox nadir insanlardan biridir. Stalin, Beriya, Bağırov kimi cəllad, qaniçən tiranların caynağından sağ-salamat çıxmaq, nəinki öz canını, yüzlərlə, minlərlə ləyaqətli insanı bu cəlladların mənəviyyata susamış cəza maşınından xilas etmək hər kəsin işi deyildi. 1958-ci ildə Nazim Hikmət Bakıdakı çıxışlarında qeyd etmişdi ki: «37-38-ci illərdə Azərbaycanda 38 min düşünən insan repressiyaya uğrayıb, tutulub, sürgün edilib, güllələnib. Repressiya olunanlar içərisində ən az zərər çəkənlər həkim personalı olub. Əlbəttə, bu ilk növbədə, o dövrlərdə Azərbaycan səhiyyəsini yaradaraq, ona rəhbərlik edən Əziz Əliyevin xidmətləri sayəsində mümkün olmuşdu. Onun xalq arasında qazandığı nüfuz həkimləri cəzadan xilas etməyə imkan vermişdi».

*Ekranda Zərifə Əliyevanın tələbəlik illəri ilə bağlı kadrlar canlanır.*

MƏTN: – Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirərək Tibb Universitetinə daxil olur. O, atasının yolunu davam etdirmək arzusunda idi. Deyilənə görə Zərifə xanımın çox gözəl musiqi duyumu var idi. Hətta uşaqlıqda hamı onun musiqiçi olacağına əmin idi. Lakin bu incə zövqlü, böyük musiqi istedadına malik olan qızcığaz həkim olmağına üstünlük verdi. Əziz Əliyevin həyatına aid olan bir məqam, bəlkə də, Zərifə xanımın sənət seçimindəki mətləblərə aydınlıq gətirə bilər. Hər halda, belə böyük insanların həyatında təsadüfi amillər çox az olur.

*Arxiv sənədləri mətni müşayiət edir.*

MƏTN: – 1937-ci ildə olmuşdu bu hadisə. Əziz Əliyev Naxçıvanın Culfa dairəsindən SSRİ Ali Sovetinə deputatlığa namizəd irəli sürülmüşdü. Və o, seçiciləri ilə görüşmək üçün Naxçıvana gəlir. Bu görüşü Culfa şəhər sakini Həsən İbrahimov belə xatırlayır: «1937-ci ilin noyabr ayı idi. Əziz Əliyevlə görüşə rayonun iri yaşayış məntəqəsi olan Yayıcı və Dizə kəndlərindən, hətta rayon mərkəzi Culfadan da çoxlu seçici gəlmişdi. Alqışlar altında xitabət kürsüsünə qalxan həkim, deputatlığa namizəd Əziz Məmmədkərim oğlu Əliyev alqışlar altında keçdiyi həyat yolundan danışdı. Seçicilərə

minnətdarlıq etdi, sonra çıxışlar oldu. Kənd ağsaqqalı və ziyalılardan olan Bağır Salahov çıxışında hörmətli Əziz həkimə, kəndimizin əhalisinin 95 faizinin traxoma – göz xəstəliyi daşıdığını bildirdi və xahiş etdi ki, xəstəliyin müalicəsində bizə kömək edəsiz. Əziz həkim onu dəftərçəsinə qeyd etdi. Heç 2 ay tamam olmadı ki, Bakıdan kəndimizə göz həkimi gəldi, xəstəxana açıldı, lazımi avadanlıqlar ilə təchiz olundu. Çox keçmədi, yəni 1947-ci ilə qədər kəndimizdə bu xəstəlik tamam ləğv olundu. Buna görə indi də kəndimizdə yaşayan yaşlılar Əziz həkimə rəhmət oxuyur, qəbri nurla dolsun – deyirlər».

*Zərifə Əliyevanın Moskvadakı fəaliyyətini əks etdirən canlı təsvirlər ekranda görünür.*

MƏTN: – Zərifə xanım Əliyeva 1947-ci ildə Tibb Universitetini bitirir və Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçir. Moskvadan qayıtdıqdan sonra, o, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda əmək fəaliyyətinə başlayır. Bir vaxtlar atasının köməkliyi sayəsində Yayıcı kənd sakinləri traxomadan xilas olmuşdularsa, indi respublikamızın əksər rayonlarında geniş yayılan bu xəstəlik ilə mübarizə aparmaq Zərifə xanımın üzərinə düşmüşdü. O, həmkarları ilə birlikdə müxtəlif rayonlara gedərək, əhalinin tezliklə şəfa tapmasına çalışırdı. Bu gərgin əməyi

sayəsində bütün Azərbaycan rayonları 60-cı illərin ortalarında traxomadan tam xilas oldu.

*Zərifə Əliyevanın elmi araşdırmaları, müəllifi olduğu kitablar panoram edilir.*

MƏTN: – Zərifə xanım bir alim-oftalmoloq kimi dünya şöhrəti qazandı. Onun araşdırmaları – 147 elmi əsərdə və 10 monoqrafiyada öz əksini tapır. Zərifə xanımın doktorluq dissertasiyası «Akademik Ovelbax» mükafatına layiq görülüb. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi Zərifə xanım Əliyeva səhiyyənin, tibb elminin inkişafında misilsiz xidmətlər göstərib. Bütün varlığı ilə, canı ilə, qanı ilə əsl ziyalı, görkəmli alim olan Zərifə xanımın həyatda öz prinsipləri, öz ideyaları var idi. Valideynlərinin ailədə yaratdığı mühit, Zərifə xanımın və onun bacı-qardaşlarının böyük insan kimi formalaşmasında mühüm rol oynamışdır. Bu ailənin hər bir üzvü insani keyfiyyətləri mənimsəmiş və onları dəyərləndirməyi bacarmışdır. Çox maraqlı bir məqamı qeyd etmək istərdik. 1952-ci ildə 15 ildən artıq Əziz Əliyevi vurmağa məqam gözləyənlər, nəhayət ki, fürsət əldə etdilər. Əziz Əliyevi ləkələmək üçün bəhanə tapılmışdı. Əsli-nəslindən xəbərsiz olanlar bu böyük şəxsiyyətin öz tərcümeyi-halında əsilzadəliyini, zadəganlığını, guya gizlətdiyini bəhanə edərək onu cəzalandırdılar. Çünki Əziz Əliyevin xalq arasında günü-gündən artan nüfuzu onları vahiməyə salmaya bilməzdi.

Ağır bir dövr idi, elə bir dövr idi ki, əslini dananların cəzasına tuş gələn insandan, nəinki dost-tanışları, hətta ailə üzvləri də üz döndərirdilər. Məmləkəti viran qoyan faşist ideoloqların murdar fəaliyyəti nəticəsində bütün insani dəyərlər ayaqlar altına atılmışdı. Belə dövrdə nəinki özünü, mənliyini, şəxsiyyətini qoruyub saxlamaq, ümumiyyətlə, yaşamaq müşkülə dönmüşdü. Əziz Əliyevin və ailəsinin belə çətinliklərlə rastlaşdığı bir dövrdə, onlar o dövr üçün qəhrəmanlığa bərabər sayılan mərdliklə, kişiliklə rastlaşdılar. Kim bilir taleyin bu qisməti olmasaydı, hadisələr nə cür inkişaf edərdi. Zərifə xanımın tale qisməti ən çətin sınaqdan alnıaçıq, üzüağ çıxaraq, nəinki onun, bütün ailəsinin dayağı oldu. Zərifə xanım həyatını, varlığını dəyişəcək bu böyük şəxsiyyətin timsalında, nəinki itirə biləcəklərini qoruyub saxladı, üstəlik hamıya örnək olacaq bir ocaq da qaladı. Gözəl bir ailə yarandı. Bu əsl Azərbaycan ailəsi idi. Müasir dünyanın bütün mənəvi dəyərlərini özündə cəmləşdirən bu Azərbaycan ailəsinin mayası halallıqla, mərdliklə, isмətlə yoğrulmuşdu.

*Ailə kadrları bir-birini əvəz edir. O, həyat yoldaşı, övladları, nəvələri ilə çox xoşbəxt görünür.*

MƏTN: – Zərifə xanım analığın zirvəsini də fəth edə bilmişdir. O müqəddəs ana obrazının canlı timsalı idi. Əziz Əliyevin qızı Zərifə xanım Vətənə, xalqa olan sevgisini, məhəbbətini öz ailəsində, həyat yoldaşı olan böyük şəxsiyyətin fəaliyyətində əks etdirdi.

*Zərifə Əliyevaya aid sərgi salonunda Zərifə xanımın abidəsinin önündə Heydər Əliyev Ömər Eldarovla söhbət edir.*

HEYDƏR ƏLİYEV: – Çox böyük iş görmüsünüz. Nə qədər incə, nə qədər zərif (üzünü toplaşanlara tutur). Ömər özü çəkicnən, özü bunları görməklə çox əziyyət çəkib. Ömərin bir heykəltəraş kimi xüsusiyyəti ondan ibarətdir ki, o özü həm yaradır, həm də onun fəhləlik işini görür. Həm böyük heykəltəraşdır, həm də çox zəhmətkeş bir fəhlə. Çox nadir bir insandır, çox, həddindən artıq. Bunları, bu incəliklərinə qədər hamısını yonmaq, nə qədər çətin işdir. Bu daşdır, amma baxırsan, elə bil parçadır, amma daşdır – mərmərdir. Mərmərə, daşa bu qədər incəlik vermək böyük məharətdir, böyük ustalıqdır.

*Fəxri xiyaban. Heydər Əliyev Zərifə xanım Əliyevanın məzarı önündə.*

HEYDƏR ƏLİYEV: – Bu gün mənim üçün çox əziz gündür. Eyni zamanda çox qəmli gündür. Bu gün Zərifə xanımın anadan olduğu gündür. Şübhəsiz ki, mənim Zərifə xanım haqqında danışıqlarım, ola bilər, subyektiv xarakter daşısın. Ancaq inanın ki, bir subyektivlik yoxdur. Zərifə xanım birinci mənimçün çox əzizdir mənim ömür yoldaşım kimi, həyat yoldaşım kimi. Və mənim həyatımda, keçdiyim yolda həmişə mənə dayaq olduğuna görə, mənə arxa olduğuna

görə və mənim ailə həyatımı çox xoşbəxt etdiyinə görə. Bilirsiniz ki, mənim həyatım gənc vaxtlarımdan dövlət işi ilə bağlıdır. Bütün həyatımı buna sərf etmişəm. Və bu gün də bu yolda çalışıram. Mənim bu sahədə daima səmərəli, hesab edirəm belə olub, müvəffəqiyyətlə çalışmağımda, şübhəsiz ki, ailə vəziyyətimin həmişə böyük rolu olub. Ailədə mən xoşbəxt olmuşam. Zərifə xanım kimi bir ömür yoldaşı, həyat yoldaşı olduğuna görə və o, mənim ailəmdə çox yüksək səviyyəli mənəviyyat atmosferası, mənəviyyat mühiti yaratdığına görə. Mən həyatımın bütün hissəsini iş ilə məşğul olduğuma görə ayrı məsələlərə fikir verməyə imkanım olmurdu. Amma bunlar hamısı Zərifə xanımın üzərinə düşürdü. Və Zərifə xanım bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirirdi. Zərifə xanım böyük alim olub, mən hələ onunla həyat quranda, o, artıq elm yolunda idi. Mənim ailəmin yaşaması üçün, bu günlərə çatması üçün, övladlarımın tərbiyəsi üçün və mənim həyatımda əvəzsiz olduğu rolu üçün mən bu gün onun məzarı qarşısında baş əyirəm. Mən onu bir dəqiqə də unutmamışam, unutmaram, unutmayacağam. Və mənim övladlarım da bu əhvali-ruhiyyədə tərbiyələniblər, formalaşıblar. Ona görə bu gün bizim üçün müqəddəs bir gündür. Bizim həyatımız, bilirsiniz ki, çox vaxt çətin mərhələlərdən keçibdir. Zərifə xanımın həyatdan köçməsi, bizim üçün böyük bir faciə oldu Moskvada. Onu biz Novodeviçye qəbiristanlığında, o vaxt məni əhatə edən

çox yüksək səviyyəli həmkarlarımla birlikdə dəfn etdik. Ancaq onun öz ana torpağına gəlməsi daima mənim arzum idi. Bu da imkan verdi, buna görə mən taleyimdən həddindən artıq razıyam. Mən Zərifə xanım ilə bir həyat yolu keçdiyimdən özümü xoşbəxt hesab edirəm. Taleyimdən razıyam. Ona görə ki, həyatımda nə qədər ağır dövrlər olubsa, bu qədər də işıqlı dövrlər olub. Və bu işıqlı dövrlərdən biri də odur ki, mən artıq Vətənimə qayıda bilmişəm və mənim qəlbimdə olan arzum, istəyim – Zərifə xanımın cənazəsini öz Vətəninə, öz torpağına gətirib, atası ilə yan-yana torpağa verməyə nail olmuşam. Bu mənim böyük arzum idi, böyük niyyətim idi. O da yerinə yetirildi. Allah onu mənə qismət elədi.

*Fəxri xiyaban. Zərifə Əliyevanın gül-çiçəyə qərq olmuş qəbirüstü abidəsi ön plana keçir. Kadr donur.*

SON

*2003-cü il*

## VAŞİNQTON GÖRÜŞLƏRİ
(21-24 oktyabr 2002-ci il)

### Birinci film

*Milli Məclisin üzvü İlham Əliyevin Vaşinqton səfərindən xronikal kadrlar verilir.*

MƏTN: – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev oktyabrın 21-dən 24-dək Vaşinqtonda işgüzar səfərdə olub.

İlham Əliyev demokratik islahatlar sahəsində zəngin təcrübəsi olan Amerikada siyasi xadimlər, görkəmli alimlər, qeyri hökumət təşkilatlarının rəhbərləri və dövlət rəsmiləri ilə mühüm görüşlər keçirdi, nüfuzlu kütləvi informasiya vasitələrinə geniş müsahibələr verdi.

Millət vəkili, ABŞ-ın vitse-prezidenti Dik Çeyni, Energetika naziri Spenser Abraham, dövlət nazirinin birinci müavini Riçard Armitac, müdafiə nazirinin birinci müavini Pol Vulfovitslə, maliyyə nazirinin birinci müavini Kennet Damla, Ticarət nazirinin birinci müavini Samuel Bodmenlə, senator Çak Hekellə, ABŞ prezidentinin Xəzər diplomatiyası üzrə müşaviri Stiven Menlə, milli təhlükəsizlik məsələləri üzrə müşavirin müavini Stiven Hedli, Senat və Nümayəndələr Palatasının üzvləri, ABŞ-ın tanınmış siyasi xadimləri, əvvəlki hökumətlərin

aparıcı üzvləri, habelə Ümumdünya Bankı və Beynəlxalq Valyuta Fondunun üzvləri, Beynəlxalq Maliyyə Korporasiyasının başçısı Piter Voyçka, Azərbaycan-ABŞ Ticarət Palatasının sədri Tim Keçka ilə böyük əhəmiyyət kəsb edən görüşlər keçirərək, respublikamız üçün çox mühüm məsələləri müzakirə etdi.

*ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin Senat və Nümayəndələr Palatası, eləcə də ABŞ-ın ictimai-siyasi xadimləri ilə müxtəlif görüşlərindən olan kadrlar musiqinin müşayiətilə bir-birini əvəzləyir.*

MƏTN: – Millət vəkili İlham Əliyev məşhur Con Hopkins Universiteti Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunda «Cənubi Qafqaz və Xəzər hövzəsi: Bakıdan baxış» mövzusunda çıxış etdi, «CNN» kimi nüfuzlu televiziya kanalına müsahibə verdi.

İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin dövlətlərarası münasibətlərin, əməkdaşlığın genişləndirilməsində əsas amil olduğunu bir daha göstərdi.

Millət vəkili Ermənistan-Azərbaycan – Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll edilməməsini hər görüşdə xatırlatdı, problemin aradan qaldırılmasında Ermənistanın qeyri-konstruktiv mövqeyinin əsas əngəl olduğunu bir daha amerikalı siyasətçilərin nəzərinə çatdırdı.

İlham Əliyevin Amerika səfəri onun Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətimizin başçısı olaraq, apardığı məqsəd-

yönlü siyasətinin davamı kimi qiymətləndirilir.

İlham Əliyevin ABŞ-a bu dəfəki səfəri Vaşinqton-Bakı münasibətləri sahəsində müşahidə edilən dinamik inkişaf prosesinə daha bir təkan hesab olunur.

*    *    *

MƏTN: – Azərbaycanın xarici siyasətində ABŞ-la münasibətlər mühüm yer tutur. Amerika-Azərbaycan münasibətlərinin sürətlə inkişafı iki ölkə arasında daha sıx əməkdaşlığın yaranmasına şərait yaradır. Siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli əlaqələr məlum 11 sentyabr hadisələrindən sonra daha geniş vüsət alıb. Antiterror əməliyyatında Azərbaycanın ABŞ-a birmənalı olaraq dəstək verməsi, öz növbəsində ABŞ-ın bu münasibəti yüksək qiymətləndirməsi danılmaz faktdır. 907-ci maddənin bir il müddətinə qüvvədən düşməsi, hərbi və təhlükəsizlik sahəsində ABŞ-la əməkdaşlığın dərinləşməsi son vaxtlar Amerika-Azərbaycan münasibətlərinin müsbət mənada yeni müstəviyə keçməsindən xəbər verir. Əlaqələrin möhkəmlənməsində iki ölkənin yüksək vəzifəli şəxslərinin qarşılıqlı səfərləri mühüm rol oynayır. Bu mənada ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin Vaşinqton səfəri Amerika cəmiyyətinin, ABŞ-ın dövlət və siyasi xadimlərinin, qeyri-hökumət təşkilatları rəhbərlərinin, eləcə də nüfuzlu kütləvi informasiya vasitələri nümayəndələrinin böyük marağına sə-

bəb olmuşdu. Bu maraq həm də İlham Əliyevin Amerikada kifayət qədər tanımasından yaranmışdı. Müxtəlif vaxtlarda ayrı-ayrı universitetlərdə, forum və seminarlarda, nüfuzlu dairələrdə oxuduğu mühazirələr, etdiyi çıxışlar İlham Əliyevi Amerika ictimaiyyətinə fəal siyasətçi kimi çoxdan tanıdıb. «Əsrin müqaviləsi» imzalanana qədər millət vəkilinin Amerikada apardığı işlər, işgüzar dairələrdə keçirdiyi görüşlər hamının yadındadır.

*Kadrda Vaşinqtonun ümumi panoramı canlanır. Millət vəkili İlham Əliyevin səfərini əks etdirən xronikal kadrlar efirə verilir.*

MƏTN: – Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev Con Hopkins Universitetinin və Amerika-Azərbaycan Ticarət Palatasının dəvəti ilə oktyabrın 19-da Vaşinqtona gəldi. Səfər müddətində o, mühüm görüşlər keçirdi, qarşılıqlı maraq doğuran məsələlər ətrafında səmərəli müzakirələr apardı.

*Ağ ev iri planda göstərilir. ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev Dik Çeyni ilə görüşür.*

MƏTN: – Oktyabrın 22-də Ağ evdə İlham Əliyev ABŞ-ın vitse-prezidenti Dik Çeyni ilə görüşdü. ABŞ hökumətinin ikinci şəxsi olan cənab Dik Çeyninin ölkəsinin daxili və xarici siyasətində çox böyük rolu var. Belə bir statusa malik

yüksək vəzifəli şəxslə İlham Əliyevin görüşü ölkəmiz üçün vacib, əhəmiyyətli məsələdir. Bu görüş həm də iki dost arasında olan bir görüş idi. Köhnə dostlar – cənab Çeyni və İlham Əliyev əvvəllər keçirdikləri görüşlər haqqında təəssüratlarını yada saldılar. Sonra tərəflər Azərbaycan və Amerika arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi zərurətini vurğuladılar. Vitse-prezident Çeyni Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinə başlanması ilə əlaqədar Azərbaycan hökumətini təbrik etdi. Onun fikrincə, kəmərin təməlinin qoyulması mərasimində ABŞ hökumətinin Energetika naziri Spenser Abraham səviyyəsində təmsil olunması Amerikanın bu layihəyə nə qədər böyük əhəmiyyət verdiyini göstərir.

İlham Əliyev vitse-prezident Çeyniyə Xəzər hövzəsi üzrə layihələrin hazırkı vəziyyəti və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli sahəsində aparılan son danışıqlar barədə məlumat verdi. Cənab Çeyni bildirdi ki, ABŞ münaqişənin tezliklə həll olunması istiqamətində səylərini artıracaq. İlham Əliyev cənab Çeyniyə antiterror mübarizəsində Azərbaycanın bundan sonra da ABŞ-la əməkdaşlıq edəcəyi və ona etibarlı tərəfdaş, dost olacağı haqqında Azərbaycan prezidentinin sözlərini çatdırdı.

*Görüşdən sonra İlham Əliyev Ağ evin qarşısında jurnalistləri maraqlandıran suallara cavab verdi.*

SUAL: – İlham müəllim, görüşünüz necə keçdi?

İLHAM ƏLİYEV (ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili): – Görüş çox yaxşı keçdi. Cənab Dik Çeyni ilə biz tanışıq. Əvvəllər də görüşlərimiz olub. Lakin o, vitse-prezident vəzifəsinə seçiləndən sonra bu ilk görüşümüzdür. Mən çox məmnunam, çox şadam ki, o, vaxt tapıb mənimlə görüşdü. İş qrafikinin sıx olmasına baxmayaraq, onun mənimlə görüşməsi mənim üçün çox şərəfdir. Cənab prezidentə salamlarını göndərdi. Azərbaycandakı vəziyyətlə maraqlandı. Ona hərtərəfli məlumat verdim. İkitərəfli əlaqələr haqqında geniş söhbətlərimiz oldu. Dağlıq Qarabağ münaqişəsi haqqında onu məlumatlandırdım və çatdırdım ki, xalqımız ümid edir ki, ABŞ-ın bilavasitə iştirakı ilə ATƏT-in Minsk qrupu bu məsələ ilə daha ciddi məşğul olacaqdır və beləliklə, problemin həlli üçün ciddi tədbirlər görəcəkdir.

Energetika sektorunda Azərbaycanda baş vermiş son hadisələr: Bakı-Tbilisi-Ceyhan boru xəttinin tikilməsi, digər layihələr haqqında geniş söhbətlər etdik. Cənab Çeyni bu məsələləri çox yaxından bilir, onlarla tanışdır. Keçmişdə də bizim bu məsələlərlə bağlı söhbətlərimiz olub. Və o da çox şaddır ki, Azərbaycan bütün çətinliklərə baxmayaraq, böyük enerji layihələrini həyata keçirə bilir. Və onun olduğunu bildirdi ki, Azərbaycan bütün qarşıda duran məsələlərin öhdəsindən layiqincə gələcək. Mən də onu əmin etdim ki, belə də olacaqdır.

SUAL: – İlham müəllim, Minsk qrupunun həmsədr ölkəsi kimi ABŞ-ın növbəti addımı necə olacaqdır? Bu haqda danışdınızmı?

İLHAM ƏLİYEV: – Bəli, bu haqda söhbətlərimiz olub. Əlbəttə, mən xahiş etdim ki, ABŞ Minsk qrupundakı fəaliyyətini gücləndirsin və Azərbaycan xalqı, ictimaiyyəti Minsk qrupundan mühüm və ədalətli təklif gözləyir. O təklifləri ki, konfliktin həllində bunlar müsbət rol oynasın.

*ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevlə Amerikanın Energetika naziri Spenser Abrahamla görüşündən iri və orta planlar bir-birini əvəz edir.*

MƏTN: – Amerika səfərində millət vəkili İlham Əliyev Amerikanın Energetika naziri Spenser Abrahamla da görüşdü. Millət vəkili Vaşinqtonun yüksək səviyyəli rəsmiləri və xüsusilə də vitse-prezident Dik Çeyni ilə apardığı müzakirələr haqqında nazir Abrahama məlumat verdi. O, etibarlı tərəfdaşlıq xarakteri daşıyan ABŞ-Azərbaycan əlaqələrinin inkişafında cənab Çeyninin göstərdiyi səyləri yüksək qiymətləndirdi. İlham Əliyev qeyd etdi ki, ABŞ administrasiyasının dəstəyi olmadan Azərbaycanda həyata keçirilən enerji layihələrinin gerçəkləşməsi çətin olardı. Nazir Abraham və İlham Əliyev ötən ay iştirak etdikləri Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təqdimat mərasimini məmnuniyyətlə xatırladılar. 2005-ci ildə bu kəmərlə ilk neftin axacağına böyük ümidlər bəslədiklərini bildirdilər.

Tərəflər həmçinin Bakı-Ərzurum qaz layihəsi ilə bağlı vəziyyəti nəzərdən keçirdilər, bu layihənin Azərbaycan qazını tək Türkiyəyə deyil, dünya bazarlarına çatdıracağının əhəmiyyətini qeyd etdilər. ABŞ-ın Energetika naziri Spenser Abraham Amerika tərəfinin ölkəmizlə neft və qaz sektorlarından başqa, digər enerji sahələrində də əməkdaşlıq qurmağa hazır olduğunu bildirdi.

*ABŞ dövlət katibinin birinci müavini Riçard Armitac və ABŞ milli təhlükəsizlik məsələləri üzrə müşavirinin müavini Stiven Hedli ilə ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin işgüzar görüşlərindən müxtəlif kadrlar musiqinin müşayiəti ilə efirə verilir. Sonra mətnə keçid edilir.*

MƏTN: – ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin ABŞ dövlət katibinin birinci müavini, Azərbaycanın dostu Riçard Armitacla və ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşavirinin müavini Stiven Hedli ilə görüşləri də maraqlı və yaddaqalan oldu.

Hər iki görüşdə tərəflər Amerika-Azərbaycan əməkdaşlığına dair geniş fikir mübadiləsi apardılar, əlaqələrin möhkəmləndirilməsi istiqamətində qarşılıqlı səylərin artırılması zərurətini vurğuladılar. ABŞ administrasiyası nümayəndəsi ölkəmizin antiterror mübarizəsində beynəlxalq koalisiyaya yetirdiyi dəstəyin Amerika tərəfindən çox yüksək dəyərləndirildiyini bildirdilər.

Dövlət Departamentində müzakirələr zamanı İlham Əliyev Cənubi Qafqaz və Xəzər regionunda dövlətlərarası münasibətlərdən geniş bəhs etdi. O, Azərbaycan və Rusiya Federasiyası arasında Xəzər dənizinə aid imzalanan razılaşmanı və Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinə başlanmasını regional sabitliyə müsbət təkan verən faktorlar kimi dəyərləndirdi. Millət vəkili onu da qeyd etdi ki, Azərbaycan iqtisadi, sosial və demokratik islahatların həyata keçirilməsində irəliyə addımlar atsa da, ondan asılı olmayan səbəblər bu inkişafı ləngidir. «Ermənistan qeyri-konstruktiv mövqeyindən çəkilmir» deyərək ATƏT-in Minsk qrupunun həmsədr ölkəsinin nümayəndələrinə təəssüfünü ifadə edən millət vəkili Azərbaycanda əhalinin səbr kasasının dolduğunu qeyd etdi. Bununla yanaşı, o, ölkəmizin münaqişənin sülh yolu ilə həlli yollarını aramaqda davam edəcəyini bildirdi.

*Kadrda Pentaqonun binasının ümumi panoramı görünür.*

MƏTN: – Müdafiə və təhlükəsizlik sahəsində Amerika-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi İlham Əliyevin Pentaqonda ABŞ müdafiə nazirinin birinci müavini Pol Vulfovitslə danışıqlarının da əsas mövzusu oldu. Cənab Vulfovits Azərbaycan rəsmisinə ölkəmizin antiterror koalisiyasında etibarlı tərəfdaş kimi iştirakına görə təşəkkürünü bildirdi. Onun fikrincə, Azərbaycan geosiyasi yerləşməsinə görə

Amerika üçün böyük əhəmiyyət kəsb edir. Cənab Vulfovits NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında fəal iştirakımızı məmnuniyyətlə qeyd etdi. Azərbaycan sülhməramlı qüvvələrinin türk batalyonu tərkibində Əfqanıstana getmək niyyətini alqışladı. İlham Əliyev qeyd etdi ki, Azərbaycanın məqsədi hərbi qüvvələrini NATO standartlarına yaxınlaşdırmaqdır. O, ölkəmizin Avro-Atlantik məkana daha çox inteqrasiyasının təmin edilməsində səylərin gücləndiriləcəyini bildirdi. Söhbətin sonunda cənab Vulfovits qeyd etdi ki, ABŞ ikitərəfli müdafiə və təhlükəsizlik əlaqələrini davam etdirəcək və bunun üçün mümkün yardım yetirəcək. O, Azərbaycan prezidenti Heydər Əliyevə ən xoş arzularını çatdırmağı İlham Əliyevdən xahiş etdi.

*Kamera maliyyə qurumları rəhbərlərinin toplaşdığı zala keçid edir. ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin onlarla görüşündən epizodik kadrlar göstərilir.*

MƏTN: – Növbəti görüş ABŞ-ın maliyyə qurumlarının rəhbərləri ilə keçirildi. Azərbaycanın makroiqtisadi göstəriciləri, ölkəmizdə orta və kiçik sahibkarlığın inkişafı millət vəkili İlham Əliyevin Amerikanın maliyyə nazirinin birinci müavini Kennet Damla söhbətinin əsas mövzusu oldu. Kennet Dama ölkəmizin makroiqtisadi göstəriciləri haqqında məlumat verən İlham Əliyev bildirdi ki, son bir ildə ümumi daxili məhsulun artımı 9,9% olmaqla, Azərbaycan

MDB məkanında adambaşına düşən sərmayə qoyuluşu göstəricilərinə görə birinci yeri tutur. İndiyədək neft sektorunda sərmayələr 6 milyard dollar təşkil edir. Gələn 2-3 il ərzində daha 10 milyard dollar sərmayə qoyuluşu gözlənilir. ARDNŞ-in birinci vitse-prezidenti Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına xüsusi əhəmiyyət verildiyini qeyd etdi. Onun sözlərinə görə bu sahədə beynəlxalq maliyyə qurumları ilə iş birliyi mövcuddur. Ölkədə keçirilən özəlləşdirmə prosesi ilə yanaşı, bu qurumlarla birgə əhaliyə mikrokreditlərin verilməsi proqramları həyata keçirilir.

Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün düşmüş insanların durumu haqqında da məlumat çatdıran millət vəkili İlham Əliyev təəssüflə qeyd etdi ki, münaqişə həll olunmadığından bu insanlar neçə ildir ki, ağır şəraitdə yaşayırlar, doğma yurd-yuvalarına qayıda bilmirlər. Azərbaycan tərəfinin bu məsələnin həllində Amerika hökumətinin dəstəyinə ümid bəsləndiyi vurğulandı.

Sonda maliyyə nazirinin müavini Kennet Dam ABŞ-ın Azərbaycanla iqtisadi əlaqələrin inkişaf etdirilməsində çox maraqlı olduğunu bir daha bildirdi.

*Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutundan xronikal kadrlar bir-birini əvəz edir. Millət vəkili İlham Əliyevin instituta gəlişi və burada səmimiyyətlə qarşılanması göstərilir.*

MƏTN: – Oktyabrın 22-də ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev Amerikanın məşhur universitetlərindən olan Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunda «Cənubi Qafqaz və Xəzər hövzəsi: Bakıdan baxış» mövzusunda çıxış etdi.

Qonağı toplaşanlara təqdim edən institutun rəhbəri, tanınmış alim Fredrik Star qeyd etdi ki, bu gün Azərbaycan Mərkəzi Asiya və Qafqazda açıq cəmiyyətli mədəniyyət mərkəzinə və tərəqqi edən dövlətə çevrilmək üçün ən böyük potensiala malikdir. Lakin bütün yeni yaranan müstəqil dövlətlər kimi o da bir sıra çətinliklərlə qarşılaşır. Bu çətinliklərin aradan qaldırılması və ölkənin gələcək inkişafının təmin edilməsi İlham Əliyev kimi gənc liderlərdən asılıdır.

FREDRİK STAR (Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunun sədri) – Hər vaxtınız xeyir, xanımlar və cənablar! Mənim adım Fredrik Stardır. Mən Mərkəzi Asiya və Qafqaz İnstitutunun sədriyəm. Bugünkü proqrama başlamazdan əvvəl istərdim ki, iki məsələni nəzərinizə çatdırım. Sabah o biri binada axşam saat 5-də, 16-19-cu otaqda biz «İslamın iki büruzə forması» adlı proqram keçirəcəyik. Proqram Stiven Şvorsın eyni adlı kitabı ətrafında hazırlanmışdır. Gələcəksinizsə, əvvəlcədən xəbər verin. İkincisi, birbaşa bugünkü mövzu ilə əlaqədar bildirişdir. Mərkəzi Asiya və Qafqaz İnstitutu tezliklə apardığı tədqiqatın qısa nəticələrini çap

etdirəcəkdir. Bir o qədər də qısa deyil. Tədqiqat doktor Svantek Kornelin rəhbərliyi altında keçirilmişdir. Tədqiqat regiona baxış, Cənubi Qafqazda münaqişələr və təhlükəsizlik adını daşıyır. Tezliklə məcmuəni əldə etmək olacaq və bu haqda sizə məlumat verəcəyik. İstərdim ki, hamınızı burada salamlayım: səfir Paşayev, səfir Makaladze, səfir Arazov, səfir Hamarkulov və Mərkəzi Asiya və Qafqazdan olan dostlarımızdan hansınınsa adını çəkmədimsə, üzr istəyirəm. Xoş gəlmisiniz. Bütün bu ölkələrdən heç birinin Azərbaycan qədər regionun mərkəzi ölkəsi kimi aparıcı qüvvəyə çevrilməsi imkanı yoxdur. Lakin bütün gənc dövlətlər kimi Azərbaycan da həqiqi ağlasığmaz çətinliklərlə üzləşir və bu çətinliklər həm daxili, həm də xaricdən gələn çətinliklərdir. Azərbaycanın bu çətinliklər üzərində zəfər çalması və yaxud da geriləməsi ölkədə olan neftin miqdarından deyil, hətta xarici ölkələrlə münasibətlərin yaxınlığından deyil, ölkənin bütün təsisatlarda və bütün təbəqələrdə liderlərinin keyfiyyətindən asılı olacaqdır. Bizim buradakı qonağımız ədalətli olaraq ölkəsinin və regionun yaranmaqda olan yeni nəsil liderlər qrupuna daxildir. O bu qrupun tipik nümayəndəsidir, yeni nəsli təmsil edir. Onun 40 yaşı var. Yaşından göründüyü kimi, həqiqətən gənc nəslin nümayəndəsidir. Çox yaxşı təhsil almışdır. Türk, ingilis, fransız, rus dillərini, öz doğma dili – Azərbaycan dilini bilir. Moskvadakı Beynəlxalq Əlaqələr Universitetinin orada elmi dərəcəsi var. Bir dekada

yarısı müddətində orada dərs deyib. Ölkə müstəqillik qazandıqdan sonra, o, tezliklə özəl bizneslə məşğul olmağa başlamışdır. 1994-cü ildə o, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti təyin olunub. O, ölkənin parlamenti – Milli Məclisin, daha sonra Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini seçilib. O, həm də Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə başçılıq edir. Prezident Buş və keçmiş vitse-prezident Qor kimi bizim bugünkü natiqimizin də atası olduqca məşhur adamdır. Bu ona müəyyən üstünlüklər verməklə yanaşı, müəyyən çətinliklər də törədir. İndiyə qədər əldə etdiyi göstəricilərə görə qiymətləndirsək, mənə elə gəlir ki, o bu çətinliyin öhdəsindən layiqincə gəlir. Mən hətta onun Azərbaycandakı olimpiya hərəkatındakı işinin adını çəkmirəm. Beləliklə, ABŞ-Azərbaycan Ticarət Palatası və Mərkəzi Asiya və Qafqaz İnstitutu adından mən böyük şərəf hissi keçirərək, İlham Əliyevi bu foruma dəvət edirəm.

*Söz ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevə verilir. O, tribunaya qalxır.*

İLHAM ƏLİYEV: – Əziz professor, Star! Əziz xanımlar və cənablar! İlk əvvəl, professor, mən istərdim ki, xoş sözlərə görə Sizə minnətdarlığımı bildirim. Təqdim etməyə görə sağ olun və həm də Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Universitetinə məni dəvət

edib, çıxış etmək imkanı yaratdığınıza görə minnətdarlığımı bildirirəm. Mənim üçün bu böyük şərəfdir. Sizinlə birlikdə olmaq, bizim regiondakı hazırkı vəziyyət və gələcək inkişaf haqqında fikir mübadiləsi aparmaq əhəmiyyətli olacaq. Burada Vaşinqtonda olduğum qısa müddətli səfər ərzində artıq bir sıra görüşlərim olub. Mən vitse-prezident, cənab Çeyni, dövlət katibinin müavini cənab Armitac, milli təhlükəsizlik müşavirin müavini cənab Hedli, tanınmış siyasətçilər, geniş kütlələr üçün tanınan yalnız bu ölkənin gələcək inkişafını deyil, bütün dünyanın gələcək inkişafını müəyyən edən şəxslərlə görüşlərim olub. Dünən cənab Starla görüşdük. Görüşdə cənab Bjezinski, general Skoukroft, keçmiş müdafiə naziri Koen, xanım Olbrayt və bütün digər köhnə dostlarımız iştirak edirdilər. Azərbaycanın bu günü haqqında, ölkənin gələcəkdə nə əldə edəcəyi haqqında danışarkən elə bilirəm ki, keçmişə nəzər salmaq, Azərbaycanın demokratik inkişaf yolunun, tərəqqi, müstəqillik yolunun haradan başlanmasına bir daha qayıtmaq yerinə düşərdi. Azərbaycan yeni müstəqillik qazanmış ölkədir. Cəmi 11 ildir ki, müstəqil ölkə kimi mövcuduq. Buna baxmayaraq, bizim ölkənin uzun keçmişi, böyük mədəniyyəti, ənənələri vardır və biz dünya dəyərlərinə layiqli töhfələr vermişik. Lakin Azərbaycan xalqının layiq olduğu, qazandığı, hər şeydən artıq qiymətləndirdiyi müstəqilliyin ilk günləri bizim üçün çox çətin olmuşdur. Çünki bu zaman ölkədəki vəziyyət

qeyri-sabit idi, tam iqtisadi və siyasi böhran dövrü idi. Hakimiyyət uğrunda mübarizə, toqquşmalar, bir-birilə vuruşan qanunsuz silahlı dəstələr, vətəndaş müharibəsi və əlbəttə ki, Ermənistanın ölkəmizə qarşı irticası, bütün bu faktorlar bizim müstəqilliyimizin ilk illərində üstünlük təşkil edirdi və əlbəttə ki, müstəqil-liyin ilk illərində hökumətin tez-tez dəyişməsi və bacarıqsız rəhbərlik Azərbaycanı fəlakət qarşısına gətirib çıxardı. Separatçı tendensiyalar artmağa, Azərbaycan sadəcə olaraq, hissələrə bölünməyə başladı. Lakin 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra vəziyyət stabilləşdi, bütün qanunsuz silahlı qruplar tərksilah edildi, vətəndaş müharibəsinə son qoyuldu. Ermənistanla müharibə dayandırıldı, atəşkəsə nail olduq və artıq səkkiz ildir ki, heç bir beynəlxalq qurumun müşahidəsi olmadan atəşkəs rejimini qoruyub saxlayırıq. Sonra vəziyyət yaxşılığa doğru dəyişdi. Ölkənin son illərdə iqtisadi artımla bağlı göstəricilərinə nəzər yetirsək, siyasi sabitliyin yaranmasının iqtisadi inkişafa və bugünkü nailiyyətlərin əldə olunmasına nə qədər təsir etdiyini aydın görmək olar. Azərbaycan artıq iqtisadiyyatda böyük göstəricilər əldə etməklə yanaşı, gələcək üçün də böyük potensialı olan ölkə hesab olunur. 1993-cü ildən sonrakı ilk illər Azərbaycanda stabil mühitin yaranmasına həsr olunan dövr idi. Və 1996-cı ildən bu günə qədərki iqtisadi inkişafa nəzər yetirsək, biz görərik ki, Azərbaycan regionda nadir ölkələrdən biridir ki,

son 6 ildə 64 faiz ümumdaxili məhsulun artırılmasına nail olmuşdur. Bu ilin 9 ayında yerli məhsulun artımı 9.5 faiz təşkil etmişdir. Nəzərə alsaq ki, bu göstəricinin 70 faizini dövlət müəssisələrinin yox, özəl sektorun istehsal etdiyi məhsul təşkil edir, qətiyyətlə demək olar ki, bu, ölkədə aparılan geniş miqyaslı özəlləşmənin nəticəsidir. 6 il müddətində inflyasiya ölkəmizdə 2 faizdən yuxarı olmamışdır. Dövlət müəssisələrində işləyənlərin orta əmək haqları 3 dəfə artmışdır. Bu iqtisadi inkişaf davam etməkdədir. Torpaq islahatı uğurla başa çatmışdır. Torpaq əraziləri kəndlilərə verilmişdir. Beləliklə, bu gün kənd təsərrüfatında yalnız şəxsi əmlak mövcuddur. Əlbəttə ki, bir sıra problemlər vardır və xüsusilə də, 11 ilin yarı müddətinin olduqca çətin olduğunu nəzərə alsaq, bütün bu problemlərin həll olunmasını düşünmək sadəlövhlük olardı. Lakin artan dinamika, iqtisadi inkişaf bizim doğru yolda olduğumuzu göstərir. Azərbaycan həm də xarici sərmayələrin, investisiyanın həcminə görə yaxşı göstəricilər əldə etmişdir. Sizə deyə bilərəm ki, keçmiş sovet respublikaları içərisində Azərbaycan uzun müddətdir ki, adambaşına düşən xarici sərmayənin qədərinə görə birinciliyi saxlayır və Şərqi Avropadan da irəlidədir. Bu, yaxşı sərmayə mühitinin yaradılması, açıq qapı siyasətinin aparılması ilə birbaşa bağlıdır. Nəticədə Azərbaycanda yeni iş yerləri yaradıldı, xüsusilə də enerji sektorunda bu proses davam etməkdədir. Beləliklə, əgər biz Azərbaycandakı

iqtisadi vəziyyəti qısaca qiymətləndirsək, görərik ki, böyük tərəqqi əldə olunub, böyük nailiyyət qazanılıb və qarşımızda daha firavan gələcək vardır. Çünki bütün hesablamalar yalnız bizim deyil, xarici maliyyə təsisatlarının da hesablamalarına görə (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq Maliyyə Mərkəzinin apardığı hesablamalar) gələcəkdə Azərbaycan regionun ən firavan və zəngin ölkələrindən birinə çevrilə bilər. Əlbəttə ki, iqtisadiyyatımızın əsas sektoru enerji sektorudur. Bu da təbiidir. Azərbaycan qədim neft istehsalçısıdır. Dünyada ilk dəfə neftin sənaye üsulu ilə çıxarılması Azərbaycanda olmuşdur. Və dünyada ilk dəfə dəniz yataqlarından neft istehsalı da Azərbaycana aiddir. Lakin bunlar sovet dövründən əvvəlki vaxtlar və sovet dövrü vaxtları idi. Sovet dövründə, əlbəttə ki, biz intellektual baxımdan müəyyən irəliləyiş əldə etsək də, neft ehtiyatlarımızın inkişafı üçün nə isə etmək imkanımız olmayıbdır. Ona görə də xarici şirkətləri sahəyə cəlb etmək siyasəti, əsas neft şirkətlərinin cəlb olunması siyasəti özünün uğurlu olduğunu sübuta yetirdi. Bu gün biz neft və qaz sektoruna 10 milyardlarla sərmayə axını gözləyirik. Artıq 6 milyard dollar sərmayə qoyulubdur. Növbəti 3-4 ilə 10 milyard dollar da sərmayə qoyulacaqdır. Bu da ölkəmiz kimi kiçik ölkə üçün böyük göstəricidir. Ən vacibi odur ki, üzərimizə götürdüyümüz bütün layihələr ilk baxışdan kiməsə qeyri-real, fantastik görünürdü. Onların tətbiqi təsəvvür olunmurdu.

Neft inkişafına başladığımız ilk dövrdə çoxlu problemlərimiz, kənardan çoxlu təzyiqlər vardı.

Nəzərə çarpacaq skeptisizm ölkənin özündə də sezilirdi. Bəziləri deyirdi ki, Azərbaycan xarici şirkətləri dəvət etməməlidir, nefti gələcək nəsillərə saxlamalıdır. Lakin neft yalnız istehsal olunarkən və həm də dünya bazarlarına daşınarkən əhəmiyyət kəsb edir. Ona görə də xarici sərmayələrin cəlb olunması siyasəti beynəlxalq maliyyə təsisatları ilə əməkdaşlığımız imkan verdi ki, bu uğurları əldə edək. Yaratdığımız qanunvericilik bazası da köməyimizə çatdı. Hal-hazırda Azərbaycana sərmayə qoyanlar qanun tərəfindən 100 faiz sığortalanıblar. Beynəlxalq şirkətlərlə əldə etdiyimiz bütün razılıqlar parlament tərəfindən ratifikasiyadan keçmişdir. Sonra isə prezident fərmanı ilə imzalanıb qanuna çevrilmişdir. Neft istehsal etmək işin yalnız yarısıdır, satış bazarı tapmaq lazımdır və bu bizim üçün həqiqi problemlər yaradırdı. Azərbaycan bəlkə də neft istehsal edən yeganə ölkədir ki, dünya bazarlarına çıxışı yox idi. Dünya bazarlarına çıxmaq üçün bizə kəmərlər lazım idi. Boru kəmərlərinin tikiləcəyi ərazilər isə sakit ərazilər deyil. Bunlar riskli ərazilərdir. Vaxtaşırı müxtəlif münaqişələrin və toqquşmaların baş verdiyi ərazilərdir. Lakin lap əvvəldən bizim qətiyyətimiz belə olmuşdur ki, Azərbaycan yalnız bir yoldan, bir marşrutdan asılı olmamalıdır. Müxtəlif boru kəmərləri siyasəti bizi bir çox təzyiqlərdən xilas etdi, biz bir boru kəmərindən asılı vəziyyətə düşmədik. Bu gün

neftimiz iki istiqamətdə axır. İki boru kəməri vasitəsilə və əlbəttə ki, əsas boru xətti tikmək ideyası həmişə fikrimizdə, ürəyimizdədir. Fəaliyyətə başladığımız ilk günlərdən onu tətbiq etməyi düşünürük. Bunu etmək elə də asan deyildi, çünki çoxlu sərmayə, çoxlu infrastruktur tələb olunurdu və xoşbəxtik ki, sentyabrın 18-də Bakı-Tbilisi-Ceyhan marşrutunun ilk borusu salındı və əsas ixrac kəmərinin inşası başlandı. Bu yalnız bizim ölkə üçün yeni mənfəət gətirməyəcək, yalnız yeni imkanlar və iş yerləri açmayacaq, ümumilikdə regiona, regiondakı vəziyyətə, regiondakı qüvvələr balansına, regionun təhlükəsizliyinə güclü təsir edəcəkdir. Çünki əvvəl qeyd etdiyim kimi və əlbəttə, sizin bildiyiniz kimi, region münaqişələr regionudur, təəssüf ki, bunlardan biri münaqişə yox, ümumi razılığın olmaması – Xəzər dənizinin statusudur. Bu məsələ bir çox illər boyu həll olunmamışdı. Lakin Azərbaycanın mövqeyi lap əvvəldən aydın idi. Biz elan etdik ki, hər bir sahilyanı ölkə Xəzər dənizinin özünə aid olan sektorunda iş aparmaq hüququna malikdir. Təəssüf ki, 90-cı illərin əvvəllərində və ortalarında Azərbaycanın mövqeyi digər sahilyanı ölkələr tərəfindən dəstəklənməyib. Zaman keçdikcə, Azərbaycan enerji ehtiyatlarının istehsalında uğurlar əldə etdikcə bizim mövqeyimiz möhkəmləndi. Qeyd etməliyəm ki, ABŞ hökumətinin möhkəm dəstəyi də bu məsələnin həllində əhəmiyyətli rol oynadı və bizə mövqeyimizi müdafiə etməkdə çox kömək etdi. Bu gün deyə bilərik ki, bu çox

çətin yolun yarısını keçmişik. Bu gün Azərbaycan Rusiya ilə Azərbaycan arasındakı dəniz sərhədlərini müəyyən edən razılıq imzalayıb. Biz bu addımı çoxtərəfli razılığın əldə olunması ərəfəsində çox vacib hesab edirik. Əminəm ki, Xəzər dənizinin sektorlara bölünməsi baş tutacaq. Lakin bir məsələni də deyə bilərəm ki, bu mövzu gündəliyə çıxdığı gündən hələ də həll olunmamış qalır. Yəni 8 ildir ki, həll olunmayıb. Xoşbəxtlikdən bu, bizi də düzgün hesab etdiyimiz işdən döndərməmişdir və ölkəmizə sərmayə qoyan xarici şirkətlərin qarşısında mAneə olmamışdır. Ənənəvi olaraq neft Azərbaycan üçün spesifik mövzudur. İndi isə müasir Azərbaycan üçün neft güclü iqtisadi vasitədir. Neftdən gələn gəlirlər qeyri-neft infrastrukturu qurmaq imkanı və iqtisadiyyatı rəngarəng etmək vasitəsidir. Bu məqsədlə Azərbaycanda Dövlət Neft Fondu yaranmışdır. Bu da çox mühüm addım idi və beynəlxalq maliyyə qurumları bunu çox bəyəndilər. Xüsusilə də Dünya Bankı və Beynəlxalq Valyuta Fondu. Və xarici şirkətlərlə əməkdaşlığımızdan qazandığımız neft gəlirləri həmin fondda yığılır. Bu şəffaf təşkilatdır. Gəlirlər haqqında məlumat gündəlik çap olunur. Audit xidməti fondun işinə nəzarət edir. İqtisadiyyatın inkişafı üçün biz bu vəsaitdən istifadə edə bilərik. Bir məqamı nəzərinizə çatdırım. Azərbaycan müstəqilliyini qazandığı zaman və müstəqilliyin 2-3 ili ərzində ölkənin heç bir maliyyə ehtiyatı yox idi. Çox çətin bir dövr idi. Bu gün isə Azərbaycanın maliyyə

ehtiyatlarının həcmi 1,3 milyard ABŞ dollarına bərabərdir. Bu da bizim illik büdcəmizin göstəricisindən bir qədər artıqdır. Bu, Azərbaycanın möhkəm, güclü iqtisadi əsasının, onun kifayət qədər ehtiyatlarının olmasının və bu ehtiyatların ölkənin gələcək inkişafı üçün istifadə olunacağına və insanlarımız üçün daha yaxşı həyatın təmin olunacağına dəlalət edir. Əvvəl qeyd etdim ki, belə təəssürat yaratmaq fikrində deyiləm ki, hər şey yaxşıdır, hər şey kamildir. Xeyr, bizim problemlərimiz çoxdur, bizdə işsizlik də var, digər iqtisadi çətinliklər də. Amma bu təbii səbəblərlə şərtlənir. Azərbaycanda və keçmiş SSRİ-nin digər ölkələrində yaranmış köhnə sovet infrastrukturu bu günün tələblərinə cavab vermir. Həmin o nəhəng müəssisələri bərpa etməyin heç bir əhəmiyyəti yoxdur. Sovet İttifaqı dövründə işləyən o müəssisələrin məhsulu üçün bazar yoxdur. Bu günün bazarı yeni texnologiya, müasir məhsullar tələb edir. Və odur ki, köhnə stilli müəssisələr vasitəsilə yeni, müasir məhsul hazırlamaq mümkün deyil. Ona görə də həmin müəssisələrdə işləyən adamlar indi yeni iş yerləri tapmaq çətinliyi ilə üzləşirlər. Bizim ölkəmizin, hökumətimizin əsas məqsədlərindən biri də yeni iş yerləri yaratmaqdır, insanları yaxşı maaş və normal həyat tərzi ilə təmin etməkdir. Təəssüf ki, əlimizdə olan maliyyə imkanları bizə yalnız indiyədək əldə olunanları etmək imkanı verir. Amma inanıram ki, yaxın gələcəkdə insanların həyat tərzində əsaslı artım müşahidə olunacaq.

Çünki biz bu dinamikanı hiss edirik, bu artımı görürük. Azərbaycanı 5 il bundan qabaqkı vəziyyəti ilə müqayisə etmək imkanımız var. Əlbəttə ki, ölkəmizin ərazisinin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması ciddi problemlər doğurur. Azərbaycanla Ermənistan arasında müharibə 1988-ci ildə başlanmışdır. Bu Azərbaycanın Dağlıq Qarabağ ərazisinin üstündə gedən müharibədir və həmin müharibənin nəticəsi kimi bu gün Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edib. Bu işğalın nəticəsi kimi, 1 milyondan artıq azərbaycanlı qaçqın və köçkün vəziyyətə düşmüşdür. Ermənistan yalnız Dağlıq Qarabağ ərazisinin deyil, Dağlıq Qarabağ ərazisindən kənarda yerləşən və ermənilərin heç zaman yaşamadığı daha 7 rayonu işğal etmişdir. Bu işğal davam edir. ATƏT münaqişəni həll etməyə çalışır. Təəssüf ki, məsələ ilə əlaqədar əsaslı nəticə əldə olunmur. Amma Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Azərbaycan xalqı heç zaman öz ölkəsinin ərazi bütövlüyünün pozulması faktı ilə barışmayacaq. İrticaya son qoyulmalıdır. Təəssüf ki, beynəlxalq icma münaqişə ilə bağlı düzgün məlumata malik deyil. Bilmir ki, irticaçı kimdir? İrticanın qurbanı kimdir? Bundan əlavə, müxtəlif ölkələrdəki erməni icmalarının güclü mövqeyi bəzən həmin ölkə hökumətlərini münaqişə ilə bağlı ədalətli, düzgün fikir yürütməkdən də çəkindirir. Çünki aydın görünür ki, erməni ordusu bizim ərazimizi işğal edibdir və artıq çox zamandır ki, həmin bu

faktın beynəlxalq təşkilatların sənədlərində əks etdirilməsinə çalışırıq və heç də həmişə uğur qazana bilmirik. Avropa Şurasının bu yaxınlarda keçirilmiş parlament sessiyasında Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunması faktı tanınmış, qətnaməyə daxil edilmiş və sənəd kimi qəbul olunmuşdur. Biz bu faktı Azərbaycanın böyük nailiyyəti, qələbəsi kimi qiymətləndiririk. Bununla belə xəritəyə sadəcə baxmaqla Ermənistanın ordusunun bizim ərazini işğal etdiyini görmək və buna əmin olmaq olar. Bu problem yalnız bizim üçün gərginlik yaratmır. Bu problem bütün region üçün təhlükəlidir. Çünki Dağlıq Qarabağ Avropada bəlkə də yeganə ləkədir ki, burada beynəlxalq hüquq qaydaları işlənmir, bu qanunsuz ərazidir. Ərazidə beynəlxalq monitorinq keçirilmir, saxlanılan hərbi sursat və avadanlıq heç bir beynəlxalq sənəddə qeydə alınmayıb. Beləliklə, bu Avropada qara ləkədir. Burada qeyri-qanuni fəaliyyət göstərilir. Yerli və beynəlxalq terror təşkilatlarına burada sığınacaq verilir. Ərazidə narkotik bitkilər yetişdirilir və daha sonra həmin narkotik maddələr hərbi sursat və avadanlıq alınması üçün satılır. Bu yalnız Azərbaycan üçün deyil, bütün region üçün təhlükəlidir. Bu qanunsuz əraziyə son qoyulmalıdır. Xüsusilə də, terrorçu təşkilatlarla mübarizə aparılan zamanda bu aktual xarakter daşıyır. Sizə deyə bilərəm ki, erməni terrorçu təşkilatlarının Azərbaycandakı fəaliyyəti nəticəsində iki mindən çox günahsız azərbaycanlı qətlə yetirilmiş, on

minlərlə adam yaralanmışdır. Terror aktları metroda, bərələrdə, avtobuslarda, insanların yığışdığı digər yerlərdə həyata keçirilmişdir. Beləliklə, terror aktlarını yerinə yetirən terrorçular arasında heç bir fərq qoyulmamalıdır. Terrorçu elə terrorçudur. Terrorçuların milləti, dini fərqi olmur. Terror müasir dünya üçün bəladır və beynəlxalq aləm bu bəlaya son qoymaq istəyirsə, bütün ölkələr birləşməli və bu bəlaya qarşı amansız müharibəyə başlamalıdırlar. Mən ümid edirəm ki, beynəlxalq icma (və biz artıq bu məsələdə daha çox anlaşmaya nail oluruq) Ermənistanın Azərbaycana qarşı irticasına son qoymaq üçün qətiyyətli tədbirlər həyata keçirib ədalətli sözünü deyəcək. İrticaçı işğal olunmuş ərazilərdən işğalçı ordunu geri çəkməlidir və bir milyondan artıq azərbaycanlıya öz evlərinə qayıtmaq imkanı yaradılmalıdır. Əlbəttə ki, bu məsələnin həllində Birləşmiş Ştatlar hökumətindən çox şey gözləyirik. Ümid edirik ki, ATƏT-in Minsk qrupu çərçivəsində (Minsk qrupu bu proseslə məşğul olan qurumdur) daha fəal iştirak edəcək və Ermənistanı qoşunlarını geri çəkməyə məcbur edəcək.

Birləşmiş Ştatlar və Azərbaycan arasında əlaqələr yaxşı istiqamətdə inkişaf edir. Uzun müddətdir ki, əməkdaşlıq edirik. Bu əməkdaşlıq illəri dövründə Azərbaycan yalnız sözlə, bəyanatlarla deyil, praktiki addımları ilə sübuta yetirmişdir ki, Amerika Birləşmiş Ştatlarının həqiqi, etibarlı tərəfdaşıdır. Keçmişdə də bu belə olubdur. Biz enerji layihələrimizi inkişaf

etdirmək üçün birgə səylər qoymuşuq. Həyatın digər sahələrində birgə qərarlar qəbul etmişik. Birləşmiş Ştatların bu günlərdə apardığı antiterror əməliyyatlarında əlbir, yaxından işləyirik. Azərbaycan ilk ölkələrdən biri olmuşdur ki, 11 sentyabr dəhşətli terror hadisələri baş verən kimi ABŞ-a öz dəstəyini bildirmiş və Birləşmiş Ştatlarla bir alyansda olduğunu bəyan etmişdir. Bu günədək biz ABŞ-ın keçirdiyi antiterror əməliyyatlarında tam dəstəyimizi əsirgəmirik. ABŞ-ın bu bəlaya qarşı apardığı müharibənin effektiv keçməsi üçün Azərbaycan öz ərazisini və hava məkanını istifadə üçün təklif etmişdir. Bu sahədə əməkdaşlıq gələcəkdə də davam edəcək və Azərbaycan ABŞ-ın dostu və etibarlı tərəfdaşı olaraq qalacaq. Biz artıq öz seçimimizi etmişik.

Gələcəkdə də bizim birgə səylərimiz, birgə əməkdaşlığımız davam edəcək. Beləliklə, biz iqtisadi, siyasi cəhətdən güclü ölkə yaratmaq istəyirik. Buna nail olmaq üçün bizə yaxşı dostlar lazımdır. Vaxtınızı daha çox almaq istəmirəm. Suallara keçməzdən əvvəl bir daha nəzərinizə çatdırmaq istəyirəm ki, Azərbaycan demokratiya prinsiplərinə sadiqdir və bu siyasət gələcəkdə də davam etdiriləcəkdir. Çox sağ olun.

*Millət vəkili İlham Əliyevin məruzəsi alqışlarla qarşılanır. Kamera zala keçid edir.*

FREDRİK STAR: – Çox sağ olun çıxışınıza görə və Sizin səxavətli təklifinizdən mütləq istifadə edəcəyik. Gəlin, suallara keçək. Xahiş edirəm, sual verməkdən ötrü mikrofona yaxınlaşasınız və özünüzü təqdim edəsiniz.

SUAL: – Sağ olun, cənab Əliyev. Mənim adım Əli Əsgərovdur. Bakıda Qafqaz Universitetində dərs deyirəm. Hal-hazırda bir ildən artıqdır ki, burada Amerika universitetində tədqiqat aparıram. İki sualım var: birinci sual, ölkədəki istehsalın neçə faizini neft təşkil edir və Siz düşünmürsünüzmü ki, Azərbaycan iqtisadiyyatı neftdən asılı iqtisadiyyatdır? İkinci sual: müharibə ölkənin işğal olunmuş ərazilərini azad etmək üçün bir vasitə hesab oluna bilərmi? Sağ olun.

İLHAM ƏLİYEV: – Siz də sağ olun. Mən çıxışımda qeyd etmişdim ki, bizim iqtisadiyyatımız neft faktoruna əsaslanıbdır və gələcəkdə də Azərbaycan iqtisadiyyatında neft faktoru dominant rol oynayacaq. Ona görə yox ki, iqtisadiyyatın digər sahələri inkişaf etmir. Ona görə ki, növbəti 3-4 il müddətində Azərbaycanın neftdən götürəcəyi gəlirlər 5-10 dəfə artacaqdır. Eyni zamanda iqtisadiyyatın digər sektorları digər xətt üzrə inkişaf edəcəkdir. Lakin bu artımın da 5-10 dəfə artacağını demək düzgün olmazdı. Mən qeyd etmişdim ki, Azərbaycanda istehsalın 70 faizindən çoxunu qeyri dövlət – özəl sektor təşkil edir. Lakin biz realist olmalıyıq. Neft inkişafı, neft faktoru, bu gün də, üzümüzə gələn bir çox illər boyu da Azərbaycan üçün çox vacib

faktor olacaq və iqtisadiyyatın lokomotivi rolunu oynayacaqdır. İkinci suala gəldikdə isə məncə, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi yolunun axtarışını davam etməlidir. Elə bilirəm ki, bunu etməyə hələ də imkanlar var və elə buna görə də biz hər bir imkandan, hər bir şansdan istifadə etməyə çalışmalıyıq ki, münaqişə sülh yolu ilə həll olunsun. Çünki biz müharibə istəmirik. Kifayət qədər müharibə aparmışıq və biz insanlarımızın ölümünü istəmirik. Lakin, eyni zamanda heç vaxt razı olmarıq ki, ölkəmizin ərazi bütövlüyü pozulsun. Azərbaycan bununla heç vaxt razılaşmaz və əgər bizim ölkəmiz, hökumətimiz görsə ki, bütün sülh yolları necə deyək, işləmir, tükənibdir, onda əlbəttə ki, Azərbaycan ərazilərini azad etməkdən ötrü bütün digər mümkün imkanlardan istifadə edəcək.

SUAL: – Adım Eybrahimdir. Mən Corc Taun universitetində hüquq fakültəsində təhsil alıram. İlk əvvəl sizə çıxışınıza görə minnətdarlığımı bildirmək istəyirəm. Gəlin Azərbaycanda demokratiya haqqında danışaq. Siz demokratiyaya güclü surətdə sadiqsiniz? Mən mətbuatda dolaşan – sizin atanızı əvəz edəcəyiniz barədə fikirləri nəzərinizə çatdırmaq istəyirəm. Növbəti seçkilər nə zaman olacaq? Sağ olun.

İLHAM ƏLİYEV: – Sağ olun. Birincisi, bildirim ki, Azərbaycanda növbəti prezident seçkiləri 2003-cü ildə keçiriləcək və prezident Heydər Əliyev bəyan edib ki, prezident seçkilərində iştirak

edəcək. Bu növbəti 5 il müddətidir. Biz əminik ki, bu seçkilərdə o, əksəriyyətin səsini qazanacaqdır. Çünki o, yalnız bu günün deyil, bütün Azərbaycan tarixinin populyar siyasətçisidir. Amma növbəti prezidentlik dövrü haqqında danışmaq bir qədər vaxtından əvvəldir. Odur ki, 2008-ci ilə qədər gözləyək, sonra görərik. Deyə bilərəm ki, Azərbaycanda və bizim hakimiyyətdə olduğumuz Yeni Azərbaycan Partiyasında tanınmış, savadlı, yaxşı təhsil almış şəxslər vardır ki, onlar da bu imkandan yararlana bilərlər. Ona görə də İlham Əliyev ətrafında fikir cəmləşdirmək lazım deyil. İlham Əliyev yalnız bu komandanın üzvlərindən biridir.

SUAL: – Keçən ay 3 milyard dollarlıq boru kəmərinin tikintisi başlandı. Boru kəmərinin tikintisi üçün nə qədər maliyyə ödənilib və maliyyələşməyən hissəni ARDNŞ və onun tərəfdaşları nə cür doldurmaq fikrindədirlər?

İLHAM ƏLİYEV: – Sağ olun. Bu məsələni biz çox müzakirə etmişik. Çünki biz istəyirdik ki, ARDNŞ boru kəmərinin tikintisində iştirak etməklə yanaşı, layihəyə sərmayə qoysun. Bizim maliyyə imkanlarımız bunu etmək üçün kifayət deyil. Belə məsuliyyəti üzərimizə götürmək çox çətindir, çünki boru kəməri şirkətinin 25 faiz payı ARDNŞ-ə məxsusdur. Bu o deməkdir ki, ARDNŞ təxminən 750 milyon ABŞ dolları vəsait qoymalıdır və onun 30 faizi bərabərləşdirici paylar vasitəsilə qoyulmalıdır. Yəni əvvəlcədən nağd ödənilməlidir. Qalan hissə isə beynəlxalq maliyyə təsisatlarından alınmış borclar vasitə-

silə ödənməlidir. Deyə bilərəm ki, ARDNŞ öz öhdəliyini yerinə yetirir. Təxminən 100 milyon dollar bizim şirkət tərəfindən ödənilib və təxminən 150 milyon dollar növbəti iki ildə ödəniləcəkdir. Beləliklə, ARDNŞ tərəfindən maliyyələşmənin ödənilməsində heç bir problem yoxdur. Biz üzərimizə düşən vəzifəni yerinə yetirəcəyik.

SUAL: – Mən Rusiyanın «İzvestiya» qəzetini təmsil edirəm. Sizin vitse-prezident Çeyni ilə görüşünüz barədə sual vermək istəyirəm. Söhbətinizin əsas mövzusu barədə detalları açıqlaya bilərsinizmi?

İLHAM ƏLİYEV: – Bəli. Biz ikitərəfli münasibətləri müzakirə etdik. Cənab Çeyni regiondakı vəziyyətlə tanışdır. Çünki təcrübəli siyasətçidir. Və regionda hansı proseslərin baş verdiyini bilir. Beləliklə, əsas etibarilə ikitərəfli münasibətlər, gələcək əməkdaşlıq haqqında danışdıq. Azərbaycan və Birləşmiş Ştatlar arasında geniş səpkidə tərəfdaşlıq imkanlarını müzakirə etdik. Və əlbəttə ki, enerji sahəsində əməkdaşlıq da görüşümüzdə müzakirə olundu.

VARTAN BARSEQYAN: – Cənab Əliyevin regionda Dağlıq Qarabağla bağlı bəzi mülahizələri…

İLHAM ƏLİYEV: – Üzr istəyirəm. Sualınız varsa, sual verin, bəyanat verməyin.

VARTAN BARSEQYAN: – Dağlıq Qarabağ qanunsuz ərazi deyil. Onun demokratik yolla seçilmiş funksional hökuməti var və Dağlıq Qarabağa beynəlxalq təşkilatların nümayəndələri səfərə gəlir, o cümlədən ATƏT səfirləri, amerikalı

həmsədr və Azərbaycanın qeyri dövlət təşkilatlarının nümayəndələri. O ki, qaldı Dağlıq Qarabağın ərazisində terrorçuların olmasına, narkotik maddələrin daşınmasına, biz beynəlxalq icmanın bir hissəsiyik və beynəlxalq icma qarşısında üzərimizə düşən öhdəlikləri yerinə yetiririk.

İLHAM ƏLİYEV: – Sizdən xahiş edə bilərəmmi ki, sualınızı verəsiniz?

VARTAN BARSEQYAN: – Bəli. Əvvəlcə bir cümlə də deyim. Bir də ki, Dağlıq Qarabağa və yaxud da ermənilərə qarşı əməliyyatlar aparılacağı ciddi mövzudur.

İLHAM ƏLİYEV: – Xahiş edirəm, suala keçin.

VARTAN BARSEQYAN: – Mənim sözümü kəsməyin. Sualım belədir. Siz sülh danışıqlarını nə cür aparmaq fikrindəsiniz?

İLHAM ƏLİYEV: – Mənə elə gəlir ki, siz burada yaşayırsınız və verdiyiniz bəyanatları digər yerdə verməyə imkanlarınız kifayət qədərdir. Mən sizin dediklərinizə heç şərh vermək fikrində də deyiləm. Çünki siz mövcud olmayan qurumu təmsil edirsiniz. Dağlıq Qarabağ adında respublika yoxdur. Bu ərazini işğal edən banda var. Oradakı hakimiyyət hərbi rejimdir. Onların hamısı cinayət törətmiş şəxslərdir. Terror hadisələri törətmiş şəxslər, terror hadisələri törətmiş adamlardır. Bunların hamısı doğrudurmu?! Bu adamlar Ermənistanla birlikdə Azərbaycanın bir hissəsini işğal etmişlər və bir də deməliyəm ki, siz heç kimi təmsil etmirsiniz. Bəlkə özünüz özünüzü təmsil edirsiz və bəlkə də erməni lobbisini, erməni icmasını. Amma

Dağlıq Qarabağı yox. Bu adda ölkə yoxdur. Münaqişənin sülh yolu ilə həll olunmasını istəyirik. Amma sülh real əsaslara söykənməlidir və sülhün prinsipləri də olduqca sadədir: Azərbaycanın ərazi bütövlüyü. Erməni hərbi qüvvələrinin işğal olunmuş ərazilərdən və Dağlıq Qarabağdan geri çəkilməsi.

SUAL: – Mən Brenda Şafferəm. Harvard Universitetindən. Mənim də sualım Dağlıq Qarabağla bağlıdır. Siz 800 mindən artıq azərbaycanlı qaçqınının olduğunu dilə gətirdiniz. Münaqişənin törətdiyi qaçqınlar, digər münaqişə zonalarında olan qaçqınlardan fərqli olaraq, azərbaycanlı qaçqınlar sakit yaşayır, silah və güclə məsələnin həllinə cəhd etmirlər. Məsələn, bu gün Yaxın Şərqdə 14 adamın ölümü ilə nəticələnən qətl hadisəsi törədilmişdir. Azərbaycanlı qaçqınlar isə özlərinə diqqəti cəlb etməkdən ötrü bu cür hərəkətlərə yol verməmişlər. Lakin beynəlxalq icma onların bu ağır vəziyyətinə fikir vermir, bu çətinliyi tanımır.

İLHAM ƏLİYEV: – Sualınızı verin, xahiş edirəm.

SUAL: – Azərbaycan hökuməti qaçqınların zor işlətmədiyi bir halda beynəlxalq aləmin fikrini bu məsələyə yönəltmək üçün hansı tədbirlərə əl atır?

İLHAM ƏLİYEV: – Çox sağ olun. Siz həqiqətən çox vacib məsələni vurğuladınız. Bir həqiqətdir ki, qaçqınların böyük əksəriyyəti olduqca ağır vəziyyətdə yaşayır. Əraziləri işğal olunub və sizə bundan artıq deyə bilərəm ki, erməni ordusu ümumilikdə 9 min şəhər, kənd, qəsəbə

dağıdıb. Ərazilərdə hər bir şey tar-mar olub. Bu, müharibə, işğal deyil, bu, vandalizm aktıdır. Azərbaycanın işğal olunmuş ərazilərinə vaxtaşırı gələn müşahidəçilər şoka düşürlər. Çünki orada heç bir şey qalmayıb. Hər bir şey yerlə yeksan olunub və yaxud da daşınıb. Bizim qaçqınlarımız böyük dözüm nümayiş etdirirlər. Xüsusilə də qeyd olunmalıdır ki, bu dəhşətli irticaya məruz qalmalarına baxmayaraq, qaçqınlar heç bir qeyri-düzgün hərəkətə yol vermirlər. Biz çalışırıq ki, bütün beynəlxalq aləmin fikrini bu məsələyə cəlb edək. Bunun üzərində möhkəm çalışırıq. Birləşmiş Millətlər Təşkilatından, qaçqınlar üzrə ali komissarlıqdan nümayəndələr dəvət olunur və onların hamısı da deyirlər ki, məsələnin sülh yolu ilə həllinə çalışmaq lazımdır. Bizim problemimiz isə budur ki, erməni lobbisinin Birləşmiş Ştatlarda, Fransada, Rusiyada, digər ölkələrdə fəaliyyəti nəticəsində münaqişə ilə bağlı həqiqət kütlələrdən gizlədilir. Çox hallarda ikili standart siyasəti aparılır. Bununla biz tez-tez üzləşirik. Amma irticaçı irticanın qurbanlarından fərqləndirilməlidir. Azərbaycan fəal surətdə beynəlxalq təşkilatlardan istifadə edir ki, bu həqiqət beynəlxalq arenaya məlum olsun və erməni irticaçıları işğal olunmuş ərazilərdən çəkilsinlər. Bu baş verməsə, gec-tez qarşıdurma başlayacaq. Qarşıdurma istəmirik, amma torpağımızın işğal altında olması ilə də heç vaxt razılaşmarıq.

SUAL: – Mənim adım Marta Bləksouldur. Yell universitetinin qloballaşma üzrə mərkəzindənəm. Sağ olun, cənab Əliyev, bizimlə görüşə gəldiyi-

nizə görə. Mən istərdim ki, neft fondu ilə bağlı sual verim. Bilmirəm, fonddan xərcləməyə başlamısız, ya yox. Xahiş edirəm, cavab verəsiniz? Vəsaiti xərcləmək və əsas prioritetlərlə bağlı strategiyanız necə olacaqdır?

İLHAM ƏLİYEV: – Sağ olun. Hal-hazırda BF və DB fondun vəsaitinin xərclənməsini tənzimləyəcək qanunlar üzərində işləyirik. Lap əvvəldən neft fondunda 650 milyon dollar yığılmışdı. 2 il müddətində bu vəsaitə toxunulmadı. Bu yaxınlarda isə 72 milyon vəsait qaçqınların tələbatı üzrə xərcləndi. Onların həyat şəraitinin yaxşılaşdırılmasına sərf olundu. Bu vəsaitlə yeni şəhərciklər, yeni kəndlər salınır, onların bəziləri artıq tikilib. Bəziləri tikilmə prosesindədir. Qaçqınlar dedikdə, mən Ermənistan qaçqınlarını nəzərdə tuturam. Bu şəhərlər zorla Ermənistandan çıxarılan əhali üçün tikilir. Çünki Ermənistandan Azərbaycana 200 mindən artıq azərbaycanlı qovulmuşdu. Buna əlavə vəsait xərclənirdi. Hökumətin də əsas fikri və məqsədi vəsaiti toplamaq, möhkəm potensial yaratmaq və sonra beynəlxalq maliyyə qurumlarının məsləhətlərinə uyğun olaraq, digər ölkələrin təcrübəsindən çıxış edərək istifadə etməkdir. Biz bilirik ki, bu cür fondlar digər ölkələrdə də olubdur. Norveçdə, Kanadada, Alyaskada, digər yerlərdə də. Hal-hazırda biz onların təcrübəsini öyrənirik ki, vəsait aidiyyəti üzrə xərclənsin. Onun idarəçiliyində şəffaflığa nail olmuşuq. Müntəzəm olaraq neft fondunda toplanan vəsait haqqında məlumat dərc olunur.

Məşhur şirkət Ernest ənd Yanq fondun auditorudur. Bu baxımdan heç bir çətinliyimiz yoxdur. Qarşımızda duran vəzifə vəsaiti çoxaltmaq, gələcəkdə iqtisadiyyatın digər sahələrini inkişaf etdirmək üçün möhkəm əsas qurmaqdır.

SUAL: – Salam, Osman Tad. Amerikalı türklər assosiasiyası fondundanam. İcazə versəydiniz, mən paralellər çəkərdim. Siz dediniz ki, Dağlıq Qarabağ məsələsində əsas problem Azərbaycanın bu problemi dünyaya təqdim edə bilməməsidir. Mən Kiprlə bağlı eyni paraleli çəkə bilərəm. 20 illik tarixə nəzər salsaq və Sizin ölkənin istifadə etdiyi mexanizmlərə diqqət yetirsək, məsələni həll etmək cəhdlərinizə baxsaq, görərik ki, Kipr məsələsində Cənubi Kipr Avropa İttifaqına birləşmək ərəfəsindədir. Buna qarşı bir sıra razılıqların mövcud olmasına baxmayaraq, bir qədər əvvəl cənab Barseqyan da…

İLHAM ƏLİYEV: – Sualınızı verin.

OSMAN TAD: – Dağlıq Qarabağda seçkiyə bənzər nə isə keçirilmişdi və yadınızdadırsa, ABŞ administrasiyası, üzr istəyirəm, konqres orada seçkilərə baxış keçirdi.

İLHAM ƏLİYEV: – Sizin sözünüzü kəsməli olacam. Sualınızı verin.

OSMAN TAD: – Sual belədir. Görürsünüzmü Kipr Avropa İttifaqına birləşir. Və bu, əlbəttə ki, birbaşa müharibəyə gətirib çıxaracaq. Belə bir problem Azərbaycan üçün də xarakterikdir. Azərbaycan müharibəyə hazırdımı? Bu münaqişəni həll etmək yolunda işlənən mexanizmə

etibar edir, inanırsınızmı? İstədiyiniz nəticəni ala biləcəksinizmi?

İLHAM ƏLİYEV: – Biz ən azı buna ümid edirik ki, nəticə əldə olunacaq. Əgər bu mövcuddursa, lap son şansdan da istifadə etməliyik ki, müharibəyə yol verməyək. Əlbəttə ki, burada biz ikili standartlarla üzləşirik. Qanunsuz Dağlıq Qarabağ ərazisinə gedən konqresmenlər, qanunsuz seçilmiş prezidenti təbrik edən konqresmenlər, şübhəsiz, erməni lobbisinin təsiri altındadırlar. Belə deyilsə nəyə görə bu cür hərəkət edirlər? Belə deyilsə niyə gözlərini həqiqətə yumurlar? Doğrunu görməyib konqresdə erməni maraqlarını nə üçün irəli çəkmək istəyirlər? Mən sizə deyə bilərəm ki, Azərbaycan uzun müddətdir ki, ədalətsiz azadlığa dəstək aktının 907-ci maddəsindən əziyyət çəkir. Bu maddə uzun müddət Azərbaycanı Amerikanın iqtisadi yardımındın məhrum etmişdir. Bu qərar konqresdə erməni lobbisinin təsiri nəticəsində qüvvəyə minə bilmişdir və uzun illər boyu biz çalışmışıq ki, maddə qüvvədən salınsın və yalnız bu yaxınlarda maddə qüvvədən salındı. Bu göstərir ki, erməni lobbisi burada təsir qüvvəsinə malikdir. Konqresin qərarına, ictimai fikrə təsir edə bilir, digər sahələrə də təsir edə bilir. Bu bir reallıqdır. Əlbəttə ki, ədalətsizlikdir, amma reallıqdır. Buna qarşı mübarizə aparılmalıdır. Vəziyyətimizi aydın izah etməyə çalışmalıyıq. Hər bir imkan açılanda danışmalıyıq, hər bir görüşdə deməliyik. Beynəlxalq təşkilatların hər bir konfransında mövqeyimizi bildirməliyik.

Mən sizə deyə bilərəm ki, Avropa Şurasında Azərbaycan bu təşkilata üzv olmamışdan qabaq bu məsələ ilə bağlı heç bir müzakirə aparılmamışdır. Üzvlüyə qəbul olunan kimi bu məsələ üzrə möhkəm iş başlandı və il yarım müddətində Avropa Şurası ondan artıq sənəd qəbul etdi: Ermənistanın nüvə stansiyasının tullantılarının işğal olunmuş ərazilərdə basdırılması ilə bağlı, işğal olunmuş ərazilərdə ermənilərin bizim milli mədəniyyət abidələrinin, qəbiristanlıqların dağıdılması ilə bağlı, qaçqınlarla bağlı sənədlər. 907-ci maddəyə səbəb o idi ki, guya Azərbaycan Ermənistanı blokadaya alır. Amma Azərbaycan Ermənistanı blokadaya ala bilməz. İki ölkə arasında kommunikasiyaları açmaqdan ötrü isə ermənilər gərək qoşunlarını işğal olunmuş ərazilərdən çıxartsınlar. Beləliklə, bu qeyri-düzgün, ədalətsiz əlavə 9-10 il müddətində qüvvədə qaldı. Bu gün də tamamilə aradan götürülməyib. Bircə illiyə qüvvədən salınıb. Ona görə də bu yönümdə daha fəal işləməliyik. Münaqişə ilə bağlı hər dəfə imkan düşəndə danışmalıyıq. Çünki bizim dediklərimiz həqiqətdir, ermənilərin dediyi isə yalandır. – Sağ olun, mən bu regionda olmuşam.

İLHAM ƏLİYEV: – Özünüzü təqdim edin.

– Üzr istəyirəm, mənim adım Eybrahimdir. Mən hüquq fakültəsinin tələbəsiyəm.

İLHAM ƏLİYEV: – Geri çəkilin. Yadıma düşdü, siz sual vermişdiniz.

– Amma soruşmaq istəyirdim.

İLHAM ƏLİYEV: – Sual vermək üçün növbəyə dayananlar çoxdur, başqa adamdan xahiş edək.

– Olar.

İLHAM ƏLİYEV: – Yox. Bağışlayın. Çox üzr istəyirəm, sual vermək istəyənlər həddən artıq çoxdur.

SUAL: – Mənim sualım belədir: Xəzəryanı ölkələr hüquqi bazarlarının üzərində işləyirlər, amma Xəzər mövzusu hələ də müzakirə olunur. Maraqlıdır, Xəzərdə sualtı kəmərin tikintisi mümkün olacaqmı? Bu nə dərəcədə reallığa uyğundur?

İLHAM ƏLİYEV: – Hazırda bizim mövqeyimizdə olan ölkələrin sayı artmağa başlayıb. Bu gün Rusiya, Qazaxıstan və Azərbaycan artıq Xəzərin sektorlara bölünməsinə razılaşırlar. Bu çox müsbət haldır. İkitərəfli razılıqlar imzalanıb, bir-iki il bundan əvvəl ikitərəfli razılıqlar yox idi, lakin biz məsələyə həmişə bu cür yanaşmağın tərəfdarı olmuşuq ki, məsələlər ikitərəfli razılıqlar əsnasında həll olunmalıdır və ancaq sonra mövzu çoxtərəfli razılıq obyektinə çevrilə bilər. Təbiidir ki, 5 ölkə arasında razılığa gəlmək iki ölkə arasında razılıq əldə etməkdən daha çətindir. Proses artıq həll olmaq üzrədir, bu gün mövzu ilə bağlı Rusiya və Qazaxıstanla problemimiz yoxdur. Belə razılıqların əldə olunması sualtı boru kəmərinin tikilməsi reallığını da artıracaq. Bu sualtı kəmər Qazaxıstan yataqlarından nefti sualtı boru kəmərləri vasitəsilə Bakı-Ceyhan xəttinə qovuşdurmaq üçün nəzərdə tutulub. Biz bunu çox istərdik. Lakin qərarı biz qəbul edə bilmərik, çünki qərar

Qazaxıstan tərəfindən qəbul olunmalıdır. Amma Qazaxıstan neftinin daşınması üçün biz mümkün şəraiti yaratmağa hazırıq ki, qazax nefti Aralıq dənizinə çıxaraq Beynəlxalq neft bazarlarına çatsın. Biz neft ixracında iki variantın olmasının üstünlüyünü hiss edirik. Borulardan biri Rusiyanın Novorossiysk limanına, digəri isə Gürcüstanın Poti limanına gedir. Alternativlər çox olduqca taariflər də aşağı düşür və sən özün şərt qoyan tərəfə çevrilirsən. Bu, onlar üçün də, bizim üçün də, regionlarımız üçün də yaxşı olar. Amma dənizdibi boru xəttinin çəkilməsinə heç bir maneə, heç bir məhdudiyyət yoxdur.

SUAL: – Devid Akşiaşvili. Təhsil ezamiyyətində Mərkəzi Asiya və Qafqaz İnstitutunda təcrübə keçən alim. Gürcüstandanam. Cənab Əliyev, yaxşı məlumdur ki, lap bu yaxınlaradək, Azərbaycan və Amerika arasında təhlükəsizlik üzrə əməkdaşlıq etmək üçün hüquqi məhdudiyyətlər mövcud idi. Deyə bilərsinizmi ki, hal-hazırda vəziyyət necədir? Azərbaycanda təhlükəsizlik tədbirlərini həyata keçirməklə bağlı nə iş görülür? Və ABŞ-Azərbaycan təhlükəsizlik əməkdaşlığının gələcəyi necədir?

İLHAM ƏLİYEV: – Bəli, bugünkü gündə, təhlükəsizlik sahəsində əməkdaşlığımız üçün heç bir maneə yoxdur, bir neçə il bundan əvvəl Azərbaycan NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramına qoşulub və bu proqram çərçivəsində Azərbaycanda bir sıra işlər görülüb. Və görülmüş işlər hərbi qüvvələrin NATO standartlarına yaxınlaşmasına, inteqrasiyasına çox kömək

edibdir. Bu gün məhdudiyyət yoxdur, çünki indiyədək mövcud olan məhdudiyyətlər aradan götürülüb, əməkdaşlığımız da yaxşıdır. Əvvəl qeyd etdiyim kimi, Azərbaycan-ABŞ-la antiterror əməliyyatlarında əməkdaşlıq edir. Bir neçə gün əvvəl yüksək rütbəli Amerika hərbçisi Azərbaycana gəlmişdi. Azərbaycana hərbi sursat, avadanlıq verilməsi, hərbi təlimatlar keçirilməsi kimi məsələlər müzakirə olunmuşdu. Və bir sıra digər məsələlər üzrə işlərin gedişindən razıyıq, amma şübhəsiz ki, bu sahədə daha çox əməkdaşlığa ehtiyacımız var.

SUAL: – Pədi Himörqs. Avrasiya Fondundan. Mənim üçün maraqlıdır, Beynəlxalq Qeyri-Dövlət Təşkilatlarının boru xəttinin tikilməsinə nə kimi yardımı dəyə bilər?

İLHAM ƏLİYEV: – Mən elə bilirəm ki, onların bəzilərinin yardımı işə tamamilə qarışmamaq olsa, yaxşı olar. Çünki bəzi QDT-lər boru kəmərinin tikilməsinə qarşı bəyanatlar verir və bu bəyanatları hər yerdə yayırlar. Onlar bu mesajı bizə də, sərmayəçilərə də göndəriblər. Beynəlxalq Maliyyə Korporasiyasına, xəttin tikintisinə qrantlar ayıracaq beynəlxalq təşkilatlar və boru xəttinin tikilməsinə qarşı çıxan QDT-ların siyahısına baxsaq, yenidən erməni sifətləri, erməni adlarını görərik. Bəzi başqa adları da… Bundan artıq sizə deyə billərəm ki, 30 konqresmen tərəfindən göndərilən bir məktub da var. Bu ABŞ konqresmenlərinin prezident Buşa göndərdikləri məktub idi və məktubda deyilirdi ki, onlar Bakı-Ceyhanın əleyhinədirlər. Lakin

Bakı-Ceyhan Ermənistandan keçərsə, onlar bunu dəstəkləyərlər. Görürsünüzmü?! Bu, əlbəttə ki, heç vaxt baş tutan şey deyil. İstər ermənilərin xoşuna gəlsin, istər yox. Həqiqətən layihənin həyata keçməsi ilə, ətraf mühitin qorunması ilə maraqlanan QDT-lar varsa, onlar buyurub iştirak etsinlər. Beynəlxalq Maliyyə Korporasiyasının icraçı direktoru ilə bu məsələni müzakirə etdik. Bu gün BMK-nın təqdim edəcəyi məsləhətçi QDT-nın işləməsi üzrə fikir mübadiləsi aparılıb. Belədə prosesin necə davam etdiyini daha yaxşı anlamaq olar. Ətraf mühitin qorunması baxımından bu məsələ ilə bağlı narahatçılığını ifadə edən QDT-nın təklifləri olduqca yararlı olur. Bu məsləhətlər bizə də, Gürcüstana da, Türkiyəyə də çox kömək edir. Səmimi, xoş niyyətlə buyurub işləsinlər. Amma QDT-ı adı altında gizlənib, digər məqsədlərlə gələnlərdən xahiş edirəm ki, çəkilib geri dursunlar.

SUAL: – Şəfəq Mehrəliyeva. Azər.TAc.Cənab Əliyev, işğal olunmuş ərazilərlə bağlı sualım var. Dövlət Departamentinin İnsan Hüquqları ilə bağlı məruzəsində ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilməsi ilə bağlı məlumat var. Bununla bağlı fikriniz?

İLHAM ƏLİYEV: – Əlbəttə ki, bu problemdir. Bizim məlumatımız var ki, ermənilər işğal olunmuş ərazilərdə yerləşdirilirlər. Ermənilərin işğal olunmuş ərazilərdə məskunlaşması barədə məlumat var. Bunu eşidəndə bizdə maraq doğuran sual meydana çıxır. Onlar kifayət qədər erməni tapa bilirlər ki, işğal olunmuş ərazilərdə

yerləşdirsinlər? Çünki biz bilirik ki, Ermənistanın əhalisi azalır. Bu gün bəzi hesablamalara görə 1,8 milyondan artıq əhali Ermənistanda yaşamır. 10-12 il bundan əvvəl əhalisi 150 minə çatan Dağlıq Qarabağ əhalisi bu gün 30 mindən bir az artıqdır. Bizim üçün həqiqətən məlum deyil ki, onlar yeni məskunları hardan tapırlar. Amma əlbəttə ki, narahatlıq doğuran sualdır. Biz buna qarşı səsimizi ucaldacağıq və buna qəti etirazımızı bildiririk.

SUAL: – Adım Murad Səfizadədir. Harvardın Con Kennedi idarəçilik və biznes məktəbinin tələbəsiyəm. İqtisadiyyatla bağlı sualım var. Dediniz ki, son bir neçə ildə Azərbaycan iqtisadiyyatı güclü inkişaf edib. Və iqtisadiyyatı hər sahədə inkişaf etdirməyə ehtiyac var. Bununla bağlı hökumət hansı addımları atır? Və spesifik olaraq Beynəlxalq Valyuta Fondu ilə birlikdə Azərbaycan hansı maliyyələşdirmə layihələri üzərində işləyir?

İLHAM ƏLİYEV: – Biz heç bir spesifik layihəni müzakirə etmirik. Çünki BVF-nin funksiyası bir qədər fərqlidir. Biz layihələri DB ilə işləyirik. Bu yeni infrastruktur yaradılması, su təchizatı, yol tikintisi, təhsil və səhiyyə sahəsində yardım və s. layihələrdir. Lakin BVF ilə bizim işimiz məsləhətləşmələr, təkliflərlə məhdudlaşır. Ümumi proqramlarımız var. Hal-hazırda sizə deyə bilərəm ki, əldə etdiyimiz mənfəətlərin gələcəkdə iqtisadiyyatın çoxsahəliliyi üçün sərf olunması üzrə proqramlar işlənir. Sizə deyə bilərəm ki, hökumət tərəfindən növbəti 10 ilə

Azərbaycan iqtisadi inkişafı proqramı işlənir və praktik olaraq hazırdır. Həmin proqrama bütün əsas elementlər daxildir, xüsusi proyektlərin adı çəkilir. Hansı infrastruktur, hansı fabrik, hansı kənd təsərrüfatı qurğusunun quraşdırılmalı olduğu göstərilir. Bu obyektlər harada tikilməlidir, istehsal olunmuş məhsullar hansı bazara çıxarılacaq, bu proqram əsaslı işlənib. Bunu, əlbəttə, həyata keçirmək üçün əsaslı maliyyə resursları lazım olacaq. Bugünkü gündə Azərbaycan təkbaşına layihələrin öhdəsindən gələ bilməz, amma Azərbaycan bu layihələrin həyata keçirilməsinə pay bölgüsündə iştirakçı kimi fəaliyyət göstərə bilər. Bu və ya digər infrastrukturun yaradılması üçün müəyyən vəsait göstərə bilər. Bu və ya digər infrastrukturun yaradılması üçün müəyyən vəsait qoya bilər. Yəni bu addım potensial sərmayəçidə inam oyatmaq üçün atılır və Azərbaycanın iştirakını təsdiqləyir. Siz bizim kənd təsərrüfatındakı geniş imkanlardan xəbərdarsınız. Gözəl ölkə, xoş iqlim şəraiti, müxtəlif iqlim qurşaqları hamısı xeyrimizə işləyir. İnşaat sahəsində böyük imkanlar var. Neft-kimya məhsulları sahəsində, iqtisadiyyatın digər sahəsində bütün bu layihələr ölkənin ümumi inkişaf layihəsinə daxil ediləcək və maliyyə vəsaitini əldə edən kimi həyata keçirəcəyik.

SUAL: – Mənim adım Arkadi Dubnovdur. «Moskonyus» qəzeti və «Azadlıq» radiosunu təmsil edirəm. Mən bilirəm ki, bir neçə gün əvvəl prezident Əliyev bəyan etdi ki, ATƏT-in Minsk qrupunun Ermənistan və Azərbaycan arasındakı

münaqişənin sülh yolu ilə həll olunmasına verdiyi töhfədən narazıdır. Minsk qrupundan konkret nə istəyə bilərsiniz? Bu 1-ci. 2-ci isə bu münaqişədə Rusiyanın siyasəti haqqında nə deyə bilərsiniz? Sağ olun!

İLHAM ƏLİYEV: – Minsk qrupunun ATƏT-dən mandatı var. Və bu mandatda MQ üzərinə düşən vəzifələr açıq-aydın göstərilib. Həmin mandata əsasən MQ iki ölkə arasında razılıq əldə olunmasını sürətləndirməlidirlər. Lakin biz narazıyıq. Neçə ildir ki, bu münaqişə uzanır. Təkliflər, fikir mübadiləsi, məsləhətləşmələr var, nəticə isə yoxdur. Ona görə də biz Minsk qrupunun işindən razı qala bilmərik. Biz istəyirik ki, MQ münaqişənin sülh yolu ilə həll olunmasını sürətləndirsin. Beynəlxalq hüquq qaydalarının qorunması ilə bunu etsin. Heç qorunması da yox, beynəlxalq hüququn yenidən bərpa olunması ilə. Yəni, bu bizim ölkənin ərazi bütövlüyüdür. Bugünkü gündə MQ-dən savayı başqa mexanizmimiz yoxdur. Ona görə də Minsk qrupunun işindən narazı olsaq da, bilirik ki, bu sülh yolunu sürətləndirmək üçün yeganə strukturdur. Rusiyanın mövqeyi ilə bağlı isə bunu qiymətləndirmək üçün mövzunu gəlin iki yerə bölək: Prezident Yeltsinin dövründəki Rusiyanın mövqeyi prezident Putinin dövründəki Rusiyanın mövqeyindən tamamilə fərqlənir. (Əvvəllər Ermənistana 100 faiz dəstək verilirdisə, əvvəllər rus ordusu ermənilərə hərbi əməliyyatlarda yardım edirdisə, hamıya yəqin aydındır ki, Ermənistan özbaşına bizim əraziləri

işğal etmək gücündə deyildir. Hamıya məlumdur ki, o vaxtı Rusiyadan Ermənistana qeyri-qanuni silah satışı var idi. Bu 1 milyard dollarlıq iş idi. Bu mövzu geniş kütlələrə çatdırıldı və böyük hay-küyə səbəb oldu. Dumada da, hökumətdə də). Amma prezident Putin gələndən sonra hər şey dəyişdi. Bu gün Rusiya Azərbaycanla çox yaxşı münasibət qurub. Çox qısa müddət ərzində biz demək olar ki, bütün problemləri həll etdik. Ölkələrimiz arasında düşmənçilik yoxdur. Əməkdaşlıq edirik. İqtisadi inkişafla bağlı çox vacib sənədlər imzalanıb. Biz təbii qazın Rusiyadan idxalına başladıq. Əvvəlcə işlənməyən, boş qalan Bakı-Novorossiysk marşrutu ilə neft ixracı başladı. Bugünkü gündə 2,5 milyon ton neft Novorossiyskə çatdırılır. Əvvəldə dediyim kimi, Rusiya ilə Xəzər dənizinin sektorlara bölünməsi razılığı imzalamışıq. Bütün bunlar Rusiyanın keçmiş administrasiyası dövrü mümkün olmayacaqdı. İndi Dağlıq Qarabağ münaqişəsində Rusiya balanslı siyasət aparır. Və hiss edirik ki, hər iki tərəfi tələsdirir ki, münaqişənin sülh yolunu tapsınlar.

SUAL: – Sizin hökumətinizi İranda olan azərbaycanlıların insan hüquqlarının pozulması məsələsi narahat edirmi? Və bu mövzu ilə bağlı Azərbaycan hökuməti müvafiq qərarlar qəbul edirmi?

İLHAM ƏLİYEV: – İranla münasibətlərimizdə biz həmişə biri digərinin daxili işlərinə qarışmamaq prinsipindən çıxış edirik. İran öz idarə üsulu olan dövlətdir, Azərbaycan öz idarə üsulu olan dövlət. Tamamilə fərqli cəmiyyətlərdir. Bir-

birimizin işinə qarışmamalıyıq. Amma İranda böyük azərbaycanlı icması yaşayır və bizim onlara qarşı hisslərimiz olmaya bilməz. Təxminən 30 milyon azərbaycanlının gediş-gəlişi intensivdir. Onlar Azərbaycandakı qohumlarına baş çəkməyə gəlirlər. Qohumlar Arazın hər iki tayında yaşayırlar. Mədəni ünsiyyət mövcuddur, amma bu mövzunu siyasi məqsədlər üçün istifadə etmək düzgün olmazdı. Biz və İran müxtəlif dövlətlərik və nə onlar bizim işlərimizə qarışmalıdır, nə də ki, biz onların.

SUAL: – Nərgiz Abbaszadə. «Pörles» hüquq şirkəti. Siz Dağlıq Qarabağdan ətrafda yerləşən 7 işğal olunmuş rayonu dediniz. Mən bildiyimə görə orada heç zaman ermənilər məskunlaşmamışdı. Həmin rayonların təbii sərvətləri ermənilər tərəfindən istifadə olunur. Azərbaycanın bu haqda məlumatı varmı? Sizin bu əraziləri inkişaf etdirməklə bağlı planlarınız, proqramlarınız varmı? Həmin ərazilər azad olunduqdan sonra Azərbaycan hökuməti ölkə ərazisinin təbii sərvətlərinin istifadə olunmasına görə Ermənistanı Beynəlxalq məhkəməyə verməyi düşünürmü?

İLHAM ƏLİYEV: – Bəli, bunu edirik. Düz deyirsiniz ki, Ermənistan həmin əraziləri istifadə edir və xüsusilə bizim ərazilərdən qızıl çıxarılır, üstəgəl əvvəl qeyd etdiyimiz kimi, atom elektrik stansiyalarının tullantıları işğal olunmuş ərazilərdə basdırılır. Gələcəkdə yəqin ki, geniş miqyaslı ekoloji proqram lazım olacaq ki, həmin ərazilər çirkab və tullantıdan təmizlənsin. Lakin mən deyəndə ki, Qarabağ qanunsuz ərazidir,

mən elə bunu nəzərdə tuturdum. Orada beynəlxalq nəzarət yoxdur, beynəlxalq monitorinq keçirilmir, istədiklərini edirlər və elə ona görə də biz tələb edirik ki, buna son qoyulsun. Bu hərbi rejim, qanunsuz, kriminal rejim fəaliyyətini dayandırmalıdır. Beynəlxalq nəzarətçilər, monitorinq qruplar müxtəlif sahələri təmsil edən mütəxəssislər, eləcə də ekologiya üzrə mütəxəssislər təcili olaraq bura gəlməlidirlər və monitorinq keçirməlidirlər.

SUAL: – Etibar Cəfərli. Beynəlxalq Valyuta Fondu. Biz xaricdə yaşayan azərbaycanlılar o ümidlə yaşayırıq ki, Azərbaycan regionun iqtisadi və ticarət mərkəzinə çevriləcək. Bu yönümdə nə kimi tərəqqi əldə olunubdu? İpək yolu layihəsi, eləcə də Qazaxıstan neftinin Azərbaycan ərazisindən daşınması ilə əlaqədar nə kimi irəliləyiş var?

İLHAM ƏLİYEV: – Biz bunun üzərində işləyirik. İndi də Qazaxıstandan və Türkmənistandan neft Azərbaycana gətirilir və Gürcüstan vasitəsilə beynəlxalq bazarlara daşınır. İldə təxminən 6 milyon ton neft bu yolla daşınır. Beləliklə, layihə indi də bu yolla davam olunur. Və biz gözləyirik ki, Qazaxıstandan və Türkmənistandan çıxarılan neft əsaslı surətdə artan zaman iqtisadi və kommersiya baxımından sualtı boru xəttinin tikilməsi xeyirli olacaq. İpək yolu layihəsi də inkişaf etdirilir. Bilirsiniz ki, senator Səm Braunbək bu layihəni təklif etmişdi, biz onun üzərində də işləyirik. Bütün region bu layihəyə qatılıbdı. GUAM ölkələri təşkilatı

Azərbaycan, Özbəkistan, Ukrayna, Gürcüstan, Moldova layihənin fəal iştirakçılarıdır. Azərbaycan artıq regional mərkəzə çevrilmişdir. Və Azərbaycanın iştirakı olmadan İpək yolu şərq-qərb, şimal-cənub nəqliyyat layihələrinin heç biri həyata keçə bilməz. Adı çəkilən şimal-cənub layihəsi də əhəmiyyətli, qiymət baxımından ucuz layihədi. O da bizim ölkənin ərazisindən keçəcəkdir. Beləliklə, fərqi yoxdur, şərqdən qərbə və yaxud şimaldan cənuba, bütün yollar Azərbaycanda kəsişir.

SUAL: – İcazə verin, mən davam edim. Şimal-cənub, qərb-şərq marşrutlarının adını çəkdiniz. Cənub-şərq istiqamətində gələcəyi necə görürsünüz? Türkmənistan və Özbəkistanla münasibətləriniz necədir?

İLHAM ƏLİYEV: – Özbəkistanla münasibətlərimiz yaxşıdır, ölkəmizdə səfirlikləri var. Nümayəndə heyətləri gəlib-gedir, ticarət əlaqələrimiz çox deyil, amma münasibətlər yaxşıdır. Özbəkistan dost ölkədir. Türkmənistanla münasibətlərə gəldikdə isə əlaqələrin səviyyəsindən razı deyilik, çünki Türkmənistanın bizim neft yataqlarına ədalətsiz iddiaları var. Onların iddiasına görə bizim yataqlar onlara məxsusdur. Bu isə belə deyil. Bunu yalnız biz demirik, həmin yataqlara milyardlarla dollar sərmayə qoyan xarici şirkətlər də deyirlər. İndi istəyirlər ki, biz o yataqları onlara verək. Bu da nonsensdir. Çünki öz yataqlarımızı onlara necə verə bilərik? Aydın deyil. Xüsusilə də nəzərə alsaq ki, həmin yataqlar indi xarici şirkətlərlə birgə bizim

tərəfimizdən işlənir. Təəssüf ki, bu yaxınlarda Türkmənistan Azərbaycanda olan səfirliyini bağladı. Buna təəssüf edirik. Amma ümid edirik ki, bu ölkə ilə münasibətlər düzələcək. Biz istərdik ki, lap tez düzəlsin. Aramızda bir dəniz və strukturlar var. Yataq da yox, struktur. O strukturları da biz onlara təklif etmişik ki, birgə işləyək. Bu strukturlar aramızdakı dəniz sərhəddində yerləşib. Biz təklif etmişik ki, Azərbaycanla Türkmənistan arasında birgə müəssisə yaradan potensial sərmayəçiləri dəvət edək və neft istehsalına başlayaq. Təəssüf ki, indiyədək Türkmənistan tərəfindən bir cavab almamışıq.

SUAL: – Svetlana Tonik. Yeni Açıq Cəmiyyət İnstitutu. Mənim sualım Azərbaycandakı demokratiya haqqındadır. Dövlət sirləri haqqında fərman barədə nə deyə bilərsiniz? Bu fərman jurnalistlərin yazdıqları bir sıra mövzulara məhdudiyyətlər qoyur, jurnalistlərin üzərinə artıq təhlükəsizlik məsuliyyəti qoyur və jurnalistlərdən tələb edir ki, yeni mənbələr axtarıb tapsınlar. Bununla əlaqədar nə deyə bilərsiniz?

İLHAM ƏLİYEV: – Bəli. Mən sizə deyə bilərəm ki, Azərbaycanda tam mətbuat azadlığı mövcuddur. Senzura yoxdur. 1992-ci ilədək Azərbaycan hökuməti senzura tətbiq etmişdir. Bu ləğv olunub. 500-dən artıq qəzet var ölkədə. Onlardan yalnız 3-4-ü iqtidar qəzetləridir, qalanları hamısı siyasi partiyalara, müxalifətə, müstəqil qruplara məxsusdur. Onlar da istədiklərini yaza bilirlər. Kimi istəsələr, tənqid edə bilərlər. Sözün tam mənasında

fikirlərini ifadə etmək üçün tam azadlıq mövcuddur. 30-dan artıq regional və paytaxt televiziya və radio stansiyaları fəaliyyət göstərir. Onlar da müstəqil fikirlərini ifadə etməkdə azaddırlar. Siyasi həyatın bütün spektrləri haqqında mövqelərini bildirirlər. Ölkədə danışıq azadlığı, ifadə azadlığı mövcuddur. Əminliklə sizə deyirəm ki, Azərbaycan 100 faiz azad ölkədir. Sizin dediyiniz qanuna gəldikdə, belə bir qanunverici təşəbbüs var, amma təsdiqlənməyib. Və mən əminəm ki, təklif olunan bu qanuna müəyyən modifikasiya olunacaq. Mən sizi əmin edirəm ki, Azərbaycanda mətbuat azadlığına bundan xələl yetməyəcək.

FREDRİK STAR: – İki suala da vaxtımız var. Buyurun.

SUAL: – Mən erməni assambleyasını təmsil edirəm. Avro pa Şurasının azadlığa buraxılmasını tələb etdiyi siyasi məhbuslarla bağlı nə deyə bilərsiniz? Bu mövzu haqqında o qədər çox danışırlar ki, həqiqətdə istərdik ki, müsbət bir şey eşidək.

İLHAM ƏLİYEV: – Birincisi, Azərbaycanda siyasi məhbus yoxdur və türmələrdə olan adamlar konkret cinayətlər törədiblər, onların içərisində terrorçular da var, təyyarə qaçıranlar da, digər tipli adamlar var. Terrorçuluqla, separatçılıqla məşğul olan adamlar siyasi məhbus hesab oluna bilməzlər. Amma bizdən fərqli olaraq, Ermənistanda siyasi opponentlər, sadəcə olaraq, qətlə yetirilirlər. Parlamentdə, zindanda. Bunu hamı bilir. Hamı bilir ki, siyasi opponentlər Ermənistanda necə qətlə yetirilir. Buna görə də sizə məsləhət görürəm ki, təşəbbüslə çıxış edib belə mövzu qaldırmayasız.

Çünki belə söhbətlər sizin xeyrinizə işləmir.

SUAL: – Riçard Ovin. «Geoloji axtarış». Ermənistanla əməkdaşlıq haqqında nə düşünürsünüz? Dağlıq Qarabağ məsələsi həll olunarsa, hansı sahədə Ermənistanla əməkdaşlıq edə bilərsiniz?

İLHAM ƏLİYEV: – Sualınıza görə çox sağ olun. Hiss edirəm ki, mövzunu çox yaxşı anlayırsınız. Çünki dediniz ki, Dağlıq Qarabağ münaqişəsi həll olunduqdan sonra. Bunu nəyə görə deyirəm, çünki Ermənistan beynəlxalq icmanı inandırmağa çalışır ki, onlar Azərbaycanla iqtisadi əməkdaşlıq etmək istəyirlər, Azərbaycansa bunu etmək istəmir. Və bu, doğrudan da, belədir. Biz ərazilərimizi işğal edən irticaçı ilə iqtisadi əməkdaşlıq edə bilmərik. Dəfələrlə bizim hökumətimiz bəyan edib ki, işğalçı, irticaçı, işğal olunmuş ərazilərdən ordusunu geri çəkməyincə heç bir iqtisadi əməkdaşlıqdan söz gedə bilməz. Bu mövqe dəyişilməz qalır. Sonra Ermənistan cəmiyyəti və həmin o cəmiyyəti idarə edənlər başa düşəndən sonrakı iqtisadi əməkdaşlıq olmadan ölkə mövcud ola bilməz, bunun haqqında danışa bilərik. Nə vaxta qədər onlar xaricdən gələn yardımın hesabına dolanacaqlar. Normal halda bu onların mənliyinə toxunmalıdır. Həmişə kiminsə yardımı ilə dolanmaq olmaz. Özləri nə isə etməlidirlər. Heç olmasa özlərinə sübut etməyin xatirinə ki, özləri də nə isə edə bilirlər. Amma işğal olunmuş ərazilərdən geri çəkildikdən sonra, kommunikasiyalar açılandan sonra Ermənistanla müxtəlif sahələrdə əməkdaşlıq edə bilərik, müxalif sektorlarda işləyərik. Sizə deyim ki, Azərbaycan elə bunsuz da, bu əməkdaşlıq olmadan da digər ölkələrlə əmək-

daşlıq edir. Amma onların özünə bu əməkdaşlıq lazımdırsa, onlarla əməkdaşlıq edərik.

FREDRİK STAR: – İlk əvvəl çox sağ olun. Bizə dinləmək imkanı verdiyinizə görə sağ olun. Sağ olun ki, dözümlük nümayiş etdirdiniz. Çünki çoxları bəlkə də sizin eşitmək istəmədiyiniz sualları verdilər və səxavətinizdən istifadə edib mümkün qədər çox adama imkan verdik. Buna görə sağ olun. Tamamlayaraq demək istəyirəm ki, siz vəziyyəti bizə gözəl izah etdiniz, ölkəniz bir çox cəbhədə çətinliklərlə üz-üzə gəlir. Bunlardan biri də Qarabağ məsələsidir. Hamıya yəqin aydındır ki, ölkənin ümumi inkişaf prosesi necə gedirsə getsin, bu mövzu gündəlikdən çıxarıla bilməz və indi bilinir ki, burada müzakirə olunan bir sıra məsələlər öz həllini tapdıqca bu münaqişə də həll olunacaqdır. Elə bilirəm ki, elə bu, həm ermənilərin mövqeyinə, onların maraqlarına, eləcə də azərbaycanlılarınkına cavabdır. Elə bilirəm sizin çıxışınızın da əsas istiqaməti o idi ki, bu məsələnin həlli vaxtı çatıb. Dünyanı narahat edən problemlər çoxdur, amma bu münaqişənin həlli də daha çox aktuallaşmağa başlayıb. Gəl ümid edək ki, bu məsələyə kifayət qədər fikir veriləcək və bu məsələ həll olunacaq. Tərəflər sülh və əmin-amanlıq şəraitində yaşayacaqlar. Siz bizə Azərbaycanın yalnız qonşuları ilə deyil, bütün dünya ilə olan hərtərəfli münasibətləri haqqında danışdınız. Dediniz ki, Azərbaycanın inteqrasiyası vacib xarakter daşıyır. Bu artıq çox dəbdəbəli bir sözə çevrilibdir. Hər halda Vaşinqtonda bu sözü həmişə işlədirlər və inteqrasiya yalnız Azərbaycan üçün deyil,

müstəqilliyini yenicə qazanmış digər ölkələr üçün də əhəmiyyətlidir. Hamı sizə bununla bağlı uğurlar arzulayır. Bizim hamımız sizə bu gün bizimlə olmağa görə, geniş səpkidə olan mövzularla bağlı fikirlərinizi bölüşdürdüyünüzə görə minnətdarıq. Dostumuz səfir Paşayevə şəxsən minnətdaram. Azərbaycan-Amerika Ticarət Palatasına minnətdarlığımı bildirirəm. Çox sağ olun.

*Millət vəkili İlham Əliyevin çıxışı və çoxsaylı suallara hərtərəfli cavabları böyük maraq və alqışlarla qarşılandı. İştirakçıların hafizəsində dərin iz buraxan dinləyicilərdən bir nəfər təəssüratlarını ifadə etdi.*

SVAİTE KORNE (Mərkəzi Asiya-Qafqaz «Analist» jurnalının baş redaktoru, elmlər doktoru): – Bu çox gözəl bir görüş oldu. İnstitutumuzun tarixində bu böyük hadisədir. Hörmətli İlham Əliyev bura gəldi. Çıxış etdi. Onun fikirləri, Azərbaycandakı vəziyyətlə bağlı məlumatları, Dağlıq Qarabağ konflikti barədə düşüncələri çox maraqlı idi. Onun ingilis dilində bu cür sərbəst və elmi danışığı bizi valeh etdi. Biz çox minnətdarıq ki, İlham Əliyev məhz bizim instituta gəldi.

*Konfrans zalından kadrlar göstərilir. Kamera adamların İlham Əliyevlə ayaqüstü söhbətləşmələrinə keçid edir. Musiqinin müşayiəti ilə fona keçid edilir.*

BİRİNCİ FİLMİN SONU

*2003-cü il*

## VAŞİNQTON GÖRÜŞLƏRİ
(21-24 oktyabr 2002-ci il)

### İkinci film

*Musiqinin müşayiətilə ABŞ-Azərbaycan strateji münasibətlərini əks etdirən kadrlar bir-birini əvəz edir. Titrlə birinci filmdə göstərilən görüşlərin xronikası verilir, mətnə keçid edilir.*

MƏTN: – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev oktyabrın 21-dən 24-dək Vaşinqtonda işgüzar səfərdə olub.

İlham Əliyev demokratik islahatlar sahəsində zəngin təcrübəsi olan Amerikada siyasi xadimlər, görkəmli alimlər, qeyri hökumət təşkilatlarının rəhbərləri və dövlət rəsmiləri ilə mühüm görüşlər keçirdi, nüfuzlu kütləvi informasiya vasitələrinə geniş müsahibələr verdi.

Millət vəkili ABŞ-ın vitse-prezidenti Dik Çeyni, Energetika naziri Spenser Abraham, dövlət katibinin birinci müavini Riçard Armitac, müdafiə nazirinin birinci müavini Pol Vulfovitslə, maliyyə nazirinin birinci müavini Kennet Damla, ticarət nazirinin birinci müavini Samuel Bodmenlə, senator Çak Hekellə, ABŞ prezidentinin Xəzər diplomatiyası üzrə müşaviri Stiven Menlə, milli təhlükəsizlik məsələləri üzrə müşavirin müavini Stiv Hedli, Senat və Nümayən-

dələr Palatasının üzvləri ilə, ABŞ-ın tanınmış siyasi xadimləri, əvvəlki hökumətin aparıcı üzvləri, habelə Ümumdünya Bankı və Beynəlxalq Valyuta Fondunun üzvləri, Beynəlxalq Maliyyə Korporasiyasının başçısı Piter Voyçka, Azərbaycan-ABŞ Ticarət Palatasının sədri Tim Keçka ilə böyük əhəmiyyət kəsb edən görüşlər keçirərək, respublikamız üçün çox mühüm məsələləri müzakirə etdi. Millət vəkili İlham Əliyev məşhur Con Hopkins Universiteti Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunda «Cənubi Qafqaz və Xəzər hövzəsi: Bakıdan baxış» mövzusunda çıxış etdi, «CNN» kimi nüfuzlu televiziya kanalına müsahibə verdi.

İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin dövlətlərarası münasibətlərin, əməkdaşlığın genişləndirilməsində əsas amil olduğunu bir daha göstərdi.

Millət vəkili Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll edilməməsini hər görüşdə xatırlatdı, problemin aradan qaldırılmasında Ermənistanın qeyri-konstruktiv mövqeyinin əsas əngəl olduğunu bir daha amerikalı siyasətçilərin nəzərinə çatdırdı.

İlham Əliyevin Amerika səfəri onun Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətimizin başçısı olaraq, apardığı məqsədyönlü siyasətinin davamı kimi qiymətləndirilir.

İlham Əliyevin ABŞ-a bu dəfəki səfəri Vaşinqton-Bakı münasibətləri sahəsində müşahidə edilən dinamik inkişaf prosesinə daha bir təkan hesab olunur.

*Millət vəkili İlham Əliyevin Vaşinqton səfərinin detallarını əks etdirən xronikal kadrlar efirə verilir.*

MƏTN: – ARDNŞ-ın birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin Vaşinqtona işgüzar səfəri Amerika-Azərbaycan münasibətləri üçün çox mühüm və vaxtında həyata keçirilən bir səfər idi. Millət vəkili İlham Əliyevin Vaşinqtondakı bütün görüşlərində Azərbaycan-ABŞ münasibətləri, ölkəmizdə aparılan islahatlar, dövlətimizin daxili və xarici siyasətinə aid məsələlər, Ermənistan-Azərbaycan münaqişəsi, ölkəmizin neft strategiyası ilə bağlı görülən işlər, Azərbaycanın Amerika ilə birlikdə terrora qarşı mübariizəsi və s. məsələlər müzakirə olunurdu.

Dağlıq Qarabağ probleminin həlli yolları, regionda təhlükəsizlik və Azərbaycanda aparılan demokratik islahatlar İlham Əliyevin ölkəmizin Vaşinqtondakı səfirliyində ABŞ-ın tanınmış siyasi xadimləri, görkəmli alimləri və sabiq rəsmi şəxslərilə keçirdiyi görüşün əsas mövzusu oldu.

*Azərbaycanın ABŞ-dakı səfirliyində millət vəkili İlham Əliyevin Amerikanın görkəmli ictimai-siyasi xadimləri ilə görüşündən fraqmentlər göstərilir. Sonra mətnə keçid edilir.*

MƏTN: – ABŞ-ın əvvəlki hökumətlərinin aparıcı üzvləri Madlen Olbrayt, Uilyam Kohen, Zbiqnev Bzejinski, Brent Skoukroft, habelə görkəmli alimlər Fredrik Star və akademik Roald

Saqdeyev və başqaları ilə birlikdə nahar zamanı geniş fikir mübadiləsi aparıldı. İlham Əliyev Azərbaycanda hazırkı vəziyyət, ölkəmizin iqtisadi, sosial və demokratik inkişafına dair çoxsaylı suallara cavab verdi. O bildirdi ki, Xəzər hövzəsinin təbii ehtiyatlarının işlənməsi üzrə layihələr uğurla həyata keçirilir və bunun ilk müsbət nəticələri göz qabağındadır. İlham Əliyev qeyd etdi ki, Azərbaycan hökumətinin əsas məqsədi bu layihələrdən əldə olunan gəliri ölkə iqtisadiyyatının yeni sektorlarının yaradılmasına və əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəltməkdən ibarətdir.

BRENT SKOUKROFT (Ağ evin nəzdində müdafiə siyasəti üzrə şuranın üzvü): – Biz İlham Əliyev-lə çox maraqlı görüş keçirdik. Azərbaycan və onun gələcək inkişaf perspektivləri, ümumiy-yətlə, region haqqında səmərəli fikir mübadiləsi oldu. Bu müzakirələrdən çox məmnun qaldım. Anlayıram ki, indi çox mürəkkəb dövrdür. Lakin mən Azərbaycanın gələcəyinə nikbin baxıram. Birinci görüşdən fərqli olaraq, İlham Əliyev indi daha güclü siyasətçi təsiri bağışlayır. O, bizə region və ölkəsi haqqında dəqiq, tutarlı və çox ətraflı məlumat verdi.

*  *  *

MƏTN: – ARDNŞ-in birinci vitse-prezident, Milli Məclisin deputatı İlham Əliyevin ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə

müşavirinin müavini Stiven Hedli ilə görüşündə də tərəflər – ABŞ-Azərbaycan əməkdaşlığına dair geniş fikir mübadiləsi apardı. Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində qarşılıqlı səylərin artırılması zərurəti vurğulandı. ABŞ hökumətinin rəsmi nümayəndəsi terrorizmə qarşı mübarizədə Azərbaycanın beynəlxalq koalisiyaya dəstəyinin Birləşmiş Ştatlar tərəfindən çox yüksək dəyərləndirildiyini bildirdi. İlham Əliyev Amerika rəsmisinə xatırlatdı ki, hüquqi, demokratik və dünyəvi dövlət quran, bazar iqtisadiyyatı yolunu seçmiş Azərbaycan bu istiqamətdə hərtərəfli islahatlar həyata keçirir. Lakin ölkənin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan münaqişəsinin indiyədək həll edilməməsi böyük çətinliklər yaradır.

*Millət vəkili İlham Əliyevin senator Çak Hekellə görüşünün fraqmentlərindən sonra mətnə keçid edilir.*

MƏTN: – ARDNŞ-in birinci vitse-prezidenti millət vəkili İlham Əliyev ABŞ konqresində Nebraska ştatının təmsilçisi, respublikaçı senator Çak Hekellə görüşdü. Senator Hekel bildirdi ki, o, ölkəmizdə baş verən hadisələrlə maraqlanır. İlham Əliyev həmsöhbətinə Vaşinqtona səfəri çərçivəsində apardığı danışıqlar haqqında məlumat verdi, Azərbaycanın son illər qazandığı nailiyyətlərdən söhbət açdı. Millət vəkili qeyd etdi ki, Azərbaycana xarici sərmayələrin yönəlməsi iqtisadi islahatların həyata keçiril-

məsinin sürətlənməsinə səbəb olub. Ölkəmizin enerji strategiyasından danışan İlham Əliyev mühüm əhəmiyyəti olan Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinə başlanmasını xüsusi vurğuladı, əvvəldən bu layihənin gerçəkləşməsi üçün göstərdiyi dəstəyə görə senator Çak Hekelə minnətdarlığını bildirdi.

Nebraskalı senator bölgədə enerji layihələrin həyata keçirilməsinin regionda coğrafi siyasi sabitliyə müsbət təsir göstərdiyini vurğuladı, Ermənistan-Azərbaycan münaqişəsində tezliklə sülh əldə olunacağına ümid bəslədiyini söylədi.

Cənab Hekel Azərbaycan prezidenti Heydər Əliyevə onun salamını yetirməyi xahiş etdi, gələn ilin əvvəllərində regionumuza səfər etmək niyyətində olduğunu bildirdi.

*ABŞ-Azərbaycan iqtisadi əlaqələri, müxtəlif neft müqavilələrinin imzalanma mərasimləri iri planda verilir. Sonra musiqi ilə mətn səslənir.*

MƏTN: – Amerika ilə iqtisadi əlaqələrin də həmişə yüksək səviyyədə olmasına çalışan Azərbaycan bu münasibətlərin daha da sürətlə inkişafına səy göstərir. Bu mənada Vaşinqtonda səfərdə olan millət vəkili İlham Əliyevin ABŞ-ın ticarət nazirinin birinci müavini Samuel Bodmanla görüşü böyük əhəmiyyətə malikdir. Söhbət zamanı İlham Əliyev bildirdi ki, bugünkü Amerika-Azərbaycan iqtisadi əlaqələrinin vəziyyəti, xüsusilə də enerji sahəsində birgə əməkdaşlığı-

mızın səviyyəsi bizi ruhlandırır və qeyri-enerji sektorlarında iş birliyinin həyata keçirilməsinə sövq edir. Millət vəkili belə hesab edir ki, bu cür sektorlar arasında kənd təsərrüfatı, inşaat infrastrukturlarının inkişafı da ola bilər. O, həmçinin beynəlxalq maliyyə qurumları ilə Azərbaycanın uğurlu əməkdaşlığından da söhbət açdı. «ABŞ-la iqtisadi əlaqələr Azərbaycan üçün prioritet xarakteri daşıyır», – deyən İlham Əliyev Birləşmiş Ştatların göstərdiyi maliyyə və texniki yardımın ölkəmiz tərəfindən yüksək dəyərləndirildiyini vurğuladı. ABŞ-ın ticarət nazirinin müavini Samuel Bodman onun ölkəsinin Azərbaycana hər cür yardım göstərməyə hazır olduğunu söylədi. Cənab Bodman ölkəmizdə iqtisadi artımın gələcəkdə də yüksək səviyyədə olmasını təmin etmək üçün sahibkarlığın inkişafına səbəb olacaq qanunvericiliyin təkmilləşdirilməsini tövsiyə etdi. O, ölkəmizin Dünya Ticarət Təşkilatına qəbulu prosesində ticarət nazirliyinin köməyini də təklif etdi.

*Millət vəkili İlham Əliyevin müxtəlif maliyyə qurumlarının rəhbərləri ilə görüşündən epizodik kadrlar göstərilir.*

MƏTN: – ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev bir sıra beynəlxalq maliyyə qurumlarının nümayəndələri ilə də müzakirələr apardı. Görüşdə Beynəlxalq Valyuta Fondunun 2-ci Avropa departamentinin başçısı Con Odlinq Smi və Dünya Bankının bölgəmiz üzrə icraçı

direktoru Pyetro Veqlio ilə işgüzar nahar zamanı ölkəmizin makroiqtisadi siyasəti, Azərbaycanda sərmayə mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı barədə geniş fikir mübadiləsi apardı. Eyni mövzuda və xüsusilə Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi barədə danışıqlar Dünya Bankının vitse-prezidenti, Beynəlxalq maliyyə korporasiyasının icraçı direktoru Piter Voyke ilə də davam etdirdi. İlham Əliyev bildirdi ki, Azərbaycan hökumətinin əsas niyyəti neft sektorunun gəlirlərini qeyri neft sektorlarının inkişafına yönəltmək, əhalini yeni iş yerləri ilə təmin etmək, beləliklə, insanların rifahını yaxşılaşdırmaqdır.

*Xəzər dənizində ABŞ-Azərbaycan enerji tərəfdaşlığının əsas mahiyyətini ifadə edən iri və orta planlar musiqi ilə efirdə canlanır.*

MƏTN: – İlham Əliyevin oktyabrın 23-də ABŞ prezidentinin Xəzər hövzəsi diplomatiyası üzrə müşaviri Stiven Men ilə görüşündə Xəzərin enerji ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqlinə dair layihələrin həyata keçirilməsinin vəziyyəti və bu sahədə ABŞ-Azərbaycan əməkdaşlığı barədə geniş fikir mübadiləsi aparıldı. Tərəflər enerji layihələrinin, xüsusilə də qaz sektoru ilə bağlı layihələrin perspektivlərini nəzərdən keçirdilər.

ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin Azərbaycanın Vaşinqtondakı səfirliyində, Harvard Univer-

sitetində Xəzər araşdırmaları proqramının başçıları ilə də görüşü oldu. Görüş iştirakçıları qeyd etdilər ki, 3 il bundan əvvəl yaradılan proqram Azərbaycan haqqında həqiqətləri ABŞ ictimaiyyətinə və dünyaya çatdırmaq sahəsində mühüm addım idi. Elmi mərkəzin əməkdaşları ABŞ-ın kütləvi informasiya vasitələrində mütəmadi olaraq Ermənistan-Azərbaycan münaqişəsi və bunun ölkəmiz üçün ağır nəticələri haqqında yazılarla çıxış edirlər. Xəzər Araşdırmaları Proqramının tədqiqatçı direktoru xanım Brenda Şaffer İlham Əliyevə Harvard Universitetində 9 azərbaycanlı tələbənin bu proqram üzrə təhsil alıb vətənə qayıtması barədə məlumat verdi. İlham Əliyev bu proqramın ölkəmiz üçün əhəmiyyətli olduğunu vurğuladı, ona Azərbaycan tərəfindən lazımi dəstək veriləcəyinə söz verdi.

*Vaşinqtonda Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzində Tim Seyka ilə səmimi görüşdən fraqmentlər efirə verilir.*

MƏTN: – Oktyabrın 23-də İlham Əliyev Vaşinqtondakı Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzində ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri Tim Seyka ilə görüşdü. Tim Seyka İlham Əliyevə palatanın fəaliyyəti haqqında geniş məlumat verdi. Görüş iştirakçıları məmnuniyyətlə vurğuladılar ki, ABŞ-Azərbaycan Ticarət Palatası ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsində müsbət rol oynayır.

ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin Vaşinqtona səfəri ilə əlaqədar ABŞ-Azərbaycan Ticarət Palatası (oktyabrın 23-də) «Uiliard İntekontenental» mehmanxanasında rəsmi qəbul təşkil etmişdi. Qəbulda Vaşinqtonun yüksək səviyyəli bir sıra rəsmiləri, o cümlədən Missuri ştatını təmsil edən konqresmen Karen Makkarti, müdafiə nazirinin Avrasiyada təhlükəsizlik siyasəti üzrə müavini Mira Rekardel, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri səfir Rudolf Perina, habelə Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunun başçısı doktor Fredrik Star, Eyzenhaurer İnstitutunun başçısı Suzan Eyzenhauer, Vaşinqtondakı diplomatik korpusun nümayəndələri, işgüzar dairələrin təmsilçiləri iştirak edirdilər.

RZA VƏZİRİ (ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri): – Möhtərəm İlham Əliyevin iştirakı ilə ABŞ-Azərbaycan Ticarət Palatasında şam yeməyində sizin hamınızı salamlayıram. Bu qəbul onun bizim ölkəmizin səfərinə həsr olunub. Bugünkü əziz qonaqlarımız-konqres üzvü Kevn Makkarti, dostlarım səfir Paşayevi, səfir Yaşar Əliyevi, Fredrik Starı və Müdafiə Nazirliyindən xanım Mira Kardeli xüsusi salamlayıram. Burada tanınmış ABŞ biznesmenləri, eləcə də onların azərbaycanlı həmkarları iştirak edirlər. Eyni zamanda, çox şadam ki, buraya elmi işçilər, düşünən beyinlər, ABŞ hökumətinin nümayəndələri, xarici ölkə nümayəndələri və diplomatlar təşrif buyurublar. Hamınızı salam-

layıram. Fürsətdən istifadə edərək, bugünkü qəbulun dəyərli sponsorlarını salamlayıram. Əsas sponsorlar «Ekson-Mobil», «Mərkəzi Asiya enerji», «Ey El Ci», «Cey Rey Maktermot», «Həlibörten», «Beyker ənd Bats», «Bi-Pi» və «Devon Enerji» şirkətləridir. Dəstəyinizə görə sağ olun. ABŞ və Azərbaycan eyni dəyərləri qiymətləndirirlər. Bir sıra məsələlərə baxışları eynidir. Hər iki ölkə ayrı-ayrılıqda və birlikdə işləyərək öz ölkələrinin vətəndaşlarına iqtisadi və siyasi stabillik gətirmək əzmindədirlər. ABŞ-Azərbaycan Ticarət Palatası böyük məmnuniyyətlə bu şəraiti yaradır ki, adı çəkilən mövzular haqqında danışılsın və müzakirələr aparılsın. Bu axşam imkanımız olacaq ki, həm Amerika, həm də Azərbaycan tərəfini dinləyək. Möhtərəm konqresmen xanım Kevn Makkarti və möhtərəm İlham Əliyev çıxışlarını bu mövzulara ünvanlayacaqlar. Bu imkandan istifadə edərək, möhtərəm qonağımız İlham Əliyevə Vaşinqton səfərinə görə minnətdarlığımı bildirmək istəyirəm. Sizin hamınıza məlum olduğu kimi, cənab İlham Əliyev Azərbaycanın uğurlu neft siyasətində müstəsna rol oynamışdır. Onun bu rolu Azərbaycanın iqtisadi inkişafına nəzərəçarpacaq töhfə vermişdir. Siyasi səhnədə İlham Əliyev həm partiyada, həm parlamentdə, həm də beynəlxalq aləmdə özünü əla tərəfdən büruzə vermişdir. Azərbaycanda və ölkədən kənarda bir çoxları onu sosial sahədə və xüsusilə, idman, mədəniyyət və xeyriyyəçilikdə tanınmış şəxs kimi qiymətləndirirlər.

ABŞ-Azərbaycan Ticarət Palatası Direktorlar Şurası üzvləri adından mən İlham Əliyevə həm də ABŞ-Azərbaycan Ticarət Palatasının üzvü kimi minnətdaram. Ona dəstəyinə və yardıma görə təşəkkür edirəm. Çox sağ olun, cənab Əliyev. Bu imkandan istifadə edərək xanım Eyzenhaurerə minnətdaram. Xanım Eyzen-haurer, dəvətimizi qəbul edib gəldiyinizə görə sağ olun. İndi isə dostumuz Tim Seykanı dəvət etmək istəyirik ki, bugünkü məclisimizin aparıcısı olsun. Sağ olun.

TİM SEYKA (ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri): – Axşamınız xeyir. Rza, təqdimatına görə çox sağ ol. ABŞ-Azərbaycan Ticarət Palatasının həm-sədri kimi bu axşam sizin hamınızı salamlayıram. Bu gün sizin qarşınızda çıxış edəcəm. Bu ciddi çıxışdı. Lakin çıxışın ikinci hissəsini İlham Əliyev edəcək. Və onun çıxışı zamanı artıq mən susmalı olacam. Çıxışımın ciddi hissəsinə başlayıram. Şəxsən mən artıq 8 ildir ki, Azərbaycanda bizneslə məşğulam. Hər dəfə Azərbaycana gələndə yeni dostlar qazanıram. Həm biznes, həm hökumət dairələrinin Azərbaycanı vacib ölkə kimi ön plana çəkmələri məni həmişə bu işimdə ruhlandırıb. Son 10 ildə çox işlər görülüb. Burada köhnədən tanıdığım adamlar var. Sizin də yadınızdadır, dönüb geriyə baxanda görürük ki, nə qədər dəyişikliklər baş verib. Təzə, tanış olmayan adamları da görürəm. Təzə adamlara nə qədər dəyişikliyin baş verdiyini izah etmək olduqca çətindir. Azərbaycanda həqiqətən

böyük dəyişikliklər baş verib. İdarəçiliyin effektli mexanizmi, bazar iqtisadiyyatı prinsipi işləyir. Əlbəttə, görüləsi işlər də var. Amma Azərbaycanı ümumi xarakterizə etsək, belə demək olar: Azərbaycan biznes üçün açıq ölkədir. Və biz «Ekson Mobil» və eləcə də Ticarət Palatasının üzvləri Azərbaycanda bizneslə məşğul olmağımızdan qürur hissi duyuruq. Azərbaycan iqtisadiyyatı üçün xarici investisiyalar qaçılmaz olduğuna görə ABŞ-Azərbaycan Ticarət Palatası da Azərbaycan iqtisadiyyatı üçün mühüm rol oynayan alət olaraq qalacaq. Mən Rza ilə birlikdə palatanın həmsədri kimi icazə istərdim ki, Ticarət Palatasının fəaliyyəti haqqında bir neçə kəlmə deyim. Azərbaycandan Vaşinqtona yüksək vəzifəli şəxslərin bir neçə rəsmi səfəri olmuşdur. Və bu səfərlərin hamısında bizim və sizin şirkətlər fəal iştirak etmiş, yeni münasibətlər qurmaqda vasitəçilik etmişlər ki, bu da tərəqqi və biznes fəaliyyəti üçün lazımlı elementlərdir. Palata həm də Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmağa başlayan şirkətlərə məsləhətlər və tövsiyələr verir. Təhsil proqramları humanitar missiyalar, məktəb binası inşası layihələri, bizim fəaliyyətimizin bir hissəsidir. Palata Harvard Universitetində azərbaycanlı tələbələrin təhsil alması üçün vəsait ayırmışdır. Bu proqram Azərbaycanın təşəbbüsü ilə həyata keçirilir və Azərbaycanın gələcək liderlərini ABŞ reallıqları ilə tanış etmək məqsədi daşıyır. Eyni zamanda Azərbaycanın gələcək liderləri üçün

qısa müddətli təhsil proqramları da nəzərdə tutulubdur. Və sonda yeni Ticarət və Mədəniyyət Mərkəzi açılmışdır ki, bu da Ticarət Palatasının işinə yardımçı qurum kimi ticarət və mədəniyyət işlərində bir-birindən öyrənmək məqsədi daşıyır. Burada iştirak edənlərin bir çoxu Azərbaycan iqtisadiyyatına sərmayə qoyan şirkətlərdir və istərdim ki, şirkət nümayəndələrinin hamısını bu axşam salamlayım. Keçən ilin mart ayında görüşdüyümüz zamandan Azərbaycan daha bir tarixi inkişaf addımı atmışdır. ABƏŞ-ə daxil olan şirkətlər Azəri-Çıraq-Günoşli yataqlarında əsas işin ikinci fazasının başlanmasını elan etmişlər. Çoxmilyardlıq Bakı-Tbilisi-Ceyhan layihəsinin təməl daşının qoyulması mərasimi Bakıda keçirilmişdir. Bu layihə vasitəsilə Azərbaycan dünya neft təchizatına yenilik, üstəgəl, Azərbaycan xalqına firavanlıq gətirəcək. Eləcə də iştirakçı şirkətlərə. Heç şübhəsiz ki, bu layihə regionun ən böyük layihələrindən biridir. Azərbaycanda daha çox imkanlar olduğunu görürük. Xəzərin şimalında, ortasında və cənubunda böyük qaz yataqlarının mövcud olduğu şirkətlər tərəfindən təsdiq edilir. Baxmayaraq ki, başa çatdırılan işlər çoxdur, İlhamın dünənki çıxışında qeyd etdiyi kimi, görüləsi işlərin çox olduğunu da yaddan çıxarmamalıyıq. Biz ümid edirik ki, artıq kəşf etdiyimiz yataqlardan əlavə, bir sıra yataqlar da aşkar olunacaq. Dünyanın hansı hissəsi olursa olsun, neft işi həmişə bacarıq, hüquqi baza, maliyyə, risk və maya dəyəri kimi şərtləri tələb edir. Bu

regionda biznes mühitinin olması xüsusilə vacibdir. Çünki neft və qaz istehsalçılarının qarşısına unikal çətinliklər çıxır. Ərazi qapalıdır, infrastruktur məhduddur. Digər çətinliklər layihələrə sərmayə riski, maliyyə stabilliyi əldə olunması, kontraktların sanksiyadan keçirilməsi uğurun əsasıdır. Və Azərbaycan bu şərtlərin yerinə yetirilməsi üçün bacarıq nümayiş etdirdi. Gələn il Xəzərdəki donanmaya yeni platforma əlavə olunacaq. Yarıyadək suda yerləşən bu platforma yeni yataqlarda qazma işləri aparacaqdır. Ümid edirik ki, onun vasitəsilə tapılacaq yeni neft və qaz əsas ixrac kəməri vasitəsilə dünya bazarlarına çıxarılacaq. Qapalı Xəzər ərazisinə neft avadanlığı gətirmək bir, ərazidə neft və qaz çıxarmaq digər problemə çevrilir. Bu mövzu bir çox adamlar tərəfindən bir çox illərdir ki, müzakirə olunur. Keçən il Xəzər boru kəməri şirkəti «Si-Pi-Si»nin fəaliyyəti nəticəsində Tengiz yatağından xam neftin bazarlara çıxarılması işi xeyli asanlaşdı və xeyli ucuz başa gəlməyə başladı. Heç şübhəsiz ki, burada iştirak edənlərin hamısı Xəzərin cənub hissəsində çıxarılan neftin ixrac vasitələrinin işlənməsi üçün çox əmək sərf ediblər. Bununla bağlı həlledici qərar Bakı-Tbilisi-Ceyhan layihəsinin işə salınması idi. Və bu münasibətlə biz Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərini və BTC iştirakçı şirkətlərini bu tarixi nailiyyət münasibətilə təbrik edirik. Yekunlaşdıraraq demək istərdim ki, Xəzər regionu hədsiz potensiala malikdir. Buranın böyük ehtiyatları hələ

gələn il qazma işləri başlayan zaman aşkar olacaq. Biz onda nə qədər neftin olduğunu biləcək və bu ehtiyatların optimal iqtisadi qiymətini də məlum edəcəyik. Biz uğurlu gələcəyə ümidlə baxırıq. Bu məqamda mən Fərhad Əzimanı – palatanın direktorunu təqdim edirəm. O, isə bizim növbəti natiqimizi təqdim edəcək.

FƏRHAD ƏZİMA (palatanın direktoru): – Sağ ol, Tim. Mən də öz adımdan möhtərəm İlham Əliyevi salamlayıram. O, bizim şərəfli qonağımızdır. Mənimçün baş ucalığı və şərəfdir ki, köhnə dostum, konqresmen xanım Keven Makkartini burada görürəm. Miss Makkarti konqresdə Missuri ştatını, Kanzas şəhərini təmsil edir. Bu mənim doğma şəhərimdir. Konqresdə 4 ildir qulluq edir. İşini uğurla yerinə yetirir. Konqresdən əvvəl xanım Makkarti 8 il müddətində Missuri ştatının qanunvericilik orqanlarında işləmişdir. 12 il müddətində Missuri administrasiyasında güclü bir sədr kimi tanınmışdır. Həmin müddət ərzində ştatın həyatında onun bacarığı və sədaqətli işi sayəsində həm biznes, həm də siyasi sahədə görkəmli işlər yerinə yetirilmiş, onun bacarığı sayəsində ştata lazımi vəsait ayrılmışdır. Hökumətdə işlədiyi müddətdə enerji məsələləri ilə də yaxından tanış olmuşdur. Halhazırda konqresin kommersiya və enerji komitəsində və ətraf mühit, enerji, telekommunikasiya, internet və zərərli materiallar yarımkomitələrində fəaliyyət göstərir. Maraqlıdır ki, boş vaxtı haradan tapır. Çox davam eləmək olar, amma vaxta qənaət edək. Xanım Makkarti özünü

düşüncəli siyasətçi kimi göstərmiş, biznes və sənaye, enerji ehtiyaclarını dərindən bilən şəxs kimi tanıtmışdır. Xahiş edirəm, mənim dostum və konqresmen xanım Keven Makkartini salamlayaq.

KEVEN MAKKARTİ (konqresmen): – Fərhadın bu gözəl təqdimatı və hamınızın məni belə salamlamağınız məni kövrəltdi. Sağ olun ki, məni dəvət etmisiz. Enerji və Kommersiya Komitəsində işlərin necə getməsi haqqında sizə məlumat verəcəyəm. Və xüsusi qonağımızı böyük şərəf hissi ilə salamlayıram. Proqramda onun layiq görüldüyü bütün vəzifə və adları görürsünüz, onlar hamısı adının altında yazılıbdır, amma biri mənimçün xüsusilə maraqlıdır. Özü mənə nahar yeməyi vaxtı demişdi. Bu proqramda yoxdur. O həm də Azərbaycan Milli Olimpiya Komitəsinin sədridir. Hamınız Azərbaycanın keçən olimpiadada qazandığı iki qızıl və bir bürünc medaldan xəbərdarsınız. Gələcəkdə də Azərbaycan idmançılarını böyük uğurlar gözləyir. İlham, yəqin ki, bütün gördüyün işlər içərisində bu iş, idmançıların gətirdiyi qələbə müjdəsi heç nə ilə müqayisə oluna bilməz. Səfir Paşayevlə söhbətimdə o bildirdi ki, Kanzas şəhərində olubdur, oradakı senatorun qonağı kimi, mən də Kanzasda keçirdiyim günləri xatırladım və biz söhbət zamanı düşündük ki, müxtəlif karyeraları təmsil edən müxtəlif dünyalarda yaşayan insanları həyat necə olur ki, bir araya gətirir. O, senator Braunbək ilə birlikdə olub, senator ona Kanzasda bitən

xüsusi növ buğda haqqında danışıb. Kanzas Dövlət Universitetindən olan alim isə bildirib ki, bu buğda növü həmin ərazidə gözəl bitir və onun ixracı çox uğurla həyata keçirilir. Və bu buğda növü Azərbaycandan – səfir Paşayevin anadan olduğu ərazidən Amerikaya gətirilib. Görürsünüz ki, bizi birləşdirən məqamlar çoxdur və bu əlaqələrin hamısı insanlar üçün, ticarət üçün yaxşıdır. Beləliklə, bizim tərəfdaşlığımız ABŞ-Azərbaycan tərəfdaşlığı hərtərəflidir. Siz terrorizmə qarşı kompaniyalarda bizimlə birlikdə olmusunuz. Siz məlum hadisələrdən sonra bizim prezidentə zəng edən birinci ölkə olmusunuz. Və demisiniz ki, biz burdayıq, sizə yardım etməyə hazırıq. Bütün ölkələr üçün enerji baxımından sizin ölkə vacib bir ölkədir. Fərhadın qeyd etdiyi kimi, bütün həyatım boyu Missuri qanunvericiliyindəki 18 il müddətində, daha sonra konqresin enerji komitəsində yanacaq məsələləri ilə məşğul olmuşam. Çalışmışam ki, bu işi həm dövlət səviyyəsində, həm də qlobal sahədə yerinə yetirim. Kiotoda imzalanmış qlobal iqlim dəyişməsi protokolu çərçivəsində də işləyirəm və konqresdə cənab Bartonun enerji və elektrik komitəsində çalışaraq, Xəzər regionunun tükənməz enerji sərvətləri və həmin bu sərvətlərin dünyaya gətirəcəyi firavanlıqla bağlı işlərimiz olub. Bu ilin yayında cənab Barton, mənim özüm və komitə üzvləri Azərbaycana səfərə gedəcəkdik. Təəssüf ki, səfər gələn ilədək təxirə salındı. Amma qəti qərarlıyıq ki, bu səfər baş tutsun və

mən bununla bağlı çox həyəcanlıyam. Çünki mən həqiqətən oradakı böyük potensialı və ABŞ-Azərbaycan dostluğunu yüksək qiymətləndirirəm. Bu qeyri-adi, gözəl və bir dekadadan artıq sürən təcrübədir. İstərdim biləsiniz ki, biz konqresdəkilər və xidmət etdiyimiz adamlar bunu anlayır, buna böyük hörmətlə yanaşırıq. Mən bu axşam burada iştirak edən, bu qəbulun baş tutmasını mümkün edən, bizim «İmport-Eksport» bankı, Ticarət İnkişafı Agentliyi, Xarici İnvestisiya Korporasiyası ilə, regiondan enerji məhsullarını gələcək əsrə daşıyacaq və hər iki xalqımıza firavanlıq gətirəcək boru kəmərinə sərmayə qoyan şirkətlərimizə minnətdarlığımı bildirmək istəyirəm. Ümid edirəm ki, gələn il enerji komitəsinin üzvləri ilə birlikdə regiona səfərə çıxarkən, regionun tükənməz enerji ehtiyatlarının nə cür işlənməsini öz gözlərimizlə görəcəyik və bu səfər vasitəsilə yalnız enerji komitəsində olan üzvlərin deyil, bütün konqres üzvlərinin dəstəyini ifadə edə biləcəyik. Bu region bizim üçün, sülh üçün, sabitlik üçün, dünyanın ehtiyacları üçün olduqca vacibdir. Bu axşamkı hörmətli qonağımız haqqında xoş sözlər demək istəyirəm. İlham, siz həm öz ölkənizdə, həm də ölkənizin hüdudlarından kənarda parlayan ulduzsunuz və ümid edirəm ki, siz liderlik qabiliyyətinizi nümayiş etdirməkdə davam edəcəksiniz. Əminəm ki, ölkələrimiz arasındakı kollektiv şəkildə dünyanı enerji ilə təmin etmək üzrə dostluq və partnyorluğumuz davam edəcək. Bir

daha çox məmnunam və baş ucalığıdır ki, bu axşam sizin hər birinizlə burdayam, ölkəmizin paytaxtına xoş gəlmisiniz. Burada həmişə əziz qonaqsınız və nə vaxt gəlsəniz, görüşüb birlikdə işləyəcəyik və mən sizə həmişə yardımçı olmağa hazıram. Hamınız çox sağ olun.

TİM SEYKA: – İki səhifəlik təqdimatım var. Amma bu iki səhifəlik təqdimat hər birinizin qarşısında var və siyahını izləsəniz, görərsiniz ki, İlham nə çox məsələlərə cavabdehdir. Ticarət Palatasının həmsədri olmağımın bir böyük üstünlüyü odur ki, onu təqdim etmək mənə müyəssər olur. Biz əvvəllər də görüşmüşük. Bu o adamdır ki, hamımızdan əvvəl bilirdi ki, bizim Azərbaycan-da işimiz nədən ibarət olacaq və ilk razılığın layihəsini işləyib hazırlayırdı. Buna «Əsrin kontraktı» adı verilibdir. O, bu kontraktın imza-lanması ərəfəsində bütün müzakirə çətin-liklərini öz üzərinə götürdü və layihənin işlənib kontrakt səviyyəsinə çatdırılmasında həqiqi liderlik nümayiş etdirdi. O zamandan Azərbay-can bir çox pay bölgüsü sazişləri imzaladı. İlha-mın rəhbərliyi altında Azərbaycan böyük neft istehsalçısı ölkəsinə çevrildi. Bu da Azərbaycan üçün geniş imkanlar açır. Mənimçün baş ucalığıdır ki, onu 8 ildir tanıyıram. O, həm də nümunəvi ailə başçısı, yaxşı dostdur və bütün daşıdığı vəzifələrdən savayı, sözün əsl mənasında böyük insandır. Bu sözlərlə mən İlham Əliyevi təqdim etmək istəyirəm.

İLHAM ƏLİYEV (ARDNŞ-in birinci vitse-prezidenti): – Əziz xanımlar və cənablar. Əziz dostlar. İlk

əvvəl prezident Heydər Əliyevin salamlarını və ən xoş arzularını Vaşinqtondakı bütün dostlarımıza və bugünkü günün bütün iştirakçılarına yetirirəm. Əziz xanımlar və cənablar, yeddi il bundan əvvəl yaradılan ABŞ-Azərbaycan Ticarət Palatası ABŞ və Azərbaycan arasında həyatın müxtəlif sahələrində əlaqələrin möhkəmlənməsində əlamətdar rol oynamışdır. Bu unikal vasitə olmuşdur, elə indi də olmaqda davam edir ki, bu vasitə ilə ölkələrimiz bir-birinə daha çox yaxınlaşıb, insanlarımız bir-birini yaxından tanıyır, biznesmenlərimiz yaxınlaşıb. Biz Azərbaycanda ABŞ şirkətlərinin iştirakı və hökumətin dəstəyi ilə əsaslı layihələrə başlamışıq. Və sizə açıq deyə bilərəm ki, bizim ölkəyə, bizim hökumətə olan bu dəstək (regiona, enerji sektoruna olan bu dəstək) uğur əldə etmək üçün həlledici idi. Mən çox şad və xoşbəxtəm ki, bu gün ölkələrimiz arasında münasibətlər belə sürətlə inkişaf edir. Azərbaycan üçün bu strateji əhəmiyyət kəsb edən mövzudur. ABŞ bizim strateji partnyorumuzdur və gələcəkdə də strateji partnyorumuz olaraq qalacaq. Həyatın müxtəlif sahələrində tammiqyaslı əməkdaşlıq edirik: iqtisadiyyatda, siyasi münasibətlərdə, təhlükəsizliyə aid olan məsələlərdə. Azərbaycan müstəqillik qazandığı bu qısa müddətdə sübuta yetirmişdir ki, o ABŞ-ın həqiqi və etibarlı partnyorudur. 11 sentyabrdakı faciəli hadisələr bir daha göstərdi ki, Azərbaycan etibarlı tərəfdaşdır və Azərbaycan öz dəstək səsini ucaldan ilk ölkələrdən oldu.

Bu, ABŞ-a dəstək idi, bu, terrora qarşı mübarizəyə dəstək idi və Azərbaycan əlində olan imkanları terrora qarşı mübarizəni sürətləndirmək və gücləndirmək üçün ABŞ-a təklif etdi. Vaşinqtonda olduğum bir neçə gündə çoxlu görüşlərim oldu və həmin görüşlərdə də ölkələrimiz arasında əlaqələrin nə dərəcədə dərin olduğuna bir daha əmin oldum. Vitse-prezident Çeyni, enerji naziri Abraham, dövlət katibinin müavini cənab Armitac, milli təhlükəsizlik məsələləri üzrə müşavirin müavini cənab Hedli, dostumuz senator Heqel ilə görüşlərim oldu, həm də Dünya Bankında, Beynəlxalq Valyuta Fondunda görüşlər keçirildi. Beynəlxalq Maliyyə Korporasiyasının icraçı direktoru cənab Voyken ilə görüş keçirdim. Mənimçün çox xeyirli və maraqlı görüş oldu. Dünən Mərkəzi Asiya və Qafqaz üzrə Con Hopkins Universitetində, ev sahibi rolunu böyük dostumuz Star oynayırdı. Və bu 3 gündəki bütün görüşlər, proqram çox sıx idi. Bu bir daha göstərdi ki, ABŞ hökuməti bizə tam dəstək verir. ABŞ isteblişmenti, qanunvericiliyi bizim ölkədə həyata keçirdiklərimizə dəstək verir. Və mən əminəm ki, ölkələrimiz arasında bu münasibət və əməkdaşlıq daha da genişlənəcək və həyatımızın bütün sahələrini əhatə edəcək. Burada qeyd olunduğu kimi, Azərbaycan mineral ehtiyatlarla zəngin ölkədir: neft və qazla. Amma bizim üçün 1994-cü ildə bu layihələri başlayarkən, ən vacib məsələ dəniz dibində olan bu mineral ehtiyatları iqtisadi

vəziyyəti yaxşılaşdırmaq üçün necə istifadə etmək idi. Necə edəydik ki, ehtiyatlar ölkəmizin təhlükəsizliyini təmin etsin, regiona təhlükəsizlik gətirsin. Və xarici partnyorlarımızla birlikdə 8 illik bu yorulmaz işdən sonra çox şadıq ki, 1994-cü ildə gündəlikdə olan məsələlər indi uğurla həyata keçir. Bəlkə o zaman çoxları inanmırdı ki, bunu həyata keçirmək olar, bu, mümkündür. Qarşımızda o qədər çətinlik vardı ki, o qədər təhlükə dururdu ki, həmin zaman Azərbaycan vəsait yatırılması üçün olduqca təhlükəli bir ölkə idi. Bununla belə biz öz tərəfimizdən yaxşı sərmayə mühiti yarada bildik şirkətlər üçün. Və şirkətlər də böyük sərmayələrini gətirdilər və Azərbaycana yatırdılar. Artıq Azərbaycana 6 milyard dollar vəsait yatırılıb və bu yatırım əsas etibarı ilə ölkədəki iqtisadi vəziyyəti xeyli düzəldib. Və bu gün Azərbaycandakı ümumi iqtisadi vəziyyət haqqında danışsaq, istəmirəm çoxsaylı rəqəmləri burada sadalayım, bu rəqəmləri dünən saymışam. Lakin bir rəqəmi nəzərinizə çatdıracağam. Bu vacib rəqəmdir. Son 6 ildə Azərbaycanda ümumi daxili məhsul 64 faiz artmışdır. Bu da ildə 10 faizdən artıq edir. 6 ildir ki, bu artım davam edir. Bu göstərir ki, ölkə inkişaf edir, ölkə gəlir əldə edir bu ehtiyatlardan. Ehtiyatlar yalnız inkişaf etdirilərsə, beynəlxalq ticarət bazarlarına çatdırılarsa, gəlir gətirər. Ona görə də gündəliyimizdə olan nəql mövzusu həmişə bir nömrəli mövzu olmuşdur. Və bu gün fərəh hissi ilə deyə bilərik ki, iki işlək boru

kəmərimiz var. Onlar neftimizi beynəlxalq bazarlara çıxarırlar və nazir Abrahamın iştirakı ilə əsas ixrac kəmərinin Bakıdan Gürcüstan vasitəsilə Türkiyənin Ceyhan limanına gedən və bizə ən azı günə bir milyon barel neft ixrac etməyə imkan verən kəmərin gözəl inauqurasiya mərasimi keçirildi. Əlbəttə ki, ölkəmizə gələn gəlir artacaq. Əlbəttə ki, insanlarımızın həyat tərzi yaxşılaşacaq. Əvvəl qeyd etdiyimiz kimi, bu, regiona təhlükəsizlik gətirəcək. Geosiyasi vəziyyətə möhkəm təsir edəcək. Artıq təsir edir. Və mən əminəm ki, biz bu layihəni vaxtında tamamlayacağıq. Bu gün bizim beynəlxalq neft şirkətləri ilə əmək-daşlığımızın bəhrəsi insanlara aydın görsənir. Bu gün neftdən gələn gəlirlər artıq ölkəmizin ən mühüm ehtiyaclarına xərclənir. İlk növbədə qaçqınlarımızın ehtiyaclarıdı və 70 milyondan artıq vəsait bu məqsədlər üçün ayrılıbdır. Yəni Ermənistanın irticası nəticəsində yaşayış yerlərini itirmiş evsiz insanlar üçün yeni evlərin tikilməsi, yeni məktəblərin açılması, yeni xəstəxanalar, yeni yollar, yeni infrastruktur. Bu irticanın nəticəsi kimi ərazilərimizin 20 faizi erməni silahlı qüvvələrinin işğalı altındadır. Və Azərbaycanın bir milyon əhalisi qaçqındır. Bu böyük faciədir bizim ölkə üçün. Bu, böyük ədalətsizlik aktıdır. Bu gün XXI əsrdə bir ölkənin digərinin ərazisini işğal etməsinə nə ad vermək olar? Əlbəttə ki, qaçqınlara öz daimi yaşayış yerlərinə qayıtmaq imkanı verilməlidir və sizə deyə bilərəm ki, işğal olunmuş

ərazilərdə 9 mindən artıq şəhər, kənd, qəsəbə erməni silahlı qüvvələri tərəfindən yerlə yeksan edilmişdir. Bu irticanın nəticələri belədir. Bu gün biz əlimizdən gələni edirik ki, məsələ sülh yolu ilə həll olunsun. Münaqişənin həll olunması mandatına malik olan ATƏT-in Minsk qrupu məsələnin həllini sürətləndirmək üçün çalışır. Amma çalışsa da, nəticə hələ əldə olunmayıbdır. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması fikrinə qəti sadiqliyini ifadə edir, amma bizim dözümümüzün də sonu var. Biz ərazilərimizin işğal altında olmasına dözə bilmərik. Biz heç vaxt ərazi bütövlüyümüzün kobudcasına pozulmasına razı ola bilmərik. Geci-tezi sülh danışıqları vasitəsilə və yaxud da hər hansı bir başqa yolla torpaqlarımızı azad edəcəyik. Əlbəttə ki, bunu etmək üçün bizə güclü beynəlxalq dəstək lazımdır. Bizə güclü gur səs lazımdır. Elə olsun ki, reallıq, həqiqətlər geniş kütləyə, proseslərə, qərarlara təsir edə biləcək qüvvələrə çatsın. Buradakı səfirliyimiz bizim həqiqətləri burada yaymaq işində böyük işlər görüb. Göstərə biliblər ki, biz bu müharibənin həqiqi qurbanlarıyıq. Və mən əminəm ki, burada nə qədər tez-tez görüşsək, məsələ bir o qədər tez həll olunar. Bu vəziyyətlə razılaşmaq olmaz. Avropada Avropa Şurasının bir üzvü olan ölkə Avropa Şurasının digər üzvü olan ölkənin ərazisini işğal etsin və bununla bağlı heç bir qərar da qəbul edilmir və heç bir şey də baş vermir. Biz əminik ki, bu məsələ həll

olunacaq və Azərbaycan qaçqınları evlərinə qayıtmaq imkanı əldə edəcəklər. Bizim ölkəmizdə böyük potensial var. Xüsusilə də nəzərə alsaq ki, biz cəmi 11 ildir ki, müstəqilik. Düzdür, bizim xalqın qədim tarixi var, böyük mədəniyyətə malikdir, ənənələri var. Amma biz illər boyu özümüzü müstəqil millət hiss etməkdən, müstəqilliyimizlə bağlı xoşbəxtlik və məğrurluq hissi keçirməkdən, öz bayrağımızın buradakı kimi, ABŞ bayrağı ilə yanaşı olmasından, BMT üzvü olmaqdan, beynəlxalq təşkilatların tam haqlı üzvü olmaqdan məhrum idik. Müstəqillik nəsildən-nəslə keçərək, azərbaycanlıların can atdığı, arzuladığı bir məqam idi. Biz müstəqilliyimizi çox yüksək qiymətləndiririk. Biz əlimizdən gələni edirik ki, müsəqilliyimizi qoruyub saxlaya bilək. Bildiyiniz kimi, yaşadığımız region heç də dünyada ən təhlükəsiz regionlardan hesab olunmur. Region münaqişələrlə doludur və regiondakı stabilliyi bu gün də möhkəmlətməyə ehtiyac vardır. Və Azərbaycan regionun mərkəzinə çevrilir. Elə yerə çevrilir ki, burada yollar kəsişir. Ona görə də Azərbaycanın geosiyasi əhəmiyyəti, xüsusilə də yalnız coğrafi vəziyyəti deyil, həm də tükənməz enerji resurslarının və artıq mövcud olan enerjidaşıma vasitələrini nəzərə alsaq, görərik ki, artıq Azərbaycanın geosiyasi əhəmiyyəti müəyyən olunubdur. Gələcək üçün Azərbaycan əhəmiyyətli ölkə olacaq. Azərbaycan dünya bazarlarına alternativ neft təchizatçısıdır. Mən

əminəm ki, Azərbaycan Avropa bazarını alternativ qazla təchiz edəcək. Və bunu etməklə ölkəmiz daha da firavan, xalqımız daha yaxşı yaşayacaq və regionumuz daha təhlükəsiz olacaqdır və bir daha əvvəldə dediyimi təkrar etmək istəyirəm, bütün bu təşəbbüsləri, bütün bu planları həyata keçirərkən onların bir hissəsi həyata keçibdir, eləcə də gələcək üçün nəzərdə tutulan planlara görə ABŞ-ın dəstəyi mühüm əhəmiyyət kəsb edir. Keçmişdə də belə olub, bu gün də belədir, gələcəkdə də belə olacaq. Mən əminəm ki, birgə səylərlə, regional əməkdaşlıq vasitəsilə biz məqsədlərimizə nail ola biləcəyik. Biz elə şərait yaradacayıq ki, Cənub Qafqaz regionu artıq münaqişələr regionu olmayacaq. Əksinə, sülh regionu olacaq. Sizin vaxtınızı çox almaq istəmirəm. Bir daha sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Bu dəvəti qəbul etdiyinizə görə sağ olun. Mən Vaşinqtonda olmağımdan, dostlarımla görüşməkdən məmnunam, 8 il birlikdə işləyərək ümumi məqsədlərə çatdığımız tanışları görmək çox xoş idi. Çox sağ olun və sizə ən xoş arzularımı yetirirəm.

*İlham Əliyevin çıxışı alqışlarla qarşılanır.*

TİM SEYKA: – Daha çıxış olmayacaq. Mən, sadəcə, buraya çıxdım ki, sizin hamınıza diqqətinizə görə minnətdarlığımı bildirim. Bu artıq bizim proqramın sonudur və həqiqətən məmnunuq ki, hamınız gəldiniz. Bir az şərab için, müzakirə

edin. Özümlə badə götürməmişəm, masamdan mənə bir badə ötürsələr, tost deyərdim. Çox sağ olun Kris. Gərək həmişə hazır sağlığın olsun. Axşam davam etdikcə sağlıq demək zərurətə çevrilir. Hekayələr də uzanır. Mən birinci sağlıq deyən adam kimi çalışacam bunu qısa edim. Azərbaycan və ABŞ arasında böyük tərəqqi əldə olunubdu. Bu, layiqli xalqları birləşdirən əməkdaşlıqdır. Bu, layiqli adamlar birlikdə olmalıdırlar. Bu gün buradakı adamların hamısına baxaraq belə düşünmək istəyirəm ki, biz Azərbaycan üçün hələ çox işlər görə bilərik. Bununla da çox uğurlu gələcəyin şərəfinə.

*Rəsmi qəbuldakı fraqmentlərdən sonra İlham Əliyevin idmançılarla görüşü göstərilir.*

MƏTN: – Rəsmi qəbuldan sonra İlham Əliyev Azərbaycanın ilk peşəkar boksçuları, hazırda ABŞ-da yaşayan, Emil və Rüfət İsrafilbəyov qardaşları ilə görüşüb, onların rinqdə son uğurları ilə maraqlanıb. Peşəkar idmanda qələbələrinə qəlbən sevindiyini bildirib. İsrafilbəyov qardaşları Azərbaycan idmanını beynəlxalq miqyasda, o cümlədən ABŞ-da getdikcə daha çox tanıtdıqlarından qürur duyduqlarını söyləyiblər. Onlar vətəndən uzaqda olsalar da, respublikamızla daim maraqlandıqlarını bildirib, idmanımızın inkişafı yolunda görülən nəhəng quruculuq işlərindən xəbərdar olduqlarını deyiblər.

Azərbaycan idmanının tərəqqisi naminə İlham Əliyevin xidmətlərini Emil və Rüfət İsrafilbəyovlar xalqın sağlam gələcəyi üçün möhkəm bünövrə kimi dəyərləndirib, İlham Əliyevlə fəxr etdiklərini bildiriblər.

*Respublika Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev həmvətənlərimizə lazımi yardım göstərməyə hazır olduğunu söyləyib, onlara peşəkar rinqdə yeni qələbələr arzulayıb.*

MƏTN: – ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyev Amerika konqresində xarici əlaqələr komitəsinin İpək yolu işçi qrupunun, büdcə təxsisatları komitəsinin təmsilçiləri ilə görüşdü. Söhbət zamanı İlham Əliyev bildirdi ki, 907-ci maddənin qüvvəsinin dayandırılması Amerika-Azərbaycan əlaqələrinin inkişafına səbəb olmuşdur. Beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlıq da bunu aydın göstərir. Milli Məclisin deputatı Cənubi Qafqaz və Xəzər hövzəsində coğrafi, siyasi vəziyyət, xüsusilə də Azərbaycanın öz qonşuları ilə münasibətlərinə dair ətraflı məlumat verdi. O vurğuladı ki, həyata keçirilən enerji layihələri bölgədə sabitliyin yaranması üçün müsbət amildir.

ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev ölkəmizin iqtisadi nailiyyətlərindən də bəhs edərək qeyd etdi ki, bazar iqtisadiyyatı Azərbaycanın strateji seçimidir və ölkə bu yoldan dönməyəcək. İlham Əliyev axırda görüş iştirakçılarının çoxsaylı suallarına cavab verdi.

*ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin Azərbaycanın ABŞ səfirliyindəki görüşündən fraqmentlər verilir. Mətnə keçid edilir.*

MƏTN: – ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev ölkəmizin Vaşinqtondakı səfirliyindən Milli Demokratiya İnstitutu, Beynəlxalq Respublikaçılar İnstitutu və seçki sistemləri üzrə Beynəlxalq fondun nümayəndələri ilə görüşdü. Azərbaycanda demokratik inkişafdan söhbət açan İlham Əliyev xatırlatdı ki, müstəqilliyimizin ilk illərində Ermənistanın hərbi təcavüzü, ölkəmizdə qanunsuz silahlı dəstələrin olması, separatçı qüvvələrin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığını təhlükə qarşısında qoymuşdu. Hazırkı iqtidar hakimiyyətə gəldikdən sonra ictimai sabitlik bərpa edildi, ölkədə iqtisadi, demokratik islahatlar həyata keçirilməyə başlandı. Milli Məclisin üzvü qeyd etdi ki, Azərbaycan hökuməti demokratiyanın inkişafı istiqamətində müntəzəm və ardıcıl tədbirlər görür. Ölkəmizdə çoxsaylı siyasi partiyalar mövcuddur, senzura aradan qaldırılıb, azad mətbuat fəaliyyət göstərir, dini azadlıqlar təmin edilib. Bütün bunlar Azərbaycanın ərazisinin 20 faizinin işğal altında olduğu, bir milyon vətəndaşımızın qaçqın və köçkünə çevrildiyi, ölkəmizə xaricdən daimi təzyiqlər edildiyi şəraitdə həyata keçirilir. Avropa Şurası Parlament Assambleyasının payız sessiyasında Milli Məclisin nümayəndə heyəti-

nin iştirakı haqqında da ətraflı söhbət açan İlham Əliyev demişdir ki, ölkəmizin bu beynəlxalq qurumda üzvlüyü Azərbaycanda demokratik proseslərə müsbət təkan verir. Milli Məclisin deputatı ümid etdiyini bildirib ki, ABŞ-ın qeyri hökumət təşkilatları, xüsusən Milli Demokratiya İnstitutu Azərbaycanda təkcə müxalifət partiyaları ilə deyil, iqtidaryönlü partiyalarla da əlaqə quracaq.

Millət vəkili İlham Əliyev ölkəmizin Vaşinqtondakı səfirliyində Amerika-Yəhudi təşkilatlarının nümayəndələri ilə görüşdü. O, yəhudi icmasının nümayəndələrinə Vaşinqtonda yüksək səviyyəli rəsmilərlə apardığı müzakirələrdən danışdı. Sonra İlham Əliyev ölkəmizin iqtisadiyyatındakı irəliləyişlər, xüsusən, Xəzərin enerji ehtiyatlarının işlənməsinə dair layihələrin həyata keçirilməsində əldə olunan nailiyyətlər barədə məlumat verdi. ABŞ-la antiterror mübarizəsində əməkdaşlığın, habelə enerji və təhlükəsizlik sahələrində tərəfdaşlığın möhkəmləndiyini söyləyən İlham Əliyev məmnuniyyətlə bildirdi ki, konqres tərəfindən qəbul edilən ədalətsiz 907-ci maddənin qüvvəsi dayandırıldıqdan sonra ölkələrimiz arasında münasibətlər yeni mərhələyə qədəm qoyub. İlham Əliyev ABŞ-dakı yəhudi təşkilatlarının nümayəndələrini 907-ci maddənin tamamilə aradan qaldırılması məsələsində Azərbaycanı gələcəkdə də dəstəkləməyə çağırdı.

*   *   *

MƏTN: – Amerikanın kütləvi informasiya vasitələrinin İlham Əliyevin bu səfərinə marağı çox böyük idi. ABŞ sakinləri dünyanın tanınmış «CNN» telekanalı ilə canlı yayımda İlham Əliyevlə xüsusi müsahibəyə baxdılar.

APARICI: – Xəzər regionu dünyanın neft istehlakçısı ölkələrinə böyük vədlər verir. Elə ötən ay 3 milyard dollarlıq boru kəmərinin əsası qoyulub. Xəritədən gördüyümüz kimi, Xəzər bir neçə ölkənin əhatəsindədir. Bu layihə ətrafında danışmaq üçün bizimlə birgə İlham Əliyev buradadır. O, ARDNŞ-in vitse-prezidentidir. Cənab Əliyev, bizə qoşulduğunuza görə çox sağ olun. Cənab Əliyev, bir qədər əvvəl xəritəyə baxırdıq. Gəlin bu layihə ətrafında danışaq.

İLHAM ƏLİYEV: – Sovet İttifaqının dağılmasından əvvəl Xəzər sahilində iki dövlət var idi: SSRİ və İran. SSRİ dağılandan sonra indi beş Xəzəryanı dövlət var: Azərbaycan, Rusiya, İran, Türkmənistan və Qazaxıstan. Bizim mövqeyimiz həmişə belə olmuşdur ki, Xəzəryanı ölkələrin hər birinin Xəzər dənizində öz sektoru olmalıdır və hər ölkə həmin sektordan öz resurslarını istifadə etməlidir. Bu mövqe özünün düzgün olduğunu sübut etdi. Biz milyardlarla xarici sərmayəni cəlb edə bildik. Biz Xəzərdən neftimizi dünya bazarına apara bilən iki boru kəməri tikdik. Hal-hazırda ƏİK üzərində işləyirik ki, o da gələcəkdə bizə milyardlarla barrel nefti dünya bazarına çıxarmaq imkanı verəcəkdir.

SUAL: – Xəzəryanı ölkələrin hamısı bu və ya digər şəkildə münaqişələrdədir. ABŞ-ın Xəzərdəki

neft layihələrində iştirakı üçün siz nə etdiniz?

İLHAM ƏLİYEV: – Biz neft yataqlarımızı 1994-cü ildən inkişaf etdirməyə başladıq. Bütün dünyadan neft şirkətlərini bu işə dəvət etdik. Əsas etibarilə ABŞ, Böyük Britaniya və Avropa şirkətlərini. Elə o zamandan etibarən neft istehsalını nəzərə çarpacaq dərəcədə artırmağa müvəffəq olmuşuq və onu iki boru xətti ilə ixrac edirik. Üzərində işlədiyimiz ƏİK isə Azərbaycan neftini Bakıdan Gürcüstana, Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına daşıyacaqdır. Bu dünya bazarı üçün alternativ neft təchizatı deməkdir. Qeyd etdiniz ki, ,ərazi etnik münaqişələrlə doludur. Azərbaycan da Ermənistanla münaqişədən əziyyət çəkir. Ermənistan Azərbaycanın 20 faiz ərazisini işğal edib və bu əraziləri işğal altında saxlayır. Buna baxmayaraq, biz xarici sərmayəçiləri inandıra bildik ki, Azərbaycana sərmayə yatırsınlar. Artıq 6 milyard dollar sərmayə qoyulub. 3-4 ilə daha on milyard sərmayənin yatırılacağı gözlənilir. 2005-ci il üçün Azərbaycandan Aralıq dənizinə gedən boru kəməri hazır olacaq, istifadəyə veriləcək.

SUAL: – Cənab Əliyev, maraqlıdır. Layihələr inkişaf etdirildikdən sonra nə qədər neft istehsal olunacaqdır? Stabilliyi ilə fərqlənməyən Yaxın Şərq regionunu necə geridə qoymaq fikrindəsiniz? Siz elə indicə ölkənizdə istehsal olunacaq böyük neft bumunu qeyd etdiniz. Yaxın 10 ildə regionda nə qədər neft gözlənilir?

İLHAM ƏLİYEV: – Elə bilirəm ki, bu rəqəm daha böyük ola bilər. Xəzərdə neft istehsal edən ölkə təkcə Azərbaycan deyil. Qazaxıstan, Türkmənistan da var. Yalnız Azərbaycan haqqında danışsaq, gündə bir milyon barrel minimum rəqəmdir. Beş il bundan sonra yenicə inkişaf etdirilməyə başlanan yataqlar məhsul vermə həddinə çatacaqlar. Bu da rəqəmi günə bir milyon barreldən artıq etməyə imkan verəcəkdir. Praktiki olaraq bu rəqəm qat-qat böyük olacaqdır. İkinci məsələ: biz heç zaman qarşımıza məqsəd qoymamışıq ki, hər hansı digər neft istehsalçısı ilə rəqabətə girək. Biz öz işimizi görürük, möhkəm iqtisadiyyat qururuq, neftimizin beynəlxalq bazara daşınmasını sürətləndiririk. Və yəqin ki, bu, bizim ölkəyə firavanlıq, regiona sülh gətirəcəkdir.

APARICI: – Cənab İlham Əliyev, bağlantıya görə minnətdaram. Sağ olun.

*Respublikamızın ABŞ-dakı səfiri Hafiz Paşayev Milli Məclisin deputatı İlham Əliyevin Vaşinqtona uğurlu səfərinin yekunlarını şərh etdi.*

HAFİZ PAŞAYEV: (Respublikamızın ABŞ-dakı səfiri) – Ümumiyyətlə, onu deyə bilərəm ki, bu, çox uğurlu bir səfər oldu. Bilirsiniz ki, indi Vaşinqtonda müxtəlif hadisələr baş verir. İraqla bağlı məsələlər, terrorçunun törətdiyi ölüm hadisələri və s. Buna görə də Amerikanın kütləvi informasiya vasitələri ölkənin öz məsələləri, problemləri ilə məşğuldur. Ona görə hazırda

burada çətin bir vaxtdır. O mənada ki, rəsmilərin və qeyri-rəsmilərin diqqətini ayrı bir mövzuya, ayrı səmtə yönəltmək çox ağır bir işdir. Amma mən böyük məmnunluqla demək istəyirəm: İlham Əliyevin Vaşinqtona səfəri böyük maraq doğurmuşdur və nəzərdə tutulan proqram yüz faiz həyata keçmişdir. Bu, çox nadir hadisədir. Onu demək istərdim ki, səfər Amerika-Azərbaycan münasibətləri üçün çox mühüm bir səfər oldu.

Bilirsiniz ki, Azərbaycan ilə ABŞ arasında artıq tərəfdaşlıq münasibətləri yaranmışdır. Xüsusən Azərbaycan antiterror koalisiyasına qoşulduqdan sonra ABŞ Azərbaycanı özünə çox yaxın bir ölkə, tərəfdaş sayır və İlham Əliyevin Vaşinqtona səfəri vaxtında həyata keçirilən bir səfərdir.

Səfər müddətindəki bir neçə görüşü mən xüsusi qeyd etmək istərdim. İlk növbədə Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti ilə görüş barədə deyim. Bilirsiniz ki, cənab Dik Çeyni Amerikanın daxili və xarici siyasətində çox böyük rol oynayan bir şəxsdir. Belə bir statusa malik, belə yüksək vəzifə tutan şəxslə İlham Əliyevin görüşü çox vacib idi. Görüş zamanı Azərbaycan-Amerika münasibətləri, ölkəmizdə aparılan islahatlar, dövlətimizin daxili və xarici siyasətinə aid məsələlər, ölkəmizin neft strategiyası ilə bağlı görülən işlər, Azərbaycanın ABŞ-la birlikdə terrora qarşı mübarizəsi və başqa məsələlər müzakirə olunmuşdur.

Köhnə dostlar kimi cənab Çeyni və İlham Əliyev əvvəllər keçirdikləri görüşlər haqqında təəssüratlarını yada salmışlar. Bu görüşü mən iki dostun görüşü kimi qiymətləndirirəm.

Amerikanın energetika naziri Spenser Abrahamla, bizim dostumuz, dövlət katibinin birinci müavini Riçard Armitacla görüşlərdə Azərbaycan-Amerika münasibətlərinə dair geniş müzakirələr aparılmış və həmsöhbətlər bir daha təsdiq etmişlər ki, ölkələrimiz arasında münasibətlər bundan sonra da inkişaf edəcəkdir.

Bundan əlavə, mən xüsusi qeyd etmək istərdim ki, İlham Əliyevlə müdafiə nazirinin birinci müavini Vulfovitsin görüşündə ölkəmizin təhlükəsizliyi, Amerika ilə Azərbaycan arasında təhlükəsizlik və hərbi məsələlər üzrə əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Bu görüş də çox dəyərli və əhəmiyyətlidir. Görüş bu sahədə artan əlaqələrimiz üçün çox mühüm olmuşdur.

İlham Əliyev maliyyə nazirinin müavini cənab Kennet Dam ilə, ticarət nazirinin müavini cənab Samuel Bodmanla çox işgüzar görüşlər keçirmişdir.

Dediyim kimi, görüşlər çox olmuşdur. 4 gün ərzində iki həftənin proqramı həyata keçirilmişdir. Amma bir görüş haqqında da öz fikrimi xüsusi demək istərdim. Səfərin birinci günü İlham Əliyevlə Amerikanın çox məşhur siyasətçiləri, dövlət xadimləri, alimləri bir yerə yığışıb nahar süfrəsi arxasında ətraflı söhbət etmişlər. Söhbət zamanı Azərbaycan-Amerika mü-

nasibətlərinin bugünkü durumu, gələcəyi və çətinliklərin aradan qaldırılması məsələləri müzakirə edilmişdir.

Bu görüşün əhəmiyyəti barədə danışarkən deyim ki, onu bizimlə həmişə təmasda olan cənab Bzejinski təşkil etmiş və özü də bunu aparmışdır. Müzakirələrdə keçmiş dövlət katibi xanım Olbrayt, keçmiş müdafiə naziri cənab Koyen, keçmiş milli təhlükəsizlik şurasının sədri Brent Skoukroft və tanınmış alimlər doktor Fredrik Star və akademik Roald Saqdeyev iştirak etmişlər. Bu görüş İlham Əliyevin sonrakı görüşlərinə təsir etmiş, orada qaldırılan məsələlər digər görüşlərdə də qaldırılmış və ümumiyyətlə, səfərin yaxşı keçməsində müsbət rol oynamışdır.

Onu da əlavə etmək istəyirəm ki, Amerikanın kütləvi informasiya vasitələrinin bu səfərə marağı çox böyük idi. CNN televiziyası İlham Əliyevdən xüsusi müsahibə almış, «Uoll-strit corner» və «Filadelfiya inkuayrer» kimi məşhur qəzetlərin nümayəndələri İlham Əliyevlə müsahibələri Amerika oxucularına təqdim etmişlər.

İlham Əliyevin bu səfəri Con Hopkins Universitetinin və Amerika-Azərbaycan Ticarət Palatasının dəvəti ilə həyata keçirilmişdir. Məhz bu iki təşkilat böyük bir ziyafət vermişdir. İlham Əliyevin həmin ziyafətdəki çıxışı onun yetişmiş bir siyasətçi olduğunu bir daha göstərdi. Con Hopkins Universitetindəki çıxışında olduğu kimi, bu dəfə də İlham Əliyev Azərbaycanın gələcəyini necə gördüyünü açıqlamışdır.

Bir daha demək istəyirəm ki, səfər çox uğurlu idi. Mən əminəm ki, Azərbaycan televiziyasının tamaşaçıları bu səfər haqqında dolğun məlumat alacaqlar. Respublikamızın ictimaiyyəti Vaşinqton görüşlərinin nəticələrini bəyənəcəkdir.

MƏTN: – Oktyabrın 24-də ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin Vaşinqtona səfəri uğurla başa çatdı. Onun səfəri iki ölkə arasında münasibətlərin daha da inkişaf etməsinə təkan verəcəkdir.

SON

*2003-cü il*

## SABAHA İNAMLA

### Üçüncü film

*Kamera Ağ evin üstündəki ABŞ bayrağından tədricən uzaqlaşır.*

Titr: ***Vaşinqton, oktyabr 2002-ci il***

*İkili təsvirlə Azərbaycanın ABŞ-dakı səfirliyinin binası… İri planda ingilis dilində «Azərbaycanın səfirliyi» sözləri yazılmış lövhə görünür. Səfirlik binasının panoramı…*

MƏTN: – Oktyabr, 2002-ci il… Vaşinqton… Azərbaycanın ABŞ-dakı səfirliyi… Bir azdan burada Amerikanın ən nüfuzlu siyasi xadimləri ilə AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin çox mühüm görüşləri başlanacaq.

*ABŞ-ın tanınmış siyasətçilərinin bir-bir səfirliyə gəlişi.*

***Titrlə və mətnlə:***

**ZBİQNEV BJEZİNSKİ**

Sabiq Amerika prezidenti Cimmi Karterin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri.

ABŞ-da və dünyada kifayət qədər tanınmış və nüfuzlu politoloq.

Con Hopkins Universitetinin professoru, Vaşinqton

Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin aparıcı tədqiqatçısıdır.

**MADLEN OLBRAYT**

Bill Klinton hökumətində ABŞ prezidentinin sabiq dövlət katibi. Corcdaun Universitetinin professoru.

1993-96-cı illərdə ABŞ-ın BMT-dəki daimi nümayəndəsi. Hazırda Milli Demokratiya İnstitutunun rəhbəridir.

**UİLYAM KOEN**

Prezident Bill Klinton hökumətində sabiq müdafiə naziri. 1972-78-ci illərdə Nümayəndələr Palatasının üzvü. 1978-96-cı illərdə ABŞ konqresinin senatoru. Hazırda Beynəlxalq siyasət barədə məsləhətlər verən «Koen Qrup» şirkətinin rəhbəridir.

**GENERAL BRENT SKOUKROFT**

ABŞ prezidentləri Fordun və Corc Buşun Milli Təhlükəsizlik üzrə sabiq müşaviri.

Prezident Nikson hökumətində hərbi məsələlər üzrə prezidentin köməkçisi.

Aviasiya general leytenantı.

Hazırda Beynəlxalq münasibətlər sahəsində ixtisaslaşan «Skoukroft Qrup» firmasının rəhbəridir.

**ROALD SAQDEYEV**

Akademik, «Silk Sat» – İpək Yolu ölkələrinin rabitə sistemi layihəsinin müəlliflərindən biri.

1960-80-ci illərdə keçmiş SSRİ-də kosmik tədqiqatlar sahəsində aparıcı alimlərdən olub.

Hazırda Merilend Ştatı Universitetində «Şərq-Qərb» elm və texnika mərkəzinin başçısıdır.

**FREDRİK STAR**

Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmalar İnstitutunun rəhbəri.

Beynəlxalq münasibətlərə dair 18 kitabın və 180-dən çox məqalənin müəllifi.

Postsovet Rusiyasının öyrənilməsi üzrə aparıcı elmi-tədqiqat mərkəzlərindən biri olan Kennan adına Vaşinqton İnstitutunun banisi.

**BRENDA ŞAFFER**

Harvard Universitetinin Xəzər proqramının tədqiqatları üzrə direktoru.

Qafqazdakı vəziyyətə həsr olunmuş bir sıra kitabların və monoqrafiyaların müəllifi.

*İlham Əliyev Azərbaycanın ABŞ-dakı səfirliyində bu ölkənin tanınmış siyasi xadimlərini qəbul edir. Onların ayaqüstü söhbətləri ekrana verilir. Onlar stol arxasında danışıqları davam etdirirlər.*

MƏTN: – Bu gün millət vəkili İlham Əliyevin əlini sıxan ABŞ-ın tanınmış siyasi xadimlərinin onunla bu dəfəki görüşə böyük marağı ilk anların səmimiyyətindən aydın hiss olunur. İlham Əliyev əhatəsində dayandığı bu nüfuzlu şəxslərə Azərbaycan həqiqətlərini onların öz ana dilində çatdırır. ABŞ siyasi elitasının nümayəndələri İlham Əliyevi diqqətlə dinləyir, tutarlı faktların, əsl həqiqətin, səlis məntiqin

qarşısında təəccüblənməyə bilmirlər. Dünya səviyyəli bu siyasətçilərin diqqətini çəkmək, onların marağına səbəb olmaq bacarığı İlham Əliyevin yetkin siyasətçi məharətini bir daha göstərir. Ermənistanın ərazi iddialarının əsassızlığı, münaqişə nəticəsində ölkəmizdə qaçqın və köçkünə dönmüş 1 milyon vətəndaşın vəziyyəti barədə İlham Əliyevin verdiyi açıqlamalar görüş iştirakçılarının diqqətini regionda baş verən hadisələrin əsl mahiyyətinə yönəltdi. Görüşdən böyük təəssüratlarla ayrılan ABŞ-ın siyasiləri Azərbaycan reallıqlarının mənzərəsinin İlham Əliyev tərəfindən güclü siyasətçi kimi dəqiq təsvir edildiyini etiraf etdilər.

BRENT SKOUKROFT (tanınmış siyasi xadim): – Biz İlham Əliyev ilə çox maraqlı görüş keçirdik. Azərbaycanın perspektivləri, ümumiyyətlə, region haqqında səmərəli fikir mübadiləsi apardıq. Mən bu müzakirələrdən çox məmnun qaldım. Anlayıram ki, indi çox mürəkkəb dövrdür. Lakin mən Azərbaycanın gələcəyinə nikbin baxıram. İlham Əliyev bizə güclü siyasətçi təəssüratı bağışladı. O, bizə region və ölkəsi haqqında dəqiq, tutarlı və çox ətraflı məlumatlar verdi.

*TİTR*

## *SABAHA İNAMLA*

*Strasburq şəhərinin panoramı. Günəşin doğulması. Avropa Şurası Parlament Assambleyasının binası. Heydər Əliyevin iştirakı ilə Avropa Şurası Parlament Assambleyasının qarşısında Azərbaycan bayrağının qaldırılması mərasimindən kadrlar. Keçid: AŞPA-nın boş zalının panoramı. Kadr qara fona yığılır. Yenidən açılanda AŞPA-nın binası görünür.*

MƏTN: – 2001-ci il. Strasburq… Azərbaycan tarixində çox mühüm və əlamətdar olan bir gün… Azərbaycan prezidenti Heydər Əliyevin uzunmüddətli və gərgin əməyi sayəsində müstəqil respublikamızın Avropa ailəsinə tam hüquqlu üzv qəbul olunduğu, üçrəngli bayrağımızın Avropa ölkələrinin bayraqları arasında dalğalandığı tarixi anlar…

Nəhayət ki, Azərbaycan həqiqətlərini Avropaya, eləcə də bütün dünyaya çatdırmaq üçün ölkəmiz nüfuzlu bir təşkilatda mötəbər tribuna qazandı… Bir müddət sonra bütün Avropa və dünya ölkələri bu salondan Milli Məclisin deputatı, AŞPA-dakı parlament nümayəndə heyətinin rəhbəri İlham Əliyevin dilindən Azərbaycan həqiqətlərini eşidəcəklər.

İLHAM ƏLİYEV (ARDNŞ-in birinci vitse-prezidenti): – Mən sizin diqqətinizi bizim təhlükəli vəziyyətimizi göstərən bir neçə fakta yönəltmək istərdim.

Birinci. Dağlıq Qarabağ Respublikası deyi-

lən ərazidə narkotik bitkilərin yetişdirilməsi və daşınması üçün istifadə edilir. Bu fakt ABŞ Dövlət Departamentinin narkotik maddələr üzərində nəzarət strategiyasına dair 2000-ci il mart tarixli hesabatında öz ifadəsini tapmışdır.

Narkotiklə məşğul olan işbaz və tiryək alverçiləri orada özlərini təhlükəsiz və çox rahat hiss edirlər. Onları Dağlıq Qarabağ Respublikasının bədnam rəhbərləri müdafiə edir. Həmin rəhbərlər narkotiklərin satışından gələn pulları Azərbaycanın işğal olunmuş ərazilərini əldə saxlamaq və muzdlulara haqq ödəmək üçün istifadə edirlər.

İkinci. Yaxşı məlumdur ki, Rusiyanın keçmiş rəhbərliyi özlərinin müvafiq strukturlarına Ermənistana qanunsuz yolla bir milyon dollarlıq qanunsuz silah verməyə icazə vermişdilər. Həmin silahların çox hissəsi Dağlıq Qarabağda və Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilmişdir. Mən sual edirəm. Ermənistan və Dağlıq Qarabağ bu silahları almaq üçün bu qədər pulu hardan tapdı? Bu regiondakı vəziyyəti bilən hər kəsə aydındır ki, Ermənistanda iqtisadi vəziyyət çox pisdir. Ermənistan əsas etibarilə xarici yardımlar hesabına yaşayır. Daimi iqtisadi tənəzzül ucbatından yüz minlərlə adam Ermənistanı tərk edib. Cavab aydındır. Ya onlar həmin silahları pulsuz alıblar, ya da narkotiklərin satışından əldə edilən pulun hesabına.

Üçüncü. Dağlıq Qarabağda mövcud olan qanunsuz iqtisadi vəziyyət bu qondarma respublikanı çirkli pulların yuyulması sahəsində məş-

hurlaşdırıb.

Dördüncü. Ermənilər Dağlıq Qarabağ ərazisində silahlı birləşmələrə təlim keçirlər. Bu birləşmələr terrorizmə qarşı beynəlxalq mübarizə konvensiyalarından tamam kənardır.

Biz bütün Avropa strukturlarından xahiş edirik ki, erməni təcavüzkarlarının, işğalçılarının torpaqlarımızdan çıxması üçün, bir milyondan artıq azərbaycanlı qaçqının insan hüquqlarının bərpası üçün, torpaqlarımızdan cinayətkarların təmizlənməsindən ötrü ciddi, əməli tədbirlər görsünlər.

ASİM MOLLAZADƏ (AŞPA-dakı nümayəndə heyətinin üzvü, MM-in deputatı): – Mənə elə gəlir ki, AŞPA-da bu fikirlərin ifadə olunması Azərbaycandakı reallıqları dünyaya və Avropa ictimaiyyətinə çatdırır. Bu bizim üçün çox mühüm məsələdir. Hər zaman Azərbaycanda belə bir fikir var idi ki, biz müvafiq informasiya blokadasına alınmış dövlətik və Azərbaycan öz haqq səsini beynəlxalq ictimaiyyətə çatdıra bilmirdi. AŞPA-da artıq bu imkanlar yaranıb. Sessiyalarda, komitələrin toplantılarında, bir sıra ikitərəfli nümayəndə heyətlərinin görüşlərində və Avropa siyasətçiləri ilə təkbətək söhbətlərdə Azərbaycanın gerçəkliyini, haqlı mövqeyini və Azərbaycan xalqının Avropa dəyərlərini qəbul edib bu təşkilata səmimi üzvlüyünü onların diqqətinə çatdırırıq. Mənə elə gəlir ki, bunun çox böyük əhəmiyyəti var.

*AŞPA-da nümayəndə heyətimizin gərgin iş rejimini əks etdirən kadrlar. Müxtəlif komissiyalarda müxtəlif siyasətçilərlə görüşlərdən kadrlar. İlham Əliyevin çıxışlarından sonra ermənilərin düşdüyü vəziyyəti göstərən kadrlar və s.*

MƏTN: – Bəli, İlham Əliyevin bu çıxışından sonra nəzarətsiz ərazilərin, eləcə də Dağlıq Qarabağın bəşəriyyət üçün qorxunc olan terrorizm və narkobiznes təhlükəsinin yayılmasında mühüm amil olması bütün dünyaya bəyan oldu. Azərbaycan həqiqətlərinin çatdırılması naminə Avropa parlamentarları, AŞPA-nın rəhbərləri ilə müxtəlif görüşlər, ayrı-ayrı proyektlərin hazırlanması, müəyyən sənədlərin qəbul edilməsi və yayılması üçün İlham Əliyevin apardığı mühüm işlər onun tam siyasətçi kimi AŞPA-da Azərbaycan üçün gələcəkdə də böyük işlər görəcəyindən xəbər verir. Məhz İlham Əliyevin rəhbərliyi ilə AŞPA-dakı nümayəndə heyətimiz Azərbaycan həqiqətlərinin təkzibedilməz faktlarla dünyaya yayılmasına səfərbər edildi. Bu gün qazanılan hər bir uğur nümayəndə heyətinin rəhbəri kimi İlham Əliyevin gərgin fəaliyyətinin, beynəlxalq münasibətlər sahəsində zəngin təcrübəyə malik olmasının, yüksək təşkilatçılıq qabiliyyətinin və bir neçə xarici dili mükəmməl bilməsinin nəticəsidir. Artıq Avropa İlham Əliyevin qaldırdığı həqiqətlərə inanır. Avropada bir İlham Əliyev həqiqəti formalaşır. Elə bir həqiqət ki, yüz illər boyu iftiraları ilə bir sıra dünya xalqlarını haqdan sapındıran erməni sindromuna öldürücü zərbə endirə bilir.

MİXAİL QUSMAN (RİTA-SÖTA agentliyi baş direktorunun birinci müavini): – Biz onun öz ölkəsini, Azərbaycanın maraqlarını nə qədər sərt, məharətlə, peşəkarcasına, eyni zamanda yüksək diplomatik səviyyədə qoruduğunu yaxşı bilirik. O öz müsahiblərilə danışanda dəqiq sözlər, dəqiq mühakimələr, danışıq həddi tapa bilir və məncə, bunu son dərəcə ləyaqətlə, düşünülmüş şəkildə təqdim edir.

MƏTN: – Bütün bunlar İlham Əliyev şəxsiyyətinin, onun nümayəndə heyətimizin üzvlərini siyasi əqidəsindən asılı olmayaraq, vahid Azərbaycan ideyası ətrafında birləşdirə bilmək qabiliyyətinin, siyasətdə öz sözünü cəsarətlə deyə bilmək bacarığının təntənəsidir. AŞPA-da uğurlu siyasi gedişləri ilə çoxlu tərəfdaş toplayan İlham Əliyev Avropanın bir sıra dövlətlərini təmsil edən siyasətçilər arasında peşəkarlığı ilə böyük nüfuz qazana bilmişdir.

ANATOLİ RAXANSKİ (Ukraynanın AŞPA-dakı nümayəndə heyəti rəhbərinin müavini): – Mən İlham Əliyevi çoxdan tanıyıram. O, həqiqətən də AŞ-nın daxilində öz respublikasının maraqlarını müdafiə edən tərəqqipərvər, genişmiqyaslı düşüncə tərzinə malik bir insandır. Onu başqalarından fərqləndirən maraqlı cəhət budur ki, başçılıq etdiyi nümayəndə heyətini bir ideya ətrafında cəmləşdirməyi bacarır. Nümayəndə heyətinin hər bir üzvü bu və ya digər layihə, yaxud sənəd, ya da AŞPA-da qəbul edilən sənədlər barədə söz demək hüququna malikdir.

*Nümayəndə heyətimizin gərgin işini əks etdirən kadrlar…*

MƏTN: – Çox vaxt AŞPA-da iclaslararası fasilələrdə də gərgin işləmək lazım gəlir. Nümayəndə heyətinin rəhbəri kimi Avropa Şurasında Azərbaycan naminə qəbul edilməsi vacib olan hər bir sənədin hazırlanmasında siyasi baxışlarından asılı olmayaraq, bütün üzvlərin fikirlərini bilmək, onları dinləmək İlham Əliyevin yetkin siyasi keyfiyyətlərinin açıq təzahürüdür.

ASİM MOLLAZADƏ: – Mənim İlham bəylə çox normal və işgüzar münasibətlərim var. Bu da onunla bağlıdır ki, biz Azərbaycan naminə, onun mənafeyi ilə bağlı çox çətin iş görürük. Yüksək qiymətləndirirəm ki, bizim fərqli siyasi mövqeyimizə baxmayaraq, AŞPA-da və bir sıra beynəlxalq təşkilatlarda Azərbaycanın mənafeyi uğrunda birgə mübarizə apara bilirik. Mənə elə gəlir ki, bu çox müsbət bir haldır. Düşünürəm ki, hər bir azərbaycanlı fikir ayrılığına baxmayaraq, bu cür hərəkət etməlidir. Düşünürəm ki, Azərbaycan nümayəndə heyətinin rəhbəri buna nail ola bilib. Biz fikir ayrılıqlarına baxmayaraq, Azərbaycan dəyərləri uğrunda birgə mübarizə apara bilmişik.

*AŞ-nın iclas zalından müxtəlif kadrlar. AŞ-da nümayəndə heyətimizin fəaliyyətini əks etdirən kadrlar bir-birini əvəz edir.*

MƏTN: – İlham Əliyevin gərgin əməyi sayəsində və Avropa Şurasında növbəti iş gününün sonunda siyasi əqidəsindən asılı olmayaraq, nümayəndə heyətimizin hər bir üzvü əldə olunan nailiyyətlərə, qarşıya qoyulan məqsədlərə doğru daha bir uğurlu addımın atılmasına görə qürur hissi keçirir. Məhz İlham Əliyevin ölkəmiz üçün önəmli olan Azərbaycan dəyərləri uğrunda səyləri birləşdirmək, birgə mübarizəyə nail olmaq bacarığı AŞ-da respublikamızın xeyrinə qəbul edilən və yayılan sənədlərdə öz əksini tapır. Buna görə də İlham Əliyevin atdığı hər hansı siyasi addım dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələrinin daim maraq dairəsindədir.

MİXAİL QUSMAN: – O, ciddi və böyük siyasətçi kimi təkmilləşib. Bu, qətiyyən mübaliğə deyil. Taleyin qismətinə görə mən dünyanın ən iri informasiya agentliklərindən biri olan RİTA-SÖTA-da işləyirəm və necə deyərlər, istər-istəməz bizim agentliyə, bütün daha mühüm informasiya sahələrindən, daha mühüm beynəlxalq tədbirlərdən informasiya axıb gəlir. Özü də, bilirsizmi, vaxt necə də tez gəlib keçir, elə bil bu, dünən olmuşdu. İlham Əliyev bir neçə ay əvvəl bizə – SÖTA-ya gəlmişdi, mətbuat konfransında iştirak edirdi. Gərək ki, mən bilən onun Moskvada ilk mətbuat konfransı idi. Buna baxmayaraq, o, məni, Moskvada işləyən həmkarlarımı, jurnalistləri təəccübləndirə bildi. İlhamın mətbuat konfransını necə keçirdiyini, necə məzmunlu danışdığını Azərbaycanın televiziya tamaşaçıları görüblər və onlarda bu

haqda təəssürat yaranıb. Həqiqətən də o, bütün mövzulara toxunurdu. Mətbuat konfransını hamı gördüyünə görə mən bu barədə ətraflı danışmayacağam. Amma mənə bu mətbuat konfransında iştirak etmiş həmkarlarımla, aparıcı kütləvi informasiya vasitələri jurnalistləri ilə söhbət etmək müyəssər olub. Onlar üçün də informasiya sahəsində, özü də dərhal belə yüksək informasiya sahəsində İlhamın peyda olması kəşf idi. Axı, ümumiyyətlə, bir qayda olaraq RİTA-SÖTA-nın mətbuat konfransında yalnız Rusiyanın yüksək vəzifəli dövlət xadimləri, dünya səviyyəli siyasətçilər iştirak edirlər. Bizdə ilk növbədə dövlət başçıları olurlar. Bilirsinizmi, İlhamın həmin mətbuat konfransı onun elə ilk dəfədən, heç bir xüsusi hazırlıq olmadan ən mürəkkəb suallara sanki onilliklər boyu siyasətdə olan şəxs kimi cavab verməsi ilə yadda qalıb.

*Moskva, mart 2002-ci il.*

*RİTA-SÖTA agentliyinin binası. İlham Əliyevin mətbuat konfransından kadrlar.*

MƏTN: – RİTA-SÖTA kimi dünyanın məşhur informasiya agentliyində jurnalistlərin erməni terrorizmi barədə suallarını dəqiq faktlarla cavablandıran İlham Əliyev erməni lobbisinin güclü olduğu regionda belə əsl həqiqəti ortaya qoymaqla kamil və cəsarətli siyasətçi olduğunu sübut etdi.

*Moskva meriyasının binası. İ.Əliyevin Moskva meri Y.Lujkovla görüşü. MDB ölkələrinin MOK rəhbərləri ilə Lujkovun görüşündən kadrlar.*

MƏTN: – Bəli, İlham Əliyev üçün harada olmasından, hansı nüfuzlu şəxslə görüş keçirməsindən, hansı beynəlxalq tədbirdə iştirak etməsindən asılı olmayaraq, bir müqəddəs Azərbaycan amalı hakimdir və bu amalın qayəsində yalnız və yalnız vətən həqiqətləri dayanır.

*Sankt-Peterburqdan görüntülər. İ.Əliyevin Sankt-Peterburqa gəlməsi. MDB PA-nın binası. İ.Əliyevin Azərbaycan MM nümayəndəliyinə gəlişi. MM sədri M.Ələsgərovla görüşündən kadrlar.*

*Sankt-Peterburq, mart 2002-ci il*

MƏTN: – İlham Əliyev üçün Sankt-Peterburq həm dünyanın qədim memarlıq incisi kimi, həm də bir vaxtlar Heydər Əliyevin təhsil aldığı, sevdiyi şəhər kimi doğmadır. İlham Əliyev bu gün bu şəhərə Azərbaycanın xarici siyasətində xüsusi yeri olan, dünyanı təlatümə salan, terrorizmin yayılmasında nəzarətsiz ərazilərin rolunu bəşəriyyətin diqqətinə çatdıran kamil siyasətçi kimi gəlib. Bu, bir həqiqətdir ki, İlham Əliyev özünü ictimaiyyətə yalnız gördüyü işlərlə, konkret sahələrdə göstərdiyi uğurlu fəaliyyətlə təqdim edir və buna görə də onun siyasi imici hamının gözü qarşısında formalaşır. MM-in Sankt-Peterburqdakı nümayəndəliyində çalışan

soydaşlarımızla, parlamentin sədri ilə görüşlərinin səmimiliyindən İlham Əliyevin Azərbaycan naminə gördüyü hər uğurlu işdən nə qədər qürur duyduğunu, zövq aldığını aydın görmək olar.

*MDB PA-nın və AŞPA-nın birgə forumundan kadrlar…*

MƏTN: – İlham Əliyevin MDB məkanında Azərbaycan dəyərlərinə xidmət edən məqsədyönlü siyasi addımları bu beynəlxalq arenada da vətənimizin gələcək uğurlarından xəbər verir. Məhz İlham Əliyevin MDB-dəki bu uğurlu fəaliyyəti dünya siyasətçiləri və analitikləri tərəfindən diqqətlə izlənilir, dəyərləndirilir.

*İlham Əliyevə mükafat təqdim edilir. MDB PA-nın və AŞPA-nın birgə forumundan kadrlar…*

MƏTN: – Dünya ictimaiyyəti bəşəriyyət üçün təhlükə mənbəyi olan terrorizmlə mübarizədə İlham Əliyevin göstərdiyi yolun doğruluğuna inanmaqdadır. Məhz münaqişə nəticəsində tamamilə nəzarətsiz qalmış ərazilərin ləğv edilməsi üçün belə iddiaların beynəlxalq səviyyədə ədalətli həll olunmasını vacib hesab edən İlham Əliyevin haqqa söykənən bu fikrinin alternativi yoxdur. Xüsusilə SSRİ dağıldıqdan sonra MDB ölkələrində baş verən münaqişələr nəticəsində sahibsiz qalan yerlərin terror və narkobiznes yuvası olduğunu sübut edən İlham Əliyev bəşəriy-

yətin diqqətini Qarabağ konfliktinin ədalətli həllinin vacibliyinə yönəltdi.

DMİTRİ RAQOZİN (Rusiya Dövlət Duması Beynəlxalq İşlər Komitəsinin sədri): – Sovet İttifaqının dağılması, suverenliklərin yaranması, bunlardan əvvəl isə yenidənqurma ilə bağlı hadisələr, yəni hadisələr kaleydoskopu, əlbəttə ki, ətrafda hər şeyin dağılmasına baxmayaraq, o öz dünyagörüşünü formalaşdırmağı üzə çıxarırdı. Özü də doğma ölkəsinin vətənpərvəri olmaqla yanaşı, dostlarını itirməmək, sənə münasibətdə dost olan ölkələrdəki yaxınlarının maraqlarını başa düşmək çətin idi. Əlbəttə, 80-ci illərin sonu 90-cı illərin əvvəllərində Azərbaycanla Rusiya arasındakı münasibətlərdə baş verənləri nəzərə alsaq, Azərbaycanın gənc siyasətçilərinin qəlbindən nələr keçdiyini təsəvvürə gətirmək mənimçün çox ağırdır. Qarabağ müharibəsi və bu hadisələrdə Rusiya siyasətçilərinin anlaşılmaz rolu… Bir tərəfdən Azərbaycanı, digər tərəfdən isə Ermənistanı dəstəkləyənlər tapılırdı. Bəlkə də bunu dağıntının, parçalanmanın baş verməsilə izah etmək olardı. O dövrdə adamlar şərəflərini də, vicdanlarını da, dövlətçiliklərini də itirirdilər. Amma hər halda bunu qəbul etmək olmaz. Hər halda bütün bu hadisələrə baxmayaraq, İlham Əliyev kimi insanlar formalaşırdı. Əlbəttə ki, onlar elə bir nəsildən çıxırdılar ki, orada Heydər Əliyev kimi şəxsiyyət təkcə ata yox, həm də görkəmli dövlət xadimi olurdu. Amma İlham Heydəroviç

elə bir dövrdə, xüsusən də suverenliyin ilk illərində inkişaf edəndə, bu cəhət heç də həmişə kömək etmirdi. Bəlkə də elə o vaxtlar çoxları öz atalarından imtina etməyə çalışırdılar. Təəssüf ki, bizə belə nümunələr də məlumdur. İlham Heydəroviç belələrinə görk kimi həmişə sadiq oğul və müstəqil insan olaraq qalıb.

*MD PA-nın foyesi. İlham Əliyev Heydər Əliyevin fəaliyyətini göstərən foto-sərgiyə baxır.*

MƏTN: – Heydər Əliyev məktəbinin ləyaqətli məzunu olan İlham Əliyev Sankt-Peterburqdakı məşhur Tavriçeski sarayının foyesində təşkil edilən və atasının həyatını, fəaliyyətini əks etdirən foto-sərgiyə baxdıqca, Rusiyanın tanınmış siyasətçilərindən olan Dmitri Roqozinin söylədiyi «İlham Əliyev həmişə müstəqil şəxsiyyət və atasına sadiq övladdır» fikrinin hansı dəqiq müşahidələrə əsaslandığının şahidinə çevrilirik.

*İlham Əliyev forumun iclasında. İ.Əliyevin ayrı-ayrı siyasətçilərlə görüşləri, söhbətləri və s.*

MƏTN: – MDB ölkələrindən gəlmiş deputatlar, AŞ-nın parlamanları bir daha terrorizmə qarşı mübarizəyə həsr olunmuş forumda İlham Əliyevin müzakirə edilən məsələ barədə kifayət qədər məlumata və aydın təsəvvürə malik olduğunu gördülər. İlham Əliyev bütün dünyaya hədəfi göstərdi. Hədəfin düzgün seçilməsi isə uğuru təmin edən əsas amildir. Faktların siyasi

taktika ilə açılması dəqiqliyə təminat verdiyinə görə İlham Əliyevin nüfuzu beynəlxalq aləmdə gün-gündən artır və təbii ki, bu yüksəlişin tərəfdarları İlham Əliyevin ətrafında birləşməyi, onunla dostluq əlaqəsi yaratmağı doğru, düzgün hesab edirlər.

DMİTRİ ROQOZİN: – Mən onunla bir növ döyüş şəraitində tanış olmuşam. Çünki Avropa Şurasında həmişə qızğın diskussiyalar olur. Deyə bilərəm ki, Rusiya nümayəndə heyətinin rəhbəri kimi mən İlham Heydəroviçi diqqətlə izləyirdim və o, həmişə məndə dərin hörmət hissi oyadırdı. Sakit, özünəarxayın, respublikada real nələrin baş verdiyini hamıdan, xüsusən də opponentlərindən daha dəqiq bilən, bunun nə qədər vacib olduğunu anlayan və heç vaxt nəyisə bəzəməyə cəhd göstərməyən parlaq dilbilmə qabiliyyətinə malik və bütövlükdə erudisiyalı bir şəxsiyyət. Əgər belə demək mümkünsə, belə bir tərəfdaş görmək mənim üçün fərəhli idi. Üstəlik, biz onunla təkcə Rusiya və Azərbaycan nümayəndə heyətlərinin rəhbərləri kimi yox, eyni zamanda Avropa demokratları qrupunda həmkarıq. Atası nə qədər böyük şəxsiyyət olsa da o, ziyalı, ağıllı bir gəncdir. Bu cəhət onu mənim, mənim yoldaşlarımın gözündə daha da ucaldır.

*Strasburq şəhərindən görüntülər. AŞPA-nın binası.*

*Strasburq, yanvar 2002-ci il*

*Azərbaycanın AŞPA-ya üzv olmasının bir illik tədbirindən kadrlar. Azərbaycan mədəniyyəti nümunələrinin*

*nümayişi. Azərbaycan incəsənət ustalarının konserti. Avropa parlamanlarının İlham Əliyevlə dostcasına görüşləri.*

MƏTN: – Bu gün Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul olunmasından bir il keçir. Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanın Avropaya başlanan sürətli inteqrasiyası öz bəhrəsini verməkdədir. Avropa ailəsində üzvlüyümüzün bir illiyinə həsr olunmuş Azərbaycanın qədim mədəniyyətini, ulu dəyərlərini, nadir incəsənətini əks etdirən zəngin kompozisiyalı sərginin təşkili ilə İlham Əliyev bütün Avropaya ölkəmizin dünyanın sivil ölkələri arasında, nüfuzlu təşkilatlarda təmsil olunmağa haqqı olduğunu sübut etdi. Bu bir il ərzində Avropa və dünya xalqları İlham Əliyevdən Azərbaycan həqiqətləri barədə dəqiq informasiya aldı. İlham Əliyev Azərbaycanın demokratik dəyərlərə sadiq, işğala və terrora məruz qalan ölkə olduğunu bütün dünyaya göstərdi. Avropanın və dünyanın siyasi xadimləri əsl həqiqəti biləndən sonra İlham Əliyevin simasında Azərbaycana daha yaxın oldular və bu münasibət AŞPA-da üzvlüyümüzün bir illiyinə həsr olunan tədbirdə onların səmimiliyindən və mehribanlığından aydın hiss olunurdu. Bugünkü fəaliyyəti ilə Azərbaycanın xoşbəxt gələcəyinin möhkəm özüllərini yaradan İlham Əliyevin gördüyü işlərin təsadüf nəticəsində şahidinə çevrilən Strasburqda yaşayan balaca soydaşımızın ümid dolu baxışlarında Azərbaycan xalqının sabahı, firavan həyatı görünür.

ANATOLİ RAXANSKİ: – Mən Azərbaycan Respublikasını Avropa Şurasının tərkibinə qəbul edərkən səhvə yol vermədiyimə görə razıyam. Mən belə hesab edirəm ki, İlham Əliyevin şəxsi təşəbbüsü, şəxsi inadkarlığı Azərbaycan Respublikasının Avropa Şurasına qəbul olunmasına gətirib çıxardı. Ötən qısa müddət göstərdi ki, Azərbaycan kimi gözəl bir respublikanı, Avropa Şurasına – öz ailəmizə daxil etməkdə biz doğru yol seçmişik.

*Strasburq, sentyabr 2002-ci il*

*AŞPA-nın foyesi. İlham Əliyev pilləkənlərlə yuxarı qalxır. Kamera dar dəhlizlərlə irəliləyir. AŞPA-nın demokratlar qrupunun iclasından görüntülər. Keçid: İ.Əliyev AŞPA-nın rəhbərləri ilə görüşür. AŞPA-nın sessiyasından kadrlar. Erməni nümayəndələrinin məkrli çıxışları. Ermənilərin reaksiyaları. İlham Əliyevin AŞPA-nın tribunasından çıxışı və s.*

MƏTN: – AŞPA-nın növbəti payız sessiyasına nümayəndə heyətimizin rəhbəri İlham Əliyev yenə də Azərbaycan naminə qəbul edilməsi vacib olan yeni təkliflərlə gəlmişdi. Ali, yüksək məqsədlərə doğru gedən yolun rahat olmadığı məlum həqiqət olsa da, İlham Əliyevin Azərbaycan həqiqətlərini qəti şəkildə çatdıra bilmək məharətinin, beynəlxalq münasibətlər sahəsində zəngin təcrübəsinin, çevik siyasi manevrlər edə bilmək qabiliyyətinin, təkzib edilməsi mümkün olmayan həqiqətləri çatdırmaq bacarı-

ğının bu yolda olan maneələri və dolanbacları uğurla dəf edəcəyinə qəti inam yaradır. Hər dəfə AŞPA tərəfindən Azərbaycanın xeyrinə qəbul edilən istənilən sənədi müvafiq komitələrdən, komissiyalardan keçirmək üçün İlham Əliyevin ciddi səyinə ehtiyac yaranır.

İlham Əliyevin daxil olduğu demokratlar qrupunun yığıncağında yenə də Azərbaycan üçün taleyüklü məsələnin müzakirəsi gedir… Məhz İlham Əliyevin gərgin fəaliyyəti sayəsində əsl həqiqəti dərk edən və müxtəlif ölkələrdən olan deputatlar Azərbaycanın haqlı mövqeyinin müdafiəsinə qalxırlar.

Azərbaycana vacib olan sənədin İlham Əliyevin səyləri sayəsində qəbul edilməsi, növbəti komissiyadan da dəstək alması irəli atılan daha bir uğurlu addımın sevincini bəxş edir.

Azərbaycan nümayəndə heyəti adından İlham Əliyevin AŞPA-nın rəhbərləri ilə vaxtaşırı keçirdiyi görüşlər Azərbaycan dəyərlərinə, respublikamızın məruz qaldığı ədalətsiz münaqişənin yaratdığı problemlərin həllinə xidmət edir.

Artıq AŞPA-da ermənilərin uydurmalarına heç kim inanmaq istəmir. Bir qayda olaraq, AŞPA-nın tribunasında İlham Əliyevin görünməsi Ermənistan nümayəndələrini təşvişə salır. İlham Əliyevin tutarlı faktları qarşısında aciz qalan düşmənlərimiz çox pis vəziyyətə düşürlər. AŞ-da Ermənistanın siyasi vektorunun qorxunc və terrorizmlə nəfəs alan bir dünyaya tərəf yönəlməsini dəlillərlə sübut edən İlham Əliyevin

siyasi gedişləri qarşısında erməni məkrinin və hiyləsinin təslim olmaqdan başqa yolu qalmır.

AŞPA-nın bu dəfəki payız sessiyası ermənilərlə açıq debata çıxan İlham Əliyevin siyasi qələbəsi ilə yadda qaldı. Ermənistan haqqında məruzədə əsl həqiqətin tam açıqlanmamasına etirazım bildirən İlham Əliyev qətnamə layihəsinə düzəlişlər edilməsini qəti şəkildə tələb etdi.

İLHAM ƏLİYEV: – Mənə elə gəlir ki, burada heç də hər şey aydın deyil. Dağlıq Qarabağ elə strukturdur ki, onu heç bir tərəf, heç bir ölkə bu qurum kimi tanımır. Ərazidə monitorinq keçirilmir. Regionda baş verənlərdən heç kimin xəbəri yoxdur. Burada heç bir beynəlxalq hüquq normalarına riayət olunmur. Dağlıq Qarabağın 200-dən artıq tankı var ki, bu da silahların ixtisara salınması ilə bağlı heç bir hərbi sənəddə öz əksini tapmayıb. Ona görə də mən bu əlavəyə qarşı mövqeyimi bildirmirəm.

MƏTN: – Tutarlı faktları ilə Avropa parlamanlarının diqqətini əsl həqiqətə yönəldən İlham Əliyevin təklifləri sayəsində bir sıra ölkələrdən olan deputatların məsələ ilə bağlı etiraz çıxışları etməsinə zəmin yarandı.

İlham Əliyev bir daha məruzədə Azərbaycan torpaqlarını işğal edən Ermənistanın öz adı ilə – işğalçı kimi qeyd edilməməsinə kəskin etiraz etdi.

İLHAM ƏLİYEV: – Mənə elə gəlir ki, bu əlavənin məqsədi işğal olunmuş əraziləri söz birləşməsini yox etmək, onu hansısa AMORF bir birləşmə ilə əvəz etməkdir. Bu məsələ ilə bağlı

birbaşa məşğul olmayan, onun haqqında heç nə bilməyən söhbətində heç nə əks etdirə bilməz. Mən bilmirəm, niyə belə münasibətlə üzləşirik və nə vaxta qədər çalışacağıq ki, real faktları gizlədək. Ermənistan ərazilərimizi işğal edib. Azərbaycan əraziləri işğal olunubdur. Buna görə də bu söz birləşməsi olduğu kimi qalmalıdır. Və işğal olunmuş ərazilər ifadəsi xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq eynilə qalmalıdır.

MƏTN: – Beləliklə, İlham Əliyevin haqqa söykənən, gərgin siyasi fəaliyyəti nəticəsində ilk dəfə olaraq beynəlxalq təşkilatın qəbul etdiyi sənədə Ermənistan işğalçı ölkə kimi düşdü. İlham Əliyev terroru dəstəkləyən və ərazimizin bir hissəsini işğal altında saxlayan Ermənistanın əsl simasını bir müddət əvvəl elə burada göstərmişdi.

DMİTRİ ROQOZİN: – İlham Heydəroviç həmişə, şübhəsiz ki, yetkin, müstəqil, özünə arxayın, öz respublikasını sevən, onun nüfuzunu əziz tutan insan kimi tanınıb. O, Azərbaycanın mənafeyini həmişə sərt şəkildə qoruyub. Mən onu erməni deputatlarla qovğalarda, diskussiyalarda da görmüşəm. Bütün sərtliyinə baxmayaraq, o, heç vaxt öz ləyaqətini itirməyib, nüfuzuna xələl gətirə biləcək diskussiyalara cəlb edilməsini özünə rəva görməyib. O, heç vaxt pərt olmur, zərbələrə mətanətlə dözür. Onunla razılaşmaq da olar, razılaşmamaq da. Amma ona hörmət etmək lazımdır. O məcbur edir ki, özünə hörmət etsinlər. Bu faktdır. Buna görə də belə bir

hörmətli tərəfdaşı yanımda görəndə mən də öz tərəfimdən çalışıram ki, onu peşiman etməyim.

*İlham Əliyev və nümayəndə heyətimizin üzvləri AŞPA-nın dəhlizində.*

MƏTN: – Azərbaycan haqqın təntənəsinə doğru daha bir addım atdı. İlham Əliyevin şərəflə həyata keçirdiyi növbəti uğurdan sonra nümayəndə heyəti haqqın qələbəsindən, Azərbaycan həqiqətlərinin zəfərindən doğan qürur hissinin xoş anlarını yaşayır…

ANATOLİ RAXANSKİ: – İlham Əliyev bir alim kimi özünü doğruldub. Onu təkcə Azərbaycan Respublikasında deyil, dünyanın bir çox ölkələrində də tanıyırlar. Onu Ukraynada da işgüzar, tərəqqipərvər insan kimi tanıyırlar. Məsələn, biz onun tezliklə Ukraynaya gələcəyini gözləyirik və əminik ki, bu səfər maraqlı, zəngin keçəcək. İlham Əliyev AŞPA-nın sessiyalarında qaçqınların problemləri barədə də tez-tez söhbət açır. Başa düşürəm ki, Azərbaycanda həqiqətən qaçqınlar problemi var və İlham Əliyev də AŞPA-nın iclaslarında tez-tez bu məsələni qaldırır. O, digər mühüm siyasi məsələlər ətrafında da çıxış edir. Məsələn, AŞPA-nın sessiyasında ABŞ-dakı 11 sentyabr terror aktı barədə çıxış edərkən, o, terrorizmi pislədi. Bu haqda ağrı və kədərlə danışdı. Bu gün dünyada terrorizmin artdığını nəzərə çatdırdı. Onun terrorizmi ittiham etməsi o qədər konstruktiv, konkret nitq idi ki, çoxları, mə-

sələn, Avropa Parlamentinin deputatları İlham Əliyevi diqqətlə dinləyərək, bu cəhətdən onu dəstəklədilər. Məncə o, çox-çox yetkin siyasətçidir.

*AŞPA-nın binası…*

*Strasburq, sentyabr 2002-ci il*

*AŞPA-nın sessiyası.*

İLHAM ƏLİYEV: – Biz hamımız ABŞ-a qarşı terror aktı törədiləndə sarsıntı keçirtdik. Azərbaycan nümayəndə heyətinin adından mən istərdim ki, minlərlə günahsız insanın ölümü və yaralanması ilə nəticələnən terror aktları ilə bağlı Birləşmiş Ştatların hökuməti və xalqına səmimi başsağlığı ifadə edim. Mən həm də istərdim ki, Azərbaycan hökuməti adından Birləşmiş Ştatlara bu dəhşətli cinayəti törətmiş adamların tapılması və onların ədalət məhkəməsinə cəlb olunması ilə bağlı tam dəstəyi bir daha bildirim. Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları aydın göstərir ki, hamımızın yaşadığı dünya nə dərəcədə kövrəkdir. Heç kim özünü təklikdə tam təhlükəsiz hiss edə bilməz. Buna görə bütün beynəlxalq ictimaiyyət dünyanın hər yerində, terrorizmin bütün formalarına qarşı mübarizədə birləşməlidir. Haqq və ədalət zamanı yetişmişdir. Bəzi ölkələrin həm terrorizmin qurbanları, həm də onun təşkilatları ilə yaxşı əlaqələri qorumağa çalışması və bunun balanslı siyasət adlandırmaq imkanı yoxdur. Belə siyasət kəskin tənqidə layiqdir. Terrorizmi birbaşa və

ya dolayısı ilə dəstəkləyən hər bir ölkə, təşkilat beynəlxalq birlik tərəfindən məsuliyyətə cəlb olunmalıdır.

Azərbaycan terrorizmdən çox əziyyətlər çəkmişdir. Erməni terror təşkilatı ASALA Ermənistanın Azərbaycana qarşı terror siyasətində çox bədnam rol oynamışdır. Hazırda qondarma Dağlıq Qarabağ Respublikasının ərazisi, eləcə də Azərbaycanın digər işğal olunmuş rayonları tam nəzarətsiz ərazilərdir. Qanunsuzluq hökm sürən bu ərazilərdə yalnız Ermənistandan deyil, digər ölkələrdən gələn terrorçuların hazırlanması üçün terror düşərgələri yaradıblar. Terrorizmə qarşı mübarizədə Azərbaycan ABŞ-la bir alyansdadır. Bütün dünya ilə birlikdə terrorizmə qarşı mübarizədə əlimizdən gələn töhfəni verməyə hazırıq. Azərbaycanın prezidenti cənab Heydər Əliyev ABŞ-a qarşı törədilən hücumlardan sonra etdiyi çıxışda Azərbaycanın ABŞ-a tam dəstəyini ifadə etmişdir. Azərbaycan Birləşmiş Ştatlar üçün hava məkanını açmışdır və ABŞ-da terror aktları törətmiş şəxslərin ədalət məhkəməsi qarşısında məsuliyyət daşıması üçün lazım ola biləcək infrastrukturları və kommunikasiyaları ABŞ-ın istifadəsinə verməyə hazırdır. Beynəlxalq ictimaiyyət terrora qarşı mübarizədə çox vaxt itirmişdir. Lakin heç başlamamaqdansa, gec başlamaq da yaxşıdır. Yalnız ABŞ-da bu dəhşətli terror aktını törədənlərə qarşı deyil, bütün dünyada terrorizmin bütün formalarına qarşı geniş miqyaslı antiterror kampaniyası başlamaq və terrorizmə qarşı savaşda çox ciddi addımlar atmaq vaxtı gəlib çatmışdır.

*AŞPA-nın parlamanları İ.Əliyevin çıxışım alqışlayır. İkili təsvirlə bu alqışlar ABŞ-dakı Azərbaycan Ticarət Palatasındakı rəsmi qəbulda olan İ.Əliyevin alqışlanmasına keçir.*

*Vaşinqton, oktyabr 2002-ci il*

*İlham Əliyevin ABŞ hökumətinin nüfuzlu şəxslərilə müxtəlif görüşlərindən kadrlar bir-birini əvəz edir.*

MƏTN: – Azərbaycanın neft strategiyasının müəyyənləşdirilməsində və həyata keçirilməsində böyük rolu olan İlham Əliyevi ABŞ hökumətinin ikinci rəsmi şəxsi, vitse-prezident Dik Çeyninin Ağ evə görüşə dəvət etməsi onun Azərbaycanın iqtisadi siyasətində və dünyanın enerji resurslarının işlənməsi sahəsində tutduğu mövqeyinin nə qədər yüksək olduğunu göstərir. Hazırkı ABŞ hökumətinin aparıcı üzvlərindən olan Riçard Armitacla görüşün səmimiliyindən, müdafiə nazirinin birinci müavini Pol Vulfoviçlə müzakirə edilən terrorizm və Ermənistan-Azərbaycan münaqişəsi kimi məsələlərin ciddiliyindən, enerji naziri Spenser Abrahamla Azərbaycan iqtisadiyyatının başlıca sahəsi olan neft sektorunun gələcək perspektivləri barədə aparılan danışıqlardan İlham Əliyevin çoxsahəli gərgin, uğurlu fəaliyyəti və ABŞ-da yetkin siyasətçi, nüfuzlu şəxs kimi qəbul olunması aydın hiss olunur. İlham Əliyevin gördüyü işlər və bu sahədə Azərbaycanın qazandığı nailiyyətlər ABŞ-ın nüfuzlu şəxsləri tərəfindən yüksək dəyərləndirilir.

LARİ İQLBERQER (ABŞ-ın sabiq dövlət katibi): – İlham Əliyev çətin sayılan neft siyasətini yaxşı anlayır. Onun neft kəməri, Azərbaycanda neft sənayesinin inkişafı prosesinə yanaşması, fikrimcə, mühüm əhəmiyyət daşıyır.

*İlham Əliyevin CNN televiziyasına gəlişi. CNN kanalına müsahibəsindən fraqmentlər.*

MƏTN: – Vaşinqton səfərinin qlobal xarakterini yaxşı anlayan CNN televiziyası İlham Əliyevi Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru neft kəmərinin dünya iqtisadiyyatında rolu barədə müsahibəyə dəvət etdi. Bütün dünya İlham Əliyevin simasında beynəlxalq aləmdə Azərbaycanın növbəti uğurunun şahidi oldu.

ASİM MOLLAZADƏ: – Siyasətçi kimi mən onun, əsasən, xarici siyasət sahəsində işlərini müşahidə edə bilmişəm. Və mən düşünürəm ki, ABŞ-da bu gün Azərbaycan həqiqətlərini açıqlamaq üçün böyük fəaliyyətə ehtiyac var. Bu istiqamətdə aparılan hər bir iş müsbət və zəruri bir işdir və bu işi gücləndirmək üçün İlham Əliyevin atdığı addımları düzgün hesab edirəm. Bizim fikir ayrılığımız Bakıdadır, Azərbaycandadır. Azərbaycandan kənarda isə onun mənafeləri uğrunda birgə mübarizə getməlidir.

*İ.Əliyev Con Hopkins Universitetində mühazirə oxuyur.*

MƏTN: – Məhz bu mübarizəni İlham Əliyev hansı ölkədə, hansı beynəlxalq təşkilatda olmasından asılı olmayaraq güclü siyasi məntiqi və natiqlik məharəti sayəsində ardıcıl olaraq aparır. Çıxışlarını maraqlı məqamlar, ali məqsədlər, tutarlı faktlar üzərində quran İlham Əliyev auditoriyanın diqqətinə hakim kəsilməklə tam siyasətçi olduğunu bir daha sübut edir. İlham Əliyevi təbrik edib yaxından tanış olanların hər biri Azərbaycan həqiqətlərinə inandıqlarını və ona güclü siyasətçi kimi rəğbət bəslədiklərini bildirirlər.

*...İdman arenası azarkeşlərlə doludur. Beynəlxalq yarış gedir. Heydər Əliyev və İlham Əliyev yarışı müşahidə edirlər. İlham Əliyev qaliblərə medallar təqdim edir. Azərbaycanın bayrağı qalxır. Hakim qalib idmançının əlini qaldırır və s.*

MƏTN: – İlham Əliyevin siyasi arenadan Azərbaycana gətirdiyi uğurlar onun fəaliyyətinin digər sahəsi olan idman arenalarında qazanılan zəfərlərlə, qələbələrlə bir vaxtda baş verir. Milli Olimpiya Komitəsinin prezidenti kimi İlham Əliyevin Azərbaycan idmanında nail olduğu yüksəlişi ölkəmizdə keçirilən Avropa və dünya miqyaslı müxtəlif beynəlxalq turnirlərdən, idmançılarımızın saysız-hesabsız qələbələrindən görmək olar. Respublika prezidenti Heydər Əliyevin iri miqyaslı belə tədbirlərdə iştirakı bir qayda olaraq idmançılarımızı qələbələrə ruhlandırır. Respublikamızın dünyada tanınmasında idmanın

mühüm amil olduğunu yaxşı bilən İlham Əliyev üçün himnimizin sədaları altında üçrəngli bayrağımızın yüksəklərə qalxmasından böyük sevinc yoxdur.

VİTALİ SMİRNOV (Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti): – İlham Əliyev öz həmkarları arasında çox böyük nüfuza malik bir insandır. Mən bir çox tədbirlərdə iştirak edirəm. Bu yaxınlarda Azərbaycan nümayəndə heyəti dünyanın Milli Olimpiya Komitələrinin toplaşdığı Kuala-Lumpurda olub. Beynəlxalq Olimpiya Komitəsinin indiki prezidenti burada artıq 2 dəfə olub, Xuan Antonio Samaranç da gəlib. Bütün bu kompleks, bütün bu ərazi, bu şəhərcik, demək olar ki, idman, bədən tərbiyəsi sahəsi – bunlar da onun, onun həmkarlarının xidmətidir. Güləş üzrə, boks üzrə Avropa çempionatları kimi yarışların yüksək səviyyədə keçirilməsi sübut edir ki, bu işlərə həqiqətən də böyük ideyalarla, fikirlərlə yaşayan bir insan rəhbərlik edir, böyüməkdə olan nəslin sağlamlığının, Azərbaycan idmanın şöhrətinin qayğısını çəkir.

*Naxçıvan… Olimpiya idman kompleksinin açılış mərasimi… H.Əliyev və İ.Əliyev qırmızı lenti kəsirlər… İdman yarışlarından müxtəlif kadrlar… Keçid: İ.Əliyev kabinetdə idmançıya medallar verir, onu təbrik edir. İ.Əliyev həndbolçu qızlarla görüşür, söhbət edir. İlham Əliyev xarici qonaqlarla söhbət edir.*

MƏTN: – Respublika prezidenti Heydər Əliyevin iştirakı ilə Naxçıvanda müasir tipli idman kompleksinin istifadəyə verilməsi Azərbaycanda olimpiya hərəkatının yeni vüsət almasına şərait yaradan İlham Əliyevin müstəsna xidmətidir. Belə idman bazaları gələcəyin Avropa, dünya və olimpiya çempionlarının yetişməsi üçün İlham Əliyevin Azərbaycan idmanına bəxş etdiyi töhfələrdir. Beynəlxalq miqyaslı turnirlərdə, çempionatlarda qazanılan hər medalda, əldə edilən hər qələbədə İlham Əliyevin idmana göstərdiyi sonsuz qayğını, böyük zəhməti görmək olur. İlham Əliyevin komanda yarışlarına göstərdiyi diqqət Azərbaycanda voleybolun, həndbolun sürətlə inkişafına zəmin yaratdı. Göstərdiyi bu uğurlu fəaliyyətə görə İlham Əliyev beynəlxalq idman təşkilatlarında da böyük nüfuza malikdir.

TOQAY BOYATLI (Türkiyə MOK-nin baş katibi, Beynəlxalq İdman Jurnalistləri Assosiasiyasının prezidenti): – İlham Əliyev çox böyük başar göstərdi. Yalnız bizim ölkələrimizdə deyil, Avropada da tanınıyor. Biz onu bu bölgənin ən böyük spor lideri, politika lideri olaraq tanıyoruz. Hər uluslararası olimpiyalarda, müsabiqələrdə bərabəriz. Biz həm türk, həm azəriyik. Sporları birlikdə təşviq ediyoruz. Və kəndisi bizim uluslararası olimpiada komitəsi başqanı Jak Rokdesi da böyük taqdır gerçəkdə, Avropa Olimpiadaları Komitələri başqanı İtalyan Mariodan da böyük taqdır görməkdə. Onun üçün də İlham Əliyevlə mən iftixar ediyorum.

*Gəncə… Olimpiya kompleksinin açılış mərasimi. H.Əliyev qırmızı lenti kəsir. İdmançıların müxtəlif idman növlərindən göstərdiyi fəndlər və s…*

MƏTN: – Budur, respublika prezidenti Heydər Əliyev Gəncədə tikilən daha bir müasir tipli idman qurğusunun qırmızı lentini kəsir. İdmançılarımız üçün yaranan real və yüksək şərait İlham Əliyevin rəhbərliyi ilə idmanda başlanan tərəqqinin bundan sonra daha da sürətlənəcəyindən xəbər verir. Bu gün Azərbaycanı təmsil edən idmançılar, onların məşqçiləri məhz İlham Əliyevin yaratdığı bu cür geniş imkanlar qarşısında vətənə qələbələrlə qayıdır və bunu özlərinə borc hesab edirlər.

FAİQ QARAYEV («Azərreyl»in baş məşqçisi, Azərbaycanın əməkdar məşqçisi): – Azərbaycana qayıdanda ilk görüşüm İlham müəllimlə olmuşdu. Və ilk görüşdə İlham müəllimin nə qədər vətənpərvər, nə qədər Azərbaycan xalqını sevməsi və bu xalq üçün nə qədər çox iş görmək istəməsinin şahidi olmuşam. İlham müəllimlə söhbətimin ilk dəqiqələrindən onun insaniliyi məni cəlb edib. O, professional bir idman rəhbəri kimi (hamımız bilirik ki, o, MOK-un rəhbəridir) istəyir ki, hansı idman növü olursa-olsun, onun komandası birinci olsun, qələbə qazansın. İlham müəllim bütün dünya idmanını izləyir, oradakı səviyyəni bilir və idmançıları, məşqçiləri o səviyyəyə qaldırmış rəhbərdir.

*Voleybol yarışından kadrlar. Keçid: Şəkidə… Olimpiya kompleksinin açılış mərasimi. H.Əliyev qırmızı lenti kəsir. İdmançıların müxtəlif idman növlərindən göstərdiyi fəndlər və s. İkili təsvirlə MOK-un on illik yubileyindən kadrlar.*

MƏTN: – İlham Əliyev daha bir uğurlu işi ilə Şəkinin memarlıq inciləri sırasına bu möhtəşəm idman kompleksini də əlavə etdi. Respublika prezidenti Heydər Əliyevin iştirakı və xeyir-duası ilə açılan Şəki Olimpiya İdman Kompleksi İlham Əliyevin Azərbaycan idmanına bəxş etdiyi növbəti hədiyyədir. İdmançılarımızın gələcək yarışlarda qazanacağı uğurlardan xəbər verən və İlham Əliyevin səyləri sayəsində inşa edilən bu tip komplekslər Azərbaycan bayrağının yüksəklərdə dalğalanmasına, himnimizin ayrı-ayrı ölkələrin idman meydanlarında səslənməsinə xidmət edir.

Milli Olimpiya Komitəsinin yarandığı on ildə Azərbaycan idmançılarının qazandığı ən yüksək nailiyyətlər məhz İlham Əliyevin adı ilə bağlıdır. Bu gün Azərbaycan idmanı əvvəllər olduğu səviyyədən xeyli yüksəkdə dayanır və bu tərəqqi İlham Əliyevin yorulmaz fəaliyyətinin bəhrəsidir.

* * *

MƏTN: – Heydər Əliyev dünyanın tanınmış siyasi xadimi və həm də qayğıkeş babadır.

Heydər Əliyevin balacalara göstərdiyi məhəbbətin, nəvazişin nəticəsidir ki, nəvələri olan

bütün Azərbaycan uşaqları onu Heydər baba – deyə çağırırlar. Heydər Əliyev nəvələri ilə nəvələrinin yeni il şənliyinə gəlib… Heydər Əliyev dünya siyasətçiləri arasında nüfuzu ilə seçilən dövlət xadimidir və həm də diqqətli, qayğıkeş atadır.

Daim Heydər Əliyev müdrikliyinin əhatəsində olan İlham Əliyevin dostlara sədaqəti əbədidir…

*H. Əliyev nəvəsini əzizləyir. Uşaqların şənləndiyi zala keçirlər. Alqışlar… Konsert başlanır. Keçid: H.Əliyev maşınla yola düşür. Keçid: Heydər Əliyev və İlham Əliyev M.Maqomayevlə birlikdə söhbət edirlər.*

MÜSLÜM MAQOMAYEV (Azərbaycanın və SSRİ-nin xalq artisti): – Mən İlhamı lap uşaq vaxtlarından tanıyıram. Sadəcə, onu səciyyələndirən bir əhvalat danışmaq istəyirəm. O, çox inadcıl, sözün yaxşı mənasında özünü sevən idi. İlham balaca olanda biz bilyard oynayırdıq. Təbii ki, mən qəsdən ona uduzardım. O, bunu çox gözəl hiss edirdi. Deyirdim ki, «İlham, başa düş ki, Heydər Əliyeviçə hörmətimə görə səni uda bilmərəm». Nə isə, zarafatlaşardıq. Amma məsələ ondadır ki, bir ildən sonra mən ona biabırcasına uduzdum. O, bütün ili məşq etmişdi və mən bilyardı pis oynamasam da, onun qarşısında uşağa bənzəyirdim. Əgər qarşısına hər hansı məqsəd qoyursa, ona çatmaq üçün çox inamla, cəsarətlə addımlayır.

*Stol arxasında H.Əliyevin, İ.Əliyevin M.Maqomayevlə və onun xanımı ilə söhbətlərindən kadrlar…*

MƏTN: – Maqomayevlərin köhnə dost kimi gətirdiyi və yaxın tarixi xatırladan fotoşəkil İlham Əliyevi bir qədər keçmiş günlərə qaytarır…

TAMARA SİNYAVSKAYA (Azərbaycanın və SSRİ-nin xalq artisti): – Əvvəla, İlham haqqında danışmaq mənə xoşdur, eyni zamanda çətindir, çünki mən onu kiçik yaşlarından – hələ balaca oğlan olandan tanıyıram. Hər şeylə maraqlanırdı, gərək ki, incəsənəti çox sevərdi, çünki sənət adamları Heydər Əliyeviçin evinə gələndə, həmişə onların yanında olardı. Əlbəttə, darıxanda çıxıb gedərdi. Buna görə də o, mənim yaddaşımda balaca İlya kimi qalıb. Əlbəttə, indi o, İlham Heydəroviçdi və mən demək istəyirəm ki, həmin oğlan, tədricən gözümüz qarşısında böyüyüb gəncləşən, indisə çox kamil, ağıllı, ciddi insan barədə ən xoş və mehriban xatirələrim var. Bu, mənimçün çox xoşdur. Əgər kimsə gözlərin önündə böyüyürsə, çox şeyi hiss etmirsən. Yeseninin sözlərilə desək: «Üz-üzə olanda göz öyrəşir, böyüklər isə uzaqdan da görünür». İlhamla bizim münasibətimiz də belədir. Müslümlə mən, onunla vaxtaşırı – biz Bakıda, yaxud hansısa tədbirlərdə, konsertlərdə, tamaşalarda, ya da adi ad günlərində olanda görüşürük. Biz də İlhamı kənardan görürük: in-

san necə də mətnləşərmiş. O, getdikcə ciddiləşir. Bu yaxınlarda elə bir məqam olmuşdu ki, əslində, mən hətta, heyrətə gəldim və çox şad oldum. Dəqiq yadımda deyil, qorxuram səhv edim, məncə, H.Əliyevin yanına xarici qonaqlardan kimsə gəlmişdi və biz də bu görüşə dəvət olunmuşduq. Birdən İlham masanın arxasında danışılanların hamısını təmiz ingilis dilində, gözəl aksentlə, əla dialektlə tərcümə etməyə başladı. Mən elə iftixar hissi keçirirdim ki, sanki bizim də buna dəxlimiz var. İlham şəxsiyyət kimi yüksəlməkdədir. O, çox ciddi insandı. Biz onu ev şəraitində, kütləvi tədbirlərdə, ali məclislərdə də görmüşük və belə bir cəhətə diqqət yetirmişik ki, İlham Əliyeviç, əlbəttə, sıxılır. Çünki Heydər Əliyeviçin yanında danışmaq, məncə, nəinki çətindir, əslində, heç mümkün deyil. Bu böyük insan – Heydər Əliyeviç son dərəcə müdrik, dərin ziyalı və maraqlı şəxsiyyətdir. İlham bu sıxıntıdan azad olanda, sərbəstləşəndə, rus dilini gözəl bilmək, fikirlərini dəqiq ifadə etmək baxımından özünü dolğun göstərə bilir.

MƏTN: – İlham Əliyev Heydər Əliyev məktəbinin ən layiqli məzunlarından biri kimi inamla sabahlara doğru şərəfli yol gedir…

MİXAİL QUSMAN: – Öz peşəkar fəaliyyətimə görə mən mətbuatı proqnozlaşdırmalı oluram. Bununla əlaqədar Rusiyadakı və xarici ölkələrdəki mətbuatı izləyirəm. İndi sirr deyil

ki, Azərbaycandan, Azərbaycan siyasətçilərindən söz düşəndə İlham haqqında getdikcə tez-tez danışılır. Bir vaxtlar Heydər Əliyev bizə verdiyi müsahibədə demişdi ki, İlhamda böyük siyasətçi gələcəyi olduğuna inanır. Mən bu məsələdə Azərbaycan prezidentinin fikrilə şərikəm. Amma bilirsizmi, bəzən bu və ya digər siyasətçilərin, o cümlədən İlhamın hansısa güclü, zəif cəhətlərindən danışırlar. Düzünü deməliyəm ki, Heydər Əliyeviçlə müqayisədə Azərbaycanın istənilən siyasətçisi zəifdir. Belə bir prezidenti ola-ola onunla müqayisəyə cəhd göstərmək mümkün deyil. Heydər Əliyeviç dünya miqyaslı siyasətçidir, həm də dünyanın indi fəaliyyətdə olan siyasətçilərindən kimi onunla bərabər tutmağın mümkün olduğunu bilmirəm. Məncə, Heydər Əliyeviç inciməz, mən bəlkə də XX əsrin siyasətçilərindən yalnız Uinston Çörçili siyasi istedadına, siyasi gücünə görə müəyyən mənada onunla yanaşı qoya bilərdim. Buna görə də kimisə onunla müqayisə etmək, ümumiyyətlə, ağlasığmazdır. Mən deyərdim ki, taleyin gərdişinə görə İlhamın Heydər Əliyeviç kimi atası, gözləri qarşısında onun kimi müdrik həyat müəllimi, böyük ustadı, parlaq nümunəsi var. Heydər Əliyeviç bütün siyasətçilər üçün nümunədir. Amma bu halda, mən İlhamı hər şeydən əvvəl bir oğul kimi nəzərdə tuturam, əlbəttə ki, onun bəxti gətirib. Bu, o deməkdir ki, İlham heç kəsə müyəssər

olmayan bir məktəb keçir. Buna görə də mən arzu edirəm ki, İlham bu məktəbdən mümkün qədər çox şey öyrənsin. Mən Heydər Əliyeviçə möhkəm cansağlığı və gümrahlıq arzulayıram.

*İlham Əliyev Heydər Əliyevi aeroportda qarşılayır. Musiqinin müşayiəti ilə fona keçid edilir.*

ÜÇÜNCÜ FİLMİN SONU

*24.12.2002*

# YAP

# DÜNƏNİN, BU GÜNÜN, SABAHIN PARTİYASIDIR

Elmi redaktoru: **Əli Əhmədov**
*YAP Sədrinin müavini-icra katibi,*
*fəlsəfə elmləri namizədi*

**N.M.Xudiyev**
**YAP dünənin, bu günün, sabahın partiyasıdır.**
**Bakı, "Elm və təhsil", 2014.**

Kitab müstəqil Azərbaycan Respublikasının banisi, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu Yeni Azərbaycan Partiyasının yarandığı tarixdən ötən 15 il ərzində ölkəmizin ictimai-siyasi həyatında və dövlət quruculuğu prosesindəki tarixi rolundan bəhs edir. Kitabda YAP-ın yaradıldığı 1992-ci ilin ağır ictimai-siyasi dövrü geniş təhlil olunmuş, ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkənin ictimai-siyasi həyatında baş vermiş hadisələrdən, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin siyasi portret cizgiləri və dövlətçilik fəaliyyətindən söhbət açılmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**© "Nurlan", 2007**
**© «Elm və təhsil», 2014**

## YENİ AZƏRBAYCAN PARTİYASI XALQIN PARTİYASIDIR

*Azərbaycanın XX əsr tarixinin əzəmətli hadisələrini xatırlayıb dəyərləndirməyə çalışsaq, bu sırada ümummilli lider Heydər Əliyev ideyalarından qaynaqlanaraq həyata vəsiqə alan Yeni Azərbaycan Partiyasının yaranmasını ayrıca qeyd etmədən apardığımız təhlil obyektivlik və tamlıq haqqına sahib çıxa bilməz.*

*Böyük tarixi şəxsiyyətlərin ideyaları və mübarizəsindən kənarda həyatın heç bir sahəsində inkişafın əsasında dayanan dəyərlər sistemini yaratmağın, tarixin yeni səhifəsini yazmağın mümkün olmaması çoxdan tarixin etiraf sınağından çıxmış həqiqətdir. Hər bir xalq ayrıca olaraq, bəşəriyyət isə bütünlükdə öz tarixinin yeni səhifələrini məhz yetişdirdiyi dahi övladlarının ağlı, zəkası, qətiyyəti, qəhrəmanlığı sayəsində yazmağa nail olur. Azərbaycanın XX əsr tarixinin böyük bir hissəsi, heç şübhəsiz, tam əsasla Heydər Əliyev tarixi adlandırıla bilər. Ötən yüzilliyin təxminən 30 ili ərzində ölkəmizdə yaşanmış inkişaf, qazanılmış nailiyyətlər, yaradılmış dəyərlər və sərvətlər ulu öndərin adı və fəaliyyəti ilə bağlıdır.*

*Bu tarixin son 15 ili ərzində isə ümummilli lider Heydər Əliyevin banisi olduğu Yeni Azərbaycan Partiyası qərinələrə bərabər şərəfli yol keçmiş, hazırda öz sıralarında 400 mindən artıq Azərbaycan vətəndaşını birləşdirən nəhəng siyasi qüvvəyə, Azərbaycan xalqının gələcək iqtisadi və siyasi həyatını müəyyənləşdirən, bu günün və gələcəyin ən böyük partiyasına çevrilmişdir. Bu gün nəinki Azərbaycanda, hətta ondan kənarda hər kəsə aydın olan həqiqət bundan ibarətdir ki, ölkəmizin təkcə 1990-cı illərin əvvəllərində yaşadığı fəlakətlərin qarşısının alınması, dövlətçiliyin dağılması prosesinin dəf edilməsi deyil, həm də indiki sürətli inkişafın etibarlı əsasını təşkil edən yeniləşmə strategiyasının hazırlanması, köklü islahatların həyata keçirilməsi və digər fundamental layihələrin özülünün qoyulması öz başlanğıcını 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması tarixindən götürüb.*

*YAP siyasi fəaliyyətinin 15 ili ərzində vətənimizin ləyaqətli oğul və qızlarını öz sıralarında birləşdirməklə yanaşı, Azərbaycan dövlətinin siyasi istiqamətinin düzgün müəyyənləşdirilməsində, iqtisadi və sosial inkişafında, ölkəmizin daxili və xarici siyasət balansının tarazlaşdırılmasında mühüm rol oynamış, habelə respublikamızda keçirilən üç prezident, üç parlament, iki bələdiyyə seçkilərində uğurlu qələbə qazanaraq, qanunların hazırlanmasında və ölkənin idarə olunmasında müstəsna xidmət göstərmişdir. Əslində, bu tendensiya obyektiv reallığın məntiqi nəticəsi, başqa sözlə desək, inikası idi.*

*Bunun ən başlıca səbəbi odur ki, XX əsrin görkəmli şəxsiyyətlərindən olan, dünyanın tanınmış siyasətçisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının yaranması həmin dövrdə nəinki ölkədə, həmçinin keçmiş sovet məkanında böyük siyasi-tarixi hadisə idi. Əslində, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin müdrik təfəkkürünün, unikal düşüncə tərzinin, mükəmməl siyasi təcrübəsinin, şəxsi nüfuzunun və müstəqil, demokratik dövlətçilik yönümündə gərgin fəaliyyətinin məhsuludur. Bu gün Yeni Azərbaycan Partiyası öz qüdrəti və nüfuzu ilə regionda lider bir partiyadır. Əlbəttə, bu, bir gerçəklikdir ki, hər bir partiyanın əsas gücü onun yaradıcısı və lideri ilə dəyərləndirilir. Bu baxımdan, partiyamıza bu gün Prezident İlham Əliyevin rəhbərlik etməsi bir daha partiyanın nüfuz və gücünü sübut edir. Bu fakt YAP-ın gələcəkdə də necə perspektivli olacağını deməyə bir daha əsas verir.*

*Beləliklə, aydın olur ki, Yeni Azərbaycan Partiyası milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanır, ümummilli lider Heydər Əliyev siyasi irsinə söykənir. Bu da təsadüfi deyil ki, 15 il öncə YAP yaranarkən ona bütün xalq tərəfinndən dəstəklənən lider başçılıq etməli idi. Yeni Azərbaycan Partiyası qısa bir müddətə geniş şöhrət qazanaraq cəmiyyətin bütün təbəqə və kateqoriyalarından olan sağlam qüvvələri öz ətrafında birləşdirə bilmiş, ümumxalq partiyası olmaq istiqamətində uğurlu addımlar atmışdır*

*Bunun nəticəsidir ki, xalq partiyamızın Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi*

*həm də siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir. Artıq ölkəmiz nüfuzlu beynəlxalq təşkilatların demək olar ki, hamısında təmsil olunur, müstəqillik yolunda inamla addımlayan respublikamız dünyada baş verən demokratikləşmə və əməkdaşlıq prosesində yaxından iştirak edən dövlət kimi dünya birliyinin tərkib hissəsinə çevrilib. Demokratiya və müstəqillik ideyalarına sadiq olan İlham Əliyev milli mənafelərimizi yüksək səviyyədə qoruyur.*

*Prezident İlham Əliyevin ölkəmizə böyük istedad və bacarıqla rəhbərlik etməsi, Heydər Əliyev siyasi kursunu, onun Azərbaycan naminə amallarını böyük ustalıqla davam etdirməsi hər birimizin qəlbini iftixarla döyündürür. Onun bir fikri daha çox diqqəti çəkəndir: "Mən Heydər Əliyevdən öyrənmişəm və bundan sonra da öyrənəcəyəm. Bütün qərarları qəbul etməzdən əvvəl fikirləşirəm ki, Heydər Əliyev bu vəziyyətdə hansı addımı atardı". Bəli, İlham Əliyev uzun illər bənzərsiz lider Heydər Əliyevin məktəbinin tələbəsi olub, bu məktəbin vacib sirlərinə yiyələnib, dövlət idarəçiliyi sahəsində böyük təcrübə qazanıb, beynəlxalq əlaqələrin qurulmasında və möhkəmlənməsində uğurlar əldə edib, dünyanın siyasi mühitində yüksək liderlik reytinqinə çatıb. Möhtərəm Prezidentimizin bir fikrini sitat gətirmək istəyirəm: "Mən çalışacağam ki, bundan sonra da elə işləyim ki, xalq həmişə məni dəstəkləsin".*

*Əlbəttə, Prezidentin müəyyən etdiyi bu yolla getmək hər bir YAP üzvünün ən başlıca vəzifəsidir. Biz hamımız*

*ümummilli lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanın daha da güclənməsi, çiçəklənməsi naminə əlimizdən gələni etməliyik.*

*Odur ki, YAP-ın hər bir sıravi üzvü belə bir təşkilatda olmağı ilə fəxr edir, partiyamız da bu inkişafdan bəhrələnərək daha da güclənir, sıralarını sağlam düşüncəli, aydın fikirli vətəndaşlarla artıraraq qüdrətlənir. Ən sevindirici hal isə ondan ibarətdir ki, bu gənclər məhz ölkəmizdə lider partiya olan Yeni Azərbaycan Partiyasının və təbii ki, bu partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşmişlər. Zaman özü sübut etdi ki, YAP bu 15 il ərzində xalqın ona olan ümidlərini doğrultmuş və Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət etmişdir. Partiyamızın gücü məhz onun ümummilli lider Heydər Əliyev ideyaları ilə meydana gəlməsində, Azərbaycan xalqının mənafeyini hər şeydən uca tutmasındadır.*

***ƏLİ ƏHMƏDOV***
*YAP Sədrinin müavini-icra katibi,*
*fəlsəfə elmləri namizədi*

# GİRİŞ

1992-ci il noyabr ayının 21-i Azərbaycanın müstəqil dövlətçilik tarixində müstəsna rolu olan Yeni Azərbaycan Partiyasının yaradıldığı gündür. Düz 15 il əvvəl ölkəmizin ictimai-siyasi həyatına belə bir ümummilli təsisatın daxil olması tarixin və zamanın Azərbaycan cəmiyyəti qarşısında qoyduğu qaçılmaz zərurət idi.

Həmin illərdə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xalq tərəfindən Azərbaycanın çoxsaylı problemlərdən yeganə qurtuluş yolu kimi qəbul olunurdu. Ölkə vətəndaşları ümummilli lider Heydər Əliyevin qayıdışını əngəlləməyə çalışan və bunun üçün min bir üsuldan yararlanan qaraguruh qüvvələrin qeyri-demokratik addımlarına qarşı etiraz aksiyaları keçirir, xalq öz həqiqi liderinin ölkə rəhbərliyinə qayıdışı tələbi üzərində israr edirdi. Qısa şəkildə ifadə etsək, Yeni Azərbaycan Partiyası məhz bu zərurətin siyasi ifadəsi kimi yaradıldı.

Ulu öndər Heydər Əliyevin "Dünənin, bu günün, gələcəyin partiyası" deyə həm keçmişini, həm bu gününü, həm də gələcəyini müəyyən etdiyi Yeni Azərbaycan

Partiyasının xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir. Heydər Əliyev siyasi xəttinin alternativsizliyinə qəti əmin olan Azərbaycan xalqı 2003-cü ilin 15 oktyabr prezident seçkilərində də məhz bu partiyanın namizədinə – Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyevə etimad göstərdi. Bununla da, müstəqil Azərbaycanımızın dövlətçilik tarixində yeni bir yüksəliş mərhələsinin əsası qoyuldu.

Cənab İlham Əliyev bu gün ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq olduğu kimi, taleyini Yeni Azərbaycan Partiyası ilə əbədi olaraq bağlamışdır. 11 mart 2004-cü ildə Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini kimi partiyanın İdarə Heyəti üzvləri ilə keçirdiyi ilk görüşündə cənab Prezident bu istiqamətdə Heydər Əliyev siyasi kursuna sadiq qalacağını bəyan etmişdir.

Təbii ki, YAP-ın qət etdiyi keşməkeşli siyasi həyat yolunu, 15 illik tarixin səhifələrini vərəqləmək Azərbaycan tarixinin bütöv bir qərinəsinə nəzər salmaq deməkdir. Əgər YAP-ın siyasi fəaliyyət tarixini bir cümlə ilə ifadə etmək lazım gəlsə, bu sözləri tam səmimiyyətilə vurğulaya bilərik: YAP ən mürəkkəb, ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə təmkinini itirməyən və ölkədəki dəyişiklikləri realistcəsinə qiymətləndirib xalqının, ölkəsinin çıxarlarını praqmatik ağılla və sabahı da nəzərə

alan bir dəqiqliklə hesablayan şəxslərin birləşdiyi siyasi təşkilatdır. YAP-ın 15 illik fəaliyyəti həm də onu təsdiqləmişdir ki, bu gün Azərbaycan cəmiyyətinin siyasi illüziyalara deyil, nəticələrə ehtiyacı var. Bu nəticələr isə öz ifadəsini YAP-ın 15 illik tarixində tapmışdır.

Etiraf edək ki, Yeni Azərbaycan Partiyasının 15 illik tarixi, sözün əsil mənasında, xalqı üçün qurtuluş və dirçəliş illəri kimi yadda qalmışdır. Partiyamızın yaranma dövrü tarixi nöqteyi-nəzərdən qısa – cəmi on beş il olsa da, bu müddət ərzində bir neçə onilliklərə bərabər inkişaf və tərəqqi əldə edilmişdir. Belə ki:

– ölkəni dağılmaq və parçalanmaq həddinə gətirib çıxarmış dövlət və hakimiyyət böhranı, vətəndaş müharibəsi təhlükəsi aradan qaldırılmış;

– əsaslı siyasi və iqtisadi islahatlar aparılmış, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, demokratik təsisatların inkişafına və qanunun aliliyinə təminat yaradılmış;

– cəmiyyət və dövlət həyatının bütün sahələrində tənəzzülə son qoyulmuş, iqtisadiyyatda, mədəniyyətdə dirçəliş başlanmış, Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələri sırasına çıxmış, əhalinin həyat səviyyəsi yüksəlmiş;

– Azərbaycanın milli maraqlarına cavab verən, ərazi bütövlüyünü təmin edən xarici siyasət formalaşdırılmış və bu gün də uğurla həyata keçirilməkdədir.

Ötən 15 il ərzində YAP həm də onu sübut etmişdir ki, vətəndaş müharibələri, hakimiyyət uğrunda qeyri-sivil

mübarizə, total bölücülük demokratiyaya gedən yol deyil. YAP öz yaranışı və fəaliyyəti ilə Azərbaycanın siyasi tarixinə yeni ruh və müasirlik gətirdi. YAP-ın söykəndiyi Heydər Əliyev siyasi fəlsəfəsinə görə, demokratiya üçün vacib olan başlıca şərtlər siyasi sabitlik və güclü dövlət hakimiyyətidir ki, partiya bu prinsipləri daim ardıcıllıqla həyata keçirir, ona sadiqlik nümayiş etdirir.

Bu gün siyasi baxışlarından asılı olmayaraq, hər bir vətəndaş etiraf edir ki, 1992-ci ilin noyabrın 21-də məhz ümummilli lider Heydər Əliyevin müdrikliyi ilə belə bir partiya yaranmaqla Azərbaycanda siyasi böhrana, vətəndaş müharibəsi təhlükəsinə, separatçılıq meyllərinə, dövlət çevrilişi cəhdlərinə, terror aktlarına son qoyulmuş, ictimai-siyasi sabitlik təmin edilmişdir. Eyni zamanda, YAP-ın fəaliyyəti Azərbaycanın sosial-iqtisadi inkişafı üçün zəmin yaratmış, partiya öz proqram və qətnamələrində iqtisadi islahatların əsas konturlarını müəyyən etmişdir.

Beləliklə, bu gün 15 yaşını qeyd edən YAP çox güclü, mütəşəkkil, cəmiyyətdə böyük nüfuza malik partiya kimi fəaliyyətini davam etdirir. 400 mindən çox üzvü ətrafında birləşdirən Yeni Azərbaycan Partiyası respublikanın ictimai-siyasi həyatında özünəməxsus yeri və rolu olan mühüm və şərəfli yol keçmişdir. Ötən illər ərzində daha da möhkəmlənmiş, mətinləşmiş, təşkilatlanmış, YAP-ın siyasi təcrübəsi onun bir təşkilat və güc mərkəzi olaraq yaşarlılığını inandırıcı şəkildə sübuta yetirmişdir.

Hazırkı dövrdə Yeni Azərbaycan Partiyası beynəlxalq ictimai-siyasi sistemə, qlobal əməkdaşlığa da fəal

surətdə inteqrasiya edir. Partiya yetkin siyasi strukturu formalaşmış, dünya siyasi arenasında qabaqcıl mövqeyə malik olan dövlətlərin aparıcı siyasi partiyaları ilə sıx əlaqələr yaratmışdır. Bu da onun beynəlxalq aləmdə getdikcə artan siyasi nüfuzundan xəbər verir. İstər müxalifətdə olan dövr ərzində, istərsə də iqtidar partiyası kimi YAP yalnız və yalnız xalqın mənafeyini, müstəqilliyi və dövlətçiliyi üstün tutmuşdur.

YAP-ı digər partiyalardan fərqləndirən əsas cəhətlərdən biri də onun sıralarında Azərbaycanın ən layiqli, intellektual, yaradıcı, ziyalı insanlarının cəmləşməsidir. Bu reallığın göstəricisidir ki, bu gün Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların heç biri YAP-la rəqabətə girə bilməz. Partiyanın bu illər ərzində ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində ardıcıl olaraq mütləq səs çoxluğu ilə qələbə qazanması bir daha onun ictimai-siyasi qurum kimi rəqibləri üçün əlçatmaz olduğunu təsdiqləyir. Çünki bu partiya sözün həqiqi mənasında Azərbaycana nicat, qurtuluş, dirçəliş, tərəqqi və ən nəhayət, bugünkü sosial-iqtisadi inkişafın sürətini gətirmişdir.

Nəticədə, Yeni Azərbaycan Partiyasının yaradıcısı və əbədiyaşar liderimiz Heydər Əliyevin uzaqgörənliklə söylədiyi "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" sözləri artıq reallığa çevrilmişdir.

# MİLLİ QURTULUŞA APARAN YOL

Yeni Azərbaycan Partiyası siyasi səhnəyə XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə qədəm qoymuşdur. Bu illər ərzində tez-tez baş verən hakimiyyət dəyişiklikləri və daxili siyasi qarşıdurmanın dərinləşməsi sayəsində ölkədə böhranlı vəziyyət qorxulu həddə çatmış, dövlətçiliyin itirilməsi təhlükəsi yaranmışdı. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə milli birliyə, vətəndaş həmrəyliyinə, ən başlıcası isə zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu və bu sosial sifariş özünü doğrultdu.

Tarixin keşməkeşli günlərində zamanın da özünəməxsus tələbləri olur. Və onu da etiraf edək ki, bu tələbin reallaşması dahi şəxsiyyətlərin payına düşür. Təsadüfü deyil ki, 15 il əvvəl parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycanı bu girdabdan çıxarmaq üçün ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yaradıldı. Ümummilli lider YAP-ın yaradılması zərurətindən danışarkən haqlı olaraq demişdir: “Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir. YAP-ın fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri

ilə xalqına, vətəninə, millətinə xidmət etmək üçün ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış partiyadır". Doğrudan da YAP-ın yarandığı həmin dövrü göz önündə canlandırsaq, bir daha ulu öndərimizin bu fikrinin haqlı olduğunu təsdiqləmiş olarıq.

O dövrdə getdikcə ağırlaşan ictimai-siyasi vəziyyət, bir-birinin ardınca yeni-yeni rayonlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, bütün ölkə boyunca salınmış şəhidlər xiyabanlarının gündən-günə daha da genişlənməsi, vətəndaş itaətsizliyinin, sosial-iqtisadi xaosun dözülməz həddə çatması xalqın haqlı tələbini daha da gücləndirirdi. Cəmiyyətin demokratik qüvvələri, ziyalıları və bütövlükdə Azərbaycan xalqı proseslərin gedişinə daha rasional yanaşaraq, o dövrdə Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində çalışan ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə yanaşı, onun adı ilə bağlı böyük bir siyasi qurumun təsis olunmasını da zəruri sayırdılar. Ulu öndərimizə bu barədə çoxsaylı müraciətlər zaman keçdikcə daha intensiv xarakter daşımağa başlayırdı. Həmin dövrün reallıqları ümummilli liderimizin çıxışlarında daha dəqiqliyi ilə öz əksini tapmışdır: "Azərbaycan mənim üçün nə qədər əziz olsa da, o vaxtlar Azərbaycanın aqibəti məni nə qədər narahat etsə də, mən 1986-1987-ci illərdən sonra, xüsusən 1987-ci ildə istefaya gedəndən sonra, ələlxüsus 1988-ci ildə bəzi qrupların mənə qarşı ədalətsiz hərəkətlərini görəndən sonra, bir daha siyasət aləminə qayıtmaq istəmirdim. Bu mənim qəti qərarım, fikrim idi. Ancaq bir var ki, bu barədə öz şəxsi fikirlərim

olsun, bir də var xalqın istəyi. Azərbaycan haqda düşünən ayrı-ayrı böyük şəxslərin istəyi, fikirləri olsun. Onlar gəlirdilər, müraciət edirdilər. Mən də hər dəfə lazımi məsləhətlər verirdim. Amma özümün bu məsələdə iştirakımdan imtina edirdim. 2, 3, 4 saat davam edən danışıqlarımız onunla bitirdi ki, deyirdim gedin fəaliyyətinizi davam etdirin, amma mən bu təkliflərdən imtina edirəm. Bax, bu səpgidə Yeni Azərbaycan Partiyasının yaradılması məsələsi qaldırıldı. Bu barədə çoxları gəlib mənə müraciət edirdi, mənimlə danışıqlar aparırdılar, belə bir partiyanın yaradılması üçün təkliflər verirdilər. Mən bunlardan imtina edirdim".

Lakin xalqın israrlı çağırışlarından, aparılan gərgin ictimai müzakirələrdən sonra 16 oktyabr 1992-ci ildə ümumilikdə Azərbaycan vətəndaşlarının ictimai maraq və mənafelərinin ifadəsi kimi 91 nəfər tanınmış Azərbaycan ziyalısının ümummilli lider Heydər Əliyevə məktubu "Səs" qəzetində işıq üzü gördü. Bu müraciət əslində milyonların tələbinin ümumiləşdirilmiş ifadəsi idi və ulu öndərimiz də öz növbəsində ziyalıların bu məktubuna cavabı ilə müstəqil Azərbaycan dövlətinin gələcək taleyini, inkişaf istiqamətlərini müəyyənləşdirdi. Ölkədəki ictimai-siyasi durumun hərtərəfli əks olunduğu həmin cavab məktubunda Azərbaycandakı mövcud böhranın yaranma səbəbləri konseptual qaydada hərtərəfli və dolğun şəkildə şərh olunmuş, ağır vəziyyətdən çıxış yolları dəqiqliklə göstərilmişdi. Müraciətin sonunda Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zərurət-

dən doğduğunu bildirmiş və belə bir təşkilatın fəaliyyətində iştiraka hazır olduğunu bəyan etmişdi. Səmimi şəkildə etiraf etməliyik ki, o dövrdə belə bir təsisatın yaradılması ilə xalqda nikbin əhval-ruhiyyə yarandı, Azərbaycan dövlətçiliyinin gələcəyinə inam bərqərar oldu, xalqın ümummilli lider Heydər Əliyevin ətrafında birləşməsi Azərbaycanı məhv olmaq, tarixin səhnəsindən silinmək təhlükəsindən hifz etdi.

Etiraf etməliyik ki, həm dövlət müstəqilliyinin rəsmən elan olunduğu 1991-ci ilin 18 oktyabrına qədər, həm də dövlət müstəqilliyinin ilk mərhələsində bir-birini sürətlə əvəzləyən müvəqqəti rejimlərin səriştəsiz siyasəti, dövlətə, xalqa qarşı xəyanətləri Azərbaycanın nəinki yenicə qazandığı müstəqilliyini itirmək, hətta bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi qarşısında qoymuşdu. Belə bir dövrdə YAP-ın yaradılması Azərbaycanı ehtimal olunan, daha doğrusu gözlənilən daha ağır faciələrdən xilas etdi. Lakin həmin dövrdə hakimiyyətdə olan qüvvələr bu reallığı qiymətləndirmək istəmir, Heydər Əliyevin rəhbərliyi altında yeni bir siyasi təsisatın yaradılmasını qəbul etmək istəmirdilər. Lakin xalqın istəyinə qarşı atılan bütün addımlar iflasa uğradı.

Bəs, ümummilli lider Heydər Əliyevin nurlu ideyalarından qaynaqlanan siyasi partiya yaratmaq zərurəti nədən irəli gəlirdi? Yaxın tarixdən məlumdur ki, 1990-cı illərin əvvəllərində Heydər Əliyevi ali hakimiyyət kürsüsünə çağırmaq ideyası ortaya çıxanda ziyalıların qabaqcıl hissəsi tərəfindən bir komitə yaradıldı. Çünki həmin dövrdə

Heydər Əliyevin prezident seçkilərində iştirakına mane olmaq məqsədilə bədnam yaş senzi ortaya atılmışdı. Yaşı 65-i keçmiş şəxs seçkilərdə prezidentliyə namizədliyini irəli sürə bilməzdi. Lakin həmin dövrdə Heydər Əliyevin hakimiyyətə gəlişi xalqın öz sosial sifarişi idi və demək olar ki, ölkənin hər bir guşəsində bu barədə müzakirələr gedirdi. Partiya yaratmaq zərurəti məhz buradan irəli gəldi.

Lakin o dövrdə qaraguruh qüvvələr Heydər Əliyevin liderliyi ilə yeni siyasi partiyanın yaradılması ideyasını qəbul edə bilmir, hər vəchlə buna mane olmağa səy göstərirdilər. Bu baxımdan, YAP-ın təsis konfransına hazırlıq dövrü çox mürəkkəb şəraitdə keçdi. Ümummilli lider Heydər Əliyevin siyasi nüfuzundan qorxan o vaxtkı hakimiyyət 1992-ci il oktyabrın 23-də Naxçıvanda dövlət çevrilişinə cəhd göstərdi. Məqsəd Heydər Əliyevin ətrafında partiya yaratmaq planlarına mane olmaq idi. Lakin ümummilli lider xalqın dəstəyi ilə bu təhlükədən də qalibiyyətlə çıxdı.

Həmçinin, həmin dövrdə Bakı şəhərində YAP-ın təsis konfransının təşkilinə imkan verilmədiyindən konfrans 1992-ci il noyabrın 21-də Naxçıvan Dram Teatrının binasında keçirildi. Azərbaycanın müxtəlif regionlarından Naxçıvana gəlmiş 550 nəfərdən artıq nümayəndənin iştirak etdiyi konfransda partiyanın proqram və nizamnaməsi qəbul edildi, Heydər Əlirza oğlu Əliyev partiyanın sədri seçildi. Bununla da, Azərbaycanın siyasi həyatına Yeni Azərbaycan Partiyası adı altında xalqa xidmət etmək

məqsədilə əzəmətli bir güc mərkəzi daxil oldu.

Lakin cəmi 7 ay keçəcək, zaman Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin üzərinə daha böyük missiya qoyacaq, Naxçıvandan başlanan zəfər yürüşü ümummilli liderin 15 iyun 1993-cü ildə xalqın təkidli tələbi əsasında siyasi hakimiyyətə qayıdışı ilə nəticələnəcəkdi. Bu Azərbaycanın çağdaş tarixində yeni bir şərəf səhifəsi açacaqdı. Lakin onu da səmimi şəkildə etiraf etməliyik ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində yeganə siyasi təşkilatdır ki, o yaranarkən öz qarşısına hakimiyyətə gəlmək, hakimiyyət uğrunda mübarizə aparmaq yox, ölkəni mövcud böhrandan çıxarmaq məqsədi qoymuşdu. Ümummilli lider Heydər Əliyev bu məqsədləri daha konkret və dolğun şəkildə ifadə edib: "Bu partiya hakimiyyət uğrunda mübarizə aparan partiya kimi yaranmadı. Biz partiyanın nizamnaməsində yazdıq ki, partiya Azərbaycanın bu ağır dövründə, ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır. Bu partiya parlament tipli partiyadır. Partiya yaranarkən heç kəs qarşıya məqsəd qoymurdu ki, biz hakimiyyəti devirəcəyik. Necə ki, indi ayrı-ayrı müxalifət qüvvələri, hakimiyyəti devirmək haqqında, yaxud da hakimiyyət uğrunda mübarizə aparacaqları barədə ayda bir dəfə bəyanatlar verirlər. Bizim partiya xalqı birləşdirmək, ölkənin problemlərinin həll olunmasında iştirak etmək məqsədilə yaranıb. Mən məmnunam ki, 1992-ci ildə çox ağır şəraitdə Naxçıvanda bizim yazdığımız və qəbul etdiyimiz proqram bu gün də öz

aktuallığını saxlayır. Deműk biz o vaxt nə qədər uzaqgörənlik etmişik və partiyanın gələcək yolunu, istiqamətini nə qədər düzgün müəyyən etmişik".

Beləliklə, həmin dövrü bir daha araşdırdıqda aydın olur ki, Yeni Azərbaycan Partiyası zamanın tələbindən yaranıb. Elə bir zamanın ki, hər şeyi diktə etməyə qadirdi. Yenicə müstəqillik qazanan, ancaq səriştəsiz rəhbərlərin girdaba sürüklədiyi Azərbaycanda bu partiya yeganə ümid yeri oldu. Dövlətçiliyin keşiyində dayanan siyasi qüvvəyə çevrildi.

Lakin görəsən, o zaman Muxtar Respublikanın Dövlət Dram Teatrının soyuq zalında ümummilli lider Heydər Əliyevə xalqın xilaskarı kimi baxanlar əslində tarixi bir hadisənin iştirakçıları olduqlarının fərqində idilərmi? Yeni Azərbaycanın yeni partiyası yaradılırdı. Dünənin təcrübəsi, bu günün qətiyyəti, sabahın təntənəsi olacaq bir partiya! Bu partiya az bir zamanda xalqı, ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq, ümummilli lider Heydər Əliyev ideyalarını həyata keçirmək üçün əhəmiyyətli siyasi qüvvəyə çevrildi.

Yaranandan 7 ay sonra hakimiyyətə gəlişi də məhz xalqın bu qüvvəyə inamının təzahürü idi. 3 oktyabr 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən partiya sədri Heydər Əliyev bütün cəmiyyəti səfərbər edərək köhnədən qalan problemlərin həllinə başladı. İqtisadiyyat, kənd təsərrüfatı, əhalinin sosial müdafiəsi, çörək təminatında yaranan çətinliklərin aradan qaldırılması yönündə görülən işlər tez bir zamanda nəticə verdi. Bu isə

YAP-ın sıralarına axını gücləndirdi. Çünki sözlə işin vəhdəti məhz bu partiyanın əsas ideyası idi. Bu gün öz sıralarında 400 mindən çox alimi, ziyalını, müəllimi, fəhləni, sadə kənd adamını birləşdirən Yeni Azərbaycan Partiyası Heydər Əliyev ideyalarına sadiqdir. Təkcə iqtisadiyyatda, dövlətçilikdə deyil, daxili siyasətdə də sağlam rəqabət aparan yeni azərbaycançılar ölkədə vətəndaş cəmiyyətinin tərəqqisinə çalışır.

Tarix özü sübut etdi ki, Yeni Azərbaycan Partiyasının yaranması birbaşa, bilavasitə Heydər Əliyevin adı, fəaliyyəti ilə bağlıdır. Partiyanın yaradılmasının əsas qayələrindən biri də məhz ondan ibarət idi ki, Azərbaycanda olduqca təhlükəli bir vəziyyətin mövcud olduğu zamanda xalqımızın ziyalıları ictimai-siyasi proseslərdən kənarda qalmasın və ölkəni düçar olduğu ağır vəziyyətdən çıxarılması üçün həlledici amilə çevrilsin. YAP-ın yaradılması məhz bu ideyadan qaynaqlandı. Təbii ki, bu partiyanın yaranması insanları Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətlərinə verdikləri qiyməti ifadə edir, digər tərəfdən Heydər Əliyevin 90-cı illərin əvvəllərində Azərbaycanın düçar olduğu ağır vəziyyətdən xilas etmək qüdrətinə malik olduğunu nümayiş etdirirdi. Məhz bu iki arqumentin əsasında ümummilli lider Heydər Əliyevin ətrafında siyasi partiyanın yaradılması ideyası ortaya çıxdı. Bu məqam YAP Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında da öz əksini tapmışdır: “1992-ci ilin noyabr ayında Azərbaycanın mütərəqqi qüvvələri Heydər Əliyevin ətrafında birləşərək,

Yeni Azərbaycan Partiyasının yaranmasını bəyan etdilər. YAP-ın yaradılması Azərbaycanın müasir tarixində çox mühüm hadisə – Azərbaycan cəmiyyətinin həyatının yeni mərhələnin başlanğıcını qoyan və ölkəmizin inkişaf yollarını müəyyənləşdirən tarixi hadisə oldu. Hərc-mərclikdən və qanunsuzluqdan, siyasi və hərbi məğlubiyyətlərdən, iqtisadi dağıntıdan və özbaşınalıqdan yorulmuş Azərbaycan cəmiyyəti ümid yerini yeni partiyanın yaradılmasında gördü. Heydər Əliyevin ətrafında birləşdi. Çünki xalq inanırdı ki, ölkəmizi böhrandan yalnız Heydər Əliyev çıxara bilər. Məhz belə də oldu. Azərbaycanın son 8 ildəki tarixi sübut etdi ki, Azərbaycan xalqı düzgün seçim etmişdir".

Təbii ki, Heydər Əliyev onun ideyaları ətrafında siyasi partiyanın yaradılmasına razılıq verməklə öz vəzifəsini bitmiş hesab etmədi. Partiyanın yaradılması təşəbbüsünə razılıq verəndən sonra YAP-ın fəlsəfi və ideoloji baxışları da Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplər əsasında formalaşdı. Bu gün Azərbaycanda mövcud olan ən qüdrətli siyasi təşkilat olan YAP-ın ideoloji prinsipləri bilavasitə Heydər Əliyev tərəfindən müəyyənləşib. Bu prinsiplərin Heydər Əliyev tərəfindən bəyan edilməsi YAP-ın həm sağlam, həm də möhkəm təməllər üzərində bərqərar olmasının əsas şərtidir. Bu gün biz YAP-ın gücü, qüdrəti, nüfuzu haqqında danışarkən çoxlu sayda mövcud olan amillər sırasından ən vaciblərindən biri kimi partiyanın təməl prinsiplərinin olduqca sağlam əsaslara söykəndiyini qeyd etməliyik. Bu prinsiplər ümummilli liderin bəyan

etdiyi kimi, dövlətçilik, siyasi sabitlik, demokratiya və sosial ədalətdir!

Zaman özü sübut etmişdir ki, tarixin hərəkətverici qüvvəsi şəxsiyyət və şəxsiyyətə insanların inamıdır. Əslində tarixə tamamilə emosiyalardan kənarda baxanda, etiraf etmək lazım gəlir ki, tarix elə şəxsiyyətlərin tarixidir. Bu prinsipdən çıxış edərək etiraf etməliyik ki, Azərbaycanın müasir tarixinin arxitektoru məhz ümummilli lider Heydər Əliyevdir. Bu reallıq öz təsdiqini YAP-ın yarandığı tarixdən də çox-çox əvvəl nümayiş etdirmişdir.

Bu gün bütün səviyyələrdə etiraf olunur ki, ötən əsrin 70-ci illərində Azərbaycanın sürətli inkişafının əsas fundamenti Heydər Əliyev şəxsiyyəti və onun fəaliyyəti ilə bağlıdır. Tarixdən məlumdur ki, XX əsrin 60-cı illərində Azərbaycan böhran keçirən respublika kimi qəbul edilirdi. Lakin Heydər Əliyev belə bir zamanda Azərbaycanın rəhbəri seçilməklə ölkəni geridə qalan respublikadan sürətlə inkişaf edən bir respublikaya çevirdi. Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan böhrandan çıxaraq yüksək inkişaf mərhələsinə qədəm qoydu. Eləcə də, 90-cı illərin əvvəllərində Azərbaycan öz tarixinin ən çətin anlarını yaşayanda insanlar Heydər Əliyevin gücünün, qüdrətinin, şəxsiyyətinin hesabına bu vəziyyətdən çıxmağın mümkünlüyünə inamlarını ifadə etdirdilər, beləliklə, Heydər Əliyevin ölkənin rəhbərliyinə gəlməsi təşəbbüsü meydana çıxdı. Sonrakı dövrdə də hər birimiz Heydər Əliyev zəkası hesabına qısa bir vaxtda ölkədə böyük dəyişikliklərin başlandığının şahidi olduq. Bu onu göstərir

ki, şəxsiyyət tarixin ən qüdrətli amili kimi çıxış edir. Bunun da çox ciddi səbəbləri var.

Əsas səbəb odur ki, hər bir şəxsiyyət təmsil etdiyi xalqın arzularını təcəssüm etdirir, əks halda şəxsiyyət bütün xalqı öz ətrafında birləşdirib tarixi vəzifələrini həyata keçirə bilməz. Şəxsiyyətin gücü xalqın istək və arzularını dəqiqliyi ilə dərk edərək onu düzgün ifadə etmək bacarığındadır. Şəxsiyyətin gücü insanların onun gücünü etiraf etməsində və ona inanmasındadır. Azərbaycan xalqının enerjisinin Heydər Əliyevdə birləşdiyinin ümummilli liderimizin Azərbaycan xalqına rəhbərlik etdiyi bütün dövrlərdə həyata keçirdiyi misli görünməmiş işlərdə görmək olar. Heydər Əliyevin Azərbaycan xalqının istək və arzularını ifadə etmək bacarığına malik fenomenə çevrilməsi etiraf olunmalıdır. Bütün bunların hamısı Heydər Əliyevin Azərbaycan tarixinin müasir dövrünün qüdrətli fenomeninə çevrilə bilmək qüdrətini şərtləndirib və ümummilli lider də bu tarixi missiyanı üzərinə götürməklə Azərbaycanın müasir tarixinin memarına çevrilib. Tarixi şəxsiyyət olan Heydər Əliyev Azərbaycanın müasir tarixini yaradıb. Müstəqil dövlətçiliyin qurulması, Azərbaycanın hərtərəfli inkişafını nəzərdə tutan yüksəliş strategiyasının həyata keçirilməsi Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü təsdiqləyir.

Əlbəttə, tarixin gedişinin uğurlarını təmin edən ən vacib amillərdən biri varisliklə bağlıdır. İdeologiya varisliyi, siyasi varislik – bütün bunlar Azərbaycanın bugünkü inkişafını təmin edən əsas faktorlardır. Heydər Əliyev

siyasətinin varisliyi zərurətinin Azərbaycanın inkişafının davamlılığının təmin edilməsi məntiqindən və tələbindən irəli gəldiyini qəti əminliklə iddia etməyə kifayət qədər əsas vardır. Birincisi, bu siyasət özü Azərbaycanın tarixi nailiyyətlərinə, ənənələrinə, yüz illər boyu yaradılmış maddi və mənəvi potensialına istinad edir. İkincisi, Heydər Əliyev siyasəti tam bir epoxa boyu Azərbaycana xidmət etmiş, onun sürətli inkişafının alternativsiz təminatçısı kimi çıxış etmişdir. Üçüncüsü, müdriklikdən və təcrübədən qaynaqlanan ideyaları ehtiva edən Heydər Əliyev siyasəti zamanın sınaqlarından keçərək bitkin bir sistem kimi formalaşdığından böyük perspektivdə yaşam qabiliyyətini təsdiqləyən bütün zəruri parametrlərə tam malik olduğunu sübuta yetirmişdir.

Yeni Azərbaycan Partiyasının yaradılması bu baxımdan zəngin bir təcrübənin xalqın inamı ilə culğalaşmasının məntiqi nəticəsi idi. Bu sintez son nəticədə Azərbaycan dövlətçiliyini böyük bəlalardan xilas etdi. YAP-ın yaradılması zərurətini tarixi-ideoloji kontekstdən təhlil etsək, daha geriyə – ötən əsrin 80-ci illərinin ortalarından başlayaraq keçmiş SSRİ məkanında və onun ətrafında gedən ictimai-siyasi proseslərə qayıtmalı olarıq. Həmin proseslər ki, o, Sovetlər Birliyinin süqutunun qaçılmaz olduğunu göstərirdi. M.Qorbaçovun hakimiyyətə gəlişi ilə ağıllı və təcrübəli kadrların rəhbərlikdən uzaqlaşdırılması, mərkəzi hakimiyyətin müttəfiq respublikalara münasibətində olan ayrı-seçkilik və s. amillər bu prosesi bir az da sürətləndirərək respublikaların hər birinin müstəqilliyinə gətirib çıxardı.

O cümlədən ölkəmiz 1991-ci ilin 18 oktyabrında "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya aktını qəbul etməklə düz 71 ildən sonra öz müstəqilliyini bərpa etdi. Amma müstəqilliyin bərpası hələ müstəqil dövlət demək deyildi. Tarixdən bizə yaxşı bəllidir ki, müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətindir. 1918-20-ci illərdə, daha sonra 1991-93-cü illərdə biz bunun bir daha şahidi olduq. 1918-20-ci illərdə qədim Şərq və müsəlman aləmində ilk müstəqil dövlət olan Azərbaycan Demokratik Cümhuriyyəti dövrün təlatümlü burulğanlarından çıxa bilməyərək cəmi 23 ay yaşadı. 1991-93-cü illərdə də vəziyyət 1918-20-ci illərdəkindən yaxşı deyildi. Dövlət müstəqilliyini yenicə əldə etmiş gənc Azərbaycan Respublikasının qarşısında bu müstəqilliyi möhkəmləndirmək və inkişaf etdirmək kimi mürəkkəb, çətin vəzifələr dururdu. Belə taleyüklü vəzifələrin öhdəsindən isə təcrübəli və bacarıqlı, öz xalqını və dövlətini ürəkdən sevən dövlət xadimi gələ bilərdi.

Təəssüf ki, 1991-93-cü illərdə hakimiyyətdə olan qüvvələr bu reallığı düzgün qiymətləndirə bilmədilər. Nəticədə gənc, müstəqil Azərbaycan Respublikası çox böyük çətinliklərlə – siyasi, iqtisadi və sosial problemlərlə üzləşdi, Xocalı faciəsi baş verdi, Dağlıq Qarabağ və bir sıra ətraf rayonlar işğal olundu. Ölkə iqtisadiyyatında da misli görünməmiş böhran başlandı. Mövcud iqtisadi potensial tamamilə dağıdıldı, milli sərvətlər talan edildi. Orduda vəziyyət daha acınacaqlı idi, onsuz da tam formalaşmamış, hərbi təlim görməmiş, maddi-texniki

bazası zəif olan orduda özbaşınalıq, ruh düşkünlüyü, inamsızlıq hökm sürürdü. Hərbi hissələr bir-birinə qarşı duran ayrı-ayrı şəxslərin silahlı dəstələrinə çevrilmişdi.

Taleyinə min bir məhrumiyyət və əziyyət yazılmış Azərbaycan xalqı 15 il əvvəl müharibələrin içərisində ən iyrənci və dəhşətlisi sayılan vətəndaş müharibəsinin bircə addımlığında idi. Tərəflər nəfəs-nəfəsə, göz-gözə dayanmışdılar. Bu adamların baxışlarında nifrət və qəzəbdən çox qeyri-müəyyənlik və çarəsizlikdən yoğrulmuş naümid bir boşluq gizlənmişdi. Onlar düşmən deyildilər, hamısı azərbaycanlımız, öz soydaşımız idi. O ağır, fəlakətli və məşəqqətli günlər tək mənim yox, çoxlarının yaddaşına silinməz izlər buraxıb. Həmin səksəkəli günlərdən bizi ayıran zaman kəsiyi çox da böyük deyil, cəmi-cümlətanı 15 ildir. Lakin həmin o narahat günlərin ictimai-siyasi hadisələri zaman-zaman yaddaşlarımızdan silinməyəcək.

Bəli, Yeni Azərbaycan Partiyası məhz belə bir ağır ictimai-siyasi dövrdə ümummilli lider Heydər Əliyevin böyük dühasının təntənəsi olaraq meydana çıxdı. Bu yaranış xalqın istəyi ilə hasil oldu. YAP-ın yaranması ilə Azərbaycanın boğazında kilidlənib onu uçuruma sürüyən təhlükələr dəf edildi, insanların qəlbinə bir inam və rahatlıq toxumu səpildi. Bütün məziyyətlərinə görə dünyanın nadir şəxsiyyətlərindən sayılan Heydər Əliyev 1992-ci il noyabrın 21-də Azərbaycanın qurtuluş və səadəti naminə tarixi bir qərara imza atdı. Naxçıvan Dövlət Dram Teatrında keçirilən təsis konfransında üzünü Azərbaycan dövlətçiliyini dağıtmaq istəyənlərə tutaraq

bəyan etdi: “Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm”.

# NAXÇIVANDAN BAŞLANAN ZƏFƏR YÜRÜŞÜ

Dövrünün sosial sifarişi, xalqın tələbi əsasında yaranan Yeni Azərbaycan Partiyası sonradan xalqın dəstəyi ilə təkmilləşdi, sıraları genişləndi, milyonların partiyasına çevrildi. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, YAP bu günün, sabahın, gələcəyin partiyası oldu. Partiyanın siyasi kursunun əsasında xalqa, dövlətə xidmətin dayanması, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin gücləndirilməsi istiqamətində atdığı addımlar onun gələcəyinə inamı artırdı, tərkibinin möhkəmlənməsinə səbəb oldu.

Öz tarixi ənənəsinə və ideoloji prinsiplərinə sadiq qalan Yeni Azərbaycan Partiyası bu gün də ölkədə vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquq və azadlıqlarının müdafiəsində, siyasi islahatların və demokratikləşmə prosesinin dərinləşməsində fəal mövqeyi ilə seçilir. Partiyadaxili demokratiya ölkənin bütün siyasi təşkilatları üçün örnək, model rolunu oynaya bilər. Bu gün hökumət mənsublarının, icra strukturu nümayəndələrinin, qanunverici hakimiyyət təmsilçilərinin əksəriyyəti YAP-ın üzvləridir və onların hər birinin fəaliyyətində əldə etdiyi müvəffəqiyyətlər, Azərbaycanın son 15 ildə qazandığı nailiyyətlər, eyni zamanda, Prezident İlham Əliyevin cəmiyyətdə

alternativsiz lider kimi qəbul olunması nəticə etibarilə həm də YAP-ın uğuru sayılır. Yeni Azərbaycan Partiyasının rəhbərliyi partiyanın daim yeniləşməsinə və güclənməsinə mühüm önəm verir, çünki bu partiya, eyni zamanda, Heydər Əliyev siyasi irsinin ideoloji bazasını təşkil edən güc mərkəzidir. Son 15 ildə keçirilmiş bütün seçkilərdə hakimiyyət xalqın qarşısına məhz bu partiyanın siyasi platformasında və namizədləri olaraq çıxdığından, partiyanın durumu, nüfuzu, fəaliyyət istiqamətləri iqtidarın siyasi komandası üçün xüsusi əhəmiyyət kəsb edir.

YAP-ın təsis olunduğu 1992-ci ildən keçən dövr ərzində həm Azərbaycan dövləti, həm də partiya öz inkişafında mühüm irəliləyişlərə nail olmuşdur. Azərbaycan keçmiş SSRİ-nin yarımmüstəqil bir respublikasından dünya birliyinin bərabərhüquqlu üzvünə, müstəqil, demokratik dövlətə çevrilmişdir. Ölkədaxili proseslər nizamlanmış, daxili çəkişmələrə, hakimiyyətsizliyə, anarxiyaya, etnik və milli münaqişələrə, hakimiyyət uğrunda silahlı mübarizəyə və vətəndaş qarşıdurmasına son qoyulmuş, sağlam əsaslar üzərində ictimai-siyasi sabitlik yaradılmış, sosial-iqtisadi inkişafa nail olunmuşdur. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyətinin formalaşdırılması, əsas insan və vətəndaş hüquqları və azadlıqlarının qorunması sahəsində mühüm addımlar atılmışdır.

Yeni Azərbaycan Partiyasının yaranması zərurətini 1980-ci illərdə və 1990-cı illərin əvvəllərində təkcə Azərbaycanda deyil, bütövlükdə SSRİ-də, sosialist dövlətləri

birliyində, bütövlükdə dünyada gedən proseslərdə, ictimai-siyasi, mənəvi-psixoloji, əxlaqi sistemlərdəki dəyişmələrdə axtarmaq daha düzgün olar. Bu reallıqdan çıxış edərək deyə bilərik ki, YAP məhz ümummilli problemlərin həllinə nail ola biləcək yeganə partiya kimi formalaşdı. Ölkənin bütün ağıllı, tədbirli, təcrübəli, tanınmış nüfuz sahibi olan insanları bu partiyaya üz tutdu. Partiyaya gənclərin axını başladı. Beləliklə, YAP 15 il ərzində yaşlı, orta yaşlı və gənc nəslin seçilmiş nümayəndələrinin bir amal, vahid məqsəd – milli mədəniyyəti, ilk növbədə mənəviyyatı qoruyub saxlamaq, onu inkişaf etdirmək naminə birləşərək möhkəm siyasi qüvvəyə çevrildi. Nəticədə bu gün YAP sürətli tərəqqi edən, yüksək siyasi mədəniyyət daşıyıcısı kimi tanınan partiyadır.

YAP 15 ilə yaxındır ki, ölkədə hakim partiyadır və təbii ki, ölkədəki vəziyyətə, daxili və xarici siyasətin etibarlılığına, əhalinin sosial-mənəvi tələbatının ödənilmə səviyyəsinə, insanların hüquq və haqlarının, azadlıq və təhlükəsizliyinin təmin olunması səviyyəsinə görə Azərbaycan xalqı qarşısında böyük məsuliyyət daşıyır. 15 illik təcrübənin nəticəsi kimi deyə bilərik ki, partiyamız ümumən Azərbaycan əhalisinin ümidlərini doğrultmuş, həmişə xalqın qayğısı ilə yaşamış və YAP-ın 15 il ərzində ümumxalq partiyasına çevrilməsi faktdır. Əslində YAP-ın tarixi həm də Azərbaycanın həqiqi müstəqil dövlətçilik tarixi ilə o qədər qaynayıb-qarışmışdır ki, onları bir-birindən ayırmaq da olmaz.

Bu mənada tam səmimiyyətlə deyə bilərik ki, 15 iyun 1993-cü il Qurtuluş günü də məhz 1992-ci ilin noyabrın 21-də Naxçıvandan başlanan zəfər yürüşünün məntiqi sonluğu idi. Həmin günə qədər dövlətçilik, idarəetmə sahəsində heç bir təcrübəsi və səriştəsi olmayan kriminal düşüncəli bir qrup insanın hakimiyyətdə olması nəticəsində ölkənin sərvətləri talan edilib xaricə satılır, cinayətkarlıq baş alıb gedirdi. Xüsusilə silahlı dəstələr tərəfindən odlu silah və partlayıcı maddələrin tətbiqi ilə törədilən amansız qətllər, soyğunçuluq, quldurluq kimi hadisələr adi hal almışdı. Qəribədir ki, bu cinayətlərin əksəriyyəti açıq-aşkar, hamının gözü qabağında törədilməsinə baxmayaraq, onların açılmasına və təqsirkarların ədalət mühakiməsinə çıxarılmasına da imkan verilmirdi. Silahlı qüvvələr isə xırda dəstələrlə ayrı-ayrı adamların tabeliyində idilər. Hakimiyyət davası vətən təəssübkeşliyini üstələyirdi. Bu məqsədlə də döyüşən qüvvələr cəbhədən, vətənin müdafiəsindən Bakıya çağırılır və müdafiəsiz qalan vətən torpaqları döyüşsüz olaraq düşmənə təslim edilirdi. Məkrli qonşularımıza da elə bu lazım idi. Məhz belə bir şəraitdə, ölkədəki vəziyyətin daha da təhlükəli istiqamətə yönəldiyi bir vaxtda, nəhayət ki, ümummilli liderimiz Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməsinə razılıq verdi. Bu isə hələlik böyük yolun başlanğıcı idi.

Lakin 1993-cü ilin 15 iyun günü xalqımızın mübarizələrlə dolu şanlı tarixinə yeni eranın başlanğıcı kimi daxil oldu. Heydər Əliyevin Azərbaycanda siyasi

hakimiyyətə qayıdışı ilə qoca Qafqazın bu bölgəsində yeni bir siyasi dövr, yeni təfəkkür mərhələsi başlandı. Məhz bu yeni dövr Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi adlamasına əsaslı təminat yaratdı. Ulu öndərimizin təbirincə desək: "Biz bütün çətinliklərdən keçdik, bütün bu maneələrin qarşısını aldıq, Azərbaycanın bütün düşmənlərinə layiqli cavablar verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq. Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik və Azərbaycanın dövlət müstəqilliyini yaşadırıq və bundan sonra da yaşadacağıq".

Ümummilli liderimiz dəfələrlə bəyan edirdi ki, müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir. Hakimiyyətinin birinci mərhələsində Azərbaycanın müstəqil yaşamasını təmin edən fəaliyyəti ilə ulu öndər Heydər Əliyev xalqımızın illər boyu ürəyində yaşatdığı azadlıq ideallarına sədaqətli olduğunu sübut etdi. Ən böyük milli hadisə azərbaycanlıların ən qiymətli milli sərvəti, Azərbaycan xalqının vahidliyinin təcəssümü olan Heydər Əliyev bəşər sivilizasiyasına nadir töhfələr verdi. Heydər Əliyev Azərbaycanda ümumbəşəri dəyərlərdən istifadə edən, öz milli xüsusiyyətlərini, şərq adət-ənənələrini qoruyan cəmiyyət qurdu, dövlət-cəmiyyət-vətəndaş münasibətlərində hər birinin mənafeyini prioritet götürdü. Tarixə qurucu lider kimi düşmüş Heydər Əliyev on il ərzində görülən işləri belə dəyərləndirirdi: "Qısa bir müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq, çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq, liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolu ilə

irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz müddəalarının üçdə biri insan haqlarının və əsas azadlıqlarının qorunmasına həsr olunmuş yeni Konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunvericilik sistemi yaratdıq, prezident, parlament və bələdiyyə seçkiləri keçirdik, mühüm siyasi və iqtisadi islahatlar apardıq".

Taleyin hökmü ilə iki dəfə xilaskarlıq missiyasını üzərinə götürərək hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, dayaq olmuş, onu zamanın ağır məngənəsindən xilas etmişdir. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması məhz ümummilli lider Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Azərbaycan Respublikasının hərtərəfli inkişafı

üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil respublikamızın gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması məqsədinə xidmət edəcəkdir.

Azərbaycanın inkişafı, dünya birliyində layiqli yerini tutması isə Heydər Əliyevə sağlamlığı bahasına başa gəlirdi. Buna baxmayaraq, gələcək nəsillərə güclü müstəqil dövlət miras qoymaq üçün var qüvvəsi ilə çalışırdı. Müstəqilliyimizin onuncu ilinə həsr olunmuş tədbirdəki dərin məzmunlu çıxışını aşağıdakı fikirlərlə bitirməsi bu baxımdan çox xarakterikdir: “İnsan cürbəcür şəraitlərdə yaşaya bilər. Amma insan üçün, xalq üçün hər şeydən qiymətli, hər şeydən əziz müstəqillikdir, azadlıqdır. Biz çox əsrlər bu azadlığın, bu müstəqilliyin arzusunda olmuşuq. İndi buna nail olmuşuq. Ötən on ildə bu müstəqilliyimizi möhkəmləndirmişik, inkişaf etdirmişik, dönməz etmişik və gələcək nəsillərə bu müstəqilliyi töhfə edirik. İnanıram ki, xalqımız bu müstəqilliyi heç vaxt bir daha əlindən verməyəcəkdir. Müstəqil Azərbaycan bundan sonra on illər də yaşayacaq, əbədiyyətə qədər yaşayacaqdır”. Bununla da ulu öndər Heydər Əliyev ölkə həyatının bütün sahələrinə aid strateji irs qoyub, Azərbaycana qarşı yönələn çirkin niyyətləri dəf etmək üçün çevik, dinamik taktika müəyyənləşdirib. Bu, Azərbaycanın hərtərəfli inkişafı, azərbaycançılıq ideologiyası, dünyaya inteqrasiya, ərazi bütövlüyü ilə bağlı istiqamətlərdir. Varislik xəttindən sapmağın ağır nəticələrinin şahidi olan Azərbaycan xalqı inkişaf, tərəqqi yolunu məhz Heydər

Əliyev ideallarının əbədi yaşamasında görür.

Əgər Ruzvelt ABŞ, Şarl de Qoll Fransa, Adenauer Almaniya, Cavahirləl Nehru Hindistan, Böyük Atatürk Türkiyə üçün nə deməkdirsə, Heydər Əliyev də Azərbaycan xalqı üçün, bütün dünya azərbaycanlıları üçün, bütün türk dünyası üçün o deməkdir. Tariximizə az-çox bələd olanlar yaxşı bilirlər ki, indiki müstəqil, qüdrətli, nüfuzlu, sabit, demokratik və dünyada xüsusi nüfuza malik olan Azərbaycanın müəllifi məhz Heydər Əliyevdir. Heydər Əliyev elə nadir şəxsiyyət idi ki, o, necə deyərlər, yox yerdən bir dövlət qurdu. Azərbaycanın adını dünya tarixinə böyük hərflərlə və birdəfəlik yazdı. Heydər Əliyevin qeyri-adi dərəcədə böyük istedadı, dərin zəkası, fenomenal qabiliyyəti, unikal dövlətçilik məharəti dünya nəhəngləri arasında onun yerini müəyyənləşdirdi. Heydər Əliyev tarixi yaradan şəxsiyyət idi. Tarix o zaman obyektiv olur ki, ona həm də şəxsiyyətlər faktoru prizmasından baxasan. Heydər Əliyevi hansısa siyasi xəttə, hansısa ideologiyaya xidmət göstərməyə məcbur etmək, praktiki olaraq, qeyri-mümkün idi. Heydər Əliyevin Azərbaycan üçün hansı müstəsna işlər görməsinə tam aydınlıq gətirmək üçün 1969-cu ildən bu günə qədər baş verənlərə nəzər salmaq kifayətdir. Bütün XX əsr boyunca heç bir liderin görə bilmədiyi işləri məhz Heydər Əliyev bacardı. Heydər Əliyev zamanla ayaqlaşan, hətta onu qabaqlayan siyasətçilərdəndir.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdanda Azərbaycanı xilas etmək üçün hələ çox işlər görülməli idi.

Heydər Əliyevin yorulmaz səyi nəticəsində qonşu dövlətlərlə münasibətlər normal məcraya salındı. Ölkəmiz ətrafında yaradılan informasiya blokadası dağıdılaraq Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətlər dünya ictimaiyyətinə çatdırıldı, respublikamız bir sıra beynəlxalq qurum və təşkilatlara üzv seçildi. Şübhəsiz, ən böyük nailiyyətlərdən biri siyasətdə neft amilindən məharətlə istifadə edilməsi, Heydər Əliyev tərəfindən müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyasının hazırlanaraq uğurla həyata keçirilməsi olmuşdur. Yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Heydər Əliyev özündən əvvəlki iqtidarların heç birinin görə bilmədiyi işi tarixən çox qısa müddətdə yerinə yetirdi, bütün maneə və əngəllərə baxmayaraq, 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi" adını almış ilk böyük neft kontraktının imzalanmasına nail oldu. Bundan sonra Azərbaycan iqtisadiyyatına 60 milyard ABŞ dolları məbləğində investisiya qoyulmasına imkan yaradan daha 24 neft sazişi imzalandı. İndiyədək neft sənayesinə 30 milyard dollardan çox vəsait qoyulmuşdur ki, bunun da 40 faizi məhz qeyri-neft sektoruna yönəldilmişdir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və əzmkarlığı sayəsində Azərbaycan neftinin ikinci bir marşrutla dünya bazarına çıxarılması üçün Bakı-Supsa yeni neft kəməri çəkilmiş, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası reallığa çevrilmişdir. Xəzərdəki karbohidrogen ehtiyatlarını dünya üçün yenidən "kəşf edən" Heydər Əliyev Azərbaycan iqtisadiyyatının qısa bir vaxtda dünya iqtisadiyyatına

inteqrasiyasına nail olmuşdur. Təəssüf ki, uğurlarımıza mane olmaq istəyən qüvvələr də vardı. Maraqlı dövlətlərin kəşfiyyat orqanlarına xidmət edən bu insanlar təxribat-terror əməlləri törədir, ölkə daxilindəki sabitliyi pozmağa çalışırdılar. "Əsrin müqaviləsi" imzalandıqdan az sonra Azərbaycanın siyasi və dövlət xadimlərinə qarşı terror törədildi, bir neçə dəfə ulu öndərimizə sui-qəsd cəhdi oldu. Lakin hər dəfə ulu Tanrı Heydər Əliyevi qoruyub Azərbaycan xalqı üçün saxladı. Məhz Heydər Əliyevin uzaqgörənliyi və rəhbər qətiyyəti nəticəsində 4 oktyabr 1994-cü il və 17 mart 1995-ci il dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, Azərbaycanın müstəqilliyi qorunaraq əbədiliyə və dönməzliyə çevrildi.

Azərbaycanda siyasi və iqtisadi islahatların keçirilməsi hesabına qazanılan uğurlar isə parlaq və fərəhlidir. Baş müəllifi Heydər Əliyev olan Azərbaycanın yeni Konstitusiyasının qəbulundan sonra islahatlar daha ardıcıl və qətiyyətlə aparılmış, sərbəst bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olmasına imkan verən möhkəm qanunçuluq bazası qurulmuşdur. İqtidarın yeritdiyi düzgün daxili və xarici siyasət, habelə görülən işlər nəticəsində Azərbaycanda demokratik bir cəmiyyət yaranmışdır. Fəxr edə bilərik ki, biz ümummilli lider Heydər Əliyevin yaratdığı müstəqil, demokratik və azad bir ölkənin vətəndaşlarıyıq.

Ümummilli lider Heydər Əliyev özünün ikinci qayıdışı ilə hakimiyyət böhranına, etnik separatçılığa, iddiaları yerə-göyə sığmayan naşı siyasətbazların eksperimentlərinə, ölkədəki çoxsaylı qanunsuz siyasi dəstələrin fəaliy-

yətinə son qoydu. İnsanların həyatı normal məcraya düşdü, Azərbaycanda dövlətçiliyin məhv olmaq təhlükəsi aradan qaldırıldı. Ondan sonrakı dövrdə Heydər Əliyevin rəhbərliyi ilə görülən işlərin, əldə olunan nailiyyətlərin hamısını sadalamaq olduqca çətindir. Onun bu müddətdəki gərgin əməyi nəticəsində daxildə ictimai-siyasi sabitlik yaradıldı və cəmiyyətdə demokratik dövlət quruculuğu prinsipləri bərqərar olundu. Ümumiyyətlə, Heydər Əliyevin tarixi fəaliyyətinə nəzər saldıqda onun nə qədər çoxşaxəli və gərgin olduğuna heyrətlənməmək olmur. O, gün ərzində respublikaya dəvət olunmuş xarici ölkə başçılarını da, Azərbaycanın neft siyasəti ilə bağlı müxtəlif şirkət rəhbərlərini də, xarici ölkə səfirlərini də, elm və mədəniyyət xadimlərini də, sadə peşə adamlarını da qəbul edib dinləyir, müvafiq göstərişlər və müdrik tövsiyələr verirdi. Və bunların hamısını yerinə yetirməyə onun çox yüksək siyasi, elmi peşəkarlığı və gücü çatırdı. Onun üçün məsələnin böyüyü-kiçiyi yox idi, əsas o idi ki, görülən iş Azərbaycan dövlətinin və Azərbaycan xalqının mənafeyinə xidmət etsin.

Məlumdur ki, milli ruhu qorumağın, inkişaf etdirməyin və gələcəyə çatdırmağın ən mükəmməl forması milli dövlətçilikdir. Milli dövlətçilik təkcə ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasından ibarətdir. Çıxışlarının birində böyük öndər üzünü müxalif mövqeni bölüşən insanlara tutaraq: "Kim müxalifətdə durursa dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına müxalifətdə durmasın. Siyasi baxışından və cəmiy-

yətdə tutduğu mövqeyindən asılı olmayaraq, gərək hər bir vətəndaş düşünsün ki, müxtəlif yerlərdə Azərbaycana qarşı bəzi xəbis niyyətlər və bəd münasibətlər vardır. Bunların qarşısını almaq üçün Azərbaycanın daxilində birlik, həmrəylik yaranmalıdır. Mən xalqımı dəfələrlə buna dəvət etmişəm".

Heydər Əliyev milli dövlət quruculuğunda həmişə ziyalılara böyük önəm verir, onların bu prosesdə daha çox iştirakına şərait yaradırdı. Ziyalılarla görüşündə dəfələrlə vurğulayırdı ki, milli ədəbiyyatı da, musiqini də, adət-ənənələri də, dini dəyərləri də qoruyub saxlayan, bütöv sağlam bir orqanizm kimi yaşadan milli dövlət qurmaq və dövlətçilik ənənələrini bərpa etmək ziyalılığın ən ali məqamıdır. Heydər Əliyevi böyük siyasi lider kimi səciyyələndirən cəhətlərdən biri də məhz zamanın nəbzini düzgün tutması, hadisələrin öz təbii axarı ilə getməsinə imkan yaratması, onları nə tələsdirməməsi, nə də gecikdirməməsidir.

Ümummilli lider xalqına rəhbərlik etdiyi bütün dövrlərdə dövlətçilik ənənələrinin bərpa edilməsində və milli ruhun yaşadılmasında bir ziyalı kimi hər bir alimdən, şairdən, elm xadimindən, yazıçıdan daha çox mübarizə aparmış, daha çox iş görmüşdür. Elə götürək, Azərbaycan dili ilə bağlı onun qətiyyətli mövqeyini. Ulu öndər Heydər Əliyev dilimizi xalqımızın ən böyük milli sərvəti hesab edirdi. Çıxışlarının birində demişdi ki, milli dövlət quruculuğunun çox mühüm şərtlərindən biri məhz milli-ədəbi dilin zəminində xüsusi rəsmi dil üslubunun formalaşmasıdır. Müs-

təqilliyimizi əldə etdikdən sonra Azərbaycan dilinin dövlət dili kimi, diplomatik dil kimi işlədilməsinə əlverişli şərait yaratdı. Belə bir böyük və məsuliyyətli vəzifəni təkbaşına həyata keçirən ulu öndər Heydər Əliyevə qarşı çıxanlar, min bir əziyyətlə yaratdığı dövlətçiliyimizə zərbə vurmaq istəyənlər də az olmadı.

Lakin tarix özü sübut etdi ki, 1992-ci il noyabrın 21-də dünyanın ən görkəmli şəxsiyyətlərindən biri olan ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının yaranması ilə ölkə bütün bu bəlalardan xilas oldu, müstəqil dövlətçiliyimiz yarandı, Azərbaycan onu gözləyən bəlalardan xilas oldu.

# YAP MİLLİ DÖVLƏT QURUCULUĞUNUN KEŞİYİNDƏ

1993-cü il iyul ayının 15-də ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bəyan edilən və Yeni Azərbaycan Partiyasının məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, azərbaycançılıq, qanunçuluq, yaradıcı təkəmmül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq, mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirmişdir.

Fəxarət hissə ilə qeyd edə bilərik ki, müstəqil Azərbaycanda bütün sahələrdə tarixi nailiyyətlərin əldə edilməsi, dövlət əhəmiyyətli strateji vəzifələrin həlli kimi mürəkkəb və şərəfli yolda ümummilli liderimiz Heydər Əliyevlə yanaşı onun adı ilə bilavasitə bağlı olan və gördüyü tale əhəmiyyətli işlərdə ona daim dəstək olmağa çalışan ölkəmizin aparıcı siyasi qüvvəsi Yeni Azərbaycan Partiyası olmuşdur.

YAP-ın qət etdiyi ötən 15 ilin dərk olunmuş reallığı ondan ibarətdir ki, müstəqil Azərbaycanın banisi, ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş Yeni Azərbaycan Partiyasının ideoloji prinsipləri əsasında Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm amil olan siyasi sabitlik qorunub saxlanılmış, vətəndaş həmrəyliyinə, iqtisadi inkişafın sürətlən-

dirilməsinə, sosial tərəqqiyə xidmət edən mükəmməl konsepsiyanın həyata keçirilməsində yeni mərhələnin əsası qoyulmuşdur. YAP-ın proqramında birmənalı olaraq göstərilmişdir ki, partiya hazırkı siyasi kursun davamlı olaraq həyata keçirilməsini təmin etməyi, Heydər Əliyevin banisi olduğu daxili və xarici siyasətin, sosial-iqtisadi islahatların, bütün bu sahədə əldə edilmiş uğurların məzmun və mahiyyətini xalqın geniş təbəqələrinə əsaslı və hərtərəfli şəkildə çatdırmağı qarşısına əsas məqsəd qoymuşdur. Bu məqsədlə partiyanın ideoloji işinin forma və metodları daim təkmilləşdirilir, bu işin cəmiyyətin tələblərinə, müstəqil, demokratik, dünyəvi və hüquqi dövlət quruculuğunun artan vəzifələrinə uyğun gələn, keyfiyyətcə yeni səviyyəyə qaldırılması əsas vəzifələrdən biri sayılır. Həmçinin, partiya Azərbaycanın nüfuzuna zərbə vuran, xalqın milli birliyinə mane olan qaraguruh qüvvələrin məkrli niyyətlərini və bəd əməllərini ifşa etmək üçün media və televiziyanın imkanlarından daha geniş istifadə edir, destruktiv dairələrə qarşı mübarizə hücumçu formada və ardıcıl olaraq aparılır, toplanmış təcrübədən istifadə olunmaqla, istər partiya üzvlərinin, istərsə də ümumilikdə vətəndaşların milli-mənəvi dəyərlər zəminində formalaşması işinin daha da yaxşılaşdırılması təmin edilir. Bütün bunlar Yeni Azərbaycan Partiyasının ötən 15 il ərzində dəyişməz prinsipləri olaraq uğur və ardıcıllıqla davam etdirilir.

1993-cü ilin iyun ayında xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli liderimiz məhz bu prin-

sipləri rəhbər tutaraq ölkəmizin bütün sahələrində böyük dirçəlişə, oyanışa nail oldu. Tam səmimiyyətlə deyə billərik ki, YAP-ın ən mühüm və üstün göstəricilərindən biri onun milli maraqların müdafiəsi sahəsində öncül mövqedə olmasıdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapmış, bu prinsiplər strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması məhz Yeni Azərbaycan Partiyasının səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Şübhəsiz ki, Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün YAP-ın hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil respublikamızın gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması məqsədinə xidmət edəcəkdir.

Təsadüfi deyil ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyası yaradılan zaman ümummilli lider Heydər Əliyev müxalifət partiyalarının siyasi platforma və praktikasını rədd edərək bütün cəmiyyəti, millətin sağlam qüvvələrini birləşdirməyə qadir olan ideoloji baza təklif etdi. YAP insanları partiya-sovet nomenklaturuna və cəbhəçi-hərəkatçılara bölmədi, birləşdirici qüvvə kimi çıxış etdi. Yenı Azərbaycan uğrunda, müstəqil, demokratik, suveren dövlət

quruculuğunda mübarizə aparmağa hazır olan bütün insanlar milli, irqi, dini fərqlərindən, siyasi keçmişindən asılı olmayaraq, Yeni Azərbaycan Partiyasına dəvət edilirdilər. Yeni Azərbaycan Partiyası zaman keçdikcə əsl ümumxalq partiyasına çevrildi və milli dövlətçilik naminə cəmiyyətdəki bütün sağlam qüvvələri öz ideyası altında bir yerə yığdı. Təsadüfi deyil ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin bu partiyaya rəhbərlik etməsinə razılıq verməsi xahişi ilə 91 ziyalının məlum müraciətinə ümummilli liderin cavabında da əsas məqam kimi milli dövlətçilik amili öz əksini tapmışdır: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını sevindirir. Eyni zamanda, bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər töhfəsini verməlidir".

Bütün fəaliyyəti boyu milliliyə xüsusi diqqət yetirən YAP-ın əbədiyaşar lideri Heydər Əliyev böyük qürur və təəssübkeşlik hissi ilə bəyan edirdi: "Biz gərək milli mənliyimizi həmişə yüksək saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni

həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək”. Azərbaycanın milli dövlətçilik tarixində ilk dəfə olaraq məhz Heydər Əliyevin simasında siyasi prinsiplər və milli-mənəvi meyarlar birləşdi.

Tarixdə böyük şəxsiyyətlər az-az yetişir və onlar xalqın həyatında unudulmayan, əbədi iz qoyurlar. Bu şəxsiyyətlər qüdrəti və fəaliyyəti ilə hadisələrin gedişatına güclü təsir göstərən, inkişafın irəliyə doğru hərəkətini daim sürətləndirən qeyri-adi insanlar olurlar. Bu insanların həyat və fəaliyyətləri, əməl və mübarizələri mənsub olduqları xalqın tarixi və taleyi ilə o qədər qarışır ki, onlardan söhbət açarkən əslində xalqın tarixindən danışmış oluruq. Yaxud da əksinə, mənsub olduqları ölkələrin keşməkeşli günlərindən bəhs edərkən onların xidmət və fəaliyyətlərini xatırlamamaq qeyri-mümkündür. Ulu Tanrı XX əsrdə Azərbaycanımıza belə bir şəxsiyyət bəxş etmişdir.

Bu tarixi şəxsiyyət böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin çözülməsində həlledici sözünü deyə bilən nadir siyasətçilərdən idi. Onun fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdir.

Heydər Əliyevin siyasi və idarəçilik prinsiplərinə populizm və xülyaçılıq yad idi. O, daim düzgün və bütün reallıqları nəzərə alan optimal qərarlar qəbul edirdi, heç vaxt xalqa fantastik və populist vədlər vermirdi, əksinə, real vəziyyəti və əldə edilə biləcək nəticələri olduğu kimi təqdim edirdi. Onun Azərbaycanla, xalqımızla bağlı arzuları bitib-tükənməz idi. Məhz bu arzu ilə o, dövlətimizin gələcəyi üçün misilsiz əhəmiyyəti olan böyük layihələrin, nəhəng işlərin təməlini qoymuşdur. Və həmin layihələr, Heydər Əliyevin xeyir-duası ilə başlanmış işlər hələ uzun illər Azərbaycanın inkişafını, güclənməsini, rifah və firavanlığını təmin edəcəkdir.

Heydər Əliyev fəaliyyəti və əməlləri ilə bütöv bir siyasət məktəbini yaratdı, onun sayəsində müasir dünyanın politoloji leksikonuna "Heydər Əliyev siyasəti" istilahı daxil oldu. Bu, tarazlı, bütün cəhətləri ölçülüb-biçilmiş və ən əsası, dövlətin təməl maraqlarını, onun perspektivini, cəmiyyətin bütün təbəqələrinin mənafelərini ehtiva edən, cəmiyyətdə ahəngdarlıq yaradan siyasətdir.

Hər bir azərbaycanlı ümummilli liderində rasionalizm və müdriklik, qətiyyət, siyasi uzaqgörənlik, realizm və novatorluq kimi bütün zəruri keyfiyyətləri görürdü. Heydər Əliyev elə bir lider idi ki, Azərbaycanın bundan sonrakı bütün rəhbərləri üçün etalon rolunu oynayacaq, xalq, cəmiyyət seçdiyi bütün liderləri məhz onunla müqayisə edəcəkdir. Heydər Əliyev siyasətinin bundan sonrakı illər boyu davam etməsi Azərbaycan dövlətinin tərəqqisi üçün ən böyük təminatdır.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı ən böyük xidməti həm də ondan ibarətdir ki, ulu öndərimiz müəllifi olduğu milli dövlətçiliyimizin davamlılığını təmin etmiş, Azərbaycanın gələcək uğurlarına təminat yaradan siyasi kursun varisliyinin əsaslarını yaratmışdır.

Cəmiyyət mövcud olduğu gündən mütəfəkkirlər, filosoflar, alimlər tarixdə şəxsiyyətin rolunu müəyyənləşdirmək üçün çalışmışlar. Geniş fikir müxtəlifliyinə rəğmən, ümumi qənaət belədir ki, güclü şəxsiyyətlər bir qayda olaraq tarixin gedişinə təsir göstərə, bəzən bu axarı dəyişə, hətta öz şərəfli ömür yolları ilə bütöv bir tarix yaza bilirlər.

Şübhəsiz, hər bir xalqı dünyada tanıdan onun istedadlı alimləri, mütəfəkkirləri, mədəniyyət xadimləri ilə yanaşı, əbədiyaşarlıq hüququ qazanmış tarixi şəxsiyyətləridir. Siyasət elmi bəlkə də bütün elmlərin hamısından mürəkkəb olduğu üçün nüfuzlu siyasətçi bütün elm sahələrinin əsaslarını bilməklə yanaşı, həm də uzaqgörənliyə, müdrikliyə, yüksək təşkilatçılıq qabiliyyətinə, siyasi lider olmaq bacarığına, güclü intuisiyaya, bütövlükdə fitri istedada malik olmalıdır. Dahilik səviyyəsinə çatmış tarixi simalar əslində Tanrının seçilmiş insanlarıdır. Azərbaycan xalqı da öz tarixində hər dövr üçün böyük tarixi şəxsiyyətlər yarada bilmişdir. Xalqımız XX əsrdə, hətta totalitar sovet rejimində belə Azərbaycanı təkcə SSRİ məkanında deyil, bütün dünyada tanıtdıran və dünya xalqları içərisində özünə layiq yer tutmasına nail olan Heydər Əliyev kimi böyük bir şəxsiyyət yetişdirmişdir.

Ulu öndərin dərin yaddaşı, dəmir məntiqi, gərgin siyasi vəziyyətlərdən ustalıqla çıxmaq bacarığı, mürəkkəb siyasi situasiyalarda qərar vermək qabiliyyəti, uzaqgörənliyi, intellektual gücü, sabaha inamlı baxışı, sərt və qayğıkeş rəhbərlik xüsusiyyəti, cəmiyyətin siyasi, iqtisadi və mənəvi tarazlığını saxlamaq səriştəsi barədə hələ çox tədqiqatlar aparılacaq. Onun xalqına şöhrət gətirən tarixi fəaliyyəti və təcrübəsi xalqımızın yalnız bu günü üçün deyil, işıqlı sabahı üçün də böyük perspektivlər açır, gələcək üçün böyük nikbinlik yaradırdı. Ümummilli liderimiz Heydər Əliyev böyük şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür, bunun üçün bütün zəruri tədbirləri həyata keçirirdi. Məhz Heydər Əliyevin gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılmışdır. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulmuş və onun təkmilləşdirilməsi üçün bütün zəmin yaradılmışdır.

Heydər Əliyevin dövlətçilik konsepsiyası təkcə ondan ibarət deyil ki, xalq müstəqilliyə qovuşsun, Azərbaycan müstəqil dövlət imicini qoruyub saxlaya bilsin. Onun siyasi baxışlarına görə, müstəqillik bu millətə həm də ona görə lazımdır ki, dövlət quruculuğu və sosial təşkilatlanma hansısa başqa bir qüvvənin deyil, xalqın, millətin

maraqlarına xidmət etsin, ümummilli ahəng üstündə köklənsin. Yəni bütün daxili potensial – təbii sərvətlərdən tutmuş intellektual məhsulacan, mədəni-mənəvi dəyərlərə qədər bütün imkanlar elə səfərbər edilməli və istiqamətlənməli idi ki, hər bir vətəndaş ümummilli tərəqqi kontekstində öz şəxsi maraqlarını da reallaşdıra bilsin.

1997-ci ildə xarici jurnalistlərlə görüşündə müxbirin dövlətçilik ənənələrinin yaranması və hansı göstəricilərlə şərtlənməsi sualını cavablandıran böyük siyasi xadim cavab vermişdi ki, bu, ilk növbədə əhalinin xalqa, xalqın millətə, sakinlərin vətəndaşlara çevrilməsi istiqamətində gedən prosesdir: "Dövlətçilik insanlarda vətənpərvərlik duyğusunu, Vətən anlamının milli mənə daxil edilməsini nəzərdə tutur. Əgər hər hansı bir ölkədə hər kəs təkcə öz mənafeyini, ailəsinin mənafeyini düşünürsə, xalqın taleyinə, ümummilli siyasi və iqtisadi mənafelərə biganədirsə, deməli, burada dövlətçilik ənənələri yoxdur. Gərək hər bir vətəndaş ölkəsinin böyük siyasəti haqqında düşünsün".

Milli-mənəvi dəyərlərə dövlətçilik mövqeyindən qiymət verilməsi ölkəmizdə azərbaycançılığın qorunub-saxlanması və inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Heydər Əliyev azərbaycançılığın bütün tərkib hissələrini milli ideologiyamızın strukturlarına daxil etməklə mənəviyyat və dövlətçiliyin sintezindən çıxış edirdi. Ona görə azərbaycançılığın əsas komponentlərindən biri milli dövlətçilik, digəri isə milli-mənəvi dəyərlərdir. Ən böyük tövsiyəsi də ondan ibarət idi ki, milli dövlətçiliyimizin qorunması və daim yaşaması üçün ilk

növbədə ziyalılar milli-mənəvi dəyərlərin keşiyində durmalı, onu yaşatmalıdırlar.

Heydər Əliyevin siyasi obrazı Azərbaycan xalqına nəinki yaxşı tanışdır, həm də ona son dərəcə doğmadır. Heydər Əliyev siyasi obrazı Azərbaycan xalqının dövlətçilik şüurunu, bütöv bir idarəçilik məktəbini, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərini özündə cəmləşdirir. Bu obraz bizə həm də ona görə bu qədər doğmadır ki, onda hər birimizin ən üstün məziyyətləri toplanmışdır. Heydər Əliyev siyasi obrazının bəzi mühüm cizgilərinin təhlili əslində ən yeni tariximizin şərəfli bir mərhələsi, dövlət quruculuğu prosesi, Azərbaycanın dünya arenasına çıxışı haqqında danışmaq deməkdir. Heydər Əliyev siyasi obrazı elə bir fenomenə çevrilib ki, hər kəs onda öz fikri, əqli, elmi-nəzəri, habelə şəxsiyyət kimi formalaşmağa imkan verən keyfiyyətləri görə bilir. Bu inam bəşər övladına xas olan yenilməzlik və ölməzliyin bədii inikası qədər mifoloji və əfsanəvidir. Bu obraz 70 il sovet müstəmləkə əsarəti altında yaşamağa məhkum olmuş bir xalqın öz övladını nəhəng imperiya idarəçiliyinin zirvəsinə yüksəltməsi kimi unikal özünütəsdiqin möcüzəsidir. Bu, azadlıq təşnəsi olan bir xalqın müstəqilliyini onun üçün faktiki siyasi mövcudluq həddinə qaldırmış, ona dövlətçilik bəxş etmiş triumfal bir şəxsiyyətin əfsanəsidir. Heydər Əliyev obrazının dəyəri ictimai şüurda bununla məhdudlaşmır, o, Azərbaycanın daha işıqlı gələcəyinin ən etibarlı təminatı ucalığında dərk edilir.

İstər sovet dövründə, istərsə də dövlət müstəqilliyimizin bərpasından sonra o, misli görünməmiş bir səmimiyyət və sədaqətlə Azərbaycan xalqını müasir dünyanın mədəni və demokratik dəyərlərinə tapınan millətlərin cərgəsinə qoşulması, dirçəlməsi, tərəqqisi üçün gecəli-gündüzlü gərgin əmək sərf etmişdir. Heydər Əliyev şəxsiyyətinin üstünlüyü daha iki səciyyəvi əlamətlə – ideyalılığı və təmənnasızlığı ilə fərqlənir. Güclü, qüdrətli Azərbaycan ideyası, dövlətin fasiləsiz inkişafı konsepsiyası onun həyat kredosu idi.

Hər şeydən əvvəl, Heydər Əliyev ona xas olan böyük müdriklik və dərin zəka ilə aydın dərk edirdi ki, xalqın özünüdərki və özünüifadəsi müstəqillik anlayışından ayrılıqda mövcud deyil, bu səbəbdən də istənilən toplumun inkişafı, yüksəlişi ilk növbədə öz taleyinin sahibi ola bilməsindən keçir. Xalqının inkişafını dərindən arzulayan və arzusunun gerçəkliyə çevrilməsinə bütün həyatını həsr etmiş lider olaraq Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasına öncül yer ayırması məntiqi olaraq onun qayıdış fəlsəfəsinin əsas qollarından biri kimi qavranılır. Bunun bariz ifadəsinə ümummilli liderin "91-lər"ə məktubunda da rast gəlirik: "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması hərtərəfli, geniş planlı iş aparılmasını və respublikanın bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən

kiçik dövlət belə ən böyük məmləkət olur”.

Tarixi taleyimiz belə gətirib ki, Azərbaycan uzun illər yadelli işğalçıların fasiləsiz hücumlarına məruz qalmış, ikiyə bölünmüş, parçalanmış, müstəmləkə rejiminin ən ağır işgəncələri altında yaşamağa məcbur edilmişdir. Bütün bunlar azmış kimi, Sovet İmperiyası illərində repressiyalar, ruslaşdırma siyasəti, İkinci Dünya müharibəsinin törətdiyi misli görünməmiş çətinliklər ölkəmiz üçün kifayət qədər problemlər yaratmışdı. Doğrudur, xalqımız bütün mərhumiyyətlərə mətinliklə sinə gərərək öz varlığını, dilini, dinini, milli-mənəvi dəyərlərini qoruyub saxlamağı bacarıb. Lakin bütün bu keyfiyyətləri ümumdövlət səviyyəsinə qaldıran və onu daha qlobal kontekstdə reallaşdıran Heydər Əliyev oldu. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycan aqrar ukladın dominantlığı şəraitindən qüdrətli sənaye respublikasına, intellektual səviyyəsi bütün müsəlman dünyası və Şərqə nümunə olan diyara çevrilmişdir.

Heydər Əliyevin xidmətləri xalqımızın yaddaşına əbədi həkk olunmuş və tarix Azərbaycan xalqını müstəqil dövlətçiliyin qurulması zərurəti ilə üzləşdirəndə milli-ictimai yaddaşımız oyanmış və bu qısamüddətli silkələnməsi Heydər Əliyev obrazının siyasi təfəkkürdə dərhal üzə çıxması ilə nəticələnmişdi. Bu titanik şəxsiyyət yenə də xalqın və tarixin çağırışına cavab verərək, Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürmüş və onun sürətli icrasına başlamışdı. Lakin bu proses heç də rəvan xətt üzrə inkişaf etməmişdi.

Sovet dövründə olduğu kimi, dövlət quruculuğunun ilkin mərhələsi də Azərbaycanın müstəqilliyini istəməyən, hər vəchlə buna qarşı müqavimət göstərən daxili və xarici qüvvələrin təzyiqləri ilə müşayiət olunurdu. Milli maraqlarımız bu ziddiyyətlər məngənəsindən itkisiz, ağrısız, qansız-qadasız çıxmağın yollarını aramağı tələb edirdi. Çünki müstəqillik uğrunda verdiyimiz qurbanların sayı çox böyük idi. Bu işin öhdəsindən isə yalnız Azərbaycanın dövlət müstəqilliyi xəttini fövqəlideya səviyyəsinə yüksəltmiş tarixi şəxsiyyət gələ bilərdi. Bu xalqımızın tarixində keyfiyyətcə yeni bir missiya idi.

Siyasi liderin obrazı mütləq milli əxlaq və şəxsi xüsusiyyətləri ifadə etməlidir. Əks təqdirdə onun vasitəsilə ictimai şüura effektiv və güclü təsir göstərmək olmaz. Heydər Əliyevin bu kontekstdə üstün cəhətlərindən biri Azərbaycan xalqının şəxsi xüsusiyyətlərinə, psixologiyasına yeni dövrdə yaranmış boşluqdan istifadə edərək siyasi mübarizə meydanına atılmış cılız siyasətbazlarla müqayisə edilməyəcək dərəcədə yaxşı bələd olması idi. Heydər Əliyev xalqına xidmətdə əxlaq qaydalarını daim əsas tutmuş və bu da onun siyasi inandırıcılıq potensialını daha da artırmışdır. Bütün bunlar Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsində və bu istiqamətdə cərəyan edən proseslərin önündə getdiyini birmənalı olaraq təsdiqləyir.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının hakimiyyətə gəlişi ilə Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının

təbliği fundamental mahiyyət kəsb etməyə başladı. Bu dövrün əsas xüsusiyyəti həm də ondan ibarətdir ki, Heydər Əliyev siyasi sabitliyi təmin etməklə demokratik dövlət modeli konsepsiyasını həyata keçirməyə başladı. Həmin illərdə onun Azərbaycan dövlətçiliyi uğrunda apardığı fəal mübarizə daha çox maraq və heyranlıq doğurur. Bu mübarizəni ölkədə siyasi sabitliyi təmin edilməsi və Azərbaycan dövlətçiliyinə qarşı çıxan anarxist qüvvələrin məhvi kimi dəyərləndirmək olar.

Təsadüfi deyil ki, Heydər Əliyev anarxist qüvvələrin zərərsizləşdirilməsindən sonra siyasi, hüquqi, iqtisadi, sosial sahədə demokratik islahatlar proqramının həyata keçirilməsinə start verdi. Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında dövlət müstəqilliyinin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində görülən əsas işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoydu. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçildi. Heydər Əliyevin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu sənəd müstəqil Azərbaycanın Konstitusiyası kimi tarixə yazıldı.

1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha

geniş imkanlar yaratdı. Və bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynadı. Bununla da Azərbaycanın dünya dövlətləri sırasında özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində fəaliyyətin əsasları qoyuldu.

Heydər Əliyev siyasi kursu bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir. Hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda mülki cəmiyyətin formalaşması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf sahəsində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdi. Bu baxımdan Heydər Əliyev tərəfindən müstəqil Azərbaycanın uğurlu neft strategiyasının hazırlanaraq həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın neft strategiyasının əsas prinsipləri ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır və bu strategiyanın həyata keçirilməsi iqtisadi maraqlarla yanaşı, milli təhlükəsizlik maraqlarının təmin olunmasına söykənir. Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft strategiyası təkcə dövlətin iqtisadi maraqlarının realizə olunmasına deyil, dövlət müstəqilliyinin qorunub saxlanmasına yönələn siyasi xəttin yürüdülməsinə, buna uyğun situasiyanın formalaşdırılmasına xidmət edir. Məhz bu strategiya nəticəsində Azərbaycan dünyanın siyasi xə-

ritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bilmiş və zaman-zaman qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur. Yeni dünya düzənində güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun strategiya müəyyənləşdirməyə nail olmuş Heydər Əliyev son nəticədə Azərbaycanın hegemon supergüclərdən asılı vəziyyətə düşməsinin qarşısını nəinki ala bilmiş, eyni zamanda Azərbaycanın bu subyektlər arasında mübarizənin xarakterini müəyyənləşdirməyə yönələn dövlət statusu qazanmasına nail olmuşdur.

1994-cü ilin 20 sentyabrında dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" bu mənada Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynadı. Həmin saziş nəticəsində bütün dünyanın diqqət mərkəzinə çevrilən Azərbaycan eyni zamanda qlobal məkanda özünün statusunu müəyyənləşdirməyə nail ola bildi. Dövlət müstəqilliyinə dayanıqlı bu status əksər dövlətlərdən fərqli olaraq Azərbaycanın beynəlxalq subyektlərdən asılı tərəf kimi deyil, əksinə dünya birliyinin bərabərhüquqlu üzvü olması ilə ölçülür. Heydər Əliyev Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarına nəql edəcək Bakı-Tbilisi-Ceyhan strateji neft kəmərini təkcə Azərbaycanın deyil, ümumilikdə Cənubi Qafqaz-Mərkəzi Asiya regionunun gələcək taleyini müəyyənləşdirəcək strateji layihəyə çevirməyi bacardı. Bu gün dünya dövlətlərinin regiondakı siyasətinin məhz bu qlobal enerji layihəsinə nəzərən müəyyənləşdirməsi həm də Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin möh-

kəmləndirməsi yolunda apardığı gərgin işin əməli nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunmasıdır. Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində bu problem öz həllini tam şəkildə tapmış və beynəlxalq təşkilatlarda bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas qarantlarından birinə çevrilmişdir. Bu gün Azərbaycan dünyanın əksər dövlətləri ilə qarşılıqlı diplomatik əlaqələr yaradıb və 300-dən çox beynəlxalq təşkilatla əməkdaşlıq edir. Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı kimi nüfuzlu qurumların tamhüquqlu üzvü olan Azərbaycan paralel olaraq Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı kimi dünyada gedən proseslərin istiqamətini müəyyənləşdirən qurumlarla yüksək səviyyədə əməkdaşlıq edir. Bu nailiyyətlər məhz Heydər Əliyevin yürütdüyü uzaqgörən siyasətin nəticəsi kimi meydana çıxıb.

Yeni Azərbaycan Partiyasının iştirakı ilə Heydər Əliyevin müstəqilliyin möhkəmləndirilməsi yolunda apardığı uğurlu siyasətin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Əslində, ölkənin hərbi qüvvələrinin yaradılması dövlət-

çiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil Azərbaycanın dövlətçiliyi üçün qarantiya deyil, təhlükəyə çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən ciddi səhvlər son nəticədə ölkədə qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsinin subyektlərinin meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi, dövlətçilik prinsiplərinə əsasən deyil, şəxsi siyasi maraqlara nəzərən formalaşdırılması sonda Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükə yaratmışdı. Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı ciddi mübarizə apardı və son nəticədə dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit, güclü silahlı qüvvələrin yaradılmasına nail oldu.

Bu gün Azərbaycan öz texniki və maddi təchizatına görə başqa dövlətlərin silahlı qüvvələrindən geri qalmayan hərbi qüvvələrə sahibdir. Bu da Heydər Əliyevin müstəqilliyin dövlətləşdirilməsi istiqamətində yürütdüyü ardıcıl siyasətin əsas nəticələrindən biridir. Azərbaycan Silahlı Qüvvələri dövlətin ərazi bütövlüyünün təminatçısı olmaqla yanaşı, həm də beynəlxalq hərbi qurumlarla bərabərtərəfli əməkdaşlıq edir.

Şübhə yoxdur ki, Azərbaycan cəmiyyəti Heydər Əliyevin milli dövlətçilik irsini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının və siyasi sistemin

sabitliyinin təmin edilməsinə yönələn fəlsəfi dünyagörüş kimi qəbul edir. Qlobal miqyasda da hegemon dövlətlər, o cümlədən, Qərbin demokratik dairələri Azərbaycanın perspektivini bu kursdan kənarda təsəvvür etmirlər. Heydər Əliyevin milli dövlətçilik irsinin alternativsizliyi özünü təkcə praktik məsələlərdə təsdiqləməyib və bu faktor həm də cəmiyyətin ideoloji təfəkkür tərzinin formalaşması baxımından ciddi əhəmiyyətə malikdir. Məsələn, danılmaz faktdır ki, müəyyən zaman kəsiyində Azərbaycanda demokratiya anlayışı mahiyyəti üzrə başa düşülməyib. Ən yaxşı halda ictimai rəy bunu 1993-cü ilin iyun hadisələrinə qədər olan proseslərin fonunda anarxist meyllər kimi qavrayırdı. Amma bu gün demokratik dəyərlər qanunların və milli mentalitetin tənzimlədiyi sərhədlərdən kənara çıxmır və o, dialektik inkişafa uyğun olaraq getdikcə ictimai şüur tərəfindən tam şəkildə mənimsənilir. Bu baxımdan, Azərbaycanda həqiqi demokratiya məhz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki bu irs onu nə kütləvi özbaşınalıq kimi başa düşməyə, nə də ki, ifrat Qərb demokratiyasının neqativ cəhətlərini tüğyan etməsinə rəvac vermir. Faktiki olaraq bu kursun bütün sahələrdəki tənzimləmə missiyası ideoloji müstəvidə də özünü doğruldub.

Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində Azərbaycan cəmiyyətinin vahidliyinin təmin olunmasını özünün əsas strateji vəzifəsi hesab edirdi. Ona görə də, siyasi mübarizədə sosial baza, kütləvi simpatiya və digər resurslardan məhrum olan bəzi qüvvələrin re-

gional faktoru hakimiyyət uğrunda mübarizənin təkanverici qüvvəsinə çevirmək cəhdləri boşa çıxdı. İctimai şüur belə bir fikri çoxdan aksiomalaşdırıb ki, Heydər Əliyev Azərbaycan cəmiyyətinin monolitliyini təmin etdi, onun müxtəlif müstəvilərdə – sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan vermədi. Azərbaycan dövlətçiliyinin yaşamasını təmin etmək baxımından bu irəliyə doğru atılan çox ciddi addım idi. Bunu ötən illərin reallıqları da təsdiqləyir.

Ulu öndərin baxışlar sisteminə görə, demokratiya üçün vacib olan başlıca şərtlər siyasi sabitlik və güclü dövlət hakimiyyətidir. Təsadüfi deyil ki, 1993-cü ildə başlanan proseslər cəmi iki il ərzində Azərbaycanda demokratikləşmə prosesinin inkişafı üçün real zəmin yaratdı, bu prosesə mane ola biləcək bütün xarici və daxili qüvvələr tamamilə neytrallaşdırıldı. Heydər Əliyevin simasında hakimiyyətdə ictimai inam bərqərar oldu, cəmiyyət başa düşdü ki, o, həyatın ümidinə buraxılan, bədbin siyasi tale yaşamağa məhkum olunan qara kütlə deyil. Bu mərhələnin özəlliyi ondan ibarət idi ki, siyasi stabillik olmadan cəmiyyətin digər problemlərinin həlli mümkün deyildi. Siyasi sabitliyin ardınca kardinal islahatlar gəlməli idi və Heydər Əliyev bu yöndə növbəti uğurlu addımları atdı.

Növbəti mərhələni isə dövlət quruculuğu və demokratikləşmə prosesi kimi səciyyələndirmək olar. Ölkədə inzibati hakimiyyətin proseslərə tam nəzarət et-

məsi, parlament və məhkəmə hakimiyyətlərinin qurulması üçün cəmi bir neçə il lazım gəldi. Həmin dövrdə güclü dövlət hakimiyyətinin qurulması ilə demokratikləşmə prosesinin paralel şəkildə aparılması son dərəcə əhəmiyyətli idi. Onu da qeyd edək ki, bu heç də asan məsələ deyildi, çünki istənilən ölkədə demokratikləşmə prosesi inzibati hakimiyyəti zəiflədir, Azərbaycanda isə bu prosesin başlanması ölkəni anarxiyaya sürükləyə bilərdi. Amma Heydər Əliyev hər iki proses arasında balansı təmin etməklə ortaya analoqu olmayan siyasi model qoydu.

Güclü dövlət hakimiyyəti demokratikləşmə prosesinə real təminatlar yaradırdı. Çünki həmin dövrdə Azərbaycan cəmiyyətində demokratikləşmə birmənalı proses deyildi, bunun daxili qatlarında bir sıra anarxist qüvvələr pərdələnməyə çalışırdılar. Və onlar öz planlarını elə şəkildə gerçəkləşdirməyə cəhd göstərirdilər ki, guya bu sırf demokratiya xəttidir. Bu səbəbdən ölkədə cərəyan edən kütləvi siyasi proseslərin içərisindən bu tip qüvvələri tapıb neytrallaşdırmaq çox çətin idi. Bunun yeganə yolu isə ən ekstremal situasiyalara hazır olan güclü hakimiyyət modelinin yaradılmasında idi. Belə bir reallığı çox yaxşı dəyərləndirən Heydər Əliyev sübut etdi ki, demokratiya ancaq güclü hakimiyyətin iradəsi hesabına mövcud ola bilər. O, ölkədə Qərb standartlarını uğurla tətbiq etdi və həmin standartların milli mentalitetlə vəhdətini yaratdı. Doğrudan da, müasir siyasi nəzəriyyələrdə də bu prinsip prioritet kimi qəbul edilib və sivil ölkələrdə demokratiya güclü hakimiyyət və milli mentalitetdən kənarda təsəvvür

edilmir. Heydər Əliyevin ölkədə qurduğu güclü hakimiyyət Azərbaycan cəmiyyətini demokratikləşmə prosesindən yayındıra biləcək tendensiyalardan qorumaq baxımından əhəmiyyətli idi.

Bu amilin isə daha mühüm strateji əhəmiyyəti var. Həmin dövrdə Azərbaycanın iqtisadi inkişafına, xarici investisiyalara və iş adamlarına real təminatlar verilməli idi. Hətta, əcnəbi iş adamlarını və xarici kapitalı Azərbaycana cəlb edən təbii faktorlar nə qədər əlverişli olsaydı belə, onlar siyasi təminatlar olmadan riskli addımlar atmazdılar. Lakin Heydər Əliyevin siyasi iradəsi və təminatı ilə ölkəyə qısa müddətdə cəlb edilən xarici kapital Azərbaycanın hərbi və geosiyasi təhlükəsizliyi üçün başlıca qaranta çevrildi. Bütün maraqlar qarşılıqlı şəkildə ödənildi.

Heydər Əliyev hakimiyyətinin son illəri yeni mərhələ kimi səciyyələnir və özünün kompleks xarakteri ilə seçilir. Bunu stabil inkişaf mərhələsi adlandırmaq daha məqsədəuyğun olardı. Ölkədə demokratikləşmə prosesi normal məcrada davam etdi, siyasi sistemin elementləri arasında total ziddiyyətlər aradan qalxdı, iqtisadi inkişaf təmin olundu, ölkənin beynəlxalq imici ilə bağlı ciddi pozitiv irəliləyişlər ortaya çıxdı. Azərbaycan tarixində yeni siyasi mərhələ adlandırıla biləcək bu illərdə dövlət institutlarının tam yeni əsaslarda, dünya standartlarına uyğun şəkildə formalaşması prosesi başa çatdı. Heydər Əliyevin yürütdüyü siyasətin pozitiv mahiyyəti ondan ibarət idi ki, o, cəmiyyəti keyfiyyətcə yeni dəyərlərdə demokratik dəyişikliklərə və vərdişlərə hazırlaya bildi.

Heydər Əliyevin yenilməz iradəsi, düşüncəsinin dinamizmi, dünyada gedən prosesləri anlamaq, təhlil edib modelləşdirmək və siyasi davranışın ən əlverişli sxemlərini reallaşdırmaq qabiliyyəti Azərbaycanı XXI əsrə dinamik inkişaf edən dövlət kimi çıxarmış, dayanıqlı milli tərəqqisini təmin etmişdir. Ulu öndərimiz dünyada gedən proseslərin məcrasını düzgün müəyyənləşdirərək ölkəmizin yeni əsrə və yeni minilliyə qüdrətli və güclü dövlət kimi çıxmasını təmin etmişdir.

# YAP SİYASİ VARİSLİYİN LEYTMOTİVİ STATUSUNDA

Aparılan araşdırmalar təsdiq edir ki, Yeni Azərbaycan Partiyasının yaranması zərurətinə bütün ciddi ictimai-siyasi məsələlər kimi elmi yanaşma tələb olunur. Bu yanaşmanın ən vacib məqamlarından biri də siyasi varislik amilinə elmi-fundamental münasibətdir.

Əks təqdirdə partiyanın qət etdiyi yolun obyektiv qiymətləndirilməsi mümkün olmaz. Yadda saxlamaq lazımdır ki, nə başına 5-10 nəfəri yığıb gündə bir partiya yaradan, onları dağıdıb təzədən başqa adda birləşdirən siyasət oyunçuları ilə sağlam ideologiya, siyasət nəhəngi Heydər Əliyev, nə də sağlam düşüncəli şəxsiyyətlər çoxluğundan, tarixi zərurətdən yaranmış YAP başqaları ilə müqayisə edilə bilməz. Çünki bütün göstəricilərinə: yaranma şəraitinə, məqsədinə, məramına, proqramına, kadr potensialına, ictimai-siyasi mahiyyətinə, xalqın arzu və istəklərinə, yaxınlığına, nüfuzuna, dünyada baş verən proseslərə elmi münasibətinə və digər xüsusiyyətlərinə görə YAP-ın respublikada fəaliyyət göstərən bütün partiyalardan fərqli, qat-qat üstünlüyünün olmasını yalnız dar siyasi düşüncəli insanlar inkar edə bilərlər.

Bu reallığın nəticəsidir ki, YAP məhz ümummilli problemlərin həllinə nail ola biləcək yeganə partiya kimi formalaşıb, ölkənin bütün ağıllı, tədbirli, təcrübəli,

tanınmış nüfuz sahibi olan insanları bu partiyaya üz tutur. YAP 15 il ərzində yaşlı, orta yaşlı və gənc nəslin seçilmiş nümayəndələrinin bir amal, vahid məqsəd – milli mədəniyyəti, ilk növbədə mənəviyyatı qoruyub saxlamaq, onu inkişaf etdirmək naminə birləşərək möhkəm siyasi qüvvəyə çevrilib. Bu gün YAP sürətli tərəqqi edən, yüksək siyasi mədəniyyət daşıyıcısı kimi tanınan partiyadır. Bu isə siyasi varislik amilinin daim qorunub-saxlanılması zərurətini bir fenomen olaraq ortaya qoyur.

Əslində, Yeni Azərbaycan Partiyasının siyasi varislik amili əsasında yeni inkişaf mərhələsinin özülü hələ 1999-cu il dekabr ayının 20-21-də keçirilən partiyanın I qurultayında prinsipial olaraq öz əksini tapmışdır. Məhz həmin qurultayda Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, onun müasir beynəlxalq sistemdə layiqli yer tutması, ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində əsas məqsəd və vəzifələr müəyyənləşdirildi və siyasi varisliyin təmin olunması zərurəti bir fenomen olaraq qarşıya çıxdı. YAP-ın I qurultayının tarixi əhəmiyyətini artıran mühüm amillərdən biri də siyasi varisliyin təmin olunması istiqamətində atılan addım oldu. Cənab İlham Əliyevin partiya sədrinin müavini postuna gətirilməsi haqqında qərar bu prosesə yeni ruh və müasirlik gətirdi. I qurultaydan sonra ölkədə yeni bir mərhələ başladı və cəmi bir il sonra – 2000-ci ilin noyabr ayının 12-də keçirilən parlament seçkilərində cənab İlham Əliyevlə YAP-ın bəzi üzvləri parlamentdəki yerlərin çoxunu əldə etdilər. Bu isə I qurultayın qərarlarının praqmatik siyasi

düşüncənin nəticəsi olduğunu söyləməyə əsas verdi. Cənab İlham Əliyevin sonradan partiya sədrinin birinci müavini seçilməsi ilk qurultayın qəbul etdiyi qərarların uğurlu nəticəsinin bariz göstəricisi idi.

YAP-ın I qurultayı 1999-cu ilin dekabrında bütün ölkədəki ictimai-siyasi hadisələrin fonunda ən aktual və vacib bir mövzu kimi müzakirə olunurdu. Bu, təkcə onunla bağlı deyildi ki, YAP hakim siyasi təşkilat olduğundan onun ilk qurultayı kütləvi maraq doğura biləcək bir hadisə təsiri bağışlayırdı. Həm də onunla bağlıydı ki, Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin yaşamasında müstəsna xidmətləri olmuş bir siyasi qüvvə artıq yeni dövr üçün özünün ideoloji doktrinasını məhz bu qurultayda elan etdi. Bu, bütövlükdə ölkənin ictimai-siyasi həyatında böyük hadisə idi.

Məlumdur ki, bütün xalqların həyatında dövlətin varislik tarixi ciddi əhəmiyyətə malikdir. Tarixin konkret məqamında ümummilli lider Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin labüdlüyünü şərtləndirən amillər isə heç şübhəsiz ki, bu kursun bütünlüklə Azərbaycanın dövlətçilik maraqlarının həyata keçirilməsinə yönəlməsindən ibarət idi. Ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirmiş olduğu siyasi kursun, milli dövlətçilik konsepsiyasının varisliyinin təmin olunması zərurəti zamanın tələbi, xalqın sosial sifarişi kimi gündəmə gəlirdi. Heydər Əliyev siyasi kursunun və idarəçilik sisteminin davam etdirilməməsi cəmiyyətimizdə baş verə biləcək mümkün təlatümlərə, ağır faciələrə səbəb ola bilərdi və artıq

Azərbaycan xalqı ulu öndərimizin siyasi hakimiyyətdən kənarda olduğu 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində bunu yaşamışdı. Ona görə də Azərbaycan xalqı ümummilli liderinin müəyyənləşdirdiyi siyasi kursun varisliyinin təmin olunmasında israrlı idi.

Heydər Əliyev siyasi məktəbinin öncül prinsiplərinə sədaqətlə yanaşan cənab İlham Əliyev özünün idarəçilik fəlsəfəsində yeni ideyaların, dünyada gedən proseslərin məntiqindən doğan və həyatın zəruri etdiyi islahatların yer alacağını əsas götürməklə siyasətdə ehkamçılığın deyil, təkamül və liberal dəyərlərin daşıyıcısı olduğunu təsdiq etdi. Demokratiyanın ölkəmiz üçün strateji seçim olduğunu bildirdi. İlham Əliyev Heydər Əliyev siyasi kursuna sadiq olacağını, bu kursu daim uca tutacağını hələ 2003-cü il avqustun 4-də Azərbaycan Respublikasının Baş naziri təyin edilərkən birmənalı olaraq bəyan etmişdi: “Hər şeydən əvvəl, mənim təyinatım o deməkdir ki, Prezident Heydər Əliyevin Azərbaycanda 1993-cü ildən bəri apardığı siyasət davam etdiriləcək. Bu, bizim ölkə üçün çox vacibdir. Bütün bunları geridə qoymaq üçün olduqca çox vaxt və səylər tələb olundu. Ona görə də cəmiyyətin əsas məqsədi sabitliyi qorumaq və aparılan siyasətin dəyişilməsinə yol verməməkdir. Mən çalışacam ki, indiyədək əldə olunanların hamısı nəinki qorunub saxlansın, həm də hökumət iqtisadi islahatlar sahəsində bu vaxtadək əldə etdiyimiz nailiyyətləri daha da artırsın. İqtisadiyyatın inkişafı ilə yanaşı, demokratiyanı da inkişaf etdirmək vacibdir. Azərbaycan gərək siyasi və iqtisadi cəhətdən

güclü, demokratik ölkə olsun. Bu, bizim ümumi məqsədimizdir”.

Baş nazir təyin olunması İlham Əliyevin dövlətçiliyimizin taleyində yeni bir mərhələnin başlanğıcı oldu. Bu təyinatın ictimai-siyasi proseslərdə doğurduğu ciddi rezonans belə qənaətə gəlməyə əsas verdi ki, İlham Əliyev amili yaxın gələcəkdə də ölkənin siyasi həyatında mühüm hadisə kimi öz aktuallığını saxlayacaq. İlham Əliyevin hökumət başçısı kimi potensialı ilə bağlı müzakirələrin intensiv şəkildə ictimailəşməsi hadisənin cəmiyyətin mütləq əksəriyyətinin dəstəklədiyi kimi mühüm nəticələri də ortaya qoydu. İlham Əliyevin Baş nazir təyin olunması Azərbaycan cəmiyyətində Heydər Əliyev siyasi xəttinin və bu xəttin prioritet kimi qəbul etdiyi prinsiplərin yerini qəti şəkildə müəyyənləşdirməyə imkan verdi. Bu baxımdan, bir qədər yaxın keçmişə qayıdaraq həmin təyinatdan sonra ölkədə yaranmış situasiyanın inkişaf dinamikasını dəyərləndirərkən bir neçə amil üzərində dayanmağa xüsusi ehtiyac var:

Birincisi, bu təyinat Heydər Əliyev komandasının – Yeni Azərbaycan Partiyasının ölkədə yeganə monolit qüvvə olması barədə təsəvvürləri daha da möhkəmləndirdi. Bir daha sübut olundu ki, Heydər Əliyevin dövlətçilik ənənələrini siyasi mübarizədə təməl prinsipləri hesab edən və siyasi maraqları yalnız bu kursun davam etdirilməsindən ibarət olan qüvvələrin hələ uzun illər dövlət idarəetmə müstəvisində mövqeləri avanqard mahiyyət kəsb edəcək. Bu vacib məqamı komandada tərəddüd edən-

lər də dərk və qəbul etmək zorunda qaldılar. Məsələyə siyasi təbliğat aspektindən yanaşdıqda isə birmənalı şəkildə etiraf edilməlidir ki, özünün kadr bankını, intellektual arsenalını bir daha nümayiş etdirməyə nail olan hakimiyyət cəmiyyətin perspektiv seçim problemini də son və qəti şəkildə öz xeyrinə həll etməyə nail oldu.

İlham Əliyevin Baş nazir təyinatından sonra ictimaiyyət bir daha əmin oldu ki, yaranmış stabillik və bundan sonra da qazanılan uğurlar məhz cəmiyyət və Heydər Əliyev birliyinin məntiqi nəticəsidir.

İkincisi, hökumət rəhbərliyində baş vermiş dəyişiklik hakimiyyətin taktiki-strateji proqramının konturlarını da dərk etməyə imkan verdi. İlham Əliyevin hökumət başçısı təyin olunması cəmiyyətin siyasi dəstəyini ictimailəşdirmək baxımından çox əhəmiyyətli idi. Bu amil hələ ilk dəfə İlham Əliyevin parlament seçkilərində Yeni Azərbaycan Partiyasının proporsional siyahısına rəhbərlik etdiyi dövrdə nəzərə çarpmışdı və o vaxtdan proseslərin inkişaf meyilləri bu dəstəyin arta biləcəyini söyləməyə əsas verirdi. Müşahidəçilər haqlı olaraq hələ o dövrdə İlham Əliyev amilinin birləşdirici qüvvə ola biləcəyini istisna etmirdilər. Bu təyinat İlham Əliyevin timsalında hökumətin intellektual imkanlarının əsas arsenalında cəmləşməyə imkan verdi, hakimiyyət strukturlarının işgüzar imicini daha da yüksəltdi.

Üçüncü, bu təyinat Heydər Əliyev siyasi kursunun perspektivləri barədə cəmiyyətdə tam siyasi arxayınlıq yaranması baxımından da mühüm siyasi hadisə idi. Təyinatla

hakim elita cəmiyyətin bütün təbəqələrinin ona meyilləndiyi siyasi qüvvə olduğunu təsdiq etməklə yanaşı, həm də İlham Əliyevin qazandığı statusun intellektual güc hesabına əldə etdiyi gerçəkliyini ortaya qoydu. Bu Azərbaycanın siyasi həyatı üçün əlamətdar hadisə idi. Çünki müstəqillik əldə edildiyi dövrdən bəri ölkənin siyasi həyatında yaşanan kataklizmlər və bir qayda olaraq əvvəlki hakimiyyətlərin qeyri-standart idarəçilik və dağınıq siyasi dünyagörüşü cəmiyyəti dilemma qarşısında qoymuşdu. Halbuki, ötən 10 il ərzində cəmiyyət dilemmadan azad olmuşdu və bu baxımdan Heydər Əliyevin siyasi kursuna bəslənən ümummilli simpatiyanın İlham Əliyevin siyasi fəaliyyətinə pozitiv transferi önəmli hadisə hesab edilirdi. Bu təyinat həm də onun göstəricisi hesab olundu ki, ictimai rəy özünün mövqeyini tam şəkildə ortaya qoydu və İlham Əliyev faktorunun Heydər Əliyev dövlətçilik ənənələrinin davam etdirilməsi baxımından alternativinin olmaması gerçəkliyini qəbul etdi.

İlham Əliyevin Baş nazir təyin olunmasının Heydər Əliyevin dövlətçilik kursunun varisliyinin təmin edilməsi kimi strateji əhəmiyyət kəsb edən sosial sifarişə qarşı neqativ və qeyri-konstruktiv hissi ilə yaşayan qüvvələr üçün ciddi siyasi zərbə effektinin yaratdığı da qaçılmaz oldu. Faktiki olaraq, yeni siyasi mərhələdə bu tip qüvvələrin mövcudluğu hakimiyyətin 10 ildən bəri bərqərar olan demokratik simasını mənfi stereotiplərlə yükləyə bilərdi.

Beləliklə, İlham Əliyevin Baş nazir təyin olunması qərarı Azərbaycan xalqında özünəinam hissini möhkəmləndirdi, sabitlik və firavanlığa təminat yaratdı. Heydər Əliyev yolunun İlham Əliyev tərəfindən davam etdirilməsi Azərbaycan dövlətinin zəngin və qüdrətli gələcəyi, onun regionun lider dövlətinə çevrilməsi, ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaşımız üçün firavan və rahat həyat şəraitinin yaradılması deməkdir.

İlham Əliyevin Baş nazir olması Azərbaycan cəmiyyəti üçün gözlənilən, ümumilikdə isə Azərbaycan xalqının gələcəyi, Heydər Əliyevin 10 ildə iflas və fəlakətdən hifz edərək sabit inkişaf yoluna çıxardığı dövlətin perspektivi baxımından tamamilə məntiqi, qanunauyğun və zəruri təyinat idi. Təsadüfi deyil ki, sözügedən təyinat Azərbaycan cəmiyyətinin mütləq əksəriyyəti tərəfindən razılıq hissi ilə qarşılandı. Xalq sabahı və Heydər Əliyevin ən möhtəşəm əsəri olan müstəqil Azərbaycan dövlətinin gələcəyi üçün arxayınlıq əldə etdi.

Etiraf edilməlidir ki, Azərbaycanda Nazirlər Kabinetinə rəhbərlik etmiş şəxslərin heç birinin təyinatı bu qədər geniş rezonans doğurmamışdı. Səbəb isə çox sadə idi. İlham Əliyev bu posta təyin edilənədək beynəlxalq müstəvidə və Azərbaycan ictimai rəyində yüksək səviyyədə qəbul olunan siyasi və dövlət xadimi idi. Onun 1994-cü ildən Azərbaycan neft strategiyasının həyata keçirilməsində göstərdiyi müstəsna xidmətlər və 2001-2003-cü illərdə Avropa Şurasında qazandığı nüfuzu qeyd etmək kifayətdir. Təsadüfi deyil ki, İlham Əliyev Baş nazir postunda ilk

təbrikləri məhz Avropa Şurasının rəhbərliyindən almışdı. Lakin İlham Əliyevin beynəlxalq müstəvidəki nüfuzu yalnız Avropa Şurası ilə məhdudlaşmır. 1994-cü ildən Azərbaycanın neft strategiyasının həyata keçirilməsində böyük rol oynayan, "Əsrin müqaviləsi"dən başlayaraq Azərbaycanın xarici neft şirkətləri ilə imzaladığı 23 müqavilənin, ixrac neft boru kəmərlərinin reallaşmasında bilavasitə iştirak edən İlham Əliyev dünyanın iqtisadi mərkəzlərində işgüzar və bacarıqlı təşkilatçı və koordinator nüfuzunu qazanmışdı. Azərbaycanda işləyən, Azərbaycanla əməkdaşlığı davam etdirmək arzusunda olan dövlətlər, şirkət və qurumlar bu keyfiyyətləri həm də bir arxayınlıq, təminat faktoru kimi qəbul edirdilər. İlham Əliyevin Baş nazir təyinatına beynəlxalq müstəvidə verilən yüksək dəstək, eyni zamanda, Azərbaycanda aparılan islahatların, Qərbə inteqrasiya kursunun, 10 ildə ümummilli lider Heydər Əliyevin yeritdiyi düzgün siyasətin gələcək təminatçısına verilən dəstək idi.

Azərbaycanın Baş naziri olaraq iştirak etdiyi ilk beynəlxalq forumda o, ölkəmizin bir nömrəli problemini kəskin şəkildə dünya liderlərinin diqqət mərkəzinə çıxardı. 2003-cü il sentyabrın 24-25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 58-ci sessiyasında nitq söyləyən İlham Əliyev Birləşmiş Millətləri Ermənistanın Azərbaycana qarşı təcavüzünə seyrçi qalmaqda ittiham edərək ölkəmizin prinsipial mövqeyini bir daha dünyaya çatdırdı: "Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui-istifadəyə cəhd etməsin!". Terror və təcavüzlə mübarizə

aparan beynəlxalq birliyi Qarabağ məsələsində ikili standartlara yol verməməyə çağıran İlham Əliyev Azərbaycanın heç zaman "mövcud reallıqlar" əsasında həll variantı ilə razılaşmayacağını və torpağının bir qarışını belə heç kimə verməyəcəyini bəyan etdi. Bütün bu reallıqların fonunda cəmiyyət, xalq tərəfindən cənab İlham Əliyevin ümummilli lider Heydər Əliyev kursunu davam etdirməyə qadir olan alternativsiz lider kimi qəbul edilməsi zamanın tələbi idi.

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib". Ümummilli lider Heydər Əliyev 2003-cü il oktyabrın 3-də xalqa müraciət edərək siyasi varisi İlham Əliyevin xeyrinə namizədliyini geri götürən anda da məhz bu reallığa əsaslanmışdı və bu reallıq dövlətçilik tariximizdə yeni bir cığır açdı.

Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən

ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu öndərin bu fikirlərinin aksiomaya çevrildiyi artıq hər kəsə məlumdur.

İndiki nəsillərin də, gələcək nəsillərin də Heydər Əliyev irsin, Heydər Əliyev fəlsəfəsinin müəyyənləşdirdiyi inkişaf xəttinin bütün prinsiplərini mənimsəməsi böyük əhəmiyyət kəsb edir. Bu ən azından Azərbaycanın inkişafının düzgün yolla getməsi baxımından böyük əhəmiyyətə malikdir. İndi biz məmnunluq hissi ilə qeyd edə bilərik ki, Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik fəlsəfəsi Azərbaycanın praktik siyasətində öz ifadəsini tapıb. Bu Azərbaycanda siyasi varisliyə vətəndaşların kifayət qədər sağlam mövqedən yanaşması nəticəsində mümkün olmuşdur. Azərbaycanda 2003-cü il prezident seçkisində Heydər Əliyevin siyasi xəttinin davamçısı İlham Əliyevin vətəndaşların dəstəyi nəticəsində qələbə çalması xalqımızın Heydər Əliyev siyasətinin davam etdirməsinə səs verməsi kimi qiymətləndirilməlidir. Dövlət quruculuğu prosesində siyasi varisliyin qorunub saxlanılması bu gün Azərbaycanın yüksək dinamik inkişafını şərtləndirir. Gələcək zamanlarda da Azərbaycanda inkişafın, tərəqqinin bu templə davam etdirilməsi Heydər Əliyev strategiyasının varisliyinin təmin edilməsi ilə bağlı olacaqdır. Bu isə həm də Heydər Əliyev ideyalarının Azərbaycanın gələcək nəsillərinə çatdırılması vəzifəsini çox vacib şərt kimi qarşıya qoyur.

Bunu dərk edərək partiyamızın fəaliyyətində Heydər Əliyevin ideyalarının, baxışlarının, fəlsəfəsinin gənc nəslə

çatdırılmasını qarşımızda duran əsas vəzifələrdən biri kimi müəyyən etmişik. Heç də təsadüfü deyil ki, Yeni Azərbaycan Partiyasının apardığı bu genişmiqyaslı təbliğat işləri sayəsində partiyamızın sıraları ildən-ilə genişlənir və çox sevindirici haldır ki, partiyamızın sıralarına daxil olan, özünün taleyini Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlayan Azərbaycan vətəndaşlarının içərisində gənclərin sayı getdikcə çoxalır.

Bu, bir tərəfdən təbliğatın, digər tərəfdən siyasi varisliyin təmin olunması sayəsində əldə olunan inkişafın nəticəsidir. Bu eyni zamanda bütün Azərbaycan xalqının Heydər Əliyev kursuna inamının böyüklüyünün nəticəsidir, bu istiqamətdə Yeni Azərbaycan Partiyası öz üzərinə düşən missiyanı şərəflə yerinə yetirməkdədir. Biz YAP-çılar Heydər Əliyev kursunun praktik əhəmiyyətini vətəndaşlarımıza çatdırmaq kimi mühüm bir vəzifəni yerinə yetiririk. Bu sadəcə Heydər Əliyev siyasətinin vətəndaşlara izahı deyil, həm də Heydər Əliyev siyasətinin, qüdrətinin və gücünün etirafıdır, Heydər Əliyev siyasətinin Azərbaycanın inkişafı üçün açdığı perspektivlərin ifadəsidir. Bu Heydər Əliyev siyasətinin Azərbaycanın gələcəyi üçün yaradılan çox etibarlı bir fundamentin etirafıdır və bu amil Yeni Azərbaycan Partiyasının təbliğat siyasətində hərtərəfli şəkildə öz əksini tapıb.

2008-ci ilin prezident seçkilərinin yaxınlaşmasını nəzərə alaraq Yeni Azərbaycan Partiyası bu prosesə – hazırlıq prosesinə artıq start verib. Partiyamız qəti şəkildə 2008-ci ilin prezident seçkisinin nəticələrinin namizədimizin –

İlham Əliyevin xeyrinə olacağına inanır və bu inamın əsasında Azərbaycanın inkişafının, tərəqqisinin yüksək göstəriciləri dayanır. Bu inamın əsasında Azərbaycan vətəndaşlarının Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə və bu siyasətin nəticələrinə yüksək qiymətin verilməsi dayanır. Bu inamın əsasında Azərbaycanın regionun lider dövlətinə çevrilməsinin vətəndaşlarda yaratdığı qürur hissi dayanır. Bütün bunların hamısı bir tərəfdən Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin, yəni onun Azərbaycanın inkişafında oynadığı rolunun ifadəsidir, digər tərəfdən Prezident İlham Əliyevin Heydər Əliyev kursuna sədaqətlə xidmət edərək Azərbaycanın inkişafı sayəsində yüksək göstəricilər əldə etməsi ilə bağlıdır. Yəni həyatda özünü dəfələrlə doğrultmuş, sınaqdan keçmiş, xalqa inkişafın düzgün yolunu göstərən siyasətlə, strategiya ilə bu siyasətin layiqincə yerinə yetirmək iqtidarında olan şəxs üzvü şəkildə birləşiblər.

Beləliklə, bu gün bütün səviyyələrdə etiraf olunur ki, ümummilli lider Heydər Əliyev xalqımızı milli dövlətçilik ideyaları ətrafında birləşdirərək mürəkkəb geocoğrafi məkanda Azərbaycan kimi müstəqil dövlət qurdu. Bu dövlətin parlaq gələcəyini təmin etməklə tarixin ayrı-ayrı dönəmlərində bir çox siyasi xadimlərimizin tam axıra çatdıra bilmədikləri şərəfli bir missiyanı həyata keçirdi.

Heydər Əliyev siyasətinin varisliyi zərurətinin tarixi məntiqlə yanaşı, praktik davranış məntiqindən qaynaqlandığını ayrıca qeyd etməyə ehtiyac duyulur. Bu tezisin isbatı üçün Heydər Əliyevin Azərbaycan qarşısında xid-

mətlərini yada salmaq yetərlidir. Azərbaycanın taleyinin sınağa çəkildiyi zamanlarda xilaskarlıq missiyasından başlamış quruculuq, hərtərəfli iqtisadi-sosial-mədəni və mənəvi inkişaf mərhələsindən keçərək müstəqil Azərbaycan dövlətinin inşası kimi şərəfli missiya məhz ona məxsusdur. Lakin ölkənin müasir tarixinin Heydər Əliyevin böyük və çoxşaxəli fəaliyyətində ehtiva olunan yeni mərhələsi indinin özündə də davam etdiyindən onun qapalı sistem kimi qavranılması qeyri-mümkündür. Əksinə, Heydər Əliyevin fəaliyyəti ilə əsası qoyulan yeni mərhələ uzunmüddətli perspektivi açan bütöv bir dövrü əhatə edir ki, hazırda Azərbaycan onun növbəti siklini yaşamaqdadır.

Təsadüfü deyil ki, ulu öndər Heydər Əliyev siyasi xəttinin alternativsizliyinə qəti əmin olan Azərbaycan xalqı 2003-cü ilin 15 oktyabr prezident seçkilərində də məhz bu partiyanın namizədinə – Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyevə etimad göstərdi. Bununla, müstəqil Azərbaycanımızın dövlətçilik tarixində yeni bir yüksəliş mərhələsinin əsası qoyuldu. Cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin partiya quruculuğu sahəsində həyata keçirdiyi siyasəti bu gün uğurla davam etdirməkdədir.

Hələ Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini kimi partiyanın İdarə Heyəti üzvləri ilə keçirdiyi ilk görüşündə cənab Prezident bu istiqamətdə də Heydər Əliyev siyasi kursuna sadiq qalacağını bəyan etmişdir. Son proseslər də Yeni Azərbaycan Partiyasının qüdrətli ictimai-siyasi təşkilat olduğunu nümayiş etdirmişdir.

İlk növbədə 26 mart 2005-ci il tarixdə təşkilatın üçüncü qurultayı zamanı cənab İlham Əliyev yekdilliklə Yeni Azərbaycan Partiyasının sədri seçilmiş və bu, partiyanın ən böyük nailiyyətlərinin təminatçısına çevrilmişdir. Hakim partiya son illər keçirilən parlament və bələdiyyə seçkilərində də böyük uğur qazanmışdır. Bu faktın özü də tarixdə adı ümummilli liderimiz Heydər Əliyevin adı ilə simvollaşan Yeni Azərbaycan Partiyasının xalqın partiyası olduğunu göstərir. Bu gün Yeni Azərbaycan Partiyası da ölkəmizdə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edir, müstəqil Azərbaycan dövlətinin yüksəlişinə, tərəqqisinə öz töhfələrini əsirgəmir.

Cənab İlham Əliyevin qısa bir vaxtda cəmiyyətdə populyarlıq qazanması, Azərbaycan Respublikasının Prezidenti, o cümlədən Yeni Azərbaycan Partiyasının Sədri seçilməsi əlbəttə ki, obyektiv reallığın ifadəsi idi. Məlumdur ki, cənab İlham Əliyev 90-cı illərin ortalarından etibarən Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, eləcə də Milli Olimpiya Komitəsinin prezidenti kimi geniş fəaliyyəti ilə yanaşı, ölkəmizin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri statusunda da Azərbaycanın milli maraqlarının təmin olunması ilə bağlı mühüm işlər görmüşdür. Onun rəhbərliyi altında Azərbaycan nümayəndə heyəti Dağlıq Qarabağ məsələsinin Avropa Şurasında müzakirəsi zamanı böyük uğurlar əldə etmişdir. İlham Əliyevin təşəbbüsü ilə AŞPA-da Ermənistanın işğalçılıq siyasəti Avropanı narahat edən

bir problem kimi gündəmə gətirilmiş, əsir və girovların qaytarılması, Dağlıq Qarabağda narkotik maddələrin yetişdirilməsi və bundan əldə edilən gəlirlərin terrorçuluq fəaliyyətinə yönəldilməsi, Dağlıq Qarabağda tarixi abidələrin, mədəniyyət abidələrinin dağıdılmasına dair sənədlər müzakirəyə çıxarılmışdır. Azərbaycanın parlament nümayəndə heyətinə rəhbərliyi dövründə AŞPA-nın vitse-prezidenti və qurumun büro üzvü kimi mühüm postlara seçilən İlham Əliyevin ardıcıl səyləri nəticəsində Avropa Şurası Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətini tanımışdır.

Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin ən layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən İlham Əliyev 90-cı illərin sonlarına doğru artıq geopolitik məkanda siyasi-iqtisadi proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomen kimi çıxış edir, bütün bunlarla yanaşı, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı statusu onun siyasi portretini zənginləşdirən ştrix kimi nəzərə çarpırdı. Ulu öndərimizin müəyyənləşdirmiş olduğu yeni neft strategiyası çərçivəsində dünyanın transmilli korporasiyaları ilə imzalanmış müqavilələrin Azərbaycanın milli maraqlarına cavab verməsi üçün o, bütün imkannlarını səfərbər edərək bu prosesə öz töhfəsini vermiş, eyni zamanda Milli Olimpiya Komitəsinin prezidenti kimi onun ölkəmizdə idmanın kütləviliyini təmin etmək məqsədilə həyata keçirdiyi müvafiq tədbirlər qısa zaman kəsiyində öz müsbət həllilə nəticələnmişdir. Azərbaycan idmançılarının mötəbər yarış-

larda qazandıqları qələbələr mütəmadi xarakter almış, olimpiya hərəkatında ölkəmizin fəallığı artmış, Azərbaycanın idman ölkəsinə çevrilməsi, respublikamızın bütün regionlarında olimpiya idman komplekslərinin tikilərək vətəndaşların ixtiyarına verilməsi prosesi genişlənmişdir. Azərbaycan vətəndaşları İlham Əliyevin deputatlıq fəaliyyəti dövrünü də xoş duyğularla xatırlayırlar. Birinci çağırış Milli Məclisin səlahiyyət müddəti dövründə onun parlamentdə təmsil etdiyi Qaradağ rayonu ərazisində tikdirmiş olduğu yaşayış binaları, çoxsaylı infrastruktur obyektləri İlham Əliyevin hələ o illərdə ona etimad göstərmiş insanlara ərməğanıdır. 2000-ci ildə ikinci çağırış Milli Məclisə seçkilər dövründə isə Yeni Azərbaycan Partiyasının proporsional siyahısına rəhbərlik edən İlham Əliyevin qazandığı yüksək nailiyyət onun vətəndaşlar arasında ölkəmizin sabahını təmin edəcək alternativsiz lider kimi qəbul olunması həqiqətini bir daha təsdiq etdi.

İlham Əliyev 2003-cü il oktyabrın 31-də prezident kimi təntənəli and içəndən dərhal sonra da Azərbaycanı Heydər Əliyev yolu ilə irəli aparacağını bildirmişdi: "Əlbəttə, çətinliklər olacaq. Amma mən çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yola getməzdim". Heydər Əliyev yolunun layiqli şəkildə davam etdirilməsi Azərbaycanı daha qüdrətli, zəngin və firavan dövlətə çevirmək, ölkənin hər bir vətəndaşı üçün arxa və dayaq olmaq deməkdir. İlham Əliyev Azərbaycan Prezidenti postunda imzaladığı ilk fərman və sərəncamlarla sübut etdi ki, bu istiqamətdə aydın, geniş və icra

mexanizmləri dəqiq ölçülüb-biçilmiş fəaliyyət proqramına malikdir. 2003-cü il noyabrın 24-də imazalanan "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman, 2004-cü il fevralın 11-də təsdiq edilən "Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008)", 2004-cü il iyulun 1-də "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", sahibkarlığın təşviqi, sosial-iqtisadi sahə ilə bağlı verilən sərəncamlar onun fəaliyyət proqramının çeşidli istiqamətlərini ehtiva edir.

Bundan daha mühümü İlham Əliyevin sözügedən qərar və sərəncamların bilavasitə icrasını daima şəxsi nəzarətində saxlaması, ortaya çıxan bütün çətinliklərin vaxtında və yerindəcə həll olunmasını təmin etməsidi. Dövlət başçısının ardıcıl olaraq bölgələrə səfərlər etməsi bunun bariz nümayişidir: "Cəmiyyətə sabitlik lazımdır. İnsanlar iş, yaxşı maaş, uşaqlarını təhlükəsiz mühitdə böyütmək istəyirlər və bizim vəzifəmiz onlara bu şəraiti təmin etməkdir". İlham Əliyev bu fikri prezident seçkiləri ərəfəsində, əhali ilə görüşlərində bəyan etmişdi və fəaliyyətinin ilk günlərindən sübut etdi ki, o, Prezident kimi ölkədə sabitliyin və hər kəs üçün sosial rifahın qəti təminatçısıdır: "Qarşımda çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəyəm. Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı prezident olacağam. Əgər xalq mənim

fəaliyyətimi dəstəkləyirsə, inanırsa, bu, ən böyük mükafatdır". Bu bəyanatı isə İlham Əliyev prezidentliyinin ilk günlərində vermişdi. Azərbaycan xalqı yeni liderinin arxada qalan dörd illik fəaliyyət dövrünü göz önünə alaraq birmənalı şəkildə deyə bilər ki, İlham Əliyev heç bir sözü populizm, yaxud deklarativ çıxış naminə söyləmir. O, sözünün ağasıdır və verdiyi hər bir söz real, əməli işi ilə tamamlanır.

Ən mühümü isə odur ki, Heydər Əliyevin siyasi varisi təkcə mükəmməl idarəçilik sistemini və zəngin siyasi irsi deyil, həm də Azərbaycan xalqının mütləq əksəriyyətinin Heydər Əliyevə olan yüksək etimad və dəstəyini də təhvil alıb. Ümummilli lider Heydər Əliyevin nəhəng seçici elektoratı onun siyasi varisinin liderliyini qəbul etdi və 15 oktyabr 2003-cü ildə İlham Əliyevə səs verdi. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanı o vaxtkı iqtidardan, yəni indiki müxalifət liderlərindən hansı vəziyyətdə təhvil aldığını, bu illər ərzində Azərbaycan dövlətçiliyinin hansı sınaqlardan çıxdığını, möhkəmləndiyini yaxşı bilən, Heydər Əliyevin dövlətçilik xəttinin real, əməli nəticələrini bilavasitə görən, bu siyasətin ayrılıqda hər bir vətəndaşa və ümumilikdə bütün xalqa firavanlıq, sabitlik və təhlükəsizlik təmin etdiyini gözəl dərk edən yüz minlərlə seçici bu yolun davam etdirilməsini istədi. İlham Əliyev də öz növbəsində Azərbaycan xalqına güvənir, bu xalqın dəstəyinə inanır və onun etimadını doğruldacağına söz verir, bu istiqamətdə ardıcıl siyasət yürüdür.

İlham Əliyevə görə dövləti idarə etmək iddiasında olan kəs bunun üçün hər şeydən öncə xalqın dəstəyinə arxalan-

malıdır. Çünki bu və ya digər dövlət rəhbərinə xaricdən nə qədər dəstək verilsə də, əgər onun ölkə daxilində, xalq arasında dayaqları zəifdirsə, onda onun iflası da qaçılmazdır. Xalqa arxalanmaq, liderlik gücünü və iradəsini xalqdan almaq ümummilli lider Heydər Əliyevin siyasi portretinin də ən başlıca cəhəti idi. İlham Əliyev də siyasət olimpində ilk addımları ilə bu prinsipə sadiq olduğunu nümayiş etdirirdi. O, ABŞ-ın "Assoşieyted Press" agentliyinə müsahibəsində bu məsələyə münasibətini belə açıqlamışdı: "Əgər lider öz xalqı tərəfindən dəstəklənirsə, əlbəttə, bütövlükdə, vəziyyəti nəzarətdə saxlamaq onun üçün çox asandır. Bütün rayonlardan mənim ünvanıma təbriklər göndərilir. Sadə insanlar mənim təyinatımı dəstəkləyirlər, onu yüksək qiymətləndirirlər. Çünki çoxları hakimiyyətdə boşluq yaranacağından, sabitliyin pozulacağından qorxurdu. Mən isə gələcəkdə də sabitliyi təmin etmək və ölkəni inkişaf etdirmək üçün əlimdən gələni etməyə çalışacağam. Mən həmişə deyirəm, ölkə, xalq qarşısında xidmətlər özünütəsdiqin ən yaxşı üsuludur. Mən həmişə fikirləşmişəm və indi də o fikirdəyəm ki, ən başlıcası bu siyasətin davam etməsidir. Mənim üçün, zənn edirəm ki, ölkəmizin əksər vətəndaşları üçün də ən başlıcası Heydər Əliyev siyasətinin davam etdirilməsi, qorunub saxlanmasıdır. Əgər bu gün məni bunun üçün lazımlı adam hesab edirlərsə, bu məsuliyyəti üzərimə götürməyə hazıram".

2003-cü ilin avqust-sentyabr aylarında dünyanın ən nüfuzlu siyasi məclislərində Azərbaycanın milli maraqlarını layiqincə müdafiə edən, eyni zamanda, ölkə daxilində xalqın böyük əksəriyyətinin etimad və rəğbətini qazanan

İlham Əliyev artıq siyasi olimpin bir addımlığında idi. Odur ki, ölkə elektoratının mütləq çoxluğunun 15 oktyabr prezident seçkilərində ona dəstək verəcəyi artıq heç kimdə şübhə doğurmurdu. Azərbaycan cəmiyyətində siyasi qüvvələr də Heydər Əliyevin özünün siyasi varisinə prezidentlik xeyir-duasını, nəsihətini gözləyirdi. 2003-cü il oktyabrın 1-də ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqına müraciəti təkcə Azərbaycanın gələcək dövlət başçısına siyasi xeyir-dua deyil, həmçinin Azərbaycanın müstəqillik tarixini və onun gələcək inkişaf yolunu dəqiqliklə xarakterizə edən proqram səciyyəli bir siyasi sənəd idi. "Əziz həmvətənlər, hörmətli Azərbaycan vətəndaşları! Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun Prezidenti kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.

Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici

aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Azərbaycanın iqtisadi həyatı yenidən qurulur, yüksək dinamizmlə dirçəlir və inkişaf edir. Dövlətimiz getdikcə öz müdafiə qabiliyyətini artırır, hərbi cəhətdən güclənir. Bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət kəsb edən məsələləri həll edə bilmişik. İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq. İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq. Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik. Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyünü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu, məhz belə də olacaq” – kimi dəyərli fikirlər müraciətdə öz ifadəsini tapmışdır.

Azərbaycan xalqına müraciətində səhhətindəki problemlərlə bağlı prezidentliyə namizədliyini geri götürdüyünü elan edən ulu öndər əmin olduğunu vurğulayırdı ki, onun başladığı yol uğurla davam etdiriləcək, Azərbaycan xalqı və dövləti layiq olduğu yüksək inkişaf və rifaha doğru inamla addımlayacaq: “Mən öz mənalı həyatımın düz

60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir".

Əlbəttə, Heydər Əliyev siyasi kursunun və milli dövlətçilik konsepsiyasının varisliyinin təmin olunması sosial sifariş kimi önə çıxmışdı. Təbii ki, bu konsepsiyanın üstünlüyü, obyektiv xarakter daşıması Heydər Əliyevin hakimiyyətdə olduğu on ildə özünü dəfələrlə nümayiş etdirdi. Zaman-zaman cəmiyyət belə bir siyasi iradə ortaya qoydu ki, mütləq bu kursun, aparılan siyasətin varisliyi təmin olunmalıdır. Cəmiyyəti narahat edən əsas faktor hakimiyyət sükanının yenidən təsadüfü şəxslərin, meydan eyforiyasından ayıla bilməyən diletantların əlinə düşməsi qorxusu idi. Təhtəlşüurda baş qaldıran stereotiplər xalqdan tələb edirdi ki, ortaya siyasi iradə qoysun. Bu belə də oldu və xalqımız birmənalı olaraq İlham Əliyev fenomeni üzərində dayandı.

Azərbaycan xalqı Heydər Əliyevin daxili və xarici siyasət kursuna alternativ görmədiyi kimi bu strategiyanı

uğurla davam etdirəcək siyasi xadimi də haqlı olaraq ümummilli liderin komandasında müəyyənləşdirdi. Və sözsüz ki, bu inam məhz İlham Əliyevin fəaliyyəti üzərində köklənmişdi. Cəmiyyətdə qəti olaraq belə bir rəy formalaşmışdı ki, İlham Əliyev Heydər Əliyevin siyasi kursunun müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz şəxsdir.

İlham Əliyevin ən üstün cəhəti ondan ibarətdir ki, o, mövcud reallıqları operativ və obyektiv olaraq qiymətləndirməyi bacarır. Cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul edir. Xüsusilə, ölkənin sosial-iqtisadi problemlərinə onun münasibəti daha həssasdır. İlham Əliyev həm də istedadlı strateq olaraq Azərbaycanın geosiyasi mövqeyini ustalıqla qiymətləndirir. Etiraf edilməlidir ki, İlham Əliyev fenomeninin cəmiyyətin etimad göstəricinə çevrilməsi ilk növbədə təbii-siyasi amillərdən qaynaqlanan gerçəklikdir. İlham Əliyevin siyasi-psixoloji portretinin əsasını təşkil edən komponentlər onun Azərbaycan və dünya siyasi arenası üçün uğurlu sima olduğunu birmənalı olaraq sübut edir. O, öz siyasi simasında Qərb standartlarını – aristokratik rəftarı, rasional düşüncə tərzini, alovlu vətənpərvərliyi, praqmatizmi milli mentalitetlə son dərəcə dəqiqliklə uzlaşdırılmış ansamblını yaratmağa nail olub. İlham Əliyev bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə həm də yeni nəfəs, siyasi ruh və müasirlik gətirib. Onun siyasətçi kimi formalaşmasına təsir edən komponentlərin sırasında siyasi romantizm, psevdovətənpərvərlik, arxaik siyasi elementlər yoxdur. İlham Əliyevin ölkədə və dünya-

da cərəyan edən siyasi proseslərin avanqardına çevrilməsi cəmiyyətin siyasi tələbatlar sisteminin məntiqi nəticəsində meydana çıxan obyektiv bir prosesin yekunudur. Bütün bu qeyd olunanlarla yanaşı, İlham Əliyev fenomenini zəruri ictimai-siyasi hadisəyə çevirən amillərin ümumi konturları mövcuddur.

Bütün bu amillərin məcmusu İlham Əliyevin siyasi proseslərin fövqündə duran və bu prosesləri istiqamətləndirən populyar və islahatçı liderə çevrilməsinə zəmin yaratmış komponentlər kimi nəzərdən keçirilməlidir. O da etiraf olunmalıdır ki, ulu öndər Heydər Əliyevin Azərbaycan cəmiyyətinə və bu cəmiyyətin tələbatlar sisteminin əsasını təşkil edən siyasi münasibətlər müstəvisinə bəxş etdiyi mühüm nailiyyətlərdən biri də ölkədə yeni siyasətçilər nəslinin formalaşması üçün münbit siyasi şərait yaratması idi. Dahi şəxsiyyət ölkədə elə siyasi ab-hava formalaşdırdı ki, intellektə, yüksək erudisiya qabiliyyətinə və siyasi istedada malik olan istənilən şəxs öz gələcəyini müəyyənləşdirmək üçün çox ciddi işlər görə bilsin. Sözsüz ki, yaradılmış bu imkan son illər ilk növbədə Azərbaycan siyasətinə yeni insanların gəlişinə əhəmiyyətli dərəcədə təsir göstərdi. Birmənalı şəkildə qeyd etmək olar ki, İlham Əliyev fenomeni ümummilli lider Heydər Əliyevin yaratdığı normal siyasi şəraitin nəticəsi kimi meydana çıxdı. Sözsüz ki, bu faktorun qabarmasında İlham Əliyev üçün ayrıca prioritetlə müəyyən edilmədi və münbit siyasi şəraitdə meydana çıxan imkanlar heç bir fərq qoyulmadan hər kəs tərəfindən istifadə edildi. Hər bir siyasi liderdə siyasi

istedadın az və ya çoxluğu subyektiv məsələdir. Sözsüz ki, İlham Əliyevin qısa zaman kəsiyində özünə dominant mövqelər qazanması onun siyasi istedadı ilə birbaşa bağlıdır və burada radikal müxalifətin irəli sürdüyü fərziyyələrin heç bir əsası yoxdur.

İlham Əliyevin üstün keyfiyyətlərindən biri də onun yüksək siyasi mədəniyyət nümayiş etdirməsidir. Bütün məsuliyyətli qərarların qəbulu zamanı İlham Əliyev təmkinini pozmur, hadisələrə rasional prizmadan yanaşır və bununla da müxalifətin informasiya hücumunun kiçik və əhəmiyyətsiz hadisə olduğunu ictimai rəyə çatdırır. Yüksək siyasi mədəniyyət, tolerantlıq, siyasi kamillik kimi pozitiv keyfiyyətlər onun nümayiş etdirdiyi başlıca faktorlardır.

Bütün bunlara rəğmən, etiraf etməliyik ki, İlham Əliyevin 15 oktyabr 2003-cü il prezident seçkilərində qələbəsi daha çox onun sistemli və düzgün koordinasiya olunmuş fəaliyyətinin məntiqi nəticəsi idi. Seçkilər dövründə İlham Əliyevə münasibətdə siyasiləşmiş təbəqənin və cəmiyyətin bütün təbəqələrinin mövqeyində monolitliyin nəzərə çarpması ilk növbədə onun siyasi fəaliyyətinin komponentləri arasındakı əlaqələrin son dərəcə uzlaşdırılmış şəkildə qurulmasından irəli gəlirdi. Bu xətt onun fəaliyyətində ardıcıllıq təşkil edir. İlham Əliyevin taktiki fəaliyyəti, istər daxili, istərsə də xarici siyasət məsələlərinə münasibətləri biri digərini təkzib etmir, əksinə, məntiqi ardıcıllıqla bir-birini tamamlayır. Onun baxışlarında ziddiyyətli və kəsişən xətlər yoxdur, proseslərə münasibəti birmənalı və

dəqiqdir. Bu baxımdan, İlham Əliyevin pozitiv siyasi obrazının mahiyyətini ictimai rəyin adekvat münasibətlərində axtarmaq lazımdır. Liderlik xüsusiyyətlərinin əksəriyyət tərəfindən qəbul edilmək, geniş siyasi spektrin inamını qazanmaq və elektoral dəstəyə malik olmaq kimi politoloji bir mənanı ehtiva etdiyini nəzərə alsaq bu anlayışı bütün kateqoriyalar üzrə İlham Əliyevə şamil etmək olar.

Yuxarıda qeyd etdiklərimizlə yanaşı, hadisələrə birmənalı münasibət və onların siyasi yozumunu ifadə edən orijinal üslub cəmiyyətlə İlham Əliyev arasındakı bütün təmas xətti boyunca şəffaflığı təmin etmişdir. Bir sözlə, ictimai rəydə İlham Əliyev haqqında hansısa bir qaranlıq məqamlar mövcud deyildir. Ən əsası isə odur ki, bu şəffaflığın müqabilində İlham Əliyevlə ictimai rəy arasında qarşılıqlı inam bərqərar olmuşdur.

İlham Əliyev daim cəmiyyətə əsl vətəndaşlıq hissləri aşılayıb. Bu fikri onun hələ 1997-ci ildə ABŞ-ın Kembric Universitetində çıxışı zamanı vurğuladığı bir məqam da təsdiqləyir: "Biz xarici şirkətlərə deyirdik: Siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqını maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq. Əgər biz səhvə yol versək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik". Bu gün iftixar hissi ilə deyə bilərik ki, həqiqətən o zaman İlham Əliyev böyük cəsarət və iradə nümayiş etdirərək milli mənafelərin qorunması naminə əzmlə çalışdı. 1997-ci ilin fevral ayında ABŞ-ın Hyuston

şəhərində Enerji Tədqiqatları Assambleyasının enerji problemlərinə dair keçirdiyi beynəlxalq konfransda, 1998-ci ilin mart ayında isə Vaşinqtonda, Los-Ancelesdə və San-Fransisko da bir sıra konfransların, seminarların işində iştirak edən İlham Əliyev ABŞ-ın dövlət və siyasi xadimləri, işgüzar dairələrin nümayəndələrilə görüşüb səmərəli danışıqlar aparmış, Amerikanın nüfuzlu siyasi qəzetlərinə müsahibələr vermiş, diplomatik məharəti ilə hamıda özünə qarşı rəğbət qazandırmışdı.

Onun diplomatik fəaliyyətinin özəyində neft amilindən Azərbaycan xalqının, müstəqil Azərbaycan dövlətinin mənafeyi naminə istifadə etmək məqsədi dururdu. Özü bu barədə belə deyirdi: “Məlumdur ki, neft bəzi ölkələrə çiçəklənmə, inkişaf gətirir, bəzən düşmənçiliyə səbəb olur. Biz indidən elə etməliyik ki, neft beynəlxalq əməkdaşlıqda Azərbaycanın mövqeyini daha da möhkəmləndirsin, xalqımızın gələcək firavan həyatının möhkəm əsası qoyulsun. Mən əminəm ki, Azərbaycan öz müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəkdir. Əminəm ki, ölkəmizin ərazi bütövlüyü tezliklə təmin olunacaq, xalqımız sülh şəraitində yaşayacaq və gələcəkdə biz neftdən gələn gəlirləri sosial sektora – səhiyyə, mədəniyyət, təhsil sahələrinə yönəldəcəyik. Mən inanıram ki, Azərbaycan beynəlxalq aləmin mühüm, ayrılmaz hissəsi kimi durmadan inkişaf edəcəkdir”.

Mövcud reallıqları operativ və obyektiv şəkildə qiymətləndirməyi bacaran, cəmiyyətin sosial sifarişinə uyğun praqmatik qərarlar qəbul edən İlham Əliyevin formalaşdırdığı siyasi fenomenin cəmiyyətimizin etimad göstəricisinə çevrilməsi ilk növbədə təbii-siyasi amillərdən qaynaqlanır. Peşəkar siyasətçi kimi İlham Əliyevin siyasi

psixoloji portretinin əsas ştrixlərini təşkil edən komponentlər onun Azərbaycan və dünya siyasi arenası üçün uğurlu və orijinal şəxsiyyət olduğunu birmənalı şəkildə sübuta yetirir. O öz simasında Qərb standartları ilə kübar rəftarın, rasional düşüncə tərzinin, sarsılmaz vətənpərvərliyin, praqmatizmin milli mentalitetimizlə uğurlu sintezini yaratmış, bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə yeni nəfəs, siyasi ruh və müasirlik gətirmişdir.

İlham Əliyevin dövlətə rəhbərliyinin ilk aylarından etibarən Azərbaycanda və ümumilikdə bütün dünyada cərəyan edən proseslərin avanqardına çevrilməsi cəmiyyətin siyasi tələbatlar sisteminin məntiqi sonluğu kimi dəyərləndirilməlidir. Bununla yanaşı, İlham Əliyev fenomenini zəruri ictimai-siyasi hadisəyə çevirən amillər sırasında siyasi prinsiplərə sadiqlik, Heydər Əliyev siyasi kursuna bağlılıq və sədaqət, intellektual imkanlar və siyasi istedad, cəmiyyət üçün açıq və şəffaf olması, tolerantlıq, səmimi və humanist keyfiyyətlər və s. məqamlar xüsusilə diqqəti cəlb edir.

Müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin başladığı böyük işlər, həyata keçirdiyi iqtisadi, sosial, hüquqi və siyasi islahatlar, taleyüklü məsələlər, planlar, gənc dövlətimizin milli maraqlarına xidmət edən daxili və xarici siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk günlərindən respublikanın müxtəlif regionlarında seçkiqabağı görüşlərində verdiyi vədlərinə əməl edərək, ölkə iqtisadiyyatının daha sürətlə inkişaf etdirilməsi və əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində çox mühüm tədbirlər həyata keçirmişdir. Dövlət rəhbərinin imzaladığı “Azərbay-

can Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və digər çoxsaylı proqramların icrası ölkəmizin dinamik inkişafını təmin etmişdir. Qısa müddət ərzində bütün respublika boyunca yüz minlərlə iş yeri açılmış, yeni istehsal müəssisələri yaradılmış, regionlarımızın tarazlaşdırılmış inkişafı təmin olunmuşdur. Azərbaycanda daxili siyasi sabitliyin qorunması üçün zəruri əsasların daha da möhkəmləndirilməsi, xarici ölkələr, nüfuzlu beynəlxalq təşkilatlarla münasibətlərin yeni inkişaf müstəvisinə qədəm qoyması da bu dövrün həyatımıza gətirdiyi ən böyük nailiyyətlərdəndir.

Azərbaycan vətəndaşlarının mədəni-intellektual səviyyəsinin yüksəlişi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi bu dövrün səciyyəvi xüsusiyyətlərindən biri kimi nəzərdən keçirilə bilər. Dövlət rəhbərinin yürütdüyü məqsədyönlü siyasət hesabına ölkəmizdə işsizlik, yoxsulluq səviyyəsi minimuma yaxınlaşmış, milli iqtisadiyyatımızın neft asılılığına düşməməsi məqsədilə qeyri-neft sektorunun inkişafı istiqamətində əsaslı irəliləyişlər əldə edilmiş, sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar yaradılmışdır. Xalqın aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi yönündə görülən işlərsə bu gün daha böyük intensivliklə davam etdirilir və insanlarımızın öz dövlətinə, dövlət rəhbərinə inamını artırır.

Azərbaycan cəmiyyətini uzun illər boyu narahat edən Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi də daim İlham Əliyevin diqqət mərkəzindədir. Ölkəyə rəhbərliyi dövründə bu istiqamətdə böyük əzmkarlıq nümayiş etdirən dövlət başçısının qətiyyətli mövqeyindən geri çəkilməməsi

beynəlxalq aləmi nəhayət ki, münaqişənin Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həlli zərurəti üzərində düşünməyə məcbur etmişdir. Problemin həllinə səy göstərən nüfuzlu beynəlxalq təşkilatlar, dünyanın fövqəldövlətləri artıq dərk etməyə başlamışlar ki, Azərbaycanı respublikamızın milli maraqlarına zidd hər hansı güzəştə məcbur etmək mümkün deyil. Problemin sülh yolu ilə həllini tapmayacağı təqdirdə Prezident İlham Əliyevin xalqın iradəsinə söykənərək digər vasitələrin köməyi ilə Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyinə bir kimsənin şübhəsi yoxdur.

Son illər əldə edilən sosial-iqtisadi nailiyyətlər ölkəmizin müdafiə potensialını da artırmış, ulu öndərimiz Heydər Əliyevin qurduğu milli ordumuz daha da güclənmişdir. Bu gün Azərbaycanın təkcə hərbi büdcəsinin işğalçı Ermənistanın ümumilikdə dövlət büdcəsinə bərabər olması faktı Azərbaycanın hərbi üstünlükləri haqqında tam təsəvvür yaradır.

İlham Əliyev dəfələrlə bildirmişdir ki, Qarabağsız Azərbaycan olmayacaqdır. Bu münaqişənin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü, habelə beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində öz həllini tapacağı dövlət rəhbərimizin birmənalı mövqeyidir. Azərbaycan Prezidenti qətiyyətlə bəyan etmişdir: "...Nə 5 ildən sonra, nə 10 ildən sonra, nə 15 ildən sonra, nə də 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır. Mən nə qədər Prezidentəm, buna yol verməyəcəyəm".

Bu qətiyyət təbii ki, xalqın iradəsindən, əldə edilmiş sosial-iqtisadi nailiyyətlərin dövlətimiz üçün yaratdığı imkanlardan, Azərbaycanın beynəlxalq aləmdə ildən-ilə

daha da güclənməkdə olan mövqeyindən, ən əsası isə cəmiyyətimizdəki sosial-siyasi durumundan irəli gəlir.

İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu daha ardıcıl xarakter daşımağa başlamış, ölkədə milli həmrəylik əldə olunmuşdur. Ümummilli maraqlara uyğun məsələlərlə bağlı ölkə daxilindəki siyasi qüvvələr arasında normal dialoqun alınması, Azərbaycan siyasətində radikalizm təzahürlərinin getdikcə öz yerini liberalizmə verməsi xalqımızın son illərdə əldə etdiyi ən ciddi uğurlardan biridir. Prezident ölkədə demokratik vətəndaş cəmiyyətinin qurulması, söz azadlığının, fikir müxtəlifliyinin təmin olunması üçün öz səylərini əsirgəmir.

İlham Əliyev dövlət rəhbəri kimi çox qısa zaman kəsiyində Dünya Azərbaycanlılarının həmrəyliyi xəttini kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldıra bildi və artıq Azərbaycan diasporu dünyanın əksər ölkələrində proseslərə əhəmiyyətli şəkildə təsir göstərə biləcək real güc mərkəzinə çevirmişdir. Bu gün planetin hansı qütbündə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı dövlətin ona dəstəyini yaxından hiss edir.

İlham Əliyevin ardıcıl səyləri nəticəsində Avroatlantik məkana geniş inteqrasiya yolu tutmuş Azərbaycan öz iqtisadi, demokratik, mədəni və mənəvi nailiyyətləri ilə bu gün də sivilizasiyalararası dialoqun fəal iştirakçısıdır. Ulu öndərimiz Heydər Əliyevin müəllifliyi ilə artıq reallaşan Bakı-Tbilisi-Ceyhan əsas-ixrac boru kəməri layihəsi bu gün qlobal proseslərin ən əhəmiyyətli tərəflərindən biri kimi Azərbaycanın dünya üçün vacibliyini daha da artırır. İlham Əliyevin əzmlə həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqaz regionunun ən güclü, lider

dövlətinə çevirmiş, ölkəmiz iqtisadi inkişaf tempinə görə bütün dünyada rekord göstəricilərə sahib olmuşdur. Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu prosesinin bu gün İlham Əliyev tərəfindən daha böyük dinamizm, yüksək əzmkarlıqla davam etdirilməsi vətəndaşlarımızın sabaha inamını artırır.

Beləliklə, qısa müddət ərzində əldə olunmuş bütün bu nailiyyətlər bir daha təsdiq edir ki, partiyamız 2008-ci il prezident seçkisinə aydın proqram və sarsılmaz inamla gedir və bu inam Heydər Əliyev siyasətinə əsaslanır. Şübhə yoxdur ki, həmin seçkilər bir daha YAP-ın alternativsizliyini sübut edəcək.

# YAP DEMOKRATİK İNKİŞAFIN QARANTIDIR

Səmimi şəkildə etiraf etməliyik ki, bu gün Yeni Azərbaycan Partiyası ölkədə vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquq və azadlıqlarının müdafiəsində, siyasi islahatların və demokratikləşmə prosesinin dərinləşməsində fəal mövqeyi ilə seçilir. Partiyadaxili demokratiya ölkənin bütün siyasi təşkilatları üçün örnək, model rolunu oynaya bilər. Azərbaycanın son onillikdə qazandığı nailiyyətlər, eyni zamanda, Prezident İlham Əliyevin cəmiyyətdə alternativsiz lider kimi qəbul olunması nəticə etibarilə həm də YAP-ın uğuru sayılır. Yeni Azərbaycan Partiyasının rəhbərliyi partiyanın daim yeniləşməsinə və güclənməsinə mühüm önəm verir. Çünki bu partiya, eyni zamanda, Heydər Əliyev siyasi irsinin ideoloji bazasını təşkil edən güc mərkəzidir.

1993-cü ilin oktyabr ayının 3-də YAP Sədri Heydər Əliyevin Prezident seçilməsi ölkədəki xaos və anarxiyaya son qoymaqla yanaşı, bu təşkilatın inkişaf tarixində yeni bir mərhələnin başlanğıcını qoydu. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişdi, onun ölkənin siyasi həyatında tutduğu mövqeyi möhkəmləndi, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirdi. Partiiya-

nın yaxından iştirakı ilə həyata keçirilən bütün tədbirlər Azərbaycanın milli maraqlarına tam cavab verən, onun dövlət müstəqilliyini, milli təhlükəsizliyini təmin edən, əhalinin dinc və firavan həyatına, ölkənin tərəqqisinə xidmət edən işlər idi.

1995-ci ilin noyabr ayının 12-də keçirilən parlament seçkilərində Milli Məclisə seçilən deputatların əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləri oldular. Bununla YAP-a olan ümumxalq inamı bir daha təsdiq edildi. 1998-ci ildə isə ümummilli liderin Azərbaycan Prezidenti seçilməsi, 1999-cu ildə keçirilən bələdiyyə seçkilərinin YAP-ın inamlı zəfəri ilə başa çatması partiyanın nüfuzundan xəbər verən ən obyektiv göstəricilər kimi tarixə düşdü.

Məlumdur ki, 1999-cu il dekabr ayının 20-21-də keçirilən I qurultayda YAP-ın təsis konfransında qəbul etdiyi proqram və nizamnamə geniş şəkildə müzakirə olunaraq müəyyən əlavə və dəyişikliklər edilməklə təsdiq olundu. YAP-ın proqram və nizamnaməsinə uyğun olaraq təşkilatın strateji xətti, Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, onun müasir beynəlxalq sistemdə layiqli yer tutması, ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində əsas məqsəd və vəzifələri müəyyənləşdirildi.

Ona görə də YAP sədrinin birinci müavini cənab İlham Əliyevin 2003-cü ilin oktyabrında Prezident seçilməsi xalqın Heydər Əliyev siyasi kursuna inamının nəticəsi idi. 2003-cü ilin prezident seçkilərində YAP-ın namizədinin qalib gəlməsi partiyanın ölkənin ictimai-siyasi hə-

yatında hansı nüfuza sahib olmasını əyani şəkildə təsdiqlədi. YAP-ın III qurultayındakı nitqi zamanı Prezident İlham Əliyev bu barədə deyirdi: “Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zəmanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir. Mən çox şadam ki, Azərbaycan xalqı 2003-cü ildə öz seçimini düzgün etdi. Heydər Əliyevin siyasətinə öz səsini verdi və beləliklə, bu gün də biz hamımız, Azərbaycan xalqı, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin siyasətinə sadiq qalaraq onu davam etdiririk və çox uğurla davam etdiririk”.

2004-cü ilin dekabr ayının 17-də bələdiyyə, 2005-ci ilin noyabr ayının 6-da Milli Məclisə seçkilərdə YAP yenidən qələbə çalaraq həm yerli özünüidarəetmə orqanlarında, həm də qanunvericilik orqanında daha çox təmsil olunan partiya kimi növbəti uğurlara imza atdı. Çağdaş dövrümüzdə də YAP Konstitusiya və qanunvericilik çərçivəsində, özünün nizamnaməsi və proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında Azərbaycanda hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən siyasi partiyadır.

YAP dünyanın bir çox ölkələrində fəaliyyət göstərən və xalqlar içərisində nüfuza sahib olan partiyalarla qarşılıqlı münasibətlər qurmuşdur. Geniş təcrübə mübadilələri aparılır. Bunlar, əlbəttə, YAP-ın nüfuzunu, gücünü, məzmununu daha da zənginləşdirir.

YAP 15 ilə yaxındır ki, ölkədə hakim partiyadır və təbii ki, ölkədəki vəziyyətə, daxili və xarici siyasətin etibarlılığına, əhalinin sosial-mənəvi tələbatının ödənilmə səviyyəsinə, insanların hüquq və haqlarının, azadlıq və təhlükəsizliyinin təmin olunması səviyyəsinə görə Azərbaycan xalqı qarşısında böyük məsuliyyət daşıyır. Hər bir partiya üzvü bunu bilir. Necə deyərlər, xalqın gözü bizim partiyadadır. Hər adamın bu partiyadan umacağı, şəxsi işləri var. O cümlədən, partiya üzvlərinin özlərinin 15 illik təcrübəsinin nəticəsi kimi deyə bilərik ki, partiyamız ümumən Azərbaycan əhalisinin ümidlərini doğrultmuş, həmişə xalqın qayğısı ilə yaşamışdır.

2005-ci ilin noyabrın 6-da ölkəmizdə keçirilən parlament seçkiləri də YAP üçün əlamətdar oldu. Partiya prezidentin və xalqın ona bəslənən ümidlərini doğrultdu, YAP 63 mandat qazanmaqla öz liderliyini və alternativsizliyini bir daha təsdiqlədi. Əlbəttə, cəmiyyətdə çox güclü dayaqlara və nüfuza malik olmasına baxmayaraq, YAP 6 noyabr 2005-ci il parlament seçkilərinə ciddi şəkildə hazırlaşdı və yerlərin böyük əksəriyyətinə nail olmaqla avanqard statusunu bir daha isbatladı. Həmçinin, YAP seçkilərin demokratik, azad və şəffaf keçirilməsində digər partiyalardan daha çox maraqlı olduğunu nümayiş etdirdi. Bu reallıqla hesablaşmaq lazımdır, ən azı o səbəbdən ki, YAP yaxın keçmişdə olduğu kimi, bu gün də məhz ulu öndər Heydər Əliyev ideyalarına sadiqdir. Sözsüz ki, YAP-ın parlament seçkilərində qələbəsi ümummilli siyasi təşkilat olaraq tarixində yeni bir siyasi mərhələnin başlanmasıdır.

Şübhəsiz ki, YAP-ın yeni dövr üçün müəyyən olunan fundamental fəaliyyət istiqamətləri 15 oktyabr 2003-cü ildən sonra yeni siyasi baxışlar sisteminin formalaşmasında fəal iştirakı ilə bağlıdır. Ümumiyyətlə, İlham Əliyevin hakimiyyəti bütövlükdə yenilik anlayışı ilə sıx surətdə bağlıdır. Bunu nəinki onun seçki təbliğatı, həm də seçkidəki qələbəsindən sonra yeni ictimai düşüncə sisteminin formalaşması, Azərbaycanın siyasi həyatına müasir oyun qaydaları – praqmatiklik, liberal iqtisadi münasibətlər, açıq vətəndaş cəmiyyəti, sivil siyasi mübarizə, siyasi qüvvələrə rəqiblərini təkcə tənqid etmək deyil, həm də fəaliyyətinə, bacarıq və qabiliyyətinə görə qiymət vermə ənənələrinin yaranması bir daha sübut edir.

Beləliklə, Azərbaycanda demokratiyanın daha bir nailiyyəti kimi tarixilik qazanmış 15 oktyabr 2003-cü il prezident seçkilərindən keçən müddət ölkəmizdə sosial-iqtisadi yüksəlişin, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin yeni bir mərhələsinə çevrilmişdir. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu dövlətçilik strategiyasını özünəməxsus dinamizm, böyük əzm, yüksək vətənpərvərliklə həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət hesabına ölkəmizdə demokratik islahatların ardıcıllığı təmin olunmuşdur. Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini daha da möhkəmləndirmiş, sosial-iqtisadi inkişafına, insan hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması vəziyyətinə və müasir dünyada cəmiyyətin inkişafını müəyyən edən digər bu kimi meyarlara görə dünyanın ən qabaqcıl ölkələri sırasına qədəm qoymuşdur.

Cənab İlham Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərlik fəaliyyətini xarakterizə edən əsas əlamətlər bütün bunlarla da məhdudlaşmır. Hələ andiçmə mərasimində hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağını bəyan edən cənab İlham Əliyevin malik olduğu xarizma, özünəməxsus idarəçilik qabiliyyəti, xalqın problemlərinə həssas münasibəti cəmiyyətimizdə milli həmrəyliyi təmin etdi. Vətəndaş cəmiyyəti quruculuğunun daha sürətlə həyata keçirilməsinə, sosial-iqtisadi tərəqqinin başlıca təminatçısı kimi çıxış edən ictimai-siyasi sabitliyin qorunmasına əsaslı zəmin yaratdı.

İnsan amilinin önə çəkilməsi, bütün məsələlərdə Azərbaycan vətəndaşlarının hüquq və mənafelərinin müdafiəsi, xalqa xidmət prinsipinin dövlət və hökumət strukturları qarşısında başlıca vəzifə kimi qoyulması, mövcud iqtisadi potensialın insan kapitalına çevrilməsi üçün imkanların səfərbərliyə alınması cənab İlham Əliyevin idarəçilik üslubunun ən xarakterik əlamətləridir.

Yeni tarixi inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin formalaşdırılması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlarımıza uyğun həlli, ölkə əhalisinin dinc və firavan həyat şəraitində yaşamasını təmin etmək kimi mühüm tarixi vəzifələr durur.

Müstəqil respublikamız bu vəzifələrin həyata keçirilməsini özünün siyasi strategiyasının əsas məqsədi hesab

edir. Keçən dövr ərzində dövlətin və cəmiyyətin müxtəlif sahələrində baş vermiş fundamental dəyişikliklərin və bu sahədə qazanılmış təcrübənin dərindən təhlili nəticəsində müəyyənləşdirilən daxili və xarici siyasətin prioritetləri öz əksini ümummilli lider Heydər Əliyevin siyasi kursunda tapmışdır.

Yaşadığımız tarixi dövrün reallıqları hüquqi dövlət quruculuğu və demokratikləşmə prosesində xalqın iradəsini əsas istiqamət kimi qəbul etməyi, intellekt azadlığına, peşəkarlığa, səriştəliyə əsaslanıb əhalinin bütün səylərini birləşdirməklə sosial yönümlü iqtisadiyyata və demokratik normalara arxalanan demokratik, hüquqi, dünyəvi dövlət qurmağı tələb edir. Yalnız güclü, qüdrətli müstəqil dövlət sayəsində xalqımızın tarixi arzularını reallaşdıra və onun taleyüklü məsələlərini həll edə bilərik. Odur ki, müstəqil, güclü və qüdrətli dövlətçilik ümummilli lider Heydər Əliyev siyasi kursunun əsas prinsipidir.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti hakimiyyətinin qanunverici, icraedici, məhkəmə qollarına bölünməsini və onlar arasında bir-birini tamamlayan qarşılıqlı münasibətlərin yaradılmasını tələb edir. Sivil, demokratik dövlətin fundamental əsaslarından birini təşkil edən bu əsas prinsip ictimai praktikada reallaşdırılmadan qanunların aliliyi, idarəetmədə peşəkarlığın üstünlüyü və dövlət idarəçiliyinin mükəmməlliyi təmin edilə bilməz. Əks təqdirdə, ictimai həyatda prinsipsizlik, sosial ədalətin pozulması, ayrı-ayrı qrupların mənafelərinin milli maraqları üstələməsi baş verər ki, bu da cəmiyyətdə nizamsızlığa və xaosa, qeyri-

sivil idarəetmə formalarına gətirib çıxarar.

Sivil cəmiyyətlərdə demokratik idarəetmə münasibətlərinin mövcudluğu vətəndaşların iqtisadi, siyasi, mədəni hüquqlarının müdafiəsində böyük rol oynayır. Dünya praktikası sübut edir ki, hüquqi dövlət və vətəndaş cəmiyyətində qanunun aliliyi qorunub və ictimai həyatda hüquqi normalara hörmət etməklə, vətəndaş birliyi yaranır. Məhz bu baxımdan dövlətimizin uğrunda mübarizə apardığı əsas amallardan biri cəmiyyətdə qanunun aliliyini qorumaq, yalnız qanunlar çərçivəsində insanların və hakimiyyət orqanlarının fəaliyyətini tənzimləməkdir.

Azərbaycan Respublikası dilindən, dinindən, etnik və sosial mənşəyindən asılı olmayaraq, Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan, ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan bütün Azərbaycan vətəndaşlarını Azərbaycan xalqı, Azərbaycanı isə onların ümumi, bölünməz Vətəni, doğma yurdu hesab edir. Müstəqil respublikamız Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin, milli əxlaqi mentalitetinin, dilinin, dininin qorunmasını hamı üçün ümumi Vətən hesab olunan və xalqımızın dövlətçilik hissələrini, dövlət rəmzini yaşadan vahid Azərbaycan dövləti ilə bağlayır. Azərbaycan dövləti xalqımızın milli varlığımızın, birliyimizin, dinc və firavan həyatımızın təmin edilməsinin, hər kəsin hüquq və azadlıqlarının qorunmasının yeganə, etibarlı vasitəsidir.

Tarix bizə güclü, demokratik, müstəqil dövlət qurmaq, xalqımıza firavan, dinc həyat bəxş etmək, planetimizi

sivil, birgə yaşayış sisteminə qatılmaq üçün geniş imkan yaratmışdır. Bundan istifadə etməmək gələcək nəsillər qarşısında bağışlanmaz səhv olardı. Yeni cəmiyyət quruculuğunda tarixin ibrət dərslərindən nəticə çıxarıb keçmişin obyektiv, yaradıcı-konstruktiv istiqamətdə tənqid və təhlil olunması zəruridir. Bu məsələdə savadsızlığa yuvarlanaraq keçmişə nifrət hissindən çıxış etmək cəhdləri yolverilməzdir. Sağlam düşüncənin qüdrətini, cəmiyyətin inkişaf qanunauyğunluqlarını nəzərə alaraq islahatların təkamül yolu ilə aparılmasının düzgün yol olduğuna inanaraq və “inqilabi dağıntılar” vasitəsilə həyata keçirilən hər bir dəyişiklik rədd edilməlidir. Bununla əlaqədar özündə milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsini və onların yaradıcı təkamül yolu ilə inkişafını ehtiva edən varislik prinsipi əsas tutulmalıdır. Dövlətçiliyin varislik və yaradıcı təkamül prinsipinə əsaslanması həm cəmiyyətin, həm də ictimai şüurun inkişaf qanunauyğunluqlarından irəli gəlib tərəqqinin qüdrətli vasitəsinə çevrilir.

Dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, Azərbaycanda demokratik hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılması vəzifələri ardıcıl və məqsədyönlü siyasətin həyata keçirilməsini və bu məqsədlə ölkənin bütün ictimai-siyasi qüvvələrindən, intellektual və sosial-iqtisadi potensialından səmərəli şəkildə istifadə olunmasını tələb edir. Son illər Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyətinin formalaşdırılması, əsas insan və vətəndaş hüquqları və

azadlıqlarının qorunması sahəsində mühüm addımlar atılmışdır. Demokratik prinsiplərə və dünyanın sivil dövlətlərinin təcrübələrinə söykənərək çoxpartiyalı sistem əsasında parlament seçkiləri keçirilmiş və referendum yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edilmişdir. Cəmiyyətin siyasi, iqtisadi və mədəni sahələrinin mütərəqqi inkişafına nail olmaq məqsədilə çoxşaxəli demokratik islahatlar aparılmışdır.

Böyük tarixi əhəmiyyəti olan və gələcəyə istiqamətlənmiş bu nailiyyətlər ümummilli lider Heydər Əliyevin rəhbərliyi və onun siyasi varisi Prezident İlham Əliyevin ardıcıl və məqsədyönlü səyləri ilə əldə edilmişdir. Bu müddət ərzində beynəlxalq aləmdə mürəkkəb ictimai-siyasi proseslər müşahidə olunmuş və dramatik hadisələr baş vermişdir. Azərbaycanın dövlət müstəqilliyini, milli təhlükəsizliyini qorumaq, pozulmuş ərazi bütövlüyünü bərpa etmək, ən başlıcası isə demokratik inkişafı təmin etmək üçün siyasi hakimiyyət tərəfindən çoxtərəfli, ardıcıl və səmərəli xarici siyasət kursu həyata keçirilmişdir.

Azərbaycanda aparılan demokratik, hüquqi islahatlar, insan haqlarının qorunması sahəsində görülmüş məqsədyönlü tədbirlər nəticəsində dövlətimizin beynəlxalq nüfuzu xeyli artmış, dünya birliyi ölkələrilə dostluq, əməkdaşlıq və tərəfdaşlıq münasibətləri, o cümlədən hüquqi sahədə əməkdaşlıq genişlənmişdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi islahatların uğurla aparılmasında inkişaf etmiş dövlətlərin təcrübəsindən geniş istifadə edilmiş, nüfuzlu beynəlxalq təşkilatlarla

bu sahədə işgüzar əlaqələr qurulmuşdur.

Azərbaycanda sosial ədalət, milli həmrəylik, vətəndaşların hüquq və azadlıqlarının qorunması – bütün bunlar Prezident İlham Əliyevin rəhbər tutduğu prinsiplərdir. Prezident kimi öz səlahiyyətlərinin icrasına başladığı ilk vaxtlardan İlham Əliyev siyasi islahatlar sahəsində də dövlət siyasətinin prioritetlərini müəyyən etdi və öz fəaliyyətinin məzmununu da bu prioritetlərə uyğun şəkildə qurdu. Bütün sahələrdə öz həyati gücünü və effektivliyini sübut etmiş Heydər Əliyev kursunun davam etdirilməsi, Azərbaycanın da iştirakçısı olduğu qloballaşma şəraitində bu siyasətin əsas prinsiplərinin yaradıcı şəkildə istifadə olunması Prezident kimi İlham Əliyevin fəaliyyətini səciyyələndirən başlıca göstəricidir.

Prezident İlham Əliyevin fikrincə, yalnız iqtisadi cəhətdən güclü ölkədə demokratiya tam mənada bərqərar ola bilər. Yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması demokratik ölkəyə çevrilmək üçün çox önəmli şərtdir.

Müasir dünyada gedən prosesləri diqqətlə izləyən İlham Əliyev yeni tarixi şəraitdə ölkənin qarşısında prinsipcə yeni vəzifələr durduğunu bildirir: "İnkişafın ilk illərində Azərbaycanın müstəqil dövlət kimi yaşaması, sabitliyin qorunması, müstəqilliyin möhkəmlənməsi və ölkənin böhrandan çıxarılması əsas məsələlər idisə, bu gün qarşımızda yeni tələblər durur: bunlar ölkəmizi texnoloji cəhətdən inkişaf etdirmək, dünya birliyinə inteqrasiya etmək və demokratiyanı möhkəmləndirməkdən ibarətdir".

Azərbaycanda demokratiyanın inkişafı, əsas insan hüquq və azadlıqlarının qorunması, siyasi plüralizmin, söz və ifadə azadlığının təmin olunması Prezident kimi İlham Əliyevin fəaliyyətində mühüm yer tutur. Onun dövlət başçısı kimi fəaliyyəti dövründə bu sahədə qəbul edilmiş qərarlar özünün ardıcıllığı, yeniliyi və cəsarətliliyi ilə seçilir. Prezident demokratiyanı birinci növbədə iqtisadi azadlıq, mülkiyyət toxunulmazlığı, məhkəmələrin müstəqilliyi kimi qəbul edir. Qanunun aliliyinin təmin olunması üçün verilən qərarlar, çoxsaylı əfv fərmanları, kütləvi informasiya vasitələrinə dair qanunvericiliyin təkmilləşdirilməsi, İctimai Televiziyanın fəaliyyətə başlaması, 2005-ci il parlament seçkilərinin azad və demokratik şəraitdə keçirilməsi, Avropa Şurası, ATƏT kimi beynəlxalq təşkilatlarla əlaqələrin gücləndirilməsi, Avropa İttifaqı ilə əməkdaşlığın yeni səviyyəyə qalxması və s. demokratiyanın inkişafı sahəsində görülən tədbirlərin qısa siyahısıdır. Prezident demokratiyanı ilk növbədə qanunun aliliyi kimi qəbul edir, hər hansı qanundan kənar hərəkətlərə, özbaşınalığa yol verilməyəcəyini bildirir. O, xüsusi qeyd edir ki, Avropa Şurası, Avropa İttifaqı kimi təşkilatlarla əməkdaşlıq bizim həyat normalarını Avropa standartlarına yaxınlaşdırmaq, sivil birgəyaşayış və siyasi mübarizə qaydalarını mənimsəmək baxımından əhəmiyyətlidir.

Prezident İlham Əliyev eyni zamanda Azərbaycana hansısa qərarların kənardan zorla qəbul etdirilməsini, demokratiya idxalını mümkün hesab etmir. 2005-ci il parlament seçkiləri zamanı Prezidentin qətiyyəti, ölkəmizə

qeyri-konstitusion mübarizə metodlarını gətirmək cəhdlərinə qarşı sərt mövqeyi, seçki praktikasının təkmilləşdirilməsi haqqında sərəncamı proseslərin demokratik qaydalara uyğun keçməsində böyük rol oynadı. O, insan haqları, demokratiya, dialoq məsələsinə daha geniş prizmadan baxır, cəmiyyətdə əhalinin müxtəlif qrupları arasında, sözün geniş mənasında, dialoq olduğunu bildirir. İlham Əliyev Azərbaycan müxalifətini sağlam, konstruktiv, vətənpərvər və məsuliyyətli qüvvə kimi görmək istəyir: "Cəmiyyətə sağlam, konstruktiv, bu və ya digər məsələyə hökumətin diqqətini cəlb edə bilən, hökuməti sağlam tənqid edən müxalifət lazımdır".

Etiraf etməliyik ki, bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyil. Demokratiya, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir. İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiyaların və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları kamilləşdirən ən əsas meyardır.

Məlumdur ki, sülh və əmin-amanlıq olmadan insan hüquqlarına tam əməl etmək mümkün deyil. Ermənistanın Azərbaycana qarşı artıq on il davam edən silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan artıq soydaşımız adi insan hüquqlarından məhrum edilmişdir. Vaxtilə ölkəmizdə insanların həyatını təhlükəyə məruz qoyan hərc-mərclik, qanunsuz silahlı bir-

ləşmələrin mövcudluğu, əhalidə qanunsuz silahların cəmləşməsi, terrorçuluq və mütəşəkkil cinayətkarlığın tüğyan etməsi insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarmışdı. Bu vəziyyət Azərbaycan xalqını vətəndaş müharibəsi həddinə çatdırmış, milli dövlətçiliyin itirilməsi təhlükəsi qarşısında qoymuşdu. Bu ağır sınaqlardan çıxmış Azərbaycan xalqı mətin iradə, həmrəylik və əzmkarlıq nümayiş etdirərək, bəşər sivilizasiyasının idealları olan azadlığı, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir.

Azərbaycan dövləti siyasi-hüquqi potensialından tam istifadə etməklə insan hüquq və azadlıqlarına nail olmaq və müvafiq hüquqi mexanizmlər yaratmaq üçün tədbirlər görür. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur. Artıq hüquqa və ədalətə söykənən, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının inkişafına tam zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun təkmilləşdirilməsi davam etdirilir. Ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır. Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik cəmiyyət qurulmuş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar olmuşdur. Ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və

hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra vətəndaş cəmiyyəti, demokratik dünyəvi dövlət və buna uyğun insan hüquqları sisteminin yaradılması istiqamətini götürmüşdür. Azərbaycan Respublikası Avropa Şurasına üzv olmaqla onun bir sıra konvensiyalarına, o cümlədən İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında 1950-ci il Konvensiyasına qoşulmuşdur.

Konvensiya Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Avropa Şurasına üzv olma ərəfəsində 25 yanvar 2001-ci ildə Strasburqda imzalanmış və 25 dekabr 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmişdir.

Azərbaycan Respublikası tərəfindən İnsan Hüquqları haqqında Konvensiyanın ratifikasiya edilməsilə bağlı sənəd Avropa Şurasının Baş katibinə təqdim edilmiş və 15 aprel 2002-ci ildə depozitə edilmişdir. Həmin tarixdən etibarən respublikamızın yurisdiksiyası altında olan hər bir şəxsin Avropa İnsan Hüquqları Məhkəməsinə Konvensiya ilə müəyyən edilmiş şərtlər daxilində müraciət etmək hüququ yaranmışdır. Bununla əlaqədar olaraq ölkə ictimaiyyətinin Strasburq məhkəməsinə marağı artmışdır.

Avropa Şurası hökumətlərarası beynəlxalq təşkilatdır, onun üzvləri suveren Avropa dövlətləridir. İnsan hüquqlarını, parlament demokratiyasını və hüququn aliliyi prinsipini müdafiə etmək və möhkəmləndirmək, təşkilatın üzvü olan dövlətlərin sosial və hüquqi sahədəki uğurlarına

əsaslanan ümumavropa razılaşmaları bağlamaq, ümumi ideya və prinsiplərin müdafiəsi və həyata keçirilməsi naminə Avropa dövlətlərinin böyük birliyinə nail olmaq, onların iqtisadi, sosial tərəqqisinə kömək göstərmək təşkilatın başlıca məqsədidir. Avropa Şurası hazırda qitədə 43 dövləti birləşdirən ən yaşlı siyasi təşkilat hesab edilir.

Demokratikləşmə, insan hüquqlarının etibarlı təminatı baxımından böyük zaman məsafəsi qət edərək yüksək inkişaf mərhələsinə çatmış bir sıra qabaqcıl dövlətlərin təcrübəsi göstərir ki, cəmiyyətin təkamül prosesini, habelə dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların dövrün tələblərinə uyğun müasirləşdirilməsi davamlı və zəruri səciyyə daşıyır. Bu istiqamətdə həyata keçirilən mütərəqqi islahatların praktik nəticələr verməsi isə daha çox tətbiq olunan yeniliklərin zamanla nə dərəcədə səsləşməsi və cəmiyyətin inkişaf tempinə adekvatlığı ilə şərtlənir. Qanunların yüksək liberallığı ilə ictimai şüur səviyyəsi arasında müşahidə olunan kəskin fərq isə “Ən pis qanun, işləməyən mütərəqqi qanundan daha yaxşıdır” prinsipini tam gücü ilə işə salır. Hər bir islahatın uğurlu nəticələr verməsi, ilk növbədə, onun aktuallığından, əhatə dairəsindən, ən əsası, vətəndaşların hüquq və azadlıqlarını özündə tam ehtiva etdirməsindən asılıdır. Müstəqillik yoluna yenicə qədəm qoymuş Azərbaycanın qısa müddətdə demokratikləşmə sahəsində böyük nailiyyətlər qazanması da bilavasitə vətəndaş cəmiyyət quruculuğuna hesablanmış məhkəmə-hüquq islahatlarının ölkənin sosial-iqtisadi inkişaf ahəngi və demokratik

şüur səviyyəsi ilə uzlaşdırılması nəticəsində mümkün olmuşdur. Ulu öndərimiz Heydər Əliyev xalqın təkidli tələbilə hakimiyyətə qayıtdıqdan sonra respublikada qanunun aliliyinin təmin olunmasını, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən biri elan etmiş, bu ali məqsədlərin gerçəkləşdirilməsinə yönəlmiş çoxşaxəli tədbirlərin həyata keçirilməsini daim diqqətdə saxlamışdır. Ulu öndərimiz böyük siyasət ustadı olaraq cəmiyyətdə hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. 1995-ci ilin 12 noyabrında qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarmı, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının möhkəm təməlini qoymuşdur. Ölkə Konstitusiyasına əsasən, hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmələr dünyanın mütərəqqi təcrübəsinə əsaslanan modeldə formalaşdırılmışdır. Bu modelə əsasən, ölkəmizdə birinci instansiya, apelyasiya və kasasiya instansiyalı üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir. Üçpilləli məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etməklə, işlərə birinci instansiya qaydasında baxılmasına, sonra hüquqa və fakta görə apelyasiya qaydasında yoxla-

nılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kasasiya qaydasında yenidən baxılmasına imkan yaradır. Bu sistem birinci instansiya məhkəməsinin buraxdığı hər hansı səhvin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə düzgün və obyektiv həllinə şərait yaratmış olur.

Avropa ailəsinin tamhüquqlu üzvünə çevrilmiş Azərbaycanda son illər insan hüquq və azadlıqlarının daha etibarlı təminatına yönəlmiş bir sıra səmərəli tədbirlər həyata keçirilmiş, 2002-ci ilin 24 avqustunda ümumxalq referendumu ilə ölkə Konstitusiyasına edilmiş dəyişikliklərə əsasən, Ali Məhkəməyə və Respublika Prokurorluğuna da qanunvericilik təşəbbüsü ilə çıxış etmək hüququ verilmiş, habelə vətəndaşların Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək imkanı əldə edilmişdir. Məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar ölkənin Avropa standartlarına uyğun demokratik və hüquqi dövlət quruculuğu sahəsində inkişafı ilə bağlı vahid strategiyanın və məsələnin kompleks həllinə yönəlmiş siyasi iradənin mövcudluğundan xəbər verir.

Prezident səlahiyyətlərinin icrasına "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deməklə başlayan ölkə başçısı İlham Əliyev ulu öndərimizin möhkəm əsaslarla təməlini qoyduğu məhkəmə-hüquq islahatlarının dövrün tələblərinə uyğunlaşdırılmasını, ədalət mühakiməsinin keyfiyyətcə müasirləşdirilməsini və səmərəliliyinin artırılmasını mühüm vəzifələr kimi müəyyənləşdirmişdir. Son illər ardıcıllıqla davam etdirilən məhkəmə-hüquq

islahatları Azərbaycanda qanunun aliliyinin təmin olunmasına, məhkəmə hakimiyyətinin nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapmasına, ədalət mühakiməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkilinə, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunmasına, peşəkar hakim korpusunun formalaşdırılmasına, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsinə və digər məsələlərin həllinə yönəlmişdir. Bu məqsədlə hələ 2004-cü ilin dekabr ayında "Məhkəmə-Hüquq Şurası haqqında" Qanun qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" Qanuna hakimlərin seçim prosedurunun daha da təkmilləşdirilməsini, sui-istifadəyə, qanun pozuntusuna yol vermiş hakimlər barəsində intizam məsuliyyətinin gücləndirilməsini, məhkəmələrin işində şəffaflığın təmin edilməsini nəzərdə tutan zəruri dəyişikliklər edilmişdir. Bu dəyişikliklərdən irəli gələn təxirəsalınmaz tədbirlərin icrası məqsədilə məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən yeni qurum – Məhkəmə-Hüquq Şurası yaradılmışdır.

Ölkə başçısı İlham Əliyevin 19 yanvar 2005-ci il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə" fərmanı isə vətəndaş hüquq və azadlıqlarının təminatı baxımından daha əlverişli imkanlar müəyyənləşdirir. Cəmiyyətin sosial sifarişini əks etdirən bu fərman vətəndaşlarda haqlı narazılıq doğuran bir sıra prob-

lemlərin məcmu həlli baxımından yeni iqtisad və apelyasiya məhkəmələrinin yaradılmasını, eləcə də mövcud məhkəmələrdə hakimlərin sayının artırılmasını nəzərdə tutur.

Ədalət mühakiməsinin düzgün, səmərəli və qanunamüvafiq qaydada həyata keçirilməsinin başlıca prinsipi məhkəmələrdə işlərin tam, hərtərəfli, obyektiv araşdırılmasıdır. Bu prosedurun qanunla müəyyən olunmuş müddətdə başa çatdırılması həm işlərə baxan məhkəmələr, həm də məhkəmə çəkişmələrində bilavasitə iştirak edən fiziki və hüquqi şəxslər üçün son dərəcə vacib məsələlərdəndir. Hakimlərin icraatında olan işlərin son illər sürətlə çoxalması onların tam və obyektiv araşdırılmasını, qanunla müəyyən olunmuş müddətdə baxılmasını, habelə tam ədalətli qərarın qəbulunu praktik cəhətdən qeyrimümkün edirdi. Bəzən gün ərzində iki-üç işə baxmaq məcburiyyətində qalan hakimin qanunun tələblərinə tam cavab verən qərar çıxarmasından danışmaq qətiyyən mümkün deyildi. Ölkənin aktiv demokratikləşmə fazasına qədəm qoyduğu, hüquqi dövlət quruculuğunun geniş vüsət aldığı bir şəraitdə belə neqativ tendensiyaların mövcudluğu vətəndaşların məhkəmələrə inamsızlığına və etimadsızlığına rəvac verir, haqlı narazılıq doğururdu. Fərmanda vətəndaşların mənafeyi önə çəkilərək bu problemin həlli üçün Məhkəmə-Hüquq Şurasına məhkəmələrdə hakimlərin sayının artırılması ilə əlaqədar təkliflər hazırlamaq tövsiyə olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev son dörd ildə regionların sürətli sosial-iqtisadi inkişafı, paytaxtla bölgə-

lərin inkişaf tempindəki fərqin aradan qaldırılması naminə həyata keçirilən kompleks tədbirlərin daha uğurlu nəticələr verməsi baxımından məhkəmə-hüquq islahatlarının əhəmiyyətini də ciddiliklə nəzərə alır. Məhkəmə sisteminin müasirləşdirilməsinin hazırkı mərhələsində regionların sosial-iqtisadi şəraitində əhalinin hüquq institutlarına, hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılığa səbəb olan sui-istifadə, süründürməçilik və digər neqativ halların aradan qaldırılması, məhkəmələrə inamın artırılması, onların fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiqi, habelə məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması nəzərdə tutulur. Prezident İlham Əliyevin 19 yanvar 2005-ci il tarixli fərmanı ilə Bakı, Gəncə, Sumqayıt, Əli Bayramlı və Şəki şəhərlərində 5 yeni Apelyasiya Məhkəməsinin, Naxçıvan şəhərində Ağır Cinayətlərə dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının Məhkəməsinin, habelə Bakı, Sumqayıt və Şəki şəhərlərində yerli iqtisad məhkəmələrinin yaradılması da bu istiqamətdə atılmış çox ciddi addımlardır.

Hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən ictimai mühit və normativ-hüquqi baza yaradılmışdır. Bu gün Azərbaycanda Qərb standartlarına cavab verən kütləvi informasiya vasitələrinin mövcudluğu məhz bu reallığın nəticəsidir. Son illər Azərbaycanda mətbuat

azadlığı sahəsində olduqca ciddi islahatlar aparılıb. Bu siyasət Azərbaycan mətbuatının gələcək inkişafının istiqamət və perspektivlərini müəyyənləşdirib, ölkədə çoxlu sayda müstəqil mətbuat orqanlarının fəaliyyətə başlamasına təkan verib. Görülən tədbirlər nəticəsində Azərbaycanda senzura ləğv edilib, yeni televiziya kanalları fəaliyyətə başlayıb, azad mətbuatın hüquqi-normativ bazası formalaşıb və s.

Sözsüz ki, Azərbaycanda azad söz və azad mətbuatın bərqərar olması Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ilə qədər qeyri-müəyyənlik içərisində çapalayan, siyasi təzyiqlərə məruz qalan, "senzor qayçısının" amansız həmlələrinə məruz qalan ölkə mətbuatı Heydər Əliyevin siyasi iradəsi nəticəsində həyata yenidən vəsiqə aldı. Heydər Əliyev başa düşürdü ki, mətbuat üçün hakimiyyətlə işləmək nə qədər vacibdirsə, hakimiyyət üçün də mətbuat bir o qədər lazımlıdır. Bu iki element siyasi sistemin ayrılmaz komponentləridir. Ümummilli lider KİV-in ölkənin demokratik inkişafındakı rolunu çox böyük ustalıqla qiymətləndirməyi bacarırdı. Heydər Əliyev ictimaiyyətə doğru informasiyanı yalnız kütləvi informasiya vasitələrinin köməyi ilə çatdırmağın səmərəsini, müstəqil dövlətin qurulmasında KİV-in rolunu Heydər Əliyev çox gözəl bilirdi və hakimiyyətdə olduğu illər ərzində bu reallığa daim həssaslıqla yanaşırdı.

Heydər Əliyevin mətbuata münasibəti daim demokratik inkişafın zəruri tələblərinə söykənirdi. Təsadüfü deyil ki, 1998-ci il avqustun 6-da Heydər Əliyev "Ölkədə

söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı. Bu fərmanın bir bəndiylə mətbuatda dövlət sirlərini mühafizə edən baş idarə ləğv olundu. Bu senzuranın ləğvi demək idi. Həmin vaxtdan etibarən sözsüz ki, Azərbaycan mətbuatında yeni bir mərhələ başlandı. Eyni zamanda, Heydər Əliyevin hakimiyyətinin ilk illərində yerli jurnalistlərlə əlaqələr demək olar ki, yox səviyyəsində idi, məmur-jurnalist münasibətləri mövcud reallıqlara əsaslanmırdı. O, bu problemi də tez bir zamanda həll etdi. Mütəmadi olaraq mətbuatla ünsiyyətlər qurdu, cəmiyyətə media ilə işləmək vərdişlərini aşıladı.

Milli mətbuat günü münasibəti ilə ulu öndərin 2000-ci il iyulun 21-də jurnalistlərlə görüşündən cəmi 9 gün sonra Heydər Əliyevin "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" imzaladığı sərəncam da bu gün öz dəyər və əhəmiyyətini saxlamaqdadır. Həmin sərəncamla kütləvi informasiya vasitələrinin maddi-texniki və maliyyə bazasının gücləndirilməsi, söz, mətbuat və fikir azadlığı üçün geniş imkanlar yaradılması məqsədi güdən 5 maddədən ibarət fəaliyyət proqramı müəyyən edildi. Bu tapşırıqlar və tövsiyələr sırasında kütləvi informasiya vasitələrinin rəhbərləri və jurnalist təşkilatları ilə birlikdə müstəqil mətbuatın formalaşdırılması və inkişafında xüsusi xidməti olan redaktorların, aparıcı qəzet redaksiyalarının mükafatlandırılması, istedadlı jurnalistlərə prezident təqaüdləri verilməsi üçün təkliflər və s. barədə mühüm

göstərişlər də var idi. Mətbuatımızı mənfur "inkvizisiya"dan Heydər Əliyev qurtardı. Bu böyük insanın xalqın tələbi ilə hakimiyyətə qayıtması, sözün əsl mənasında, mətbuatın da qurtuluş günü oldu. Etiraf etməliyik ki, bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı azad mətbuata hörmət olmadan mümkün deyil. Mübaliğəsiz deyə bilərik ki, Azərbaycanda mətbuat azadlığı öz səviyyəsinə görə dünyanın ən demokratik ölkələri ilə bir sırada durur. Təbii ki, bu haqqın təmin olunmasında İlham Əliyevin siyasi iradəsi müstəsna rol oynamaqdadır.

Belə ki, Prezident İlham Əliyevin ötən dövrdə qəzetlərin 2001-ci il dekabrın 31-dək olan borclarının dövlət büdcəsindən ödənilməsi haqqında imzaladığı sərəncam ölkəmizdə azad sözün və müstəqil mətbuatın inkişafına dövlət qayğısının bariz nümunəsidir. Qeyd edək ki, ölkə rəhbərliyi bu istiqamətdə məqsədyönlü və ardıcıl siyasət aparır. Belə ki, qəzetlərin maddi problemlərinin həll edilməsi məqsədi ilə 27 dekabr 2001-ci il və 9 yanvar 2003-cü illərdə ümummilli lider Heydər Əliyevin imzaladığı sərəncamlara əsasən mətbu orqanların "Azərbaycan" nəşriyyatına olan borclarının ödənilməsi vaxtı uzadılmışdı. Dövlət başçısı İlham Əliyev isə son sərəncamı ilə 2001-ci ilə kimi olan borc yükünü qəzetlərin üzərindən tamamilə götürdü və bununla da ulu öndər Heydər Əliyev ənənələrinə sadiqliyini isbatladı. Bununla yanaşı, bir müddət əvvəl Avropa Şurası və Prezident Aparatının təşəbbüsü ilə keçirilən "Hakimiyyət-Media Dialoqu" ölkədə azad sözün bərqərar olması və inkişafı sahəsində Heydər Əliyev

ənənələrinin uğurla davam etdirildiyini nümayiş etdirir.

İlham Əliyevin ən başlıca tələblərindən biri də ondan ibarətdir ki, dövlət orqanlarının işində şəffaflığın təmin olunması üçün azad mətbuatın imkanlarından səmərəli istifadə olunmalıdır: "Nazirlərə, hökumət nümayəndələrinə tapşırıq vermişəm ki, mətbuatla işləsinlər, müsahibə versinlər, bizim siyasətimizi izah etsinlər. Azərbaycan reallığını, gerçəkliyini əhaliyə çatdırsınlar". Təbii ki, bütün bunlar bir daha sübut edir ki, ölkədə azad mətbuat mövcuddur və onun mövcudluğunun qarşısını heç bir qüvvə ala bilməz. Çünki bu mövcudluq sosial sifarişə, ən əsası ilə Prezident İlham Əliyevin siyasi iradəsinə söykənir.

Qeyd edək ki, ölkədə demokratiyanın inkişafı sahəsində aparılan islahatlar ölkənin seçki praktikasının da mütəmadi olaraq təkmilləşdirilməsi ilə müşayiət olunur. Bu baxımdan, 6 noyabr 2005-ci il parlament seçkilərinin çağdaş tariximizdə çox mühüm bir proses və hadisə olduğunu, seçkinin nəticələrinin Avropa strukturlarına inteqrasiya siyasətinin tərkib hissəsinə çevrildiyini, həqiqətən də, parlament seçkilərinin azad, demokratik, beynəlxalq standartlara və normalara uyğun keçirilməsi üçün bütün mexanizmlərin yaradıldığını, demokratik siyasi mübarizə üçün zəruri olan bütün faktorlar: sivil seçki qanunları və praktikası, sərbəst təbliğat mühiti və s. təmin edildiyinə inamı ötən dövrün reallıqları daha da qüvvətləndirir. Sözsüz ki, əsas məsələ, qanunverici orqana təmsilçilik uğrunda mübarizə aparan qüvvələrin yaradılmış bu əlverişli imkanlardan necə və hansı səviyyədə istifadə etməsi idi.

Qısaca xatırladaq ki, həqiqətən də, 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiya ölkədə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirmişdir. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra 1993-cü ilin oktyabrından bəri Ölkəmizdə keçirilmiş seçkilərin əvvəlkilərlə müqayisədə ölkəmizin seçki sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması yolunda irəliyə doğru addım hesab edilməsi heç də təsadüfü deyil.

Seçkinin nəticələri həm də onu sübut etdi ki, Azərbaycan seçicisi kifayət qədər ayıq-sayıq və hadisələrdən baş çıxarmaq gücündədir. Təbii ki, radikal qüvvələr seçkilər dövründə baş verənlərə reallıq hissini əsas götürməklə proseslərə loyal yanaşmaq və hər şeyi öz adı ilə çağırmaq əvəzinə, inkarçılıq yolu tutdular. Lakin müxalifətin belə ifrat inkarçılığı və radikalizmi birdən-birə yaranmayıb. Həmin qüvvələrin partiya, qrup kimi formalaşdığı mərhələni nəzərə alsaq, onların bu mənfi siyasi keyfiyyətinin köklərinin haradan gəldiyini anlamaq çətin olmaz. Hazırda müxalifətdə olan qüvvələr 1990-cı illərin əvvəllərində siyasət meydanına çıxmış siyasi özfəaliyyətin təmsilçiləri-dir. Onları o dövrdə yalnız bir məqsəd birləşdirirdi – köhnə sistemi dağıtmaq. Dağıdıcılıq xisləti həmin dövrdən ötüb keçən 14-15 ildə də onları tərk etməyib. Bu adamların çoxu uzunmüddətli dövlət idarəçiliyində olmayıb. Hakimiyyətdə olanda da, özlərinin təhtəlşüurunda ilişib qalmış impulsların – dağıdıcılıq instinktinin təsiri altında fəaliyyət göstəriblər.

Lakin o da məlumdur ki, İlham Əliyevin prezidentliyi ölkənin beynəlxalq əlaqələri baxımından keyfiyyətcə daha effektiv zamana təsadüf edir. İndi Azərbaycan nə beynəlxalq tanınma həsrətində olan, nə ətrafında formalaşdırılmış antitəbliğat maneəsini aşıb keçməyə çalışan, nə də dünyaya çıxış yolları arayan dövlətdir. Azərbaycan son on ildə ciddi əsaslara malik, balanslaşdırılmış xarici siyasət kursu hesabına, üstəlik məlum 11 sentyabr hadisələrindən sonra formalaşan yeni atmosferli beynəlxalq auranın şərtlərinə uyğun olaraq strateji əhəmiyyətli bölgədə yerləşən regional güc mərkəzidir. Azərbaycan artıq daxildə dövlətçiliyimizin inkişafı, sosial rifahın təminatı, xarici siyasətdə isə milli maraqların ödənməsi üçün təsirli vasitəyə malikdir. Şübhəsiz ki, İlham Əliyevin prezidentliyinə təsadüf edən ən fundamental amil köhnə ictimai düşüncə tərzinin tamamilə inkarı və yeni siyasi baxışlar sisteminin formalaşması mərhələsinin başlanmasıdır. Ümumiyyətlə, İlham Əliyevin hakimiyyəti bütövlükdə yenilik məfhumu ilə sıx surətdə bağlıdır. Əslində, 6 noyabr 2005-ci il parlament seçkisinin nəticələri Azərbaycan siyasəti üçün ənənəvi müxalifətçilik, populizm, radikallıq, dağıdıcılıq, qaraguruhçuluq, inqilabçılıq, destruktivlik tendensiyalarının aktuallığını itirməsi demək idi.

Seçkilər öncəsi ölkə vətəndaşları ölkədə siyasi sabitlik, sülh və əmin-amanlıq, sosial-iqtisadi inkişaf arzusunda olduqları halda, aqressiv müxalifət təşviqat mərhələsində bu reallığı nəzərə almadı. Onlar seçkilərə hazırlaşmaq, seçicilərlə normal iş aparmaq, platformalarını açıqlamaq

əvəzinə narıncı qalstuk vurub ifrat inkarçılıq, barışmazlıq mövqeyi tutdular, yalan vədlərlə aldatdıqları məhdud saylı tərəfdarlarını küçələrə çıxardılar. Lakin ictimai-siyasi reallıq ondan ibarətdir ki, radikal müxalifət partiyaların siyasi taktikası və strategiyası sivil meyarlarla əsla uzlaşmadı. Radikal müxalifəti parlament seçkisində məğlubiyyətə gətirib çıxaran digər bir amil isə elektoratla bağlıdır.

Ümumilikdə, Azərbaycan elektoratını siyasi sistemdəki qüvvələrə simpatiya baxımından təsnif etsək, şərti olaraq üç böyük elektoral hissəni (iqtidar, müxalifət və neytral elektorat) müəyyənləşdirə bilərik. İqtidaryönlü elektorat mövcud hakimiyyəti və Prezident İlham Əliyevi dəstəkləyir. Bu elektoral massiv daxilində heç bir parçalanma tendensiyası yoxdur və buna gələcək seçkilər baxımından yanaşdıqda da kifayət qədər stabil elektoral resursdur. Məhdud saylı müxalifətyönlü elektorat isə bir neçə siyasi qüvvə arasında bölünüb. Deməli, ziddiyyət bəri başdan aydın idi, eyni elektorata bir neçə qüvvə birdən iddia edirdi.

İstər siyasi, istərsə də, regional təmsilçilik baxımından sözügedən seçici kütləsi çox rəngarəngdir. Bundan başqa, müxalifətyönlü elektoral massiv daxilində kifayət qədər ciddi əhəmiyyət kəsb edən dərin ziddiyyətlər də var və bu elektoratın siyasi-ideoloji, regional, sosial təbəqələr səviyyələrində də hiss olunmaqdadır. Nəhayət, üçüncü və şübhə yoxdur ki, ən geniş massiv neytral elektoratdır. Neytral elektoratın bir qisminin mövcud sosial vəziyyətini qənaətbəxş sayaraq siyasətdən uzaq durmağa çalışan, az

qismini isə siyasiləşməmiş sosial narazılar kimi səciyyələndirmək olar. Azərbaycan seçicisi isə öz seçimini demək olar həmişə rasional-instrumentar motivasiyaya uyğun edir, yəni seçici müxalifətin hakimiyyətə gələcəyi təqdirdə bunun bilavasitə seçicinin vəziyyətinə necə təsir göstərəcəyini hesablayır. Məhz bu motivasiya xalqın və dövlətin gələcəyinə hakimiyyət və müxalifətin bir-birindən kəskin şəkildə fərqlənən münasibətləri konseptual yanaşma tərzi sonda elektoratın öz seçimində haqlı olduğunu birmənalı olaraq nümayiş etdirdi. Qurucu və stabil inkişaf konsepsiyası xaos, anarxiya və dərəbəyliyi ehtiva edən platformaya qalib gəldi.

Nəticədə, 6 noyabr 2005-ci il parlament seçkisində ümummilli lider Heydər Əliyev siyasi kursuna və bu kursun layiqli davamçısı cənab İlham Əliyev komandasına səs verən xalq ölkəmizin sosial-iqtisadi və demokratik inkişafına yeni bir vüsət vermiş oldu. Təsadüfi deyil ki, böyük siyasi irsin daşıyıcısı olan dövlət başçısı İlham Əliyevin seçkilərdən sonra imzaladığı bir sıra fərmanlar aparılan siyasətin sosial-iqtisadi inkişafı ilə bağlı olması respublika iqtisadiyyatının intensiv inkişaf edəcəyinin, nəticə etibarilə əhalinin sosial müdafiəsini getdikcə daha artıq dərəcədə gücləndiriləcəyinin təsdiqidir. Eyni zamanda, 6 noyabr 2005-ci il parlament seçkisindən sonra sosial-iqtisadi həyatdakı yüksəliş ardıcıl xarakter almış, qazanılmış yeni nailiyyətlərlə əlamətdar olmuş, bu prosesləri əyani nümayiş etdirən makroiqtisadi göstəricilər isə əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır.

Seçkinin nəticələri onu da göstərdi ki, Azərbaycan hakimiyyəti beynəlxalq standartlara uyğun, eyni zamanda, ölkənin hazırkı inkişaf mərhələsini və özünəməxsus xüsusiyyətlərini nəzərə alan seçki keçirmək iqtidarındadır və bunun üçün güclü iradəyə malikdir. Seçkinin nəticələri göstərdi ki, Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real gücə və nüfuza malik, sivil, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil Azərbaycan dövlət quruculuğu prosesində böyük əməyi olan, ölkənin inkişafı ilə bağlı real və fundamental konsepsiyaya malik iqtidar mövcuddur. Ümummilli lider Heydər Əliyev ideologiyasını rəhbər tutan hakimiyyət komandası Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı yeni, möhtəşəm uğurlara aparmaq iqtidarındadır.

2005-ci ilin 6 noyabr seçkiləri nəticə etibarı ilə Heydər Əliyev siyasi kursunun alternativsizliyini təsdiqləyən mühüm hadisəyə çevrilməklə, ümumilikdə, xalqın bu kursun davam etdirilməsində nə qədər maraqlı olduğunu növbəti dəfə aşkarladı. 2005-ci ilin parlament seçkiləri sübut etdi ki, Azərbaycanda sivil, demokratik, hüquqi dövlət quruculuğu prosesi artıq dönməz xarakter daşıyır və bu prosesə mane ola biləcək qüvvə yoxdur. Hakimiyyət cəmiyyətin liberallaşması, demokratik dəyərlərin bərqərar olması, vətəndaş cəmiyyətinin qurulması, Azərbaycanın Qərbə, Avroatlantik məkana inteqrasiyası vasitəsilə sivil dünyanın bir hissəsinə çevrilməsi istiqamətində müstəqil və məqsədyönlü siyasət aparır. Hakimiyyət həm daxili,

həm də xarici siyasətdə impulsiv, ölçülüb-biçilməmiş qərarların tərəfdarı deyildir. Bütün məsələlər üzrə prinsipial qərarlar təhlildən sonra qəbul olunur və ölkənin, regionun davamlı inkişafına xidmət edir. Seçki prosesi göstərdi ki, Azərbaycan hakimiyyəti beynəlxalq standartlara uyğun, eyni zamanda, ölkənin hazırkı inkişaf mərhələsini və özünəməxsus xüsusiyyətlərini nəzərə alan seçki keçirmək gücündədir. Həm də seçki prosesi göstərdi ki, Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real gücə və nüfuza malik, sivil, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil dövlət quruculuğu prosesində böyük əməyi olan, ölkənin inkişafı ilə bağlı real və fundamental konsepsiyaya malik iqtidar mövcuddur. Heydər Əliyev ideologiyasını rəhbər tutan hakimiyyət komandası Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı yeni, möhtəşəm uğurlara aparmaq gücündədir.

Prezident İlham Əliyev demokratik inkişafın tərkib hissəsi kimi cəmiyyətdə humanizm ideyalarının da geniş tətbiqini və təbliğini əsas tutur. Təsadüfi deyil ki, dövlət başçısı son dörd ildə 12 əfv fərmanı imzalamaqla sübut etdi ki, onun dövlət idarəçiliyi vətəndaşların maraq və mənafelərinə və humanizm prinsiplərinə, vətəndaş həmrəyliyinə əsaslanır.

Qeyd edək ki, 1993-cü ilin iyun ayında ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra ölkəmizdə dövlətimizin əsas məramı və məqsədi vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı təminatına

yönəlmiş, daxili siyasətdə humanizm əsas fəaliyyət prinsipi olmuşdur. 1995-2004-cü illərdə imzalanmış amnistiya və əfv fərmanları dövlətin öz vətəndaşlarının hüquq və azadlıqlarına hörmətlə, qayğı ilə yanaşmasının, cinayət törətmiş şəxslərə təyin olunmuş cəzaların insanlara əzab vermək və zərər yetirmək deyil, onların islah olunması məqsədi daşımasına xidmət etdiyinin aydın ifadəsidir. 1995-ci ildən keçən zaman ərzində dövlətimiz atdığı addımları və qəbul edilən qərarları ilə bütün dünyaya Azərbaycanda dövlət hakimiyyətinin yeganə mənbəyinin xalqı olduğunu, qəbul edilmiş bütün qərarların yalnız və yalnız Azərbaycan xalqının mənafeyinə, dövlətçiliyimizin inkişafına, müstəqilliyimizin daha da möhkəmləndirilməsinə xidmət etməsini təsdiq etmişdir. 1995-2003-cü illərdə ümummilli lider Heydər Əliyevin imzaladığı 32 əfv fərmanı ilə 3102 məhkum cəzasının qalan hissəsini çəkmədən azad olmuş, ölkə başçısının təşəbbüsü əsasında qəbul edilmiş 7 amnistiya haqqında qanun 77199 nəfər şəxs barəsində tətbiq olunmuşdur. 2003-cü ildən ötən dörd il ərzində 12 əfv fərmanı imzalamaqla İlham Əliyev Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarına, insanpərvərlik və humanizm prinsiplərinə söykənən Heydər Əliyev ənənələrinə sadiq olduğunu nümayiş etdirdi. Törətdikləri cinayətlərin ağırlığına, ictimai təhlükəlilik dərəcəsinə və xarakterinə, eyni zamanda bütün vətəndaşlarımız tərəfindən onların əməllərinin haqlı olaraq qınanmasına baxmayaraq, Prezident böyük humanistlik göstərərək həmin şəxsləri əfv etmiş, vətəndaşlara olan qayğı və diqqətin hər

cür narazılıqdan və kin-küdurətdən yüksəkdə dayandığını sübut etmişdir. Bu baxımdan, hər bir şəxs cinayət törətdiyi halda, cəzanın labüdlüyünü birmənalı şəkildə aydın bilməlidir. Onu da qeyd edək ki, hakimiyyət üçün ən əziz hüquq məhz insan həyatıdır. Belə ki, 1993-cü ildən respublikamızda ölüm cəzasının tətbiqi üzərinə qadağa qoyuldu, 10 fevral 1998-ci il tarixdə isə ölüm cəzası tamamilə ləğv olundu. Şərqdə ilk dəfə məhz bizim respublikamızda ölüm cəzasının ləğv edilməsi dünyada böyük əks-səda doğurdu, hamını heyran qoydu.

Beləliklə, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş, bu gün isə Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasi islahatların mahiyyəti belə bir reallığı ifadə edir ki, vətəndaş cəmiyyətinin yaradılması və möhkəmləndirilməsi, demokratikləşmə prosesinin genişləndirilməsi, hüquqi dövlət quruculuğu dövlətimizin hərtərəfli inkişafı üçün əsas şərtlərdir.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qüdrətlənməsi, beynəlxalq miqyasda nüfuzunun artması üçün hər bir azərbaycanlı vətəndaşlıq mövqeyini ortaya qoymağı, vətənin təəssübkeşi olmağı özünə müqəddəs borc bilməlidir. Bu cəmiyyətin çağırışı, başqa sözlə desək, sosial sifarişidir. Təqdirəlayiq haldır ki, Yeni Azərbaycan Partiyası yeni dövr üçün xalqın bu sosial sifarişi qarşısında öz məsuliyyətini dərk edərək Prezidentin həyata keçirdiyi demokratik islahatların ən fəal iştirakçısına çevrilmişdir.

# YAP AZƏRBAYCANIN YENİ İNKİŞAF MƏRHƏLƏSİNİN HƏRƏKƏTVERİCİ QÜVVƏSİDiR

Şübhəsiz ki, ötən illər ərzində Azərbaycanda demokratik, sivil dəyərlərə söykənən vətəndaş cəmiyyəti quruculuğu, iqtisadiyyatın inkişaf etdirilməsi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması, ölkəmizin haqq işinin beynəlxalq aləmdə tanınması və dəstəklənməsi istiqamətində görülmüş işlər və qazanılmış uğurlarda ümummilli liderimiz Heydər Əliyevin banisi olduğu Yeni Azərbaycan Partiyasının rolu şübhəsizdir.

Partiyamız ölkəmizin tərəqqisi və inkişafı naminə Heydər Əliyev ideyalarını rəhbər tutaraq bu gün öz inkişafının yeni tarixi dövrünü yaşayır. Ötən 15 il ərzində nail olduğumuz uğurlar, əldə etdiyimiz nailiyyətlər bir daha təsdiqlədi ki, 1992-ci il noyabrın 21-də ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə belə bir siyasi təşkilatın yaradılması Azərbaycan xalqının sosial sifarişi, cəmiyyətin tələbi idi.

Bu gün YAP öz qarşısında duran vəzifələri böyük uğurla həyata keçirir, Yeni Azərbaycan Partiyası parlament tipli sağ mərkəzçi siyasi partiyadır. Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində öz Proqramına,

Nizamnaməsinə uyğun fəaliyyət göstərən YAP hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu ideyalarını həyata keçirmək, ölkədə sivil dəyərlər, demokratik prinsiplər əsasında hərtərəfli inkişafa nail olmaq naminə, insan hüquq və azadlıqlarının təminatı, liberal dəyərlərə söykənən güclü, sosialyönümlü iqtisadiyyat, sosial ədalət və hər bir Azərbaycan vətəndaşının təminatlı rifahı uğrunda mübarizə aparır.

Bütün bu qeyd olunanlarla yanaşı, YAP üzvləri üçün İlham Əliyev fenomenini zəruri ictimai-siyasi hadisəyə çevirən amillərin ümumi konturları mövcuddur və bunları aşağıdakı ardıcıllıqla sıralamaq olar: siyasi prinsiplərə SAdiqlik; Heydər Əliyev siyasi kursuna bağlılıq; intellektual imkanlar və siyasi istedad; cəmiyyət üçün açıq siyasətçi olması və fəaliyyətindəki şəffaflıq; tolerantlıq. Bütün bu amillər Prezident İlham Əliyevin YAP-nın liderinə çevrilməsinə zəmin yaratmış komponentlər kimi nəzərdən keçirilməlidir.

Sözsüz ki, YAP gələcəkdə də Heydər Əliyev ideyalarının dönmədən həyata keçirilməsində öz sözünü deyəcək. Heydər Əliyev elə nadir tarixi şəxsiyyətdir ki, onun siyasi və dövlətçilik fəaliyyəti hələ onillər boyu araşdırılacaq. Çünki bu görkəmli siyasi xadimin ümummilli lider kimi Azərbaycan tarixində analoqu olmayıb və Heydər Əliyev gələcəkdə də bir kiminləsə müqayisə edilməyəcək.

YAP milli birliyin möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı faktoruna çevrilməsi istiqamətində mühüm işlər görür. Bütün bu

işlər YAP-ın Azərbaycan cəmiyyətindəki mövqeyini möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini artırır.

Yeni Azərbaycan Partiyası artıq 14 ildir ki, hakimiyyətdədir. Bu müddət ərzində partiyamızın, xüsusən də, onun liderinin Azərbaycan dövlətçiliyinin qorunmasında və möhkəmlənməsində böyük xidmətləri olub. Həmin xidmətləri sadalamağa ehtiyac görmürəm. Yeni Azərbaycan Partiyası yaranarkən Azərbaycanı üzləşdiyi çətin durumdan çıxarmağı qarşısına məqsəd qoymuşdu və bu məqsədlə də sağlam qüvvələr partiyanın ətrafına toplandı. Tam əminliklə hesab edirəm ki, partiyamız qarşısına qoyduğu bu məqsədə nail olub.

Həmin vəzifələrdən biri də partiyanın proqramında əksini tapdığı kimi cəmiyyətdə sosial ədalətin təmin olunması, bazar iqtisadiyyatının qurulması, iqtisadiyyatın liberallaşdırılması, ən başlıcası isə Azərbaycan vətəndaşı üçün layiq olduğu həyat tərzinin qurulmasıdır. Ümummilli lider Heydər Əliyevin YAP-ın proqramında dəqiqliklə müəyyən etdiyi həmin prinsipləri bu gün uğurla həyata keçirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirsək, dövlət başçımızın fəaliyyətində bu şərtlərin özünü necə dəqiqliklə doğrultduğunu görərik. Bu şərtlərdən ən mühümü, şübhəsiz, nizamı çox tez-tez pozulan qlobal siyasət arenasının sərt müdaxilələri qarşısında uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlik nümayişidir. Azərbaycan Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasət nə-

ticəsində son illər əldə edilən uğurlar da elə bu amilə əsaslanır.

Etiraf etməliyik ki, müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında başlanmış iqtisadi islahatlar Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı İlham Əliyev hələ andiçmə mərasimindəki çıxışı zamanı ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda sosial, iqtisadi, siyasi, hüquqi, hərbi, mədəni, humanitar və digər sahələrdə başlanmış fundamental islahatları davam etdirəcəyini, ölkənin hər bir vətəndaşının Prezidenti olacağını bəyan etmişdi.

Son dörd illik fəaliyyəti dövlət başçısının verdiyi bütün vədlərin sırf əməli fəaliyyətə və praqmatizmə söykəndiyini bir daha təsdiqlədi. İlk növbədə bəlli oldu ki, İlham Əliyev yaxın beş ildə ölkənin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. Ən başlıcası, “Əsl siyasət real, konkret iş görməkdən ibarətdir” – deyən Azərbaycan Prezidenti bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün ciddi siyasi iradəyə, qətiyyətə və əzmkarlığa malikdir. Eyni zamanda, belə bir reallıq da öz əksini tapdı ki, İlham Əliyev öz dövlətçilik konsepsiyasını ulu öndər Heydər Əliyevin müəllifi olduğu dövlətçilik kursu üzərində formalaşdırır. Azərbaycan Prezidentinin istər ölkədə, istərsə də respublikamızın hüdudlarından kənarda baş ve-

rən hadisə və proseslərə münasibəti birmənalı və dəqiqdir. Dövlət başçısının Azərbaycan üçün əhəmiyyətli məsələlərə reaksiyası heç zaman gecikmir. Bütün bunlar İlham Əliyev haqqında ictimai rəydə daha dolğun təsəvvürün yaranmasına rəvac verir. Hər kəs Azərbaycanın dövlət başçısını yüksək dəyərlərin daşıyıcısı kimi qəbul edir, qiymətləndirir.

İlham Əliyevin Azərbaycanı dinamik sosial inkişafa, tərəqqiyə, davamlı sabitliyə və yüksəlişə xidmət edən strateji siyasi kursu layiqincə davam etdirəcəyi onun proqram xarakterli ilk iqtisadi fərmanından bəlli olmuşdur. 24 noyabr 2003-cü il tarixdə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzalayan İlham Əliyev bir ictimai-siyasi formasiyadan digərinə keçidin doğurduğu obyektiv problemlərin sürətli həlli istiqamətində kompleks tədbirlərin həyata keçirilməsinə rəvac vermişdir. Məlum olduğu kimi, fərmanda ölkə iqtisadiyyatında müşahidə olunan dinamik inkişafın sürətləndirilməsi yolları nəzəri-praktiki və konseptual əsasda göstərilmişdir. Sənədə əsasən, aidiyyatı dövlət strukturları iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına, xüsusən də, işsizliyin azaldılmasına, gənclərin faydalı məşğulluğunun artırılmasına, regionların bərabər inkişafına, qeyri-neft sektorunun gücləndirilməsinə, müəssisələrdə beynəlxalq standartlara cavab verən məhsulların istehsal olunmasına və onların dünya bazarına çıxarılmasına, aqrar sektorda islahatların başa çatdırılmasına yönəlmiş bir sıra proqramlar hazırlayıb Azərbaycan Prezidentinə

təqdim etmişlər. Bundan əlavə, neft-qaz sənayesində gəlirlərin idarə olunması üzrə uzunmüddətli strategiyanın işlənib hazırlanması, Dövlət Neft Fondundan ayrılan vəsaitin şəffaflığını qorumaq məqsədilə, onun büdcə xərcləri çərçivəsində ünvanlı istifadəsini təmin edən tədbirlərin görülməsi, əhalinin pensiya təminatının yaxşılaşdırılması, kommunal islahatların aparılması, sahibkarlığın inkişafına mane olan amillərin, o cümlədən, inhisarçılığın aradan qaldırılması, qaçqın və məcburi köçkünlər üçün müvəqqəti qəsəbələrin salınması kimi mühüm məsələlər də fərmanda öz əksini dolğun şəkildə tapmışdır. Digər bir vacib məqam – icra strukturları tərəfindən vətəndaşların zəruri ehtiyaclarına və qanuni tələblərinə diqqətlə yanaşılması məsələsi də fərmanda konkret müddəa ilə təsbit olunmuşdur. Ümumiyyətlə, iqtisadi inkişafın sürətləndirilməsi məqsədi daşıyan bu fərmanın imzalanması ölkə həyatının bütün həyati əhəmiyyətli sferalarında makroiqtisadi göstəricilərin əldə olunmasına xidmət etmişdir.

Beləliklə, İlham Əliyevin prezidentlik fəaliyyətinin təhlili birmənalı olaraq təsdiq edir ki, ötən illər ölkəmizin inkişafında böyük əhəmiyyətə malik, xalqın və dövlətin taleyində əsaslı irəliləyişlərin əldə edildiyi tarixi anlardır. Hələ 2003-cü il oktyabr ayının 1-də Heydər Əliyev Azərbaycan xalqına müraciətində layiqli davamçısının məziyyətləri və peşəkar dövlət xadimi keyfiyyətlərini xatırladaraq qeyd edirdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi

əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli liderin bu sözlərini İlham Əliyev prezidentliyinin 4 ili ərzində tamamilə doğrulda bildi. Ümumilikdə götürdükdə, son illər iqtisadi inkişaf, sosial tərəqqi, effektiv xarici siyasət, sabitliyin qorunub saxlanılması və onun dönməzliyinin təmin edilməsi yönümündə Prezident İlham Əliyevin fəaliyyəti mühüm uğurlarla əlamətdar oldu və xalqımızın tam dəstəyini qazandı. Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar ölkə başçısının xalqın problemlərinə, onun sosial-iqtisadi təminatının yaxşılaşdırılmasına diqqətinin bariz nümunəsidir və atılan hər bir addım bunu sübut edir. Etiraf olunmalıdır ki, XX əsrin sonunda və XXI əsrin başlanğıcında ulu öndər Heydər Əliyevin rəhbərliyi altında dünya ölkələrinin təcrübəsi nəzərə alınmaqla və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində ölkənin sosial-iqtisadi inkişaf strategiyası müəyyən edilmiş və bu, müvəffəqiyyətlə həyata keçirilməkdədir. Bu strategiyanın əsas mahiyyəti bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə sabit sosial-iqtisadi inkişafın təmin olunmasından, əhalinin həyat səviyyəsinin ilbəil yaxşılaşdırılmasından ibarətdir.

Uğurla həyata keçirilən bu strategiya nəticəsində ölkə iqtisadiyyatının strukturu mülkiyyət və təşkilati-hüquqi baxımdan köklü surətdə dəyişdirilmiş, bir sıra mərkəzi və dövlət idarəetmə orqanı ləğv edilmiş, digərlərinin ancaq tənzimləmə funksiyaları saxlanılmaqla təsərrüfat funksiyaları tamamilə dayandırılmışdır. Məlumdur ki, Azərbaycanın iqtisadi inkişafının səviyyəsi onun beynəlxalq aləmdə yerini müəyyən edir və ölkənin müstəqil xarici siyasətinin həyata keçirilməsinə təsir göstərir. Keçən əsrin sonunda güclənən qloballaşma prosesi informasiya, texnologiya, işçi qüvvəsi və kapitalın hərəkəti sahəsində ölkələr arasında mövcud maneələrin azaldılmasına şərait yaratmışdır. Əlbəttə, belə bir şəraitdə ehtiyatların artırılması və eləcə də dünyanın iqtisadi ehtiyatlarının cəlb olunması məqsədilə milli rəqabət qabiliyyətliliyin gücləndirilməsi Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Buna görə də, ölkədə investisiya mühitinin yaxşılaşdırılması və yüksək texnologiyaları mənimsəməyə qadir olan iqtisadi sistemin formalaşdırılması sahələrdə işlər daha fəal şəkildə davam etdirilməkdədir.

Məlumdur ki, vətəndaş cəmiyyətinin mühüm göstəricilərindən biri də, məhz ölkədə müstəqil demokratik institutların formalaşması və azad sahibkarlıq subyektlərinin fəaliyyəti üçün normal şəraitin yaradılmasıdır. Özəl sektorun dinamik inkişafı təkcə sosial-iqtisadi yüksəlişi deyil, həm də demokratikləşmə prosesini və vətəndaş hüquqlarının etibarlı qorunmasını təmin edir.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən

genişmiqyaslı iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri də sahibkarlıq sektorunun səmərəli və rəqabətqabiliyyətli fəaliyyətinin təmin olunmasıdır. Bu sferanın sahibkarlığın inkişafı tələblərinə uyğun təkmilləşdirilməsi işgüzar mühitin əlverişliliyini şərtləndirən başlıca amil kimi çıxış edir. Son illər sahibkarların vergi yükünün azaldılması, daxili investisiyaların stimullaşdırılması istiqamətində görülmüş tədbirlər daxili mənbələrdən istifadənin genişlənməsinə gətirib çıxarıb. Ötən müddət ərzində sahibkarlığın inkişafına dövlət yardımı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri olaraq qalmışdır. Sahibkarlığın inkişafı sahəsində qəbul olunmuş dövlət proqramları çərçivəsində ölkə iqtisadiyyatının tənzimlənməsi SAhəsində əhəmiyyətli tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə köməyi sistemi təkmilləşdirilir. Sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atılır. Sahibkarlara zəruri hüquqi, texniki yardım, informasiya və digər xidmətlər göstərən strukturlar formalaşdırılır.

Prezident İlham Əliyevin sahibkarlıq fəaliyyətinə qayğısı sayəsində bu sektorda mühüm inkişaf müşahidə olunmaqdadır. Təsərrüfat subyektlərinin fəaliyyətinə nəzarətedici və yoxlayıcı orqanlar tərəfindən əsassız müdaxilənin aradan qaldırılması, lisenziyalaşdırılan fəaliyyət növlərinin azalması, iqtisadiyyatın liberallaşmasının dərinləşməsi istiqamətində əldə edilən nailiyyətlər bunun göstəricisidir.

Bütün bunların nəticəsi kimi ümumdaxili məhsul istehsalında özəl sektorun çəkisi ildən-ilə artır. Cəmiyyətdə davamlı inkişafın, sabitliyin, mədəni tərəqqinin əsas qarantı kimi çıxış edən orta təbəqənin sırası genişlənir. Yeni iqtisadi ideyalar irəli sürülərək həyata keçirilir. Azərbaycan istehsalı olan məhsulların rəqabət qabiliyyəti yüksəlir. Azərbaycan məhsulu xarici bazara yol tapır.

Azərbaycan təcrübəsinə istinad edən beynəlxalq iqtisadi mərkəzlər üçün belə bir tendensiya da son dərəcə maraqlıdır. Əsas proqnozlarını neft sektoruna aid proseslərlə bağlayan iqtisadçı ekspertlər son illərə qədər belə güman edirdilər ki, neft müqavilələri ilə bağlı işlər başa çatdıqdan, bütün əsas enerji layihələri icra olunduqdan sonra ölkəmizə sərmayə axını səngiyəcəkdir. Amma həyat irəli sürülən proqnozların əksini göstərməkdədir. Azərbaycan bu proses başa çatandan sonra da xarici sərmayəçilər üçün yenə cəlbediciliyini saxlayır. Dünyanın ən tanınmış biznes qurumları, iş adamları bu gün də Azərbaycan iqtisadiyyatının ən müxtəlif sferalarına investisiya yatıraraq iqtisadi mənfəət əldə etmək üçün hökumətə müraciətlər ünvanlayır, yaradılan əlverişli mühitdə öz biznes-planlarını həyata keçirmək imkanı qazanırlar. Bu onu göstərir ki, ölkəmiz x-arici sərmayədarlar üçün təkcə malik olduğu zəngin enerji ehtiyatlarına görə əhəmiyyətli deyil. Möhkəm əsaslara söykənən ictimai-siyasi sabitlik, əlverişli iqtisadi mühit, investisiyalara verilən dövlət təminatları, qeyri-neft sektorunun inkişafı üçün hələ sərf edilməmiş böyük potensial da xarici investorlar üçün ölkəmizin önəmini getdikcə gücləndirir.

Qeyri-neft sektorunun inkişafı, gələcəkdə ziyanlı təzahürlərə yol açmasın deyə, milli iqtisadiyyatımızın neft amilindən asılılığının azaldılması, özəl sektorun inkişafına diqqət Azərbaycan Prezidentinin müvafiq dövlət və hökumət strukturları qarşısında müəyyən etdiyi ən əsas prioritetlərdən biri kimi diqqəti çəkir. Neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi, insan kapitalının böyük əzmlə gündəmə gətirilməsi, həyata keçirilən çoxsaylı sosial-humanitar proqramlar bizi bu məqsədə doğru aparan aydın inkişaf yoludur. Ölkəmizin sosial tərəqqisinə yönələn proqramlar uğurla icra edilir. Əyalətlərimizin siması dəyişir, respublika boyunca yeni-yeni məktəblər, xəstəxana binaları, mədəniyyət obyektləri, idman kompleksləri və digər bu kimi infrastruktur obyektləri tikilərək vətəndaşlarımızın ixtiyarına verilir.

Etiraf olunmalıdır ki, Azərbaycan Prezidenti İlham Əliyev dövlət quruculuğu, güclü iqtisadiyyatın yaradılması, cəmiyyətin demokratikləşməsi, əhalinin rifahının yüksəldilməsinin təmin edilməsi istiqamətlərində çoxşaxəli fəaliyyət həyata keçirir. Görülən işlər, eyni zamanda, Azərbaycanın siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə beynəlxalq əlaqələrinin genişlənməsinə, qloballaşan dünyada etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycan Prezidenti İlham Əliyevin iqtisadi idarəetməsinin fəlsəfəsində yeni iqtisadi təfəkkür və müasir yanaşma dayanır. Nədir bu idarəetmə, təfəkkür və yanaşma?

– milli iqtisadiyyatın dünyada gedən iqtisadi proses-

lərdə baş verə biləcək istənilən dəyişikliyə münasibətdə operativ tədbirlərinin reallaşdırılması;

– dünyanın iqtisadi nəbzini tuta bilmək;

– hərtərəfli inkişafın əsasında sosial-iqtisadi rifahın öncüllüyü;

– Dağlıq Qarabağ probleminin iqtisadi yüksəliş yolu ilə həlli modeli;

– demokratiyanın əsas sütununu təşkil edən vətəndaş cəmiyyətinin qurulması (iqtisadi dayaq və azad sahibkarlıqdan kənarda vətəndaş cəmiyyəti ola bilməz);

– uğurlu, yüksək və müasir intellektə malik, etibar ediləcək şəxslərə əsaslanan kadr siyasəti;

– gerçək tələb və ehtiyaca hesablanmış struktur islahatları;

– dövlətin icra orqanlarına (nazirliklərdən tutmuş yerli təmsilçilərədək) mərkəzləşdirilmiş dəstək və paralel olaraq tələbkarlıq və s.

Beləliklə, Azərbaycanda iqtisadi quruculuq yuxarıda göstərilənlər, ümumiləşdirilmiş şəkildə isə bir neçə amil baxımından özəl keyfiyyətlərə malikdir. Son 3-4 ildə ciddi inkişaf edən Azərbaycan iqtisadiyyatının ən mühüm özəlliyi də mövcud problemlərə proqram xarakterli kompleks yanaşmadır. Dövlət hər hansı bir sahədə proqram tipli tədbirlər həyata keçirmək üçün möhkəm maliyyə dayaqlarına malik olmalıdır. İndi bunun üçün heç vaxt olmayan və olmayacaq bir fürsət yaranıb: qarşıdakı təqribən 2 ili ekspertlər Azərbaycanın neft ixracından ən çox gəlir əldə edəcəyi mərhələ kimi qiymətləndirirlər. Yəni 2009-cu ilədək “qa-

ra qızıldan" qazanılan neft kapitalının həcmi artan templə irəliləyəcək, göstərilən andan etibarən isə gəlirlərdə sabitlik bərqərar olacaq. Paralel olaraq, dünya bazarlarında enerji daşıyıcılarına olan yüksək tələbat və qiymətlər real imkan yaradır ki, əlavə dividentlər də iqtisadi qüdrətin artımı və sosial rifaha yönəldilsin. Belə bir situasiya müəyyən risk və ciddi məsuliyyət də tələb edir. Nigeriya dünyanın ən iri neft yataqlarına malik ölkələrindən biridir, ancaq pessimist mənzərəyə səbəb "Nigeriya modeli"ndən başqa heç nəyə nail ola bilməmişdir. Odur ki, indi valyuta axınından səmərəli istifadə onu necə və hansı miqdarda əldə etmək problemindən heç də az aktual deyil.

Lakin İlham Əliyev iqtidarının ən böyük üstünlüyü və peşəkarlığı ondan ibarətdir ki, ilbəil artan valyuta gəlirlərindən səmərəli istifadə mexanizmini yaratmağa nail olub və bu reallıq ölkədə həyata keçirilən sosial siyasətin nəticələrində də özünü büruzə verir. Etiraf etməliyik ki, davamlı inkişaf tempinin əhalinin sosial müdafiəsində əks olunması mexanizmi kimi əhaliyə ödənilən pensiya və müavinətlərin ilbəil artımı həyata keçirilir. Təsadüfi deyil ki, hazırda əhalinin aztəminatlı təbəqəsi olan pensiyaçıların beynəlxalq təcrübəyə əsaslanan sosial müdafiəsini təmin edəcək yeni sığorta-pensiya sistemi qurulur. Azərbaycanın son 10 illik inkişaf dövrünə, həmin dövrün əvvəli ilə sonu arasındakı kəskin müsbət fərqə nəzər saldıqda, bu konsepsiyanın memarı olan ümummilli lider Heydər Əliyev ideyalarının əldə etdiyi fenomenal nəticələrin, hər bir ölkə vətəndaşını keçid dövrünün sərt təsirindən necə

müdafiə edildiyinin, onların taleyinə və sosial müdafiəsinə necə həssaslıqla yanaşıldığının şahidi oluruq. Bu gün ümummilli lider Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələri üzrə müəyyən etdiyi fəaliyyət proqramlarını həyata keçirmək üçün islahatların aparılması öz vacibliyini hər gün sübut etməkdədir. Bu gün Heydər Əliyev yolunun layiqli davamçısı İlham Əliyev Azərbaycanın sivil bir dövlət kimi dünya birliyində möhkəm yer tutması üçün böyük uğurların əldə edilməsinin təminatçısıdır.

Etiraf edək ki, Xəzər neftinin Avropa bazarlarına nəqlində müstəsna rol oynayan qlobal enerji layihəsinin icrası prosesinin uğurla başa çatdırılması – Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin istismara verilməsi də müstəqil Azərbaycanın çağdaş tarixinin ən parlaq səhifələrindən biri olmaqla, ümummilli liderimiz Heydər Əliyevin böyük uzaqgörənliklə irəli sürdüyü yeni neft strategiyasının praktik olaraq gerçəkləşdiyinin əyani təsdiqinə çevrilmişdir. Bu möhtəşəm tədbir siyasi və geoiqtisadi önəminə görə böyük tarixi hadisə olub, təkcə Azərbaycan üçün deyil, bütövlükdə, regionun və Qərbin bəzi aparıcı dövlətləri üçün strateji əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev bu hadisənin xalqımız üçün strateji əhəmiyyət kəsb etdiyini əminliklə vurğulamışdır. "Heydər Əliyevin adını daşıyan, onun təşəbbüsü ilə başlanmış Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi başa çatmışdır. Bu, böyük tarixi hadisədir və Azərbaycanın neft strategiyasının təntənəsidir. Bütövlükdə, Azərbaycanın son

illər ərzində apardığı siyasətin təntənəsidir. Çünki Bakı-Tbilisi-Ceyhan neft kəməri həm iqtisadi, həm də coğrafi-siyasi nöqteyi-nəzərdən çox əhəmiyyətli və Azərbaycan dövləti üçün həlledici əhəmiyyətə malik bir layihədir" – deyən dövlət başçısı əlavə etmişdir ki, 20 il ərzində Azərbaycanın neft-qaz müqavilələrindən əldə etdiyi vəsait 140 milyard dollar olacaqdır. Lakin İlham Əliyev neftdən əldə olunan gəlirlərin iqtisadiyyatın digər vacib sahələrinə yönəldilməsini, qeyri-neft sektorunda yeni istehsal müəssisələrinin açılması yolu ilə yeni iş yerlərinin yaradılmasını, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin daha da gücləndirilməsini özünün iqtisadi siyasətində prioritet vəzifə kimi nəzərdən keçirir. İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, neft Azərbaycan üçün son məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün bir vasitədir. "Biz öz siyasətimizi elə aparmalıyıq ki, guya Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələrində və ilk növbədə, qeyri-neft sektorunda mövcud strukturlar inkişaf etdirilməlidir. Biz yalnız bu yolla Azərbaycanı hərtərəfli inkişaf etmiş dövlətə çevirə bilərik" – deyən dövlət başçısının 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" və 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" fərmanlarında da neftdən əldə olunan gəlirlərin iqtisadiyyatın digər sahələrinə yönəldilməsini vacib sayır.

Onu da qeyd edək ki, bu dövlət Proqramlarının icrasına 50-dən artıq dövlət strukturu cəlb edilmiş, ölkənin bütün potensialı bu işə yönəldilmişdir. Proqramlarda nəzərdə tutulmuş məsələlərin düzgün həyata keçirilməsi nəticəsində artıq regionların inkişafında dinamiklik təmin edilmiş və sosial-iqtisadi problemlərin aradan qaldırılması, yeni istehsal müəssisələrinin inkişafı istiqamətində zəruri addımlar atılmışdır. Azərbaycan hökuməti regionlarda aqrar sektorun inkişafı, yeni istehsal müəssisələrinin yaradılması, xidmət və digər infrastruktur obyektlərin əhalinin istifadəsinə verilməsi, turizm sahəsində irəliləyişlərin əldə olunması üçün bütün səyləri səfərbərliyə almışdır. Sahibkarlığın inkişafı üçün nəzərdə tutulmuş güzəştli kreditlərin verilməsi prosedurunun getdikcə təkmilləşdirilməsi, fermerlərə texniki yardım məqsədilə "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması, yerlərdə elektrik enerjisi probleminin həlli üçün modul tipli elektrik stansiyalarının inşası, nəqliyyat-kommunikasiya sisteminin bərpası, müasir informasiya texnologiyalarının tətbiqi, regional səhiyyə, təhsil mərkəzlərinin yaradılması sahəsində görülən işlər də bu qəbildəndir. Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasının gedişi, yeni iş yerlərinin açılması ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi, ümumiyyətlə, regionlardakı vəziyyətlə tanışlıq məqsədilə respublikanın əksər rayon və şəhərlərinə səfər etmiş, bu səfərlərin nəticəsi kimi rayonlarda canlanma yaranmış, abadlıq, tikinti və quruculuq işləri geniş vüsət almış, infrastrukturun yeniləşməsi, rentabelli

istehsal müəssisələrinin, daimi iş yerlərinin açılması istiqamətində bir sıra addımlar həyata keçirilmişdir.

Sözügedən fərman İlham Əliyevin prezidentliyə namizəd kimi ölkə əhalisinə verdiyi seçkiqabağı vədlərin yığcam, konkret istiqamətləri və həyata keçirilmə yolları göstərilmiş genişmiqyaslı tədbirlər toplusu idi. Fərmanda sosial-iqtisadi islahatların dərinləşdirilməsi, o cümlədən, işsizliyin azaldılması, çadır şəhərciklərində məskunlaşmış köçkünlər üçün yeni müvəqqəti qəsəbələrin və evlərin tikilməsi, regionların yerli amilləri nəzərə alınmaqla inkişaf proqramlarının hazırlanması, qeyri-neft sektoruna investisiyaların stimullaşdırılması, aqrar sektorda islahatların ikinci mərhələsinə başlanması, əhalinin sağlamlığını qorumaq məqsədilə yüksək keyfiyyətli məhsul və dərman ləvazimatlarının istehsalının və idxalın təmin edilməsi və s. istiqamətlərdə tədbirlər nəzərdə tutulmuşdur. Ümumilikdə bu sənədi Azərbaycan hökumətinin yaxın bir neçə il üçün dəqiq fəaliyyət proqramı kimi qəbul etmək olar. Artıq fərmanda nəzərdə tutulmuş müddəalardan ikisi – ölkədə yüksək keyfiyyətli dərman ləvazimatının istehsal və idxalının təmin edilməsi və çadır şəhərciklərindəki köçkünlər üçün yeni qəsəbələrin tikilməsi həllini tapıb. Xatırladaq ki, Ermənistanın işğalı nəticəsində yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız üçün yaşayış qəsəbələrinin tikilməsi 2001-ci ildən, Azərbaycanın Neft Fondu yaradılandan sonra başlanıb. İlham Əliyev hələ 2004-cü ilin oktyabrında Biləsuvar rayonunda Cəbrayıldan olan köçkünlər üçün tikilmiş yeni qəsəbənin açılışındakı çıxışında bildirmişdi

ki, Azərbaycanın neft gəlirləri ilk növbədə qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına yönələcək və qalan çadır düşərgələri də tezliklə ləğv ediləcək. Sonrakı illərdə Ağdamdan olan 3860 məcburi köçkün ailəsi üçün qəsəbənin tikilməsi, Ağcabədi, Goranboy və Tərtər rayonlarında yeni binaların inşası barədə prezident fərmanı məhz həmin vədin yerinə yetirilməsidir.

Prezident İlham Əliyevin sosial-iqtisadi islahatları beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Hələ 2006-cı ilin noyabrında Bakıda səfərdə olan Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru Donna Dousset-Koyrolo Azərbaycanın yüksək iqtisadi göstəricilərlə özünü güclü bir ölkə kimi doğrultduğunu və beynəlxalq maliyyə qurumlarının ölkəmizə etimadının daha da artdığını vurğulamışdır. Məhz bu etimadın nəticəsidir ki, dünyanın ən böyük maliyyə qaynaqları Azərbaycanın ən nəhəng iqtisadi layihəsinə: Bakı-Tbilisi-Ceyhanın neft kəmərinin tikintisinə real dəstəyini verdi və “Əsrin tikintisi”nin bu istiqamətdə heç bir problemi qalmadı. Ötən üç ildə dövlət başçısı ölkə həyatının müxtəlif sahələrini əhatə edən onlarla sənəd-qanun, fərman və sərəncamlar imzalayıb. Həmin sənədlərin böyük bir qismi Azərbaycanın demokratik dünya birliyinə inteqrasiyasını dərinləşdirməyə yönəlib.

Cənab İlham Əliyevin prezidentliyi dövründə ölkəmiz Avroatlantik məkana inteqrasiya kursunu uğurla reallaşdıran, transmilli enerji və kommunikasiya layihələrinin mərkəzinə çevrilən, demokratikləşmə yolunda atdığı ard-

ıcıl addımlarla Cənubi Qafqazın ən nüfuzlu ölkəsi kimi tanınan respublikamızın bütün sahələrdə inkişaf etdiyini bir daha təsdiqləmişdir. “Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam” – deməklə səlahiyyətlərinin icrasına başlayan İlham Əliyev respublikanın sosial-iqtisadi, siyasi, mədəni və humanitar sahələrdə inkişafı üçün fəaliyyət prioritetlərini düzgün müəyyənləşdirmiş, onların vaxtında icrası məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezideninin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam yaradır.

Uğurla həyata keçirilən sosial-iqtisadi strategiya nəticəsində Azərbaycan 2007-ci ildə iqtisadiyyatı ən sürətlə inkişaf edən ölkə kimi dünyada liderliyini qorumuş, makroiqtisadi göstəricilərə nail olmuşdur. Bununla əlaqədar Milli Məclisdə 2007-ci ilin dövlət büdcəsinə yenidən baxılmış, büdcə vəsaitləri 6 milyard dollara çatmışdır. 2007-ci ildə Azərbaycanda ümumdaxili məhsul 36 faizədək yüksəlmiş, sənaye istehsalının həcmi 41 faiz təşkil etmiş, 190 min iş yeri açılmış, bütövlükdə, 2003-cü ilin oktyabrından indiyə kimi açılmış yeni iş yerlərinin sayı 570 minə çatmışdır. Ötən müddətdə iqtisadiyyata 7 milyard dollara yaxın xarici investisiyanın qoyulması Azərbaycanda sahibkarlığın inkişafı üçün əlverişli mühitin mövcudluğunu bir daha təsdiqləyir. Bazar iqtisadiyyatı

prinsiplərinin Azərbaycanda tam bərqərar olması, xarici investisiyaların daha çox qeyri-neft sektoruna, regionların inkişafına yönəldilməsi, Azərbaycanda azad sahibkarlıq və biznes mühitinin təmin olunması istiqamətində əməli tədbirlərin görülməsi də İlham Əliyevin yürütdüyü iqtisadi siyasətin aparıcı xətti kimi diqqəti çəkir.

Bütün mütərəqqi cəhətləri ilə yanaşı, bazar iqtisadiyyatı şərtlərinin bəzi məqamlarda cəmiyyət üzvlərinin sosial mənafelərinə qarşı yönəldiyini də bir həqiqət kimi etiraf etməliyik. Bu baxımdan, bazar iqtisadiyyatı prinsiplərinin vətəndaşların mənafelərinə toxunmaması, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması zərurəti bütün dünyada eyni inkişaf yolunu seçmiş ölkələri düşündürən mühüm məsələlərdəndir. Lakin Azərbaycanın son illərdə bu sahədə əldə etdiyi zəngin təcrübə inkişaf yoluna yenicə qədəm qoymuş digər ölkələr üçün model rolunu oynaya bilər.

İlham Əliyevin iqtisadi idarəçilik üslubunda nəzərə çarpan ən əhəmiyyətli məqamlardan biri də məhz bundan ibarətdir ki, Azərbaycanda yeni mülkiyyət formalarının yaranması, sahibkarlığın sürətli inkişafı üçün yaradılan şərait əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını qorusun. Bu onların maraqları mütləq nəzərə alınır və ölkəmizdə özəl sektorun daha da inkişafı üçün atılan hər bir addımın bu təbəqənin maraqlarına vura biləcəyi cüzi ziyan belə, təxirəsalınmaz sosial müdafiə tədbirləri hesabına kompensasiya edilir. Azərbaycan Prezidenti keçirdiyi müşavirələrdə də əhalinin sosial müdafiəsi tədbir-

lərinin hər zaman diqqət mərkəzində olduğunu bildirmişdir: “İqtisadi siyasətimizin əsas istiqamətlərindən biri də ondan ibarətdir ki, bazar iqtisadiyyatı prinsiplərini tam şəkildə tətbiq etməklə yanaşı, sosial məsələlərin həlli də yaddan çıxmasın”.

Həmçinin Azərbaycanda sahibkarlığın inkişafına əngəl törədən süni maneələrin aradan qaldırılması, sərbəst bazar subyektlərinə əsaslanan plüralist iqtisadi mühitin yaradılması, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli dəstəklənməsi də dövlət başçısının xüsusi diqqət mərkəzindədir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında orta sahibkar təbəqəsinin daha da gücləndirilməsi sahəsində əməli tədbirlər də nəzərdə tutulmuşdur. Ümumiyyətlə, dövlət başçısının imzaladığı bu və digər proqramlar hərtərəflidir və bütün sahələri əhatə edir. Həm iqtisadi islahatlar davam etdirilir, həm də sosial məsələlər həll olunur, bütün bunlar isə Azərbaycan xalqına xidmət edir, ölkəmizi möhkəmləndirir.

Beləliklə, ümummilli lider Heydər Əliyevin konsepsiyası sübut edir ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, demokratik imicə, mənəvi yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz. Ümummilli lider Heydər Əliyevin bu prinsipi Azərbaycana böyük uğurlar gətirmiş, ölkəmiz bütün sahələrdə dinamik inkişaf etmiş, böyük uğurlar qazanmışdır. Beynəlxalq aləmdə Azərbaycanın nüfuzu güclənmiş, ölkəmiz dünya miqyasında daha möhkəm mövqelərə sahib olmuş, qonşularla münasibətlər uğurla inkişaf etmiş, regionda bütün beynəlxalq, irimiq-

yaslı layihələrdə ölkəmizin iştirakı təmin olunmuş, dövlət siyasəti xalqımızın milli maraqlarının nəzərə alınması ilə həyata keçirilmişdir. Bu tezis Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının 3-cü ilinə həsr olunmuş konfransdakı yekun nitqində bir daha qabardılmışdır: "Azərbaycan bölgədə gedən önəmli proseslərin təşəbbüskarıdır, icraçısıdır. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə – nə siyasi, nə iqtisadi, nə də nəqliyyat layihəsi həyata keçirilə bilməz. Bu, reallıqdır və getdikcə bizim önəmimiz artacaqdır". Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyev ulu öndərdən təhvil aldığı dövləti onun ideallarına sadiq qalaraq inkişaf etdirmək əzmindədir. 2003-cü ilin 15 oktyabrında keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı Heydər Əliyev siyasi kursunu böyük vətəndaş fəallığı ilə dəstəkləyərək, bu məktəbin ən layiqli nümayəndəsini – İlham Əliyevi özünə rəhbər seçməklə yeni əsrdə böyük uğur və nailiyyətinə imza atmış, nəticə etibarilə dövlətimizin bundan sonra da sabitlik, tərəqqi və yüksəliş yolunda irəliləməsi mümkün olmuşdur. Bu, Azərbaycan dövlətinin və xalqının gələcəyi üçün gerçəkdən tarixi, strateji bir seçim idi.

1993-cü ilin 15 iyununda taleyini Heydər Əliyevin dühasına etibar edən Azərbaycan xalqı 2003-cü ilin 15 oktyabrındakı seçimi ilə ulu öndərimiz Heydər Əliyevin siyasətinə sadiqliyini, həmin yola alternativ görmədiyini bir daha təsdiqləmişdir. İlham Əliyev Vətənə, dövlətə, xalqa sədaqət andı içərək Azərbaycan Respublikasının

Prezidenti kimi fəaliyyətə başladığı ilk gündən Heydər Əliyev siyasi kursunu qəti və prinsipial mövqeyi ilə davam etdirir. İlham Əliyev yüksək dövlətçilik təəssübkeşliyi, insanların rifahının yaxşılaşdırılması niyyətilə həyata keçirdiyi tədbirlər nəticəsində xalqımızın gələcək inkişafının təminatçısı kimi böyük nüfuz qazanmışdır.

Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə sahibkarlığın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər uğurlu nəticələr verir. Bazar iqtisadiyyatına keçid dövründə özəl sektorun fəaliyyətinə normal şərait yaratmadan iqtisadi yüksəlişi təmin etmək, yeni iş yerlərinin açılışına nail olmaq, eləcə də sosial xarakterli problemləri həll etmək mümkün deyildir. Bu reallığı son dərəcə düzgün qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev sahibkarlığın inkişaf etdirilməsi yolu ilə əhalinin faydalı məşğulluğunun təmin olunmasına, yerli istehsalın həcminin genişləndirilməsinə, eləcə də regional iqtisadi tarazlığın təmin olunmasına ciddi önəm verir. Hazırda ölkə iqtisadiyyatının yüksək inkişaf və tərəqqi mərhələsinə qədəm qoyması, çoxlu sayda yeni iş yerlərinin açılması İlham Əliyevin seçkiqabağı vədlərinin əməli işə söykəndiyini bir daha təsdiqləyir. Ümumiyyətlə, ölkə rəhbərliyinin sahibkarlığın inkişafı sahəsində həyata keçirilən tədbirlərin uğurlu nəticələri özünü qabarıq göstərir: təkcə onu demək kifayətdir ki, hazırda əhalinin məşğulluğunda özəl sektorun payı 70 faizi keçib.

Prezident İlham Əliyevin iqtisadi siyasətində habelə, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin əsaslı təmiri,

yenidən tikilməsi kimi vacib məsələlər də öz əksini tapmışdır. Təkcə bu istiqamətlər üzrə qarşıya qoyulan məsələlərin həyata keçirilməsi üçün ümumilikdə 6 milyard ABŞ dolları məbləğində maliyyə vəsaiti sərf olunacaqdır. İlham Əliyev dövlət siyasətində təhsilin inkişafını prioritet istiqamət kimi nəzərə alır və təhsil işçiləri qarşısında strateji vəzifələr müəyyənləşdirir: "İndiki zamanda yaxşı təhsil almaq çox önəmlidir. Bu, o deməkdir ki, gələcəkdə uşaqlar, gənclər həyatda özlərinə layiq yer tutacaqlar. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, o ölkələr inkişaf edir ki, orada təhsil yüksək səviyyədədir, yeni texnologiyalar tətbiq olunur". Onu da qeyd edək ki, hazırda təhsil sisteminin müxtəlif sahələri üzrə ümumilikdə 15 proqram mövcuddur. Belə ki, onlardan 9-u bu gün həyata keçirilir, 3 proqram təsdiq, daha 3 proqram isə hazırlanma mərhələsindədir. Həyata keçirilmiş inkişaf proqramları və digər məqsədyönlü tədbirlər nəticəsində ayrı-ayrı təhsil pillələri üzrə bir sıra ciddi nailiyyətlər əldə edilmiş, perspektiv inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Həmçinin, son illərdə məktəbəqədər təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılması üçün bir sıra tədbirlər görülmüş, o cümlədən YUNİSEF, YUNESKO, Ümumdünya Ərzaq Proqramı, Açıq Cəmiyyət İnstitutu Yardım Proqramı tərəfindən bir sıra layihələr həyata keçirilmişdir. Azərbaycan hökuməti ilə Asiya İnkişaf Bankı arasında imzalanmış sazişə əsasən, "Erkən yaş dövründə uşaqların inkişafı" üzrə Asiya İnkişaf Bankı tərəfindən maliyyələşəcək proqram layihəsi üzərində iş başa çatdırılmışdır.

İlham Əliyevin imzaladığı "Bakı şəhərinin kənd və qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramı"na əsasən, 2006-2007-ci illərdə 17 yeni məktəbin, 20 məktəbin yanında əlavə korpusların inşası nəzərdə tutulmuşdur. Eyni zamanda proqram çərçivəsində 20 məktəbin əsaslı təmiri, 12 uşaq bağçasının inşası, 14 uşaq bağçasının, 4 məktəbdənkənar tərbiyə müəssisəsinin, 1 peşə məktəbinin əsaslı təmiri də nəzərdə tutulmuşdur. Həmçinin prezidentin tapşırıqlarına əsasən 2006-2007-ci illərdə ölkədə 92 yeni məktəbin, 140 məktəbin yanında 62036 yerlik əlavə korpusların inşası nəzərdə tutulmuş, o cümlədən 2008-ci ildə 68 yeni məktəb, 48 məktəbin yanında əlavə korpuslar inşa ediləcəkdir.

Prezident İlham Əliyev öz siyasətində idmanın və olimpiya hərəkatının inkişafını da öncül istiqamətlərdən biri hesab edir. Məlumdur ki, idman böyük qayğı və diqqət tələb edir. Hər hansı ölkədə onun kifayət qədər ardıcıl və məqsədyönlü inkişafı idman ənənəsi, idmanla məşğul olmağa şərait və imkan, idmançılara münasibət, mütəxəssislərin yetişdirilməsi, yarışların təşkili və keçirilməsi, idmançıların beynəlxalq yarışlarda iştirakının təmini, idmanın təbliği, kütləviləşdirilməsi kimi amillərdən çox asılıdır. Belə amillər cərgəsində dövlətin idmana münasibəti də özünəməxsus yer tutur.

Azərbaycanda isə idmana dövlət qayğısı ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra başladı. Heydər Əliyev idmanın xalqın və döv-

lətin həyatında necə böyük əhəmiyyət kəsb etdiyini diqqət mərkəzinə çəkərək daim bu istiqamətdə iş görməyin vacibliyini bildirmiş, idmanın inkişaf etdirilməsini dövlətin mühüm vəzifələrindən biri kimi qarşıya qoymuşdur. Heydər Əliyev bu strateji sahənin başlı-başına buraxılması və diqqətdən kənarda qalması ilə də qətiyyən barışa bilməzdi. 1994-cü ilin iyul ayında imzaladığı xüsusi fərmanla Gənclər və İdman Nazirliyinin yaradılması bu istiqamətdə atılmış çox ciddi addım olmuşdur. Elə həmin il Atlanta oyunlarına hazırlıq haqqında xüsusi sərəncam imzalanmış, respublika gənclərinin birinci forumunda gənclər və idman siyasəti sahəsində qarşıda duran prioritet vəzifələr müəyyənləşdirilmiş, onların ardıcıl surətdə həyata keçirilməsinə başlanılmışdır.

Şübhəsiz, idmanda qazanılan hər bir uğur uzun illər bu sahənin inkişafına göstərilən diqqət və qayğının, habelə gərgin zəhmətin bəhrəsi kimi üzə çıxır. Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması, daha da möhkəmləndirilməsi milli olimpiya hərəkatına da əhəmiyyətli sirayət etmiş, xalq özünəməxsus irs, milli ənənələr əsasında yeni fiziki tərbiyə, məfkurə və kamilləşmə sistemini yaratmışdır.

1997-ci ildən isə ölkəmizdə olimpiya hərəkatı həlledici mərhələyə qədəm qoydu: rəhbərlik etdiyi bütün sahələrdə ciddi uğurlar qazanmış və cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi respublika idmanının həyatında son dərəcə əlamətdar hadisəyə çevrildi. Bu ta-

rixi seçim ölkəmizdə idmanın inkişafı ilə bağlı ideeyalarının daha sürətlə gerçəkliyə çevrilməsini təmin etmişdir. Bir sıra idman cəmiyyətləri və federasiyaları arasında əvvəllər mövcud olmuş qeyri-sağlam münasibətlərə son qoyulmuş, ölkədə idman hərəkatının genişlənməsinə xidmət edən kompleks tədbirlər planı işlənib hazırlanmışdır. İdmançıların maddi təminatı, sosial problemlərinin həlli istiqamətində ciddi addımlar atılmışdır.

"Olimpiya Oyunları dünyanın bütün dövlətlərinin diqqət mərkəzində olan ən möhtəşəm və mühüm idman tədbiridir. Müasir dövrdə hər bir dövlətin Olimpiya Hərəkatındakı iştirakı, onu təmsil edən idmançıların Olimpiya Oyunlarında göstərdikləri nəticələr ölkənin təkcə idman sahəsindəki potensialını deyil, həm də ümumi inkişaf səviyyəsini nümayiş etdirir, beynəlxalq nüfuzuna təsir göstərir". Sözsüz ki, Prezident İlham Əliyevin bu fikirləri ölkəmizdə olimpiya hərəkatı və idmanın inkişafına diqqətin dövlət siyasətinin əsas həlqələrindən olduğunu bir daha nümayiş etdirir. Etiraf edək ki, 1997-ci ildən etibarən, İlham Əliyevin MOK-a rəhbərlik etməsindən başlayaraq, ölkəmizdə idmanın inkişafı istiqamətində sistemli iş aparılır. Prezident İlham Əliyevin tövsiyələri əsasında qısa müddət ərzində federasiyaların işi yenidən təşkil olunub və federasiyaların böyük əksəriyyətinin rəhbərliyinə yeni adamlar gəlib. O, Azərbaycanın bütün regionlarında idman mərkəzlərimizin yaradılması təşəbbüsü ilə çıxış edib. Əvvəl Bakıda, daha sonra Maştağa qəsəbəsində, Naxçıvan, Gəncə, Şəki, Quba, Lənkəran, Bərdə və s. şəhərlərdə

müasir standartlara cavab verən olimpiya kompleksləri inşa olunub. İdman-konsert kompleksi təmir edilib, hərəsi 1000 kv.m. sahəyə malik olan iki nəhəng zal, duş və soyunma otaqları bərpa olunub. Ən başlıcası isə Mingəçevirdəki avarçəkmə bazası bərpa olunub. Belə ki, bu, qışda buz bağlamayan nadir bazadır və burada bütün il boyu avarçəkmə ilə məşğul olmaq mümkündür. Bu baza imkan verir ki, MDB məkanının idmançıları da burada təlimlər keçsinlər. Bir sözlə, 1997-ci ildən etibarən Azərbaycanda idmanla, olimpiya hərəkatı ilə bağlı bir sıra məsələlər ilk dəfə olaraq öz həllini tapmış, bu sahədə əhəmiyyətli uğurlar qazanılmışdır.

İlham Əliyevin təşkilatçılığı ilə yığma komandamız ilk dəfə olaraq Yaponiyanın Naqano şəhərində Qış Olimpiya Oyunlarında iştirak etmişdir. Bu hadisə Qış Olimpiya Oyunlarında Azərbaycanın birinci iştirakı kimi artıq idman və olimpiya tariximizə yazılmışdır. Eyni zamanda, 1998-ci ildən başlayaraq Azərbaycanda Respublika Yeniyetmələr Oyunları təşkil edilmiş və çox yüksək səviyyədə keçirilmişdir. Milli Olimpiya Komitəsinin qərarı ilə 1998-ci ilin əvvəlindən qabaqcıl idmançılara və onların məşqçilərinə təqaüdlər verilməyə başlanmışdır. Eyni zamanda, keçmişdə Azərbaycanın idman şərəfini ucaldan, onu yüksəklərə qaldıran veteran idmançılarımız üçün də təqaüd təyin olunmuşdur. İlk dəfə olaraq idmançılarımız Danimarkada Avropa Kuboku uğrunda keçirilən komanda yarışlarında qələbə qazanmış və Avropa Kubokunu Azərbaycana gətirmişlər.

İlham Əliyev prezident seçildikdən sonra isə Azərbaycanda idmana və olimpiya hərəkatına qayğı daha da artmaqdadır. Məhz bu qayğının nəticəsində qısa zamanda ölkəmiz böyük nəticələr əldə edib. Milli Olimpiya Komitəsi respublikanın perspektivli idmançıları və onların məşqçiləri üçün xüsusi təqaüd təsis etmişdir. Mötəbər yarışlarda Azərbaycanın idman şərəfini ləyaqətlə qorumuş və yüksək nəticələr göstərmiş idmançılarımız olimpiya və dünya çempionlarımız da unudulmur. Onlar komitənin xüsusi təqaüdlərini alırlar. Həmçinin MOK Azərbaycan idmanının maddi-texniki bazasını gücləndirmək, ayrı-ayrı idman növləri üçün avadanlıqların əldə olunması, idman obyektlərinin bərpası, idmançıların beynəlxalq yarışlarda iştirakı istiqamətində işlər həyata keçirmək üçün xüsusi proqramlar hazırlayıb. Təkcə onu demək kifayətdir ki, 2000-ci ildən bu günədək Azərbaycanın ayrı-ayrı regionlarında 15-ə yaxın müasir olimpiya idman kompleksi tikilib istifadəyə verilmiş və yenilərinin inşasına başlanılmışdır. Bu sarayların inşası Azərbaycanda idmanın kütləviləşməsini təmin etmək, gənc nəslin sağlamlığını qorumaq məqsədi daşıyır. Şübhəsiz ki, Prezident İlham Əliyevin 2007-ci il iyulun 24-də imzaladığı "XXIX Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" sərəncamı da Azərbaycan idmançılarının Pekində ali mükafatlar qazanmaları üçün onların tam hazırlıqlarının təmin edilməsini nəzərdə tutur. Sərəncamda qeyd edilir ki, aparılan işlər və qalan müddət ərzində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər Azərbaycanın Pekin Olimpiadasına daha yüksək səviyyədə hazırlığını

təmin etməli, qarşıda qoyulmuş məqsədlərə çatmaq imkanı yaratmalıdır.

"Azərbaycan bizim üçün çox yeni, bəlkə də bəzilərini təəccübləndirən təşəbbüslə çıxış etmişdir. 2016-cı ildə Yay Olimpiya Oyunları Azərbaycanda keçirilsin. Mən hesab edirəm ki, Azərbaycan Olimpiya oyunları keçirmək üçün bütün imkanlara malikdir. Əminəm ki, əgər bu böyük şərəf Azərbaycana verilərsə, biz Olimpiya oyunlarını ən yüksək səviyyədə keçirəcəyik". Dövlət başçısı İlham Əliyevin son vaxtlar bəyan etdiyi bu fikir isə ölkəmizin potensial inkişaf səviyyəsini tam çılpaqlığı ilə özündə nümayiş etdirdi. Bir qayda olaraq olimpiya oyunları və bu kimi beynəlxalq yarışlar o ölkələrdə keçirilir ki, onlar özlərinin yüksək inkişaf səviyyəsinə çatmış olurlar. Müasir dövrdə hər bir dövlətin olimpiya hərəkatında iştirakı, idmançılarının olimpiya oyunlarında qazandıqları nəticələr ölkənin təkcə idman sahəsindəki potensialını deyil, həm də ümumi inkişaf səviyyəsini nümayiş etdirir, beynəlxalq nüfuzuna təsir göstərir. Olimpiya oyunlarının əhəmiyyətini qədərincə qiymətləndirən dövlətimiz də əzəldən bu hərəkata fəal qoşulub, hətta artıq 2016-cı il Yay Olimpiya Oyunlarına namizədliyini irəli sürüb. Əlbəttə, 2016-cı ilə qədər dövlətimiz daha da inkişaf edəcək, beynəlxalq mövqelərini daha da möhkəmləndirəcək, regional çərçivədə lider ölkə kimi iqtisadi nailiyyətlərini daha da artıracaq və Olimpiya oyunlarını keçirməyə tam hazır olacaq.

Bütün bunlar onu göstərir ki, məhz düzgün, düşünülmüş islahatların nəticəsidir ki, bu gün ölkəmiz dünya bir-

liyinin layiqli üzvü kimi qəbul edilir, ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlara imza atır. Təsadüfi deyil ki, illər bir-birini əvəz etdikcə ölkəmizin iqtisadi qüdrəti möhkəmlənir, abadlıq-quruculuq işləri genişlənir, əhalinin sosial rifah halı yaxşılaşır, ölkənin ümumi intellektual səviyyəsi artır.

Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyev öz fəaliyyətində Heydər Əliyevin dövlət idarəçiliyi məktəbinin ən mühüm və üstün cəhətlərini də nümayiş etdirir. Ümummilli lider Azərbaycanda elə mükəmməl idarəçilik sistemi yaradıb ki, həmin sistem uzun illər uğurla fəaliyyət göstərmək imkanındadır. Bu idarəetmə mexanizmi dövlət qulluğunda çalışan məmurlardan yüksək nizam-intizam, öz peşəsinə hörmət, ona tapşırılan vəzifələri məsuliyyət və vicdanla icra etmək, peşəkarlıq, vətənpərvərlik və humanistlik kimi komplekslər tələb edir. Ümummilli lider Heydər Əliyevin dövlət qulluğunda çalışan məmurlardan ən başlıca tələbi və onlara tövsiyəsi ondan ibarət idi ki, dövlət qulluqçusu öz nümunəvi fəaliyyəti ilə cəmiyyət üçün örnək olmalı, öz işini cəmiyyətin sifarişlərinə, tələblərinə uyğun şəkildə qurmağı bacarmalıdır.

Bu məqsədlə son illər ölkəmizdə ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmiş, dövlət qulluğu sahəsində qanunvericilik bazası təkmilləşdirilmiş, mükəmməl hüquqi-normativ baza yaradılmış, ən başlıcası isə 21 iyul 2000-ci il tarixində ümummilli lider Heydər Əliyevin

sərəncamı ilə "Dövlət qulluğu haqqında" Qanun qüvvəyə minmiş, sonrakı illərdə isə ona bir çox dəyişikliklər edilmişdir. Bu qanunvericilik bazası ölkəmizdə dövlət idarəçiliyi sahəsində peşəkar kadrların fəaliyyət göstərməsi üçün hüquqi-normativ baza yaradıb, məmurların nizam-intizam və peşə hazırlığı səviyyəsinin artmasına misilsiz xidmətlər göstərib. Bu amili nəzərə alaraq Prezident İlham Əliyevin sərəncamı ilə 23 iyun dövlət quluqçularının peşə bayramı kimi təsis edilmişdir. Qeyd edək ki, dövlət başçısının bu sərəncamı Birləşmiş Millətlər Təşkilatının tövsiyəsi əsasında qəbul olunmuşdur.

Müasir dünyanın siyasi, iqtisadi, mədəni və geopolitik şərtləri ilə ayaqlaşaraq Qərbə inteqrasiya strategiyasına üstünlük verən Prezident İlham Əliyevin hakimiyyət dövrünün bütün sahələr üzrə yeni tarixi mərhələ olduğunu düşünənlər sözsüz ki, haqlıdırlar. Bu mərhələnin özəlliyi həm də ondan ibarətdir ki, dövlət idarəçiliyinə peşəkar kadrlar cəlb olunmuş, yeni təfəkkür tərzinə, müasir informasiya texnologiyalarına malik məmur korpusun yaradılması sahəsində irəliyə doğru mühüm addımlar atılmışdır. Eyni zamanda, gənc nəslin dövlət qulluğuna cəlb edilməsi, cəmiyyətin bütün sferalarında peşəkarlara böyük üstünlük verilməsi, müasir, hərtərəfli, intellektual, qabaqcıl dünyagörüşə malik, yüksək təhsil almış şəxslərin dövlət idarəçiliyinə gətirilməsi əsas norma kimi qəbul edilmişdir.

Həmçinin son illər dövlət qulluğunun təkmilləşdirilməsi məqsədi ilə idarəetmə sistemində islahatlar aparılarkən qarşıya bir neçə əsas məqsəd qoyulmuşdur. Onlardan

ən əsası ölkə vətəndaşlarının idarəetmə prose-sində fəal iştirakının və hakimiyyət orqanlarına təsir etmək imkanlarının təmin olunmasıdır. Digər məqsəd isə Qərb standartlarına əsaslanan məmur korpusun yaradılmasıdır ki, bu amilə də dönmədən riayət olunur. Belə ki, ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyət başına gəldikdən sonra, hər il ölkədən yüzlərlə gənc Avropa, Amerika və Rusiyanın nüfuzlu ali təhsil müəssisələrinə qəbul olunur. Bu gənclər həmin təhsil ocaqlarında müasir idarəetmə texnologiyasının bütün incəliklərinə dərindən bələd olmuş, əsasən isə yeni dünyagörüşü qavramışlar. Təsadüfü deyil ki, bu proses hazırda uğurla davam etdirilir. Belə ki, 2006-cı il üçün ölkənin ali məktəblərinə yüksək balla qəbul olunacaq müxtəlif ixtisaslar üzrə 5 tələbənin Avropanın qabaqcıl ali məktəblərində təhsil almağa göndərilməsi barədə Prezident İlham Əliyevin verdiyi tapşırıq bu siyasətin uğurla davam etdirilməsinin bariz nümunəsidir.

Sözsüz ki, dövlət qulluğunun təkmilləşdirilməsi sahəsində ölçülüb-biçilmiş kadr islahatlarının da özünəməxsus rolu var. Belə ki, son illər aparılan kadr islahatlarının əsas məqsədi həm də bürokratik problemlərin aradan qaldırılmasıdır. İlham Əliyev siyasi komanda rəhbəri kimi məmurlarına idarəçilik zövqünü oxşayan məqamları açıq-aşkar bəyan edir: hər bir şəxsin məmur kimi mövcudluğu onun fəaliyyətinin keyfiyyətindən və məsuliyyətindən asılıdır; kadrlar təmsil olunduqları komandaya böyük etimad göstərmiş insanların inamını ödəməli, sadə vətəndaşla aralarında olan bürokratik maneələri dəf etməlidir; idarəçi-

likdə, fəaliyyətdə, düşüncədə yenilik və sivil dəyərlər tətbiq olunmalı, bunlar iş prosesində effektiv nəticələr verməlidir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin iclaslarında da dövlət başçısı bu mövzu ilə bağlı kifayət qədər sərt danışmaq məcburiyyətində qalmış və öz prinsipini birmənalı olaraq açıqlamışdır. Dövlət qulluğu sferasında islahatlar dedikdə, məhz ilk növbədə məmur-vətəndaş münasibətlərinin müasir Avropa standartları səviyyəsində tənzimlənməsindən söhbət getməlidir. Sözsüz ki, Prezident İlham Əliyev müasir dünya reallıqlarına əsaslanaraq bu islahatları həyata keçirmək əzmindədir.

Yeri gəlmişkən, artıq iki ildir ki, Azərbaycanda dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi üzrə reallaşdırılan Avropa İttifaqının "TASİS" layihəsi həyata keçirilir. Dövlət qulluğuna qəbulda yeni sistemin tətbiqi, kadrların idarə edilməsi üzrə yeni mərkəzi qurumun yaradılması və dövlət qulluqçularının təlim sisteminin təkmilləşdirilməsi bu layihənin əsas qayəsini təşkil edir. Məlum olduğu kimi, dövlət qulluğunun idarə edilməsi ilə bağlı rəsmi qurumun yaradılması barədə artıq Prezident müvafiq fərman imzalayıb. Eyni zamanda "Dövlət qulluğu haqqında qanunun icra strategiyasına doğru" sənədin 3.2 bölməsində qeyd olunur ki, yeni qurumun yaradılması Dövlət Qulluğu İdarəetmə Şurasının funksiyalarının və tərkibinin yenidən nəzərdən keçirilməsinə imkan yaradacaq. Belə ki, digər ölkələrin təcrübəsi göstərir ki, DQİŞ-in əsl dəyəri onun dövlət qulluğunun fəaliyyətinə

dair müzakirələrin aparılmasına həvəsləndirmədən və müxtəlif sistemlərin icrasına nəzarətdən ibarətdir.

Onu da qeyd edək ki, Prezidentin siyasi iradəsinə uyğun olaraq dövlət orqanlarında islahatların başa çatdırılması məqsədi ilə dövlət orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi və onların fəaliyyətində təkrarçılığın aradan qaldırılması istiqamətində son illər bir sıra institutsional tədbirlər görülmüşdür. Dövlət qulluğu sahəsində aparılan islahatları sürətləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli fərmanı ilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır. Eyni zamanda, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə, ərizə və şikayətlərinə baxılması qaydalarının və müddətlərinin təkmilləşdirilməsi məqsədi ilə Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın Əsasnaməsində və Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin Əsasnaməsində bu orqanların vəzifələrindən biri kimi şəxslərin korrupsiya ilə bağlı şikayət və ərizələrinə baxılması müəyyən edilmişdir. Dövlət qulluğu sahəsində aparılan islahatların məntiqi davamı olaraq “Məhkəmələr və hakimlər haqqında” qanuna edilmiş yeni əlavə və dəyişikliklərə və “Məhkəmə-Hüquq Şurası haqqında” qanuna görə, fiziki və hüquqi şəxslər hakimlər tərəfindən “Korrupsiyaya qarşı mübarizə haqqında” qanunda nəzərdə tutulan korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsi barədə məlumAta malik olduqda, birbaşa Məhkəmə-Hüquq Şurasına

müraciət edə bilərlər. Məhkəmə-Hüquq Şurası bu halda öz qərarı ilə hakimlər haqqında intizam icraatı başlaya bilər.

Bütün bunlarla yanaşı, dövlət qulluqçularının fəaliyyəti ilə bağlı ictimaiyyəti məlumatlandırmaq, ümumiyyətlə, bu sahədə şəffaflığı təmin etmək məqsədi ilə mərkəzi icra hakimiyyəti orqanlarında onların fəaliyyətini əks etdirən internet səhifələr tərtib edilmiş, ərizə və şikayətlərin elektron poçt vasitəsi ilə qəbul edilməsi işi təşkil edilmiş, korrupsiyaya qarşı mübarizə məqsədi ilə daxili nəzarəti həyata keçirən struktur bölmələr, dövlət qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi üçün müvafiq komissiyalar yaradılmışdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında dövlət qulluqçularını, işçilərini maarifləndirmək və təlimatlandırmaq məqsədi ilə mütəmadi olaraq seminarlar keçirilməkdədir. Eyni zamanda, dövlət qulluğu sahəsində islahatları sürətləndirmək məqsədi ilə qeyd etdiyimiz kimi, artıq iki ilə yaxındır ki, Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya fəaliyyət göstərir. Hazırda dövlət orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi və mərkəzi icra hakimiyyəti orqanları arasında səlahiyyət bölgüsünün daha dəqiq müəyyən edilməsi üçün onların nümunəvi əsasnaməsinin qəbul olunması prosesi gedir. Eyni amanda dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə onların etik davranış kodeksi hazırlanmışdır. Həmçinin, prokurorluq, daxili işlər, gömrük, vergi, dövlət sərhəd xidməti orqanları əməkdaşlarının etik davranış kodeksləri təsdiq edilmişdir. Dövlət qulluğuna qəbulun müsabiqə

yolu ilə həyata keçirilməsi üçün tədbirlər görülmüşdür. Qeyd edək ki, qəbul edilmiş standartlara əsasən artıq bir neçə ildir ki, dövlət qulluğunun bütün sahələrində dövlət qulluğuna qəbul müsabiqə yolu ilə həyata keçirilir. O da məlumdur ki, kadr siyasətinin aparılması Prezidentin müstəsna səlahiyyətinə aid olan məsələdir və bu amilin dövlət qulluğunun təkmilləşdirilməsində müstəsna rolu var. Lakin kadr siyasəti kifayət qədər dinamik prosesdir və heç kim düşünməməlidir ki, filan kadr əvəzolunmazdır, heç bir halda dəyişdirilməyəcək, yaxud hansısa kadr mütləq dəyişdiriləcək. Belə ki, bu məsələ ilə bağlı prezident öz mövqeyini bir neçə dəfə bildirib. Dövlət başçısının mövqeyi ondan ibarətdir ki, vəzifəsinin öhdəsindən gələn, ona göstərilən etimadı layiqincə doğruldan və ictimaiyyət arasında nüfuza malik olan kadr fəaliyyətini davam etdirəcək.

Bütün bunlarla yanaşı, etiraf olunmalıdır ki, 1993-cü ildən etibarən dövlət qulluğu sahəsində əldə edilən nailiyyətlərin əsası məhz 1969-cu ildən başlamış missiya ilə qoyulmuşdur. Belə ki, ümummilli liderimiz Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində respublikamızın böyük və qüdrətli elmi, intellektual, kadr, iqtisadi, sənaye, kənd təsərrüfatı və enerji potensialının yaradılmasına nail olmaqla, onun bu gün müstəqil yaşamasının möhkəm təməlini qoymuşdur.

Bütün bunlar ulu öndər Heydər Əliyevin böyük və misilsiz rəhbərliyi, uzaqgörənliyi və təcrübəsi, diplomatik bacarığı və siyasi qətiyyəti nəticəsində mümkün olmuşdur. İndi bu missiya Prezident İlham Əliyev tərəfindən uğurla

davam etdirilir və dövlət qulluğu günü-gündən təkmilləşdirilir. İlk növbədə etiraf olunmalıdır ki, İlham Əliyevin hakimiyyətinə alternativ ciddi siyasi müxalifət, yaxud 14 il əvvəlki tək hərbi müxalifət təhlükəsi yoxdur. Dövlətçilik maşını sistemləşdirilib və dövlət artıq 1993-cü ilin deyil, müasir dünyanın gerçəklikləri ilə yaşayır və idarə olunur.

İndi isə ölkəmizdə tamam başqa dəyərlər hökm sürür. Prezident İlham Əliyevin dövlət qulluqçularına müvafiq tapşırıqların verilməsi ilə kifayətlənmir, dövlət başçısı regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində gərgin fəaliyyətinin məntiqi davamı olaraq, verdiyi tapşırıqların icra vəziyyəti ilə tanış olmaq məqsədi ilə ardıcıl olaraq respublikanın rayonlarına səfərlər edir. Məlumdur ki, həmin səfərlər zamanı yerli hakimiyyət orqanları Prezidentə görülən işlərlə bağlı hesabatlar təqdim edir və dövlət başçısının tövsiyə və tapşırıqlarını alırlar. Bu baxımdan dövlət başçısının regionlara ardıcıl səfərləri ölkəmizdə dövlət qulluğunun yeni əsaslar üzərində qurulmasına real zəmin yaratmışdır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının İlham Əliyev tərəfindən yüksək dinamizmlə davam etdirilməsi, ictimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması Azərbaycanı uğurlu inkişaf yoluna çıxarmış, Cənubi Qafqaz bölgəsində həyata keçirilən qlobal enerji-kommunikasiya layihələrinin əsas təminatçısına çevirmiş, beynəlxalq əlaqələrinə ciddi impulslar vermişdir. Qərbə inteqrasiya kursunu qətiyyətlə davam

etdirən, vətəndaş cəmiyyəti quruculuğu yolu ilə addımlayan, beynəlxalq və regional əməkdaşlıq mərkəzinə çevrilən, ümumdaxili məhsulun artım tempinə görə dünyanın lider dövlətləri sırasında yer tutan Azərbaycan qarşıya qoyduğu strateji hədəflərə doğru inamla irəliləyərək bütövlükdə dünya siyasətində böyük nüfuz qazanır. Respublikamızın sürətli iqtisadi inkişafı vətəndaşların sosial rifah halının nəzərəçarpacaq səviyyədə yaxşılaşması, çoxlu sayda yeni iş yerlərinin açılması, regionların tarazlı inkişafı, infrastrukturun yeniləşməsi kimi pozitiv nəticələrlə əlamətdardır. Hazırda respublikamızda mövcud olan daxili sabitlik, əmin-amanlıq, demokratik inkişafın, qanunçuluğa və hüquq qaydalarına, ədalət meyarlarına ciddi şəkildə riayət olunmasının, habelə iqtisadi tərəqqinin başlıca təminatlarından biri kimi çıxış edir.

Bu uğurlu harmoniya eyni zamanda mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycanın dünya miqyasında sivil, demokratik yolla inkişaf edən, beynəlxalq hüquq normalarına və prinsiplərinə hörmətlə yanaşan ölkə imicini daha da möhkəmləndirmiş, xarici siyasi əlaqələrində yeni mərhələnin əsasını qoymuşdur. Bu nailiyyətlərin məntiqi nəticəsi olaraq Azərbaycan cəmiyyəti Heydər Əliyev dövlətçilik irsini hazırda ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının və ümumilikdə, siyasi sistemin sabitliyinin təmin edilməsinə yönəlmiş fəlsəfi dünyagörüşü kimi qəbul edir. Qlobal miqyasda aparıcı dövlətlər, o cümlədən, Qərbin demokratik dairələri Azərbaycanın perspektivini bu kursdan kənarda təsəvvür etmirlər.

Beləliklə, müasir dünyanın siyasi, iqtisadi, mədəni və geopolitik şərtləri ilə ayaqlaşaraq Qərbə inteqrasiya strategiyasına üstünlük verən Prezident İlham Əliyevin hakimiyyət dövrünün yeni tarixi mərhələ olduğunu düşünənlər sözsüz ki, haqlıdırlar. Heç şübhəsiz ki, bu dövr tarixə fundamental islahatlarla yazılacaq və Azərbaycanın harmonik inkişafının yüksəlişi kimi tarixə düşəcəkdir.

Müasir dövrdə hər bir müstəqil dövlətin gücü və qüdrəti onun xarici siyasət sahəsində qazandığı nailiyyətlərlə ölçülür. Yalnız sivil dünyanın qəbul etdiyi meyarlara, beynəlxalq hüquq norma və prinsiplərinə istinad edən dövlətlər öz diplomatik mənafelərini layiqincə müdafiə edə bilir, həlledici uğurlara imza atırlar. Bu sahədə müsbət nəticələri təmin edən vacib şərtlərdən biri də milli və ümumbəşəri mənafelərin mümkün dərəcədə uzlaşdırılması, eləcə də dəqiq hədəflərə hesablanmış xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsidir.

Xarici siyasət strategiyası dövlətlərin gücü, qüdrəti, resursları, dünya siyasətindəki rolu və yerindən asılı olaraq müxtəlif məqsəd və vəzifələr üzərində qurulur. Hər bir dövlət özünəməxsus prinsip və xüsusiyyətlərlə fərqlənən müxtəlif istiqamətli daxili və xarici siyasət yeridir. Dövlətçiliyin, müstəqilliyin, ərazi bütövlüyünün, milli təhlükəsizliyin qorunması, beynəlxalq aləmə çoxşaxəli inteqrasiyanın təmin olunması, enerji asılılığının azaldılması, iqtisadi və geostrateji maraqların ödənməsi, vətəndaşların firavan yaşayışının təmin olunması xarici siyasətdə mühüm istiqamətlər kimi nəzərdən keçirilir. Xarici siyasət və dip-

lomatiya, eyni zamanda, hər bir dövlətin beynəlxalq arenada nüfuz və mövqelərinin möhkəmlənməsinə, ümummilli problemlərinin həllinə yönəlir.

Müstəqil Azərbaycan Respublikası son 16 ildə xarici siyasətini məhz bu vacib meyarlar əsasında müəyyənləşdirərək qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləmiş, tarazlı xarici siyasət yeritməklə müxtəlif maraqların toqquşduğu Cənubi Qafqaz regionunun rəqabət və qarşıdurma meydanına çevrilməsinə yol verməmiş, milli mənafelərini yetərincə qoruya bilmişdir. Respublikamızın xarici siyasət fəaliyyətinin formalaşması prosesi Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi ilə paralel getdiyindən meydana çıxan problemlər rəsmi Bakının xarici siyasətinə də müəyyən təsirini göstərmişdir. Rəsmi Bakı bütün beynəlxalq və regional məsələlərə münasibətdə beynəlxalq norma və prinsiplərə əsaslanmış, ayrı-ayrı dövlətlərlə sivil, bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əlaqələrə üstünlük vermiş, "ikili standartlara" qarşı çıxmışdır.

Etiraf edək ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri elmi əsaslara söykənən xarici siyasət xəttinin müəyyən edilərək həyata keçirilməsi idi. Məlumdur ki, müstəqilliyin ilk illərində Azərbaycanda hakimiyyətdə olan dairələr bu istiqamətdə heç bir iş görə bilməmiş, özlərinin qeyri-peşəkar əməlləri ilə vəziyyəti daha da pisləşdirmişdilər. Əslində, həmin illər ölkənin ən zəif bəndinə çevrilmişdi. Bir tərəfdən Ermənistanın davam edən təcavüzü, digər tərəfdən isə düzgün qurulmayan

siyasət nəticəsində Azərbaycanın dünyanın güclü dövlətlərinin maraqlarının toqquşma meydanına, daha konkret ifadə etsək, təcrübə meydanına çevrilməsi vəziyyəti mürəkkəbləşdirmişdi. Ölkəni bu ağır durumdan çıxarmaq üçün səmərəli, praqmatik xarici siyasət doktrinasının müəyyən edilməsi zərurəti yaranmışdı.

Heydər Əliyevin müəyyənləşdirərək həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın milli maraqlarını tam təmin etməklə ölkəmizi xarici qüvvələrin münaqişə meydanından maraqların uzlaşdığı geopolitik məkana çevirmişdir. Ulu öndərimizin ölkə rəhbərliyinə gəlişindən sonra ilk növbədə yaxın qonşularımız, Rusiya Federasiyası və İran İslam Respublikası ilə diplomatik əlaqələrdə özünü göstərən gərginlik aradan qaldırıldı. Sonrakı illərdə isə dünyanın inkişaf etmiş bütün dövlətləri ilə diplomatik əlaqələr yaradıldı və əməkdaşlıq haqqında respublikamızın maraqlarına cavab verən ikitərəfli sazişlərə imza atıldı.

Beləliklə, ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı digər sahələrdə olduğu kimi ölkənin xarici siyasət xəttində də əsaslı və müsbət dəyişikliklərə gətirib çıxardı. Ümummilli lider Azərbaycanın tarixi inkişaf yolunu, o cümlədən xarici siyasət üzrə hədəflərini və istiqamətləri dəqiq şəkildə müəyyən etdi. Xarici siyasət doktrinamız müəyyən edilərkən Azərbaycanın keçdiyi tarixi yol, ölkənin mövcud durumu, perspektiv vəzifələr, o cümlədən strateji və taktiki məsələlər tam şəkildə nəzərə alınmışdı. Heydər Əliyev tərə-

findən əsası qoyulmuş xarici siyasət kursunun uğurla həyata keçirilməsi tezliklə öz bəhrəsini verdi. Belə ki, Azərbaycanın bölgədə təklənməsinə son qoyuldu, Ermənistanın təcavüzünün qarşısı alındı, hərb cəbhəsində atəşkəsə nail olundu, neft kontraktlarının imzalanması ilə Azərbaycan öz sərvətlərinə sahib olduğunu dünyaya nümayiş etdirdi, beynəlxalq və regional təşkilatlarda ölkəmizin mövqeyi möhkəmləndi, sosial-iqtisadi tərəqqi üçün əlverişli zəmin yarandı. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət xəttinin əsas istiqamətlərindən biri milli maraqlarımıza uyğun olan balanslaşdırılmış siyasətdir. Azərbaycanın yerləşdiyi geopolitik məkan məhz belə bir siyasətin yürüdülməsini zəruri etmişdi. Zaman keçdikcə bu siyasətin əhəmiyyəti daha aydın şəkildə dərk olunur.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə xarici siyasətimizdə Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətində də çox gərgin iş aparılmış, əhəmiyyətli nəticələr əldə edilmişdir. Ən böyük nəticə kimi Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təcavüzü beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə pislənmiş, bu barədə bir sıra qərarlar qəbul edilmişdir. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə və BMT sədrinin altı bəyanatında Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılması, qaçqın və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması tələb edilmişdir. 1994-cü ildə ATƏT-in Budapeşt zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişə-

sini tez bir zamanda aradan qaldırmaq məqsədilə ATƏT-in sülhü qoruyan çoxmillətli qüvvələrini yaratmaqla əlaqədar qərar qəbul edilmişdir. Budapeşt zirvə görüşündən sonra Minsk qrupu çərçivəsində danışıqlar prosesi intensivləşmiş, həmçinin, Azərbaycan və Ermənistan prezidentlərinin səlahiyyətli nümayəndələri səviyyəsində Ermənistanla birbaşa ikitərəfli danışıqlar kanalı yaradılmış, hərbi əsirlərin və girovların azad edilməsi mümkün olmuşdur. Lüksemburqda Ermənistan Respublikası və Azərbaycan Respublikası prezidentlərinin verdikləri birgə bəyanat münaqişənin aradan qaldırılması istiqamətində mühüm addımlardan biri kimi nəzərdən keçirilə bilər. Həmin bəyanat, əslində, tərəflərin silahlı münaqişəyə beynəlxalq prinsiplər və normalar əsasında son qoymaq əzmini nümayiş etdirən ilk birgə sənəd sayıla bilər. Ulu öndərimizin gərgin diplomatik səyləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycan Respublikasının daxilində xüsusi statusun verilməsi, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmasının təhlükəsizliyinin təmin olunmasını nəzərdə tutan, Azərbaycanın mövqeyini əks etdirən prinsiplərin 1996-cı ilin dekabr ayında 53 dövlət tərəfindən təsdiqlənməsi, xalqımız üçün mühüm tarixi əhəmiyyətə malik Lissabon sənədinin qəbulu da münaqişənin həlli prosesində Azərbaycanın milli maraqlarını təmin edən diplomatik uğurlardandır.

Bununla da etiraf etməliyik ki, 1993-cü ildən bəri ölkəmiz tam müstəqil xarici siyasət həyata keçirir. Bu siyasət Azərbaycan dövlətçiliyini müntəzəm şəkildə möh-

kəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qoruma-ğa yönəldilmişdir. Azərbaycan öz xarici siyasətini beyn-əlxalq hüquq norma və prinsipləri, o cümlədən, dövlətlə-rin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur. Bu prinsipləri rəhbər tutaraq və uzunmüddətli milli mə-nafelərdən çıxış edərək, Azərbaycanın xarici siyasəti respublikanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlü-yünə və milli təhlükəsizliyinə təhdidlərin və risklərin, ilk növbədə ona qarşı Ermənistan tərəfindən edilmiş təca-vü-zün aradan qaldırılması kimi həyat əhəmiyyətli başlıca məqsəd güdməkdədir. Regional səviyyədə bölgədə əmin-amanlıq və sabitliyin bərqərar edilməsi, nəhəng nəqliyyat və əməkdaşlıq layihələrinin gerçəkləşdirilməsi kimi strate-ji məqsədlərə nail olmaq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birini təşkil etməkdədir.

Qloballaşan müasir dünyada Azərbaycan xalqının ma-raqlarının daha səmərəli müdafiəsi naminə ölkə iqtisadiy-yatının inkişafı üçün müxtəlif layihələrə xarici sərmayələ-rin cəlb edilməsi də Azərbaycanın xarici siyasəti üçün müstəsna əhəmiyyət daşımaqdadır. Beləliklə, demokratik tərəqqi yolunu seçmiş Azərbaycan özünün qonşusu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitə-rəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı faydalı münasibətlərin qurulub-inkişaf etdirilməsi üzrə ümumi məqsədi mümkün qədər tam şəkildə həyata keçirmək əz-mindədir. Azərbaycan regional və qlobal səviyyədə fəaliy-yəti, o cümlədən beynəlxalq arenada əməkdaşlığı geniş-

ləndirərək və dərinləşdirərək müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olmuşdur.

Azərbaycan hökumətinin xüsusi diqqət yetirdiyi Avropa məkanında atdığı addımlar onun həyata keçirdiyi xarici siyasət sistemi çərçivəsində göstərdiyi səylərin tərkib hissəsi olmaqla yanaşı, bu səylərlə tam səsləşir. Müasir şərait köhnə nüfuz dairələri modeli əsasında deyil, həqiqi mənada tərəfdaşlıq və əməkdaşlığa söykənən Avropa təhlükəsizlik və ümumi rifah strukturunun yaradılmasına unikal bir fürsət verir, lakin eyni zamanda yeni tipli təhdidlərin yaranmasına səbəb olur. Bunun üçün Azərbaycan yaranmış obyektiv vəziyyəti nəzərə alaraq, NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlığı, eləcə də antiterror koalisiyası tərkibində fəaliyyəti durmadan inkişaf etdirir. Bu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə Azərbaycan öz milli maraqlarını müdafiə edib gerçəkləşdirir. Ölkəmizin ölçülüb-biçilmiş və milli mənafelərin qorunmasına xidmət edən xarici siyasət kursunun işlənib-hazırlanması və gerçəkləşdirməsi bütövlükdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun güclü dövlətçilik duyğusu, dərin məntiqi və məsələlərin mahiyyətini düzgün dərketmə qabiliyyəti beynəlxalq əlaqələrin qurulması işinə düzgün yanaşma yolunu müəyyən etməyə imkan yaradırdı.

Yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yeridən müstəqil Azərbaycan Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi dövlətçilik fəlsəfəsi respublikamızın müasir dünyada xüsusi yerini müəyyənləşdirməklə, milli dövlətçiliyimizin bünövrəsini təşkil etmiş, beynəlxalq əlaqələrində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Ulu öndərin rəhbərliyi altında Azərbaycanın xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri ümummilli mənafelərə əsaslanan xətlə inkişaf etmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətlidir. Ulu öndərimiz Heydər Əliyevin balanslaşdırılmış xarici siyasət doktrinasını uğurla davam etdirən Prezident İlham Əliyev dünya siyasətinə əsaslı təsir imkanları olan dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək istiqamətində böyük səy və əzmkarlıq göstərir.

Dövlət başçısı dünyada gedən mürəkkəb, ziddiyyətli proseslər fonunda respublikanın müstəqilliyini və milli təhlükəsizliyini daha da möhkəmləndirməyə nail olmuşdur. Azərbaycan dövlətinin xarici siyasətinin güclən-

dirilməsi, fəal və çevik diplomatiyanın həyata keçirilməsi, xaricdə yaşayan azərbaycanlıların mütəşəkkil qüvvə kimi formalaşdırılması, diaspor və lobbi quruculuğu Prezident İlham Əliyevin xüsusi diqqət yetirdiyi məsələlərdən olmuşdur: "Biz bütün qonşularla səmərəli, işgüzar şəraitdə əməkdaşlıq edirik və öz siyasətimizi çox açıq şəkildə aparırıq. Azərbaycanın müstəqil siyasət aparmaq imkanları məhz bizim iradəmizdən qaynaqlanır, iqtisadi gücümüzdən qaynaqlanır və əlbəttə ki, Azərbaycanın gələcəyi müstəqil siyasətimizdən çox asılıdır. Ona görə regional çərçivədə apardığımız işlər Azərbaycanın mövqelərini möhkəmləndirmişdir".

Dövlət başçısı yüksək dinamizmlə inkişaf edən Azərbaycanın beynəlxalq arenadakı nüfuz və mövqelərinin daha da gücləndirilməsini, respublikamız haqqında tam obyektiv, dolğun informasiyaların dünya ictimaiyyətinə çatdırılmasını səfirliklərimiz qarşısında vacib məsələ kimi qoymuşdur. Respublikamızın sosial-iqtisadi sahədə qazandığı nailiyyətlərin dünya miqyasında təbliğ olunması beynəlxalq əməkdaşlıq əlaqələrinin gücləndirilməsi baxımından da olduqca vacibdir. Azərbaycanın zəngin təbii resurslara, habelə Şərqlə Qərbi qovuşduran əlverişli tranzit imkanlarına malik olması, qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi iştirak etməsi, eləcə də balanslaşdırılmış xarici siyasət yeritməsi onun dünyanın siyasi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə əlaqələrinin genişlənməsinə yeni imkanlar açır. Qlobal iqtisadi layi-hə-lərin uğurla həyata keçirilməsi həm də siyasi aspektdən

Azərbaycan üçün son dərəcə faydalıdır. Prezident İlham Əliyev haqlı olaraq hesab edir ki, sosial-iqtisadi sahədəki həlledici uğurlar xaricdə fəaliyyət göstərən səfirliklərimizin, diaspor təşkilatlarımızın respublikamızla bağlı dolğun və hərtərəfli təbliğat aparması, habelə Azərbaycana investisiya qoyuluşunu təşviq etməsi baxımından daim istinad ediləcək zəngin informasiya bankı rolunu oynayır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Cənubi Qafqazın ən ciddi problemi kimi indiyə qədər həllini tapmaması bütövlükdə Xəzər hövzəsi regionunda sülhə, sabitliyə və iqtisadi əməkdaşlığa potensial təhlükə mənbəyi kimi çıxış edir. Azərbaycanın 20 faizdən artıq ərazisini işğal altında saxlayan bu təcavüzkar dövlətin ən müxtəlif səviyyələrdə ifşası, erməni lobbisinin respublikamıza qarşı apardığı bədnam təbliğata qarşı effektiv əks-hücumun təşkili ötən il də xarici siyasətdə prioritet məsələlərdən olmuşdur.

Bu gün də Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən Azərbaycanın xarici siyasəti əsası Heydər Əliyev tərəfindən qoyulmuş dünya ictimaiyyətinin bütün xoşməramlı üzvlərilə qarşılıqlı faydalı münasibətlərin hərtərəfli inkişafı kursuna öz möhkəm sadiqliyini nümayiş etdirməkdədir və Azərbaycan Respublikasının çiçəklənməsi, davamlı tərəqqi və əhalinin rifahının təmin edilməsinə yönəldilmişdir. Kompleks və çoxşaxəli xarakter daşıyan bu prosesin çərçivəsində aparılan diplomatik fəaliyyət bir neçə əsas istiqamətdən ibarətdir, birlikdə isə onlar müstəqil Azərbaycanın xarici siyasətini təşkil edir. Ölkə-

miz bu istiqamətdə addım atarkən beynəlxalq diplomatiya təcrübəsinə və xalqımızın min illərin sınağından çıxmış milli-mənəvi dəyərlərinə əsaslanır. Diplomatiya təcrübəsi xarici ölkələrlə ünsiyyət qurmaq üçün lazımdırsa, milli-mənəvi dəyərlər həmin ünsiyyətin düzgün məcrada, mehriban qonşuluq şəraitində inkişaf etdirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Hər halda bu iki təməl üzərində qurulan xarici siyasətimiz yaxın qonşularla münasibətdə çox böyük uğurlar əldə edilməsinə zəmin yaratmışdır.

Beləliklə, etiraf etməliyik ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət xətti bu gün prezident İlham Əliyev tərəfindən yaradıcı şəkildə davam etdirilir. Xarici siyasətdə varislik prinsipinin qorunub saxlanması çox mühüm əhəmiyyət daşıyır. 2003-cü ildə xalqın böyük etimadı və dəstəyi ilə Prezident İlham Əliyevin dövlət rəhbərliyinə gəlməsi ölkənin inkişafında yeni dönüş mərhələsi kimi xarakterizə olunur. Azərbaycanı Heydər Əliyev yolu ilə irəliyə aparan prezident İlham Əliyev ötən illər ərzində bütün sahələrdə ciddi və əhəmiyyətli uğurlara nail olmuşdur. Azərbaycan diplomatiyasının yeni şəraitdə qarşısında dayanan vəzifələri Prezident İlham Əliyev tərəfindən dəqiq şəkildə müəyyən edilərək reallaşdırılmaqdadır. Həmin reallığın nəticəsidir ki, bu gün Azərbaycan bütün parametrlərinə görə bölgənin lider dövlətidir. Azərbaycanın söykəndiyi balans siyasəti nəticəsində ölkəmiz dünyanın aparıcı dövlətləri ilə sıx əməkdaşlıq qura bilmiş, beynəlxalq təşkilatlarda – BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz Əməkdaşlığı, İqtisadi

Əməkdaşlıq təşkilatı və s. bu kimi qurumlarda mövqelərini möhkəmləndirmişdir.

Məlumdur ki, hər bir dövlətin xarici siyasət xəttini yalnız onun milli maraqları müəyyənləşdirir. Odur ki, geosiyasi baxımdan əlverişli və eyni zamanda mürəkkəb regionda – Avropa ilə Asiyanın kəsişdiyi Cənubi Qafqazda və karbohidrogen ehtiyatları ilə zəngin Xəzər hövzəsində yerləşən Azərbaycan milli müstəqilliyini bərpa edəndən dərhal sonra region və dünya dövlətlərinin ciddi maraq obyektinə çevrilmişdir. Keçmiş sovet imperiyası dağıldıqdan sonra bu bölgədə yaranmış geosiyasi vakuumu doldurmaq üçün həm regionun, həm də dünyanın iri dövlətləri sözün həqiqi mənasında yarışa girdilər. Şərq-Qərb və Şimal-Cənub tranzit ticarət yollarının qovşağı rolunu oynayan bölgədə mövqe qazanmaq və möhkəmlənmək həyati əhəmiyyət kəsb edirdi. Qarşıya qoyulan məqsədə çatmaq üçün seçilən üsullar da müxtəlif idi. Qərb iri məbləğdə investisiyalar, konkret layihələr və bölgənin gənc dövlətlərinə milli müstəqilliyini möhkəmləndirmək üçün dəstək təklif edirdi. İri regional qüvvələr isə ilk növbədə coğrafi yaxınlıqdan yararlanaraq kobud vasitələrə üstünlük verir, idarə olunan qeyri-sabitlik şəraiti yaratmaqla bölgəyə nəzarəti əlində saxlamağa çalışırdı. İri dövlətlərin geosiyasi mübarizəsi ilk növbədə Azərbaycan üçün kədərli oldu. Məlum havadarlarının köməyi ilə Ermənistan Azərbaycan ərazisinin böyük bir hissəsini işğal etdi və beləliklə, bölgədə uzunmüddətli qeyri-sabitliyə zəmin hazırladı. Oxşar vəziyyət bölgənin digər ölkəsində –

Gürcüstanda da yarandı: Abxaziya və Cənubi Osetiyada separatçıların mərkəzi hökumət üzərində "qələbə"si qeyri-sabitlik yaradıcılarının planlarına müvəffəqiyyət qazandırdı. Bütün bunların ardınca strateji məsələlər həll edilməli idi. Yəni yaradılması nəzərdə tutulan və hələ ideya şəklində olan beynəlxalq əhəmiyyətli kommunikasiya xətləri, Xəzər nefti və onu xaricə nəql edəcək boru kəmərləri üzərində nəzarət ələ keçirilməli idi. Bu məsələlərin hər biri ayrı-ayrılıqda Azərbaycan üçün sərt sınaqlardan, ciddi təhlükələrdən xəbər verirdi. Prezident Heydər Əliyev cəbhə xəttində atəşin dayandırılmasına nail oldu və bütün səylərini Xəzərdən doğan təhlükələrin qarşısını almağa yönəltdi.

Gizli və aşkar təzyiqlərə baxmayaraq, müstəqil Azərbaycan üçün, sözün həqiqi mənasında, tarixi hadisə baş verdi: 1994-cü ilin 20 sentyabrında Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə istismarı haqqında dünyanın iri neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında ilk müqavilə "Əsrin müqaviləsi" imzalandı. Xəzəryanı dövlətlər bu müqaviləni tanımayıb, onun qanunsuz bağlandığını elan etdi. Bəhanə də vardı: Xəzərin beynəlxalq hüquqi statusu hələ müəyyənləşdirilməmişdir. Etiraz edənlər arasında Rusiyanın o vaxtkı rəhbərliyinin mövqeyi paradoksallığı ilə seçilirdi: rəsmi Moskva həm "Əsrin müqaviləsi"ndə iştirak edir, həm də müqaviləni tanımırdı. "Əsrin müqaviləsi" imzalanandan cəmi iki həftə sonra Azərbaycanda dövlət çevrilişi cəhdi baş verdi. Azərbaycan dövlətçiliyini hədəfə götürmüş daxili irtica və onun xaricdəki havadarları çox güclü idilər. İqtidarın devrilməsi eh-

timalı böyük idi. Lakin çevriliş cəhdi uğursuzluğa düçar oldu: Heydər Əliyevin siyasi qətiyyəti, vəziyyətdən çıxış yolu tapmaq məharəti əks tərəfin silahından güclü çıxdı. Lakin bununla da Xəzərdə cərəyan edən proseslərlə bağlı Azərbaycana təzyiqlər azalmadı. Sututarın statusu məsələsi gündəlikdən düşmürdü. Əslində statusun müəyyənləşdirilməsini ən çox istəyən Azərbaycan idi. Bakı Xəzərin milli sektorlara bölünməsini təklif edirdi. Amma onun bu mövqeyini sahilyanı dövlətlərdən heç biri dəstəkləmirdi. Xəzərlə bağlı mübahisələrdə Rusiya dənizin sərvətlərini ümumi istifadədə saxlamağı tələb edir və onu digər regional güc – tran da dəstəkləyirdi. Digər iki dövlət – Qazaxıstan və Türkmənistan ən yaxşı halda susurdu. Həqiqətdə isə Xəzərin statusu heç kimi maraqlandırmırdı. Münaqişəli vəziyyət yaratmaqda məqsəd Azərbaycanın Xəzərdə neft çıxarmasına və nəticə etibarilə dövlətimizin böyük perspektivlər vəd edən beynəlxalq əməkdaşlığa qoşulmasına imkan verməmək idi. Xəzər ətrafında gedən dramatik və təhlükəli oyunlarda Azərbaycan tək idi, amma qəti mövqedə idi. Prezident Heydər Əliyev neft və onunla bilavasitə bağlı məsələlərdə, hər cür təzyiqlərə baxmayaraq, bir addım da geri çəkilmədi. Əvvəla, Azərbaycanın mövqeyi obyektiv və beynəlxalq hüquq normalarına uyğun idi, həm özünün, həm də digər sahilyanı dövlətlərin mənafeyini tam nəzərə alırdı. İkincisi, neft Azərbaycan üçün təkcə çoxlu gəlir gətirə biləcək karbohidrogen yox, ilk növbədə tale məsələsidir. Neft, hər şeydən əvvəl, milli dövlətçiliyimizin və təhlükəsizliyimizin möhkəmlənmə-

sinə xidmət etməlidir. Ona görə də neft məsələsində hansısa güzəşt ola bilməzdi. Prezident Heydər Əliyev axıradək prinsipial mövqe nümayiş etdirdi və uğur qazandı. Xəzərin statusu məsələsində mövqeyini dəyişən Azərbaycan yox, Rusiya oldu. Moskva dənizin dibinin milli sektorlara bölünməsi ideyasını qəbul etdi. Qazaxıstan da eyni cür hərəkət etdi. Ardınca Xəzəryanı ölkələr arasında müvafiq ikitərəfli saziş imzalandı. Doğrudur, Xəzərin beynəlxalq hüquqi statusu indiyədək müəyyənləşdirilməmişdir. Lakin bu istiqamətdə irəliləyiş göz qabağındadır: Xəzərdə əvvəlki münaqişə potensiallı vəziyyət aradan qaldırılmışdır; dənizin hövzəsində gərginliyi tədricən konstruktiv əməkdaşlıq əvəz edir; Azərbaycan öz sektorunda neft hasilatını ildən-ilə artırır. Xəzər uğrunda mübarizə başlayanda iri dövlətlər öz maraqlarını ortaya qoymuşdular. Nəzərə alınmayan təkcə Azərbaycanın maraqları idi. Prezident Heydər Əliyev Azərbaycanın maraqlarını qəbul etdirdi. Dünya dövlətləri əmin oldular ki, hər bir regionla olduğu kimi, Cənubi Qafqaz-Xəzər bölgəsində də aparıcı mövqeyə malik, bir növ qovşaq rolu oynayan dövlət var və bu, Azərbaycandır. Azərbaycanın mövqeyini nəzərə almadan bu bölgədə fəaliyyət göstərmək cəhdi uğursuzluğa məhkumdur. Prezident Heydər Əliyev eyni qətiyyəti strateji boru kəmərləri layihəsinə münasibətdə də nümayiş etdirdi. Bu layihəni inhisara alıb Azərbaycan neftini nəzarət altında saxlamaq istəyən məlum qüvvələr hələ də boru kəmərlərinin inşasına mane olmaq cəhdlərindən əl çəkmirdilər. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismarı çoxdan

başlayıb. Bakı-Tbilisi-Ərzurum qaz kəməri isə yaxın gələcəkdə reallaşdırılacaq. Başqa sözlə, prezident Heydər Əliyevin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi Xəzər siyasəti sayəsində dənizin hövzəsində qarşılıqlı faydalı əməkdaşlıq mühiti formalaşmışdır. Bu, Azərbaycanın mənafeyinə tam uyğundur.

Yeri gəlmişkən, dünya dövlətləri XXI əsrin mühüm enerji mənbələrindən biri olacağı gözlənilən Xəzər hövzəsinə xüsusi əhəmiyyət verir. ABŞ hövzəni özünün milli maraqlar zonası elan etmişdir. Digər dövlətlər də Xəzərdə çoxtərəfli əməkdaşlığa qoşulur və ya qoşulmağa çalışırlar. Təbii ki, dünya birliyi Xəzər hövzəsində əməkdaşlığın bundan sonra da davam etdirilməsində maraqlıdır. Bu isə daha çox Azərbaycanın perspektivdə həyata keçirəcəyi siyasətdən asılıdır. Nəticə etibarilə ölkəmizdə siyasi varislik məsələsi yenə də gündəlikdə qalır. Bu mənada dünya dövlətlərinin hazırkı siyasəti davam etdirmək əzmində olan prezident İlham Əliyevi dəstəkləməsi qanunauyğun haldır. Əlbəttə, Azərbaycan dövlətinə rəhbərlik etmək iddiasında olan hər bir şəxs bəyan edə bilər ki, o, hakimiyyət sükanı arxasına keçəndən sonra dövlətin indiki siyasətinə sadiq qalacaq. Lakin bəyanat bir şeydir, konkret iş isə başqadır. İlham Əliyev doqquz il ARDNŞ-in xarici əlaqələr üzrə birinci vitse-prezidenti vəzifəsində çalışmışdır. Onun fəaliyyəti daha çox xarici siyasətlə bağlı olmuşdur. İlham Əliyev AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, sonra isə AŞPA-nın sədr müavini və büro üzvü olarkən də əslində xarici siyasətlə məşğul idi. Azərbayca-

nın yeni neft strategiyasının reallaşdırılması istiqamətində gördüyü işlər – ABŞ, Böyük Britaniya, Rusiya və digər ölkələrin iri neft şirkətləri, dövlət və hökumət nümayəndələri ilə apardığı intensiv danışıqlar, keçirdiyi görüşlər, bir tərəfdən, konkret və səmərəli nəticələrə gətirib çıxarmış, digər tərəfdən isə, onun siyasi şəxsiyyət kimi formalaşmasına və əcnəbi həmkarları arasında nüfuz qazanmasına yol açmışdır. Nüfuz isə yalnız siyasətçinin şəxsi məziyyətləri hesabına yaranır. Xarici diplomatların özləri də etiraf edirlər ki, Azərbaycanın yeni prezidenti təmas zamanı xoş təsir bağışlayır. Odur ki, əcnəbi tərəfdaşlar yaxından tanıdıqları, fəaliyyətinə və baxışlarına yaxşı bələd olduqları həmkarla əməkdaşlığa üstünlük verirlər. Onlar belə bir həmkarı artıq püxtələşmiş, yetkin siyasətçi kimi özünü təsdiqləmiş İlham Əliyevin şəxsində görürlər. Ölkəmizin dünya dövlətləri ilə əməkdaşlığı yuxarıda qeyd olunanlarla məhdudlaşmır. Hazırda beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, bu kontekstdə terrorizmlə mübarizə beynəlxalq siyasətin gündəliyində duran ən vacib məsələlərdəndir. ABŞ-da baş vermiş 11 sentyabr terror hadisələrindən sonra bu məsələ daha da aktuallaşmışdır. Qeyd etmək lazımdır ki, həmin hadisələrədək dünya birliyində terrorizmə münasibətdə ikili standartlar müşahidə olunurdu. Erməni terrorundan əziyyət çəkən Azərbaycanın səsini eşidən, problemlərinə anlaşıqla yanaşanlar az idi. 11 sentyabr hadisələri bu sahədə vəziyyəti kökündən dəyişdi. Beynəlxalq terrorizmə qarşı mübarizə başlayandan bəri Azərbaycan bu mübarizəni ardıcıl şəkildə dəstəkləyir və terro-

rizmin dayaqlarını sarsıdan beynəlxalq koalisiya ilə fəal əməkdaşlıq edir. Dövlətimiz Əfqanıstanda aparılan antiterror əməliyyatına öz töhfəsini vermişdir və bu istiqamətdə səylərini davam etdirir. Beynəlxalq terror şəbəkələrinə ağır zərbə endirilsə də, mübarizə bitməmişdir və bu istiqamətdə görüləsi işlər hələ çoxdur. Azərbaycan antiterror koalisiyasına rəhbərlik edən ABŞ-la sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Ölkəmizin terrorizmlə mübarizə sahəsində göstərdiyi səylər antiterror koalisiyası tərəfindən yüksək qiymətləndirilir.

Bu gün Azərbaycanın yürütdüyü siyasət çevik, praqmatik eyni zamanda hücumçu diplomatiyaya söykənən bir siyasətdir. Xarici siyasətimizin qarşısında duran ən ümdə vəzifələrdən biri Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin həllinə diplomatik yolla ciddi və əsaslı dəstək vermək və mühüm irəliləyişlərə nail olmaqdır. Azərbaycanın xarici siyasətində atılan addımlar, Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri, keçirilən görüşlər, aparılan danışıqlar da bu irəliləyişlərin əyani sübutudur. Cənab İlham Əliyevin yürütdüyü siyasət Heydər Əliyevin müəyyən etdiyi xətlə davam edir ki, bu da balanslaşdırılmış xarici siyasət kursudur. Əsas mahiyyət isə budur ki, Azərbaycan bölgənin aparıcı dövlətidir. Azərbaycan dövlət müstəqilliyini cəmi 16 ildir ki, bərpa edib. Ölkəmizin iqtisadi, siyasi, hərbi potensialını nəzərə alaraq demək olar ki, Azərbaycan indi dünya siyasətində öz yerini möhkəmləndirmək uğrunda mübarizə aparan gənc və müstəqil ölkələrin sırasındadır.

Dünyanın əsas aparıcı dövlətlərinin "Böyük səkkizlər" adı altında birləşdiyi hamımıza yaxşı məlumdur. Bu gün Orta Doğuda, Qafqazda, Afrikada, mərkəzi Amerikada və digər dövlətlərdə təbii sərvətlərə, o cümlədən, geopolitik baxımdan müəyyən ərazilərə nəzarət uğrunda hərbi siyasi güc mərkəzləri arasında anlaşılmazlıq açıq şəkildə özünü büruzə verir. Qafqaz hərbi-siyasi güc mərkəzlərinin görüş meydanlarından biri olsa da, dövlətimiz üçün əsas təhlükə Azərbaycanın hansısa tərəflər üçün bir təcrübə meydanına çevrilməsi ola bilərdi. Təəssüf ki, istiqlalımızın ilk illərində hakimiyyətdə olan qüvvələr məhz Azərbaycanı bu döyüş mərkəzlərindən birinə çevirmişdilər. 1993-1994-cü illərdə ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi konsepsiyalar bunun qarşısını aldı. Bu gün böyük fəxrlə demək olar ki, Azərbaycan artıq beynəlxalq aləmdə, bölgədə, hərbi, iqtisadi baxımdan mübarizə aparan qüvvələr üçün barış mərkəzinə çevrilmişdir. Bir tərəfdən Qərb dövlətləri ilə iqtisadi layihələri həyata keçiririk, digər tərəfdən isə Avroatlantik məkanda inteqrasiya yolunda addımlar atırıq. Xarici siyasətimizin uğurlarından danışarkən bildirmək istərdik ki, ölkəmizin beynəlxalq imici güclənir. Azərbaycan etibarlı tərəfdaş, dost ölkə kimi beynəlxalq təşkilatlarda və dünyada öz yerini möhkəmləndirir. Ümumiləşdirdikdə isə belə qənaətə gəlmək olar ki, bu siyasətin məqsədi Qarabağ probleminin həllinə təkan vermək, Azərbaycanın iqtisadi təhlükəsizliyini təmin etmək və dövlətimizin beynəlxalq arenada nüfuzunu daha da gücləndirməkdir.

İlham Əliyev ölkənin geosiyasi maraqlarını xalqın milli maraqları ilə uzlaşdırmağa nail oldu. Azərbaycanın xarici siyasəti dövlətçilik ənənələri zəminində təşəkkül tapıb formalaşmış siyasətdir. O, özünün əvvəlki dövrlərdə mövcud olmuş xaotik və ovqata köklənmiş formalarından çıxaraq məhz ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mükəmməl və təkmil konsepsiya şəklində formalaşmışdır. Azərbaycan xarici siyasətinin son dövr mənzərəsini onun məhsuldar mərhələsi kimi səciyyələndirmək mümkündür və bu mərhələ öz başlanğıcını cənab İlham Əliyevin ölkənin Baş naziri olduğu vaxtdan götürüb. Baş nazir kimi Türkiyə və ABŞ-a işgüzar səfərləri cənab İlham Əliyevin bu ölkələrin Azərbaycan üçün hansı önəm kəsb etdiyini, əməkdaşlıq və tərəfdaşlıq məsələlərində hansı prioritet istiqamətlərin önə çəkildiyini ortaya qoymaqla yanaşı, ən müxtəlif coğrafi vektorlar üzərində yerləşən ölkələrlə siyasi-iqtisadi və diplomatik münasibətlərin daha taleyüklü və müstəsna əhəmiyyət daşıdığını nümayiş etdirdi. Ölkə Prezidentinin Rusiyaya rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin keyfiyyət və mahiyyətcə yeni mərhələyə qədəm qoyduğundan soraq verdi. 2003-cü ilin sentyabrında BMT Baş Məclisinin 58-ci sessiyasındakı çıxışı cənab İlham Əliyevin Azərbaycanın ümummilli problemlərinin həlli naminə ardıcıl, sistemli və yorulmaz fəaliyyət göstərdiyini, bu prinsipin onun xarici siyasət doktrinasının özəyini təşkil etdiyini təsdiqlədi. Beş ay ərzində müxtəlif ölkələrin Bakıdakı səfirlərini, habelə çoxsaylı diplomatik missiyaların rəhbərlərini qəbul edən

cənab İlham Əliyev Azərbaycanın həmin ölkələrlə bərabərhüquqlu, qarşılıqlı fayda və əməkdaşlığa söykənən münasibətlər qurmaq əzmini açıqlamaqla yanaşı, Dağlıq Qarabağ problemi və onun həlli yolları barədə də müzakirələr aparmışdır. Həmin dövrdə cənab İlham Əliyev Baş nazir kimi doqquz dəfə xarici ölkə jurnalistləri ilə təmasda olmuş, müsahibələr vermiş, düzənlənmiş tədbirlərdə çıxış etmişdir. Prezidentimizin uğuru ondadır ki, o, böyük siyasətçi, mahir diplomat, intellektual ziyalı, savadlı iqtisadçı və ən nəhayət, maraqlı həmsöhbət kimi düşünməyi, inandırmağı bacarır. İlham Əliyev sanki lider olmaq, öncül olmaq, örnək olmaq üçün dünyaya gəlib. Onun çıxdığı ailə, nəsil, genetik daşıyıcısı olduğu zəngin irs bu statusu labüd edir. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın bərabər mənafelərlə beynəlxalq əməkdaşlığı özündə əks etdirən maraqları tam təmin olunmuşdur. Prezident İlham Əliyev xüsusi geosiyasi əhəmiyyətli addımların atılmasında balans anlayışına ciddi əhəmiyyət verir. Peşəkar diplomat olan Azərbaycan Prezidentinin bu məharəti həm də Heydər Əliyevin siyasət – diplomatiya məktəbindən əxz etməsi şübhəsizdir. Olduqca mürəkkəb geosiyasi nöqtədə, dünyanın güc mərkəzlərinin maraqlarının toqquşduğu bölgədə yerləşən Azərbaycan xarici siyasətdə çoxqütblü dünya prinsipini önə çəkərək dünyanın hər bir siyasi qütbü ilə eyni səviyyəli münasibətlərə nail olmuşdur.

Azərbaycanın xarici siyasət prioritetləri – Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsi, regionda sülh və sabitliyin təmin

olunması, bölgədə xarici ölkələrin hərbi bazalarının yerləşdirilməsinin qarşısının alınması, qlobal enerji-kommunikasiya layihələrinin həyata keçirilməsi zamanı Azərbaycanın milli maraqlarının qorunması və digər bu kimi məqsədlərdən ibarətdir. Rəsmi Bakı dünya siyasi müstəvisində tutduğu yerdən, mövqedən asılı olmayaraq, Azərbaycanın müstəqil dövlətçilik idealına hörmətlə yanaşan, ölkəmizin inkişafına, mövcud problemlərimizin həllinə hər hansı formada fayda verə biləcək bütün əməkdaşlıq təşəbbüslərində iştiraka hazır olduğunu bəyan edir. Eyni zamanda, bu təşəbbüslərdə iştirak o qədər yüksək diplomatik məharətlə həyata keçirilir ki, proses kiminsə maraqlarına qarşı yönəlmir. Əksinə, Azərbaycan getdikcə bütün geostrateji maraqların balanslaşdığı, geopolitik çəkişmələrin diskussiya məcrasına yönəldiyi dialoq, əməkdaşlıq məkanına çevrilir.

Azərbaycan beynəlxalq birliyin tamhüquqlu subyektinə çevrilmək, eyni zamanda, hərbi-siyasi təhlükəsizliyinə təminatı gücləndirmək üçün digər aparıcı beynəlxalq təşkilatlarla bir sırada NATO ilə əməkdaşlığa da mühüm önəm verir. Azərbaycan-NATO münasibətləri qarşılıqlı maraqlar əsasında, uğurla inkişaf etdirilir. Azərbaycan alyansla münasibətlərini regionun geosiyasi özəlliklərini nəzərə almaqla inkişaf etdirmək niyyətini gizlətmir və bu yöndə əməli addımlar atır. "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlıq ölkəmizə NATO hərbi strukturları ilə birgə təlimlər keçirmək, hərbi kadr hazırlığı sahəsində blokun təcrübəsindən bəhrələnmək və digər imkanları

yaradır. Bu əməkdaşlıq strateji məzmun kəsb etməklə regionun mühüm enerji layihələrinin təhlükəsiz gerçəkləşdirilməsinə də əsas verir. Ölkəmiz NATO-ya yeni daxil olmuş dövlətlərin modern ordu quruculuğu sahəsindəki addımlarını yaxından izləyir, bundan praktiki surətdə bəhrələnir. NATO standartlarına cavab verən peşəkar ordu quruculuğunu sistemli və ardıcıl şəkildə həyata keçirən respublikamız alyansın müxtəlif proqramlarında da yaxından iştirak edir. Azərbaycan ordusunun əsgər və zabit heyətinin NATO sülhməramlılarının tərkibində Kosovoda, Əfqanıstanda və İraqda keçirilən əməliyyatlarda iştirak hüququ qazanması faktını da xüsusi vurğulamaq lazımdır. Bu o deməkdir ki, təşkilat münaqişə ocaqlarının söndürülməsində, mübahisələrin həllində, bir sözlə, qlobal planda sülh və sabitliyin təminatında Azərbaycanın potensialmı yüksək qiymətləndirir.

Azərbaycanın NATO ilə əməkdaşlıq münasibətləri qlobal planda sülh və sabitliyə xidmət etməklə regionun nəhəng enerji layihələrinin təhlükəsiz gerçəkləşdirilməsinə əsaslı təminat verir. Xəzərin enerji resurslarının dinc şəraitdə mənimsənilməsi, habelə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təhlükəsizliyinin təminatı baxımından Azərbaycan-NATO əməkdaşlığı mühüm əhəmiyyətə malikdir. Bakıda ardıcıl olaraq NATO tədbirlərinin keçirilməsi bu təşkilatda Azərbaycanla əməkdaşlığa olan yüksək marağın ifadəsidir. Azərbaycan regiondakı proseslərdə lider rolunu oynamaqla, təşkilatın ən etibarlı, sadiq müttəfiqinə çevrilib. Ümumiyyətlə, dünyanın nüfuzlu beynəlxalq təşkilatla-

rında fəal təmsilçilik açıq və demokratik cəmiyyət quruculuğu yolu ilə sürətlə addımlayan müstəqil Azərbaycan dövlətinin xarici siyasət strategiyasında bu gün də aparıcı istiqamətlərdən biri kimi nəzərə çarpır. Ölkəmizin BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı kimi nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətləri də yüksələn xətt üzrə inkişaf edir. Azərbaycan həmçinin MDB, GUAM kimi əməkdaşlıq formatlarında böyük fəallıq nümayiş etdirməklə malik olduğu imkanlarla öz üstün mövqeyini ildən-ilə artırır və əsas söz sahiblərindən biri-nə çevrilir. Bu təşkilatlarla siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və digər sferaları əhatələyən əməkdaşlıq əlaqələri çoxşaxəli xarakter daşımaqla Azərbaycanın dövlət maraqlarının daha dolğun şəkildə ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə yönəlmişdir.

Xarici siyasət strategiyası dövlətlərin gücü, qüdrəti, resursları, dünya siyasətindəki rolu və yerindən asılı olaraq müxtəlif məqsəd və vəzifələr üzərində qurulur. Hər bir dövlət özünəməxsus prinsip və xüsusiyyətlərlə fərqlənən müxtəlif istiqamətli daxili və xarici siyasət yeridir. Dövlətçiliyin, müstəqilliyin, ərazi bütövlüyünün, milli təhlükəsizliyin qorunması, beynəlxalq aləmə çoxşaxəli inteqrasiyanın təmin olunması, enerji asılılığının azaldılması, iqtisadi və geostrateji maraqların ödənməsi, vətəndaşların firavan yaşayışının təmin olunması xarici siyasətdə mühüm istiqamətlər kimi nəzərdən keçirilir. Xarici siyasət və diplomA-

tiya, eyni zamanda, hər bir dövlətin beynəlxalq arenada nüfuz və mövqelərinin möhkəmlənməsinə, ümummilli problemlərinin həllinə yönəlir. Müstəqil Azərbaycan Respublikası da son 16 ildə xarici siyasətini məhz bu vacib meyarlar əsasında müəyyənləşdirərək qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləmiş, tarazlı xarici siyasət yeritməklə müxtəlif maraqların toqquşduğu Cənubi Qafqaz regionunun rəqabət və qarşıdurma meydanına çevrilməsinə yol verməmiş, milli mənafelərini yetərincə qoruya bilmişdir. Respublikamızın xarici siyasət fəaliyyətinin formAlaşması prosesi Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi ilə paralel getdiyindən meydana çıxan problemlər rəsmi Bakının xarici siyasətinə də müəyyən təsirini göstərmişdir. Rəsmi Bakı bütün beynəlxalq və regional məsələlərə münasibətdə beynəlxalq norma və prinsiplərə əsaslanmış, ayrı-ayrı dövlətlərlə sivil, bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əlaqələrə üstünlük vermiş, "ikili standartlara" qarşı çıxmışdır. Yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yeridən müstəqil Azərbaycan Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi dövlətçilik fəlsəfəsi respublikamızın müasir dünyada xüsusi yerini müəyyənləşdirməklə, milli dövlətçiliyimizin bünövrəsini təşkil etmiş, beynəlxalq əlaqələrində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Ulu öndərin rəhbərliyi altında

Azərbaycanın xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri ümummilli mənafelərə əsaslanan xətlə inkişaf etmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətlidir.

Ulu öndərimiz Heydər Əliyevin balanslaşdırılmış xarici siyasət doktrinasını uğurla davam etdirən Prezident İlham Əliyev dünya siyasətinə əsaslı təsir imkanları olan dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək istiqamətində böyük səy və əzmkarlıq göstərir. Dövlət başçısı dünyada gedən mürəkkəb, ziddiyyətli proseslər fonunda respublikanın müstəqilliyini və milli təhlükəsizliyini daha da möhkəmləndirməyə nail olmuşdur. Azərbaycan dövlətinin xarici siyasətinin gücləndirilməsi, fəal və çevik diplomatiyanın həyata keçirilməsi, xaricdə yaşayan azərbaycanlıların mütəşəkkil qüvvə kimi formalaşdırılması, diaspor və lobbi quruculuğu 2006-cı ildə Prezident İlham Əliyevin xüsusi diqqət yetirdiyi məsələlərdən olmuşdur. Cənab İlham Əliyev dünya azərbaycanlılarının ötən ilin mart ayında Bakıda keçirilmiş ikinci qurultayında milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm

vəzifələrin düşdüyünü qeyd etmiş, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mübarizə aparması ilə bağlı dəyərli tövsiyələrini vermişdir. Eyni zamanda, xüsusi vurğulamışdır ki, xarici ölkələrdə güclü diaspor və lobbi formalaşdırmadan xarici siyasətdə qarşıya qoyulmuş strateji hədəflərə çatmaq, milli maraq və mənafeləri beynəlxalq səviyyədə müdafiə etmək qeyri-mümkündür. Azərbaycanın xarici ölkələrdəki 37 səfirliyindən 20-si məhz 2004-2006-cı illərdə dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə açılmışdır. Diplomatik xidməti layiqli kadrlarla təmin etmək məqsədilə XİN-də işə qəbul test üsulu və müsabiqə əsasında aparılır. Son vaxtlar Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşü, İslam Konfransı Təşkilatının xarici işlər və turizm nazirlərinin toplantıları, "Beynəlxalq rus kitabı festivalı" və digər mühüm beynəlxalq tədbirlər keçirilmişdir. Bütün bunlar Azərbaycanın fəal diplomatiya yeridən, nüfuz və mövqelərini ildən-ilə gücləndirən, artan iqtisadi imkanlarını xarici siyasətin daha səmərəli təşkili məqsədinə sərf edən dövlət olduğunu bir daha nümayiş etdirir.

Azərbaycan Prezidentinin xarici siyasət kursu müstəqil dövlətimizin milli mənafelərinə hörmətlə yanaşan bütün beynəlxalq təşkilatlar və xarici dövlətlərlə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi müstəvisi üzərində qurulmuşdur. Avropa ailəsinə inteqrasiya edən Azərbaycanda cəmiyyət bütün liberal dəyərləri mənimsəmiş, insan hüquq və azadlıqları, bütün demokratik dəyərlər tam bərqərar edilmişdir. Bu illərdə Avropa Şurası qarşısında

götürülən öhdəliklər yerinə yetirilmiş, ölkəmiz Avropa Birliyinin "Yeni Qonşuluq Siyasəti" proqramına qoşulmuş və bu proqram çərçivəsində fərdi tərəfdaşlıq layihəsi artıq təsdiqlənmişdir.

Bu gün müstəqil Azərbaycan inkişafının elə yüksək mərhələsindədir ki, respublikamızın bütün həyati əhəmiyyətli sahələrdə qazandığı böyük uğurlar beynəlxalq səviyyədə geniş təbliğ olunmalıdır. Prezident İlham Əliyevin diplomatlarla görüşdəki proqram xarakterli, dərin məzmunlu nitqi də məhz xarici siyasət sahəsində perspektiv fəaliyyət prioritetlərinin müəyyənləşdirilməsi baxımından aktuallığını qoruyub saxlayır. Dövlət başçısı yüksək dinamizmlə inkişaf edən Azərbaycanın beynəlxalq arenadakı nüfuz və mövqelərinin daha da gücləndirilməsini, respublikamız haqqında tam obyektiv, dolğun informasiyaların dünya ictimaiyyətinə çatdırılmasını səfirliklərimiz qarşısında vacib məsələ kimi qoymuşdur. Respublikamızın sosial-iqtisadi sahədə qazandığı nailiyyətlərin dünya miqyasında təbliğ olunması beynəlxalq əməkdaşlıq əlaqələrinin gücləndirilməsi baxımından da olduqca vacibdir. Azərbaycanın zəngin təbii resurslara, habelə Şərqlə Qərbi qovuşduran əlverişli tranzit imkanlarına malik olması, qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi iştirak etməsi, eləcə də balanslaşdırılmış xarici siyasət yeritməsi onun dünyanın siyasi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə əlaqələrinin genişlənməsinə yeni imkanlar açır. Qlobal iqtisadi layihələrin uğurla həyata keçirilməsi həm də siyasi aspektdən Azərbaycan üçün son dərəcə faydalıdır.

Dövlət rəhbəri ölkəmizin inkişafına, milli təhlükəsizliyinə, demokratik tərəqqisinə xidmət edən balanslaşdırılmış xarici siyasət strategiyasına daim sadiqdir. Azərbaycan xarici dövlətlərlə ikitərəfli münasibətlərin inkişafı üçün bütün imkanlardan faydalanır, çoxqütblü dünya prinsipini əldə rəhbər tutaraq Azərbaycanla münasibətlərin inkişafına maraq göstərən bütün xarici dövlətlər və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edir. Azərbaycan Qərbin mövqeyini təmsil edən ölkələr və təşkilatlarla da, islam dünyası ilə də, işğalçı Ermənistan dövlətini çıxmaq şərtilə postsovet ölkələri ilə də bərabər səviyyəli əməkdaşlıq əlaqələrinə malikdir. Bütün bunlar Azərbaycan xalqının ümummilli maraqlarına cavab verməklə yanaşı, dünya üçün də çox önəmlidir. Cənab İlham Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu, Azərbaycanın timsalında bütün siyasi iddiaların, geostrateji mAraqların, fərqli sivilizasiyaların mübahisə müstəvisindən normal dialoq, diskussiya məcrasına yönəldiyi təhlükəsiz, sabit bir məkan formalaşdırır. Azərbaycanın cəmiyyətimizdə mövcud olan dini, milli tolerantlıq mühitinə görə bütün dünya üçün örnək sayılması da BMT, ATƏT kimi nüfuzlu beynəlxalq qurumların etirafıdır. Bütün bunlar ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində də Azərbaycanın imkanlarını genişləndirir.

Beləliklə, Azərbaycanın beynəlxalq aləmdə yeri və rolunun getdikcə möhkəmlənməsi uğurla həyata keçirilən xarici siyasət kursunun məntiqi nəticəsidir. Əsası ümum-

milli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, xalqımızın və ölkəmizin milli mənafeyinə hesablanan siyasi kurs Azərbaycanın dünyada müstəqil siyasət yürüdən dövlət kimi tanınmasına gətirib çıxarmışdır. Xarici siyasət kursunun prioritet istiqamətlərindən biri də məhz ölkəmizin inkişaf etmiş dövlətlərlə səmərəli əməkdaşlığının təmin edilməsinə yönəldilmişdir. Ən başlıcası isə odur ki, Azərbaycanın xarici siyasət sahəsində mühüm uğurlar əldə etməsi, beynəlxalq əməkdaşlıq paytaxtına çevrilməsi respublikamızın balanslaşdırılmış xarici siyasət kursunun son üç ildə inamla davam etdirilməsi və bu sahədə varislik ənənələrinin qorunması ilə şərtlənir. Prezident İlham Əliyevin xarici siyasətdə ulu öndərimiz tərəfindən müəyyənləşdirilmiş vahid strategiya və dəyişməz prioritetlərə sadiqlik nümayiş etdirməsi dünya dövlətlərinin Azərbaycana inamını, etimadını gücləndirən ən başlıca amil kimi vurğulana bilər.

Xarici siyasətdə qarşıda duran hədəflərin dəqiq şəkildə müəyyənləşdirilməsi, bu sahədə həyata keçirilən diplomatiyanın daha çevik və işlək mexanizmlərə əsaslanması, yeni səfirliklərin açılması yolu ilə Xarici İşlər Nazirliyinin fəaliyyətinin gücləndirilməsi Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Bu gün Azərbaycanın 160-a yaxın dövlətlə diplomatik münasibətləri, 37 ölkədə səfirliyi, beynəlxalq təşkilatlar yanında 4 nümayəndəliyi, 5 baş konsulluğu, 1 konsulluğu, 2 fəxri konsulluğu fəaliyyət göstərir. Xüsusi vurğulamaq lazımdır ki, xarici ölkələrdə təsis edilmiş 46 səfirlikdən 21-i 2004-2007-ci illərdə

dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə açılmışdır. Dövlət başçısı bununla kifayətlənmir və Azərbaycanın imkanları artdıqca, yeni səfirliklərin açılacağını bildirir: "...Bizim artıq 46 ölkədə səfirliyimiz təsis edilibdir. Bəzi ölkələrdə hələ səfirlik yaranmayıb, onlarda da yaranacaqdır. Son iki il ərzində 21 ölkədə səfirlik təsis olunubdur. Biz bunu nə üçün edirik? Baxmayaraq ki, çox böyük maliyyə vəsaiti tələb edir, ona görə edirik ki, Azərbaycanı tanısınlar, Azərbaycan müxtəlif ölkələrdə öz mövqelərini möhkəmləndirə bilsin. Bizim imkanlarımız artsın və dünyada gedən proseslərdə Azərbaycanın rolu artsın. Bu istiqamətdə hələ böyük işlər görmək lazımdır".

Prezident İlham Əliyevin fəaliyyətinin təhlili göstərir ki, bu müddətdə konturları hələ Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla davam etdirilmiş, zəruri hallarda dövrün tələblərinə uyğun olaraq keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir. Prezidentin bugünkü fəaliyyəti deməyə əsas verir ki, o, Heydər Əliyev ideyalarının sadəcə davamçısı yox, eyni zamanda bu ideyaları XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun olaraq təkmilləşdirən, inkişaf etdirən qüdrətli şəxsiyyət, alternativsiz liderdir.

İlham Əliyevin rəhbərliyi altında qazandığı uğurlar təkcə ölkəmizin sosial-iqtisadi inkişafı, insanlarımızın maddi-rifah halının yaxşılaşması, respublikamızda işsizlik, yoxsulluq kimi ağır problemlərin səviyyəsinin bir neçə dəfə aşağı düşməsi ilə məhdudlaşmır. Ötən dövr ərzində Azərbaycanın beynəlxalq nüfuzu güclənmiş, müstəqil döv-

lətimiz yeni dünya düzənində özünə layiqli yer tutmuşdur. Ölkəmizin bu gün qlobal enerji-kommunikasiya layihələrinin əsas iştirakçısı kimi Qafqaz və ümumilikdə, Avropada əsas söz sahiblərindən birinə çevrilməsi də danılmaz həqiqətdir.

Dövlət başçısı yüksək siyasi qətiyyət nümayiş etdirərək Azərbaycan üçün taleyüklü məsələlərin yoluna qoyulmasına nail olmuşdur. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri artıq istifadəyə verilmiş, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi uğurla başa çatmış, vaxtilə bir çoxlarına əfsanə kimi görünən bu layihələr reallığa çevrilərək Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına daşınmasını təmin etmişdir. Azərbaycanın bu gün Avropanın enerji təhlükəsizliyi sisteminin əsas təminatçısı qismində çıxış etməsi danılmaz faktdır. Enerji təhlükəsizliyi məsələsinin bu gün müstəqil dövlətlər üçün nə dərəcədə böyük problem olmasını qonşu dövlətlərin nümunəsində dəfələrlə müşahidə etmişik. Bu problem bir çox hallarda ölkələrin müstəqilliyini təhdid edən, müstəqil dövlətlərin demokratik inkişafına maneə yaradan çox ciddi əngələ çevrilir. Azərbaycan isə nəinki belə problemlərdən uzaqdır, üstəlik, respublikamız Avropa regionunun enerji təhlükəsizliyinin təminatında əsas söz sahiblərindən biri kimi çıxış edir. Bu fakt Azərbaycanın dünya üçün önəmini daha da artırır, ölkəmizin Avroatlantik strukturlara inteqrasiya prosesini sürətləndirir.

Azərbaycan malik olduğu enerji resursları ilə bu gün ümumilikdə Avropa regionunun enerji təhlükəsizliyinin ən başlıca təminatçısına çevrilmişdir. Sirr deyil ki, enerji təhlükəsizliyi məsələsi bu gün bütün dünya üçün ən aktual məsələlərdən biri və bəlkə də. birincisidir. Uğurla reallaşan qlobal enerji layihələri dünya üçün ölkəmizin önəmini daha da artırır. Bu, müstəqil dövlətimizin gələcək təhlükəsizliyi, respublikamızdakı ictimai-siyasi sabitliyin daimiliyi üçün möhkəm təmələ söykənən əsaslar formalaşdırır.

Ölkəmizin daha böyük tərəqqisinə əsaslı zəmin yaradan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və digər nailiyyətlər ulu öndər Heydər Əliyevin strateji inkişaf kursunu uğurla həyata keçirən İlham Əliyevin öz xalqına, millətinə dəyərli töhfələridir. BTC neft kəmərinin istifadəyə verilməsi faktı Azərbaycanı ümumilikdə Avropa regionunun enerji təhlükəsizliyinin başlıca təminatçısına çevirmişdir. Bu misilsiz nailiyyət Azərbaycanın uzunmüddətli iqtisadi strategiyasını müəyyənləşdirməklə bərabər beynəlxalq aləmdə ölkəmizin mövqelərini daha da artırır, Avroatlantik strukturlara inteqrasiyası prosesini sürətləndirir, ölkəmizin yaxın gələcəkdə Avropa İttifaqına tamhüquqlu üzv qəbul edilməsi üçün malik olduğu imkanların sırasını genişləndirir. Hər halda Avropa İttifaqı rəsmilərinin Avropa regionunun enerji təhlükəsizliyi ilə bağlı Azərbaycanla apardıqları danışıqlar, ölkəmizin Avropada qonşuluq siyasəti proqramında aktiv iştirakı bu məqsədə doğru atılan ilk mühüm addımlardır.

Ölkəmizin beynəlxalq siyasi müstəvidə layiq olduğu yeri tutaraq mövqelərini gündən-günə gücləndirməsi kənardan müstəqil dövlətimizə qarşı yönəlmiş riskləri azaldır. Üçüncü çağırış Milli Məclisin payız sessiyasının ilk iclasındakı çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: “Biz ölkəmizi qorumalıyıq, riskləri azaltmalıyıq. Öz siyasətimizlə Azərbaycanda və Azərbaycanın ətrafında əməkdaşlıq məkanı yaratmalıyıq”.

Müasir qloballaşma dövründə hər bir dövlətin neft və qaz kəmərləri sistemi onun enerji təhlükəsizliyində vacib amil kimi çıxış edir. Bu baxımdan əsas məsələ təkcə boru kəmərinin çoxvariantlılığı deyil, həm də bu kəmərlərin hansı ölkələrin ərazisindən keçməsidir.

Təsadüfi deyil ki, “Əsrin müqaviləsi” imzalanandan sonra hasil olunacaq milyonlarla ton xam nefti Qərb bazarlarına daşıyacaq boru kəmərlərinin marşrutu mübahisəli məsələlərdən olmuşdur. İlk gündən bununla əlaqədar müxtəlif təklif və ideyalar irəli sürülür, hətta bəzi region dövlətlərinin Azərbaycana təzyiq cəhdləri də özünü büruzə verirdi. Çünki Xəzərin zəngin karbohidrogen ehtiyatlarının Qərb bazarlarına nəqli məsələsi təkcə Azərbaycanın deyil, eyni zamanda Rusiyanın təsir dairəsindən çıxa bilməyən bəzi MDB dövlətlərinin enerji təhlükəsizliyi baxımından da strateji əhəmiyyət kəsb edirdi. Rəsmi Bakı bu məsələdə yalnız iqtisadi səmərəlilik amilini deyil, həm də fövqəlgüc dövlətlərinin mənafelərini əsas götürməklə balanslaşdırılmış xarici siyasət kursuna sadiqlik nümayiş etdirməli idi. Ulu öndərimiz Heydər Əliyevin qətiyyətli

mövqeyi, eləcə də həmin illərdə ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin danışıqlar prosesində nümayiş etdirdiyi yüksək diplomatik məharət, tərəfdaşı təkzibedilməz və alternativsiz arqumentlər hesabına inandırmaq bacarığı sayəsində Azərbaycan neftinin nəqli marşrutları barədə optimal qərarlar qəbul edildi. 1996-cı ilin yanvar ayında "Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında" Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalandı, 1997-ci il oktyabrın 12-də isə həmin xətt istifadəyə verildi. Geosiyasi amillərlə bağlı ixrac boru kəmərlərinin çoxvariantlılığının zəruriliyi alternativ layihələr üzərində də gərgin iş aparılmasını tələb edirdi. 1997-ci ildə neftin Qara dənizə çıxarılması üçün onun Bakı-Tbilisi-Supsa marşrutu ilə nəqli haqqında Azərbaycanla Gürcüstan hökumətləri arasında saziş imzalandı. 1999-cu ilin 17 aprelində isə müstəqil Azərbaycanın tarixində daha bir əlamətdar hadisə yaşandı. Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 km, illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Beləliklə, Azərbaycan Qərbə alternativ çıxış imkanı qazanaraq "təkvektorlu" boru kəməri asılılığından çıxdı. Əsas ixrac neft boru kəmərinin hansı ölkələrin ərazisindən keçəcəyi isə təkcə Azərbaycan üçün deyil, ümumilikdə regionda iqtisadi maraqları olan Qərb dövlətləri üçün də strateji məsələlər sırasında idi. Mümkün marşrutlar içərisində hansının

siyasi, kommersiya, iqtisadi, ekoloji və təhlükəsizlik baxımından daha əlverişli olması uzun müddət dünya siyasətinin aparıcı mövzusuna çevrildi. Məsələnin aktuallığı həm də Bakı-Novorossiysk və Bakı-Tbilisi-Supsa neft kəmərlərinin Azərbaycanın getdikcə artan ehtiyaclarını ödəyə bilməməsi, xüsusən də birincinin geosiyasi baxımdan əlverişli olmaması, rəsmi Bakıya təzyiq alətinə çevrilməsi ilə şərtlənirdi. Region dövlətlərinin əksəriyyəti əsas ixrac boru kəmərinin məhz öz ərazisindən keçməsinə çalışırdı. Çünki bu, regional kommunikasiya vasitəsi üzərində nəzarətlə yanaşı, həm də külli miqdarda tranzit gəliri demək idi. Bu, bütövlükdə Avropa və dünya siyasətinə nüfuz etmək baxımından alternativsiz təzyiq imkanının qazanılması demək idi. Belə bir prinsipial məsələdə səhvə yol verməyin ölkənin milli maraqları baxımından yolverilməzliyini yaxşı bilən ümummilli liderimiz son nəticədə əsas ixrac neft boru kəmərinin ən optimal variantı üzərində dayandı. Heydər Əliyev regionun geosiyasi mənzərəsini və mövcud siyasi münasibətlər sistemini nəzərə alaraq əsas ixrac boru kəmərinin Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə çəkilməsi vacibliyini önə çəkdi.

Ümummilli liderimizin bu məsələ ilə bağlı seçimi son dərəcə düzgün olub obyektiv gerçəkliyin tələbi kimi meydana çıxmışdı. İqtisadi cəhətdən nisbətən baha başa gəlsə də, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin üzərində təkidlə israr edən Heydər Əliyev bunun strateji və siyasi baxımdan ən düzgün qərar olduğunu sübuta yetirdi. 2006-cı il iyulun 13-də istismara verilmiş Bakı-Tbilisi-

Ceyhan əsas ixrac neft boru kəməri layihənin bilavasitə iştirakçısı olan ölkələrin iqtisadi maraq və mənafelərinin təminatı ilə yanaşı, həm də həmin dövlətlərin uzun zamandan bəri aktual məsələ kimi gündəmdə özünə yer etmiş enerji təhlükəsizliyi probleminin həlli baxımından geniş imkanlar əldə etməsi deməkdir. Əsas enerji mənbələrinə nəzarət uğrunda rəqabətin kəskinləşməsi BTC-nin gerçəkləşməsinə və səmərəli əməkdaşlıq mexanizminə çevrilməsinə olan marağın gerçək miqyası barədə kifayət qədər aydın təsəvvür yaradır. Qərb dövlətlərinin neftə olan tələbatının ödənməsində əsas ağırlığı üzərinə götürən bu nəhəng mühəndis qurğusu ümumilikdə Avropa dövlətlərinin enerji təhlükəsizliyi baxımından fundamental mahiyyət daşıyır. BTC ABŞ və Qərb dövlətləri ilə müttəfiq münasibətlərində olan dövlətlərin birgə əməkdaşlıq layihəsi olmaqla yanaşı, həm də subregional enerji təhlükəsizliyi modelinə çevrilməkdədir. Layihəyə ilk gündən dəstək verən ABŞ hökuməti onun iqtisadi və siyasi əhəmiyyətinin daha da artmasına təsir göstərən bütün təşəbbüsləri dəstəkləyir. Zəngin neft ehtiyatlarına malik Qazaxıstanın BTC-yə qoşulması məsələsinin rəsmi Vaşinqton tərəfindən təqdir olunması da bunun əyani təsdiqidir. Rəsmi Astananın Rusiyanın maraq dairəsində olan Xəzər Boru Kəməri Konsorsiumuna (XBKK) deyil, BTC-yə qoşulmağa üstünlük verməsi sadəcə, iqtisadi sərfəlilik meyarına söykənmir. Qazaxıstanın BTC-yə qoşulmaq qərarı kəmərin iqtisadi-siyasi əhəmiyyətini artırmaqla yanaşı, ABŞ-ın Cənubi Qafqaz və Orta Asiya regionu ilə bağlı maraqlarına tamamilə

uyğundur. Perspektivdə Xəzər dənizinin dibi ilə çəkiləcək daha bir neft kəməri Orta Asiya regionunun Avropaya alternativ çıxışını təmin edəcək. Bu kəmər həm də Azərbaycanın enerji təhlükəsizliyinin daha da gücləndirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. BTC-nin işə düşməsi həm də Qərbə inteqrasiya prosesində eyni mövqedə olan, müxtəlif regional məsələlərdə maraqları uzlaşan GUAM dövlətlərinin enerji təhlükəsizliyi baxımından vacibdir. GUAM-ın ötən il yeni formatlı beynəlxalq quruma çevrilməsi də, əslində, Ukrayna, Gürcüstan və Moldovanın Rusiyanın neft-qaz asılılığından çıxması, bu dövlətin ərazisindən yan keçməklə çoxşaxəli enerji-kommunikasiya sistemi yaratmaq istəyi ilə bağlıdır. Rusiyanın enerji təhdidlərindən ən çox əziyyət çəkən bu dövlətlər Azərbaycanla əməkdaşlığa həyati əhəmiyyətli məsələ kimi yanaşırlar. Xatırladaq ki, 2006-cı ilin dekabrında Gürcüstanın Baş nazirinin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı Azərbaycan hökuməti qonşu dövlətə mavi yanacaq satışına razılıq vermiş və bununla əlaqədar ikitərəfli saziş imzalanmışdır. Gürcüstanın dövlət başçısı Mixail Saakaşvili Azərbaycan Prezidenti İlham Əliyevin bu qətiyyətli qərarını alqışlamış və qəhrəmanlıq nümunəsi kimi qiymətləndirmişdir. Əldə olunmuş razılaşmaya əsasən, 2007-ci il yanvarın 10-dan Azərbaycandan Gürcüstana sutkada 3 milyon kubmetr (hər kubu 120 ABŞ dollarına) təbii qaz verilməlidir. Göründüyü kimi, Azərbaycanın zəngin təbii resursları istər Ukraynanı, istərsə də Gürcüstanı Rusiyanın enerji asılılığından çıxara bilər. Bu baxımdan

Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərlərinin istismara verilməsi Gürcüstan, Ukrayna və Moldova üçün prinsipial əhəmiyyət kəsb edir. Bu respublikalar Azərbaycanın təbii sərvətlərinin Qərb bazarlarına daşınması ilə bağlı özlərinin tranzit imkanlarının genişləndiyini açıq etiraf edirlər. Ukrayna hökumətinin strateji məqsədlərindən biri hazırda Xəzər neftinin Qərb bazarlarına daşınması prosesində özünün tranzit-kommunikasiya imkanlarını gerçəkləşdirmək və bu yolla enerji təhlükəsizliyini təmin etməkdir. Rəsmi Kiyevin 10 ilə yaxın müddətdə üzərində israr etdiyi layihələrdən biri də məhz Xəzər neftinin Odessa-Brodı-Qdansk kəməri ilə nəqlini nəzərdə tutur. İstər texniki imkanların yetərli səviyyədə olmamasına, istərsə də daşınma qiymətlərinin bahalığına görə indiki mərhələdə tam qənaətbəxş sayılmayan həmin layihənin hansısa mərhələdə aktuallaşacağına ümid bəsləyən rəsmi Kiyev bu məqsədlə Azərbaycan və Qazaxıstan hökumətlərinin razılığını almağa çalışır. 2004-cü ildə Ukrayna hər iki ölkəyə rəsmən müraciət edərək Bakı-Tbilisi-Supsa kəmərinin davamı kimi Odessa-Brodı-Qdansk layihəsini dəstəkləməyə çağırıb. Xəzərin neft ehtiyatlarının yüksək həcmini nəzərə alan ekspertlər qarşıdakı illərdə Odessa-Brodi layihəsinin aktuallaşacağını qətiyyən istisna etmirlər. Bu kəmər hansısa mərhələdə Azərbaycan neftinin dünya bazarına çıxarılmasında alternativ vasitələrdən birinə çevrilə bilər. Azərbaycanın və region dövlətlərinin etibarlı enerji təhlükəsizliyinin təminatında boru kəmərləri sistemi ilə yanaşı, nəqliyyat-kommunikasiya şəbəkəsinin də rolu xü-

susi vurğulanmalıdır. Dəmir yolu, o cümlədən magistral avtomobil yolları enerji daşıyıcılarının lazımi ünvanlara maneəsiz çatdırılmasında geniş imkanlara malikdir. Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində Böyük İpək yolunun bərpası üzrə keçirilən tədbirlər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin inkişafı, onların iqtisadi potensialından daha səmərəli istifadə edilməsi, çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsi, ən başlıcası, enerji təhlükəsizliyinin təminatı üçün əlverişli şərait yaradır. Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyətə malikdir. Avropa Birliyi Azərbaycanın regiondakı rolunu yüksək qiymətləndirməklə respublikamızla enerji sektorunda əməkdaşlığı genişləndirmək niyyətini açıq bəyan edir. Dövlət başçısı İlham Əliyevin ötən il Brüsselə gerçəkləşən səfəri zamanı təşkilatın Baş katibi Xavyer Solana rəhbərlik etdiyi Avropa Birliyinin Azərbaycanla ikitərəfli münasibətlərin genişləndirilməsində maraqlı olduğunu xüsusi vurğulamış, "Yeni qonşuluq siyasəti" proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin bu baxımdan mühüm nəticələr verəcəyinə əminliyini ifadə etmişdir. "Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyur. Yeni qonşuluq siyasətinə dair tədbirlər planının həyata keçirilməsi gələn

həftənin ikinci günündən etibarən başlanacaqdır və bu, təkcə enerji sahəsinə aid deyildir. Burada bir çox digər müddəalar da vardır. Prezident həmçinin vurğuladı ki, siyasi, iqtisadi və digər sahələrdə dəyişikliklərin olması üçün çox iş görülür və bu, faydalıdır. Biz Azərbaycanla ikitərəfli münasibətlərimizi dərinləşdirmək əzmindəyik və bu, təkcə enerji sahəsini əhatə etmir. Baxmayaraq ki, o, vacib sahədir. Azərbaycan yalnız enerji məhsulları ölkəsi deyil, regionun mühüm ölkəsidir". Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun imzaladıqları Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun əhəmiyyətini də xüsusi vurğulamaq lazımdır. Bu memorandum, ilk növbədə, Azərbaycanın Avropa məkanının enerji təhlükəsizliyindəki müstəsna rolunu aşkara çıxarır. Daxili tələbat daxili imkanlar hesabına ödənilir. Azərbaycan Prezidenti cənab İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk gündən ölkəmizin güclü enerji sektoruna malik dövlətə çevrilməsi üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Dövlət başçısının göstərişi əsasında Mingəçevirdə və Əli Bayramlıdakı istilik elektrik stansiyalarında fəaliyyət göstərən blokların əsaslı təmir-bərpa işləri yerinə yetirilmiş, Bakıda Bayramzadə adına və "Şimal" istilik elektrik stansiyaları istismara verilmiş, Sumqayıtda istilik elektrik stansiyası bərpa olunmuşdur. Hazırda əlavə olaraq Sumqayıtda daha bir elektrik stansiyası tikilir. Astarada, Xaçmazda və Naxçıvanda modul tipli

elektrik stansiyaları istismara verilmişdir. Prezident İlham Əliyev çıxışlarında hasil edilən elektrik enerjisinin son hədd olmadığını bildirərək ölkənin müvafiq struktur rəhbərlərindən enerji təhlükəsizliyi sisteminin daha da yaxşılaşdırılması sahəsində qarşıda duran çoxsaylı tədbirlərin görülməsini tələb edib. Azərbaycanın regionda enerji təhlükəsizliyini müstəqil şəkildə təmin edən azsaylı dövlətlərdən biri olduğunu Rusiya qazının qiymətlərinin artırılması zəminində cərəyan edən gərgin proseslər də təsdiqlədi. Rusiyanın Avropa və MDB ölkələrinə ixrac etdiyi təbii qazın qiymətlərini qaldırmaq niyyəti əksər dövlətlərin etirazı ilə qarşılansa da, Azərbaycan hökuməti ilk gündən bu məsələdə kifayət qədər obyektiv və təmkinli mövqe tutdu. Prezident İlham Əliyev "Exo Moskvı" radiosuna müsahibəsində mavi yanacağın qiymətlərinin artırılmasını Rusiyanın daxili işi kimi qiymətləndirdi və respublikamızın bundan narahatlıq keçirmədiyini bildirdi. Bununla yanaşı, dövlət başçısı "Qazprom" şirkətinin qiymətləri qaldırmaq qərarının Rusiya-Azərbaycan münasibətlərinin hazırkı səviyyəsinə adekvat olmadığını da qeyd etdi. "Qazın qiyməti birdən-birə 230 dollara, son məqamda isə 235 dolleradək qaldırıldıqda bunun Rusiya-Azərbaycan münasibətlərinə uyğunsuzluğu hiss edilir. Bu isə təəssüf doğurur, çünki bizim münasibətlərimiz çox müsbət, çox konstruktiv tərzdə qurulur və energetika ilə müqayisədə daha geniş sahələri əhatə edir. Rusiyaya borcla bağlı problemi olmayan yeganə ölkə bizik. Biz qabaqcadan ödəmişik, biz borclu deyilik, heç vaxt müqavilələri pozmamışıq. Qiyməti

birtərəfli qaydada qaldırmağa və Azərbaycanı müəyyən dərəcədə məcburiyyət qarşısında qoymağa çalışmaqdansa birgə fəaliyyət, müştərək layihələr üçün təmas nöqtələrini axtarmaq daha məntiqi və ağlabatan olardı. Azərbaycanı məcbur etmək qeyri-mümkündür" deyən dövlət başçısı əlavə etdi ki, "Qazprom"un qiymətləri qaldırmaq, Azərbaycanın isə bundan imtina etmək hüququ var. Dövlət başçısı həmçinin bildirdi ki, yaranmış vəziyyət Azərbaycan hökumətini adekvat addımlar atmaq, maraqlarını məhz bu yolla müdafiə etmək məcburiyyətində qoya bilər. Söhbət Bakı-Novorossiysk kəməri ilə ixrac olunan xam neftin həcminin azaldılmasından gedir. Hadisələrin bu məcrada inkişafı Azərbaycan hökumətini elektrik stansiyalarını təbii qazla deyil, mazutla işlətməyə, deməli, həm də Rusiya ərazisi ilə nəql olunan xam neftin həcmini azaltmağa vadar edir. "Biz öz enerji balansımızı dəyişdirməli, onu mazut-qaz yanacağından mazut yanacağına keçirməliyik. Bu halda biz Azərbaycan neftinin Novorossiysk limanına nəqlini azaltmalı olacağıq. Gördüyünüz kimi, kommersiya baxımından belə aqressiv addım atıldıqda o, bu cür nəticələrə doğru aparır. Ən başlıcası odur ki, ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişafını o qədər də istəməyən qüvvələr bu vəziyyətdən istifadə etməsin və baş verən hadisələrin mahiyyətini siyasi baxımdan səhv yozmasınlar" – deyən Prezident İlham Əliyev qətiyyətlə bəyan etdi ki, Azərbaycanın kommersiya şantajı elementlərinə məruz qalan dövlətə çevrilməsinə qətiyyən yol verməyəcəkdir. Azərbaycan Prezidenti İlham

Əliyevin sədrliyi ilə ötən ay qış mövsümü ilə əlaqədar keçirilmiş müşavirə hökumətin siyasətində enerji təhlükəsizliyi məsələsinin mühüm yer tutduğunu bir daha təsdiqlədi. Xatırladaq ki, bu məsələyə həssaslıqla yanaşan Prezident İlham Əliyev hələ yay aylarında xüsusi müşavirə keçirmiş, əhalinin qış mövsümündə qaz və elektrik enerjisi ilə fasiləsiz təminatı üçün bütün zəruri tədbirlərin keçirilməsini aidiyyəti orqanlardan tələb etmişdi. Son müşavirə isə göstərdi ki, Azərbaycanın daxili imkanları – uğurla həyata keçirilən neft strategiyası, tikintisi geniş vüsət almış modul tipli elektrik stansiyaları, habelə infrastrukturu tamamilə yeniləşən qaz sənayesi əhalinin qış mövsümündə hansısa ciddi kommunal problemlərlə üzləşməsini istisna edir. Dövlət başçısı Azərbaycanın elektrik enerjisi ilə təminatının daha da yaxşılaşdırılması üçün hökumət səviyyəsində digər tədbirlərin də həyata keçirildiyini diqqətə çatdırdı, 2008-ci ilədək əlavə iki min meqavatdan çox elektrik enerjisinin istehsal olunacağını bildirdi. Cənab İlham Əliyev hesab edir ki, görülən işlər Azərbaycanın elektrik enerjisi ixrac edən ölkəyə çevrilməsi ilə nəticələnəcək: "Bilirsiniz ki, Sumqayıt elektrik stansiyası tikilməkdədir. "Şimal-2" elektrik stansiyasının tikintisi üçün lazımi işlər görülür. Bakıda, Səngəçalda 300 meqavat gücündə modul tipli stansiyanın tikintisi nəzərdə tutulur. Eyni zamanda, Mingəçevir Elektrik Stansiyasında yenidənqurma işləri aparılır. Beləliklə, 2008-ci ilə qədər əlavə 2 min meqavatdan çox enerji istehsal olunacaqdır. Bu, çox böyük irəliləyişdir. Azərbaycanın mövcud enerji potensialının,

deмək olar ki, 50-60 faizinə bərabərdir. Beləliklə, biz Azərbaycanın elektrik enerjisinə tələbatını tam şəkildə təmin edəcəyik və gələcəkdə ixrac haqqında da fikirləşmək mümkün olacaqdır”. Qış mövsümünə həsr olunmuş müşavirə eyni zamanda göstərdi ki, əhalinin qazla təminatı sahəsində həyata keçirilən tədbirlər də uğurlu nəticələr verir. Azərbaycanın hər bir bölgəsinin qazlaşdırılacağını deyən Prezident İlham Əliyev bunu əməli işi ilə sübuta yetirir. Dövlət başçısı Azərbaycanın yaxın perspektivdə daxili imkanlar hesabına mavi yanacağa olan ehtiyacını tamamilə ödəyəcəyi qənaətindədir: “...Rusiya tərəfi gələn il Azərbaycana veriləcək qazın miqdarını, demək olar ki, üç dəfə azaldır, qiymətini isə iki dəfədən çox artırmaq istəyir. Belə olan halda, əlbəttə, əlavə mənbələr axtarmaq zərurəti yaranır və ilk növbədə biz daxili resurslara arxalanmalıyıq. Mən, demək olar ki, bir neçə ay bundan əvvəl hadisələrin bu cür inkişafını təxmin edirdim. Çünki vəziyyətin inkişafı bunu göstərirdi. Ona görə 6 ay bundan əvvəl Dövlət Neft Şirkətinə göstəriş verilmişdir ki, bütün əsas səylərini qaz hasilatına yönəltsin, yeni işlər görülsün, kəmərlər tikilsin, qaz yataqlarında qazma işləri sürətləndirilsin. Əminəm ki, bunun nəticəsində gələn il Azərbaycanda hasil ediləcək qazın həcmi kifayət qədər artacaqdır... Bir sözlə, bu məsələ çox böyük əhəmiyyət kəsb edir. Çünki Azərbaycan öz daxili tələbatını tam şəkildə ödəməlidir. İlk növbədə əhali elektrik enerjisi və qazla təmin olunmalıdır”.

Bütün bunlar bir daha təsdiqləyir ki, Prezident İlham

Əliyevin həyata keçirdiyi uğurlu enerji strategiyası Azərbaycanın milli təhlükəsizliyinin vacib komponenti kimi çıxış edir. Dövlət başçısı müasir dövrdə hər bir dövlətin iqtisadi potensialının və gücünün həm də onun enerji təminatının səviyyəsindən asılı olduğunun fərqindədir. Şübhəsiz, iqtisadi cəhətdən güclü olmayan dövlətin bu sahədə mövcud problemlərini həll edəcəyindən danışmaq da qeyri-mümkündür. Azərbaycan Prezidenti ölkənin artan iqtisadi potensialını məhz səmərəli və güclü enerji kompleksinin formalaşmasına yönəltməklə respublikamızın həm də daim müstəqil xarici siyasət yeritməsini təmin etməyə çalışır.

Xalqlarının taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlər, ilk növbədə, o cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə yönəlmiş milli ideyaları ilə tarixdə əbədiyaşarlıq hüququ qazanırlar. Milli irs və düşüncə sistemindən qaynaqlanan bu ideyalar dərin məzmun yükü ilə cəmiyyətin təkamül prosesində, tərəqqisində və monolitliyində aparıcı amilə çevrilməklə yanaşı, həm də tarixi şəxsiyyətlərə xalqı öz ətrafında birləşdirmək, milli ideallar uğrunda səfərbər etmək imkanı verir. Şəxsiyyətcə bütöv, milli və mütərəqqi olmayan liderlərin cəmiyyətin konsolidasiyası prosesinə nüfuz və təsir imkanlarından danışmaq da mümkün deyildir.

Dünyanın ən qədim xalqlarından olmaqla, bəşər sivilizasiyasına mühüm töhfələr vermiş azərbaycanlılar taleyin sərt sınaqları üzündən ötən əsrin 90-cı illərinədək vahid ideologiya ətrafında dövlətçilik ənənələrini for-

malaşdırmaq, ümummilli mənafelər ətrafında birləşmək imkanından məhrum idilər. 1991-ci ilin oktyabrında qan bahasına müstəqilliyə qovuşmuş Azərbaycanda cəmiyyətin qütbləşərək parçalanma təhlükəsi, milli maraq və mənafelər ətrafında səfərbər olunmaması, birlik və həmrəylik ideyalarının özünə yer tapmaması özünü ciddi problem kimi göstərmiş, milli inkişafı əngəlləyən amilə çevrilmişdi. Bunun nəticəsi kimi də 1993-cü ilin iyun ayınadək Azərbaycanda vətəndaş sülhü və həmrəyliyi mövcud olmamış, cəmiyyətdəki siyasi konfrontasiya kəskinləşərək ağır siyasi böhrana gətirib çıxarmış, bütövlükdə ölkə parçalanmaq və müstəqil dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşmişdi. 1992-ci ildə xalqın iradəsindən kənar formada hakimiyyətə gələn naşı qüvvələr xarici siyasətin prioritet istiqamətlərindən biri kimi diaspor və lobbi quruculuğuna diqqət yetirməmiş, müxtəlif səbəblərdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın vahid vətənləri – Azərbaycanla əlaqələrinin genişləndirilməsi, milli problemlərin həllində onların geniş potensialından istifadə edilməsi kimi vacib məsələlərə olduqca etinasız, laqeyd münasibət bəsləmişlər. 1991-1993-cü illərdə müstəqil Azərbaycanın ideoloji-siyasi, təbliğati müstəvidə Ermənistana məğlub olması, ciddi informasiya blokadasına məruz qalması, üzləşdiyi ağır faciələri dünya ictimaiyyətinə vaxtında və düzgün çatdıra bilməməsi məhz bu səhlənkarlığın, etinasızlığın acı fəsadları kimi diqqəti çəkir. Beynəlxalq nüfuz və mövqelərinin həddən artıq zəifliyi, erməni lobbisinin apardığı mənfur təbliğata qarşı effektiv

əks-hücumun təşkil edilməməsi bir çox hallarda respublikamıza qarşı ədalətsiz və qeyri-adekvat qərarların qəbuluna gətirib çıxarmışdı: Azərbaycanı uzun illər ABŞ yardımından məhrum edən "Azadlığı müdafiə aktı"na 907-ci düzəliş də məhz 1992-1993-cü illərdə ölkəyə rəhbərlik etmiş qüvvələrin yarıtmaz siyasətinin nəticəsi idi. O illərdə Azərbaycanın aparıcı qonşu dövlətlərlə münasibətləri daha da kəskinləşmiş, diaspor və lobbi quruculuğu sahəsində heç bir ciddi addımın atılmaması xarici siyasətdə çeşidli problemlər yaratmışdı. Bu arzuolunmaz vəziyyət yalnız ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra aradan qalxmışdır. Ulu öndərimiz müxtəlif səbəblərdən Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın vahid ideologiya və milli-mənəvi dəyərlər sistemi ətrafında birləşməsinə, onların malik olduğu güclü potensialın ümummilli problemlərin həllinə yönəldilməsinə xidmət edən bir sıra tədbirlər həyata keçirmişdir. İndi siyasi baxışlarından asılı olmayaraq hamı etiraf edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın istəyilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətidir. Heydər Əliyev Azərbaycana ikinci rəhbərliyi dövründə vətəndaş sülhü və ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır. Ümummilli liderimiz cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının

milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görmüş, ümumxalq birliyinin dərin politoloji və nəzəri əsaslarını irəli sürmüşdür. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən ulu öndərimiz yeritdiyi siyasətlə dünya azərbaycanlılarının ümummilli liderinə çevrilmişdir. Ulu öndərimiz Heydər Əliyev özünəməxsus uzaqgörənlik və müdrikliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən də Azərbaycan hakimiyyəti son 10 ildə dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışmışdır. Xarici ölkələrdə yaşayan soydaşlarımızla çoxşaxəli münasibətlər qurmaq, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər naminə səfərbər etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sahədə dövlət siyasətinin məqsədi xaricdə yaşayan soydaşlarımızın milli özünəməxsusluğunu qorumaq və inkişaf etdirmək, Azərbaycanla əlaqələrini genişləndirmək, habelə digər hüquqlarını reallaşdırmaqdan ibarətdir.

1994-1995-ci illərdə Azərbaycan yeni təhlükələrlə üzləşdiyi zaman, ümummilli liderimiz Heydər Əliyevin çağırışı ilə minlərlə həmvətənimizin ölkə başçısının ətrafında birləşməsi, ona dəstək verməsi milli birlik və həmrəyliyimizin tarixində ən parlaq səhifələrdəndir. 1996-cı ildən başlayaraq ölkəmizdə aparılan islahatlar nəticəsində ictimai-siyasi stabilliyin yaranması, bazar iqtisadiyyatının əsaslarının formalaşdırılması, hüquqi dövlət quruculuğu, sosial sahənin inkişaf etdirilməsi Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsinin başlıca əsaslarını qoydu. Bütün bu proseslər dünyanın müxtəlif bölgələrinə səpələnmiş, qəlbi Vətənin ritmi ilə döyünən soydaşlarımızın diqqət mərkəzində olmuş, onlarda sevinc hissləri doğurmuşdur. Müstəqil Azərbaycan Respublikası tarixən müxtəlif ictimai-siyasi və mədəni proseslər nəticəsində dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar, mənəvi dayaq və güvənc yerinə çevrilmişdir. Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq və mütəşəkkil birgə qüvvə təşkil etmək səylərinə ciddi fikir verir. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi olmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən keçirilmiş bu qurultay

dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır. Qurultayda 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatdan 403 nəfər nümayəndə və 63 nəfər qonaq iştirak etmişdir. Qurultaya ABŞ, Almaniya, Avstraliya, Avstriya, Böyük Britaniya, Danimarka, Estoniya, Gürcüstan, Hollandiya, İsrail, İsveçrə, Finlandiya, Fransa, Kanada, Qazaxıstan, Latviya, Moldova, Özbəkistan, Rumıniya, Rusiya, Türkiyə, Ukraynadan və başqa ölkələrdən nümayəndələr qatılmışdılar. Ümummilli liderimiz Heydər Əliyev həmin tarixi tədbirdəki çıxışında dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi zərurəti ilə bağlı fikirlərini söyləmişdir. Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, müxtəlif ölkələrdə dilimizin, tariximizin, mədəniyyətimizin yüksək səviyyədə təbliği, Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələləri qurultayın qarşıya qoyduğu başlıca vəzifələr kimi diqqəti cəlb etmişdir. Qurultaydan sonra

Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoydu. Ümummilli liderimiz Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzaladı. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar verdi. Dövlət komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Artıq dünya azərbaycanlılarının öz paytaxtlarında mənzil-qərargahı vardı – onlar istədikləri vaxt bura gələ və öz problemlərini müzakirə edə bilərdilər. Komitə qısa bir müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq oldu. 2002-ci ildə Milli Məclisdə qəbul olunmuş "Xaricdə yaşayan soydaşlarımıza dövlət qayğısı haqqında" qanun xaricdəki azərbaycanlılara dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirdi. Qanuna əsasən, xaricdə yaşayan, fəaliyyət göstərən soydaşlarımızın hüquqları Azərbaycan dövləti səviyyəsində qorunur. Habelə, imkanlı azərbaycanlıların ölkə iqtisadiyyatına sərmayə qoyması üçün qanunda vergi, gömrük güzəştləri nəzərdə tutulur. Bu qanun ölkəmizin diaspor və lobbi quruculuğu sahəsindəki fəaliyyətinin hüquqi əsaslarını və prinsiplərini müəy-

yənləşdirən mühüm sənəd kimi təqdirəlayiqdir. Hazırda Azərbaycan diasporunun dünyanın müxtəlif ölkələrində 200-dən çox birlik, cəmiyyət və assosiasiyası fəaliyyət göstərir. Belə birliklərdən Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyasını, Ukrayna Azərbaycanlıları Konqresini, Ümumrusiya Azərbaycan Konqresini, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti kimi qurumları göstərmək olar. YUNESKO-nun məlumatına görə, dünyada yaşayan 40 milyondan artıq azərbaycanlının 30 milyona yaxını İranda, 2,5 milyonu Türkiyədə, 2 milyonu Rusiyada, 1 milyonu ABŞ-da yaşayır. Ümumilikdə isə bu gün Avropanın, Asiyanın, Yaxın Şərqin əksər ölkələrində diasporumuzun dinamik fəaliyyətini hiss etmək olar. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu bu gün onun layiqli varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev hər zaman bildirmişdir ki, yalnız güclü diaspora malik xalqlar xarici siyasətdə mühüm uğurlar qazanır, dünya miqyasında mənafelərini hər zaman layiqincə qoruyur, ümummilli problemlərinin həllinə nail olur, öz dilini, mədəniyyətini, incəsənətini, tarixini lazımi səviyyədə təbliğ edirlər. Prezident İlham Əliyev hələ 27 iyul 2004-cü il tarixdə ölkə diplomatlarının iştirakı ilə Xarici İşlər Nazirliyində keçirdiyi geniş tərkibli müşavirədə diaspor quruculuğu işini xarici siyasət sahəsində prioritet istiqamətlərindən biri kimi qiymətləndirmiş və bu fəaliyyətin daha da gücləndirilməsi vacibliyini önə çəkmişdir. Dövlət başçısı milli mənafe və maraqların beynəlxalq aləmdə yüksək sə-

viyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd etmiş, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mücadilə aparması ilə bağlı dəyərli tövsiyələrini vermişdir. Ölkə Prezidenti Azərbaycan diasporunun fəaliyyətini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq niyyətindədir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı əsasında 2006-cı il martın 16-da keçirilən qurultayda xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğıları bir daha nəzərdən keçirilmiş, Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmlənməsi, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələr müzakirə edilmişdir. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində yeni vəzifələri müəyyənləşdirən bu qurultay, ümumilikdə, Azərbaycanın inkişafında, ən yeni tarixində əhəmiyyətli hadisəyə çevrilmişdir.

Prezident İlham Əliyev xaricdə yaşayan hər bir soydaşımızın maraq və mənafeyinin Azərbaycan dövləti tərəfindən qorunmasını təmin etmişdir. Xarici ölkələrdə yaşayan həmvətənlərimizlə əlaqələri genişləndirmək, onları ideoloji-siyasi müstəvidə silahlandırmaq və ümummilli mənafelər uğrunda səfərbər etmək son 14 ildə müstəqil Azərbaycanın xarici siyasətində mühüm istiqamətlərdən olmuşdur. Dövlət başçısı milli mənafe və maraqların bey-

nəlxalq aləmdə yüksək səviyyədə qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə dolğun, obyektiv şəkildə çatdırılması baxımından xaricdə yaşayan soydaşlarımızın üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd etmiş, onların daha da təşkilatlanması, vahid hədəflər naminə mütəşəkkil mücadilə aparması ilə bağlı dəyərli tövsiyələrini vermişdir. Bu sahədə qazanılan uğurlarla qətiyyən kifayətlənməyən Azərbaycan Prezidenti diasporumuzun fəaliyyətini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq niyyətindədir. Hazırda bu yöndə aparılan dövlət siyasətinin mAhiyyəti dünya azərbaycanlılarının potensial imkanlarını müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həlli naminə səfərbər etmək, milli birliyə, həmrəyliyə və mütəşəkkilliyə nail olmaqdır. Prezident İlham Əliyev ölkə diplomatlarının iştirakı ilə keçirdiyi müşavirədə diaspor təşkilatlarının qarşısına yeni vəzifələr qoymuşdur: “Xaricdə yaşayan azərbaycanlılar bu və digər məsələlərdə səfirliklərə öz köməyini göstərə bilərlər. Mən demək olar ki, səfər etdiyim əksər ölkələrdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmişəm. Biz, bir tərəfdən, onları qorumalıyıq, müdafiə etməliyik. Çalışmalıyıq ki, onlar yaşadıqları ölkələrin bütün təbəqələrində təmsil olunsunlar. Həm icra orqanlarında, həm qanunvericilik orqanlarında, həm də biznes sahəsində onların mövqeləri daha da güclənsin. Yəni bu, bizim vəzifəmizdir. Eyni zamanda, onlar da öz doğma vətənlərinə xidmət etməli, kömək göstərməlidirlər. Ona görə də səfirliklər Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə

Dövlət Komitəsi ilə sıx əlaqədə olmalıdırlar və xaricdə yaşayan soydaşlarımızla işlər daha yüksək səviyyədə qurulmalıdır”. Son üç ildə bu yöndə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini təmin edən Prezident İlham Əliyev müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. 2006-cı ilin dövlət büdcəsindən diaspor quruculuğu sahəsinə 5 milyon manatın (AZN) ayrılması da bu diqqət və qayğının bariz nümunəsi idi. 2006-cı ilin mart ayında Prezident İlham Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsində məqsəd hesabat dövründə diaspor quruculuğu istiqamətində görülmüş işləri dəyərləndirmək, xaricdə yaşayan soydaşlarımızın üzləşdiyi problemləri, yaşadıqları ölkələrin daxili siyasətinə təsir imkanlarını öyrənmək, onların tarixi Vətənlə daha geniş əlaqələrinin qurulmasına xidmət edən tədbirlərin hazırlanmasını təmin etməkdən ibarət olmuşdur. Qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir. Yüksək mütəşəkkillik və ruh yüksəkliyi ilə başa çatan qurultayın nəticəsi kimi Azərbay-

can diasporunun fəaliyyət konsepsiyasının hazırlanması barədə qərarın qəbul edilməsi, dünya azərbaycanlılarına müraciətin, habelə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı xüsusi bəyanatın, işğal olunmuş ərazilərdə tarixi abidələrimizin, mədəni irsimizin dağıdılması ilə bağlı beynəlxalq təşkilatlara müraciətlərin və digər sənədlərin qəbulu istər təbliğati, istərsə də səmərəli əks-hücumun təşkili baxımından strateji əhəmiyyətə malikdir. Müasir dövrdə diaspor quruculuğunun konkret zamanla məhdudlaşmayan, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli proses olduğunu xüsusi vurğulamağa ehtiyac yoxdur. Reallıq göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi yolunda hələ çox işlər görülməlidir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması deməyə əsas verir ki, yaxın illərdə Azərbaycan diasporu daha da güclənəcək, taleyüklü problemlərin həllində daha yaxından iştirak edəcəkdir.

Beləliklə, müasir dövrdə diaspor quruculuğunun konkret zamanla məhdudlaşmayan, strateji əhəmiyyət daşıyan, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli proses olduğunu xüsusi vurğulamağa ehtiyac yoxdur. Elə buna görə də bu sahədə qazanılmış nailiyyətləri, qarşıda duran mühüm vəzifələri vaxtaşırı müzakirə etmək zərurəti yaranır. Müxtəlif səbəblərdən xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin genişləndirilməsini xarici

siyasətdə prioritet istiqamətlərdən biri kimi nəzərdən keçirən Azərbaycan hakimiyyəti ölkədəki sosial-iqtisadi inkişaf strategiyasının mahiyyətinə uyğun olaraq diaspor quruculuğu sahəsində dövrün nəbz və tələbləri ilə səsləşən genişmiqyaslı tədbirlərin həyata keçirilməsini son dərəcə vacib sayır. Bu yöndə aparılan dövlət siyasətinin mahiyyəti dünya azərbaycanlılarının potensial imkanlarını müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həlli naminə səfərbər etmək, milli birliyə, həmrəyliyə və mütəşəkkilliyə nail olmaqdır.

Etiraf etməliyik ki, İlham Əliyev prezidentlik fəaliyyətinə başladıqdan sonra siyasətinin bütün proqram müddəalarını, o cümlədən, Dağlıq Qarabağ probleminin həllini ardıcıl şəkildə həyata keçirməyə başlayıb. Belə ki, bu müddət ərzində Ermənistanla danışıqların davam etdirilməsi ilə yanaşı, beynəlxalq təşkilatlarla iş və ikitərəfli əlaqələr sahəsində fəaliyyət daha da genişləndirilib, ən başlıcası isə Dağlıq Qarabağ məsələsi BMT Baş Assambleeyasına çıxarılıb.

İlham Əliyevin Avropa Şurasında Azərbaycan parlamenti nümayəndə heyətinin rəhbəri kimi başladığı səmərəli fəaliyyət, onun prezidentliyi dövründə də uğurla davam etdirilir. Azərbaycan Prezidentinin 2004-cü il aprel ayının 29-da Strasburqda çıxışı beynəlxalq aləmdə böyük maraq və diqqətlə qarşılandı. Bütün bunlar Avropa Şurasının 2005-ci ilin yanvarında Ermənistanı işğalçı dövlət, Dağlıq Qarabağı isə separatçı rejim kimi tanınmasına mühüm təsir göstərdi. Azərbaycan Prezidenti İlham Əliyevin

gərgin fəaliyyətinin nəticəsi olan bu və ya digər təkzibedilməz faktlar, əldə olunan uğurlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində ciddi dönüş yarandığını, Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq aləmdə getdikcə daha artıq müdafiə olunduğunu, işğal olunmuş Azərbaycan torpaqlarının geri alınacağı günün getdikcə yaxınlaşdığını sübut edir.

Bütövlükdə Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyi, həyata keçirilən qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrini ciddi şəkildə təhdid edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına və xalqımızın milli mənafeyinə uyğun həlli son dörd il ərzində də rəsmi Bakının xarici siyasətində prioritet məsələ olaraq qalmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin ardıcıl diplomatik səyləri ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda rəsmi Bakının siyasi-hüquqi və psixoloji üstünlüyünü təmin etməklə yanaşı, təbliğati baxımdan da son dərəcə əhəmiyyətli olmuşdur. Münaqişənin həlli strategiyası ilə bağlı ulu öndər Heydər Əliyevin beynəlxalq hüquq normalarına əsaslanmaqla müəyyənləşdirdiyi prioritetlərdən çıxış edən dövlət başçısı yeni siyasi mexanizmlərin tətbiqi yolu ilə prosesi Azərbaycanın milli maraqlarına uyğun irəliyə aparmışdır. Prezident İlham Əliyev real situasiyanı düzgün dəyərləndirərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə təsir amillərini gücləndirmək siyasətinə üstünlük vermişdir. Münaqişə tərəfləri arasında aparılan birbaşa təmasların intensivləşməsi, həm-

sədrlərin iştirakı ilə istər prezidentlər, istərsə də xarici işlər nazirləri səviyyəsində keçirilən bir sıra görüşlər son nəticədən asılı olmayaraq, prosesin "ölü nöqtə"dən çıxdığını deməyə müəyyən əsaslar verir. Bu da təsadüfi deyil, dünyada baş verən mühüm geosiyasi dəyişikliklər fonunda Cənubi Qafqazdakı bu əsas münaqişə ocağının söndürülməmiş qalması qlobal planda cərəyan edən proseslərə mənfi təsir göstərməklə yanaşı, burada iqtisadi və siyasi maraqları olan aparıcı dövlətlərin, habelə beynəlxalq təşkilatların mənafelərini də ciddi şəkildə təhdid edir. Bu, həm də İraq müharibəsindən sonra Qərbin aparıcı dövlətlərinin, xüsusən də, ABŞ-ın beynəlxalq sülh və təhlükəsizliyə əngəl törədən, mahiyyətcə regional çərçivədən çıxaraq qloballaşan münaqişə ocaqlarının söndürülməsinə yönəlmiş cəhdlərinin artması ilə bağlıdır.

Azərbaycanın diplomatik mövqelərinin güclənməsi özünü təkcə beynəlxalq təşkilatların təcavüzkar tərəfə təsir göstərmək səylərini intensivləşdirməsi ilə şərtlənmir. Artıq fövqəldövlətlər də münaqişənin həllinin uzanmasına görə narahatlıqlarını açıq ifadə edirlər. Münaqişənin həllinə beynəlxalq səviyyədə yönəlmiş səylərin nəzərə-çarpacaq dərəcədə güclənməsi, ATƏT-in Minsk qrupu səviyyəsində aparılan danışıqların xaotik məcradan çıxarılaraq konkret həll formatına salınması da rəsmi Bakının mühüm siyasi üstünlüyüdür. Hələ ötən ilin əvvəlində İlham Əliyev münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllini mümkün saydığını, sülh danışıqlarının da yalnız bu formatda aparıla biləcəyini qətiy-

yətlə vurğulayaraq bir daha aydın və qətiyyətli mövqe ortaya qoymuşdur. “Bir daha bəyan edirəm, nə 5 ildən sonra, nə 10 ildən sonra, nə 15 ildən sonra, nə də 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır. Mən nə qədər Prezidentəm, buna yol verməyəcəyəm” deyən dövlət başçısı Ermənistanla aparılan danışıqların nəticə verməyəcəyi təqdirdə Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün digər zəruri vasitələrdən, konkret hərb yolundan istifadə olunması məsələsinin ictimai müzakirəyə çıxarılacağını da açıq bəyan etmişdir. Bu qətiyyətli bəyanatı ilə Prezident İlham Əliyev Azərbaycandan güzəşt umanlara sərt mesaj ünvanlamış, xalqın heç zaman ərazi itkisi ilə barışmayacağını bir daha izhar etmişdir. Bu bir daha göstərdi ki, rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin keyfiyyətcə yeni mərhələyə transformasiyasını və siyasi-hərbi yolla həllini hər an gündəmə gətirə bilər. Dövlət başçısının bildirdiyi kimi, təcavüzkar ölkə Azərbaycanın çox güclü, mobil və peşəkar orduya malik olduğunu aşkar duymalı və bu psixoloji təsir amili aparılan danışıqların pozitiv məcrada getməsini təmin etməlidir. Bununla yanaşı, Azərbaycan haqlı mövqeyini bundan sonra da müxtəlif beynəlxalq təşkilatlarda müdafiə etmək, Ermənistanın təcavüzkar siyasətinin daha qlobal miqyasda ifşasına nail olmaq, ideoloji-təbliğati sahədə psixoloji üstünlüyü ələ almaq üçün diplomatik fəaliyyətini davam etdirməlidir.

Prezident İlham Əliyevin münaqişənin həlli istiqamətində yeritdiyi siyasətin əsas mahiyyəti yenə də Ermə-

nistanın mövqeyinin beynəlxalq hüquq baxımından tam əsassızlığını sübuta yetirmək, təcavüzkar ölkəni Cənubi Qafqazdakı dinamik inkişaf prosesindən, qlobal enerji-kommunikasiya layihələrindən təcrid etmək, ən nəhayət, Azərbaycanın iqtisadi, hərbi qüdrətini artırmaqla qarşı tərəfin mövqeyinə təsir göstərməkdən ibarət olmuşdur. Dövlət başçısı İlham Əliyev bu üç mərhələnin yekununda münaqişənin hərb yolu ilə həlli variantının aktuallaşa biləcəyini də istisna etməmişdir. Ötən üç ildə Azərbaycanın iqtisadi cəhətdən daha da qüdrətlənməsi, respublikamızın hərbi büdcəsinin əhəmiyyətli dərəcədə artması fonunda danışıqlar prosesi də keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Ermənistan rəsmilərinin ictimai rəyə hesablanmış ənənəvi və populist bəyanatlarına rəğmən, son bir ildə təcavüzkar dövlətin mövqeyində ciddi diplomatik geriləmələr müşahidə edilmişdir. Əgər rəsmi Yerevan əvvəllər qondarma "DQR"-in ya müstəqil olması, ya da Ermənistana birləşdirilməsi kimi cəfəng iddia ilə çıxış edirdisə, 2005-2006-cı illərdə ciddi diplomatik təpkilər qarşısında münaqişənin mərhələli həlli ilə bağlı müzakirələrə qatılmağa məcbur olmuşdur. Təcavüzkar dövlətin "Praqa prosesi", yəni "mərhələli həll" modeli ətrafında danışıqları davam etdirməsi rəsmi Bakının mühüm diplomatik nailiyyətlərindən biri kimi vurğulanmalıdır. "Biz danışıqlarda öz mövqeyimizi gücləndirmişik. Azərbaycanın hər zaman israr etdiyi yanaşma – məsələnin mərhələli həll olunması artıq Minsk qrupu tərəfindən qəbul edilir və danışıqları aparan tərəflər – Ermənistan və Azərbaycan artıq bu

prosesin iştirakçılarıdır. Baxmayaraq ki, Ermənistanı bu prosesə cəlb etmək üçün çox böyük səylər göstərilmiş, çox böyük diplomatik gedişlər edilmişdir. Biz buna nail olduq və onu da bilirik ki, "Praqa prosesi" ifadəsi, sadəcə olaraq, mərhələli həll sözünün əvəzinə işlədilmiş bir ifadədir ki, erməniləri və Ermənistanı çox qıcıqlandırmasın" – deyən Prezident İlham Əliyev həmsədrlərin iştirakı ilə keçirilən danışıqların ərazi bütövlüyü prinsipi çərçivəsində aparılmasını da haqlı olaraq Azərbaycanın mühüm uğuru kimi dəyərləndirmişdir. Bu fakt bir daha təsdiqləyir ki, dərin siyasi-iqtisadi böhranla üzləşmiş Köçəryan rejimi mühüm beynəlxalq təşkilatların, habelə aparıcı dövlətlərin münaqişənin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həlli tələblərinə, o cümlədən beynəlxalq hüquq normalarına daha saymazyana yanaşmaq iqtidarında deyil. Beynəlxalq təcridlə üzləşəcəyindən ehtiyatlanan R.Köçəryan danışıqların davam etdirilməsi imitasiyası yaratmaqla mövcud stasus-kvonu qoruyub saxlamağa və uzatmağa çalışdı. Ermənistanın qeyri-konstruktiv və riyakar mövqedə olduğunu iki ölkə prezidentlərinin ötən il fevralın 10-11-də Fransa Prezidenti Jak Şirakın təşəbbüsü ilə Parisin Rambuye qəsrində keçirilən görüşü bir daha nümayiş etdirdi. Rambuye danışıqları Ermənistan prezidenti Robert Köçaryanın nəinki diplomatik normalara, hətta etik qaydalara sığmayan isterik davranışları ilə yadda qaldı. Onun danışıqlar prosesini yarımçıq dayandıraraq müzakirələri davam etdirməkdən boyun qaçırması bir daha təsdiqlədi ki, rəsmi Yerevan reallıq, fakt və ciddi təzyiqlər

qarşısında necə hərəkət etməyi özü üçün müəyyənləşdirməyib. Danışıqlar prosesində küncə sıxılan R.Köçaryan hakimiyyətini qoruyub saxlamaq üçün çıxış yolunu "qarın ağrısını" əsas gətirib müzakirələrdən qaçmaqda gördü. Bu addımı ilə R.Köçaryan həm də ölkəsinin kənardan idarə olunan forpost olduğunu təsdiqlədi. Həmin danışıqlarda hər hansı nəticə əldə olunmasa da, R.Koçaryanın davranışı Ermənistanın təcavüzkar mövqeyinin ifşasına xidmət etdi və bu ölkənin sülh prosesinə hazır olmadığını göstərdi. Ermənistan bununla cığal və qeyri-konstruktiv mövqedə dayandığını, təcavüzkarlıq niyyətindən əl çəkə bilmədiyini növbəti dəfə təsdiqlədi. "Rambuye isterikası" göstərdi ki, Qarabağ kartı üzərində hakimiyyətə gəlmiş R.Köçaryan vəziyyətdən çıxmaq üçün vaxt udmağa, danışıqlar prosesini mümkün qədər uzatmağa çalışır. Rambuye danışıqlarından dərhal sonra sərt bəyanatla çıxış edən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev respublikamızın öz ərazi bütövlüyünü istənilən yolla həll etməyə qadir olduğunu bir daha vurğuladı. Dövlət başçısının hərbi geyimdə düşmənlə üzbəüz mövqelərə getməsi, hərbçilərlə səmimi görüşməsi və söhbətləşməsi özündə olduqca ciddi psixoloji-siyasi çalarları ehtiva edirdi. Bu, əslində, Azərbaycanın heç zaman ərazi itkisi ilə barışmayacağı ilə bağlı bütün dünyaya verilən növbəti mesajı idi. Bundan narahat olan Qərb dövlətləri, o cümlədən ABŞ administrasiyası tərəfləri danışıqları davam etdirməyə, hərbi əməliyyatlara başlamamağa çağırdılar. Azərbaycan Prezidenti sonrakı mərhələdə keçirdiyi çoxsaylı görüşlərdə, rəsmi səfərlərdə,

müxtəlif səviyyəli danışıqlarda münaqişənin həlli ilə bağlı prinsipial mövqeyini bir daha ortaya qoyaraq Dağlıq Qarabağ ermənilərinin "öz müqəddəratmı təyin etməsi" iddiasının tamamilə cəfəng və reallığa adekvat olmadığını diplomatik məharətlə önə çəkmişdir. Beynəlxalq normalara görə, müstəqil dövləti olmayan xalqlar müəyyən hüquqi çərçivədə öz müqəddəratlarını təyin etmək iddiası ilə çıxış edə bilərlər. Erməni xalqının isə müstəqil dövləti var və bu baxımdan Dağlıq Qarabağdakı separatçı rejimin belə bir iddiadan çıxış etməsi beynəlxalq hüquq normalarına söykənmir. Prezident İlham Əliyev münaqişənin həllinin mühüm prinsipi kimi bu məsələni daim diqqət mərkəzində saxlayır: "Dağlıq Qarabağ erməniləri muxtariyyat çərçivəsində milli azlıq kimi yaşamağı davam etdirə bilərlər. Yaxşı məlumdur ki, Avropada və dünyanın digər hissələrində muxtar qurumlar mövcuddur. Dünyanın bir çox ölkələrində milli azlıqlar vardır. İndi təsəvvür edin ki, dünyada hər bir milli azlıq özü üçün müstəqillik tələb etsə, nələr baş verər! Bu, cəfəngiyatdır. Bu məsələ ilə bağlı Azərbaycanın mövqeyi ədalətə, həqiqətə və beynəlxalq hüquq normalarına söykənir. Ermənilər vaxtaşırı beynəlxalq hüququn vacib elementi olan "millətlərin öz müqəddəratmı təyin etmək" hüququ ilə manipulyasiya etməyə çalışırlar. Lakin bildirmək istəyirəm ki, ermənilər artıq bir millət kimi öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti vardır. Ermənilərin yaşadıqları bütün ölkələrdə "öz müqəddəratlarını təyin etməyə" başladıqları halda nələrin baş verəcəyini təsəvvür etmək çətin

deyildir”. 2006-cı il iyunun 6-da ATƏT-in Minsk qrupu həmsədrlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentlərinin Rumıniyanın paytaxtı Buxarestdə keçirilmiş növbəti görüşü yenə də məhz R.Köçaryanın qeyri-ciddi və konstruktivlikdən uzaq mövqeyi üzündən hansısa nəticə ilə yadda qalmadı. Təcavüzkar tərəf əvvəlcə görüşün hansı ölkənin səfirliyində keçirilməsi məsələsi ətrafında ajiotaj qaldırmaqla danışıqlardan yayınmağa cəhd göstərdi. Azərbaycan tərəfi R.Köçaryanın bu bəhanəsini də kəsəndə, o, riyakar xislətinə sadiq qalaraq danışıqlarda pozitiv nəticənin əldə edilməsinə mane oldu. Rambuye görüşündə həll edilməmiş məsələlər bu dəfə də açıq qaldı. Fəqət, bu danışıqlar rəsmi Yerevanın xarici siyasətinin dalana dirənməsini təsdiqləyən növbəti fakt idi. Ən azı bu baxımdan ki, rəsmi Bakı bu görüşdə də danışıqların məhz ərazi bütövlüyü çərçivəsində aparılmasına nail olmuş, bəzi prinsipial məsələlərdə öz mövqeyini gücləndirə bilmişdi. Hər iki ölkənin prezidentlərinin 2006-cı ilin 28 noyabrında MDB sammiti çərçivəsində Belarusun paytaxtı Minskdə keçirilmiş üçüncü görüşü isə əvvəlkilərlə müqayisədə nisbətən bir qədər nikbin bəyanatlarla yadda qaldı. Azərbaycan Prezidenti cənab İlham Əliyev danışıqların Azərbaycanın maraqlarına uyğun məcrada keçdiyini, bir sıra məsələlərdə razılaşmaların olduğunu bəyan etdi. Sonradan Ermənistan tərəfi əldə olunmuş həmin razılaşmalardan geri çəkilsə də, beynəlxalq ictimaiyyət bir daha hansı tərəfin daha ədalətli və konstruktiv mövqedə dayandığını gördü.

Etiraf etməliyik ki, son illər rəsmi Bakı Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası istiqamətindəki fəaliyyətini də gücləndirmişdir. Belə ki 2006-cı il avqustun 14-də diplomatik xidmət orqanlarının iştirakı ilə Xarici İşlər Nazirliyində keçirilmiş ikinci müşavirədə dərin məzmunlu çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev erməni lobbisinin apardığı çirkin təbliğata qarşı əks-hücumun gücləndirilməsini mühüm vəzifələrdən biri kimi müəyyən etmişdir. Dövlət başçısı bu məqsədlə Azərbaycan diasporunun fəaliyyətinin daha da gücləndirilməsinə ehtiyac olduğunu vurğulamışdır: "Erməni lobbisi bizim əleyhimizə çox fəal kampaniya aparır və bunu hiss edirik, görürük. Bəzi hallarda müxtəlif xarici mətbuat orqanlarında Azərbaycana qarşı qərəzli məqalələrin arxasında da məhz erməni lobbisi dayanır. Biz bunu bilirik, öz mübarizəmizi aparmalıyıq və daha fəal olmalıyıq. Bu istiqamətdə siyasətimizi daha da güclü aparmalıyıq. Mən bir neçə dəfə demişəm, bir də demək istəyirəm, biz informasiya hücumuna keçməliyik. Biz Ermənistanın işğalçı siyasətini ifşa etdirməliyik". Təcavüzkar tərəfin bəzi düşünülməmiş addımlar atması onu daha da çıxılmaz vəziyyətə salmış, eyni zamanda Azərbaycana Ermənistanın ifşası üçün kifayət qədər yeni imkanlar qazandırmışdır. Söhbət ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqları pozmaq mövqeyi tutan rəsmi Yerevanın patronajlığı altında Dağlıq Qarabağdakı separatçı rejimin avqust ayında "referendum" adı altında növbəti təxribata əl atmasından gedir. Bu qeyri-qanuni "referendum" nəinki baş tutmuş,

əksinə, bu addım beynəlxalq ictimaiyyət tərəfindən pislənilmişdir. ATƏT, Avropa Şurası, Avropa Birliyi, GUAM və digər qurumlar, o cümlədən aparıcı dövlətlər sülh danışıqlarının pozulmasına xidmət edən, anneksiya məqsədi daşıyan bu addımın yolverilməz olduğunu bəyan etmişlər. Eyni zamanda, qondarma "referendum"a etiraz edən beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha nümayiş etdirmişdir. İşğal altında saxladığı torpaqları gec-tez tərk etmək məcburiyyətində qalacağını yaxşı başa düşən Ermənistanın ötən ilin yay aylarında Dağlıq Qarabağ və işğal olunmuş digər Azərbaycan ərazilərində törətdiyi yanğınlar bu dövlətin beynəlxalq təşkilatlar tərəfindən daha sərt təzyiqlərə məruz qalmasına gətirib çıxarmışdır. Azərbaycan tərəfinin konkret faktları əsasında bununla əlaqədar AŞPA-nın payız sessiyasında müzakirələr aparılmışdır. Eyni zamanda rəsmi Bakı diplomatik səylərini gücləndirərək ərazilərinin işğalçı dövlət tərəfindən yandırılması məsələsini BMT-nin müzakirəsinə çıxarmağa nail olmuşdur. Azərbaycanın daha bir ciddi nailiyyəti isə postsovet məkanında separatçılıq meyilləri nəticəsində baş vermiş bütün münaqişələrin vahid paketə salınmasıdır. Bununla əlaqədar GUAM tərəfindən BMT qarşısında məsələ qaldırılmış, Dnestryanı, Abxaziya və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişələrinin kökündə məhz etnik separatizmin, ərazi ilhaqı siyasətinin dayandığı vurğulanmışdır.

Azərbaycanın danışıqlar prosesindəki mövqelərini gücləndirən ən ciddi amillərdən biri də respublikamızın iqtisadi cəhətdən qüdrətlənməsi, bir sıra qlobal enerji və kommunikasiya layihələrini uğurla başa çatdırması ilə əlaqədardır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tam istismara verilməsi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşasının uğurla həyata keçirilməsi, eyni zamanda Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi ilə bağlı mühüm razılaşmaların əldə edilməsi Azərbaycanın dünya siyasətindəki, habelə Avropanın enerji təhlükəsizliyindəki rolunu gücləndirmiş, beynəlxalq mövqelərini möhkəmləndirmişdir. Cənubi Qafqaz regionunda həyata keçirilən bu qlobal layihələrdən tamamilə kənarda qalan Ermənistan isə Avropa və Qərb üçün əhəmiyyətini getdikcə itirməkdədir. Azərbaycan Türkiyə və Gürcüstanla müxtəlif iqtisadi layihələr həyata keçirməklə, Ermənistanı faktiki olaraq üç strateji müttəfiqin əhatəsində təcrid vəziyyətində yaşamaq gerçəkliyi ilə üz-üzə qoymuşdur. Təcavüzkarlıq siyasətindən əl çəkməyən Ermənistan, əslində, özü-özünü Cənubi Qafqazda gerçəkləşən bütün strateji layihələrdən kənarda saxlamışdır. İşğalçı dövlətin xarici borcları getdikcə artır, sosial-iqtisadi tənəzzülün qarşısının alınmaması əhalinin vəziyyətinin pisləşməsi ilə müşahidə olunur. Rusiyaya olan borclarını ödəmək iqtidarında olmayan Ermənistan bu ölkənin for postuna çevrilərək bütün strateji əhəmiyyətli müəssisələrini itirir. Yoxsulluğun həddinə görə MDB-də liderliyi əldən verməyən Ermənistan siyasi sahədə də ciddi problemlərlə üz-üzədir. Miqrasiyanın yüksək

artım sürəti nəticəsində Ermənistan yaşayış üçün perspektivsiz, inkişaf üçün potensialsız dövlətə çevrilmişdir. Hələlik xarici yardımlar və kreditlər hesabına dolanan Ermənistan strateji layihələrdən kənarda qaldığı üçün perspektiv inkişafı təmin etmək baxımından bütün resurslardan məhrum olmuşdur. Bütün resurslar təcavüzkar ordunu saxlamağa, kütləvi silahlanmaya yönəlmişdir. Münaqişənin uzanması Ermənistanda iqtisadi inkişafı ciddi şəkildə əngəlləyən tormozlayıcı amilə çevrilmişdir. Üstəlik, rəsmi Yerevan Dağlıq Qarabağdakı separatçı rejimi yaşatmaq üçün də hər il milyonlarla dollar əlavə vəsait xərcləməyə məhkumdur. Bütün bu reallıqlar fonunda diplomatik uğursuzluqları getdikcə çoxalan rəsmi Yerevan vəziyyətdən "az itki ilə çıxmağa", danışıqları uzatmağa çalışır. Ermənistanı himayə edən müəyyən siyasi dairələr, o cümlədən, erməni lobbisi Azərbaycanda iqtisadiyyatın sürətlə inkişaf etdiyi, Gürcüstanda isə bu istiqamətdə müəyyən irəliləyişlərin gözlənildiyi bir mərhələdə Ermənistanda iqtisadi tənəzzülün qarşısının hələ də alınmamasından bərk narahatdırlar.

Müasir qloballaşma dövründə iqtisadi maraqların daha üstün mövqelərə çıxdığını nəzərə alsaq, münaqişənin həllində hansı tərəfin daha böyük təsir imkanlarına malik olduğunu təxmin etmək çətin deyil. Üstəlik Ermənistanın təcavüzü ilə üzləşmiş Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərtərəfli təchiz olunmuş ordunun formalaşdırılması istiqamətində atılan addımlar son illərdə daha da intensivləşmişdir. Həyata keçirilən uğurlu islahatlar nəticəsində respublikamızın iqtisadi qüdrətinin ildən-ilə güclənməsi

Prezident İlham Əliyevə bu sahədə ardıcıl tədbirlər həyata keçirməyə, hərbi xərcləri durmadan artırmağa imkan vermişdir. "Sülh istəyirsənsə, müharibəyə hazırlaş" prinsipini rəhbər tutan dövlət başçısı İlham Əliyev ölkəmizin hərbi potensialının daha da gücləndirilməsi, bu prosesdə qabaqcıl dövlətlərin təcrübəsinə istinad olunması kimi mühüm məsələləri diqqət mərkəzində saxlamışdır. Azərbaycanın 2007-ci ilin dövlət büdcəsində ən böyük vəsait məhz Azərbaycan ordusu üçün nəzərdə tutulmuş, Prezident İlham Əliyevin vəd etdiyi kimi, ölkəmizin təkcə hərbi büdcəsi bütövlükdə Ermənistanın dövlət büdcəsinə çatmışdır. Bütün bunlar isə 2007-ci ildə münaqişənin həlli ilə bağlı danışıqların Azərbaycanın maraqlarına uyğun keçməsini şərtləndirən mühüm amillərdir.

Bütün bu reallıqlar birmənalı olaraq təsdiqləyir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə riayət edilməsi əsasında diplomatik vasitələrlə həlli Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətinin əsas prioriteti olaraq qalır. Azərbaycan rəhbərliyi bütün siyasi və diplomatik vasitələrdən istifadə edərək, problemin konstruktiv həllinə çalışdığını aydın və birmənalı şəkildə dünya ictimaiyyətinə nümayiş etdirir. Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmAsından sonra Dağlıq Qarabağın statusuna baxılmasını, məcburi köçkünlərin doğma yurdlarına qayıtmasını nəzərdə tutan strategiya ardıcıl surətdə davam etdirilir. Bura həmçinin Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmala-

rının dinc-yanaşı yaşaması, bölgənin iqtisadi inkişafı və əhalinin sosial rifahı məsələləri də daxildir.

İlham Əliyev hələ 2003-cü ildə öz səlahiyyətlərinə başladığı dövrdə bəyan etmişdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində biz informasiya hücumuna keçməliyik. Mübaliğəsiz demək olar ki, informasiya mübarizəsində Prezidentin fəal və hücumçu mövqeyi hamıya nümunə göstərilə bilər. İstər xarici ölkələrə rəsmi və işgüzar səfərlərində, istərsə də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlərində Prezident diqqəti Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ və qaçqın-köçkün məsələsinə yönəldir. Azərbaycan Prezidenti AŞPA-da, Avropa Birliyində, NATO-da, BMT Baş Assambleyasının sessiyasındakı çıxışlarında, nüfuzlu kütləvi informasiya vasitələrinə müsahibələrində Ermənistanın işğalçılıq siyasətindən geniş danışır, Dağlıq Qarabağ və qaçqın-köçkün probleminin həllinə yönələn çağırışlar edir. Prezidentin özünün də qeyd etdiyi kimi, bu çıxışların məqsədi təkcə problem haqqında məlumat vermək yox, həm də beynəlxalq terrorizmə qarşı mübarizənin ümumdünya xarakteri aldığı bir dövrdə, Ermənistanın işğalçılıq-terrorçuluq siyasətinin doğurduğu təhlükəni bir daha beynəlxalq aləmin diqqətinə çatdırmaqdır. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin I hissəsində göstərilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Həmin maddənin II hissəsində isə göstərilir ki, Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin Azərbaycan Respublikasına

mənsub olan sektoru, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. Qeyd edilən maddənin III hissəsinə əsasən Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 2-ci maddəsinin 4-cü hissəsinə əsasən, bütün üzv dövlətlər öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər. Beləliklə, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipi beynəlxalq hüququn bir prinsipi kimi qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyev bununla bağlı demişdir: "Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir". Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində BMT Baş Məclisinin 6 sentyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində Azərbaycanın işğal edilmiş ərazilərində baş verən yanğınlardan və onun vurduğu böyük ekoloji ziyandan ciddi narahatlığı vurğulanmışdır. Dağlıq Qarabağ münaqişəsinin BMT Baş Məc-

lisinin 61-ci sessiyasında müzakirəyə çıxarılması Ermənistanda siyasi atmosferi gərginləşdirməkdədir. Rəsmi Yerevanın məsələyə soyuqqanlı yanaşmağa çalışması erməni siyasətçilərinə münaqişənin BMT səviyyəsinə çıxarılmasının Ermənistan üçün nə dərəcədə təhlükəli olduğunu deməl期rinə maneçilik törətmir. Bundan başqa, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycanın mövqelərinin getdikcə möhkəmlənməsi erməni siyasətçilərini son hadisədən hakimiyyət uğrunda mübarizədə yararlanmağa vadar edir.

Ermənistan artıq iqtisadi müstəvidə uduzduğu kimi, siyasi müstəvidə də uduzduğunu başa düşür. Bu ölkənin Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi beynəlxalq layihələrdən kənarda qalması, Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun çəkilməsi ilə beynəlxalq aləmdən təcrid olunması iqtisadi sahədə qazandığı uğurlarıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin BMT-nin Baş Məclisinin sessiyasına çıxarılması, BMT, AŞ, AB, İKT kimi beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıması isə onun siyasi-diplomatik uğurlarından xəbər verir. ,

İlham Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycan ərazilərinin bütövlüyü çərçivəsində həll edilə bilər. Prezident Milli Məclisin 2006-cı il payız sessiyasının açılışındakı çıxışında demişdir: “Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və yəqin ki, gələn il biz buna nail olacağıq. Bütün beynəlxalq normalara məhəl

qoymayan Ermənistan, əfsuslar olsun ki, beynəlxalq təşkilatlar tərəfindən qınaq obyektinə çevrilmir. Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır". "Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik". Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə riayət edilməsi əsasında diplomatik vasitələrlə həlli Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətinin prioriteti olaraq qalır.

İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi qətidir. Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həll edilə bilər. Dövlət rəhbərinin münaqişənin həllinə dair baxışlar sisteminin ana xəttini təşkil edən bu aparıcı tezis onun istər ölkə daxilində, istərsə də xarici dövlətlərə rəsmi səfərləri zamanı keçirdiyi görüşlərdə, beynəlxalq toplantılardakı çıxışlarında dəfələrlə ifadə olunub. Həm bu cür birmənalı mövqeyin, həm də Azərbaycanın enerji təhlükəsizliyi mərkəzi kimi dünya üçün əhəmiyyətinin artmasının nəticəsidir ki, son dövrlər dünyanın nüfuzlu təşkilatlarının, aparıcı dövlətlərinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqelərində nisbətən obyektiv çalarlar müşahidə edilir. Dünya birliyi indi Dağlıq Qarabağ həqiqətlərinə daha açıq

gözlə baxmaq meylindədir. Bütün siyasi manevrlərin, ikili standartların, psixoloji təzyiqlərin nəticəsizliyindən sonra artıq bu həqiqət beynəlxalq təşkilatlara və aparıcı dövlətlərə də bəllidir ki, Azərbaycan dövləti, Azərbaycan dövlətinin rəhbəri torpaq itkisi ilə heç zaman barışmayacaqdır.

Bu mövqeyi Milli Məclisin payız sessiyasının ilk iclasındakı çıxışı zamanı dövlət başçısı bir daha bəyan etdi: "Bizim ən böyük güzəştimiz sülh danışıqlarına sadiqliyimizdir. Ancaq biz bütün bu imkanlardan istifadə edib yeni vəziyyət yaratmalıyıq. Hərbi potensialı möhkəmləndirməklə bərabər, bütün siyasi, iqtisadi, diplomatik və regional amillərdən istifadə edib Ermənistana çox güclü təzyiq göstərə biləcəyik. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt icazə verməyəcəyik. Bəzi hallarda opponentlərimiz istəyirlər bizi tənqid etsinlər ki, Qarabağ məsələsi niyə həll olunmur. Ona görə həll olunmur ki, Azərbaycan bizi qane etməyən razılaşmaya heç vaxt getməyəcəkdir. Ona görə həll olunmur ki, bütün təzyiqlərə baxmayaraq, Prezident kimi mən Azərbaycan dövlətinə, Azərbaycan xalqına sərf etməyən razılaşmaya getməyəcəyəm".

Sosial-iqtisadi böhran məngənəsində çapalayan Ermənistandan fərqli olaraq, Azərbaycanın yüksəlişi, son illər ölkəmizdə daha da güclənən ordu quruculuğu prosesi, siyasi sabitlik, beynəlxalq təşkilatların ölkəmizə dəstəyi insan itkisinə yol vermədən Dağlıq Qarabağ münaqişəsinin rasional həllinə geniş imkanlar yaradır.

Azərbaycan son illər təcavüzkar Ermənistanla qlobal informasiya müharibəsində də üstünlüyü ələ almaqdadır. Hər bir dövlətin müstəqilliyinin təminatı həmin ölkənin milli təhlükəsizliyinin etibarlı şəkildə qorunmasından asılıdır. Milli təhlükəsizlik məsələsini isə cəmiyyətin demokratik inkişafından kənarda təsəvvür etmək mümkün deyil. Dövlətin milli təhlükəsizliyi dedikdə, ölkədə şəxsiyyətin, cəmiyyətin, dövlətin bütün fəaliyyət sahələrində daxili və xarici təhlükələrdən qorunmasını təmin edən baxışlar sistemi nəzərdə tutulur. Bu sistem milli maraqlarla qarşılıqlı surətdə əlaqəlidir. Azərbaycanın milli mAraqlarını şəxsiyyət, cəmiyyət, dövlətçilik, iqtisadiyyat, daxili siyasət, sosial vəziyyət, beynəlxalq, informasiya, hərbi, sərhəd, ekoloji və digər sahələri əhatə edir. Milli maraqlar uzunmüddətlidir, dövlətin bu sahələr üzrə daxili və xarici siyasətinin istiqamətlərini müəyyənləşdirir.

Ordu quruculuğunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində dönüş yaratmaq imkanına malik ən önəmli amillərdən olması əsla diqqətdən kənarda qalmamışdır. Bu sahədə də Azərbaycanın uğurları kifayət qədər böyükdür. Azərbaycan ordusunda nizam-intizam, hərbi-texniki təchizatın səviyyəsi ötən illər ərzində xeyli dərəcədə yüksəlmişdir. Silahlı Qüvvələr vahid komandanlığa tabedir və olduqca mükəmməl idarəetmə sisteminə malikdir. Ölkəmizin müdafiə potensialı ildən-ilə artır. Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərtərəfli təchiz olunmuş ordunun formalaşdırılması istiqamətində atılan addımlar son illərdə daha da inten-

sivləşmişdir. Həyata keçirilən uğurlu islahatlar nəticəsində respublikamızın iqtisadi qüdrətinin ildən-ilə güclənməsi Prezident İlham Əliyevə bu sahədə ardıcıl tədbirlər həyata keçirməyə, hərbi xərcləri artırmağa imkan vermişdir. Milli Orduya dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi ildən-ilə artırılır və bu da paralel olaraq maddi-texniki təminatın, döyüş əhval-ruhiyyəsinin, nizam-intizamın güclənməsinə səbəb olur. Dövlət başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev ordumuzun durmadan gücləndirilməsini, Azərbaycanın müdafiə potensialının artırılmasını hökumət qarşısında ən vacib vəzifələrdən biri kimi müəyyənləşdirmişdir.

Dövlət başçısı cənab İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin mümkün olmayacağı təqdirdə, xalqın öz torpaqlarını azad etmək üçün silaha sarılacağını gizlətmir və Silahlı Qüvvələrin buna tam qadir olduğunu bəyan edir. Azərbaycan dövlətinə rəhbərlik etdiyi dövrdə onlarla hərbi hissədə olan Azərbaycan Prezidenti ordunun qarşısında hələ mühüm vəzifələrin dayandığını bildirir. “Orduya ayrılan xərclər hər il artır. Büdcədə nəzərdə tutulan xərclər artır. Bundan sonra da orduya ayrılacaq vəsaitlər artacaqdır... Bizim ordumuz istənilən vaxtda torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Amma istəyirik ki, ordumuz daha güclü olsun. Orduda xidmət edən zabitlərin, əsgərlərin şəraiti daha yaxşı olsun. Siz görürsünüz ki, mənim fəaliyyətimin əsas istiqamətlərindən biri də ordunu gücləndirməkdən, onun maddi-texniki

bazasını möhkəmləndirməkdən ibarətdir. Biz güclü orduya malikik, amma hər gün, hər an bu istiqamətdə daha böyük addımlar atmalıyıq. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Şübhə etmirəm ki, biz torpaqlarımızı azad edəcəyik. Amma, əlbəttə, biz istərdik, bu, sülh yolu ilə olsun" – deyən Azərbaycan Prezidentinin bu il də hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı ardıcıl sərəncamlar imzalaması dövlət başçısının verdiyi bütün vədlərin əməli işə söykəndiyini bir daha təsdiqləyir.

Prezident İlham Əliyevin ordu hissələrində şəxsi heyətlə müntəzəm keçirdiyi görüşlərin nəticələri zaman keçdikcə Silahlı Qüvvələrin əzmkarlığının artmasında Özünü büruzə verir. Dövlət başçısının hərbi hissələrdəki vəziyyətlə, əsgər və zabitlərin problemləri, qayğıları ilə maraqlanması, hərbi təhsil sisteminin müasirləşməsinə və hərbi biliklərin tədrisinin yüksəlməsinə böyük diqqət yetirməsinin səmərəsi ordunun bugünkü səviyyəyə yüksəlməsində təzahür edir. Ali Baş Komandan hərbi kadr hazırlığına xüsusi diqqətlə yanaşılmasını vacib sayır və ayrı-ayrı ali hərbi təhsil müəssisələrinə gedir. Azərbaycan ordusunun mütəşəkkilliyi sahəsində görülən irimiqyaslı işlər ictimaiyyət tərəfindən razılıqla qarşılanır. Olkə vətəndaşları, o cümlədən yurd-yuvasından didərgin düşmüş qaçqın və məcburi köçkünlər yürüdülən düzgün siyasət nəticəsində torpaqlarımızın işğaldan azad ediləcəyinə inanırlar. Milli Ordunun gücləndirilməsi işi bu gün də dövlət başçısının birmənalı şəkildə vurğuladığı kimi, iqtidarın siya-

sətinin əsas istiqamətlərindəndir və proses dönmədən aparılmaqdadır.

Cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin 4 ili ərzində ölkənin sosial-iqtisadi inkişafı, xarici siyasət, ordu quruculuğu, dünya azərbaycanlılarının təşkilatlanması və s. istiqamətlərdə əldə olunmuş titanik nailiyyətlər bir daha Heydər Əliyev siyasi kursunun və kursun ən sadiq tərəfdaşı olan Yeni Azərbaycan Partiyasının cəmiyyətdə artan nüfuzundan xəbər verir.

# HEYDƏR ƏLİYEV İRSİNİN KEŞİYİNDƏ

Etiraf edək ki, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi Yeni Azərbaycan Partiyasının təməl prinsiplərində Azərbaycanda milli dövlətçiliyi, siyasi, dini və etnik tolerantlığı imperativ kimi qəbul edən müasir modelində dünyanın mövcud reallığı kontekstində əksini tapmışdır. Həmin prinsiplər bu gün cəmiyyətimizdə birmənalı qəbul edir, bütün xalq tərəfindən dəstəklənir.

Ulu öndərimizin bizə əmanət qoyduğu həmin siyasi irs demokratik idarəetmə fəlsəfəsini, mənəvi dəyərlərimizin qorunmasını, cəmiyyətin bütün potensialının milli maraqlar kontekstində səfərbər edilməsini, həmçinin ictimai-siyasi sabitlik faktoruna istinad edən yeni iqtisadi inkişaf strategiyasını, hakimiyyətlə cəmiyyət arasında daimi həmrəyliyin yaradılmasının elmi əsaslarını kifayət qədər təkmil formada özündə əks etdirir.

Bu reallığın göstəricisi olaraq Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, millət vəkili, YUNESKO-nunun və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva cəmiyyətdə nəcibliyin, mərhəmət və xeyirxahlığın, savab əməllərin müqəddəs ünvanına çevrilməklə Heydər Əliyev irsini şərəflə qoruyur. Qloballaşmanın bütün dünyada qarşısıalınmaz prosesə çevrildiyi, kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir dönəmdə fond minilliklər

boyu formalaşaraq xalqımızın milli varlığının və özünəməxsusluğunun ifadəsi kimi üzə çıxan zəngin mənəvi irsi, milli düşüncə və dəyərlər sistemini, mədəni-intellektual mülkiyyətini neqativ təzahürlərdən qorumaq kimi çətin bir missiyanın öhdəsindən layiqincə gəlir.

Bəşər sivilizasiyasının ən qədim xalqlarından olan azərbaycanlıların yüksək mənəvi-əxlaqi keyfiyyətlərini, genetik yaddaşını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə milli intibaha, cəmiyyətin pozitiv ruhda inkişafına əsaslı təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək Heydər Əliyev Fondunun fəaliyyətinin əsas qayəsini təşkil edir. Fondun fəaliyyəti, ilk növbədə, dünyanın xilasına yönələn mütərəqqi ümumbəşəri və milli idealların cəmiyyətdə daha da möhkəmlənməsinə, ictimai şüura hakim kəsilməsinə, fərqli bəşəri sivilizasiyaların uğurlu dialoquna, keçmişlə gələcək arasında möhkəm körpü salınmasına, insanlara xeyirxahlıq və nəciblik kimi ali dəyərlərin aşılanmasına yönəlmişdir. Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın özünün də söylədiyi kimi, bu gün ən müxtəlif hakimiyyət strukturlarının laqeydliyi, biganəliyi ilə üzləşən, dərdinə əlac axtaran köməksiz insanların sonuncu ümid qapısına çevrilmiş Heydər Əliyev Fondunun fəaliyyət fəlsəfəsində insanlara yaxşılıq kimi sadə olduğu qədər də bəşəri və müqəddəs bir ideya, amal dayanır. Məhz bu kimi saf amalla Mehriban xanım Əliyeva rəhbərlik etdiyi fonda üz tutmuş vətəndaşların mənəvi

hamisi, qayğıkeşi kimi çıxış edir, imkan daxilində onların üzləşdiyi problemlərin həllinə çalışır. "Keçmişə ehtiram, gələcəyə ümid" postulatına əsaslanan bu xeyirxah missiya köməksizə əl tutmaq, çarəsizin qəlbində bir ümid çırağı yandırmaq, bir sözlə, insanlara səmimi diqqət və qayğı istəyindən qaynaqlanır. Təkcə 2006-cı ildə fonda 3000-dən artıq vətəndaşın müraciət ünvanlaması da bu qurumun ictimai təsisat kimi cəmiyyətdə əlahiddə nüfuz və etimada sahib olduğunu nümayiş etdirir. Mehriban xanım Əliyeva-nın yüksək humanizm, mərhəmətlilik və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn bu uğurlu fəaliyyətin qayəsində isə məhz millətə və dövlətə səmimi xidmət istəyi, məramı dayanır. "Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O, öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda, o, üzünü bizim fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun problemlərinin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq" – deyən Mehriban xanım Əliyeva qloballaşan dünyada insanın daxili "Mən"inin qorunmasını vacib saymaqla, ali mənəvi

dəyərlərin saxta ideallarla əvəzlənməsinə, cəmiyyətdə biganəliyin ağır fəsadlar verən sosial bəlaya çevrilməsinə qarşı qətiyyətlə çıxır. Azərbaycan cəmiyyəti Heydər Əliyev Fondunun prezidentinin vətəndaşlara diqqət və qayğı nümunələri ilə zəngin olan çoxşaxəli fəaliyyətinə istinadən şəfqətli və xeyirxah əməllərin nə qədər savab olduğunu dərk edir, özünün yaşam fəlsəfəsini bu meyarlara uyğunlaşdırmağa çalışır. Məhz bu məqamında ölkənin birinci xanımı ümummilli liderimizin fəaliyyətinin və ömür yolunun əsas qayəsinə çevrilmiş humanizm və xeyirxahlıq fəlsəfəsini mənəvi miras kimi qəbul etməklə bu möhtəşəm irsin varisinə çevrildiyini təsdiqləyir. İnkarolunmaz həqiqətdir ki, yalnız böyük vətənpərvərlik hissləri, pak hisslər insanı olduqca çətin, fəqət, xalqın və dövlətin mənafeyi baxımından müstəsna əhəmiyyətli işləri həyata keçirməyə sövq edə bilər. Bu baxımdan, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın istər milli-mənəvi irs və dəyərlərin, istər elm və təhsilin səviyyəsinin yüksəldilməsi, fəal maarifçilik kursunun həyata keçirilməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki və mənəvi sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi strateji layihələr onun təşəbbüskar vətəndaşlıq mövqeyinin, mənəvi məsuliyyətinin təcəssümüdür. Qurumun ən müxtəlif layihələrini mahiyyətcə birləşdirən bir ortaq xətt mövcuddur – milli genefondumuzun qorunması. Bu ali mərama xidmət edən hər bir addım Heydər Əliyev Fondu üçün eyni səviyyədə prioritet səciyyə daşıyır.

Etiraf olunmalıdır ki, elm və təhsil bəşəriyyətin mövcudluq anından fərd və ictimai toplumların, geniş mənada, xalqların gələcək inkişafının, yaşam fəlsəfəsinin və tarixin əlverişli mərhələlərində qazandığı uğurların başlıca rəhni kimi çıxış etmişdir. Qloballaşan dünyada hər bir dövlətin öncüllüyü, milli inkişaf səviyyəsi və gələcək taleyi bu intellektual-strateji sahələrin səviyyəsilə ölçülür. Praqmatik və peşəkar siyasətçi kimi bu reallığı düzgün qiymətləndirən Prezident İlham Əliyevin elm və təhsilin davamlı inkişaf konsepsiyasının uğurla gerçəkləşdirilməsində Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Fondun təhsilin inkişafı, bu sahədə həllini gözləyən bir sıra problemlərin tez bir zamanda aradan qaldırılması istiqamətindəki fəaliyyəti Azərbaycanda elmə ictimai təsisat səviyyəsində yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının bu yöndə səfərbər olunmasına yönəlmişdir. Bu sahəyə yönələn diqqət və qayğının hansı məqsəddən qaynaqlandığını, xalqın, dövlətin gələcəyi baxımından necə böyük əhəmiyyət kəsb etdiyini xüsusi vurğulamağa ehtiyac yoxdur. Təhsil, eyni zamanda, elə bir spesifik sahədir ki, buradakı problemlərin həllini təkcə dövlətdən gözləmək və tələb etmək bəlkə də düzgün olmazdı. Bu sahədə özünü göstərən bəzi neqativ halların aradan qaldırılmasında vətəndaşların da fəal iştirakı vacibdir. Mehriban xanım Əliyevanın istər xeyriyyəçilik, istərsə də ictimai fəaliyyətinin prioritet istiqamətləri sırasında təhsilin mühüm yer tutması da millətimizin gələcəyini, nicat yolunu təhsilin inkişafında, vətəndaşların

maariflənməsində görən ümummilli liderimiz Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinə əsaslanır. Fondun milli maarifçilik xəttinin həyata keçirilməsi sahəsindəki əzmkar fəaliyyəti hansısa konkret çərçivə ilə məhdudlaşmır – məktəb tikintisindən tutmuş, YUNESKO ilə konkret təhsil proqramlarının həyata keçirilməsinədək geniş spektri əhatə edir. Qısa müddət ərzində uğurla gerçəkləşdirilən bu layihələr cəmiyyətdə böyük rezonansa səbəb olmuş, rəğbət və ehtiramla qarşılanmışdır. Azərbaycanın zəruri ehtiyaclarını nəzərə alan Heydər Əliyev Fondunun yeni məktəb binalarının tikintisi, mövcud orta ümumtəhsil müəssisələrinin əsaslı təmir və bərpası istiqamətində həyata keçirdiyi tədbirlər, xüsusilə təqdirəlayiqdir. İctimai əsaslarla fəaliyyət göstərən fondun ümummilli mənafelərə hesablanmış bu tədbirlərin həyata keçirilməsində cəmiyyətdən ciddi mənəvi-maddi dəstək alması görülən işlərin miqyasını, dinamikliyini və səmərəliliyini daha da artırır. Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu strateji məqsəd Azərbaycanda bu sahənin qloballaşan dünyanın tələbləri səviyyəsində qurulması, milli təhsil modelinin gerçəkləşdirilməsinə maddi-texniki və intellektual zəmin formalaşdırılmasıdır. Təhsil infrastrukturunu yeniləşdirmədən, müasir tipli yeni məktəblər inşa etmədən, təlim-tədris prosesinə lazımi şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi təhsil ənənələrini nəzərə almadan bu məqsədlərə nail olmaq qeyri-mümkündür. Həmin reallıqlardan çıxış edən fond, ilk növbədə, yeni məktəblərin inşası istiqamətində sistemli və ardıcıl iş aparır.

Mehriban xanım Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən, müvafiq hakimiyyət qurumlarının, vətəndaş cəmiyyətinin bəzi strukturlarının, imkanlı iş adamlarının da dəstəklədiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu baxımdan cəmiyyətdə daha böyük əks-səda doğurmuşdur. Layihə çərçivəsində yalnız 2006-cı ildə Azərbaycanın ən müxtəlif bölgələrində rekord sayda – 142 yeni məktəb binasının tikilərək istifadəyə verilməsi və lazımi avadanlıqlarla təchiz olunması dövlətin bu sahədə həyata keçirdiyi işlərə əvəzsiz töhfədir. Müasir tələblərə cavab verən məktəb binaları yeni avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompüterlərlə təchiz olunmuşdur. Yeri gəlmişkən, Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı «Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında» yeni məktəblərin inşası məsələsinə xüsusi diqqət ayrılmışdır. Heydər Əliyev Fondu həmin proqram çərçivəsində müvafiq hakimiyyət strukturlarının həyata keçirdiyi işləri də qabaqlayaraq, bölgələrdə mədəni-intellektual səviyyənin yüksəlməsində yaxından iştirak etmişdir. Cəmi bir il ərzində 142 yeni məktəbin inşası ağır müharibə şəraitində yaşayan, iqtisadiyyatı yenicə inkişaf etməyə başlayan Azərbaycan üçün olduqca böyük nailiyyətdir. Fondun prezidenti Mehriban xanım Əliyeva layihənin ikinci hissəsinin rəsmi təqdimat mərasimi zamanı görülən işlərin bundan sonra da davam etdiriləcəyini, 2007-ci ildə Azərbaycanda 100-dən artıq yeni məktəb binasının tikilib istifadəyə veriləcəyini bəyan etmişdir. Təqdirəlayiq haldır ki, Azərbaycan

Prezidentinin regionlara səfərləri zamanı Mehriban xanım Əliyeva fondun xəttilə aparılan inşaat işləri ilə yaxından tanış olur, lazımi tövsiyələrini verir. Fond yeni təhsil ocaqlarının tikintisi ilə yanaşı, mövcud müəssisələrin əsaslı təmiri və yenidənqurulması işini də diqqət mərkəzində saxlamışdır. Ötən il xüsusi qayğıya ehtiyac duyan uşaqların təhsil aldığı 23 müəssisə əsaslı şəkildə bərpa edilmiş, zəruri avadanlıqlarla təchiz olunmuşdur. Bu, orta hesabla hər ay iki məktəbin normal iş və tədris rejiminə gətirilməsi deməkdir. Bakıda, Sumqayıtda, Xaçmazda, Əli Bayramlıda, Şəkidə, Astarada, İsmayıllıda, Ağdamda, Bərdədə, Beyləqanda, Gədəbəydə, Saatlıda, Zərdabda, Yardımlıda, Qaxda, Göyçayda, Qusarda, Lerikdə, Salyanda, habelə bir sıra kəndlərdə qəza vəziyyətində olan məktəblərin yeniləri ilə əvəz olunması insanlarda böyük rəğbət və minnətdarlıq hissi doğurmuşdur. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 22 min nəfərlik şagird yeri yaratmağa nail olması da təqdirəlayiq göstəricidir. Fövqəladə bacarıqlı xoşməramlı səfir BMT-nin ali mədəniyyət qurumu – YUNESKO ilə sıx əməkdaşlıq münasibətləri qurmuş Heydər Əliyev Fondu milli-mənəvi irsimizə, təhsilimizə yüksək bəşəri münasibətə də nail olmuşdur. Azərbaycanın birinci xanımının təşkilatın xoşməramlı səfiri təyin olunması bu əlaqələrə yeni impuls vermiş, strateji əhəmiyyət daşıyan müxtəlif layihələrin müştərək icrasına geniş imkanlar açmışdır. Fondun son iki illik fəaliyyətinin aparıcı istiqamətlərindən biri də məhz ölkənin təhsil problemlərinin həllinə köməkdən,

bu məqsədlə nüfuzlu beynəlxalq təşkilatlardan sayılan YUNESKO-nun geniş imkanlarından səmərəli faydalanmaqdan ibarət olmuşdur. Geniş imkanlara malik bu nüfuzlu beynəlxalq təşkilatın ölkəmizin təhsil problemlərinin həllində yaxından iştirakı, təşkilatla birgə reallaşdırılan müştərək layihələr uğurlu nəticələrlə zəngindir. 2004-cü il iyulun 6-da fondun təşəbbüsü ilə Parisdə YUNESKO-nun iqamətgahında "Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Əldə olunmuş razılaşmaya əsasən, 2006-cı il avqustun 24-də Bakıda "YUNESKO-Azərbaycan: gələcəyə körpü" mövzusunda mühüm beynəlxalq konfransın keçirilməsi Azərbaycanın təhsil problemlərinin müzakirəsi, onların optimal həlli mexanizmlərinin, habelə təşkilatla əməkdaşlığın gələcək perspektivlərinin müəyyən olunması baxımından böyük əhəmiyyət daşımışdır. YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva konfransdakı dərin məzmunlu çıxışında Azərbaycan milli təhsilinin problemlərindən söz açmış, həyata keçirilən islahatlar barədə konfrans iştirakçılarına ətraflı məlumat vermişdir. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzünün təhsilimizdə yaratdığı çətinliklər YUNESKO-nun Baş direktorunun və nümayəndə heyətinin nəzərinə bir daha çatdırılmışdır: "Biz işğala məruz qalan ərazilərdə əvvəllər mövcud olan təhsil infrastrukturunu qoruyub saxlaya bilmişik. Bu məktəblər qaçqın-köçkün düşərgələrində yerləşir. Biz həm də müəllim kollektivini saxlaya bilmişik və onlar düşərgələrdə uşaqların təlim-tərbiyəsi ilə məşğul

olurlar. Bu, doğrudan da, nadir bir təcrübədir. Mən inanıram ki, bu təcrübə bütün münaqişə zonalarında istifadə oluna bilər". Konfrans milli təhsilimizin ümumi vəziyyəti ilə bağlı YUNESKO nümayəndələrində tam təsəvvür yaratmaq, onları hərtərəfli məlumatlandırmaq, habelə perspektivdə müştərək layihələrlə çıxış etmək baxımından uğurlu nəticələrlə yadda qalmışdır. Bu mötəbər təşkilatın diqqətinin ölkəmizin təhsil problemlərinə cəlb olunması üçün həyata keçirilən tədbirlər deməyə əsas verir ki, yaxın gələcəkdə münasibətlər daha da dərinləşəcək, YUNESKO maddi və qeyri-maddi mədəni irsimizin qorunması və gələcək nəsillərə çatdırılmasında öz imkanlarından maksimum səmərəli istifadə edəcəkdir. YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuura fondun prezidentinin gördüyü işlərin təkcə Azərbaycan üçün deyil, bütövlükdə, dünya üçün müstəsna əhəmiyyətə malik olduğunu hər zaman xüsusi vurğulamışdır: "Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva on il bundan öncə Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmış və həmin fondun çərçivəsində böyük işlər görülmüşdür. Mən onun bu sahədəki fəaliyyətini izləyir və yaxından öyrənirdim. Mən gördüm ki, bu sahədə Mehriban xanımın xidmətləri əvəzsizdir və belə qərara gəldim ki, o, YUNESKO-nun xoşməramlı səfiri təyin edilsin. O, bu vəzifəyə təyin olunduqdan sonra Azərbaycanda mədəniyyət sahəsində böyük işlər görmüşdür. Biz onun, xüsusilə, təhsilin inkişafı, eləcə də şifahi və musiqi ənənələrinin qorunması sahəsindəki fəaliyyətini xüsusi qeyd edirik".

Təhsil sahəsində Azərbaycan-YUNESKO əməkdaşlığı başqa bir əlamətdar cəhəti ilə də mühüm aktuallıq kəsb edir. Bu da Ermənistanın Azərbaycana qarşı hərbi təcaVÜzünün, torpaqlarımızın Ermənistan silahlı birləşmələri tərəfindən işğalının Azərbaycan təhsilində yaratmış olduğu ağır problemlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasından ibarətdir. Bütün dünyada təhsil, maarifçilik hərəkatının geniş vüsət aldığı indiki günlərimizdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mAhiyyəti, miqyası barədə beynəlxalq aləmdə obyektiv təsəvvür yaratmaqdan ötrü bu məqam da təbliğati baxımdan böyük əhəmiyyətə malikdir. Azərbaycan isə bu imkandan yetərincə yararlanır. Sağlam ruh, sağlam sabah uğrunda Heydər Əliyev Fondunun millətin fiziki və mənəvi sağlamlığı, milli-genetik ruhunun qorunması naminə həyata keçirdiyi sosialyönümlü layihələr sırasında səhiyyəyə yardım, bu sahənin infrastrukturunun yeniləşdirilməsi, vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi mühüm yer tutur. İxtisas etibarilə tibb elminin incəliklərinə dərindən bələd olan fondun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Azərbaycan səhiyyəsində mövcud olan problemləri daha yaxşı görməklə, ictimaiyyəti həmin problemlərin həlli istiqamətində səfərbər etməyə, ələlxüsus, tibbi yardıma böyük ehtiyacı olan aztəminatlı vətəndaşlara yüksək diqqətlə, həssaslıqla yanaşmağa çalışır. Azərbaycanda kimsəsiz uşaqlar üçün nəzərdə tutulmuş müəssisələrə sığınan körpələrin problemlərinin həlli bu gün Heydər Əliyev Fondunun prezidenti Mehriban

xanım Əliyevanın qarşıya qoyduğu əsas vəzifələrdən biridir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" bilavasitə fondun prezidentinin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış, Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evi və internat məktəblərdə mövcud problemlər öyrənilmiş, onların aradan qaldırılması üçün konkret işlər görülmüşdür.

Qısa müddətdə 12 internat məktəbi əsaslı təmir edilmiş, daha 28 analoji təhsil müəssisəsində təmir-bərpa və yenidənqurma işləri uğurla aparılır. Fond uşaq evləri və internat yetirmələrinin sosial-psixoloji reabilitasiyasına imkan yaradacaq resurs mərkəzinin yaradılmasını da planlaşdırmışdır. Sözügedən proqram üzrə uşaq evləri və internat məktəblərində mövcud problemlərin həll olunması üçün 4 əsas istiqamət müəyyən edilmişdir: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq. Proqram çərçivəsində yaradılmış işçi qrupu respublikada fəaliyyət göstərən uşaq evləri və internat məktəblərindəki mövcud vəziyyətin monitorinqini apararaq uşaqların sayı, aylıq, illik dövlət təminatına daxil olan qida, geyim, texniki vəsait normativləri, ümumi şərait (təhsil, səhiyyə, yaşayış, istirahət) kimi göstəriciləri müəyyən etmişdir. Belə uşaq müəssisələrinin böyük əksəriyyətinin ilkin mərhələdə əsaslı təmirə və texniki təchizata daha çox ehtiyacı olduğu müəyyən edilmişdir. Heydər Əliyev Fondunun rəhbəri Bakıdakı və ölkəmizin əksər rayonlarındakı uşaq evlərində, internat məktəblərində şəxsən olaraq, proqramın texniki dəstək istiqaməti üzrə işlərin başlanması üçün tarşırıq vermişdir.

Heydər Əliyev Fondunun 2006-cı ildə görülmüş işlərlə bağlı yekun hesabatı "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində görülmüş işlərin real miqyasını bir daha aşkara çıxarır. Həmin proqram çərçivəsində həyata keçirilən tədbirlər yalnız bu kateqoriyadan olan təlim-tərbiyə müəssisələrinə texniki dəstəklə məhdudlaşmamış, yeni kitabxanalar da yaradılmışdır. Bu kitabxanalar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuş, əksər uşaq evləri və internat məktəblərində kompüter avadanlığı quraşdırılmış, sinif otaqları interaktiv təhsil üçün zəruri vasitələrlə təchiz edilmiş, bir çox internatlarda, həmçinin uşaq evlərində həkim və psixoloq otaqları yaradılmış, bu təhsil müəssisələrində qida normativlərinin dəyişdirilməsi məqsədilə təkliflər raketi hazırlanmışdır. Uşaq evlərində, internat məktəblərində tərbiyə olunan uşaqlar, qaçqın və məcburi köçkün ailələrindən olan və təhsildə fərqlənən şagirdlər üçün müxtəlif bayram şənliklərinin təşkili də xoş ənənə halını almışdır. Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü əsasında uşaqların asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədi ilə 2008-ci ildə pilot layihəsi kimi Nizami rayonundakı 1 saylı uşaq evi üçün Şüvəlan qəsəbəsində yay düşərgəsinin yaradılması qarşıda dayanan əsas planlardan biridir. Fondun dəstəyi ilə paytaxtda inşa olunan Resurs Mərkəzində isə uşaq evlərinin, internat məktəblərinin müəllim və tərbiyəçiləri üçün müasir tədris və tərbiyə metodikasının tətbiqinə dair treninqlərin keçirilməsi mümkün olacaqdır. Fondun prezidenti bu sahədə dünyanın aparıcı ölkələrinin mü-

tərəqqi təcrübəsindən istifadə olunması zərurətini də önə çəkir. “Konkret problemləri həll edərkən, qlobal problemləri də unutmaq olmaz. Məsələn, uşaq evləri və internat məktəblərinin bütün sisteminin sovet pedaqogikası və təhsilin sovet sistemi ilə idarə olunması çərçivəsində yarandığını nəzərə almaq son dərəcə vacibdir. Ona görə də digər ölkələrin təcrübəsindən faydalanmaq və istifadə etmək üçün qapıları açmaq zəruridir” – deyə o bildirir. Heydər Əliyev Fondunun YUNİSEF-lə birlikdə həyata keçirdiyi “Deinstitutlaşma proqramı” da məhz bu məqsədə xidmət edir. Mehriban xanım hesab edir ki, heç bir dövlət müəssisəsi ən müasir, gözəl təmir olunmuş, avadanlıqla təmin edilən məktəb belə, heç zaman ailə mühitini əvəz edə bilməz. Fondım ən vacib və böyük məqsədlərindən biri də bu təhsil müəssisələrindəki uşaqların ailə şəraitində tərbiyə almasıdır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə iki il əvvəl İrlandiyanın Dublin şəhərində keçirilən xəstə uşaqların idman yarışına göndərilən 7 şagirdin hamısı qızıl medalla qayıtmışdır. Ötən ilin dekabrında isə Heydər Əliyev Fondu ilə BMT-nin İnkişaf Proqramı arasında kor və zəif görən insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsinə dair layihə sənədi və əməkdaşlıq sazişi də imzalanmışdır. Əgər bu gün Azərbaycanda gözdən əlil insanların sayının 40 minə çatdığını nəzərə alsaq, bu addımın əhəmiyyəti barədə geniş söhbət açmağa lüzum qalmır. Layihənin əsas məqsədi əhalinin belə qruplarının səlahiyyətlərini genişləndirmək, xüsusilə, onların məşğulluğunun artırılması sahə-

sində kor və görmə qabiliyyəti zəif olan insanlara yardım göstərməkdən ibarətdir. Layihənin birinci mərhələsində gözdən əlil insanlar üçün rəqəmsal fərqin aradan qaldırılması üzrə milli strategiya hazırlayıb həyata keçirmək məqsədi ilə Azərbaycanda həmin insanların İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) ehtiyacı müəyyən olunacaqdır. İkinci mərhələdə texniki mütəxəssislər qrupu vasitəsilə xüsusi kompüter avadanlığını quraşdırmaq, proqram təminatını lokallaşdırmaq (tərcümə etmək), internetə çıxışı təmin etmək, tədris-təlim proqramlarını hazırlamaq üçün təhsil sahəsində yerli və xarici ekspertlərin təcrübəsindən istifadə etməkdən ötrü model informasiya-kommunikasiya texnologiyaları sinfi yaradılacaqdır. Üçüncü mərhələdə isə kor və görmə qabiliyyəti zəif olan insanlar üçün yaradılacaq kitabxana və təlim mərkəzində onların audio materiallar və Brayl şriftli kitablardan istifadə imkanları təmin olunacaqdır. Bakının Nərimanov rayonundakı kor və zəifgörən uşaqlar üçün respublika internat məktəbi layihənin yeri kimi müəyyənləşdirilmişdir. Hazırda burada yenidənqurma işləri aparılır və əlil insanlar layihənin geniş imkanlarından faydalana biləcəklər. Fond səhiyyə sahəsində də uğurlu və əhəmiyyətli layihələr həyata keçirir. Bu baxımdan, "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri xüsusi vurğulanmalıdır. Fondun, Azərbaycan Diabet Cəmiyyətinin və Danimaarkanın "Novo Nordisk" şirkətinin təşkilatçılığı ilə gerçəkləşdirilən bu layihələrlə birgə qaçqın-köçkün uşaqları, uşaq evləri və internat məktəblərinin şagirdləri üçün "Gülüs-

tan" sarayında yeni il şənlikləri keçirilmişdir. Habelə "Talassemiyasız həyat naminə" layihəsi uğurla icra edilmiş, bu layihə çərçivəsində ixtisaslaşdırılmış mərkəz və qan bankı yaradılmışdır. Belə xəstələrin sayı, onların vəziyyəti ətraflı təhlil olunur, talassemiyanın müalicəsi və profilaktikası üçün milli proqramlar hazırlanır. Təkcə keçən il Heydər Əliyev Fondunun dəstəyilə 500-dən çox soydaşımıza bu xəstəliyə görə yardım göstərilməsi Mehriban Əliyevanın xeyirxah fəaliyyətinin nəticəsidir. 2008-ci ildə Talassemiya Mərkəzinin inşasına başlanacaq və bu ağır xəstəliyə düçar olmuş xəstələrin problemləri Azərbaycanda yaradılacaq Talassemiya Mərkəzi çərçivəsində Heydər Əliyev Fondu tərəfindən həll ediləcəkdir. Mehriban xanım Əliyeva deyir: "Tibb işçisi kimi çox gözəl başa düşürəm ki, psixi və fiziki qüsurları olan uşaqlar yalnız nəticədir, çox mürəkkəb ictimai proseslər zəncirində axırıncı halqadır. Bunun arxasında yoxsulluq, zərərli adətlər və bəzən də sadəcə, müəyyən zəruri tibbi biliklərin yoxluğu dayanır. Bütün bunlar uzunmüddətli proqramların gerçəkləşdirilməsini tələb edir. Biz reallaşdırılması illərlə çəkəcək layihələrdən qorxmuruq, lakin eyni zamanda, gözəl anlayırıq ki, bizdən ani tezliklə yardım və fayda gözləyirlər. Bütün bunları vəhdət halında birləşdirmək mürəkkəb vəzifədir, lakin necə deyərlər, yolun öhdəsindən yolçu gələr". Bu yol xeyirxahlıq, mərhəmət və nəcibliyə aparan müqəddəs bir yoldur. Sivilizasiyalararası dialoqun qədim məkanı, bu gün bütün dünyanın kosmik informasiya əsrinə qədəm qoyması, informasiya texnologiyalarının inkişafı sahəsində əl-

də olunan fantastik nailiyyətlərin az qala hər gün həyatımızda hansısa dəyişikliyə gətirib çıxarması özlüyündə nə qədər mütərəqqi meyil sayılsa belə, bu inkişaf milli tarixi-mədəni irsə müəyyən təhlükə meyillərini də istisna etmir. Kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu indiki dövrdə milli ənənələrin qorunub saxlanılması, ona yüksək qayğı və diqqətin göstərilməsi son dərəcə vacibdir. Bu gün YUNESKO-nun çoxsaylı vəzifələrindən biri də məhz insanın mənəvi dünyasının, milli kimliyinin qorunması məsələsidir. Planetimizdə məskunlaşmış xalqlardan hər birinin milli "Mən"ini daha parlaq əks etdirən qeyri-maddi irs incilərinin mühafizəsi də ən aktual vəzifəyə çevrilmişdir. Azərbaycanın birinci xanımı çoxlarının hətta diqqət belə yetirmədiyi bu həssas məqamı özünəməxsus fəhm və nəcibliklə ön plana çəkir, insanları dünyanın inkişaf axarını düzgün qiymətləndirməyə çağırır: "Bu gün biz müasir texnika və qloballaşma əsrində yaşayırıq. Fikrimcə, zəmanənin ən böyük təzadlarından biri ondan ibarətdir ki, əldə edilən tərəqqi, kommunikasiya imkanları insanların birləşməsinə, daha sıx ünsiyyət qurmasına şərait yaratsa da, gerçək həyatda biganəlik artır, insanlar arasında uçurum artır. Bəzən nəinki bəşəriyyətin səsini eşitmirik, hətta qonşu-qonşunu eşitmir, qardaş-qardaşa kömək əlini uzatmır. Bu gün dünyanın qarşılaşdığı ən ağrılı problemlərdən biri mənəvi ideallarin ucuzlaşması, onların saxta ideallarla əvəz edilməsidir" – deyən Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva xalqımızın yüksək əxlaqi-mənəvi dəyərlərinin hər bir

ailədə qorunmasının tərəfdarı kimi çıxış edir. YUNESKO-nun xoşməramlı səfiri kimi fərqli mədəniyyətləri bir araya gətirmək missiyasını öz üzərinə götürmüş Mehriban xanım Əliyevanın bu sahədə fəaliyyəti hələ 10 il əvvələ gedib çıxır. O, hələ 1995-ci ildən "Azərbaycan Mədəniyyətinin Dostları" Xeyriyyə Fondunun rəhbəri kimi ağır böhranın girdabına sürüklənmiş milli mədəniyyətimizə yiyə durmuş, ona böyük qayğı və diqqət göstərmişdir. 1995-ci ildən üzü bəri musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi işi bu fondun daim diqqət mərkəzində olmuş, ardıcıl şəkildə təşkil edilən xeyriyyə konsertləri mədəniyyətimizin zəngin ənənələrinin qorunması işinə töhfə vermişdir. Həmin dövrdən başlayaraq Azərbaycanda musiqi gimnaziyası və musiqi məktəbi əsaslı təmir edilmiş, minlərlə yeniyetmə və gəncin, ələlxüsus, imkansız ailələrdən olan gənclərin yüksək musiqi təhsili almasına əlverişli imkan yaradılmışdır. Mehriban xanım Əliyevanın 2004-cü ilin sentyabrında YUNESKO-nun "Xoşməramlı səfiri" seçilməsi ilə fondun milli irsin mühafizəsi, elm və mədəniyyətin inkişafı sahəsindəki fəaliyyəti bir qədər də genişlənmişdir.

Azərbaycanın bir sıra görkəmli alimlərinin, yazıçı və bəstəkarların yubileylərinin keçirilməsi, habelə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, YUNESKO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilməsi, bu siyahıya Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil olması üçün ilkin sənədlərin hazırlan-

ması bu fəaliyyətin təqdirəlayiq məqamları kimi vurğulana bilər. Fondun prezidentinin şəxsi səyləri nəticəsində Azərbaycan xalqının milli sərvəti sayılan muğam həmin mötəbər təşkilatın vasitəsilə bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri sırasına daxil edilmişdir. Mehriban xanım Əliyevanın Azərbaycan muğamlarının öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti onun mənəvi dəyərlərə bağlılığının və yüksək vətənpərvərliyinin bariz göstəricisidir. "Qarabağ xanəndələri" adlı nəfis albomun buraxılması da fondun ötənilki uğurları sırasında özünəməxsus yer tutur. Əslində, bütün Azərbaycana məxsus muğamlarımızın toplandığı alboma ad kimi niyə məhz "Qarabağ xanəndələri" ideoniminin seçilməsinin arxasında dayanan incə siyasi məqamı sezməmək mümkün deyildir. YUNESKO xətti ilə hazırlanmış alboma "Qarabağ xanəndələri" adının seçilməsi ilə bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğu, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi sayıldığı nümayiş etdirilmişdir. Mehriban Əliyevanın rəhbərliyi altında "Qarabağ" kitabının çapa hazırlanması Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsi və təbliği baxımından son dərəcə böyük əhəmiyyət daşıyır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun bütün əsərlərinin yenidən çap olunması ilə yanaşı, onların CD və DVD-də buraxılması layihəsinin həyata keçirilməsi, "Qarabağ xanəndələri" albomunun ardınca yeni muğam layihələri üzərində işlərin davam etdirilməsi, Azərbaycan, ümumilikdə ümumtürk

musiqi sənətinin əhəmiyyətinə görə muğamdan əsla geri qalmayan başqa bir qolu, aşıq sənətinə də diqqətin artırılması, bu sənətin YUNESKO-nun qeyri-maddi irs siyahısına salınması yönündə ortaya qoyulan səylər də YUNESKO ilə əməkdaşlıq çevrəsində görülən işlərin bir hissəsi kimi nəzərdən keçirilə bilər. YUNESKO-nun baş katibinin iştirakı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyulmuşdur. Qısa müddətdən sonra bu mənəviyyat məbədinin qapıları bütün muğamsevərlərin üzünə açılacaqdır. Mehriban xanım Əliyevanın rəhbəri olduğu Azərbaycan Mədəniyyətinin Dostları Fondu dünyanın bu mötəbər mədəniyyət qurumu ilə əməkdaşlıq çərçivəsində ölkəmizdəki tarixi abidələrin qorunması üçün həyata keçirilən tədbirlərdə də fəal iştirak edir. Gəncə şəhərində Cavadxan türbəsinin, Comərd Qəssab məqbərəsinin, Bakının Şüvəlan qəsəbəsində yerləşən Pirhəsən ziyarətgahının bərpası, Abdulla Şaiqin ev-muzeyinin təmiri buna parlaq nümunədir. YUNESKO-nun xoşməramlı səfiri Azərbaycanın tanınmış oğul və qızlarının adı ilə bağlı tarixi abidələrin bərpasını yalnız keçmişə hörmət və tarixi həqiqətin bərpası kimi deyil, eyni zamanda, gənc nəsli milli-vətənpərvərlik ruhunda tərbiyə etməyin əsas elementi, azərbaycançılıq ideologiyasının inkişafı kimi qiymətləndirir: “Biz ölkənin maraq dairəsində baş verən hadisələri diqqətlə izləyir və yaranan problemlərin həlli üçün bütün səyləri göstəririk. Mən Azərbaycanın tanınmış oğul və qızlarının adı ilə bağlı tarixi abidələrin bərpasını yalnız keçmişə hörmət və tarixi həqiqətin bərpası kimi deyil, eyni zamanda,

gənc nəsli milli-vətənpərvərlik ruhunda tərbiyə etməyin əsas elementi, Heydər Əliyevin azərbaycançılıq ideologiyasının inkişafı kimi qiymətləndirirəm”.

Mehriban xanım Əliyevanın Bakıda “Qafqaz xalq ənənələri evi”nin yaradılması ilə bağlı YUNESKO qarşısında irəli sürdüyü təşəbbüsü də olduqca təqdirəlayiqdir. Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması, təbliği baxımından böyük faydalar vəd edir. Bu təşəbbüs, eyni zamanda, həm də böyük siyasi əhəmiyyətə malikdir. “Qafqaz xalq ənənələri evi”nin yaradılması Avropa Birliyinin təşəbbüsü ilə Qafqaz regionunda həyata keçirilən “Yeni Qonşuluq Siyasəti”nin icrasına müəyyən töhfə verməklə bərabər, həm də zaman-zaman Azərbaycanın mədəniyyət incilərini oğurlayıb öz adlarına çıxaran ermənilərin mənfur hərəkətlərinin qarşısını alacaqdır. Geostrateji mövqeyinə görə Azərbaycan iki dünyagörüşünün, iki həyat tərzinin, iki mədəniyyətin qovuşduğu məkanda yerləşmişdir. Belə bir məkanda yaşayan insanlar bu təmasın təkcə coğrafi deyil, həm də mənəvi təzahürünü, Qərb və Şərq mədəniyyətinin dialoqunu gündəlik həyatımızda hiss etməkdədirlər. Maraqlı cəhət burasındadır ki, dünyanın ən müxtəlif qütblərində siyasi qarşıdurmalara çevrilən bu dialoq Azərbaycan mədəniyyətində hər hansı çatışmazlıqlara səbəb olmamış, əksinə, bu məmləkətdə bənzərsiz bir mədəni mühit formalaşdırmışdır. Çünki əsrlərdən üzü bəri yol gələn, zaman-zaman saf çeşmə kimi daha da durulan, cilalanan zəngin Azərbaycan mədəniyyəti bütün kənar müdaxilələrə sinə gərmək gücündədir.

Azərbaycan malik olduğu mədəni potensialla bu dialoqda öz sözünü deyir və mövqeyini sübuta yetirir. Azərbaycanın qədim ənənələrini, tarixi İpək yolunun regiondakı rolunu nəzərə alan Latın Mədəniyyəti Akademiyasının 2006-cı il aprelin 19-da Bakıda keçirilmiş sayca XIII konfransının gedişi bu reallığı bir daha təsdiqləmiş, respublikamızın sivilizasiyalararası dialoqun mərkəzinə çevrildiyini nümayiş etdirmişdir. 30-dan artıq latın mənşəli görkəmli mədəniyyət və ədəbiyyat xadiminin iştirakı ilə Heydər Əliyev Fondunda keçirilən konfransda çıxış edən YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva demişdir: "Bu gün biz sivilizasiyalararası dialoqun keçmişindən söhbət açaraq xüsusi vurğulamalıyıq ki, qədim və çox zəngin Yunan-Roma sivilizasiyasının ilk varisi məhz Şərq olubdur. Müsəlman renessansı kimi tarixə düşən bu dövrdə müsəlman ölkələrində ən mütərəqqi, ən qabaqcıl ideyalar yaradılıb, inkişaf etdirilibdir. Şərq alimlərinin və filosoflarının əsərləri ilə zənginləşən bu irs orta əsrlərdə yenidən Avropaya qaytarılıbdır. Bütün Şərqin, müsəlman aləminin bu irsin qorunmasındakı rolu əvəzsizdir. 2006-cı ildə konfransın məhz Bakı şəhərində keçirilməsini ölkəmizin mədə-niyyətlərarası dialoq səviyyəsində çox müsbət təcrübə toplaması ilə əlaqələndiririk. Həqiqətən də, əsrlər boyu Böyük İpək yolu üstündə yerləşən ölkəmiz çox yüksək tolerantlığa malik və müxtəlif mədəniyyətləri birləşdirən bir məkan kimi tanınır. Bu bizim qürur duyduğumuz uğurumuz, keçmişimizdir və inanıram ki, gələcəkdə də bu sahədə Azərbaycan öz müsbət rolunu

oynayacaqdır”. Mehriban xanım Əliyevanın həyata keçirdiyi böyük missiya həm də Azərbaycanda qadın hüquqlarının yüksək səviyyədə təmin edilməsinə sübut və bütün xanımlarımız üçün örnəkdir. Onun fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır. Azərbaycanın birinci xanımı fədakarlığı, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlılığı ilə qadınlarımızın haqq işinin önündə gedir və ən böyük mükafat olan ümumxalq sevgisinə layiq olduğunu sübuta yetirir. Ən başlıcası isə etiraf olunmalıdır ki, Mehriban xanım Əliyevanın bu gün həyata keçirdiyi şərəfli missiya çox zəngin və olduqca mənalı ömürləri özündə ehtiva edir. Bu missiya Azərbaycandakı bütöv bir jurnalist nəslinin ustadı olan Nəsir İmanquliyevin, ədəbiyyat tariximizdəki ən uca zirvələrdən birini fəth etmiş böyük yazıçı və pedaqoq Mir Cəlal Paşayevin adı ilə başlayıb, dəyərli alimlərimiz akademik Arif Paşayevlə mərhum professor Aida xanım İmanquliyevanın ocağında verilən tərbiyə, ümummilli lider Heydər Əliyevdən, Zərifə xanımdan əxz edilən həyat dərsi ilə bu təfəkkürə, ruha qovuşub. Bu mənada Mehriban xanım Əliyevanın üzərinə götürdüyü missiya daşıdığı ictimai statusdan daha çox yəqin ki, genetik yaddaşın diktəsidir.

# NƏTİCƏ

Ötən 15 ilin reallıqları qəti şəkildə təsdiqləmişdir ki, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının müəyyənləşdirdiyi siyasi xəttin düzgünlüyünə bir daha əmindir və bu siyasətə fəal dəstəyini heç zaman əsirgəmir.

YAP-ın təşkilati və ideoloji baxımdan formalaşması, öz fəaliyyətini sivil dəyərlərə uyğun qurması, zaman-zaman yeniləşməsi, təşkilat daxilindəki monolitliyin, sağlam atmosferin qorunması, bu quruma əqidəli insanların gəlişini ulu öndər daim diqqət mərkəzində saxlayırdı. Partiyada gənclərə qayğı, bu təşkilatda təmsil olunan qadınların ictimai-siyasi proseslərdə aktiv iştirakına şərait yaradılması, siyasi tələbkarlıq, fəallıq, prinsipiallıq, ölkəmizdə gedən proseslərə vətəndaşlıq mövqeyindən çevik reaksiya verilməsi ulu öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının qurultaylarında, yubiley tədbirlərində partiya nümayəndələri qarşısında qoyduğu ən əsas vəzifələrdən idi.

Etiraf etməliyik ki, YAP Sədri, möhtərəm Prezidentimiz İlham Əliyev də bu gün həmin siyasətə sadiqdir. Məhz cənab İlham Əliyevin qətiyyəti sayəsində Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha

da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir.

O da etiraf edilməlidir ki, YAP-ın siyasətinin ən mühüm tərkib hissələrindən biri də Azərbaycanda vətəndaş cəmiyyəti institutunu möhkəmlətmək, siyasi plüralizm, demokratikləşmə prosesini dərinləşdirmək və bu yöndə Qərbə inteqrasiya, Avropa Şurası ilə əməkdaşlıq xəttini davam etdirməkdən ibarətdir. Bu sahədə qazanılan uğurlar, Prezident İlham Əliyevin yeritdiyi siyasi xətt beynəlxalq birlik tərəfindən təqdir olunur, dünyanın aparıcı siyasi mərkəzləri, institutları tərəfindən müsbət qiymətləndirilir. YAP milli birliyin möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı faktoruna çevrilməsi istiqamətində mühüm işlər görür. Bütün bu işlər isə YAP-ın Azərbaycan cəmiyyətindəki mövqeyini möhkəmləndirir, xalqın bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini artırır.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi: "Yeni Azərbaycan Partiyası güclü təşkilatdır və Azərbaycanın ictimai-siyasi həyatında müstəsna rola malikdir. Heç bir siyasi qüvvə Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq iqtidarında deyil. Bu partiyaya mənim də münasibətim eynidir. Mən də öz siyasi fəaliyyətimi partiyasız təsəvvür etmirəm. Əminəm ki, biz hamımız birlikdə həm partiyamızı daha da gücləndirəcəyik, həm də ölkəmizi daha da inkişaf etdirəcəyik. Azərbaycan müasirləşəcək, güclənəcək, çox zəngin, qüdrətli dövlətə çevriləcəkdir".

Bu gün bütün səviyyələrdə o da etiraf olunur ki, 26 mart 2005-ci il tarixdə təşkilatın üçüncü qurultayında cənab İlham Əliyevin yekdilliklə partiyanın Sədri seçilməsi Yeni Azərbaycan Partiyasının tarixində gerçəkdən yeni səhifə açıb. Bu faktın özü də tarixdə adı ümummilli liderimiz Heydər Əliyevin adı ilə simvollaşan Yeni Azərbaycan Partiyasının xalqın partiyası olduğunu göstərir.

Son on beş ildə Azərbaycan dövlətinin nail olduğu ən böyük uğurların carçısına çevrilən Yeni Azərbaycan Partiyasının yaranmasından 15 il ötür. Həmin tarixi vərəqlədikcə, bir daha aydın olur ki, Yeni Azərbaycan Partiyası milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanır, ümummilli lider Heydər Əliyev siyasi irsinə söykənir.

Şübhəsiz ki, Heydər Əliyev yolunun sadiq davamçıları bundan sonra da xalqa və dövlətə ləyaqətlə xidmət edəcəklər.

# MÜNDƏRİCAT

**XALQ VƏ DÖVLƏT NAMİNƏ.................................2**

Oxuculara ..........................................................................4

Müdriklik zirvəsi ..................................................................8

Dahi xilaskar .......................................................................22

Əbədi qurtuluş yolu ............................................................48

Tanrı göndərişli bir arayış ...................................................56

Böyük Azərbaycan sevgisi ..................................................60

Heydər Əliyev parlaq zəkası və natiqlik istedadı ilə
Azərbaycan dilini çoxlarına təzədən sevdirmişdir ...........69

Müstəqil Azərbaycanda dövlət quruculuğu və dil siyasəti............77

Heydər Əliyev məktəbi mənim üçün yeganə və son dərəcə
zəngin bir mənbədir ..........................................................85

Azərbaycan respublikasının prezidenti, zati-aliləri
Heydər Əliyevə ..................................................................88

Bu bayram Azərbaycan xalqının tarixində misilsiz
hadisədir ............................................................................90

İllərin təntənəsi ..................................................................93

Heydər Əliyev: Azərbaycan televiziyası və radiosu..................96

Avropa ailəsində ..............................................................123

Varislik fəxr edilməli xüsusiyyətdir, utanılası yox ...................139

Xalqın inandığı lider haqqında düşüncələrim ............................ 142
Daha böyük nailiyyətlərə təminat yaradan uğurlu fəaliyyət....... 167
Ssenarilər ......................................................................................... 183
Xilaskar (I film) .............................................................................. 184
Xilaskar (II film)............................................................................. 209
Akademik Zərifə Əliyeva .............................................................. 236
Vaşinqton görüşləri (I film) .......................................................... 245
Vaşinqton görüşləri (II film)......................................................... 298
Sabaha inamla (III film)................................................................. 336

**YAP – DÜNƏNİN, BU GÜNÜN, SABAHIN PARTİYASIDIR ................................................................ 373**

Yeni Azərbaycan partiyası xalqın partiyasıdır (Əli Əhmədov) .......................................................................... 375
Giriş.................................................................................................. 380
Milli qurtuluşa aparan yol ............................................................ 385
Naxçıvandan başlanan zəfər yürüşü ........................................... 400
YAP milli dövlət quruculuğunun keşiyində.............................. 413
YAP siyasi varisliyin leytmotivi statusunda ............................. 436
YAP demokratik inkişafın qarantıdır ........................................ 469
YAP Azərbaycanın yeni inkişaf mərhələsinin hərəkətverici qüvvəsidir...................................................................................... 502
Heydər Əliyev irsinin keşiyində................................................... 621
Nəticə.............................................................................................. 644

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

| | |
|---|---|
| Dizayn: | ***Zahid Məmmədov*** |
| Texniki redaktor: | ***Rövşanə Nizamiqızı*** |

Yığılmağa verilmiş **14.05.2013**
Çapa imzalanmış **22.04.2014**
Şərti çap vərəqi **41.** Sifariş № **79**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** ***nurlan1959@gmail.com***
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.